Qlobal Jurnalistlər Şurasının sədri Mehmet Ali Dim Azərbaycan-Türkiyə Birgə Media Platforması sənədinin imzalanmasını belə qiymətləndirib: "1 millət, 1 KİV, 6 dövlət" məfkurəsi ilə 300 milyona yaxın türk dünyası mediası eyni ruh, əməkdaşlıq və güc birliyi şəklində fəaliyyət göstərməlidir" (8).

Azərbaycan-Türkiyə Birgə Media Platformasının reallaşması, Cənubi Qafqazda Azərbaycan və Türkiyənin informasiya siyasəti sahəsində təsir gücünü artıracaq və yeni texnoloji imkanlara malik olan ortaq müasir, operativ medianın yaranmasına gətirib çıxaracaq. Sonradan digər türk dövlətləri də bu platformaya qoşula bilərlər. Türk Dövlətləri Birliyinin KİV sahəsində ortaq platformaya malik olması, müasir informasiya cəmiyyətinin inkişafı sistemində onların özünəməxsus yer tutmasına imkan verəcək. Yeni yaranan ortaq media qurumları öz maddi-texniki və kadr potensialına görə qlobal media qurumları ilə rəqabətə girməyi bacaran böyük media qurumlarına çevrilə bilərlər. Bu isə, Azərbaycan və Türkiyənin qlobal informasiya məkanında özünəməxsus yer tutmasına, dünya informasiya məkanına təsir etmək imkanlarına malik olmasına və müasir tələblərə uyğun peşəkar jurnalist kadrlarının yetişməsinə imkan verəcəkdir. İlk növbədə, Azərbaycan bu əməkdaşlıqdan Türkiyədən çox şey öyrənəcək və çoxlu qazanc əldə edə biləcək (7).

Azərbaycan-Türkiyə Birgə Media Platformasının yaradılması, ortaq sosial-mədəni dəyərlərin inkişafına və sürətlə inteqrasiyasına şərait yaradacaqdır. Türkiyə mediası Azərbaycan mediası vasitəsilə rusdilli Avrasiya məkanına çıxış əldə edəcəkdir. Bu platforma Orta Asiyada genişlənərsə Azərbaycan bir sosial-mədəni fenomen kimi ortaq dəyərlərin təmsilçisinə çevriləcəkdir. Çünki Azərbaycan bir tərəfdən Türkiyəyə, bir tərəfdən İrana, digər tərəfdən də Orta Asiya və Rusiya türklərinə yaxındır. Azərbaycan türk dünyasında ortaq dil amilinin formalaşmasında ciddi təsirə malik ola bilər. Bu baxımdan, ortaq platformanın inkişaf etdirilməsi Azərbaycanın sosial-mədəni maraqlarına uyğundur. Bu, həm Azərbaycan dilinin, milli mətbuat dilinin inkişafına, həm də sosial-mədəni məhdudiyyətlərdən qurtularaq daha geniş sosiomədəni bir coğrafiya üzərində məfkurə sahibi olmağa şərait yaradacaqdır.

Azərbaycan-Türkiyə Birgə Media Platformasının yaradılması, həm Türkiyənin, həm də Azərbaycanın regional sosiomədəni məkanda informasiya təsirlərini artıracaqdır. Azərbaycan TRT platformasında olan media quruluşları vasitəsilə geniş informasiya məkanı qazanacaqdır. Azərbaycan və Türkiyə ziyalılarının hər iki dövlətin KİV-lərində paralel şəkildə iştirakı, elm-təhsil infrastrukturunun da inteqrasiyasına şərait yaradacaqdır. Media biznesi üçün böyük bir bazar yaranacaq və hər iki medianın maddi-texniki bazasının inkişafına və kadr potensialının keyfiyyətcə güclənməsinə təsir edəcəkdir [9, 23]. Azərbaycan-Türkiyə Birgə Media Platformasının yaradılmasının ilkin töhfələri artıq özünü göstərir. Müvafiq qanunun təsdiqindən sonra Türkiyənin "Albayrak Media Group" və Azər-

baycanın Trend İnformasiya Agentliyi tərəfindən birgə yaradılan turkic.world (Türk Dünyası) adlı ilk rəqəmsal layihə ortaya çıxdı.

Türkiyədə və Azərbaycanda hakimiyyət strukturlarında xarici ölkələrin maraqlarını təmsil edən gizli qruplar mövcuddur. Fox TV-də Fatih Portakalın Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunmasına qərəzli mövqe bildirməsi Azərbaycanda böyük əks-səda oyandırdı. Azərbaycan KİV-lərində jurnalistin bu mövqeyinin qərəzli olduğu, Türkiyə-Azərbaycan əlaqələrinə zərər verdiyi şəklində xəbərlər yayıldı. Ölkədəki bəzi QHT-lər və millət vəkilləri buna tənqidi münasibət bildirdilər. Bununla bağlı olaraq 22 fevral 2020-ci ildə Azərbaycanda Fox TV-nin yayımı dayandırıldı.

FOX - "News Corporation" adlı şirkətin tabeliyində olan, Türkiyədə yayımlanan televiziya kanalıdır. News Corporation (ya da News Corp) dünyanın ən böyük media qruplarından biridir. Dünyanın ən zənginləri siyahısında iştirak edən Rupert Murdoch, 2011-ci ildə sahibi olduğu News of the World'un yol açtğı "telequlaq skandalı" üzündən İngiltərə parlamentində ifadə vermək məcburiyyətində qalmış və uzun müddət İngiltərə gündəminin ilk sıralarını məşğul etmişdi. Skandaldan sonra 168 illik qəzeti bağlayan Avstraliyalı media müdiri, News Corporation şirkətinin İngiltərədəki ayağı olan News Internationalın idarəçiliyindən də istefa vermişdi. Türkiyənin Fox TV şirkəti də buna öz etirazını bildirmişdir.

"Telequlaq skandalı" ilə Fetullah Gülənçilərin adının hallanması, hətta Azərbaycanın sabiq Milli təhlükəsizlik naziri Eldar Mahmudov əməliyyatlarında müşahidə olunması, bunlar arasında müəyyən əlaqələrin olduğunu göstərir. Rupert Murdoch'ın Fətullah Gülənlə əlaqəsi barədə Türkiyə KİV-də bir çox xəbərlər yayılıb. Əvvəllər Fetonun kanalında (Samanyolu TV) gedən qalmaqallı "Sungurlar" filminin (İslam dininə zidd olan məqamları ilə) Murdoch-un kanalı FOX TV-yə satdığı məlum olmuşdur.

Göründüyü kimi, Azərbaycan-Türkiyə yaxınlaşmasını hədəf alan media quruluşlarının arxasında, bu birliyi istəməyən güclər dayanır. Onlar, bu birliyi pozmaq üçün, öz media quruluşları və ya orada yerləşdirdikləri jurnalistlər vasitsilə təxribatlar törədirlər. Bəzən də bu fəaliyyətləri sosial şəbəkələr üzərindən kimliyi bəlli olan və yaxud olmayan, başqa adla desək trollar vasitəsilə, dezinformasiya yaymaqla gerçəkləşdirirlər.

"Kiber məkanda troll, bəzən qalmaqal yaradacaq, bəzən kiməsə sataşmaq niyyəti olan təxribat və dezinformasiya xarakterli şərh, yaxud məlumat, ya da bunları yayan, əsl kimliyini açıqlamayan anonim internet istifadəçisidir. Təkcə insanlar deyil, manipulyativ xarakterli şərh və paylaşımlar da "troll" adlandırılır. Bir vacib məqam da insanların yaxud paylaşımların "troll" ola bilməsi üçün təxribatçılıq qəsdən və bilərək həyata keçirilmiş olmalıdır. Son illərdə elmi araşdırmalara da mövzu olan trollun məqsədinə görə aşağıdakı növlərinin olduğu qeyd olunur: 1.Əyləncə. 2.Manipulyasiya. 3.Sensasiya yaratmaq. 4. Süni gündəm yaratmaq. 5.Dini, siyasi yaxud ideoloji dəyərlərə hörmətsizlik. 6.Sosial araşdırma aparmaq və s. [11,140]

***Nəticə.*** Yuxarıda qeyd olunanlar onu göstərir ki, Azərbaycan-Türkiyə Media Platformasının inkişafına gizli güclər mane olmağa çalışacaqlar. Deməli, birgə əməkdaşlığın bütün formalarında olduğu kimi, KİV sahəsində də olan əməkdaşlıq da ilk növbədə hər iki ölkənin kəşfiyyat orqanlarının sıx əməkdaşlığından keçir.

10 aprel 2021-ci ildə Bakıda Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstanın iştirakı ilə Türk Ölkələrinin Əməkdaşlıq Şurasının (Türk Şurası) KİV və informasiya məsələləri üzrə nazirlərinin, rəhbərlərinin iclası keçirilib. Görüş Türk Şurasının baş katibi Bağdad Amreyevin rəhbərliyi ilə keçirilib. Türkiyə nümayəndə heyətinə rəhbərlik edən Fahrettin Altun görüşdə FETÖ terror təşkilatının təhlükəsini qeyd edib və Türk KİV-lərini öz qüvvələrini birləşdirməyə çağırıb. Fahrettin Altun FETÖ terror təşkilatını türk dünyasının digər hissələrinə ötürülən virus olduğunu bildirib: "Biz vətəndaşlarımızın qarşılaşdığı problemləri heç bir soydaşımızın yaşamasını istəmirik. Buna görə də, biz bu təşkilatın dezinformasiya kampaniyalarına və xarici xidmətlər adından türk dövlətlərinə sızma cəhdləri ilə bağlı sayıq davranmağın zəruriliyini aydın şəkildə ifadə edirik" (1).

Qarşılıqlı əlaqələrdə və bu cür toplantılarda türk dünyasının qarşısında duran əsas problemlərdən olan dezinformasiya, kütləvi informasiya vasitələrinin və jurnalistlərin onunla mübarizədə potensialının artırılmasının, cəmiyyətin bütün təbəqələrində media savadlılığının yayılmasının ən səmərəli vasitə ol-

ması gündəmə gətirilməlidir. Təsis olunmuş Türkiyə-Azərbaycan Media Platformasının sıralarını Türk Şurasının üzvü olan dövlətlərin media qurumları ilə daha da genişləndirmək lazımdır. Birlikdə yeni dövrün imkanlarından istifadə etmək, media və informasiya sahəsində qüvvələri birləşdirərək təhdidlərlə qarşı mübarizə aparmaq lazımdır. II Qarabağ müharibəsində Türkiyə ilə Azərbaycanın göstərdiyi həmrəylik və əməkdaşlıq irəli sürülən bu tezisin doğru olduğunu bütün dünyaya göstərdi.

ƏDƏBİYYAT

1. Ayyıldız Huri Kaptan. Türk Dünyası medya uzmanları Bakü'de bir araya geldi. [Electronic resource] / 10 Nisan 2021, Kırım haber Ajansı - URL: https://qha.com.tr/haberler/politika/turk-dunyasi-medya-uzmanlari-baku-de-bir-araya-geldi/315489/ [10.09.2023].
2. Azərbaycanla Türkiyə arasında media sahəsində strateji əməkdaşlığa dair sənəd təsdiqlənib. [Electronic resource] / APA - 18 fevral 2021 - URL: https://apa.az/az/xeber/media-xeberler/Azrbaycanla-Turkiy-arasinda-media-sahsind-strateji-mkdasliga-dair-snd-tsdiqlnib-629943 [10.09.2023].
3. Azərbaycanın reklam bazarında hələ də FETO-çular at oynadır! - Əli Həsənovun himayə etdiyi deyilir. [Electronic resource] / Teref.az 05.02.2020. - URL: https://teref.az/manset/141567-azerbaycanin-reklam-bazarinda-hele-de-feto-cular-at-oynadir-eli-hesenovun-himaye-etdiyi-deyilir.html [10.09.2023].
4. "Azərbaycanda mətbuatşünaslıq (1900-2000)". Qərənfil Dünyaminqızı. Bakı: Ləman nəşriyyat poliqrafiya, 2018, 264 s.
5. Babaoğlu H. İnfoimperializm və media. Bakı: MSA. 2013. 192 s.
6. Əli Həsənovun FETO ilə ortaqlığı ortaya cıxdı – FOTOFAKT [Electronic resource] / Pia.az 15 Yanvar 2020 - URL: https://aqreqator.az/az/siyaset/509451 [10.09.2023].
7. İlqarqızı, F. Türkiyə ilə media məkanında strateji əməkdaşlıq - Gələcək nə vəd edir? - [Electronic resource] / Modern.az - 07.09.2020. URL: https://modern.az/az/news/269519/turkiye-ile-media-mekaninda-strateji-emekdasliq-gelecek-ne-ved-edir- [10.09.2023].
8. KGK'dan Türkiye-Azerbaycan ortak Medya Platformu'na övgü. [Electronic resource] / 5 Ocak günlük siyasi gazete 04.02.2021. URL: https://www.5ocakgazetesi.com/kgk-dan-turkiye-azerbaycan-ortak-medya-platformu-na-ovgu-28329?fbclid=IwAR1fd4YpPgxp0L6 UNRwXiCBYPpEbwmjzkr2 XDzonlrj5F4yZX9Hl4xO1Itc [10.09.2023].
9. Liftiyeva, N. İki qardaş ölkənin mediasını birləşdirən sənəd: media kapitanları memorandumu dəstəklədi – gözləntilər. / [Elektron resurs] / "Yeni Müsavat" 12.12.2020 - URL: https://musavat.com/news/iki-qardas-olkenin-mediasini-birlesdiren-sened-media-kapitanlari-memorandumu-destekledi-gozlentiler_761814.html [10.09.2023].
10. Мартиросян, С. Некоторые вопросы информационной безопасности Республики Армения. [Electronic resource] / «21-й век», №2 (6), 2007. с. 26-43. URL: http://www.psu.edu/ur/2003/websiteappeal.html [10.09.2023].
11. Mütəllim Rəhimli. Yeni medianın əsasları. Bakı, Maarif nəşriyyatı, 2022, 168 s.
12. Natiq Səlim. FETO-çu Faruk Taban: "Əli Həsənov ən yaxın adamımız olub" - Sensasion təfərrüatlar. [Electronic resource] / Konkret.az 15 Sentyabr, 2020. - URL: https://konkret.az/fote-cu-faruk-taban-eli-hesenov-en-yaxin-adamimiz-olub-sensasion-teferruatlar/ [10.09.2023].
13. Türkiye ve Azerbaycan'dan medya alanında önemli anlaşma. [Electronic resource] / 09 Aralık 2020 - URL: https://www.yenisafak.com/gundem/turkiye-ve-azerbaycandan-medya-alaninda-onemli-anlasma-3588783 [10.09.2023].

**МУБАРИЗ ГОЮШЛУ**
*Центральная научная библиотека НАНА,*
*Преподаватель кафедры международной журналистики и информационной политики Бакинского Государственного Университета*

## МЕДИА ПЛАТФОРМА АЗЕРБАЙДЖАН-ТУРЦИЯ МОЖЕТ СЫГРАТЬ ВАЖНУЮ РОЛЬ В ИНТЕГРАЦИИ ТУРЕЦКОГО МИРА

В статье упомянута о роли развития отношений будь в политической, будь в экономической, будь в военной, будь то и в других сферах между Азербайджаном и Турцией способ-

ствующая в еще большем укреплении отношений между двумя братскими странами. Говорится что единство в области медиа на данном этапе нюанс нужный нам в наивысшей степени. Потому что ложная пропаганда международных медиа корпораций, а также подвластных им некоторых организаций, государств и индивидуумов как по отношении Азербайджана, так и по отношении Турции расчитана на настраивание общественного мнения против нас. В статье упомянута что и в особенности во время Второй Карабахской войны в борьбе с армянской пропагандистской машиной наибольшая поддержка Азербайджану было оказано со стороны медиа и журналистов братской Турции. В это чувствительное время совместная деятельность Азербайджана и Турции сильно помогло нам в сохранении преимущество в информационной войне. В статье призывается к созданию совместной платформы и с ее помощью добиться преимущество в информационной войне в целях реализации в системной и продолжительной форме в особенности пропагандистских процессов. Проанализированы сделанные работы, старания в направлении создания совместной медиа платформы Азербайджана и Турции представителей учреждений ответственных за медиа обеих государств. Подчеркнуто что создания такой платформы сильно поможет в предотвращении опасности появляющуюся в глобальной информационной войне, увеличении совместных стараний в области медиа, распространении правдивой информации обеих стран на международной арене. Это совместная платформа сыграет особую роль в интеграции обеих стран и в тоже время тюркского мира.

*Ключевые слова*: Азербайджан, Турция, медиаплатформа, тюркский мир, журналистика.

**MUBARIZ GOYUŞLU**
*ANAS Central Scientific Library,*
*Baku State University*
*International journalism and information policy department teacher*

**AZERBAIJAN-TURKEY MEDIA PLATFORM CAN PLAY AN IMPORTANT ROLE IN THE INTEGRATION OF THE TURKIC WORLD**

It is mentioned in the article that development of relations both political and economic, military and other spheres between Azerbaijan and Türkiye deepens both brotherly countries relations even more. It is noted that unity in the field of media is extremely vital nuance for nowadays. Because false propaganda of international media corporations and their puppet organizations, states and individuals against both Azerbaijan and Türkiye is directed to tune public opinion against us. It is reflected in article that especially during Second Karabakh War main support to Azerbaijan in battling armenian propaganda machine came from brotherly Türkiye. During these fragile times joint work of Azerbaijan and Türkiye supported us greatly to keep superiority in information war. It is said in article that for the fulfillment mainly propaganda processes joint platform should be created and by its' means superiority should be achieved in information war. Work and job that is already done by representatives of entities that are responsible for media of both countries in creation of joint Azerbaijan-Türkiye Media were analyzed. It is noted that creation of such platform will greatly support in preventing dangers that will arise in information war, in increasing joint work in media, spreading tune information of both countries in international arena. This joint platform will play a crucial role in integration of both countries and at the same time of Turkic world.

*Keywords*: Azerbaijan, Turkey, media platform, Turkic world, journalism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.*

TÜRKİYƏ CÜMHURİYYƏTİ - 100



UOT 94; UOT 94(479.24)

**GÜNEL YUSİBOVA**
*Gəncə Dövlət Universiteti*
*"Sosial fənlər" kafedrasının dissertantı*
**forget379@gmail.com**

# AZƏRBAYCAN-TÜRKİYƏ HƏRBİ MÜNASİBƏTLƏRİNİN İLKİN HÜQUQİ BAZASININ TƏHLİLİ

*Azərbaycan-Türkiyə münasibətləri müasir dövrdə bütün istiqamətlər üzrə inkişafının ən sürətli mərhələsini yaşayır. İki dövlət arasında hərbi-siyasi münasibətlər üçün də həmin fikri qeyd etmək olar. Torpaqlarının iyirmi faizinin işğal edilməsi reallığı və müstəqilliyini qorumaq ehtiyacı Azərbaycan Respublikasını ən etibarlı dövlət kimi həmişə Türkiyəyə arxalanmağa və xarici əlaqələrinin bütün sahələri üzrə, o cümlədən hərbi sahədə əsas tərəfdaş kimi əməkdaşlıq etməyə vadar etmişdir. Məhz bu münasibətlər, 44 günlük müharibə zamanı işğal altındakı torpaqların azad edilməsində həlledici rol oynamışdır. Münasibətlərin bu qədər səmimi olduğu iki dövlətə dünyada çox az rastlanmasına baxmayaraq, tərəflər arasında münasibətlər beynəlxalq hüquq çərçivəsindən kənara çıxmamışdır. Hərbi münasibətlərin bütün istiqamətləri üzrə əməkdaşlıq, Azərbaycanın müstəqilliyini əldə etdiyi gündən başlayaraq ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrə əsaslanmışdır. Bu məqalədə Azərbaycan-Türkiyə hərbi əlaqələrinin əsasını təşkil edən beynəlxalq hüquqi sənədlər və bu sənədlərdən irəli gələn konkret addımlar tədqiq edilmişdir.*

*Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada 1990-cı illərdə Azərbaycan ilə Türkiyə respublikaları arasında imzalanmış və hərbi münasibətləri tənzimləyən sənədlər tədqiq edilmişdir.*

*Tədqiqatın gəldiyi nəticəsi ondan ibarətdir ki, iki dövlət arasından hərbi münasibətlərin inkişafına hüquqi əsas hazırlamaq üçün, həmçinin dövrün tələblərinə uyğun həm müdafiə məqsədli təlimlərin keçirilməsi, həm də silah-sursat və hərbi ləvazimatların təmin edilməsinə imkan verən müqavilələr imzalanmış, hərbi münasibətlərin şaxələnməsinə uyğun olaraq hüquqi-normativ baza getdikcə təkmilləşdirilmişdir.*

*Açar sözlər:* Azərbaycan-Türkiyə hərbi-siyasi əlaqələri, beynəlxalq hüquq normaları, beynəlxalq müqavilə.

***Giriş***. Azərbaycanın öz müstəqilliyini qorumaq zərurəti, həmçinin dövlətimizin ərazi bütövlüyünə qarşı bədnam qonşularımızın təcavüzü, onu fəal xarici siyasət aparmağa məcbur etmişdir. Azərbaycan aktiv şəkildə dünya geosiyasi arenasına qədəm qoymuş, həm qonşuları ilə, həm də dünyanın aparıcı güc mərkəzləri ilə hərtərəfli münasibətlər yaradaraq, özünü sülhsevər bir dövlət, eyni zamanda etibarlı tərəfdaş kimi tanıtmışdır.

Azərbaycanın öz müstəqillini yenidən əldə etməsinin üzərindən keçən otuz iki illik müddət ərzində, gənc respublikanın, dəstəyinə ən çox ehtiyac duyduğu və dəstəyini ən çox hiss etdiyi ölkə heç şübhəsiz qardaş Türkiyə Cümhuriyyəti olmuşdur.

Türkiyə Respublikasını Azərbaycanla etnik, tarixi köklər və mədəni ümumilik bağlayır. Əbəs yerə Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanla Türkiyənin "bir millət və iki dövlət" olduqlarını vurğulamamışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə ilə münasibətlər daha da inkişaf etmiş, Ulu öndər H.Əliyevin və Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin uzaqgörən xarici siyasəti nəticəsində bu münasibətlər strateji hərbi-siyasi və iqtisadi partnyorluq

səviyyəsinə yüksəlmişdir. Türkiyə Azərbaycanın demək olar ki, bütün sahələrdə əsas dəstəkçisi və strateji tərəfdaşıdır.

***Hərbi əməkdaşlığın ilk on ilinə baxış***. Çanaqqala müharibəsində Azərbaycandan olan könüllülərin iştirakı, Bakının və ümumən Azərbaycanın azad edilməsində Türkiyənin dəstəyinin mühüm əhəmiyyəti, Türkiyənin İstiqlal Müharibəsi illərində Azərbaycanın maddi dəstəyi, erməni quldur dəstələrinin törətdiyi qırğınlar, Rusiya işğalı dövrlərində, iki tərəf arasında əlaqələrin mühüm hissəsini hərbi-siyasi əməkdaşlıq təşkil etmişdir [2, s.44].

Azərbaycan Türkiyə ilə həm Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) çərçivəsində, həm də ikitərəfli hərbi əlaqələr baxımından münasibətlərini formalaşdırmış və inkişaf etdirmişdir. Azərbaycanın NATO ilə əlaqələrə önəm verməsi həm də Türkiyə üçün xarici siyasət və təhlükəsizlik sahəsində diqqət etdiyi mühüm məqamlar arasında yer alır [1, s.4]. Ona görə də Türkiyə Azərbaycanın NATO ilə əlaqələrinin hər aspektdə inkişafına dəstək verir. Azərbaycan ilə NATO arasında əlaqələrin başlanğıc tarixi 1992-ci ildir. 1992-ci ildə Azərbaycan NATO-ya üzv olub. Türkiyə Azərbaycanı Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində təşkilatın "Planlaşdırma və Təhlil Prosesi" Proqramında fəal iştirak etməyə təşviq edib. NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramında iştirak edən dövlətlər qarşısında ən mühüm öhdəliyi Sülh Naminə Tərəfdaşlıq Çərçivə Sənədinin səkkizinci maddəsində öz əksini tapıb. Şimali Atlantika Müqavilənin 4-cü maddəsini xatırladan bu maddədə qeyd olunur ki, tərəfdaş dövlətlərdən hər hansı biri öz ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyinə birbaşa təhlükə hiss edərsə, NATO ilə məsləhətləşmələr apara bilər [6, s.78]. Bunun üzərinə 1994-cü il mayın 4-də Sülh Naminə Tərəfdaşlıq Proqramının Çərçivə Sənədinin imzalanması ilə Azərbaycan-NATO əməkdaşlığı yeni mərhələyə qədəm qoymuşdur. Praktik olaraq, Sülh Naminə Tərəfdaşlıq, Şimali Atlantika Şurasının əsaslandığı demokratik dəyərlərə, daha çox əməkdaşlığa və bu sahədə öhdəliklərə söykənir. Proqramın əsas məqsədi, tərəflərin istəklərini nəzərə alaraq hər bir tərəfdaş dövlətlə sabitliyi qorumaq, təhdidləri məhdudlaşdırmaq və təhlükəsizlik məsələlərində NATO və Tərəfdaş dövlətlər arasında xüsusi əməkdaşlıq əlaqələrini inkişaf etdirməkdir [1, s.2].

Məlumdur ki, 1999-cu ildə Qafqazda Cənub-Şərqi Avropa Sabitlik Paktı ideyası əsasında oxşar təkliflər irəli sürülüb. Bunlardan birincisi Ermənistanın irəli sürdüyü 3+3 (Rusiya, İran, Türkiyə və üç Cənubi Qafqaz ölkəsi) modelidir. Daha sonra Azərbaycan bu modelə dəyişiklik edərək, İranı burdan çıxarmış və ABŞ-ı əlavə edərək öz təklifini vermişdir [11, s.247-248]. Türkiyə bu məsələyə dair üçüncü bir təklif vermişdir. Dövrün prezidenti Süleyman Dəmirəl 2000-ci ilin yanvarında Gürcüstana səfər etdi. Səfər zamanı o, Azərbaycanın ATƏT çərçivəsində "Qafqaz Sabitlik Paktı" adı altında irəli sürdüyü təklifdən çox da fərqlənməyən bir modeldən danışıb, müvafiq dövlət başçılarına məktublar da göndərib. Bu dövrdə Qərbin beyin mərkəzlərindən biri dərhal bu mövzuda ətraflı hesabat dərc etdi. Yenə bir həftə sonra Rusiya Türkiyənin bu çıxışı üçün öz təşəbbüsü ilə 3+1 formulu olan "Qafqaz dördlüyü" təklifini irəli sürdü (Bundan sonra bu dördlük iyunun 1-də Minskdə zirvə toplantısı keçirdi. , 2000). Bu arada Ermənistan öz təklifini hazırlayıb və ABŞ və Aİ-ni də əlavə etməklə 3+3+2 düsturunu yenidən təklif edib [11, s.247-248].

2000-ci illərin əvvəllərində Türkiyə keçmiş sovet respublikalarına, o cümlədən Gürcüstan, Azərbaycan və Ukraynaya qarşı ümumi xarici siyasət qurmaq qərarına gəldi. Buna görə yeni xarici siyasətdə siyasi və iqtisadi sabitliyə malik, müstəqil, öz aralarında sülh və əməkdaşlıq şəraitində yaşayan, Qərb Dəyərlərini mənimsəyən ölkələrin yaşaya bilməsi və bu ölkələrin bəyan edilmiş prinsiplər çərçivəsində dəstəklənməsi önə çıxan amillərdəndir. [3, s.7]. Bu kontekstdə Türkiyə regional güc mövqeyindən istifadə edərək sözügedən ölkələrin aktiv regional əməkdaşlığında iştirak etmək, onların Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatından tutmuş İqtisadi Əməkdaşlıq Təşkilatına qədər bir çox beynəlxalq təşkilatlara üzv olmalarını dəstəkləmiş və təşviq etmişdir. Digər tərəfdən, o vaxtkı prezident İlham Əliyevin 2004-cü ilin yanvarında Fransaya rəsmi səfəri zamanı Azərbaycanın Aİ ilə sıx əlaqələr qurmaq istəməsi və Türkiyənin Aİ-yə mümkün üzvlüyünün Azərbaycana müsbət təsir göstərməsi əməkdaşlığın vacibliyini vurğulayırdı.

Yuxarıda qeyd edildiyi kimi, 1990-cı illərdən başlayaraq regional siyasət kontekstində hərbi sahədə də əməkdaşlığın aparıldığı görünür. Bu dövrdən etibarən Türkiyə Hərbi Təlim və Əməkdaşlıq müqavilələri və logistik yardımlar vasitəsilə Azərbaycana dəstəyini artırıb və artırmaqda davam edir.

Əməkdaşlıq kontekstində Azərbaycan "həyati vacib ölkə" kimi qəbul edildi və 1992-ci il avqustun 11-də Hərbi Təlim və Əməkdaşlıq Sazişləri imzalandı [8, s.102].

1996-cı il iyunun 10-da Türkiyəyə səfər edən Azərbaycanın müdafiə naziri Səfər Əbiyev və daha sonra Baş Qərargah rəisi İsmayıl Hakkı Karadayı hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq haqqında saziş imzaladılar. [9, s.102.]. Təlim çərçivəsində azərbaycanlı zabitlərin Türkiyədə təlim keçməsi və türkiyəli mütəxəssislər tərəfindən yerində təlim keçmə kimi təcrübələr də yer alıb [8, s.102.]. 1997-ci ildə sərhəd xəttində ediləcək mülki və hərbi nəqliyyat vasitələrinin uçuşunun tənzimlənməsi məqsədilə Azərbaycan ilə Türkiyə arasında protokol və strateji əməkdaşlığın genişləndirilməsi haqqında bəyannamə imzalanıb.

Türkiyədə jandarmaya uyğun qüvvələrin hazırlanması məqsədilə "Daxili Qoşunlar Ali Hərbi Məktəbi", yəni Daxili Qoşunların Ali Hərbi Məktəbi Türkiyə ilə 31.10.1997 tarixində imzalanmış protokol çərçivəsində birgə təlim fəaliyyətlərinə başlayıb [10].

1999-cu ildə Türkiyə Silahlı Qüvvələri Azərbaycanın Müdafiə Nazirliyinə maliyyə yardımı göstərməyə başlayıb. Bu maliyyə yardımı müdafiə sənayesi əməkdaşlıqlarından tutmuş texniki avadanlıqların istifadəsinə qədərdir.

2000-ci ildə Türkiyə Hərbi Dəniz Qüvvələri Komandanlığı tərəfindən Azərbaycan Müdafiə Nazirliyinə müxtəlif tipli atıcı katerlər hədiyyə edilib ki, bu da Azərbaycan donanmasının Xəzərdə güclü mövqe tutmasına şərait yaradıb.

2001-ci ildə Naxçıvanda 5-ci Ordu bölgəsinin inkişafı ilə bağlı protokol imzalanıb. 2003-cü ildə kəmərlərin təhlükəsizliyini təmin etmək üçün hərbi əməkdaşlıq sazişləri imzalanıb. Yenə bu çərçivədə Türkiyə ilə Azərbaycan arasında 2003-2008-ci illər arasında maliyyə dəstəyi, hərbi təchizat və təlim sahələrində əməkdaşlıq üçün müxtəlif protokollar imzalanıb [9, s.102-103].

Azərbaycan Hərbi Akademiyası tələbələrinin Türkiyədə təhsil almağa başlamasından sonra növbəti addım kimi Azərbaycanda Hərbi Akademiyanın yaradılmasına Türkiyə Silahlı Qüvvələrinin bilavasitə dəstəyini diqqət mərkəzində saxlamaq lazımdır. Çünki Qarabağ müharibəsinə hazırlıqsız yaxalanan və sovet dövründə hərbi təlimlərdə geridə qalan Azərbaycan Türkiyənin təcrübəsindən yararlanmaq istəyini müxtəlif yollarla göstərdi. Beləliklə, Türkiyə Azərbaycan ordusunun quru elementlərinin hazırlanmasına böyük töhfə verdi. 2001-ci il avqustun 23-də Azərbaycan Hərbi Akademiyasının ilk məzunlarının verildiyi mərasimdə Türkiyənin Baş Qərargah rəisi, ordu generalı Hüseyn Kıvrıkoğlu da iştirak edib və bu mərasim 2001-ci ildə İran-Azərbaycan böhranı əsasında yaranan İran-Azərbaycan böhranından dərhal sonra baş tutub. Bu mərasimdən bir müddət əvvəl İran döyüş təyyarələrinin Azərbaycan hava məkanını pozaraq Xəzərdə həyata keçirdiyi uçuşlardan sonra Türkiyənin "Türk Ulduzları" adlı müvəffəqiyyətli akrobatika uçuş komandasının buraxılış mərasimində çıxışı İrana cavab kimi qiymətləndirilib və hədə-qorxu kimi qiymətləndirilib. Türkiyə Silahlı Qüvvələri ilə Azərbaycan Silahlı Qüvvələri arasında 2000-ci il aprelin 5-də imzalanmış protokol çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin Tədris və Təlim Mərkəzi 2001-ci il martın 26-da açılıb. Bu mərkəz komanda heyətinə NATO standartlarında təkmil hərbi elmi təlim vermək üçün tamamlayıcı qurum kimi yaradılmışdır [10].

Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində ordusunun NATO standartlarında yenidən qurulması siyasətini həyata keçirməyə çalışan Azərbaycan 1997-ci ildən Təşkilatın Planlaşdırma və Təhlil Prosesi proqramında fəal iştirak edir. Bu proqram çərçivəsində ölkənin müdafiə sistemində əsaslı dəyişikliklər edilib, Azərbaycan Silahlı Qüvvələrinin infrastrukturunun, texniki təchizatının və müdafiə qabiliyyətinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində bir çox layihələr həyata keçirilib. 1997-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Sülh Korpusu yaradıldı. 1999-cu il oktyabrın 20-də Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Kosovo Türk Batalyonu Əməliyyat Qrupu tərkibində Kosovoya gedən Azərbaycan bölməsinin statusu haqqında saziş Azərbaycan Parlamenti tərəfindən təsdiq edildikdən sonra, Azərbaycan Sülh Korpusunun bir qrup əsgəri bu istiqamətdə öz vəzifələrini yerinə yetirməyə başlayıb [1, s.5]. NATO-nun baş katibi Lord Corc Robertson Azərbaycanın müdafiə naziri Səfər Əbiyevlə görüşündə Azərbaycan Sülhməramlı Qüvvələrinə təşəkkür edib və "Azərbaycanın Kosovodakı 40 mindən çox Sülh Korpusu əsgəri arasında xüsusi mövqeyə malik olduğunu" vurğulayıb. Aydın məsələdir ki,

Azərbaycan bölməsinin rolu o qədər önəmlidir ki, bölmənin türk batalyonunun tərkibində vəzifə götürməsi də öz təsirini göstərir.

Türkiyənin köməyi ilə Azərbaycan Ali Hərbi Məktəbi NATO standartlarına keçib. 2001-ci ilin avqustunda bu məktəb NATO standartlarına tam uyğun təlim keçmiş ilk məzunlarını yetişdirdi. Azərbaycanın o vaxtkı prezidenti Heydər Əliyev məzuniyyət mərasimində iştirak etmək üçün Azərbaycanda səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyn Kıvrıkoğlu ilə görüşmüş, çox məmnun olduğunu vurğulayaraq demişdir: "Azərbaycan ordusunun formalaşdırılması, təlimi və modernləşdirilməsində Türkiyə Silahlı Qüvvələrinin rolunu çox mühüm hesab edirik və hesab edirik ki, bu istiqamətdə səylər artırılmalıdır" [5].

Azərbaycan ordusunun gücləndirilməsi Türkiyənin hərbi təhlükəsizlik siyasətinin də mühüm tərkib hissəsidir. Bu məqsədə xidmət edəcək fəaliyyətlərin həyata keçirilməsi üçün Türkiyə NATO-nun imkanlarından Azərbaycanın yüksək səviyyədə istifadə etməsi üçün əlavə tədbirlər də təklif etmişdir. 2001-ci ildə Azərbaycanda həyata keçirilən NATO-nun "Cooperative Determination 2001" təlimi zamanı Azərbaycana gələn NATO Cənub-Şərqi Avropa Birləşmiş Qüvvələrinin komandanı general Oktar Ataman belə təlimlərin əsas məqsədinin NATO ilə Sülh Naminə Tərəfdaşlıq proqramına daxil olan ölkələrin orduları arasında birgə fəaliyyəti və əməkdaşlığı inkişaf etdirmək olduğunu qeyd etmişdir [5]. NATO çərçivəsində birgə fəaliyyət, NATO-nun Kosovodakı qüvvələri (KFOR) və Əfqanıstanda Türkiyə Sülhməramlı Qüvvələrinə tabe olan Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) ilə birgə fəaliyyət, Azərbaycan silahlı qüvvələrinin infrastruktur və sistemlərinin yenilənməsi və NATO-nun standartlarına tam keçid, Türkiyə Baş Qərargahının Azərbaycana göstərdiyi qarşılıqsız maliyyə və texniki yardım, hərbi sahədə Azərbaycan-Türkiyə əlaqələrinin hər sahədə inkişafına yaxşı nümunədir [13].

Azərbaycan-Türkiyə hərbi əlaqələrini dörd kateqoriya üzrə qiymətləndirmək olar: hərbi-siyasi, hərbi-texniki, hərbi-elmi və səhiyyə. Bu gün bu iki ölkə istər NATO-nun müəyyən proqramları, istər "Sülh Naminə Tərəfdaşlıq" proqramı, istərsə də hərbi əməkdaşlıq sazişi çərçivəsində həyata keçirilən tədbirlər vasitəsilə hərbi-siyasi əməkdaşlığı gücləndirir. Hərbi-texniki sahəyə gəlincə, Türkiyənin Azərbaycan Silahlı Qüvvələrinə müasir nəqliyyat texnikası və hərbi texnologiya yardımı diqqət çəkir. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin əhəmiyyətli bir hissəsi (Jandarma və Milli Ordu hissələrinin əhəmiyyətli hissəsi), xüsusən də Naxçıvandakı bütün Ordu Türkiyə istehsalı olan nəqliyyat sistemləri ilə təchiz olunub. Türkiyənin hərbi dəstəyi sayəsində Azərbaycan əsgərlərinin böyük əksəriyyəti müasir texniki vasitələrdən istifadə edə bilir.

Türkiyənin verdiyi hərbi yardım əsasən Azərbaycan Silahlı Qüvvələrinin NATO ilə əməkdaşlıq imkanlarının artırılmasına, Azərbaycan əsgərlərinin Türkiyədə və NATO-nun təlim mərkəzlərində xüsusi təlimlər keçməsinə yönəlib.

Türkiyəli hərbi ekspertlər Azərbaycan hərbi məktəblərində və bəzi hərbi hissələrdə təcrübələrini buradakı əsgər və tələbələrlə bölüşürlər. Azərbaycan əsgərləri və qaziləri zərurət yarandıqda Türkiyədəki hərbi səhiyyə müəssisələrindən tibbi xidmət ala bilərlər. NATO ilə uyğunlaşma proqramlarının həyata keçirilməsi həm Azərbaycan, həm də NATO üçün vacibdir. Azərbaycanın Türkiyənin təcrübəsindən yararlanması və bu uyğunlaşdırma proqramlarının həyata keçirilməsinə yardım etməsi daha əlverişlidir.

Bütün bunlar diqqətə alınaraq, Azərbaycanda həm hərbi normativ-hüquqi bazanın formalaşdırılması prosesi, hərbi nizamnamələrin qəbulu, hərbi rütbəlrin müəyyənləşdirilməsi və verilməsi kimi məsələlər, Türkiyənin hərbi sisteminə uyğun olaraq həyata keçirilmişdir [4].

***Nəticə***. Azərbaycan ilə Türkiyə arasında başlayan siyasi-iqtisadi münasibətlər, qısa müddətdə hərbi-siyasi münasibətləri də əhatə etmişdir. 1992-ci ildə tərəflər arasında ilk hərbi sənədlərin imzalanması ilə başlayan Azərbaycan-Türkiyə hərbi münasibətləri, bu gün stratejik müttəfiqlik səviyyəsinə yüksəlmişdir. İki dövlət arasında hərbi münasibətlər sahəsində demək olar ki, bu sahənin bütün istiqamətləri üzrə möhkəm əməşdaşlıq bağları formalaşmışdır. Təsadüfi deyildir ki, 44 günlük müharibədə Azərbaycan ordusunun qələbəsi, həm də Türkiyənin qələbəsi olaraq bütün dünyada qəbul edilmişdir. Bu isə onu göstərir ki, artıq istər dost, istər düşmən dövlətləri Azərbaycan-Türkiyə hərbi-siyasi münasibətlərinin güclü və sarsılmaz əsaslarını qəbul edirlər. Bu gün iki dövlət arasında güclü

hərbi-siyasi münasibətlərin mövdul olmasının əsasını, məhz, müstəqillimizin ilk illərində iki dövlət arasında imzalanan müqavilələrə əsaslanan planlı inkişafa dayanır.

ƏDƏBİYYAT

1. Askerzade, A. NATO çerçevesinde Azerbaycan-Türkiye askeri işbirliği ve bölgesel güvenlik sorunları // – Karadeniz Araştırmaları, – 2009. 20, – 1-17.
2. Aydın, U, Türkiye-Azerbaycan ilişkilerinin son on yılı (2006-2016): kardeşlikten stratejik işbirliğine uzanan yol // – Avrasya Uluslararası Araştırmalar, – 2018. 6/13, – 38-62.
3. Aydıngün, İ., Balım, Ç. Bağımsızlıklarının yirminci yılında Azerbaycan, Gürcistan ve Ukrayna türk dilli halklar - Türkiye ile ilişkiler. – Ankara: Atatürk Kültür Merkezi, – 2012.
4. Ayna. – 2005, 16 İyul.
5. Azərbaycan. – 2001, 13 Noyabr.
6. Babayeva, V. Haydar Aliyev dönemi Türkiye-Azerbaycan ilişkileri. – İstanbul Ticaret Universiteti Sosial Elmlər İnstitutu. – İstanbul, – 2013.
7. Bağbaşlıoğlu, A. Transatlantik İlişkiler Bağlamında "Küresel Ortaklar" ve "Akıllı Savunma" // – Adam Akademi, – 2013. 3/1, – 75-92.
8. Çelikpala, M. Türkiye ve Kafkasya: reaksiyoner dış politikadan proaktif ritmik diplomasiye geçiş // – Uluslararası İlişkiler, – 2010. 7/25, – 93-126.
9. Ekşi, M. Türkiye-Azerbaycan ilişkileri: söylemden reelpolitiğe. // – Avrasya Etüdleri, – 2009. 36, – 95-112.
10. İxtisaslaşdırılmış hərbi ali təhsil müəssisələri [Elektron resurs] / URL: https://www.seferberlik.gov.az/az/military/menu/detail/249/ [15.09.2023].
11. İmanbeyli, V. Modern dönemde Kafkaslarda işbirliği modelleri // - Avrasya İncelemeleri, – 2015. IV/2, – 224-253.
12. Kasapoğlu, C. Türkiye-Azerbaycan: savunma işbirliğinden askeri ittifaka: [Elektron resurs] / – 2017. URL: https://www.aa.com.tr/tr/analiz-haber/turkiye-azerbaycan-savunma-is-birliginden-askeri-ittifaka/952323 [15.09.2023].
13. NATO's relations with Azerbaijan: [Elektron resurs] / URL: http://www.w3.org/TR/xhtml1/DTD/xhtml1-transitional.dtd [15.09.2023].

**ГЮНЕЛЬ ЮСИБОВА**
*Докторант кафедры Социальных Наук*
*Гянджинского Государственного Университета*

## АНАЛИЗ ИСХОДНОЙ ПРАВОВОЙ ОСНОВЫ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ВОЕННЫХ ОТНОШЕНИЙ

Азербайджано-турецкие отношения в настоящее время переживают самый быстрый этап развития по всем направлениям. То же самое можно сказать и о военно-политических отношениях между двумя государствами. Реальность оккупации двадцати процентов ее земель и необходимость защиты своей независимости заставляли Азербайджанскую Республику всегда полагаться на Турцию как на самое надежное государство и сотрудничать как на основного партнера во всех областях своих внешних отношений, включая военный. Эти отношения сыграли решающую роль в освобождении оккупированных земель в ходе 44-дневной войны. Несмотря на то, что в мире очень мало стран, где отношения столь искренни, отношения между сторонами не вышли за рамки международного права. Со дня обретения Азербайджаном независимости сотрудничество по всем направлениям военных отношений основывается на двусторонних и многосторонних международных соглашениях. В данной статье изучены международно-правовые документы, составляющие основу азербайджано-турецких военных отношений, и конкретные шаги, вытекающие из этих документов.

Научная новизна статьи заключается в том, что здесь были изучены документы, подписанные между Азербайджанской Республикой и Турцией в 1990-х годах и регулирующие военные отношения.

Вывод исследования заключается в том, что в целях подготовки правовой базы для развития военного потенциала между двумя государствами были подписаны соглашения, которые позволяли проводить оборонительные учения и обеспечивать вооружением и военным снаряжением в соответствии с требованиями времени, в соответствии с диверсификацией военных отношений, нормативно-правовая база постепенно совершенствуется.

*Ключевые слова:* Азербайджано-турецкие военно-политические отношения, нормы международного прав, международное соглашение.

**GUNEL YUSIBOVA**
*PhD student of the Department of Social Sciences of Ganja State University*

## ANALYSIS OF THE PRİMARY LEGAL FRAMEWORK OF AZERBAIJAN-TURKEY MILITARY RELATIONS

Azerbaijan-Turkey relations are currently experiencing the fastest stage of development in all directions. The same opinion can be mentioned for the military-political relations between the two states. The reality of the occupation of twenty percent of its land and the need to protect its independence have made the Republic of Azerbaijan to always rely on Turkey as the most reliable state and cooperate as the main partner in all areas of its foreign relations, including the military. These relations played a decisive role in the liberation of the occupied lands during the 44-day war. Despite the fact that there are very few countries in the world where relations are so sincere, the relations between these countries have not gone beyond the framework of international law. Cooperation in all directions of military relations has been based on bilateral and multilateral international agreements since the day when Azerbaijan gained its independence. İn this article, the international legal documents that form the basis of Azerbaijan-Turkey military relations and the specific steps arising from these documents have been studied.

The scientific novelty of the article is that the documents that were signed between the republics of Azerbaijan and Turkey in the 1990s and that regulate military relations are studied here.

The conclusion of the study is that, in order to prepare a legal basis for the development of military capabilities, agreements were signed between the two states, which allowed for the conduct of defensive exercises and the provision of weapons and military supplies in accordance with the requirements of the time, according to the diversification of military relations, normative-legal basis is gradually improved.

*Keywords*: Azerbaijan-Turkey military-political relations, norms of international law, international agreement.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 sentybar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Cavid Bağırzadə, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94; UOT 94”04/15”**

**GÜLXANIM QARAYEVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsinin dosenti*
**TarixVeOnunProblemleri@gmail.com**

# ABBASİLƏR XİLAFƏTİ DÖVRÜNDƏ ELMİN İNKİŞAFI

*Orta yüzilliklərdə elm, mədəniyyət və texnologiyanın təməli Abbasilər xilafəti dövründə qoyulmuşdur. Elmə münasibət islam dininin mahiyyətindən doğur, təsadüfi deyildir ki, Qurani-Kərimdə 700 dəfə elm sözü işlənmişdir. Abbasilərin hakimiyyətə gəlməsi Xilafət dövründə keyfiyyətcə yeni dövrün başlanğıcı oldu. Ərəblərlə yanaşı digər xalqlar, o cümlədən, türklər, farslar öz etnik qapalılığından çıxdılar, bərabərhü-quqlu müsəlmanlara çevrildilər, islam sivilizasiyasının formalaşması və zənginləşməsində mühüm rol oynadılar. VIII yüzillikdə başlayan - XV yüzilliyə qədər davam edən “İslamın Qızıl Əsri” və “İslam İntibahı” adlandırılan bu dövrdə müsəlman alimləri kəşfləri ilə bir çox sahələrdə elmin inkişafına öz töhfələrini vermiş və özlərindən sonra gələn alimlərə yol göstərmişlər.“Beyt-ul-Hikmə”nin əsası xəlifə Məmun tərəfindən qoyulmuşdur. Ensiklopedik biliyə malik Xarəzmi bir sıra dəyərli əsərlərini məhz burada qələmə almışdır. Orta yüzilliklərdə müsəlman alimləri içərisində türk alimləri xüsusi yer tutur. Əbu Əli Sina, Xarəzmi, N.Tusi, əl-Fərqani, əl-Fərabi və s. elmin müxtəlif sahələrində tədqiqat aparmış və dəyərli əsərlər ərsəyə gətirmişlər.*

*Açar sözlər*: ərəb dili, əl-Biruni, “Beytul-Hikmə”, Abbasilər xilafəti.

***Giriş.*** Elm tarixinin obyektiv, tərəfsiz tədqiqatı göstərir ki, həqiqi islami dünyagörüşü elmin inkişafına nəinki çəpər çəkməmiş, əksinə, onun təşəkkülü üçün ideya əsası kimi çıxış etmişdir. Quran ayələrində və Məhəmməd Peyğəmbərin hədislərində elmin əhəmiyyəti və alimin cahildən üstünlüyünün xüsusi vurğulanması ilə müsəlmanlar elmi biliklərə yiyələnməyə həvəsləndirilirdi. Qurani-Kərimdə təxminən 700-dəfə elm sözünün işlənməsi elmə və təhsilə islamın yarandığı ilk dönəmlərdə böyük əhəmiyyət verildiyinin göstəricisidir.

***Əsas mətn.*** **Albert Eynşteyn** kimi böyük bir alim yazısında iman gətirən elm adamlarının dindən bəhrələndiklərini belə ifadə etmişdir: “Kainatla bağlı dini hissin elmi araşdırmaların ən güclü və ən köklü səbəbi olduğu qənaətindəyəm” (4, s.18). Eynşteyn əlavə olaraq qeyd etmişdir ki,”dinsiz elm şikəstdir” (4, s.20).

**Əbu Bəkr ər-Razi və İbn Sina** kimi görkəmli təbiblər elmi şərhlərində Qurani-Kərimin və Məhəmməd Peyğəmbərin tibb ilə əlaqəli hədislərinə istinad etmişlər. Bir sıra tanınmış hədis alimləri Peyğəmbərin tibb ilə bağlı hədislərinə böyük dəyər vermişlər. **“Kitabut-tibb”** adlı əsərin xüsusi bölmələrində Məhəmməd Peyğəmbərin tibb sahəsindəki bilgiləri öz əksini tapmışdır (7, s.83).

**Xəlifə Harun ər-Rəşid** elm və sənət hamisi kimi tanınırdı. Müsəlman aləminin hər nöqtəsindən dəvət edilmiş alimlər və sənətkarlar üçün Bağdadda gözəl iş şəraiti yaradılmışdı. Deyilənlərə görə, IX-X yüzilliklərdə Bağdadda 100-dən artıq kitab dükanı kitabxanalarının fondu əsasında **“Beyt-ul-Hikmə” yaradılmışdır.** VIII-IX yüzillik-lər müsəlman Şərqi ilə xristian Qərbi arasında elm və mədəniyyət səviyyəsi baxımından çox böyük fərq vardır. Belə ki, **Harun ər-Rəşid** mükəmməl dini və dünyəvi təhsil görmüşdür, alimlərlə durub-oturur və elmi mübahisələr aparırdı. Lakin onun müasiri və Avropanın ən qüdrətli hökmdarı, frank kralı Böyük Karl (768-814) ömrünün sonuna kimi yazıb-oxumağı öyrənməmişdi (7, s.157).

X-XI yüzilliklərdə ərəb dili elm, fars dili şeir, türk dili isə hərb dili hesab edilirdi. İstər xilafət, istərsə də sonrakı dövrlərdə ərəb dili ərəb mədəniyyətinin yaranmasında mühüm rol oynamış və oynayır. Xilafət ərazisində ərəb dili yeganə aparıcı rəsmi dilə çevrilmiş və o dövrün məşhur əsərləri ya bu dildə yazılmış, ya da tərcümə edilmişdir. Mədəni ümumünsiyyət vasitəsinə çevrilmiş ərəb dili islam aləmində latın dilinin Avropada oynadığı rolu oynayırdı. Ensiklopedik biliyə malik əl-Biruni ərəb dili haqqında yazmışdır: “Bütün dünya ölkələrinin elmi ərəb dilinə çevrilmişdir; onlar bəzənmiş və ürəyə yatımlı olmuşdur” (14, s.3). Elm tarixində xlafət dövrü **“Ərəb Elmi”** dövrü kimi tanınır. Çünki bu dövr boyu ərəb dili dünya səviyyəsində elmin ana dili kimi qəbul edilmişdir.

Abbasilərin hakimiyyətə gəlməsi Xilafət dövründə keyfiyyətcə yeni dövrün başlanğıcı oldu. Xilafət bütün müsəlmanların imperiyasına çevrildi (7, s.59). Abbasilər xilafətində qeyri-ərəblərə müsbət münasibətin formalaşması ərəb elminin çiçəklənməsində ən mühüm amilə çevrilmişdir. Abbasilər sülaləsinin hakimiyyətə gəlməsi ilə xilafətin şərqindən ərəb mədəniyyəti, elmi düşüncəsi və beyin axını Suriyadan İraqa, 762-ci ildə əsası qoyulan Bağdada keçdi. Bağdad üç yüzillik Ərəb Şərqinin ən yaxşı elm adamlarının cəmləşdiyi yer oldu. 825-ci ildə fəaliyyətə başlamış Qərb dünyasında **"Müdriklik evi"** kimi tanınan **"Beyt-ul-Hikmə"**nin əsası Abbasilər xilafəti dövründə Xəlifə Məmun tərəfindən qoyulmuşdur. Xəlifə Məmun kitabxanalarının fondu əsasında **"Beyt-ul-Hikmə"ni ("Müdriklik Evi"ni)** təsis etmişdi. Bu mərkəzin qədim əlyazmalarla zəngin olan kitabxanası, rəsədxanası, xəstəxanası və tədris hissəsi var idi. 90-a yaxın alimin çalışdığı bu elm ocağının yaradılmasında 819-ci ildə doğulduğu Xarəzm vilayətinin Xivə bölgəsindən Bağdada gələn böyük alim Əbu Abdullah Məhəmməd ibn Musa əl-Xarəzmi də iştirak etmiş və ömrünün sonuna qədər burada çalışmışdır. Onun riyaziyyat elminə böyük önəm verən xəlifə əl-Məmun tərəfindən gətirildiyi fikri tarixi ədəbiyyatlarda özünə yer almışdır. IX yüzillikdə Avropanın ən böyük elm mərkəzlərindən sayılan Konstantsa kitabxanasında cəmi 256 cild kitab olduğu halda, onun kitabxanasında 4 000 000 nüsxədən artıq kitab saxlanılırdı (8, s.152). Belə bir zəngin kitabxananın səlahiyyəti məhz Xarəzmiyə verilmişdi.

Xarəzmi bir sıra dəyərli əsərlərini məhz burada qələmə almışdır. Xəlifə Məmunun təşəbbüsü ilə Xarəzmi **"Hisabul cəbr val-muqabələ" ("Cəbr və qarşı-laşdırma hesabı")** əsəri burada qələmə alınmışdır (11, s.26). Xarəzmi **"Beyt-ul-Hikmə"**nin rəsədxanasından göy cisimlərini müşahidə edərək, Günəşin, Ayın, eləcə də bir sıra planetlərin yerini, Günəş tutulmalarının vaxtını kifayət qədər dəqiq hesablamışdı. Alim astronomik cədvəllər qurmuş, romalıların təqvimini ərəblərin Ay təqvimi ilə müqayisə etmişdi.

Avropa xalqları intibah dövrünü XVI-XVIII əsrlərdə keçirdiyi halda, Şərq xalqlarında, o cümlədən türklərdə bu tarixi oyanış prosesi dünya alimləri tərəfindən də qəbul edildiyi kimi, onlardan 8-9 yüzil əvvəl başlamışdı. Abbasilər xilafəti dövründə dövlət və hərbi işlərə cəlb edilən türklər yalnız döyüş bacarığı ilə deyil, elmi araşdırmaları ilə də böyük uğur qazanmışdılar. İslam dinini qəbul etmiş türklər elmi araşdırmaları və qazandıqları uğurları ilə nəinki müsəlman dünyasına, eyni zamanda, bütün dünyaya öz töhfələrini vermişdir. İslam dünyasının elm adamlarından bir çoxu İranın şimal şərqindən və əhalisinin əksəriyyəti türk olan Xorasan və Mavərənnəhrdən çıxmışdır. Türk əsilli alimlərin əksəriyyəti adlarının sonuna **"Turk, Turki, ibn Turk"** sözlərini əlavə edirdilər. Cəbr elminin banilərindən Vasi ibn Türki, astronomoiya sahəsində uğurlar qazanan Əbul Həsən Əli bin Amacur ət-Turki və oğlu Əbul Qasim Əli bin Amacur ət-Turki dövrünün tanınmış alimlərindəndir.

Botanika sahəsinə zəngin xəzinə bəxş etmiş **İbn əl-Baytar "Baytarnamə"** kimi tanınan **"Dərmanlar və qidalar ensiklopediyası"** adlı dəyərli bir əsər irs qoymuşdur. Alim bu əsərdə 1400-ə yaxın bitki və dərman növünün təsvirini vermiş, həmin əsər XVI yüzilliyə qədər bu sahədə əsas elm mənbəyi olmuşdur (3, s.289). Müalicəvi əhəmiyyətini, dərmanların hazırlanma üsulunu qeyd etmiş, hətta onları əlifba sırası ilə düzmüş və dərmanların adlarının ərəb, fars, yunan və ispan dillərində qarşılığını vermişdir.

**Əl-Cahiz** (əsl adı Əbu Osman Əmr əl-Kənani əl-Bəsri 776-869) heyvanların həyatından bəhs edən **"Kitab-ul-hayavan"** adlı yeddi cildlik böyük bir əsər yazmışdır. Əl-Cahizin ən böyük xidməti bu nəhəng əsərdə növlərin təbii seçilməsi prosesini göstərməsi və özündən sonra gələn bu sahədə çalışan alimlər üçün böyük cığır açmasıdır. Əl-Cahizin təkamül nəzəriyyəsində 350 müxtəlif heyvan növləri təhlil olunmuşdur. Onun tədqiqatının nəticələri bir çox hallarda **Darvinin "Növlərin mənşəyi"** adlı əsərindəki fikirləri ilə üst-üstə düşür (10, s.14). Halbuki, əl-Cahiz Darvindən min il əvvəl yaşamışdır. Cahizin əsərlərindən, yalnız üçdə biri zəmanəmizə gəlib çatmışdır.

Orta yüzilliklər müsəlman alimlərinin əsərlərinin Avropada elmin inkişafına təsirini Qərb alimi **Jak Rislerin** dəyərləndirməsi maraq doğurur; "İntibahımızın riyaziyyat müəllimləri müsəlmandır" və ya fransız alimi **E.F.Qotye** isə öz heyranlığını belə ifadə etmişdir: "Avropanın mədəni dairələri yalnız cəbri deyil, digər riyaziyyat elmlərini də müsəlmanlardan almışdır; həqiqətən, bu günkü Qərb riyaziyyatı İslam riyaziyyatından başqa bir şey deyil" (3, s.285). Bundan başqa, intibah dövrünün italyan riyaziyyatçıları

araşdırmalarında ondan əsas kitab kimi istifadə etmişlər. Rocer Bekon, Fibonaççi kimi alimlər onun əsərini heyranlıqla tədqiq etmiş və tədrislərində bu əsərdən faydalanmışlar.

Cəbr elmini metodiki və sistematik şəkildə üzə çıxaran, bu mövzuda ilk mühüm əsər yazan **Muhəmməd bin Musa əl-Xarəzmi** (780-850) isə böyük türk riyaziyyatçı, coğrafiya və astronomiya alimidir. Əl-Xarəzmi ömrünün böyük bir hissəsini Bağdad-dakı **"Beyt-ul-Hikmədə"** keçirmişdir. 830-cu ildə xəlifənin icazəsi ilə Hindistana səfər edən Xarəzmi burada qədim kitabların tədqiqi ilə məşğul olmuşdur. İlk dəfə sıfır rəqəmindən istifadə edən Xarəzmi **"əl-Cəbir əl-Muqabələ" ("Cəbr və müqayisə hesabları")** əsəri ilə riyaziyyat elminin təməlini qoymuşdur. Xarəzmi bu əsəri ilə dəqiq elmlər sahəsində inqilab etmiş oldu. XV yüzilliyin sonlarına qədər Xarəzmin bu əsəri cəbr elmində tək mənbə olmuşdur. Əsərin Qərb dillərinə tərcüməsində **"cəbr"** (ərəb dilində "bərpa etmə") sözü **"alqebra"** kimi ifadə olunmuşdur və elmin bir sahəsi kimi bu ad eynilə qorunub saxlanmışdır. Xarəzmin adı latın dilində **"Alkhorizmi",** ingilis dilində isə **"Auqrim"** kimi qeyd edilsə də, bu ifadələr dövrümüzə **Alqoritma** və **Loqarizma** formasında gəlib çatmışdır. Triqonometrik funksiyalar, I və II dərəcəli riyazi tənliyin həllinin işlənməsi Xarəzmə məxsusdur. Xarəzmi ilk dəfə olaraq tənliyin bir tərəfindəki kəmiyyətləri əks işarə ilə tənliyin o biri tərəfinə keçirməyi təklif etmişdi. Bu o demək idi ki, "bərabər" işarəsindən sağda yerləşən bütün müsbət riyazi kəmiyyətlər mənfi işarə ilə sol tərəfə keçə bilər və ya əksinə (13, s.408). Riyazi tənlikləri sadəlişdirmək üçün tətbiq edilən bu həll üsulu bir yenilik idi. Xarəzmin digər bir yeniliyi isə cəbri-riyaziyyatı müstəqil elm sahəsinə çevirmişdir. Xarəzmin əsəri yalınz üç yüzillikdən sonra (XII yüzillikdə) avropalılar tərəfindən latın dilinə tərcümə edilmiş və 600 ildən çox müddət ərzində universitetlərdə əsas dərslik kimi tədris olunmuşdur (8, s.160).

Xarəzmin riyaziyyat sahəsində ən böyük xidmətlərindən biri isə əsərlərində həm sıfırdan, həm də digər rəqəmlərdən istifadə edilməsidir. O, qərblilərin "ərəb rəqəmləri", müsəlmanların "hind rəqəmləri" adlandırdıqları rəqəmləri Avropaya tanıtmışdır. Qeyd edilir ki, Leonardo Da Vinçi ərəb rəqəm sistemini öyrənmiş və onu Avropada yaymışdır (16, s.369). Bir məsələni də qeyd edək ki, Xarəzminin elmi fəaliyyəti dövründə yunan elmi irsinin tərcüməsinə yeni başlandığı üçün o, daha çox hind mənbələrinə müraciət etmişdir. Elə buna görə də, Xarəzmi **"hind rəqəmləri"** adı altında tanınmış rəqəmləri dünya elminə təqdim etmişdir. Məhz onun əsərləri ilə tanışlıqdan sonra avropalılar Roma say sistemindən imtina edərək, hind rəqəmləri ilə hesablamağa keçmişlər (13, s.409). Xarəzminin "Zici Xarəzmi" adlı əsərində astronomiya sahəsində yazdığı və rəsədxana müşahidələrindən əldə etdiyi nəticələri qeyd etmişdir. Bu əsərdən Kopernik dövrünə qədər Qərbdə istifadə edilmişdir.

Elmin müxtəlif sahələrində çalışmalar aparan Xarəzmi coğrafiya sahəsində də tədqiqatlar aparmışdır. Xəlifə Məmun ona Yer kürəsinin atlasının hazırlamağı tapşırmışdı. Xarəzmi bu sahədə tədqiqat apararaq, o zamanın torpaqlarının xəritələrini əhatə edən **"Surət-ul-ərz"** adlı məşhur əsərini yazmışdır. Xarəzmi bu əsərində Bətlimusun (Ptolomeyin) coğrafi məlumatlarına və xəritələrinə düzəliş etmişdir (13, s.397).

X yüzillikdə yetişən digər məşhur türk alimlərindən fərqanəli **Əhməd bin Muhəmməd bin Kəsir əl-Fərqanini** göstərmək olar. Fərqaninin ekliptikanın meylini və günəşin orbitinə aid araşdırmaları **"Astronomiya"** adlı tədqiqat əsərində toplanmışdır. Bu kitab Avropa və Asiya alimlərinin diqqətini cəlb etmiş və yeddi yüz il ondan mənbə kimi istifadə etmişlər. Əsərin əhəmiyyətini nəzərə alaraq, bir çox alimlər onun yenidən, 1573-cü ildə nəşrini zəruri saymışlar. Apardığı tədqiqatlar nəticəsində 842-ci ildə Günəşin tutulacağını öncədən bildirmişdir (9, s.4).

Avropada **"Alfarabius"** kimi tanınan **Əbu Nəsr Muhəmməd əl-Fərabi** (950-ci ildə vəfat etmişdir) İslam dünyasının yetişdirdiyi ən böyük riyaziyyat və fizika alimlərindən biridir. Əl-Fərabi Aristotelin əsərlərinə şərhlər vermiş və İbn Sina başda olmaqla bir çox filosoflar ondan bəhrələnmişlər. Onun **"İhsaul Ulum"** adlı əsəri Avropada yüksək dəyərləndirilir. Onun fəlsəfə, məntiq, riyaziyyat, botanika, tibb sahəsindəki əsərlərindən nəinki İslam dünyasının alimləri, həmçinin avropalı filosoflardan Bekon, Albert, Hobes, J.J.Rosseuya bəhrələnmişlər. Səs hadisəsinin ilk fiziki izahını verən məhz əl-Fərabidir. O, titrəyişlərin dalğa uzunluğuna görə azalıb-çoxaldığını müəyyənləşdirmş və bunu təcrübələrlə sübut etmişdir. Ət-Turki və ən-Nəhvi nisbələri ilə tanınan Fərabi həmçinin görkəmli dilçi, ədəbiyyatşünas, şair və katib kimi də tanınmışdır (6, s.251).

Türküstana qayıdan Fərabi Samani hömdarı Mənsur ibn-Nuhun xahişi ilə "ət-Təlim əs-Sali" əsərini yazmışdır.Fərabinin bu əsəri İsfahanın "Suvan-ul-Hikmə" kitabxanasında saxlanılır. Sonralar ibn Sina bir sıra fəlsəfi və tarixi məslələri öyrənmək məqsədilə ondan istifadə etmişdir (12, s.148).

X yüzilliyin ikinci yarısında yaşayan və islam dünyasının ən böyük alimlərindən biri də əl-Birunidir. 973-cü ildə Kaşda dünyaya gələn **Əbu Reyhan Məhəmməd əl-Biruni** (973-1048/1051) həm İslam dünyasında, həm də Avropada tanınan və uzun illər əsərlərindən istifadə edilən və araşdırmalarını yüzilliklərdən bəri aşmaq mümkün olmayan bir alimdir. Orta Asiya alimi əl-Biruni dövrünün ən böyük tapıntısını edərək, Yerin öz oxu və Günəş ətrafında fırlandığını sübut etmişdir. 17 yaşında tədqiqata başlayan əl-Biruni 44 yaşında Mahmud Qəznəvinin himayəsi altına keçmişdir. Mahmud Qəznəvi "sarayımın ən gözəl xəzinəsi əl-Birunidir" deməklə ona böyük dəyər vermişdir (9, s.20). Elmin bir sıra sahələrində kəşfləri olan əl-Birunini dünya alimləri yüksək qiymətləndirmişlər. Filipp K. Hitti onun "Təbii elmlər sahəsində müsəlmanlar arasında yetişən ən gözəl və dərin biliyə malik elm adamı" olduğunu qeyd edir. Corc Sarton isə onun adını yaşadığı dövrə verərək, həmin dövrü "əl-Biruni əsri" adlandırmışdır (8, s.162).

Əl-Biruni ərəb, fars, ibrani, yunan və suryani dillərini də yaxşı mənisəmişdi ki, bu da onun elmi araşdırmalarında mühüm rol oynamışdır. Hadisələrin sınaq və təcrübəyə istinad edilməsi fikrini gündəmə gətirərək, ilk dəfə metodlu elmi araşdırma üsullarını önə çəkmişdir. Əl-Biruni riyaziyyat, astronomiya, coğrafiya, fizika, kimya, geologiya, tibb, tarix və müqayisəli dinlər tarixi kimi bir çox müxtəlif sahələrdə araşdırmalar aparıb qiymətli əsərlər yazmışdır. 18-i astronomiya sahəsində olmaqla 180-ə yaxın əsəri olan əl-Birunidən dövrümüzə yalnız 20-dən bir qədər artıq əsər çatmışdır. Biruninin Hindistan haqqında çox dəyərli məlumatlar verən "Hindistan tarixi" adlı əsəri bütün Qərb dillərinə tərcümə edilmiş, coğrafiya və tarix alimləri üçün əvəzedilməz mənbə olmuşdur. Hindistanda olduğu dövrdə bir çox ərəb dilində olan mənbələri sanskritə, sanskritdəki bəzi kitabları da ərəb dilinə tərcümə edərək, İslam və hind sivilizasiyaları arasındakı ilk mədəniyyət körpüsünü qurmuşdur. O həm də Hindistanın Nindene şəhəri yaxınlığında etdiyi çalışmalar nəticəsində yerin diametrini ölçməyə müvəffəq oldu. Onun bu tapıntısı Avropada **"Biruni qanun"u** adı ilə məşhurlaşdı. Yaşadığı dövrdə Ümid burnunun varlığından ilk dəfə danışan Biruni Şimali Asiya və Şimali Avropa haqqında daha ətraflı məlumatlar vermiş, bundan başqa, Xristofor Kolumbdan beş yüz il əvvəl Amerika qitəsindən və Yaponiyadan bəhs etmişdir. Göy üzü və yer səthinin müxtəlif xüsusiyyətlərini, en və uzunluq dairələrini, qitə və dənizləri göstərmək üçün yeddi metr diametri olan kürə düzəltmişdir. Bu fəaliyyəti ilə tarixdə Yeri kürə üzərində xəritəyə salan ilk alim adını almışdır. Ptolomey və Aristotelin qaydalarına qarşı çıxaraq, Yerin sabit deyil, fırlanan bir kütlə olduğunu irəli sürən Biruni elm tarixçilərinə görə müasir astronomiyanın təməlini qoymuşdur. Biruninin "Kitabu əs-Saidana fit-Tıbb" əsəri İslam təbabətini Hindistan təbabəti ilə sintez edilmiş böyük tibbi və farmakoloji ensiklopediyadır (9, s.7).

Biruni Buxara kitabxanasında İbn Sina ilə tanış olmuş, bir-birlərinin fikirlərindən faydalanmışlar. Buxara alimləri sağlam bilik mübadiləsi ənənsinə malik idilər. Bildiklərini digərlərindən gizlətməz və paylaşmağı sevərdilər.

**Əl-Battani** (859-929) (Albategni- Əsl adı Məhəmməd bin Cabir ibn Sinan ər-Rakki el-Harranidir) Fərat çayı sahilində Rakka şəhərində rəsədxana tikdirmişdir. İl ərzində Günəş və Ay səthində baş verən dəyişiklikləri müşahidə etmiş və 24 saniyə fərqlə Günəş ilini hesablamışdı. Battani ilin 365 gün 5 saat 46 dəqiqə 24 saniyə olduğunu dəqiqliklə hesablamışdır. İlk dəfə tətbiq etdiyi triqonometrik funksiyaların köməyi ilə Ptolomeyə nisbətən daha dəqiq astronomik müşahidələr aparmışdır (1, s.247).

Avropada Avisenna kimi tanınan **Əbu Əli ibn Sina** təbib kimi daha çox şöhrət qazanmış və tibb elminə böyük töhfələr vermişdir. Əslən türk olan Əbu Əli ibn Sina (980-1037) 29 fərqli adda kəşfləri ilə, o cümlədən "əl-Qanun fit-tibb" ("Tibb elminin qanunları") əsəri ilə uzun müddət nəinki şərqdə, eyni zamanda avropalı elm xadimlərinə də liderlik edən böyük bir tibb alimidir. Beş cildlik, təxminən bir milyon sözdən ibarət olan böyük tibb ensiklopediyası olan bu əsər istər məzmunu, istərsə də hazırlanmma tərzi baxımından əsrlərlə tibb ədəbiyyatına yol göstərmişdir. **(4, s.201) "Tibbin İncili" adını alan** bu əsərdən altı yüzillik boyunca Avropa universitetlərində dərslik kimi istifadə edilmişdir (1, s.248). O, özündən əvvəlki təbiblərin müəyyən edə bilmədiyi xəstəliklərin əlamətlərini tapa bilmişdi. Bu xüsusiyyətinə görə, xilafətdə onu "alimlərin rəhbəri" adlandırırdılar. X yüzillikdə onun əsərləri latın dilinə tərcümə edilmiş və

dünyaya yayılmışdır. XVI yüzilliyin sonuna qədər Avropada, o cümlədən Fransanın Montpellier və Loven universitetlərində də tibbin tədrisində hakim mövqe tutmuşdur.

İbn Sina, ilk dəfə olaraq nəbzi yoxlamaqla insanın daxili xəstəlikləri haqqında da məlumat verməyi bacarmışdı. O, tibbi araşdırmalarında bəzi xəstəliklərin yaranmasına səbəb olan gözlə görünməyən mikrobların mövcudluğundan bəhs etmişdir. Dəri altına ilk dəfə iynə vuran və əməliyyatlarda narkozu ilk dəfə tətbiq edən ibn Sina mədə və bağırsaq xəstəliklərini, ruhi durumların həzm sistemnə təsirini, sifət iflicinin səbəblərini, mədə və bağırsaq qurdlarını, tənəffüs sistemini, qar korluğu sindromunu elmi cəhətdən tədqiq etmişdir. Yuxarıda qeyd edilən xəstəliklər ilk dəfə ibn Sina tərəfindən müəyyən edilmişdir. Kimya elminin inkişafında da İbn Sinanın xüsusi xidmətləri olmuşdur. Günümüzə qədər 150-si fəlsəfəyə, 40-ı tibbə aid olan 450 əsəri gəlib çatmışdır. Digər əsərləri isə fizika, kimya, astronomiya və digər elm sahələrini əhatə edən əsərlərdir. İbn Sina "Şəfa" adlı 18 cildlik ensiklopediyasında İsaak Nyutondan 500 il əvvəl fizika dinamikasının ilk qanununu açıqlamışdır. 250 əsərindən 61-i dövrümüzə gəlib-çatmışdır (13, s.405). Onlardan ən məşhuru latın, yunan, fransız və ingilis dillərinə tərcümə edilmiş **"Su çiçəyi və qızılca haqqında"** əsəridir. Ər-Razinin ensiklopedik xarakterli "əl-Xavi" ("Hər şeydən xəbərdar") adlı dəyərli əsəri onun ölümündən sonra şagirdləri tərəfindən tamamlanmışdır.

Tibb aləmində kimyadan istifadə olunması müsəlman alimlərinin sayəsində mümkün olmuşdur. Bu gün istifadə etdiyimiz kafur yağı, distillə edilmiş su, məlhəm və dərmanların çoxu ərəblərdən miras qalmış nümunələrdir. Soda, şora və sairənin istehsalında da uğurlar əldə edilmişdir. Elmi kimyanın inkişafında **Cabir ibn Həyyanın** 200 cilddən artıq yazdığı əsərlər böyük əhəmiyyət kəsb edir. Orta yüzilliklərdə Avropanın bir çox dillərinə tərcümə edilmiş əsərlərində Cabir ibn Həyyan kimya elminin əsaslarını şərh etməklə yanaşı müxtəlif üsullardan və alətlərdən istifadə edərək, kimyəvi təcrübələrin həyata keçirilməsinin yollarını da göstərmişdi. "Kimyanın atası" ləqəbini almış Cabir ibn Həyyan atom bombasının düzəldilməsindən 1000 il əvvəl atomun parçalana biləcəyini və sonucda, böyük bir gücün əmələ gələcəyini ilk dəfə söyləyən elm adamıdır. Bu fikirləri belə ifadə etmişdir: "Maddənin ən kiçik hissəciyində böyük bir enerji vardır. Yunan alimlərinin söylədiyi kimi bunun parçalanmayacağını demək olmaz. Atom da parçalana bilir. Parçalandıqda elə bir güç meydana gəlir ki, bir anda Bağdadın altını üstünə çevirə bilər. Bu Allah-Təalanın qüdrət nişanıdır" (10, s.11). Qərbdə o, "Heber", əsərləri isə "Heber traktatları" kimi məşhur idi (13, s.408).

Təyyarəni ilk dəfə 880-ci (13, s. 408) ildə **İbn Firnas** icad etmiş və hazırlamışdır. Onun quş tükü və parçadan istifadə edilməklə hazırladığı təyyarə uzun müddət havada qaldı və süzülərək yerə endi (10, s.16).

Əslən Azərbaycandan olan **Nəsirəddin Tusi** (1200-1273) elmin müxtəlif sahələri ilə dərindən maraqlanmış, elmə astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və digər sahələrə həsr olunmuş əsərlər bəxş etmişdir. İslam dünyasında elmin durğunlaşmağa başladığı bir zamanda Nəsirəddin Tusi riyaziyyat, astronomiya, astrologiya sahəsində tədqiqatlar aparmış, səma cismlərində baş verən prosesləri, onların insan həyatına təsiri, namaz vaxtını öyrənmək və sairə məsələlərlə bağlı rəsədxana tikilməsinin əhəmiyyət kəsb etdiyini Hülakü xanın nəzərinə çatdırmışdır (5, s.12). Belə ki, Marağa rəsədxanası Hülakü xanın vəziri olmuş Nəsirəddin Tusinin xahişi ilə tikilmişdir. O, Marağa rəsədxanasının tikintisində şəxsən iştirak etmiş və oranı zəruri cihazlarla təmin etmişdir. Rəsədxanada istifadə edilən 10 cihazdan 5-i ilk dəfə idi ki, tətbiq olunurdu. Hülaki xan rəsədxananın tikilməsinə böyük maraq göstərmiş və bu elmi mərkəzin inşası üçün böyük pullar xərcləmişdi. Həttta, mərkəz tikilib qurtardıqdan sonra Hülakü xan vergilərdən əldə edilən gəlirin onda birinin rəsədxananın ehtiyaclarını ödəmək üçün Tusiyə verilməsi haqqında göstəriş vermişdi (2, s.213). O da bu pullarla rəsədxananın ehtiyaclarını təmin edir və əməkdaşların məvacibini ödəyirdi. Marağa rəsədxanası bir çox elmi yeniliklərə imza atmışdır. Tusinin Marağada qurduğu rəsədxana qısa zaman kəsiyində İslam dünyasının ən böyük və ən məşhur rəsədxanasına çevrilmişdir.

Nəsirəddin Tusinin əsərləri yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynamışdır. Evklidin **"Prnsiplər"** adlı 13 cildlik kitabını şərh etmiş və ona tənqidi yanaşmışdır. 1594-cü ildə Romada ərəb, sonra isə latın dilinə tərcümə **"Evklid şərhi"** ("Təhriri Oqlidis") əsəri Tusi ideyalarının Avropada yayılması istiqamətində böyük iş görmüşdür. Onun riyaziyyat və həndəsə sahəsinə həsr etdiyi bu əsərdə verilmiş 700-dən artıq teoremin isbatı təhlil edilmiş və bir çoxunun yeni isbatı verilmişdir. XIX yüzillikdə böyük rus alimi

Evklidin əsərlərinin tədqiqində N.Tusinin **"Tahir Eqlidis"** əsəri mühüm rol oynamışdır. Lobaçevskinin xahişi ilə Azərbaycanın mütəfəkkir alimi Murzə Kazım bəy bu əsəri fars dilindən rus dilinə tərçümə etmişdir (16, s.371).

Ensiklopedik biliyə malik alimin əsərləri Avropada triqonometriyanın inkişafında əhəmiyyətli rol oynamışdır. İngilis, fransız və rus dillərinə çevrilmiş bu əsərlərdə o, dünya elmi tarixində ilk dəfə olaraq, triqonometriyaya müstəqil elm sahəsi kimi yanaşmışdır. Tusinin **"Tənsuqnameyi-Elxani"** əsəri **"Cəvahirnamə"** adı ilə daha çox tanınmışdır (8, s.166). O, bu əsərdə qiymətli minerallar haqqında geniş məlumat vermiş, onların xüsusiyyətlərini, təsvirini və müalicəvi əhəmiyyətlərini göstərmişdir. Tusinin rəhbərliyi altında **"Zicc Elxani"** adı altında səma ulduzlarının kataloqu tərtib edilmişdir (16, s.371). Nəsirəddin Tusinin bir çox əsərləri dünyanın müxtəlif kitabxanalarında oxucuların istifadəsunə verilmişdir. Elmin müxtəlif sahələrinə baş vurmuş Tusi Şərq dünyasında etikaya dair "**Əxlaqi-Nasiri"** adlı məşhur əsəri ilə bir çox alimlərin diqqətini çəkmişdir. Marağa rəsədxanası nəzdində fəaliyyət göstərən kitabxanada müxtəlif ölkələrdən gətirilmiş ayrı-ayrı elmlərə dair 400 minə qədər kitab var idi və burada 100-ə qədər alim çalışırdı (2, s.214).

Ərazisində müstəqil dövlətlərin yaranması ilə Abbasilər xilafətinin parçalandı. Bu isə ərəb mədəniyyəti və elminin yayılma əhatəsinin daralmasına və ümumdünya mədəni inkişafında onların çəkisinin tədricən azalmasına gətirib çıxardı.

***Nəticə.*** 1258-ci ildə İraq da Bağdad xilafətinin varlığına son qoyan monqol yürüşünə məruz qaldı və islam mədəniyyətinin mərkəzi zəbt edildi. Bağdaddakı **"Beyt-ul-Hikmə"** və onun böyük kitabxanası dağıdıldı, təbabət elmindən astronomiyaya qədər bütün elmi əsərlər məhv edildi. Xarəzmi kimi dövrün bir çox mütəfəkkirlərinin elmə töhfələr vermiş əsərləri məhv edilmiş, onlardan yalnız az bir qismi günümüzə qədər gəlib çatmışdır. Şahidlərin dediyinə əsasən, çaya atılan kitabların mürəkkəbindən Dəclənin suları qara axırdı. Beləliklə, altı yüzillikdən bir qədər az sürən xilafətə monqolların qılıncı ilə son qoyulmuş oldu.

## ƏDƏBİYYAT

1. Əliyev R. Dinin əsasları. Bakı, İrşad, 2004, 272 s.
2. Əsgər Əhməd. XII-XV əsrlərdə Azərbaycan mənəvi mədəniyyəti. Bakı, "Elm" nəşriyyatı, 2012, 368 s.
3. Əsgərov E.M., Rəhimov N.Ə. İslamın əsasları. Bakı, Dini araşdırmalar mərkəzi. 2002, 319 s.
4. Harun Yəhya (Adnan Oktar). Quran elmə yol göstərir.Türkiyə, İstanbul, 2010, 240 s.
5. Hasan Aydın. İslam dünyasında bilim ve felsefe: yükseliş ve duraklama. Bilim ve Ütopiya Dergisi, sayı:94-95, 2002, 21 s.
6. Hüseynova A. X-XI əsrlərdə ərəb dilində yazıb yaratmış türk mənşəli alim və şairlər. Bakı Dövlət Universiteti. İlahiyyat fakültəsinin Elmi Məcmuəsi. № 26, dekabr, 2016, 462 s.
7. İsmayıl R. Fustat VS Bağdad. Bakı, "ADİLOĞLU", 2015, 352 s.
8. Qarayeva G., Hacıqədirli A. Ərəb ölkələrinin tarixi (orta əsrlər və yeni dövr). Bakı, 2021, 462 s.
9. Muhammaad Obaidullah. Medical Science and İslam: An Analysis of the Medieval Muslim Scholars. Aprel, 2014 // Conference: International Conference on Islam and Science At: Kuala Lumpur, Malaysia. Volume: University Technology Islam Malaysia. - https://www.researchgate.net/publication/270215891
10. Musluman bilim adamları atlası, Ordu-Fatsa İlçe Milli Eğitim Müdürlüğü 2019, 76 s.
11. Mütəllimova Ç. Ərəb ədəbiyyatından mühazirələr. II cild, Bakı, "Müəllim" nəşriyyatı, 2019, 342 s.
12. Məmmədov E. Türk dünyasının görkəmli şəxsiyyətləri. Bakı, Mütərcim, 2010, 148 s.
13. Rəhimov N. İslam tarixi Abbasilər xilafəti, III hissə, Bakı, 2006, 448 s.
14. Süleymanov S.S. Ərəb dili ərəb mədəniyyətinin ayrılmaz hissəsi kimi. Bakı Universitetinin xəbərləri, №4, 2014, 9 s.
15. Аббасова М. Вклад Мусульман в мировою науку и культуру. Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, № 27 iyul, 2017, 392 s.

**ГЮЛЬХАНЫМ ГАРАЕВА**
*Бакинский Государственный Университет,*
*доцент исторического факультета*

## РАЗВИТИЕ НАУКИ ВО ВРЕМЕНА АББАСИДСКОГО ХАЛИФАТА

В Средние века основы науки, культуры и техники были заложены во времена Аббасидского халифата. Отношение к науке рождается из сущности исламской религии, неслучайно слово наука используется в Священном Коране 700 раз. Приход к власти Аббасидов ознаменовал начало качественно новой эпохи во времена Халифата. Наряду с арабами другие народы, в том числе тюрки и персы, вышли из своей этнической замкнутости, стали равноправными мусульманами и сыграли важную роль в становлении и обогащении исламской цивилизации. Начиная с VIII века и продолжаясь до XV века, мусульманские ученые внесли свой вклад в развитие науки во многих областях и указали путь ученым, пришедшим после них.

Основу «Байт-уль-Хикма» заложил халиф Мамун. Харезми, обладающий энциклопедическими знаниями, написал здесь ряд ценных работ. Турецкие ученые занимают особое место среди мусульманских ученых средних веков. Абу Али Сина, Харазми, Н. Туси, аль-Фаргани, аль-Фараби и др. проводили исследования в различных областях науки.

*Ключевые слова:* арабский язык, аль-Бируни, «Байтуль-Хикма», Аббасидский халифат.

**GULKHANİM GARAYEVA**
*Baku State University,*
*Associate Professor of the Faculty of History*

## THE DEVELOPMENT OF SCİENCE DURİNG THE ABBASİD CALİPHATE

In the Middle Ages, the foundations of science, culture and technology were laid during the Abbasid Caliphate. The attitude to science is born from the essence of the Islamic religion, it is not a coincidence that the word science is used in the Holy Koran 700 times. The arrival of the Abbasids marked the beginning of a qualitatively new era during the Caliphate. Along with Arabs, other nations, including Turks and Persians, came out of their ethnic isolation, became equal Muslims and played an important role in the establishment and enrichment of Islamic civilization. Beginning with the 8th century and continuing until the 15th century, Muslim scientists contributed to the development of science in many areas and showed the way to the scientists who came after them.

The foundation of "Bait-ul-Hikma" was laid by caliph Mamun. Kharezmi, who had encyclopedic knowledge, wrote a number of valuable works here. Turk scholars occupy a special place among Muslim scholars of the Middle Ages. Abu Ali Sina, Kharazmi, N. Tusi, al-Farghani, al-Farabi and others. conducted research in various fields of science and created valuable works.

*Keywords*: Arabic language, al-Biruni, "Baytul-Hikma", Abbasid caliphate.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 iyun 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Aynur Hacıqədirli, t.e.d. Sani Hacıyev.*

**UOT 94(479.24); UOT 930.2**

**SAMİRƏ RƏHİMOVA**
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı*
**samire.rahimova@gmail.com**

# XIX ƏSRİN İLK SÜLSÜNDƏ QARABAĞ ƏHALİSİNİN ETNİK MƏNZƏRƏSİNƏ DAİR (QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASI AKTLARININ MATERİALLARINDA)

*Məqalədə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının ilk yeddi cildinin materialları əsasında XIX əsrin ilk sülsündə Qarabağın etnik mənzərəsi tədqiq olunur. QAKA-nın I-VII cildlərinin XIX əsrin ilk qərinəsində keçmiş Qarabağ xanlığının əhalisinə dair 1804-1830-cu illəri əhatə edən məlumatlarının tədqiqi Qarabağın rus işğalı dövründə etnik vəziyyətinin zamanla necə dəyişməsi ilə bağlı tam təsəvvür formalaşdırır. Məlum olur ki, Qarabağın xristian məliklərinin ərazisində erməni kimi təqdim edilən alban əhalisi ilə yanaşı tatar kimi təqdim edilən müsəlman əhali də var idi. Bütövlükdə isə Qarabağda qeydə alınan 12.000 ailədən, yəni təxminən 60.000 nəfər əhalidən cəmi 2500 nəfəri xristian idi və bu məlumat QAKA-nın 4-cü cildində öz əksini tapır. Digər tərəfdən isə 1805-ci ildən etibarən Qarabağa "daha etibarlı təbəə" kimi ermənilərin məskunlaşırılması faktı QAKA-nın tədqiq olunan cildlərində verilən sənədlərdə öz təsdiqin tapır. Xüsusilə də Rusiya ilə Qacarlar İranı arasında müharibə zamanı Qarabağdan yerli əhalinin Qacarlar İranına köçürülməsi və qaçmasının kütləvi xarakter alması Qarabağın etnik mənzərəsinin dəyişməsinə ciddi təsir göstərmişdir.*

*Açar sözlər:* Qarabağ xanlığı, Qafqaz Arxeoqrafiya Komissiyasının aktları, Rusiya İmperiyası, xristian məliklər, köçürülmə.

***Giriş.*** XIX əsrin ilk qərinəsində Rusiya imperiyası tərəfindən Azərbaycanın şimal xanlıqlarının işğalının başa çatdırılmasından sonra rus hakim dairələrinin təşəbbüsü ilə tərtib olunan müxtəlif toplular, kameral təsvirlər və Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları (bundan sonra - QAKA) mühüm əhəmiyyətə malikdir. Bu mənbələrdəki materiallar bir sıra hallarda qüsurlu olsa da Qafqaz xalqlarının tarixi ilə bağlı müxtəlif məlumatların əldə edilməsində əvəzsizdir.

Adolf Petroviç Berjenin (1828-1886) redaktorluğu ilə nəşrə hazırlanmış 12 cildlik QAKA-da Qafqaz xalqlarının tarixi ilə bağlı çoxsaylı məlumatlar əldə etmək mümkündür. Həmin məlumatlara ərəb salnamələri, fərmanlar və digər sənədlər, XIV-XIX əsrin I yarısına aid türk, ərəb, fars, gürcü, erməni dillərində olan sənədlər rus dilinə tərcüməsi ilə birgə, o cümlədən də yerli xan və sultanlara aid sənədlər daxildir. Hər bir cild bu və ya digər Qafqaz canişininin hakimiyyəti dövrünə aid sənədləri də özündə əks etdirir [8, s.154].

XIX əsrin I yarısında Qarabağ əhalisinin etnik tərkibinin öyrənilməsində QAKA-nın materialları mühüm mənbə rolu oynayır. Belə ki, bu mənbədə Qarabağ xanlığının həm müsəlman, həm də xristian əhalisi barədə verilən məlumatlarda müəyyən yanlışlıqlar və təhriflər olsa da, bütövlükdə tədqiq etməyə çalışdığımız XIX əsrin I qərinəsində üçün Qarabağ əhalisinin etnik mənzərəsi, əhali yerdəyişmələri, əhali köçləri və onların səbəbləri barədə QAKA-nın materiallarından maraqlı və əhəmiyyətli məlumatlar əldə etmək mümkündür.

***QAKA-nın I-III cildinin materialları əsasında Qarabağın etnik mənzərəsinin tədqiqi.*** "Gürcüstan çar XII Georginin dövründə" başlıqlı aktların I cildinin II bölməsində 34 saylı "Kovalenskinin Gürcüstan haqqında qeydi" adlı sənəddə [9, s.120-121] Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın xristian məlikləri "erməni məlikləri" kimi təqdim edilir və onların əski zamanlardan müstəqil olması barədə məlumat verilir [9, s.120]. Lakin, nə məliklər erməni idi, nə də qədimdən bəri müstəqil məlikliklərdən söhbət gedə bilərdi. Qeyd edək ki, XIX əsrin əvvəllərində Qarabağ xanlığında yaşayan təxminən 22500 ailədən 17000 nəfərdən çoxunu Azərbaycan türkləri təşkil edirdi [4, s. 125; 6, s.112]. Qarabağ əhalisinin digər bölgələrə köç etməsi ilə bağlı Gürcüstanın 5 qəzaya (3-ü Kartlidə - Lori, Qori, Duşet, 2-i Kaxetiyada olmaqla – Telavi və Sığnaq) bölünməsi ilə bağlı 575 saylı sənədə daxil olan cədvəldə təqdim edilən məlumatlar diqqəti cəlb edir. Cədvəldə Qarabağdan gələrək Borçalıda məskunlaşan Mamay, Qullar (Qullari), Eyvazalı (Akvazalo), Fəxralu (Paxralo),

Sadaxlu (Sadaklu) kimi kəndlər və b. sadalanır. Əlavə olaraq da Qarabağ məliklərindən Məlik Abovun təbəəsi olan erməni və tatarlardan (türklərdən) ibarət əhalinin Bolnisi kəndində, Şulaverin Şinixi, Disiqi, Uzunlar kəndlərində məskunlaşması barədə məlumat verilir [9, s.463].

Knyaz Sisianovun Rusiya imperatoruna 1804-cü il 30 dekabr tarixli raportunda da [10, s.621-624] Qarabağın xristian əhalisi ilə bağlı təhriflərlə dolu məlumatlar verilir. Həmin raportda qeyd olunur: "80 yaşlı qoca - İbrahim xanın Ağa Məhəmməd xanın yürüşünə qədər 5 nüfuzlu məlik tərəfindən idarə olunan 60.000 ev Qarabağ ermənisi vardı, indi isə 4000 evdən çox..." [10, s.623]. Xatırladaq ki, 1823-cü ildə Qarabağ xanlığının ləğv edilməsindən bir il sonra həyata keçirilən siyahıyaalmada Qarabağ əyalətində cəmi 18.563 ailə qeydə alınmışdı, onlardan da beş məlikliyin payına yalnız 1559 ailə və ya bütün ailələrin 8,4 faizi düşürdü [6, s.27; 17, s.220-235, 242-245, 310-337; 18]. Daha dəqiq ifadə etsək, Qarabağ əyalətinin təsvirinə görə Talış mahalında 215, Xaçın mahalında 230, Çiləbört mahalında 201, Vərəndə mahalında 625, Dizax mahalında 288 ailə olmaqla cəmi 1559 ailə var idi. Bu ailələrin də hamısı erməni deyildi. Erməni kəndi kimi qələmə verilməyən kəndlərdə 239 ailə yaşayırdı. Qeyd edək ki, xristian albanlar da erməni kəndi kimi qeydə alınmışdı. Verilən məlumatdan məlum olur ki, hətta ermənilərin kompakt şəkildə yaşadığı vurğulanan xristian məlikliklərin belə əhali tamamilə erməni deyildi [17, s.220-235, 242-245, 310-337]. Həmçinin bir qədər əvvəlki dövrlərə nəzər salsaq görərik ki, 1727-ci il tarixli "Müfəssəl dəftər"ə görə, Gəncə-Qarabağ əyaləti üzrə qeydə alınmış 121.975 nəfərdən 80,340 nəfəri (65,9%) türk-müsəlman, 37.885 nəfəri (31%) xristianlar və 3.750 nəfəri (3,1%) isə kürdlər olmuşdu [1, s.17]. Bu xristianların hamısı da sadəcə Qarabağ xanlığına şamil edilə bilməz. I Pyotrun yürüşü ərəfəsində erməni liderləri tərəfindən xüsusi olaraq hazırlanmış bu məktublarda digər məktublarla bağlı qeyd etdiyimiz kimi, rus çarını işğalçı yürüşə həvəsləndirmək üçün Qarabağda yaşayan xristianların hərbi qüvvələrinin sayı ifrat dərəcədə şişirdilmişdir. Bu amili gözəl bilən çar Rusiyası da istənilən halda etnik baxımdan Qarabağda hər hansı bir çəkisi olmayan erməniləri bacardıqca bu ərazidə məskunlaşdırmağa çalışırdı. Məsələn, P.D.Sisianov 1805-ci il mayın 22-də, 19 saylı raportunda yazırdı: "Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik" [10, s.703]. Belə bir məqsəd tezliklə həyata keçirildi. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla general Sisianov arasında müqavilə imzalandı [10, s.704-705]. Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olan kimi P.D.Sisianov dərhal Qarabağda çarizmin mövqeyini möhəmlətmək üçün Cənubi Qafqazın digər əyalətlərindən erməniləri bura köçürməyə başladı. 1823-cü ildə Şuşada qeydə alınmış 1532 ailədən, 1111-ni türk, 421-ni erməni ailəsi təşkil etmişdi [3, s.16; 5, s.20].

QAKA-nın III cildində "Erməni ruhaniliyi" adlı II bölmədə Qarabağ əhalisinin etnik tarixi ilə bağlı kifayət qədər saxtalaşdırılmalara yol verilir. Belə ki, 148-155 saylı sənədlərdə Qarabağın alban əhalisi erməni kimi təqdim olunur. Bunun üçün alban patriarxı İsrailin qraf Qudoviçə məktubuna baxmaq yetərlidir. 19 avqust 1806-cı il tarixli məktubda Qarabağın xristian əhalisi, eləcə də albanlar erməni kimi təqdim olunur [11, s. 79-80]. Hətta yerli xristian əhalinin rus çarına olan arzu-istəkləri "erməni xalqının istəyi" kimi təqdim olunur.

***QAKA-nın IV-VII cildinin materialları əsasında Qarabağın etnik mənzərəsinin tədqiqi.*** QAKA-nın IV cildinin "Statistik və digər məlumatlar" adlanan 16-cı bölməsində 1447 saylı sənəddə Qarabağ xanlığının əhali sayı barədə məlumat əldə edirik. Mehdiqulu xanın idarə etdiyi Qarabağ xanlığında əhali sayı 12.000 ailə, təxminən 60 min nəfər olaraq qeyd olunur [12, s.953]. Bu əhalidən 2500-ü xristian, yəni erməni kimi qələmə verilir. Qalanları isə tatarlar, yəni Azərbaycan türkləri kimi təqdim olunur [12, s.38-39]. Eyni cildə daxil edilmiş 1054-1055 saylı sənədlərdə Qarabağ istiqamətində Qaradağ xanlığının qarətçilik planları, Qarabağ xanlığının üzərinə düşən öhdəliklər ətraflı şərh edilir [12, s.682-683]. Hətta belə qarətçilik yürüşləri zamanı Qarabağın 3 kəndinin – Bayandur, Xəznəvar və Xanazan kəndlərinin nəinki qarət edildiyi, hətta kəndin bütün əhalisinin belə Qacarlar İranına aparılması qeyd olunur [12, s.572]. Yaxud da 1134 saylı sənəddə general mayor Nebolsin general Tormasova ünvanladığı 18 sentyabr 1810-cu il tarixli raportda yazır ki, Qacar qoşunları "İbrahim xan Qacar, Həşim xan, Fəzi bəy və Səlimin rəhbərliyi altında 11-12 sentyabr tarixlərində 6000 nəfərlik qoşunla Qarabağ mülklərinə basqın edərək Kür çayın boyunca Tərtər yaxınlığında, Xaçında və digər yerlərdə çapaul həyata keçirərək köçəri aulları və sakinlərin əmlakını qarət etmiş, xeyli sayda müx-

təlif növ mal-qara aparmışdılar. Cəbrayıllılar və digər Qarabağlılar onları Xanaşinə doğru qovub əllərindən bir qədər qoyunları ala bilsələr də persiyalıların saylarının çox olmasına görə onları az sayla təqib edə bilməmişdilər" [12, s.741]. Həmin sənəddə həm də qeyd olunur ki, qarət edilən mallar qədər də yerli sakin öldürülmüş, yaralanmış və əsir alınmışdır. Hadisə baş verən ərəfədə Mehdiqulu xan Qarakilsədə idi [12, s.741]. Bu hadisənin yekununda polkovnik Aspevin məlumatına görə, Qarabağ xanlığına aid Mehdiqulu xanın sahib olduğu 94 at, 9 eşşək, 1045 iribuynuzlu mal-qara, 13.312 qoyun; Cəfərqulu ağanın sahib olduğu 20 at, 430 iribuynuzlu mal-qara, 10.725 qoyun; Xanlar ağanın sahib olduğu 110 at, 1314 iribuynuzlu mal-qara qarət edilmişdir. Nəticədə Qarabağ xanlığına aid 22 at, 9 eşşək, 2789 iribuynuzlu mal-qara, 24.037 qoyun, Mehdiqulu xanın müxtəlif aullarından 17 nəfər kişi və digər müxtəlif növ əmlak qarət edilmişdir [12, s.742].

Ümumiyyətlə Qacarlarla müharibənin gedişində Tormasov tabeliyində olan Azərbaycan xanlıqlarından, o cümlədən də Qarabağ xanlığından ehtiyat üçün 1000 nəfərlik süvari dəstələr tələb edir. Bu barədə QAKA-nın IV cildindəki 1061-1063 saylı sənədlərdən məlumat əldə edirik [12, s.688-690]. General Tormasov ehtiyac duyulduqca Qarabağ xanlığından Qacarlarla müharibənin gedişindən əlavə olaraq Kotlyarevskinin polkuna 250 nəfərlik ən yaxşı süvarilərdən ibarət dəstə də göndərməyi tələb etmişdir [12, s.553]. Lakin istənilən halda rus zabitləri Qarabağ xanına etimad etmirdi və onun Qacarların Qarabağa yürüşü zamanı xəyanət edəcəyindən ehtiyat etdiyini məktublarında ifadə edirdilər [12, s.553]. Gəncə (mənbədə Yelizavetpol) ilə bağlı paraqrafda general Tormasov polkovnik Aspevə 22 aprel, 1809-cu il tarixli müraciətində vaxtı ilə Gəncə və Tiflis qəzalarından qaçan Qarabağ tatarları və ermənilərin əvvəlki yerlərinə qaytarılması ilə bağlı müəyyən məlumatlar verilir və bu işdə lazımi nəticənin alınmadığı bildirilir [12, s.489]. Hətta vaxtı ilə podpolkovnik, Vərəndə məliyi Cümşüd Şah Nazarovun imperatordan Gürcüstana köçüb məskunlaşmaqla bağlı fərmana yenidən baxılması məsələsi gündəmə gətirilir. 704 saylı sənəddə əsas olaraq bildirilir ki, vaxtı ilə Qarabağ rusların himayəsində deyildi, artıq Qarabağ rusların himayəsində olduğuna görə Məlik Cümşüdün yenidən öz təbəələri ilə Qarabağda olması daha məqsədəuyğun hesab edilə bilər [12, s.492-493].

General Rtişşevin 1813-cü il 17 mart tarixli raportunda isə Qarabağın Qacar qoşunları tərəfindən dağıntılara məruz qalması zamanı general-leytenant markiz Pauluççinin öz mülkündə Qarabağ sakinlərindən 800 ailəyə sığınacaq verməsi, təxminən 1 il ərzində onların hər cür tələbatını qarşılaması, Rtişşevin təklifindən sonra onları Qarabağda əvvəlki yerlərinə qaytarması barədə məlumat verilir [13, s.552]. General Rtişşevin general leytenant Kotlyarevskiyə 1813-cü il, 4 fevral tarixli məktubu Qarabağ üçün daha acınacaqlı idi. Belə ki, əhalisi aclığa, dağıntılara məhkum edilmiş Qarabağ xanlığının "bu il əsirlikdən azad edilən ailələri ən tez bir zamanda Rusiyaya öz sədaqətlərini və səylərini sübut etmək üçün xəzinəyə vergi verməli idilər" [13, s.600].

QAKA-nın V cildinin ikinci hissəsində də Qarabağın əhalisi ilə bağlı müəyyən məlumatlar əldə etmək mümkündür. V cildin "Zaqafqaziyanın müsəlman əyalətləri və mülkləri" adlı 9-cu bölmənin "İ" başlıqlı paraqrafı Qarabağa həsr olunub [13, s.575-589]. Bu hissədə 1812-ci il 26 may tarixindən – 1816-ci il 28 iyun tarixinə qədər olan sənədlər öz əksini tapıb. Belə sənədlərdən birində - 696 saylı sənəddə Qarabağ xanlığında yaşayan əhalinin sayı haqqında məlumatlar öz əksini tapmışdır. General mayor Kotlyarevskinin general Rtişşevə göndərdiyi 30 sentyabr 1812-ci il 672 №-li raportda qeyd olunur ki, Qarabağ Rusiya təbəəliyinə keçərkən Kotlyarevskinin keçirdiyi sorğuya əsasən 1805-ci ildə Qarabağda 10.000 ailə yaşamışdır. Həmin raportda bildirilir ki, polkovnik Aseyevin 1808-ci ildə general – feldmarşal Qudoviçə göndərdiyi cədvəldə Qarabağ xanlığı ərazisində 7.474 ailənin yaşadığı qeyd edilmişdir [13, s.579]. Bu məlumatdan qısa müddətdə Qarabağ xanlığının əhalisinin 2526 ailə azaldığı məlum olur. Kotlyarevskinin yuxarıda adı çəkilən məlumatında müxtəlif illərdə Qacarlar dövləti tərəfindən aparılan və Qarabağ xanlığından qaçan ailələrin sayı da göstərilmişdir [4, s.126]. Qarabağa həsr edilən paraqrafda Kotlyarevski ilə Rtişşev arasındakı Qarabağda vəziyyətə dair qarşılıqlı məktublaşmalar da [13, s.577-580] mühüm əhəmiyyət kəsb edir. Kotlyarevskinin Rtişşevə ünvanlanan 1812-ci il 5 iyun tarixli məktubundan məlum olur ki, Qarabağda əhali sayı 5 min ailəyə qədər azalmış, əgər belə davam edərsə, əhali vergilərə verə biləcək gücdə olmasa 3-5 ilə Qarabağda əhali qalmayacağı bildirilir [13, s.577]. Əvəzində Mehdiqulu xanın dəfələrlə Qarabağda vergiləri yumşaltmaqla bağlı təklifi müsbət həllini tapmır və Qafqaza gələn hər yeni rus komandanı əksinə qarşı tərəfdən – yəni Qarabağ xanından bu barədə anlayış gözləyir [13, s.578].

Nəticə etibarı ilə 5-ci cilddəki 696 saylı sənəddən də məlum olduğu kimi Rusiya ilə Qacarlar İranı arasında müharibə zamanı Qarabağdan əhalinin Qacarlar İranına köçürülməsi və qaçması kütləvi xarakter almışdı. Rus ordusunun Qarabağ dəstəsinin rəisi Kotlyarevski yazırdı ki, Qarabağ xanlığı 1805-ci ildə Rusiyanın hakimiyyəti altına keçdiyi vaxt burada 10 min ailə, 1808-ci ildə tərtib edilmiş cədvələ görə isə 7474 ailə yaşayırdı. Aparılan hesablamalara görə 1806-cı ildə bu ailələrdən 367-si, 1809-cu ildə 323-ü, 1810-cu ildə 276-sı, 1811-ci ildə 274-ü, 1812-ci ildə isə 977-si Qacarlar İranına köçürülmüşdü. Bundan əlavə, xanlıqda yaşayan daha 2628 ailə öz yaşayış yerlərindən qaçaraq dağlarda gizlənirdilər [13, s.579]. Deməli xanlıqda cəmi 5 min ailə qalmışdı. Ancaq polkovnik Aspevin məlumatına görə cəmi 3080 ailə qalmışdı. Çünki xeyli adam da digər xanlıqlara [təkcə Şəki xanlığına 1000 ailə] qaçmışdı [13, s.579].

QAKA-nın VI cildinin I hissəsində Qarabağa həsr edilmiş xüsusi paraqrafda [14, s.834-871] general Yermolov polkovnik Ladinskiyə məktubunda Əbülfəth xan tərəfindən Qarabağın müxtəlif yerlərindən toplanmış 4000 ailə barədə məlumat verir. Yermolov həm də yazır ki, “əgər Əbülfət xan himayəsində olan ailələrlə birgə Qarabağın digər yerlərində məskunlaşmağa razı olsaydı, ... mən (Yermolov – S.R.) onu Rusiyanın himayəsi və təbəəliyinə qəbul etməyə məmnuniyyətlə razıyam... ailələrə də 4 il hər cür öhdəliklərdən azad olmaq imtiyazı veriləcəkdi”. Digər tərəfdən də məktub da qeyd edir ki, bir zamanlar Qarabağın mülkü olan Qafan, Güney, Çuğundur və Mehri qəzalarından 4000 nəfərlik ailə ruslar tərəfindən qəbul edilərək Qarabağın başqa ərazilərində məskunlaşdırılacaqdı [14, s.834].

Qarabağda ermənilərin daha geniş miqyasda məskunlaşdırılması ilə bağlı QAKA-nın VII cildində daha geniş məlumatlara təsadüf edirik. Məlum olduğu kimi 1828-ci il 10 fevral tarixində Rusiya imperiyası ilə Qacarlar İranı arasında Təbriz yaxınlığındakı Türkmənçay kəndində imzalanan Türkmənçay müqaviləsi ermənilərin daha rahat şəkildə Azərbaycan torpaqlarında, xüsusilə də Qarabağda məskunlaşdırılması əlverişli şərait yaratdı. Çünki bu müqavilənin XV maddəsinə əsasən ermənilərin kütləvi şəkildə Azərbaycana köçürülməsi rəsmiləşdirildi. Həmin maddəyə görə şah öhdəlik alırdı ki, o ölkədə yaşayan məmur və sakinlərə bugündən başlayaraq, öz ailəsi ilə birgə İran vilayətindən Rusiyaya sərbəst hərəkət etmək, hökumət və yerl irəisliyin heç bir maneəçiliyi olmadan onların satılıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan əmlakını aparmaq və satmaq üçün bir il vaxt verilirdi. Daşınmaz əmlakın satılması və ya onun barəsində öz xoşuna sərəncam üçün beşillik müddət müəyyənləşdirilirdi [3, s.16]. Türkmənçay müqaviləsinin imzalanmasından 3-4 gün keçəndən sonra artıq fevral ayının 14-də polkovnik Lazarevin general Paskeviçə raport göndərir. Bu raport QAKA-nın VII cildində 553 saylı sənəddə öz əksini tapmışdır. Həmin sənədin əvvəlində ilk öncə belə qeyd olunur: “Rus qoşunları Persiya sərhədlərinə daxil olarkən ermənilər tərəfindən həmvətənləri kimi qarşılandı. Bu xalq silahımızın uğurlarında mümkün olan hər şeyi etdi və nəhayət dəfələrlə mərhəmətli böyük İmperator Əlahəzrətlərinin daimi idarəçiliyində qalmaq istədiklərinə dair ən səmimi istəklərini göstərdi” [15, s.595]. Həmin sənəddə daha sonra qeyd olunur ki, ermənilər indi evlərini qoyub Rusiya tərəfə köçmək istəyirlər. Ermənilərin sürətlə və rahat köçürülməsi üçün Lazarev raportunda aşağıdakı təklifləri irəli sürürdü: “1) Köçmək arzusunda olan ermənilərin köçürülmə işlərin rəhbərlik etmək üçün mənə yazılı təlimat verəsiniz. Həmin sənəddə sülh müqaviləsinin köçürülənlərlə barədə maddələri izah edilməlidir, onlara ayrılacaq xüsusi dövlət müavinəti, bir il ərzində hər cür öhdəliklərdən azad edilmələri göstərilməlidir; 2) Köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən lazımi qədər zabitlər təyin etmək məsələsi ixtiyarıma verilsin; 3) İqlim şəraitinə görə köçürmə işlərinin ləngiyəcəyi yerlərdə rus ordusu dayanıb gözləsin və ordu köçənləri müşayiət etsin; 4) Kasıb köçkünləri üçün xəzinədən vəsait ayrılsın, əgər onlara məxsus mal-qara üçün yetərli qida olmazsa, yemlə təmiin olunsunlar, əgər onların özləri ilə gətirə bilməyəcəyi taxıl və ya unu varsa xəzinəyə qəbul edilməli və onlara məskunlaşacağı yerdə natura formasında və ya pulla geri qaytarılsın” [15, s.595]. Çar Rusiyasının ermənilərə bu cür diqqət və qayğısının əsl səbəbini yaxşı bilən Qacar hökuməti Rusiya ilə formalaşdırılmış yeni sərhədlər boyu ermənilərin kütləvi şəkildə məskunlaşdırılmasından narahat idilər. Məhz bu səbəbdən də Abbas Mirzə ermənilərə köçmədikləri halda 6 il müddətinə vergilərdən azad ediləcəkləri ilə bağlı vəd verirdilər. Bu barədə polkovnik Lazarevin qraf Paskeviçə 1may 1828-ci il tarixli raportundan ətraflı məlumat alırıq. Həmin raportdan da görünür ki, Qacarların ermənilərə təklifi nə qədər cəlbedici olsa da, artıq

çox gec idi [15, s.619-620]. Türkmənçay müqaviləsinə görə rus qoşunlarının geri çəkilməsi 8 mart tarixindən başlayaraq Marağadan başlandığı üçün ilk növbədə orada yaşayan ermənilər Azərbaycana köçürüldü. 9 martdda isə ruslar Təbrizi tərk etdilər. Həmin il may ayının 9-da Paskeviçə ünvanlanan məruzəsində Lazarev qeyd edirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının Qacarlar İranı tərəfindəki sahilinə gətirilmişdir [15, s.624]. Bu barədə toplunun 7-ci cildindəki 362 saylı sənəddə ətraflı məlumat alırıq. Məlum olur ki, Lazarev bu köçürülənləri Qarabağ xanlığının ərazisinə yola salmış Səlmas və Qəzvin xanlıqları ərazisindən köçürülən ermənilər isə Marağadan köçürülən dəstələrə qoşulmuşdu. Hətta, 1978-ci ildə Qarabağ erməniləri özlərinin Qacarlar dövlətindən köçürülmələrinin 150 illiyini bayram etmiş, bu münasibətlə Ağdərə rayonunun Marquşevan kəndində bir xatirə abidəsi də inşa etmişdilər. 1988-ci ildə isə erməniləri Qarabağa gəlmə etnos olduğunu sübut edən bu abidə ermənilərin özü tərəfindən də dağıdılmışdır [2, s.28]. Ümumiyyətlə, Azərbaycana, o cümlədən də Azərbaycanın Qarabağ bölgəsinə köçürülən ermənilər 1828-ci il ilin aprel-may aylarında təkcə Cənubi Azərbaycandan (Marağa, Təriz, Xoy, Salmas və Urmiyaadan) deyil, həm də İran Kürdüstanından köçürülmüşdü [3, s.27-28]. QAKA-nın VII cildində rastlaşdığımız maraqlı məqamlardan biri ilə "ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər" başlıqlı 618 saylı sənəddə rastlaşırıq [3, s.31-32; 15, s.642-644]. Həmin sənəddə qeyd olunur ki, ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi, onların müsəlmanların yerini dar etməsi bir yana, hələ üstəlik onlara güzəştlər də verildi. Halbuki, ziyan çəkən tərəf müsəlmanlar idi. Çünki ermənilərin köçürülməsi zamanı müsəlman ailələrin əksəriyyəti yaylaqda idi və gəlmə ermənilərin onlarınn evlərində yerləşdirilməsindən xəbərləri belə yox idi.

Toplunun VII cildində rus zabiti Zubarevin Qarabağ əyaləti haqqında qraf Paskeviçə ünvanladığı 1830-cu il 20 aprel tarixli raportu da maraq doğurur. Bu raportda diqqəti çəkən məqam sözsüz ki, guya Mehdiqulu xan Cavanşir tərəfindən Qacarlar dövlətinə sığınmazdan öncə "müsəlman əyalətlərini idarə edən general Mədətova, onun qohumlarına – Petros bəyə və mayor Mədətova 1500 tüstü və ya hər iki cinsdən 12000 nəfər tatar və erməni" [15, s.460] təbəəsini hədiyyə etməsidir. Bu məqama aydınlıq gətirən Zubarev yazır ki, Qarabağda hansı kəndin kimin mülkü olması və xanların gəliri məsələsinə aydınlıq gətirilərkən rus hökumətinin məlumatsızlığından istifadə edən bəylər, Mədətovu örnək alaraq ayrı-ayrı kəndləri öz şəxsi mülkü kimi göstərirdilər. Qarabağı təsvir edən rus zabitləri də onların sübutlarına baxmadan onların sözünə əsaslanaraq ayrı-ayrı kəndləri onların adına yazırdılar. Hətta vəziyyət o həddə gəlib çatmışdı ki, Qarabağın hərbi dairə rəisləri və komendatları özlərini əsl tamhüquqlu hakim kimi apararaq kəndləri sadəcə bəylər arasında deyil, hətta öz sevimliləri olan tərcüməçilər, yasaullar, tacilər və digər şəxslər arasında bölüşdürürdülər [15, s.460]. Bu cür problemin həll üçün Zubarev təklif edirdi ki, Şuşada xüsusi kömitə təşkil edilsin və ilk növbədə hər özünü bəy adlandırılanların bəy olub olmadığını yoxlasın, ikincisi Qarabağda 5000 tüstüdən çox olan maafların, və ya hər cür vergi və öhdəliklərdən azad edilən insanların hüquqlarına baxsın, üçüncüsü isə bəylərin mülkə dair sənədlərini yoxlasın [15, s.461]. Zubarevin raportunda Qarabağa köçürülən Marağa ermənilərinin vəziyyəti barədə də məlumat verir və onlardan 3 ay ərzində 1012 nəfərin xəstəlikdən ölməsini qeyd edir. Çar hökumətinin idarəçilik siyasətinə uyğun olaraq Zubarev erməniləri raportunda əzabkeş xalq kimi təqdim edərək yazır ki, "onların vəziyyətindən istifadə edən köçəri tatarlar onların bütün əmlakını və iribuynuzlu mal-qarasını qarət etmişdilər" [15, s.461]. Bu da azmış kimi Zubarev raportunda Qarabağın türk bəylərininin kəndlilərə, xüsusilə də ermənilərə qarşı qəddar rəftar etməsini qeyd edir, hətta bunu Asiya vəhşiliyi kimi xarakterizə edir. Buna sübut kimi Zubarev general-adyutant Strekalova 10 iyun, 1830-ci il tarixli raportunda da Qarabağa köçürülmüş erməni əhalisi haqda yazırdı: "məskunlaşdırılan ermənilər burada tatar naiblərindən və yerli rəhbərlik tərəfindən zülmə məruz qalırlar. Əgər kasıblardan kimsə Şuşaya xahişlə gəlirsə, onu döyməklə qarşılıq verirdilər" [15, s.464]. Qarabağda xristian əhalinin say dinamikasındakı artıma nəzər saldıqda bütün bunların yalan məlumat olduğu üzə çıxır. Belə ki, əgər Qarabağda erməniləşmiş alban və erməni əhalisinin sayı 1823-cü ildə 4528 ailə idisə, çar Rusiyasının köçürmə siyasəti nəticəsində 1832-ci ildə bu ailələrin sayı 6491-ə yüksəlmişdi [4, s.130]. Qarabağ məliklərinin əhalisinin erməni mənşəli olmaması ilə bağlı qafqazşünas Veliçkonun fikirlərini də xatırlamaq lazımdır. Müəllif XX əsrin əvvəllərində yazırdı ki, "tərkibinə həm indiki Yelizavetpol quberniyası, həm Tiflis quberniyası, həm də Dağıstanın bir hissəsi daxil olan diyar ermənilərdən xristianlığı qəbul edən, lakin erməni

mənşəli olmayan xalqların məskənidir. XIX əsrin əvvəllərinə qədər Üçmiədzin katolikosu ilə rəqabət aparan, bəzən də tamamilə ondan asılı olmayan ayrıca Ağvan, yaxud Gəncəsər katolikosu da mövcud idi. Vaxtilə Ağvan katolikosunun dindarları olmuş xristianlar indi erməni hesab edilir və onların qarışıq xasiyyətlərini götürüblər" [7, s.80; 16, s.66].

***Nəticə.*** QAKA-nın I-VII cildlərində XIX əsrin I qərinəsində Qarabağ bölgəsi əhalisinin tarixi demoqrafiyası ilə bağlı kifayət qədər maraqlı məlumatlar vardır. Xüsusilə də Rusiya imperiyasının maraqlarına xidmət edən, hər fürsətdə separatçı fəaliyyətlə məşğul olaraq Qarabağ xanlığının diqqətini əsas düşmənə yönəltməkdən yayındıran xristian məliklər barədə mühüm məlumatlar izləmək mümkündür. Təəssüflə qeyd etmək lazımdır ki, sənədlərdə Qarabağ əhalisinin etnik tarixi ilə bağlı kifayət qədər saxtalaşdırılmalara yol verilmişdir. Qarabağın xristian məliklərinin hamısı erməni kimi təqdim edilsə də aparılan tədqiqatın gedişində əldə edilən nəticələr, xüsusilə də məliklərin Rusiya imperiyasına ünvanladıqları məktublar bu fikri təkzib etməyə imkan verir. Ümumilikdə QAKA-nın I-VII cildlərinin XIX əsrin ilk qərinəsində keçmiş Qarabağ xanlığının əhalisinə dair 1804-1830-cu illəri əhatə edən məlumatlarının tədqiqi bölgənin tarixinə dair bir çox qaranlıq məsələləri aydınlaşdırmağa imkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). – Bakı: Şuşa, – 2000. – 576 s.
2. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / elmi red. Y.M.Mahmudov; məsul red. G.C.Nəcəfli. – Bakı: CBS mətbəəsi, – 2010. – 618 s.
3. Mahmudov, Y.M., Nəcəfli, G.C. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin regional təhlükəsizlik üçün nəticələri / Y.M.Mahmudov, G.C.Nəcəfli. – Bakı: ATİB, – 2020. – 100 s.
4. Məmmədova, İ.M. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda əhalinin etnik tərkibi / İ.M.Məmmədova. – Bakı: İdeal-Print MMC, – 2021. – 328 s.
5. Mustafayev, Q.X. Qarabağ və Gəncə xanlıqları əhalisinin tarixi-demoqrafik tədqiqi: tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2008. – 24 s.
6. Mustafazadə, T.T. Qarabağ xanlığı / T.T.Mustafazadə. – Bakı: Sabah, – 2010. – 333 s.
7. Nəcəfli, G.C. Qarabağın xristian alban məlikləri // – Bakı: İpək yolu. Azərbaycan Universiteti, – 2021, Xüsusi buraxılış, – s. 73-82.
8. Rəhimova,S. Qarabağ xanlığının tarixi Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında (I və II clddəki materialların təsviri və təhlili) // – Bakı: "Geostrategiya" elmi-publisistik jurnal, – 2022. №6(66), – s. 154-158.
9. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 1. – 1866. – 827 с.
10. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 2. – 1868. – 1238 с.
11. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 3. – 1869. – 767 с.
12. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 4. – 1870. – 1019 с.
13. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 5. – 1873. – 1187 с.
14. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 6, ч.1. – 1874. – 957 с.

15. Акты, собранные Кавказской археографической комиссией [АКАК]: [12-х томах] / Под редакцией А.П. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 7. – 1878. – 1011 с.
16. Величко, В.Л. Кавказ: Русское дело и междуплеменные вопросы / В.Л.Величко. – Баку: Элм, – 1990. – 222 с.
17. Описание Карабагской провинции (составленное в 1823 году, по распоряжению главноуправлявщаго в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым П-м. – Тифлис: «В типографии управления наместника Кавказского», – 1866. – 425 с.
18. Описание Карабагской провинции (составленное в 1823 году, по распоряжению главноуправлявщаго в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым П-м. Тифлис: «В типографии управления наместника Кавказского», 1866 // Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi, Fond № 24, siyahı №1, iş №141.

**САМИРА РАГИМОВА**
*Диссертант Института истории НАНА*

## ОБ ЭТНИЧЕСКОЙ КАРТИНЕ НАСЕЛЕНИЯ КАРАБАХА ПЕРВОЙ ТРЕТИ XIX ВЕКА (В АКТАХ, СОБРАННЫХ КАВКАЗСКОЙ АРХЕОГРАФИЧЕСКОЙ КОМИССИЕЙ)

В статье на основе материалов первых семи томов Актов Кавказской археографической комиссии рассматривается этническая картина Карабаха в первой трети XIX века. Изучение данных I-VII томов АКАК, охватывающих 1804-1830 годы, о населении бывшего Карабахского ханства в первой трети XIX века, формирует полную картину того, как менялась этническая ситуация Карабаха во время российской оккупации. Оказывается, на территории христианских меликств Карабаха вместе с албанским населением, представленным как армяне, проживало мусульманское население, представленное как татары. В целом из 12 тысяч зарегистрированных семей (около 60 тысяч человек) в Карабахе только 2500 человек были христианами, и эта информация отражена в 4-м томе АКАК. С другой стороны, тот факт, что армяне с 1805 года поселились в Карабахе как «более надежное население», подтверждается в документах, представленных в изученных томах АКАК. В частности, во время войны между Россией и Каджарским Ираном массовая миграция местного населения и бегство из Карабаха в Каджарский Иран серьезно повлияли на изменение этнической картины на Карабах.

*Ключевые слова:* Карабахское ханство, Акты собранные Кавказской археографической комиссии, Российская империя, христианские меликства, переселение.

**SAMIRA RAHIMOVA**
*Dissertant of the Institute of History of the ANAS*

## ABOUT THE ETHNIC VIEW OF THE POPULATION OF KARABAKH IN THE FIRST THIRD OF THE 19TH CENTURY (IN THE ACTS COLLECTED BY THE CAUCASIAN ARCHAEOGRAPHIC COMMISSION)

The article examines the ethnic view of Garabagh in the first third of the 19th century based on the materials of the first seven volumes of the Acts of the Caucasian Archeographic Commission. The study of the data of volumes I-VII of ACAC covering the years 1804-1830 on the population of the former Garabagh Khanate in the first third of the 19th century forms a complete picture of how the ethnic situation of Garabagh changed over time during the Russian occupation. It turns out that in the territory of the Christian Melikdoms of Garabagh there was a Muslim population presented as Tatars along with the Albanian population presented as Armenians. As a whole, out of 12,000 re-

gistered families (approximately 60,000 people) in Karabakh, only 2,500 people were Christians, and this information is reflected in the 4th volume of ACAC. On the other hand, the fact that Armenians settled in Garabagh as "more reliable population" since 1805 is confirmed in the documents presented in the studied volumes of the ACAC. In particular, during the war between Russia and Qajar Iran, the migration of the local population and flight became massive from Garabagh to Qajar Iran had a serious effect on the change of the ethnic view of Garabagh.

*Keywords:* Garabagh Khanate, Acts collected by the Caucasian Archaeographic Commission, Russian Empire, Christian Melikdoms, resettlement.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t..e.d. Güntəkin Nəcəfli, t.e.d. Qabil Əliyev.*

---

**UOT 94(479.24); UOT 94"16/18"**

**CEYHUN HÜSEYNOV**
*A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı*
**ceyhunh137@gmail.com**

# XIX ƏSRİN SONLARINDA ÇAR RUSİYASININ ŞİMALİ AZƏRBAYCANDAKI AQRAR SİYASƏTİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

*Bildiyiniz kimi, XIX əsrin birinci yarısında və ortalarında Şimali Azərbaycanda çar Rusiyasının aqrar siyasəti çox qeyri-stabil xarakter daşıyırdı. Yerli aqrar münasibətlərinin bəzi cəhətləri haqqında məlumat azlığı, eləcə də yerli təsərrüfatlardan mümkün qədər tez və bol gəlir əldə etmək istəyi bəzən car hökumətini bir ifratdan digərinə tələsməyə təhrik edirdi. Yalnız XIX əsrin son üç sülsündə burada çarizmin aqrar siyasəti bir-biri ilə əlaqəli xarakter aldı və çar hökuməti sistemli tədbirlərlə Rusiya imperiyasının bu əyalət kənarının iqtisadi sərmayəsini tamamlamağa çalışırdı. Lakin buna baxmayaraq, həyata keçirilən islahatlar və digər çoxsaylı tədbirlər çar hökumətinin arzusunu gözündə qoydu və buna görə də növbəti əsrin əvvəlində bir sıra islahatlar davam etdirildi.*

*Açar sözlər:* Azərbaycan, Rusiya, islahat, kənd təsərrüfatı, hökumət, kənd, quberniya.

***Giriş.*** XIX-XX əsrlərin hüdudlarında Azərbaycanda kapitalizmin inkişafı kifayət qədər sürətlə gedirdi. Rusiya kapitalizmi bir qədər geciksə də, Cənubi Qafqazı dünya əmtəə təsərrüfatına cəlb etməyə nail olmuşdu. Azərbaycan üçün islahatdan sonrakı dövr kənd təsərrüfatının bütün sahələrində əmtəə-pul münasibətlərinin daha çox tətbiq olunduğu, kənd təsərrüfatının sürətli inkişafı dövrü olmuşdur.

***Əsas mətn.*** Nəticə etibarilə də Cənubi Qafqazda regionun sosial-iqtisadi və siyasi həyatında mühüm hadisə olan kəndli islahatı aparıldı. Lakin bu islahat Rusiyanın mərkəzi bölgələrinə nisbətən Cənubi Qafqazda bir qədər gec həyata keçirildi. Çünki yerli əsilzadələrin və rus burjuaziyasının qarşısında hələ də Cənubi Qafqaz iqtisadiyyatını müstəmləkə istismarı vəzifələrinə uyğunlaşdırmaq məsələsi dururdu. Rusiyanın milli ucqarlarında kəndli islahatının həyata keçirilməsi 19 fevral 1861-ci il tarixli "Əsasnamə"nin əsas prinsiplərinə - kəndlilərə şəxsi azadlığın və mükəlləfiyyətləri daşımaq şərtilə istifadə üçün pay torpaq sahəsinin verilməsi və pay torpaqlarını almaq hüququnun verilməsinə əsaslanırdı.

Rusiyada 1861-ci il fevralın 19-da kəndlilərin təhkimçilikdən azad edilməsi barədə Manifestin imzalanmasından sonra Qafqaz Komitəsindən Qafqazdakı rus ordularının baş komandanı Baryatinskiyə göndərilmiş 5 mart 1861-ci il tarixli məktubda Cənubi Qafqazda da belə tədbirin keçirilməsinin vaxtı çatdığı bildirilirdi. Məktubda yazılırdı ki, imperator imperiya ərazisində asılı münasibətlərin yalnız bu diyarda qalmasını nəzərə alaraq Cənubi Qafqazda da ehtiyatla müvafiq tədbirlərin həyata keçirilməsinə başlamağın zəruriliyini bildirir [3, s.196].

Nəticədə verilmiş 1870-ci il 14 may əsasnaməsinə əsasən, kəndlilər yalnız torpaq üçün ödənc ödədikdən sonra asılılıqdan azad edilirdilər. Ancaq kəndlilərin torpaq sahəsi üçün ödənc ödəmək imkanları olmadığından, torpaq çatışmazlığı və ya torpaqsızlıq şəraitində asılı və ya yarı asılı vəziyyətdə qalmaqda davam edirdilər. Kəndlilərin bu asılı vəziyyəti yalnız 20 dekabr 1912-ci il qanunu ilə aradan qaldırıldı. Torpağın geri alınması şəraiti kəndlilər üçün xüsusilə ağır idi. Rusiyada dövlət kəndlilərə torpaqlarını almaq üçün borc verirdi. Şimali Azərbaycan quberniyalarında isə kəndlilərə heç bir yardım göstərilməmişdir [12, c.169]. Nizamnamə qaydaları tərtib olunana kimi (ilk iki il ərzində) mükəlləfiyyətlər olduğu kimi qalıb, sonralar isə "Əsasnamə" ilə müəyyən edilib. 14 may 1870-ci il Qaydalarına görə həm natural, həm də pul vergiləri qalırdı. Torpaq sahəsinin alınması həm torpaq sahibinin razılığı ilə, həm də onun razılığı olmadan həyata keçirilə bilərdi. Ödəncin hesablanması qaydasına əsasən, torpağın qiymətləri inanılmaz dərəcədə yüksək - bir desyatin üçün 60 rubl 50 qəpikdən 202 rubla qədər müəyyən edildi [16, c.121].

Bundan əlavə, dövlət ödənclə ilə bağlı heç bir köməklik göstərmədi, yəni kəndlilərə borc verilmədi və ödəncin məbləği dərhal ödənilməli idi. Nəticədə heç bir torpaq alqısı aparılmadı. 1887-ci ildəki rəsmi hesabatlardan birində deyilirdi ki, rəsmi əməliyyatlar Azərbaycanda həyata keçirilməmiş

və "Əsasnamə"nin dərcindən sonrakı bütün dövr ərzində nə bütöv cəmiyyətlər, nə də ayrı-ayrı tüstülər tərəfindən bir dəfə də olsun pay torpaqlarının satın alınması hadisəsi baş verməmişdir [12, c.169].

1870-ci il qanunu islahatdan əvvəl torpaq sahəsi olmayan kəndli təsərrüfatlarına ümumiyyətlə torpaq ayırmırdı. Azərbaycanın iki quberniyasında belələrinin sayı 89 min nəfər və ya bütün sahibkar kəndlilərin 17%-ni təşkil edirdi. İslahata görə əgər islahatdan əvvəl kəndlilər meşələrdən və otlaqlardan pulsuz istifadə edirdilərsə, islahatdan sonra kəndlilərə heç bir meşə və otlaq verilməmiş, bu torpaqlar sahibkarların mülkiyyəti elan edilmiş, kəndlilərə onlardan pulsuz istifadə etmək qadağan edilmişdi. Eyni zamanda, qanunda kəndlilərin onlardan hansı ödənişlə istifadə edə biləcəyi də göstərilməmişdi. Bunu imperiya üzrə məlumatlarla müqayisə etdikdə görürük ki, Rusiyanın bütün müsəlman ucqarlarında olduğu kimi, Azərbaycanda da xəzinənin ehtiyaclarına xidmət edən dövlət kəndliləri sayca tarixən formalaşmış sahibkar kəndlilərindən çox idi [8, c.30 ].

14 may 1870-ci il "Əsasnamə"sinə əsasən, Cənubi Qafqazın şərqində torpaq paylarının alınması şərtləri qərbindən fərqlənirdi; torpaq paylarının alınması kəndlilərlə sahibkarlar arasında könüllü razılıq əsasında həyata keçirilirdi. Əgər razılaşma olmasaydı, kəndlilər torpağı sahibkarın razılığı olmadan da ala bilərdilər, bu halda kəndlilər hər tüstü üçün 15 desyatindən çox olmayan sahəni ala bilərdilər [1, c.12].

14 may 1870-ci il Qaydaları 1876-cı ilin fevralın 21-də könüllülük əsasında sahibkarların torpaqlarında yaşayan kəndlilərə şamil edilir. 1877-ci il sentyabrın 3-də İrəvan quberniyası və Tiflis quberniyasının Ahalsıx qəzasında mülkədar və tiyul torpaqlarında yaşayan kəndlilərə münasibətdə "Əsasnamə" verildi. Bu "Əsasnamə"yə əsasən onların istifadəsində olan bütün torpaqlar kəndlilərin ixtiyarına verilirdi. Əgər torpaq payları adambaşına 5 desyatindən az olardısa, onda sahibkar ona qalan torpaq miqdarından asılı olmayaraq, torpaq sahəsini beş desyatinə çatdırmağa borclu idi. Torpaqdan istifadə etmək üçün kəndlilər natural vergi - bəhrə ödəməli idilər. Torpaq sahiblərinə kəndlilərdən pul vergisi almağa icazə verilmirdi. Yeni qaydalarla kəndlilərə "1870-ci il Qaydaları" ilə təxminən eyni şərtlərlə pay torpaqlarını almaq hüququ verildi [14, c.114-115].

Cənubi Qafqazda islahatlar müəyyən səbəblər üzündən mərhələli və çox diqqətlə aparıldı. Torpaq islahatı həyata keçirən çar hökuməti həm də dövlət torpaq fondunu "azad torpaqlar" hesabına genişləndirmək məqsədi güdürdü. Eyni zamanda, tüğyan edən sosial münaqişənin kəskinliyini azaltmaq, ikiqat zülm altında əzilən kəndlilərin açıq çıxışına imkan verməmək məqsədilə çar administrasiyası kəndlilərlə əslində oyun oynayır, onlara ümidverici təminatlar verirdi. Bu dövrdə Cənubi Qafqazda, eləcə də Şimali Azərbaycanda çarizmin aqrar siyasətinin əsas məqsədi kənddə icmaları dağıtmaq, kənd burjuaziyasının - qolçomaqların şəxsində özünə dayaq yaratmaq idi. Ümumi prinsiplərə baxmayaraq, torpaq islahatının həyata keçirilməsində hər bir quberniyanın özünəməxsus xüsusiyyətləri var idi.

İslahatdan sonrakı dövrdə Azərbaycan kəndində getmiş mühüm proseslərdən biri də kəndli təsərrüfatlarının təbəqələşməsi idi. Həmin vaxtı sahibkar kəndində kəndlilərin torpaqla təminatının dövlət kəndlilərindən pis olduğunu, əhalinin əsas hissəsini dövlət kəndliləri təşkil etdiyini nəzərə alsaq kəndli təsərrüfatlarının təbəqələşməsi prosesinin sahibkar kəndliləri arasında daha sürətlə getməsinin qanunauyğun bir proses olduğu qənaətinə gəlmək olar. Belə ki, 1886-cı ildə Zaqatala dairəsi istisna olmaqla, Şimali Azərbaycanın dövlət kəndində 923518 nəfər 138242 tüstü var idi. Həmin ilin siyahıyalmanın məlumatlarına görə Azərbaycanda 64130 təsərrüfatda birləşən 425831 sahibkar kəndlinin istifadəsində 480639 desyatin torpaq sahəsi var idi. Sahibkar kəndlilərinin, təxminən, 390 min nəfəri (92 %-i) 57780 təsərrüfatda (92 %) birləşərək hər birinə, orta hesabla, 2 desyatinə qədər pay torpağı, 4479 təsərrüfatda (7,155%) birləşən 30309 nəfərin (7,12 %) 2-5 desyatin arası, 861 təsərrüfatda birləşən (1,5 %) 5811 nəfərin (1,5 %) 5 desyatindən artıq torpaq sahəsi var idi. Həmin vaxt üçün 786137 nəfərdən ibarət 115237 təsərrüfatdan ibarət dövlət kəndlilərindən 394100 nəfərlik 54990 təsərrüfatın (47,3 %) orta hesabla 2 desyatinə qədər pay torpağı var idi. Nəticədə görürük ki, sahibkar kəndində kəndlilərin çox böyük əksəriyyəti, yəni 92 faizi aztorpaqlı olduğu halda, dövlət kəndində bu göstərici təqribən 50 %-ə yaxın idi. Sahibkar kəndində əmlak təbəqələşməsi prosesinin nəticəsi olaraq kəndlilərin yoxsul, ortabab və varlı kəndlilər kimi üç kateqoriyaya bölünməsinin əsasında da məhz ilk növbədə onların torpaqla təminatı məsələsinin dayandığını əsas götürmək olar [4, s.251].

XIX əsrin 80-ci illərin ortalarında Cənubi Qafqazın dövlət kəndlilərinin adambaşına kişi əhalisinə düşən əkin və bağ torpaq sahələri ilə təminatı aşağıdakı kimi idi: Bakı quberniyasında 1,47 desyatin, Yelizavetpol quberniyasında 2,19 desyatin, İrəvan quberniyasında 1,71 desyatin, Tiflis quberniyasında 1,72 desyatin, Kutaisi quberniyasında isə 0,77 desyatin idi [17,c. 24-25].

XIX əsrin sonu – XX əsrin əvvəllərindən güclənən çarizmin köçürmə siyasəti kəndlilərin vəziyyətinə son dərəcə mənfi təsir göstərir, aztorpaqlı kəndlilərin torpaqsızlaşmasına gətirib çıxarırdı. Stolıpinin aqrar islahatına əsasən, Rusiyanın Avropa hissəsində torpaq çatışmazlığı problemini həll etmək üçün 1908-ci ildən hökumət mərkəzi rayonlarından Şimali Azərbaycana fəal şəkildə kəndli ailələrini köçürməyə başladı. Təkcə 1908-1910-cu illərdə 3 mindən çox kəndli ailəsi köçürülərək Muğan və Mil çöllərində, Quba qəzasında və başqa ərazilərdə məskunlaşmışdılar. Rus köçkünlərinə əvvəllər yerli kəndli icmalarına məxsus olan torpaqlar verilirdi. Bütün bunlar kəndlilər üçün torpaq çatışmazlığı problemini kəskinləşdirdi və torpaqsız kəndlilərin sayını artırdı ki, bu da yerli və köçürülmüş kəndlilər arasında münasibətlərdə gərginliyə səbəb olurdu [11, c.181-182].

Şimali Azərbaycanın sahibkar kəndinin kəndliləri arasında 1870-ci il islahatından sonra getmiş təbələşmə prosesi barədə tədqiqatçı F.Baxşəliyev qeyd edir ki, “Azərbaycan sahibkar kəndi daxilində təbəqələşmə prosesində 1912-1913-cü illərin yeni aqrar qanunlarının qəbul edilməsinə qədər məhz torpaq sahələrinin satın alınması prosesinin təkanverici amil olması heç bir halda şübhə doğurmamış və bu cəhət o dövrün quberniya müstəmləkə idarəçilik orqanlarının əməkdaşlarının iştirakı ilə hazırlanmış müxtəlif hesabat və statistik materiallarında da öz əksini tapmışdır. İ.Seqal, O.Syomin və bir çox başqaları hətta Şimali Azərbaycan sahibkar kəndindəki təbəqələşmə prosesinin sürətinin, ən çox da kəndlilərin torpaqla təminatı və pay torpaqlarının xüsusi mülkiyyətə çevrilməsi baxımından, imperiyanın mərkəzi qaratorpaq və digər quberniyaları ilə müqayisə edərək Şimali Azərbaycan kəndində bu prosesin xüsusilə yüksək rəsmlərə malik olduğunu qeyd etmişdilər” [4, s. 254].

Kəndli islahatının qəbul olunmasından sonra Şimali Azərbaycanın aqrar münasibətlərində baş verən mühüm dəyişikliklərindən biri də, kənddə zəif formada da olsa kapitalist münasibətlərinin meydana gəlib ləng şəkildə də olsa inkişaf etməyə başlamasıdır. Kapitalist münasibətlərinin yaranması ilk növbədə sahibkar kəndində torpaq icarəsinin getdikcə artması, bu zaman xüsusilə pulla torpaqların icarəyə götürülməsinin üstünlük təşkil etməsi ilə bağlı idi. Təsərrüfatda varlı kəndlilər tərəfindən muzdlu əməkdən istifadə, mülkədar, həm də kəndli torpaqlarının alqı-satqı obyektinə çevrilməsi, banklara girov qoyulmağa başlanması kimi hallar da islahatdan sonrakı dövrdə Şimali Azərbaycan sahibkar kəndi daxilində yeni keyfiyyət dəyişiklikləri yaratmışdı [6, s.69].

İcarənin genişlənməsinin başlıca səbəbləri kəndli təsərrüfatının torpaqlarının azalması və ya çatışmaması və tamamilə torpaqsızlaşması, ictimai təbələşmə prosesinin dərinləşməsi olmuşdur. Bura biz kəndli təsərrüfatının iqtisadi yoxsulluğu, qoşqu qüvvəsinin, toxumun, əmək alətinin olmaması və ya çatışmaması, əkinçiliyin süni suvarma ilə bilavasitə bağlı olması kimi bir sıra digər amilləri də əlavə edə bilərik. İslahatdan sonra keçən 30 il ərzində sahibkar kəndlilərinin istifadəsində olan pay torpaqlarının miqdarı, adambaşına orta hesabla Göyçay qəzasında orta hesabla 4,9 desyatindən 3 desyatinədək, Cavad qəzasında 5,07 desyatindən 2 desyatinədək, Şamaxı qəzasında 4,4 desyatindən 2,9 desyatinədək, Quba qəzasında 1,6 desyatindən 0,9 desyatinədək, Lənkəran qəzasında isə 1,3 desyatindən 0,5 desyatinədək azalmışdı. Yelizavetpol quberniyasında isə hər sahibkar kəndlisinə düşən pay torpağının miqdarı 1886-cı ildən 1906-cı ilədək, Şuşa qəzasında 1,18 desyatindən 0,79 desyatinə, Cəbrayıl qəzasında 1,09 desyatindən 0,79 desyatinə enmişdi [9, s.5].

İcarənin əsas növləri pulla və natural ödəmə şərti ilə idi. Məhsulun müəyyən olunmuş hissəsinin müqabilində qısamüddətli və kiçik sahəli torpaqların icarəyə verilməsi üstünlük təşkil etmişdir. Kəndlilər üçün belə bir icarə xüsusilə ağır idi. Çünki, icarəyə verilən ərazi nə qədər kiçik olardısa icarə haqqı da bir o qədər yüksək olurdu. Belə xırda kəndli icarədarlar kənd təsərrüfatında işləyən muzdlu fəhlələrdən bir o qədər də fərqlənmirdilər [7, c.93-94].

1897-ci ildə Yelizavetpol quberniyasında dövlət kəndlilərinin istifadəsində olan 1842368,04 desyatin torpaq sahəsinin 600391,05 desyatini və ya 32 faizi 1888-1889-cu illərdə həmin quberniyanın sahibkar kəndlilərinin istifadəsində olan 372598 desyatin torpaq sahəsinin isə 108217 desyatini və ya 30 faizi icarə torpaqlarından ibarət idi. Zaqafqaziya statistika komitəsinin verdiyi məlumata görə 1897-ci ildə Bakı quberniyasında xəzinədən hərracla 555797 desyatin torpaq sahəsi icarəyə

götürülmüşdü. 1884-1885-ci illərdə həmin quberniyada 1077 dövlət kəndlisindən 267-nin və ya 24,74 faizinin əhalisi xüsusi torpaq sahiblərindən torpaq icarəyə götürmüşdülər [9, s. 63].

XX əsrin əvvəllərində isə dövlət kəndlilərinin sayı Şimali Azərbaycanda 1297660 nəfər idi. Şimali Azərbaycanda xəzinə ən böyük torpaq sahibi idi. İkinci mühüm torpaq mülkiyyətləri xüsusi mülkiyyətçilər idi. Dövlət torpaqlarının əsas hissəsi dövlət kəndlilərinin istifadəsində idi. Torpaq fondunun bölgüsündə dini qurumların və ruhanilərin, eləcə də kəndlilərin torpaqları cüzi idi və əhəmiyyətsiz rol oynayırdı [7, c.64-65].

XX əsrin əvvəllərində Cənubi Qafqazın ümumi ərazisinin 15731737 desiatının 8630300-ü (55%) Azərbaycana məxsus olub. Bunlardan 6414 min desiatini (74,3%) kənd təsərrüfatı üçün yararlı, qalan 2216 min desiatini (25,7%) isə istifadəyə yararsız olub. Torpaqların böyük hissəsi, yəni 52%-dən çoxu (2465 min desyatini) birbaşa dövlətin, dövlət torpaqlarının isə əhəmiyyətli hissəsi, yəni təqribən 48%-i (2258 min desyatini) dövlət kəndlilərinin istifadəsində idi. Bütün kənd təsərrüfatı torpaqlarının dörddə birindən çoxu xüsusi mülkiyyətçilər tərəfindən istifadə olunurdu. Xəzinə palatasının materiallarına görə, XX əsrin əvvəllərində sahibkarların xüsusi mülkiyyətində ümumilikdə 1690 min desyatin torpaq var idi. Bir qayda olaraq, bunlar ən yaxşı və ən məhsuldar torpaqlar idi. Bunlardan 1238 min desyatin bilavasitə xüsusi mülkiyyətçilərin, 453 min desyatin isə kəndlilərin pay torpaqları idi [8, c. 27-28].

1900-cü il 1 may qanununa görə, kəndlilər yalnız torpaqdan istifadə edirdilər, onun sahibi isə dövlət idi. İslahatın əsas tərkib hissələrindən biri də dövlət kəndli cəmiyyətlərinin faktiki mübahisəsiz istifadəsində olan torpaqlar üçün pay uçot qeydiyyatının verilməsi idi. Bu iş 25 aprel Qaydaları və 17 iyun 1903-cü il tarixli göstərişlər əsasında həyata keçirilirdi. Çar məmurlarının Azərbaycanda 1900-cü il 1 may qanunu əsasında 1903-cü ildə apardıqları mərzləşdirmə işləri gözlənilən nəticəni vermədi. Yenə də, ayrılmış torpaqların ölçüsü və sərhədləri haqqında hər hansı bir məlumat yox idi. Sahibkarlar torpaqların sərhədlərinin müəyyən edilməməsindən, habelə Azərbaycana da şamil edilən, torpağın 10 il onu zəbt edənin əlində qalmasından sonra rəsmi mülkiyyət aktının mövcudluğundan asılı olmayaraq onun şəxsi mülkiyyətinə keçməsi barədəki qanundan geniş istifadə edirdilər. Nəticədə illərlə uzanan minlərlə mübahisə, məhkəmə işləri yarandı. Qeyd olunur ki, XX əsrin əvvəllərində Azərbaycanda xəzinə və kənd icmaları ilə torpaq mübahisəsi olmayan sahibkar tapmaq mümkün deyildi [8, c.30-31].

Eyni zamanda qeyd olunmalıdır ki, torpaqların zolaqlı şəkildə verilməsi (onların torpağı çox vaxt bir yerdən deyil, müxtəlif yerlərdən verilirdi ki, bu zaman kəndlinin pay torpağının ortasında başqasının, çox zaman da sahibkara məxsus torpaq sahəsi yerləşirdi) praktikası Rusiyanın mərkəzi əyalətlərində keçirilmiş islahatları zamanı uğurla sınaqdan keçirilmişdi. Əksər hallarda kəndli payları torpaq mülkiyyətçilərinin torpaqları ilə növbələşirdi ki, bu, kəndlilər üçün xeyli narahatlıq yaradırdı. Beləliklə, torpaq sahəsi alan kəndli onun tam sahibi olmurdu [13, c.120].

1903-1914-cü illərdə Bakı quberniyasında cəmi 5637 desyatin torpaq mərzləşdirilmiş, 2,5 milyon hektar dövlət torpaqlarında isə bu iş aparılmamışdı. 1915-ci ilə qədər bütün Şimali Azərbaycanda yalnız Yelizavetpol quberniyasında və Naxçıvan qəzasında 181 kənddə (256942 desyatina torpaq sahəsi) pay torpağının ayrılması başa çatdırılsa da heç bir yerdə pay torpağının uçotunun aparılması həyata keçirilməmişdi [7, c.71].

Əsasnamənin nəşrindən keçən 5 il müddətində - 1903-cü ildən 1908-ci ilə kimi, torpaq quruluşu işi Qafqazın cəmi 361 kəndinə toxunmuş, həm də yalnız 135 kənddə başa çatdırılmışdı. 1914-cü ilə qədər istifadələrində 1,3 mln desyatin torpaq olan Yelizavetpol quberniyasının 1083 dövlət kəndindən yalnız istifadələrində 160 min desyatinə qədər torpaq olan 103 kəndində, Bakı quberniyasında isə 2530 min desyatin dövlət torpağından cəmisi 6537 desyatin torpaq mərzlənmişdi [2, s.46].

XX əsrin əvvəllərindən Azərbaycanın aqrar sistemində icarə münasibətləri ən mühüm amilə çevrildi. Çünki icarə münasibətləri kəndli təsərrüfatının inkişafını, kənddə yaranan yeni istehsal münasibətlərinin xarakterini daha çox müəyyən edirdi. Birinci rus inqilabı ərəfəsində Yelizavetpol və Bakı quberniyalarının kəndliləri 1150000 hektardan çox torpaq icarəyə götürmüşdülər. XX əsrin əvvəllərində Yelizavetpol quberniyasında kəndlilərin pay torpaqlarının 32%-ni, Bakı quberniyasında isə 45%-ni icarə torpaqları təşkil edirdi.

Azərbaycanın ayrı-ayrı rayonlarında icarədarlar arasında kəndlilər üstünlük təşkil edirdi və icarəyə verilən torpağın demək olar ki, yarısı kəndlilər tərəfindən kollektiv, yəni bütöv kəndlər tərə-

findən icarəyə götürülürdü. Lakin kollektiv icarə icarəyə götürülmüş torpaq sahələrinin bərabər paylanması demək deyildi - onların ən yaxşısı və ən böyüyü adətən varlı kəndlilər tərəfindən tutulurdu. Varlılar ən məhsuldar torpaqları, kasıblar - yararsız torpaqların kiçik sahələrini icarəyə götürdülər [8, c.34-35].

Sahibkarlar tərəfindən torpaq sahələrini bir illik, 2-3 illik, yaxud da daha uzun müddətə icarəyə verilməsi praktikası geniş yayılmışdı. Təkcə Yelizavetpol quberniyası üzrə XIX əsrin sonunda 600391 desyatin sahibkar torpaqlarının üçdə biri icarəyə verilmişdi [5, s. 59].

XX əsrin əvvəllərində bağlanmış çoxsaylı icarə müqavilələrinin təhlili Azərbaycanda icarə haqqının nağd ödənişinin kifayət qədər geniş tətbiq olunduğunu (46%-i) göstərir. İri icarədarlar bütün torpaqları özləri becərmir, qismən onu kiçik icarəçilərə, ən ehtiyacı olan, aztorpaqlı və torpaqsız kəndlilərə həm pul müqabilində baha qiymətə, həm də şərikli icarəyə verirdilər. Xəzinə hərracda torpaqları iri sahələrlə nağd pulla icarəyə verməyə üstünlük verirdi ki, bu, kəndlilərin böyük hissəsinin imkanı xaricində idi. Belə hallarda ikinci əl torpaq icarəyə götürən kəndlilər iri icarədarlara birbaşa xəzinəyə ödəyəcəklərindən adətən 2-3 dəfə çox pul ödəyirdilər. İcarənin bu növü kəndlilərə adi şəraitə nisbətən daha az məhsul payı qoydu [10, c.86].

Kəndlilər üçün həyati əhəmiyyət kəsb edən su məsələsi də Azərbaycanda aqrar ziddiyyətlərin kəskinləşməsinin başlıca səbəblərindən idi. İqlim şəraiti Şimali Azərbaycanın bir çox rayonlarında kanalların və suvarma qurğularının köməyi ilə süni suvarma sistemini kənd təsərrüfatının əsasına çevirmişdi. İsti və quru iqlimi ilə seçilən Azərbaycanda süni suvarma kənd təsərrüfatında əsas yer tuturdu. Bir çox əyalətlərdə süni suvarma təkcə əkinçilik üçün deyil, hətta maldarlıq üçün də mühüm şərt idi.

XIX əsrin 90-cı illərin əvvəllərinə qədər Azərbaycanda sudan istifadə yerli adət-ənənələrlə - adətlərlə tənzimlənirdi. Bu məsələ ilə bağlı ilk komissiya 1873-cü ildə su haqqında qanun layihəsini hazırlamaq üçün yaradılsa da, nəzərəçarpacaq nəticələrə nail ola bilmədi. 1883-cü ildə bir layihə hazırlayan yeni komissiya yaradıldı. Onun hazırladığı layihə təkrar müzakirələrdən və düzəlişlərdən sonra 3 dekabr 1890-cı ildə təsdiq edildi [7, c.97]. 1891-ci ildə Qafqazda xüsusi su idarəsinin təşkil olunması barədə qanun verilir. Lakin bu idarənin təşkil olunması da bu diyarda sudan istifadə məsələsini tam qaydaya sala bilməmişdi [17, c.29].

XX əsrin əvəlləri üçün Şimali Azərbaycanda olan 6 milyon desyatin münbit torpağın təxminən 75-80%-i süni suvarma tələb edirdi. Lakin 1905-ci ildə bu torpaqların cəmi 895890 desyatini, yəni 15%-dən çoxu süni şəkildə suvarılırdı. 1905-1907-ci illərdə toqquşmalar zamanı bir çox arxlar, kəhrizlər və digər suvarma qurğuları ya tamamilə dağılmış, ya da suvarma imkanlarını xeyli itirmişdilər [8, c.47].

1900-cü il iyunun 12-də yeni vergi islahatı haqqında qanun qəbul edildi. "Qafqazda xəzinənin xeyrinə toplanan evbaşı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında" qanununa əsasən 1901-ci il yanvarın 1-dən başlayaraq tüstübaşı və torpaq vergiləri və pul torpaq vergisi dövlət töycü mükəlləfiyyəti və dövlət torpaq vergisi ilə əvəz olundu. Feodal rentası dövlət kəndlilərindən töycü mükəlləfiyyəti, sahibkar kəndlilərindən isə torpaq vergisi kimi alınırdı [15, c.758].

1901-ci il yanvarın 1-dən qüvvəyə minən bu qanuna əsasən dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti, bütün başqa torpaqlar üçün torpaq vergisi, həmişəlik zemski vergisi müəyyən olunurdu. Bu qanun verildikdən sonra dövlət kəndlilərinin daşıdıqları mükəlləfiyyətlər daha da ağırlaşdı. Əgər hər ailədən yığılan və hər ev üzrə toplanan vergi 1900-cü ilə qədər bütün Qafqaz üzrə 1,5 mln manat təşkil edirdisə, 1900-cü il qanunu ilə bu vergi iki dəfədən çox artdı [2, s.46].

XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda torpaq fondunun əsas hissəsi dövlət xəzinəsinə aid idi və kəndlilərin böyük əksəriyyəti əsas kənd istehsalçıları olmaqla xəzinə torpaqlarında yaşayırdılar. XX əsrin əvvəllərində torpaqların yenidən bölüşdürülmə faktiki olaraq dayandırıldı. Məsələ burasındadır ki, kəndli yığıncaqlarının üçdə ikisinin səs çoxluğu ilə həll edilməli olan torpaq məsələləri əslində əksər hallarda kətxudalar, kənd hakimləri və nüfuzlu kənd qolçomaqları və sələmçilər tərəfindən həll edilirdi. Yoxsulların təzyiqi altında kənd yığıncaqları torpaqların yenidən bölüşdürülməsi haqqında qərar qəbul etməyə məcbur olduqda belə, onlar uzun illər geniş torpaq

sahələrini qoruyub saxlamaqda maraqlı olan kənd qolçomaqları sayəsində yerinə yetirilmədən qaldı [7, c.73].

Dövlət kəndliləri pay torpaqlarından istifadəyə görə vergi ödəyirdilər. Bundan əlavə çarizm bürokratik idarə aparatın saxlanması üçün onlardan zemstvo vergisi və hərbi vergi alırdı. 1901-ci il vergi islahatına qədər dövlət kəndlilərindən alınan əsas dövlət vergisi tüstübaşına alınan vergi idi. İslahatdan sonra isə töycü alınmağa başlanılır. Bu iki əsas vergidən əlavə, 1887-ci ildən etibarən müsəlman əhalidən hərbi vergi də tutulurdu. Kəndlilər çoxsaylı əlavə vergilərə də xeyli vəsait xərcləyirdilər. Belə ki, 1904-cü ildə Bakı quberniyasının kəndliləri kənd icmasından toplanan 8 daimi belə vergi üçün 249702 rubl və 10 müvəqqəti vergi üçün isə 197069 rubl, cəmi 446771 rubl vəsait sərf edirdilər. Beləliklə, hər kəndli həyətinə 5,32 rubl, adambaşına isə 0,71 rubl düşürdü. Vergilərin sayı və həcmində xüsusilə kəskin artım çarizmin imperialist müharibəsinin ehtiyacları üçün yeni maliyyə resursları axtarmağa başladığı 24 dekabr 1914-cü il tarixli qanun əsasında həyata keçirildi. Bu qanuna əsasən, dövlət töycü vergisinin illik miqdarı artırılırdı [7, c.77].

Bakı quberniyasının kəndliləri 1913-cü ildən başlayaraq hər il xəzinə palatasına 131678 rubl ödənc verməli idilər. Kəndlilər belə məbləği ödəyə bilmədiklərindən qalıq borc növbəti ilə keçirdi. İlk hesablama siyahılarının tərtib edilməsilə əlaqədar 1913-cü il yanvarın 1 - dən ləğv olunmuş mükəlləfiyyət əvəzində bəylər ödənc almağa başladılar. 1915-ci il yanvarın 1-nə qədər Zaqatala dairəsinin 47 kəndi üzrə 1583 torpaq sahibinə ödənc pulu almaq üçün vəsiqə verildi. Torpaq sahibləri həmin vəsiqələr üzrə 241811 rubl ödənc pulu almışdılar. 1915-ci il yanvarın 1-nə qədər Zaqatala dairəsində ikinci və üçüncü barışdırıcı şöbələrdə torpaq sahiblərinin ödənc pulunu alması başa çatdırılsa da birinci barışdırıcı şöbədə bəylərə və keşkəl sahiblərinə 16962 rubl borcu qalmışdı [2, s.52].

1917-ci ildə Bakı quberniyasında dövlət kəndlilərinin pay torpaqları 1,29 milyon desyatin, Zaqatala dairəsi istisna olmaqla, bütün Azərbaycanda isə 2,1 milyon desyatin idi [7, c.66].

Bu fəsildə aparılmış tədqiqata yekun vuraraq qeyd etmək lazımdır ki, çar Rusiyası Cənubi Qafqazın quberniyalarında kənddə kəskinləşmiş ictimai münasibətlərdəki gərginliyi bir qədər yumşaltmaq məqsədilə XIX əsrin sonu – XX əsrin əvvəllərində bir sıra aqrar islahatlar həyata keçirmişdir.

1912-1913-cü illərdə verilmiş aqrar islahatları isə bu istiqamətdə edilmiş sonuncu cəhd idi. Həmin qanunlara görə xüsusi mülkiyyətdə olan kəndlilər torpaq mülkiyyətçilərinin xeyrinə rüsumlardan azad edilirdi və onlar öz paylarını ödənc ödəməklə almağa borclu idilər. Dövlət torpaq mülkiyyətçilərinə pay torpaqlarının kəndlilərin mülkiyyətinə keçməsi üçün haqq ödəməli, kəndlilər də müəyyən müddət ərzində dövlətə olan borclarını ödəməli idilər. Əvvəllər qəbul edilmiş aqrar qanunlara 1912-1913-cü illərin qaydalarında nəzərdə tutulmuş əlavələr Azərbaycan kəndlərində sosial gərginliyin yumşaldılmasında müəyyən rol oynasa da, son dərəcə kəskinləşmiş problemlərin yükünü aradan qaldıra bilmədi.

***Nəticə.*** 1912-1913-cü illər qanunları aqrar məsələni həll edə bilmədi. Çünki mülkədarlar yenə də öz torpaqlarını zor tətbiq etməklə kəndlilərə satır, onları bu torpaq üçün külli miqdarda pul verməyə məcbur edirdilər. Həmin qanun aktları kəndliləri qarət edir, onları yenə də torpaq sahiblərinin əsarətində saxlayırdı. Lakin kəndlilərin pay torpaqlarını ödənclə alması faktı burjua xarakterli hadisə olmaqla öz məzmununa görə islahatlar burjua xarakteri daşıyırdı. Məhsul mülkiyyətinin ləğv edilməsi, kəndlinin ödənc ödəməyə başlaması sahibkar kəndində kapitalist münasibətlərinin inkişafını, təbəqələşməni daha da sürətləndirirdi, yoxsullaşmış və əmlakdan məhrum olmuş kəndlilərin sayını artırırdı, tavanalı və tavanasız kəndli qrupları özünü daha aydın göstərməyə başlayırdı.

## ƏDƏBİYYAT


1. Авалиани А.Л. Крестьянский вопрос в Закавказье. –Т. IV. –Тифлис: изд. Тифлисского гос. ун-та, 1920, 229 с.
2. Azərbaycan tarixi. 7 cilddə, cild V. Bakı: "Elm", 2008, 696 s. + 40 s. illüstrasiya.
3. Акты, собранные Кавказской археографической комиссией: т. XII. Тифлис: Тип. Главного Управления Наместника Кавказского, 1904, 1558 с.

4. Baxşəliyev F. XIX əsrin 70-90-cı illərində Azərbaycan sahibkar kəndində kəndli təsərrüfatlarının təbəqələşməsi // Tarix və onun problemləri, 2013, № 2, s. 250-255.
5. Baxşəliyev F.E. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində təsərrüfatçılığın yeni sahələrinin yaranması və genişlənməsi // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. 2013, № 3. S. 56-61.
6. Baxşəliyev F.E., İsmayılov F.S. XX əsrin əvvəllərində Şimali Azərbaycanın sahibkar kəndində kapitalist münasibətlərinin inkişaf istiqamətləri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2014, № 3, s. 68-74.
7. Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX-начале XX вв. Баку: Тахсил, 2007, 224 с.
8. Гусейнов Д.Х. Национально-освободительное движение в Азербайджане в начале XX в. (1900-1907 гг.). Баку: “El-ALliance”, 2001, 256 с.
9. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı: ADU, 1985, 66 s.
10. Исмайлов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX в. Баку: Издательство Академии наук Азербайджанской ССР, 1964, 304 с.
11. Исмаилов Э. Очерки по истории Азербайджана. Москва: Издательство “Флинта”, 2010, 424 с.
12. Исмаилова А.М. Особенности проведения крестьянской реформы на Южном Кавказе в пореформенный период // Вестник Дагестанского государственного университета. 2014. Вып. 4, с. 167-173.
13. Мотревич В. П. Аграрная история России (IX–XX вв.). Екатеринбург: Урал. аграр. изд-во, 2012, 448 с.
14. Полное собрание законов Российской империи. второе собрание (1825-1881), Т. 52 (1877), часть 2-я, 343 с.
15. Полное собрание законов Российской империи. Третье собрание (1881-1913), Т. XX (1900), часть 1-я, 1168 с.
16. Сегаль И.Л. Крестьянское землевладение в Закавказье. – Тифлис тип. К.П. Козловскаго, 1912, 162 с.
17. Туманов Г. Земельные вопросы и преступность на Кавказе. СПб.: Типография П.П.Сойкина, 1900, 109 с.

**ДЖЕЙХУН ГУСЕЙНОВ**
*Докторант Института истории им. А.А.Бакиханова*

# О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ АГРАРНОЙ ПОЛИТИКИ ЦАРСКОЙ РОССИИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX ВЕКА

Как известно, в первой половине и середине XIX века аграрная политика царской России в Северном Азербайджане носила очень нестабильный характер. Незнание особенностей местных аграрных отношений, а также желание как можно быстро и обильно получить доходы с местного сельского хозяйства иногда подбивали царских властей бросаться из одной крайности в другую. Только в последней трети XIX века аграрная политика царизма здесь приобретает стройный характер и царское правительство систематическими мероприятиями старается завершить экономическое присваивание этой провинциальной окраины Российской империи. Но, тем не менее, проведенные реформы и другие многочисленные мероприятия не привели к заветной мечте царского правительства, и поэтому ряд реформ были продолжены и в начале следующего столетия.

*Ключевые слова:* Азербайджан, Россия, реформа, сельское хозяйство, правительство, деревня, губерния.

**JEYHUN HUSEYNOV**
*Doctoral student of the Institute of History named after A.A.Bakikhanov*

## ON SOME FEATURES OF THE AGRARIAN POLICY OF TSARIST RUSSIA IN NORTHERN AZERBAIJAN AT THE END OF THE 19TH CENTURY

As is known, in the first half and the middle of the 19th century, the agrarian policy of tsarist Russia in Northern Azerbaijan was very unstable. Ignorance of the peculiarities of local agrarian relations, as well as the desire to get income from local agriculture as quickly and abundantly as possible, sometimes incited the tsarist authorities to rush from one extreme to another. Only in the last third of the 19th century did the agrarian policy of tsarism acquire a harmonious character here, and the tsarist government, by systematic measures, tries to complete the economic appropriation of this provincial outskirts of the Russian Empire. But, nevertheless, the reforms carried out and numerous other events did not lead to the cherished dream of the tsarist government, and therefore a number of reforms were continued at the beginning of the next century.

*Keywords:* Azerbaijan, Russia, reform, agriculture, government, village, governorate.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Ramin Niftəliyev, t.e.d. Qabil Əliyev.*

UOT 94; UOT 94"19/..."

**NƏRGİZ ƏLİYEVA**
*Bakı Dövlət Universiteti*
*Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının doktorantı*
**nargiz.aliyeva-7@bsu.edu.az**

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN SONLARINDA BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ NEFT AMİLİ

1917-ci ildə *Rusiyada siyasi rejimin dəyişməsi nəticəsində regionda yaranan daxili siyasi böhran Böyük Britaniyanın müharibə maraqlarına ciddi zərbə vurmuşdu. Bolşevik çevrilişindən sonra isə Şərq cəbhəsinin süqutu Böyük Britaniyanın regiona müdaxiləsini zəruri hala gətirmişdi. Böyük Britaniyanın Cənubi Qafqazla bağlı aktiv siyasəti 1917-ci ilin sonlarından etibarən başlamışdı. Məqalədə Böyük Britaniyanın general Denstervilin başçılığı ilə göndərilmiş ilk missiyasının məqsədinin iqtisadi deyil, hərbi və strateji aspektlərdən irəli gəldiyi izah edilmişdir. Belə ki, Böyük Britaniya üçün prioritet məsələ Hindistanı və Əfqanıstanı düşməndən qorumaq üçün Xəzər dənizinə və Cənubi Qafqaza nəzarət etmək idi.*

*Açar sözlər*: Böyük Britaniya, Cənubi Qafqaz, Birinci Dünya müharibəsi, neft, Rusiya.

***Giriş***. Üç il sürən müharibə həmçinin qərb cəbhəsindəki hərbi məğlubiyyətlərlə yanaşı imperiyadakı qeyri-sabit daxili vəziyyət 1917-ci ilin əvvəllərində Rusiya İmperiyasında çar rejiminin devrilməsi ilə nəticələndi. Baş verən hadisələr isə öz növbəsində Böyük Britaniyanın həm Qərb həm də Şərq cəbhəsindəki hərbi-siyasi planlarına ciddi təhlükə yaratmışdı. Müvəqqəti Hökumətin müttəfiqlərə və müharibəyə olan münasibəti Fransa və Böyük Britaniya üçün həyati əhəmiyyətli məsələyə çevrilmişdi. Qısa müddət içərisində yeni hökumət rəsmiləri düşmən üzərində qələbə əldə olunana qədər döyüşəcəklərini, bununla yanaşı Çar Rusiyası ilə müttəfiqlər arasında əldə edilən bütün razılaşmalara sadiq olduqlarını bildirdilər [3, p.14]. Lakin Müvəqqəti Hökumət ilə Fəhlə və Əsgər Deputatları Soveti arasındakı rəqabət Müvəqqəti Hökumətin müharibəyə və müttəfiqlərə olan münasibətinin əhəmiyyətini azaldırdı. Tiflisdə fəaliyyət göstərən ingilis hərbi agenti kolonel F.G. Marş 1917-ci il 27 aprel hesabatında qeyd edirdi ki, Fevral inqilabından sonra Rusiyanın bir çox yerlərində olduğu kimi Cənubi Qafqazda da ordu strukturu dəyişdirilmişdi. 1917-ci ilin mart ayının sonlarından etibarən Çar Rusiyası dönəmində fəaliyyət göstərən Qafqaz canişinin vəzifəsini Müvəqqəti Hökumətin təyin etdiyi dörd nəfərdən ibarət kollegiya öz üzərinə götürmüşdü. Lakin görülən tədbirlərə baxmayaraq Fəhlə və Əsgər Deputatları Sovetinin təşəbbüsü ilə regionda fəaliyyət göstərən orduda nizam – intizamın pozulması ilə Qafqaz və İran cəbhələrinin tədricən dağılması prosesi başlamışdı. İngilis hərbi agentinin fikrincə, müttəfiqlərin Rusiyanı müharibədə saxlamaq üçün yeganə çıxış yolu Fəhlə və Əsgər Deputatları Sovetinin rəhbərlərinə yaxınlaşıb, təsir göstərmək idi. Belə ki, artıq Böyük Britaniya hökumətinə aydın idi ki, Petroqradda ikihakimiyyət hökm sürür və ordunu bilavasitə əlində saxlayan Fəhlə və Əsgər Deputatları Sovetinin rəhbərliyi qəti şəkildə müharibənin davam etdirilməsinin əleyhinədir. [12] Buna görə də, Rusiya cəmiyyətində və dövlətində baş verən inqilabi dəyişiklik Britaniya və onun müttəfiqləri üçün böyük itki idi. Eyni zamanda Rusiyanın müharibədən çıxacağı təqdirdə Qafqaz və İran cəbhəsində orduda olan dağınıqlıq Almaniya və Osmanlı İmperiyasına bu regionda hərbi və siyasi mövqe qazanmasına kömək edəcəkdi [13, p.303].

***Müharibə dövründə Cənubi Qafqazın hərbi-siyasi əhəmiyyətinin artması.*** Bolşevik çevrilişi müttəfiqlərin Şərq cəbhəsindəki vəziyyətini daha da çıxılmaz hala salmışdı. Belə ki, bundan əvvəl Müvəqqəti Hökumət Rusiyanı düşməndən müdafiə məqsədilə müharibədə saxlamışdısa, indi hakimiyyətə gələn bolşeviklər dərhal Almaniya və Osmanlı İmperiyası ilə sülh müqaviləsi bağlayaraq müharibədən çıxmağa can atırdı [2, p.56].

Britaniyanın müharibə dövründə Rusiyanın daxili – siyasi məsələlərinə qarışacaq hərbi və maddi imkanı yox idi. Böyük Britaniya hökuməti mümkün təhlükənin qarşısını almaq üçün həll yolu kimi, Bolşevik Hökumətini Çar Rusiyası ilə müttəfiqlər arasında bağlanmış müqavilələrə sadiq

olacaqları təqdirdə de-fakto tanımağa hazır idi. İngilislərin bu siyasətindəki əsas prioritet məsələ isə, Qərb cəbhəsi ilə yanaşı Yaxın Şərq hərbi kampaniyasında əldə etdikləri uğurları düşmənin xeyrinə itirməmək idi [3, p.20]. Lakin Bolşevik hökumətinin müharibəyə qarşı münasibəti Antanta ölkələrinin əleyhinə olduğu üçün Fransa və İngiltərə qısa müddət ərzində Rusiyaya hərbi müdaxilə etməyə hazırlaşırdılar. Fransa və İngiltərə arasında 1917-ci ilin dekabrın 23-də bağlanan müqavilədə müttəfiqlər Rusiyanın cənubunun parçalanmasına dair razılığa gəldilər. Belə ki, müqaviləyə əsasən Fransa Qara dənizin şimalında düşmənə qarşı müqavimət göstərməli idi. Qara dənizin cənub – şərqi yəni Qafqaz regionu isə Böyük Britaniyanın nüfuz dairəsinə daxil olurdu [1, s.114].

1917-ci ilin sonlarından etibarən Qafqazın Almaniya üçün əhəmiyyəti əsasən iqtisadi və strateji faktorlara əsaslanırdı. Mərkəzi Güclər üçün yeganə neft mənbəyi Ruminiya və Qalisiya nefti olduğu üçün Bakı nefti xüsusilə iqtisadi baxımdan Almaniya üçün həyati əhəmiyyət kəsb edirdi. İngilislərin əldə etdikləri kəşfiyyat mənbələrinə görə, Bakı və Qrozni neft yataqlarının hasilatı Ruminiya və Qalisiyanın neft hasilatından dörd dəfə çox idi. Beləliklə, Almaniya bu neft yataqlarının hasilatının yarısını təmin edərsə, neft ehtiyatları üç dəfə artacaqdı. Britaniya üçün əsas təhlükəli məqam isə, Almaniyanın Qafqazı işğal edəcəyi təqdirdə region onun üçün əsas xammal və ərzaq tədarükçüsü ola bilərdi [11].

İngilis hərbi administrasiyasının Cənubi Qafqazla bağlı siyasəti isə regionun xristian əhalisi (gürcülər və ermənilər) arasından ingilislərin rəhbərliyi altında Osmanlı ordusuna qarşı müqavimət göstərəcək yeni bir ordunun təşkil edilməsi sxemi idi. Yaradılacaq yeni ordu Britaniyanın İraqdakı qüvvələrinin sağ cinahını qorumağa xidmət edəcəkdi. Bununla yanaşı Osmanlı İmperiyasının hərbi – siyasi dairələri tərəfindən irəli sürülən "Turan hərəkatına" qarşı sədd təşkil edə bilərdi. Bu sxemin qurulmasını isə əvvəllər Hindistanda ingilis ordusunun zabiti vəzifəsində çalışan general-mayor C.L.Denstervilə tapşırılmışdı [6, p.69]. General Denstervil gürcülər və ermənilərdən əlavə ukraynalılar və kazakların yerli hökumətləri ilə əlaqəyə girərək onları gələcəkdə mümkün olan Almaniya – Rusiya – Osmanlı blokuna qarşı Cənu-Şərq İttifaqına cəlb etməli idi. Lakin bu məsələdə ki, problem Cənubi Qafqazın yerli əhalisi əsasən sosialist olmaqla yanaşı anti-militarist mövqelərə sahib idilər. Kazaklar isə onların əksinə monarxizmə meylli idilər [7, p.34-37]. Məhz bu səbəbdən Denstervilin Qafqazdakı missiyasının əsas xarakteri hərbi deyil, daha çox siyasi bacarıqlar tələb edirdi.

1918-ci ilin əvvəllərində Böyük Britaniyanın mərkəzi Tiflisdə yerləşən Qafqaz missiyasının rəisi vəzifəsində çalışan general Offli Şor Həmədanda general Denstervillə görüşən zaman Cənubi Qafqazda yerli əhali arasındakı əhval-ruhiyyəni ona çatdırmışdı. Offli Şorun ilkin məlumatına görə gürcülər türklərə qarşı müqavimətdə ingilislərin köməyinə arxalanmaqdansa almanlarla sövdələşməni daha məqsədə uyğun hesab edirdilər [9, p.17-18]. Bu səbəbdən də, Müharibə Kabinetinin verdiyi qərara əsasən general Denstervil qısa müddətdə Qafqaz hərbi missiyasına kömək etmək üçün Tiflisə getməli idi.

1918-ci ilin mart ayında imzalanan Brest-Litovsk sülh müqaviləsi nəinki Osmanlı imperiyasına, həmçinin, Almaniyaya da Qafqaza nüfuz etməsi üçün yeni fürsətlər vermişdi. Artıq 1918-ci ilin aprel ayında Böyük Britaniyanın Tiflisdəki qüvvələri Gürcüstan ərazisinə alman qoşunları yerləşdirilməzdən əvvəl şəhəri tərk etmək məcburiyyətində qalmışdı. Almanların və türklərin regionda irəlilədiyi bir zamanda Böyük Britaniyanın hərbi administrasiyası üçün əsas prioritet məsələ düşmənin mümkün qədər Xəzər hövzəsinə yaxınlaşmasına maneə olmaq idi. Buna görə də, ingilislər qısa müddətdə Xəzər donanmasına nəzarət etməklə yanaşı, İranın şimal-qərb dəhlizində təhlükəsizliyi də qoruyub saxlamalı idilər. Hərbi komitə tərəfindən Bağdaddakı qüvvələrə başçılıq edən general Marşala dərhal mövcud qüvvələri Denstervilə kömək üçün göndərməsi əmri verilmişdi. Lakin general Marşal hərbi qüvvələrin İran və Xəzər bölgəsindən daha çox Yaxın Şərq bölgəsində türklərə qarşı müdafiəni təşkil etmək üçün lazım olduğuna inanırdı [10, p.282-283]. General Marşaldan fərqli olaraq Denstervil üçün ilk növbədə Bakının təhlükəsizliyini təmin etmək həm Xəzər dənizinə nəzarət etmək üçün, həm də neft mənbələrini düşmənin əlinə keçməsinə maneə olmaq üçün zəruri idi [4, p.188].

Bakı sakinlərinin əksəriyyətinə (ermənilərə və ruslara) aydın idi ki, öz səyləri ilə şəhəri düşməndən müdafiə edə bilməyəcəklər. Bolşeviklər müharibə dövründə neftə olan böyük tələbat üçün nəyin bahasına olursa, olsun Bakının müdafiəsini təşkil etmək fikrində idilər. Lakin bu işdə

ingilislərin Bakıya gələrək, onlara kömək etməsinin əleyhinə idilər. Beləliklə, Bakı Soveti daxilində baş verən siyasi böhran nəticəsində Xalq Komissarlar Soveti buraxıldı. Bakı Soveti dağıldıqdan sonra erməni millətçilərinin dəstəklədiyi Sentro Kaspi Diktaturası quruldu. Yeni hökümətin qəbul etdiyi qərara əsasən Bakının müdafiəsini təşkil etmək üçün ingilislər şəhərə dəvət ediləcəkdi. Uzun müddət bu fürsəti gözləyən general Denstervil Ənzəli limanındakı rus gəmilərini ələ keçirərək Bakıya doğru hərəkətə keçdi [7, p.137; 141-143]. Lakin, qeyd edilməlidir ki, Şərq Komitəsinin sədri Lord Kerzon Denstervilin qüvvələri ilə Bakıya doğru hərəkət etməsinə qarşı idi. Belə ki, Lord Kerzon qətiyyətlə bildirirdi ki, ingilis qüvvələrinin əsas hədəfi İran cəbhəsində türklərin irəliləməsinin qarşısının almaqdır. İrandakı ingilis qüvvələrinin Bakıya aparılacağı təqdirdə, İran səddi zəifləyəcəkdi. Bakıya müdaxilə məsələsi Böyük Britaniya hərbi dairələrində fikir ayrılıqlarına səbəb olsada, Osmanlı – Azərbaycan qoşunlarının sürətlə ölkənin qərbindən şərqinə doğru irəliləməsi bu fikir ayrılıqlarının bir kənara qoyulmasını labüd edirdi. İşğaldan sonra ingilislərin əsas məqsədi düşmən qüvvələrindən Bakı neftini qorumaq, hər hansı bir təhlükə olduğu təqdirə isə neft kəmərlərini və quyularını məhv etmək idi [5, p.35; 42].

İngilislərin Bakını ələ keçirməsi, həm Almaniya, həm də Sovet Rusiyası üçün böyük bir zərbə oldu. Beləki, Almaniya Bakını ələ keçirmək üçün həmçinin Osmanlı qüvvələrini buradan uzaqlaşdırmaq məqsədilə Qafqaza yeni hərbi qüvvələr göndərmişdi. Bütün bunlara baxmayaraq, ingilislər özləri də Bakıda mövqelərini qoruyub saxlaya bilmədi. Sentyabrın 14-də baş verən qeyri - bərabər döyüşdə, Azərbaycanın istiqlalı üçün canlarından keçməyə hazır olan Qafqaz İslam Ordusu qalib gəldi. Beləliklə, 15 sentyabr 1918-ci ildə Bakı düşmən ünsürlərdən təmizlənir [1, s.128; 131].

Elmi ədəbiyyatlarda Densetvilin missiyasının uğursuzluğu və məqsədi ilə bağlı müxtəlif təzadlı fikirlər mövcuddur. Tarixçilər missiyanı müttəfiqlərin Rusiyadakı vətəndaş müharibəsinə müdaxiləsinin ilkin mərhəlisi və yaxud da Yaxın Şərq hərbi kampaniyasının son mərhəsləsi kimi xarakterizə edirlər.

Denstervilin missiyasının uğursuzluqla başa çatmasına aşağıdakı üç əsas amil əsaslı təsir göstərdi:

1. Şimal-qərbi İrandakı Şahsevən, Gilandakı Cəngəli hərakatının rəhbərləri həmçinin, Ənzəlidə bolşeviklərin ingilislərə qarşı təbliğatı nəticəsində ingilis qüvvələri Bakiya olduqca gec çatdılar. Bu zaman artıq Bakı "İslam Ordusu" tərəfindən mühasirəyə alınmışdı. Bütün bunlardan əlavə 1918-ci ilin yay aylarına qədər İranda fəaliyyət göstərən keçmiş çar Rusiyasının hərbi hissəsinə başçılıq edən Lazar Biçeraxovun ingilislər və bolşeviklər arasında müxtəlif vasitələrlə siyasət dəyişdirməsi Denstervilin işinin çətinləşməsinə şərait yaradırdı;
2. Denstervilin sərəncamında olan hərbi qüvvələrin və texnikanın məhdudluğu;
3. Ruslar və ermənilər arasındakı fikir ayrılığı səbəbindən şəhərin müdafiəsinin düzgün təşkil edilməməsi [8, p.136].

Bütün bunlara baxmayaraq, missiya 1918-ci ildə Böyük Britaniyanın Şərq strategiyasında mühüm rola malik idi. İngilislərin Bakıdakı mövcudluğu düşmən dövlətlərin Bakı neftini əldə etməsini təxmini altı həftə gecikdirdi. Həmçinin ingilislər Bakını tərk etdiyi müddətdən sonra da Mərkəzi Güclər Bakı neftini tədarük edə bilmədilər. Nəzərə alsaq ki, Qərb cəbhəsində almanlar kəskin neft qıtlığı ilə üzləşdiyi bir zamanda bu şərait Müttəfiqlər üçün əhəmiyyətli uğur idi [6, p.80].

Həmçinin 1918-ci ildə Böyük Britaniyanın Qafqaz missiyasının əsas məqsədi iqtisadi maraqlar deyil də, özünün Orta Şərqdəki mövqeyini qoruyub saxlamaq idi. Bu missiyanın rəsmi icmalı Şərq Komitəsinin üzvü Edvin Montaqu tərəfindən yazılmış memorandumda təsvir edilmişdir. Belə ki, o missiyanın üç əsas məqsədinin olduğunu vurğulayır. İlk mühüm məqsəd erməniləri "türklərin zülmündən qorumaq"; Hindistanı almanların və türklərin hücumlarından qorumaq; və nəhayət İraqdakı ingilis qüvvələrinin sağ cinahını qorumaq idi. Şəraitdən asılı olaraq 1918-ci ildə Böyük Britaniyanın Qafqazla bağlı əsas siyasəti müdafiə məqsədi güdürdü [8, p.137].

1918-ci ilin sentyabrın sonlarında türklərin Suriya və Fələstin bölgəsində yaşadıqları ardıcıl məğlubiyyətlər həmçinin Bolqarıstanın Antantaya məğlub olması onların müharibədəki vəziyyətini kəskinlədirdi. Beləliklə, türklər 1918-ci ilin 30 oktyabr tarixində Antanta ilə atəşkəs imzalamağa məcbur oldular. Atəşkəsin əsas müddəalarından biri də, türk ordusunun dərhal Qafqazdan və şimal – qərbi İran ərazisindən çıxarılması idi. Buna baxmayaraq, almanların hələ də Gürcüstan ərazisindəki varlığı, Rusiyadakı davam edən vətəndaş müharibəsi Böyük Britaniyanın regiondakı maraqlarına

ciddi zərbə vururdu. Məhz, bu səbəblərdən Böyük Britaniyanın öz imperialist maraqları uğuruna Cənubi Qafqazı işğal etməsi zəruri hal idi [3, p.97].

Hərbi Komitə Qafqazı və Bakını işğal etməyi general-mayor V.M.Tomsona həvalə etmişdi. Böyük Britaniya bu missiyanın beynəlxalq xarakterə malik olduğunu göstərmək üçün missiyanın tərkibinə az saylı Müttəfiqlərin də heyətini daxil etmişdi. Böyük Britaniya hökuməti bu missiyada Azərbaycan hökumətini rəsmi şəkildə tanımasa belə, Antanta ölkələri ilə birgə onun faktiki hökuməti ilə danışıqlar aparırdı. Belə ki, Böyük Britaniya hökuməti Azərbaycana hələ də keçmiş Rusiya imperiyasının bir hissəsi kimi yanaşırdı. Məhz bu səbəbdən də, general Tomson Bakı neftinin bolşeviklərin və ingilislərin mənafeyinə zərər vuracaq hər hansı bir ünsürün əlinə keçməsinin qarşısını almaq üçün neft hasilatını da öz nəzarətinə götürür. Böyük Britaniyanın Cənubi Qafqaza tam nəzarət etməsi üçün təkcə Bakının işğalı kifayət etmirdi, bu şəraitdə Tiflis və Batum şəhərlərinin də işğalı zəruri idi. Tiflis və Batumun işğalı nəticəsində Batumla Bakı arasındakı dəmir yolu xətti də ingilislərin nəzarəti altına keçəcəkdi [7, p.163-164; 169].

***Nəticə.*** Müharibənin ilk illərində Qafqaz cəbhəsi Antanta üçün ikinci dərəcəli cəbhə idisə, çar Rusiyasının devrilməsindən sonra region xüsusilə Böyük Britaniya üçün mühüm əhəmiyyət kəsb etməyə başlamışdı. Qeyd edildiyi kimi, Böyük Britaniyanın Qafqaza göndərdiyi birinci missiyanın əsas məqsədi alman, həmçinin, türk qoşunlarının Azərbaycan ərazisindən keçərək Hindistan və Əfqanıstan üçün mümkün gələcək hərbi təhlükələrin qarşısını almaq idi. Şübhəsiz, ingilislərin regionla bağlı bu siyasətində bölgənin strateji əhəmiyyətindən əlavə neft amili də az rol oynamamışdır. Çünki müharibənin son illərində neft ciddi şəkildə əhəmiyyət qazanmağa başladı. Döyüşən dövlətlər müharibəni davam etdirmək üçün təhlükəsiz neft mənbələrinin axtarışında idi. Beləliklə, Böyük Britaniyanın müharibə bitdikdən sonra Qafqaza göndərdiyi ikinci missiyanın məqsədi isə, bolşevikləri Bakı neftindən məhrum etmək, həmçinin, Sovet Rusiyasına qarşı hərbi mübarizə təşkil etmək üçün mərkəzi Bakıda yerləşən baza yaratmaq idi.

## ƏDƏBİYYAT


1. Həsənli, C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). - Bakı, "GARISMA" MMC, - c.1 - 2009, - 576 s.
2. Brian, P. Dunsterforce and the defence of Baku, August – September 1918. // Revolutionary Russia, - 1997, vol.10, - p.55-71.
3. Caglayan, K. T. British Policy Towards Transcaucasia, 1917-1921. - New Jersey, Gorgias Press, - 2010, - 261 p.
4. Dunsterville, L. C. The Adventures of Dunsterforce. – London, - Edward Arnold, - 1920, 372 p.
5. Gokay, B. The battle for Baku (May-September 1918): a peculiar episode in the history of the caucasus. // Middle East Studies, - 1998, vol.34, - p.30-50.
6. Head, M. The Caspian Campaign: part I: first phase – 1918. // Warship International, - 2016, vol.53, no.1, - p.69-81.
7. Kazemzadeh, F. The struggle for Transcaucasia, 1917-1921. – New York, reprinted Hyperion Press, - 1981, 356 p.
8. Lemon, E.J. Dunsterforce or Dunsterfarce? Re-evaluating the British mission to Baku, 1918. // First World War studies, – 2015, vol.6, - p.133-149.
9. Lenczowski, G. Russia and the West in Iran, 1918-1948. - New York, - Cornell University Press, - 1949, 383 p.
10. Marshall, W. Memories of Four Fronts. – London, - Ernest Benn, Ltd, - 1929, 340 p.
11. Memorandum on the Caucasus by the Political Intelligence Department of the Foreign Office // The National archives of UK, CAB 24/52/G.T.4509.
12. Report from Col. F.G.Marsh, Caucasus military agent, dated April 27, 1917, Tiflis // The National archives of UK, CAB 24/14/G.T.874.
13. Ullman, R. Britain and the Russian Civil War 1917-1921. - Princeton, - Princeton University Press, vol 1, - 1961, 360 p.

**НАРГИЗ АЛИЕВА**
*Бакинский государственный университет*
*Докторант кафедры новой и новейшей истории стран Европы и Америки*

## НЕФТЯНОЙ ФАКТОР В ПОЛИТИКЕ ВЕЛИКОБРИТАНИИ НА ЮЖНОМ КАВКАЗЕ

В 1917 г. в результате смены политического режима в России внутриполитический кризис в регионе серьёзно затронул военные интересы Великобритании. После большевистского переворота крах Восточного фронта потребовал вмешательства Великобритании в регион. Активная политика Великобритании в отношении Южного Кавказа началась в конце 1917 года. В статье пояснялось, что цель первой миссии Великобритании, посланной под руководством генерала Денстервилля, была не экономической, а военно-стратегической. Таким образом, приоритетом для Великобритании стал контроль над Каспийским морем и Южным Кавказом для защиты Индии и Афганистана от врага.

*Ключевые слова:* Великобритания, Южный Кавказ, Первая Мировая война, нефть, Россия.

**NARGIZ ALIYEVA**
*Baku State University*
*Doctoral student of the department of new and modern history of European and American countries*

## THE OIL FACTOR IN THE SOUTH CAUCASUS POLICY OF GREAT BRITAIN AT THE END OF THE FIRST WORLD WAR

In 1917, as a result of the change of the political regime in Russia, the internal political crisis in the region seriously affected the war interests of Great Britain. After the Bolshevik coup, the collapse of the Eastern Front necessitated Great Britain's intervention in the region. Great Britain's active policy regarding the South Caucasus began at the end of 1917. In the article, it was explained that the purpose of the first mission of Great Britain sent under the leadership of General Densterville was not economic, but military and strategic. Thus, the priority for Great Britain was to control the Caspian Sea and the South Caucasus to protect India and Afghanistan from the enemy.

*Keywords*: Great Britain, South Caucasus, World War I, Oil, Russia.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**MEHMAN AĞAYEV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*tarix üzrə fəlsəfə doktoru*
**mehmanaga@mail.ru**

# SULTAN II ƏBDÜLHƏMİD DÖVRÜNDƏ OSMANLI-QACAR XANƏDANLIĞI MÜNASİBƏTLƏRİ

*İranın son türk əsilli xanədanlığı Qacarlar ilə Osmanlı dövləti arasındakı münasibətləri nəzərdən keçirdiyimizdə, enişli-yoxuşlu olduğunu müşahidə etməkdəyiz. Osmanlı-Qacar münasibətlərində mübahisə doğuracaq məsələlərin başında hər iki tərəfin uzun müddət mübarizə apardığı Qafqaz ölkələri üzərində nüfuz qurmaq arzusu və sərhədlərin delimitasiyası; Atabât-ı Âliyedə (Kərbəla, Nəcəf, İraqın şiələr üçün müqəddəs sayılan yerləri) sünni-şiə mübarizəsi; Şərqi Anadoluda Osmanlı-İran sərhəd bölgəsində yaşayan bəzi köçəri tayfaların (əsasən kürd) yaratdığı problemlər; rəsmi Tehranın erməni kartından Osmanlıya qarşı istifadəyə çalışması; Dövlət-i Aliyyəyə sığınan İran rejimi əleyhdarlarının fəaliyyəti gəlməktə idi. II Əbdülhəmid xarici siyasətində "İttihad-ı İslam" amilini əsas tutmaqla bərabər, tarixi şiə-sünni rəqabətini yumşaltmağa çalışaraq Qacarlar xanədanlığı üzərində nüfuzunu hiss etdirməyə çalışmışdı.*

*Açar sözlər*: Sultan II Əbdülhəmid, Osmanlı dövləti, Qacar xanədanlığı, İttihad-ı İslam.

***Giriş***. İranın son türk əsilli xanədanlığı Qacarlar ilə (1795-1925) Osmanlı dövləti arasındakı münasibətləri nəzərdən keçirdiyimizdə, enişli-yoxuşlu olduğunu müşahidə etməkdəyiz. İki dövlət arasında baş verən silahlı hərbi münaqişə yalnız XIX əsrin birinci rübündə görünmüş, sonrakı dövrlərdə bu əlaqələr diplomatiya sahəsində müqavilə maddələrinin müzakirəsi şəklində inkişaf etmişdi.

Ağa Məhəmməd şahın dövründə (1795-1797) Osmanlı-Qacar xanədanlıqları arasında münaqişə olmasa da, xələfi Fəthəli şahın dövründə (1797-1834) başda Rusiya olmaqla Avropalıların da qızışdırması ilə iki dövlət arasında müharibə yaşanmışdı (1821-1823). İranın ətrafında baş verən üsyanlar və taun epidemiyası müharibənin dayandırılmasını sürətləndirmiş, tərəflər arasında Ərzurum müqaviləsi imzalanaraq, iki ölkə arasındakı sərhədlər müharibədən əvvəl mövcud olduğu vəziyyətdə təsdiq olunmuşdu [27, s.157-158].

Ümumiyyətlə, Osmanlı-Qacar münasibətlərini bir neçə məqamda nəzərdən keçirmək olar:

"Birincisi, hər iki tərəfin uzun müddət mübarizə apardığı Qafqaz ölkələri üzərində nüfuz qurmaq arzusu və sərhədlərin delimitasiyasına dair mübahisələr; ikincisi Atabât-ı Âliyedə (Kərbəla, Nəcəf , İraqın şiələr üçün müqəddəs sayılan yerləri) sünni-şiə mübarizəsi; üçüncüsü, Şərqi Anadoluda Osmanlı-İran sərhəd bölgəsində yaşayan bəzi köçəri tayfaların (əsasən kürd) yaratdığı problemlər; dördüncüsü rəsmi Tehranın erməni kartından Osmanlıya qarşı istifadəyə çalışması; beşincisi Dövlət-i Aliyyəyə sığınan İran rejimi əleyhdarlarının fəaliyyəti" [17, s.75; 25, s.53-55].

Sultan II Əbdülhəmid (1876-1909) taxta çıxdığı 1876-cı ildən 1886-cı ilə qədər olan on illik müddətdə Qacar xanədanlığı ilə sıx və yaxşı əlaqələr qurmağa çalışmışdı. II Əbdülhəmidin dövründə iki İslam dövləti arasında dostluğun möhkəmləndirilməsi və birliyin təmin edilməsi istəklərinin qarşılıqlı və müntəzəm şəkildə ifadə edildiyi görünmüşdü. II Əbdülhəmidin hakimiyyəti dövründə İranda Qacar xanədanlığının başında sırası ilə Nasirəddin şah (1848-1897), Müzəffərəddin şah (1897-1907) və Məhəmmədəli şah (1907-1909) olmuşdu [28].

İstanbul və Tehran arasında rəsmi diplomatik münasibətlər XIX əsrin ortalarından etibarən təsis olunmuş, qarşılıqlı olaraq səfir və şehbenderlər ( konsul) təyin olunmuşdu [3, s.40].

II Əbdülhəmid dövründə Tehranda fəaliyyət göstərən Osmanlı səfirlərinin isimləri bu şəkildə idi: Haydar Efendi (1877), Fahri Bey (1878), Ali Galib Bəy (1892-1894), Mehmed Şemseddin Bəy (1894-1895), Münif Paşa (1895-1897), Mehmed Şemseddin Bəy (1897-1908) [29]. Xüsusilə, Mehmet Şəmsəddin bəy İran şahının istəyi üzərinə bu vəzifəyə ikinci dəfə təyin olunmuş, həm

iqtidarla, həm də müxalifətlə qurduğu dostluq sayəsində İrandakı siyasi və ictimai hadisələrdə həlledici rol oynamışdır [13, s.167].

Bu dövrdə İstanbulda fəaliyyət göstərən İran səfirləri arasında isə Mirzə Əlixan Əminəddövlənin ismini ayrıca qeyd edə bilərik. Mütərəqqi qüvvələrə yaxın olan Əli xan Əminəddövlə 1897-ci il aprel ayında İranda baş nazir vəzifəsinə təyin edilmişdi. Ölkədə maarifi inkişaf etdirmək üçün Osmanlı modelinə uyğun yeni tipli məktəblər "rüştiyyələr" təsis etmişdi [15, s.177]. Üminiyyətlə, o dövrdə İranın mütəqrəqqi qüvvələri üçün, "Dövlət-i Aliyyə" qərbə açılan bir körpü, paytaxt "İstanbul" isə Paris rolunu oynamışdı. "Osmanlı modeli" qərb yönümlü islahatların eynisinin İran coğrafiyasında da gerçəkləşdirilməsinə səy göstərilmişdi [7, s.13].

II Əbdülhəmid dövründə iki İslam dövləti arasında dini baxımdan əlamətdar günlərdə (Ramazan, Qurban bayramları, Hz. Məhəmmədin mövludu), Novruz bayramlarında, xanədan üzvlərinin doğum və evliliklərində qarşılqlı təbrik məktublarının göndərildiyi görülmüşdü [15, s.192]. Ramazan aylarında Tehrandakı Osmanlı səfirliyində təşkil olunan iftar gecələrinə İran dövlət adamlarının da dəvət olunduğu, İstanbuldakı dini mərasimlərdə səfir başda olmaqla İran rəsmilərinin də iştirak etdiyi bilinməkdə idi [4, s.165-166].

1897-ci ildə yunanlılara qarşı əldə olunan zəfər Osmanlı ictimaiyyətində olduğu qədər İrandakı müsəlmanlar tərəfindən də sevinclə qarşılanmış, Tehran müctəhidləri bu münasibətlə Bab-ı Aliyəyə təbrik məktubu göndərmişdi [4, s.300-303].

Maraqlı faktlardan biri də 1879 -cu ilin fevralında Tehran səfirliyindən Xarici İşlər Nazirliyinə göndərilən teleqrafda, İranda Məhərrəm ayı və Səfər ayının ilk 10 günündə matəm tutulduğu, Tehranda və Təbrizdə mərsiyyyələr oxunduğu və Osmanlı padişahının adına dualar edildiyi qeyd olunmaqda idi [4, s.172-173].

II Əbdülhəmid dövründə Məhərrəmlik mərasimlərinin keçirilməsinə icazə verildiyi və bu hadisənin mətbuat tərəfindən geniş işıqlandırıldığı görülməkdədir. İstanbulda adətən Validə Han civarında keçirilən bu mərasimlərdə, İran səfirliyinin dəvəti üzərinə bir çox ölkənin diplomat və səyyahlarının da izlədiyi, Müzəffərəddin şah ilə birlikdə Sultan II Əbdülhəmidə böyük sevgi və hörmət göstərildiyi, dualar edildiyi bilinməkdədir [16, s.200-201].

1883-cü ilin oktyabrında iki dövlət arasında Bəyazid və Xoy şəhərləri yolu ilə poçt xəttinin qurulması haqqında müqavilənin imzalanması da müsbət hal kimi qiymətləndirilməlidir [4, s.200-212].

Bundan başqa təbii fəlakətlər və xəstəliklər qarşısında iki dövlətin də həssas davrandığı da gözdən qaçmamalıdır. Ordu qəzasında çıxan böyük yangında zərər çəkənlərə 1884-cü ilin yanvarında İran şahı tərəfindən İstanbul səfirliyi vasitəsilə maddi yardım göndərilmişdi [4, s.194-195].

1892-ci ildə İranla sərhədyanı ərazilərdə xolera xəstəliyinin artması üzərinə Osmanlı hökuməti hərbi-tibb heyətini təcili olaraq bölgəyə göndərərək, humanitar yardımını əsirgəməmişdi [4, s.270-271].

II Əbdülhəmidin əmri ilə 1903 -cü ildə İstanbulda fəaliyyət göstərən mülkiyyəti İrana aid məktəb, xəstəxana və Üsküdar səmtindəki məzarlıq vergilərdən azad olunmuşdu [5, s.360-361].

Görüldüyü kimi, Osmanlı-Qacar münasibətlərində hər nə qədər müsbətə doğru irəliləmə olsa da, müəyyən məsələlərdə mübahisə və gərginliklər də müşahidə olunmuşdu. İlk başlar, Qafqaz ölkələri üzərində nüfuz qurmaq arzusu və sərhədlərin delimitasiyasına dair mübahisələr üzündən iki dövlət arasında müharibə vəziyyəti belə yaranmışdı. 1828-ci il tarixli Türkmənçay müqaviləsi ilə Qacarlar və 1829-cu il tarixli Ədirnə müqavilələri ilə Osmanlı dövləti, Qafqaz ölkələrinin Rusiya tərəfindən işğalını rəsmən tanımışdı. 1847-ci il II Ərzurum müqaviləsinə əsasən isə, iki dövlət arasında sərhədlərin müəyyənləşdirilməsi üçün, İran, Osmanlı, Rusiya və İngiltərə rəsmilərinin iştirak etdiyi bir sərhəd komissiyası qurulmuşdu. Komissiyanın işinə baxmayaraq, dəqiq sərhəd düzəlişinə dair mübahisələr davam etmişdi [21, s.183-194].

Xüsusilə, Kotur bölgəsi iki dövlət arasında mübahisəli ərazi kimi qalmaqda idi. 1877-1878-ci il rus-türk müharibəsində (93 hərbi), tərəfsizliyini elan edən İran, bunun müqabilində Ayastefanos və Berlin müqavilələri ilə bu bölgəni sərhədlərinə qata bilmişdi [7, s.12]. Buna baxmayaraq, iki dövlət arasında sərhəd mübahisələri sonrakı dövrdə də davam etmişdi. İki dövlət arasında sərhəd məsələsi 1913-cü il İstanbul protokolu ilə həll olunmuş görünsə də, I dünya müharibəsi səbəbindən həyata keçirilə bilməmişdi [19, s.182-193].

Rəsmi dini ideologiyası sünni-hənəfi məzhəbi olan Dövlət-i Aliyyənin idarəçiləri Atabât-ı Âliyedə (Kərbəla, Nəcəf, İraqın şiələr üçün müqəddəs sayılan yerləri) şiəliyin yayılmasına və İranın nüfuzunun artmasına qarşı mübarizələrini davam etdirərkən, oradakı şiələrin hüquq və qanunlarının qorunmasına ümumiyyətlə həssaslıqla yanaşmışdılar. Dövlət məmurları insanlar arasında nifrət yaradacaq hərəkətlərin qarşısını almaq üçün mümkün qədər qərəzsiz və ədalətli davranmağa diqqət yetirmişdilər. Ancaq bunu yalnız xoşməramla bağlamaq düzgün deyil. İranla qarşıdurmaya səbəb ola biləcək və ya Osmanlı təbəəsi sayılan şiə nüfuzun qiyam etmə ehtimalının arzuolunmaz olduğu da şübhəsizdir [15, s.136]. Dövlət-i Aliyyənin almış olduğu tədbirlərə baxmayaraq, bölgədə sünni və şiələr arasında zaman-zaman müxtəlif mənfi hadisələrin də baş verdiyi görülmüşdü. II Əbdülhəmid bunun qarşısnı almaq üçün, əhalinin maarifləndirilməsinə səy göstərmiş, bölgədə yeni mədrəsələr açaraq, oraya ülemalar göndərmişdi. Sünni-şiə yaxınlaşmasını saxlamaq üçün şiə müctəhidlərin nüfuzundan da istifadə etməyə çalışmışdı [7, s.15]. O dövrdə İranın daxili siyasətində ingiliz və ruspərəstlərlə bərabər, Sultan II Əbdülhəmidin şəxsində Osmanlı tərəfdarlarının da ortaya çıxdığı görülmüşdü. İran ictimaiyyətində və aydınlar arasında artıq "İttihad-ı İslam" düşüncələri yayılmaya başlamışdı. II Əbdülhəmidlə yaxınlıq quran bəzi şiə müctəhidlərin Osmanlının Tehrandakı səfirliyindən maaş aldığı da bilinməkdədir [7, s.16].

O dövrdə II Əbdülhəmidin açmış olduğu İslam düşüncəsinə dayanan müasir məktəblər də iki ölkə arasında əlaqələrin inkişafına zəmin hazırlamışdı. Bir çox İranlı gənc Osmanlı dövlətinin müsəlman kimliyi və xərclərin daha az olması səbəbi ilə bu təhsil müəsisələrini tərcih etmişdilər. Onu da qeyd etmək lazımdır ki, bu təhsil ocaqlarında elmi biliklərlə yanaşı " Dövlət-i Aliyyəyə sədaqəti aşılayan" təblğatlar da aparılmışdı. Bununla gələcəkdə İranın inzibati idarə sistemində Osmanlıya müttəfiq və tərəfdar ola bilkəcək kadrların yetişdirilməsi hədəflənmişdi [15, s.185-187].

II Əbdülhəmid xarici siyasətində "İttihad-ı İslam" amilini əsas tutmaqla bərabər [9], məqsədi bütün İslam coğrafiyasını Dövlət-i Aliyyənin bayrağı altında birləşdirmək deyildi. Osmanlı sultanı belə bir birləşmə əvəzinə müsəlman ölkələrinin siyasi varlıqlarını olduğu kimi qoruyub saxlamasını, lakin onların hərbi qüvvələrini Osmanlının xidmətinə verməsini qarşısına məqsəd qoymuşdu. II Əbdülhəmid o dövrün şərtləri daxilində türk aləmini də qorumaqdan çəkinməmişdir. O dövrə aid qaynaqlardan da anlaşılır ki, II Əbdülhəmidin mühüm xüsusiyyətlərindən biri də türklük şüuruna sahib olması idi. İslam toplumları arasında ən etibarlı ünsür olaraq türkləri görən II Əbdülhəmid, İtiihad-ı İslam siyasətində mədəni türkçülüyü müdafiə etmişdir [1, s.75].

Sultan II Əbdülhəmid dövründə geniş vüsət almağa başlayan mədəni türkçülük, İran coğrafiyasındakı Azərbaycan türklərinə də təsirsiz ötüşməmişdi. Tarixi şiə-sünni rəqabətini yumşaltmağa çalışan II Əbdülhəmid, əslən türk olan Qacarlar xanədanlığı üzərində nüfuzunu hiss etdirməyə çalışmışdı. Xüsusilə, II Əbdülhəmid İranın nəzarətində olan Cənubi Azərbaycan məktəblərində türk dili qadağasının ləğv edilməsində böyük rol oynamışdır. Qeyd edək ki, həmin vaxt İranın nəzarətində olan Cənubi Azərbaycandakı məktəblərdə türk dilinin öyrədilməsi qadağan idi. II Əbdülhəmid 1900-cü ilin oktyabr ayında İstanbula səfər edən İran şahı Müzəffərəddin Qacarla görüş keçirmiş və həmin görüşün nəticəsi olaraq Azərbaycan məktəblərində türk dili qadağası aradan götürülmüşdü. Tarixçilər hesab edirlər ki, Cənubi Azərbaycan türklərinin tarixi kimliklərinin qorunub saxlamasında bu addımın böyük rolu olub [1, s.76].

O dövrdə bəzi türk münəvvərləri və siyasi xadimləri Osmanlının İttihad-ı İslam siyasətinə də uyğun olaraq, məzhəbləri fərqli olan iki türk dövləti arasında "Osmanlı-Qacar ittifaqı" ideyasını müdafiə etmişdilər. Maraqlısı odur ki, II Əbdülhəmid rejiminə müxalifliklkəri ilə bilinən azərbaycanlı ziyalılarından Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə də türk kimliyinə əsaslanan Qacar-Osmanlı ittifaqına ehtiyac olduğunu vurğulamışdılar [20, s.195].

Sultan II Əbdülhəmidin də əsas məqsədlərindən biri "İslam Birliyi" layihəsinin ən mühüm sütunu olan şiə-sünni birliyini gerçəkləşdirmək idi. Sultan II Əbdülhəmid, şiələri öz tərəfinə çəkərək, şiə-sünni birliyini qurmaq məqsədilə dövrünün böyük islam ideoloqu Cəmaləddin Əfqanidən çox faydalanmışdır [20, s.456-466]. Digər tərəfdən II Əbdülhəmidin onunla razılaşmadığı əsas məsələ müəlman xalqlarını milli oyanışa, milli azadlığa səsləməsi olmuşdu. Osmanlıda da Qacarlarda olduğu kimi, milli azadlıq düşüncəsi türklərdən çox ərəblərin, kürdlərin, albanların və başqa qeyri-türk müsəlman və qeyri müsəlman millətlərin işinə yarayırdı. Bu anlamda II Əbdülhəmidin

Əfqaninin müsəlman xalqları ilə bağlı milli azadlıq ideyasına müsbət baxmaması təbii idi [10, s.6]. Bu arada Əfqaninin müxalifətçilərlə olan yaxınlığı və onun müridlərindən sayılan Mirzə Rza Kirmaninin 1896-cı il mayında Qacar hökmdarı Nasirəddin şahı sui-qəsd nəticəsində öldürməsi, II Əbdülhəmidin narahatlığını daha da artırmışdı [23, s.124-125]. Sultan Əbdülhəmid rəsmi Tehranla əlaqələri gərginləşdirməmək üçün Trabzon zindanında saxlanılan iranlı dustaqların dərhal İran hökumətinə təslim edilməsi əmrini vermişdi [30]. İran hökuməti sui-qəsdə əli olduğu düşüncəsi ilə Əfqaninin də təslimini tələb etsə də, II Əbdülhəmid həm onun müqəssir olduğunu göstərəcək açıq bir sübutun olmamasını əsas götürərək, həm də İslam dünyasında öz etibarının sarsılacağını düşünərək, bu məsələyə soyuq yanaşmışdı [15, s.220]. Fəqət Əfqaniyə qarşı da güvənini itirərək onu göz həbsinə almış, İstanbuldan getmək istəyi rədd edilməklə bərabər, 1897-ci ildə vəfatına qədər də kimsə ilə görüşməsi qadağan edilmişdi [23, s.125].

İki dövlət arasında mübahisə doğuracaq məsələlərdən biri də Şərqi Anadoluda Osmanlı-İran sərhəd bölgəsində yaşayan bəzi köçəri tayfaların (əsasən kürd) yaratdığı problemlər idi. Kürd aşirətləri (tayfa) qıtlıq, münbit torpaq axtarışları, dolanışıq qayğıları, yerli idarəçilərin tətbiq etdiyi təzyiqlər və digər məcburiyyətlər qarşısında təbəəsi olduğu dövlətin ərazisini tərk edb qonşu dövlətin himayəsinə keçməyə cəhd edirdilər. Bu durumda hər iki dövlət öz təbəələrini itirmək istəməmişdi. Çünki bu itki həm vergilərin azalmasına , həm də hərbi xidmətə cəlbdə axsamalara səbəb olmaqda idi. Osmanlı-İran dövlətləri arasında sərhəd problemini nəzərə alsaq, tayfaların itirilməsi həm də ərazi itirilməsi demək idi. 1913-cü ilə qədər mübahisəli və hər iki dövlətin itirmək istəmədiyi sərhəd bölgələri var idi. Bu sərhəd bölgələrində yaşayan kürd tayfaları verdiyi vergilərlə hansı dövlətin təbəəliyini qəbul etdiklərini də göstərməkdə idi [6, s.117-118].

1879-1881-ci illərdə Kürd aşirət başçılarından biri olan Şeyx Ubeydullah Nehrinin başlatmış olduğu üsyan hər iki dövlətin narahatlığına səbəb olmuşdu. Bölgədəki Nesturi xristianların da dəstəyini almağı bacaran Şeyx Ubeydullah kürd millətçiliyi düşüncəsini ortaya ataraq, əsil məqsədlərinin "müstəqil Kürdüstan" qurmaq olduğunu bəyan etmişdi. 1879-cu ildə Osmanlı hərbi birləşmələrinin təzyiq altında İran hüduduna çəkilən Şeyx Ubeydullah kürd nüfuzun yöğun olduğu şimal-qərb bölgələrini işğal edərək, "Kürdüstan dövləti"nin qurulduğunu elan etmişdi. Fəqət qısa bir müddət sonra Qacar ordusu tərəfindən ağır məğlubiyyətə uğrayaraq, Osmanlı hüdudlarına geri çəkilmək məcburiyyətində qalmışdı. 1881-ci ildə isə Osmanlı hakimiyyətinə təslim olaraq, Hicaz bölgəsinə sürgünə göndərilmişdi [31]. Übeydullah üsyanı yatırlsa da, "kürdçülük" şüurunun yayılmasında təsirli olmuşdu.

II Əbdülhəmid dövründə kürdlərlə bağlı üzərində dayanacağımız başqa bir məsələ isə, 1891-ci ildən etibarən kürd tayfalarından Həmidiyyə alaylarının yaradılmasıdı. Bəzi tarixçilər, bu alayların yaradılmasını "Dövlət-i Aliyyənin İslam şəmsiyyəsi altında kürdləri etibarlı ünsürə çevirmək layihəsi" kimi şərh edərək, onlardan erməni seperatçılarına qarşı da tarazlıq kimi istifadə edildiyini qeyd etməkdədirlər [8, s.93].

1878 tarixli San-Stefano və Berlin müqavilələri ilə beynəlxalq bir hal alan "Erməni məsələsi" böyük dövlətlər arasında regionda gedən mübarizədə bir "topa" çevrilmişdi. Xarici qüvvələrin də təhriki ilə Anadoluda erməni qiyamları, paytaxt İstanbulda şəxsən Sultan II Əbdülhəmid hədəf alan terror aktları gerçəkləşməkdə idi [2, s.414-416].

O dövrdə Qacar rejiminə müxalif olanların əsasən İstanbulda fəaliyyət göstərməsi və Bab-ı Alinin dövlətin mənfəətlərini də düşünərək buna izin verməsi, təbii ki rəsmi Tehranı narazı salmışdı. Əsasən avropalıların arxasında durduğu erməni məsələsindən Qacarlar da istifadə etməkdən çəkinməmişdi. Nasirəddin şah dövründən başlayan bu prosesdə Qacarların ermənilərə dəstəyi bəzən dolayı, bəzən də birbaşa olmuşdur [7, s.14]. İstər Nasirəddin şahın, istərsə də xələfi Müzəffərəddin şahın hakimiyyətinin ilk illərində "erməni kartı"ndan Dövlət-i Aliyyəyə qarşı istifadə etməsi, Osmanlı-Qacar münasibətlərində gərginliyə səbəb olsa da, Sultan II Əbdülhəmidin həyata keçirdiyi siyasət sayəsində və İran dövlət aparatında "İttihad-ı İslam" düşüncəsində olan idarəçilərin də səyləri nəticəsində Qacar və Osmanlı dövlətləri silahlı mübarizəyə girişməmişdi [24, s.47-49]. Müzəffərəddin şaha Osmanlı nişanının təqdim olunması ilə başlayan səmimiyyət, 1900-cü ilin oktyabr ayında İstanbula səfər edərkən şahın yaşca ondan böyük olan II Əbdülhəmidə ehtiram

göstərərək əlindən öpməsi ilə daha da güclənmişdi. Bu hadisə, Sultan II. Əbdülhəmidin və Dövlət-i Aliyyənin İslam dünyasındakı üstünlüyünün qəbul edilməsi şəklində də izah edilə bilər [15, s.196].

XIX əsrin sonlarından etibarən Qacarların siyasi və iqtisadi cəhətdən Böyük Britaniya və Rusiyanın təsiri altına düşməsi İranda xüsusilə ziyalılar arasında milli oyanışın yaranmasında mühüm rol oynamışdı. Ölkələrində qarşılaşdıqları təzyiqlər nəticəsində bu mütərəqqi qüvvələrin bir qismi Dövlət-i Aliyyəyə sığınmaq məcburiyyətində qalmışdı.Osmanlının modernləşmə və islahatlara istiqamətlənən səylərini yaxından izləyən İran ziyalıları eynisinin öz ölkələrində də həyata keçirilməsi üçün çalışmağa başlamışdılar. İranlı müxaliflərin İstanbulda türk və fars dillərində nəşr etdikləri demokratik yönlü "Ahter" (ulduz) və "Şəms" (günəş) adlı mətbu orqanlarda siyasi satirik materallara geniş yer verilməkdə idi [18, s.203-214]. Maraqlısı odur ki, o dövrdə II Əbdülhəmid rejiminə qarşı olan İttihatçılarla da yaxın münasibət quran İranlı müxaliflərin fəaliyyətinə Bab-ı Ali tərəfindən əngəl çıxarılmamışdı. Qacarlarla müəyyən məsələlərdə anlşamazlıq içində olan II Əbdülhəmid, Dövlət-ı Aliyyənin də mənfəətlərinə uyğun olaraq İranlı müxaliflərdən yeri gəldiyində rəsmi Tehrana qarşı istifadə etməyi düşünmüşdü [22, s.290].

1905-ci ilin dekabrında İranda istibdad əleyhinə məşrutə inqilabı adı altında xalq hərakatının başlaması ilə ölkədə qarşıqlıq yaranmışdı. Bundan istifadə edən ingiliz və ruslar 1907-ci ildə öz aralarında imzaladıqları müqaviləyə əsasən İran ərazisini iki nüfuz dairəsinə ayıraraq, ölkənin daxili işlərinə müdaxilə etməyə başlamışdılar. İngiliz və rusların da təhriki ilə Osmanlı-İran sərhəd boyu ərazilərində seperatçı kürd və erməni silahlı dəstələri fəallaşmağa başlamışdı. Bunun üzərinə II Əbdülhəmid də hərbi hərəkat əmrini verərək, asayişi bərqərar etmək üçün İranın hüdudlarında yer alan Urmiye-Savuçbulaq bölgəsini nəzarət altına götürmüşdü [12, s.219]. Bu arada İran Milli Məclisində də "İttihad-ı İslam" düşüncəsinin tərəfdarları ilə Osmanlı əleyhdarları arasında fikir ayrılığı yaşanmışdı. Rusiya tərəfdarlığı ilə bilinən müctəhid Ağa Seyyid Abdullah, açıq bir şəkildə Osmanlı hərbi hərəkatının durdurulmaması halında, əhalini qiyama səsləcəyini bəyan etmişdi [5, s.390-396]. Maraqlısı odur ki, İttihatçılar da İran hüdudlarında hərbi hərəkata qarşı çıxaraq, Osmanlı xalqının sonuna qədər İran məşrutiyyətçilərini dəstəklədiyini bəyan etmişdilər. Onlara görə, II Əbdülhəmidin əsil hədəfinin İrandakı məşrutiyyətə qarşı Qacar şahını dəstəkləmək, bu şəkildə inqilabın Dövlət-i Aliyyəyə də sıçramasının qarşısını almaq idi [5, s.492; 12, s.220].

Bilindiyi kimi, Osmanlıda 1876-cı ildə II Əbdülhəmid tərəfindən elan edilən konstitusional idarəetmə forması olan I Məşrutiyyət, 93 hərbində (1877-1878-ci illər) Rusiya qarşısında alınan məğlubiyyət əsas göstərilərək, sultanın Məclis-i Məbusanı bağlaması ilə 1878-ci ildə başa çatmışdır [14, s.251-254]. Dövlət-i Aliyyədə yenidən məşrutiyyətin elan edilməsini istəyən İttihatçılar, İran məşrutiyyətçilərinə də hər cür dəstəyi vermişdilər. Məşrutiyyət düşüncəsinə soyuq yanaşan II Əbdülhəmid isə, Məhəmmədəli Şah Qacarla həmrəy olduğunu İranın İstanbuldakı səfirinə də bildirərək, hər məsələdə dəstək verməyə hazır olduğunu bəyan etmişdi. Hətta İran məşrutiyyətçiləri ilə yaxın münasibətdə olan Tehran səfiri Şəmsəddin bəyi vəzifəsindən kənarlaşdırmışdı [12, s.221].

Bu arada Rusiyadan və Böyük Britaniyadan dəstək alan Məhəmmədəli şah da 1908-ci ildə məclisi bombardman etdirərək, konstitusiyanı ləğv etdirmişdi. Şahın təzyiqlərindən qaçan bəzi İranlı müxaliflər yenidən İstanbula pənah gətirərək, "Gənc Türklər"in liderlərindən sayılan Prens Səbahəddinin də dəstəyi ilə təşkilatlanmaya başlayaraq mübarizələrini sürdürmüşdülər [12, s.222-223].

Nəticə etibarilə, 1905-1911-ci illərdə İranda istibdad rejiminə və imperialist işğala qarşı baş verən inqilab tarixə İran inqilabı və ya məşrutə hərəkatı kimi düşmüşdü. Məşrutə hərəkatı XX əsrdə Yaxın və Orta Şərq ölkələrində keçən yüzillikdəki milli azadlıq və demokratik hərəkatlar üçün ilk cığırı da açmışdı.

Təəssüflər olsun ki, imperialist dövlətlərin də müdaxiləsi ilə İran məşrutə harəkatında daha çox qurban verən türklər, qazanan isə aryançı farsdilli zümrə olmuşdu. Qısa bir müddət sonra türk Qacarlar dövləti devrilərək onun yerinə aryançı farsdilli Pəhləvilər hakimiyyətə (1925-1979) gətirilmişdi [11].

İrandakı məşrutə hərakatına paralel olaraq Dövlət-i Aliyyədə də II Əbdülhəmidə qarşı müxalifətin fəaliyyəti güclənmişdi. 1908-ci il iyulun 23-də "İttihad və tərəqqi" təşkilatının Mərkəzi Komitəsi Manastır şəhərində böyük bir mitinqlə konstitusiyanın bərpa olunmasını elan etmiş, sultana

isə ultimatum göndərmişdi. Əbdülhəmidə qəti olaraq bildirildi ki, 3 gün ərzində konstitusiya bərpa olunmasa, İstanbul üzərinə hərbi hücum təşkil olunacaqdır. Çıxılmaz vəziyyətdə qalan Əbdülhəmid 1908-ci il 23 iyulda 1876-cı il konstitusiyasının bərpası və tezliklə parlament seçkiləri haqqında fərman imzalamışdı [2, s.454].

II Məşrutiyyəti elan etməklə Avropa siyasi çevrələrinin gözünə girəcəyini və bu şəkildə Balkanlarda və Yaxın Şərqdə əlində qalan torpaqları qoruyacağını düşünən İttihadçılar çox qısa müddətdə yanıldıqlarını və II Əbdülhəmid kimi dövrünün ən diplomat və uzaqgörən hökmdarını devirərək daha böyük xaoslara yol açdıqlarını anlayacaqdılar [2, s.455].

***Nəticə.*** Osmanlı dövləti ilə İranın son türk əsilli xanədanlığı Qacarlar arasındakı münasibətləri nəzərdən keçirdiyimizdə, enişli-yoxuşlu olduğunu müşahidə etməkdəyiz. Sultan II Əbdülhəmid xarici siyasətində "İttihad-ı İslam" amilini əsas tutmaqla bərabər, tarixi şiə-sünni rəqabətini yumşaltmağa çalışaraq Qacarlar xanədanlığı üzərində nüfuzunu hiss etdirməyə çalışmışdı. Qacarlarla müəyyən məsələlərdə anlşamazlıq içində olan II Əbdülhəmid, Dövlət-ı Aliyyənin də mənfəətlərinə uyğun olaraq İranlı müxaliflərdən yeri gəldiyində rəsmi Tehrana qarşı istifadə etməyi düşünmüşdü. İrandakı məşrutiyyətə qarşı da soyuq yanaşan II Əbdülhəmid, inqilabın Dövlət-i Aliyyəyə də sıçramasının qarşısını almaq üçün bəzi tədbirlər həyata keçirməkdən çəkinməmişdi.

## ƏDƏBİYYAT

1. Ağayev Mehman, "Sultan II Əbdülhəmid dövründə Osmanlı dövlətində Türkçülük və türk dünyası siyasəti", Strategiya, №5 (71), Bakı, 2022, s.74-79.
2. Ağayev Mehman, Əliyeva Sevinc, "Osmanlı tarixi" (Dərslik), Bakı, "Avropa" nəşriyyatı, 2021, 565 s.
3. Akdemir, M.Sadık, "Arşiv belgelerine göre Osmanlı dönemi Anadoluda İran Şehbenderlikleri", Süleyman Demirel Üniversitesi İlahiyat Fakültesi Dergisi, Yıl:2017/2, Sayı: 39, s.40-67.
4. Arşiv belgelerine göre Osmanlı-İran ilişkileri, cild I, Ankara, Başbaşkanlık Devlet Arşivleri Genel Müdürlüğü Yayınları, 2010, 665 s.
5. Arşiv belgelerine göre Osmanlı-İran ilişkileri, cilt II, Ankara, Başbaşkanlık Devlet Arşivleri Genel Müdürlüğü Yayınları, 2010, 665 s.
6. Çabuk, Fehminaz, II. Abdülhamid döneminde Osmanlı-İran ilişkilerinde kürt aşiretleri meselesi, Ankara, İKSAD Yayınları, 2019, 198 s.
7. Çetinsaya, Gökhan, "Tanzimattan I Dünya Savaşı'na Osmanlı-İran ilişkileri", KÖK Sosyal və Stratejik Araştırmalar Dergisi, Osmanlı özel sayısı, Ankara, 2000, s.11-23.
8. Deringil, Selim, "Osmanlı'dan Türk'e: Türkiye'de Kimlik ve Sosyal Mühendislik", Simgeden Millete: II. Abdülhamid'den Mustafa Kemal'e Devlet ve Millet içinde, İstanbul, 2009.
9. Eraslan, Cezmi, II Abdülhamid dövründə Osmanlı devletinin İslam Birliği siyasəti, Doktorantura tezi, İstanbul, 1991, 464 s.
10. Ələkbərli Faiq, "Azərbaycan Türk fəlsəfəsindən yarpaqlar: "Cəmaləddin Əfqani", Türküstan, 2019.- 27 avqust- 2 sentyabr, s.6.
11. Ələkbərli Faiq, "Qacarlar dövlətinin süqutu dövrü: Məşrutə hərəkatı və Səttarxan", 07-03-2021, https://bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_8492808842 [01.10.2023].
12. Karabalık, Kamuran, "İttihatçıların İran Meşrutiyetindeki rolü", "Geçmişten günümüze tarih araştırmaları" kitabında, Ankara, 2020, s.207-236.
13. Karacan, Osman, "Mehmet Şemseddin Bey'in (1855-1917) İran'daki Siyasi ve Toplumsal Olaylara Etkisi", İctimaiyat Sosyal Bililer Dergisi, 6/1, 2022, s.167-180.
14. Kızıltan, Yılmaz, "I. Meşrutiyetin İlânı ve İlk Osmanlı Meclis-i Mebusan'ı", GÜ, Gazi Eğitim Fakültesi Dergisi, Cilt 26, Sayı 1 (2006), s.251-272.
15. Kiren, Akın, II. Abdülhamid dönemi panislamist uygulamaları ekseninde Osmanlı-İran ilişkileri, doktorantura tezi, İstanbul, 2017, XII+296 s.
16. Metin, Celal, Emperyalist Çağda Modernleşme: Türk Modernleşmesi ve İran (1800-1941), Ankara, Phoenix, 2011, 392 s.

17. Saray, Mehmet, Türk-İran İlişkileri, Ankara, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Yayınları, 1999, VI+344 s.
18. Salehi, Nasrollah, "İranlı Meşrûtiyetçilerin II. Abdülhamid Devrindeki Faaliyetleri: İstanbul'da Yayınlanan İki Farsça Gazete Ahter ve Şems Bağlamında", Sultan II Abdülhamid dönemi , simpozium materyalları, İstanbul, 2019, 345 s.
19. Sarıkçıoğlu, Melike, Osmanlı-İran hudut anlaşmazlıkları (1847–1913) ve 1913 İstanbul protokolü, Doktorantura tezi, İsparta, 2009, 300 s.
20. Shahed, Babak, Siyasi Türkçülük, devri düşünürleri ve İran Türklüğü, Tebriz Araştırmaları Enstitüsü / TÜDEV Denge , 2019/6, s.190-215.
21. Soofizadeh, Abdolvahid, "I. ve II. Erzurum antlaşmalarının siyasi açıdan değerlendirilmesi", Tarih Araştırmaları Dergisi, Cilt: 32, Sayı: 54, 2013, s.183-194.
22. Soofizadeh, Abdolvahid, "Osmanlı ve İran Meşrutiyeti karşılaştırması", Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt: 7 Sayı: 35, Ankara, 2014, s.286-296.
23. Soofizadeh, Abdolvahid, "Cemaleddin Afganî'nin İslam Birliği Düşüncesindeki Yeri ve Önemi", Oğuz-Türkmen Araştırmaları Dergisi (OTAD) IV, 2, 2020, Aralık, s.118-127.
24. Tunçkılıç, Fatih, Sultan II Abdülhamid dönemi Osmanlı-İran siyasi ilişkilerinde ermeni meselesi (1896-1907), Yüksək Lisans tezi, Ankara, 2009, IX+52 s.
25. Tüfekçi, Coşkun, Osmanlı-İran ilişkileri (1795-1896) (Casusluk Faaliyetleri Çerçevesinde), Yüksek Lisans tezi, Kırkkale, 2012, IX.+71 s.
26. Efgani Cemaleddin // İslam Ansiklopedisi, Cild 10, İstanbul, Türkiye Diyanet Vakfı, 1994, s.456-466.
27. Uçarol, Rıfat, Siyasi tarih, İstanbul, Filiz Kitabevi, 1995, 704 s.
28. Qacar dövləti / Vikipediya, Azad Ensiklopediya. - https://az.wikipedia.org/wiki/Qacar_d%C3%B6vl%C9%99ti [01.10.2023].
29. http://sultanabdulhamid.yildiz.edu.tr/ii-abdulhamid/diplomatik-temsilciler/ [01.10.2023].
30. Mirzə Rza Kirmani / Vikipediya, Azad Ensiklopediya. - https://az.wikipedia.org/wiki/Mirz%C9%99_Rza_Kirmani [01.10.2023].
31. Şeyh Ubeydullah Nehri / Vikipedi, Özgür Ansiklopedi. - https://tr.wikipedia.org/wiki/%C5%9Eeyh_Ubeydullah_Nehri [01.10.2023].

**МЕХМАН АГАЕВ**
*Азербайджанский Государственный Педагогический Университет,*
*Доктор философии по истории*

## ОСМАНО-КАДЖАРСКИЕ ОТНОШЕНИЯ В ПЕРИОД ПРАВЛЕНИЯ СУЛТАНА АБДУЛ ХАМИДА II

Рассматривая отношения между Каджарами, последней турецкой династией Ирана, и Османской империей, мы видим, что они имели свои взлеты и падения. Среди спорных вопросов в османо-каджарских отношениях - стремление установить влияние на страны Кавказа и демаркация границ, с которыми долгое время боролись обе стороны; суннитско-шиитская борьба в Атабâт-и Âлиех (Карбала, Наджаф, места, считающиеся священными для шиитов в Ираке); проблемы, создаваемые некоторыми кочевыми племенами (в основном курдами), проживавшими в районе османо-иранской границы в Восточной Анатолии; попытки официального Тегерана использовать армянскую карту против османов; деятельность противников иранского режима, нашедших убежище в Девлат-и-Алийе. Абдулхамид II пытался смягчить историческое шиитско-суннитское соперничество и оказать влияние на династию Каджаров, сделав фактор "единства ислама" центральным элементом своей внешней политики.

*Ключевые слова*: Султан Абдул Хамид II, Османская империя, династия Каджаров, Исламский союз.

**MEHMAN AGAYEV**
*Azerbaijan State Pedagogical University, PhD in History*

## OTTOMAN-KAJAR DYNASTY RELATIONS DURING THE REIGN OF SULTAN ABDULHAMID II

When we look at the relations between the Qajars, the last Turkish dynasty of Iran, and the Ottoman Empire, we see that they had their ups and downs. Among the controversial issues in Ottoman-Kajar relations were the desire to establish influence over the Caucasus countries and the demarcation of borders, which both sides had been struggling with for a long time; the Sunni-Shia struggle in Atabât-ı Âliyeh (Karbala, Najaf, places considered sacred for Shiites in Iraq); the problems caused by some nomadic tribes (mostly Kurds) living in the Ottoman-Iranian border region in Eastern Anatolia; official Tehran's attempt to use the Armenian card against the Ottomans; and the activities of opponents of the Iranian regime who sought refuge in Devlat-ı Aliyya. Abdülhamid II tried to soften the historical Shiite-Sunni rivalry and to exert his influence on the Qajar dynasty by making the factor of "Unity of Islam" the core of his foreign policy.

*Keywords*: Sultan Abdul Hamid II, Ottoman Empire, Qajar dynasty, Union of Islam.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:01 oktyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24); UOT 94"19/..."**

**АБУТАЛЫБ ДЖАЛИЛОВ**
*доктор философии по истории,*
*доцент Бакинского Государственного Университета*
**jalilova1951@gmail.com**

**АЗАД РЗАЕВ**
*доктор философии по истории,*
*доцент Бакинского Государственного Университета*
**azad_rzayev@mail.ru**

**АЛИ АЛИЕВ**
*Старший научный сотрудник БМА имени У.Гаджибекова*
**ali_aliyev51@mail.ru**

# ВЫСШЕЕ ОБРАЗОВАНИЕ И КУЛЬТУРА В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

*В данной статье на основе архивного материала и других источников предпринимается попытка показать процесс создание в период АДР системы высшего образования и в том числе музыкального. Раскрывается деятельность правительства АДР в восстановлении названия исторических мест, городов, издании множества трудов по истории, литературе, экономике, естествознанию и географии Азербайджана. Большое внимание уделено анализу достижений АДР в сфере таких основополагающих основ национальной культуры, как музыка, литература, театр и другие сферы искусства.*

*Ключевые слова*: Азербайджанская Демократическая Республика, высшее образование, наука, музыка, литература, театр.

***Введение***. Создание Азербайджанской Демократической Республики стало логическим концом третьего этапа национально-освободительного движения азербайджанского народа. За незначительный промежуток времени АДР смогла проделать серьезную работу по созданию и развитию системы высшего образования и добиться успехов внести качественные изменения в совершенствовании литературы, музыки и театра.

***

Одним из важнейших культурных мероприятий Азербайджанской Демократической Республики была организация Бакинского Государственного Университета. Правительство прилагало большие усилия по материально-техническому обеспечению университета, привлечению педагогических кадров, выделению соответствующих зданий. Приходилось преодолевать сопротивление консервативных сил, выступающих как против открытия университета, так и против его организации с русским языком обучения.

В мае 1919 г. по решению правительства АДР была создана специальная комиссия во главе с профессором В.И.Разумовским, которая должна была разработать положение об университете. К августу 1919 года комиссия подготовила проект закона об учреждении университета и его штатное расписание. 21 августа 1919 года в парламенте АДР состоялось обсуждение проекта закона об учреждении в Баку университета. В ходе дебатов выяснилось, что подавляющее число депутатов и членов правительства выступают за создание в Баку университета. За открытие университета решительно выступали лидер партии Мусават М.Э.Расулзаде, премьер-министр Ф.Х.Хойский, его преемник Н.Б.Усуббеков, министр просвещения Р.Б.Капланов и др. Председатель университетской комиссии В.И.Разумовский впоследствии ставший первым ректором Бакинского университета писал по отмеченному обстоятельству следующее: «Имевшиеся среди мусаватистов открытые и тайные противники открытия университета вынуждены были подчиняться решениям партии лишь благодаря авторитету Расулзаде… в парламенте большинство составляли мусаватисты и социалисты, которые являлись сторонниками

открытия Университета [33, 15]. Противниками открытия были партии Эхрар, Иттихад, Беспартийная мусульманская группа и Союз мусульманской трудовой интеллигенции. Члены этих партий в лице К. Карабекова, Ю.Ахмедова, М.Эфендизаде и др. свой протест мотивировали тем, что в нём лекции будут читаться на русском языке и университет сделается русификаторским центром, поддерживающим идею великодержавной «Единой России». Вместо открытия университета они предлагали отправлять молодежь за счет государства в заграничные высшие учебные заведения [11, 65].

Выступая на заседании парламента министр просвещения Р.Х.Капланов заявил, что правительство исходит исключительно с точки зрения интересов азербайджанской государственности и тюркской национальной культуры… В заключение он высказал пожелание: «Мы, мусульмане, из уважения к святости места оставляем при входе в мечеть свою обувь. Я очень хотел бы, чтобы и к университету у нас было бы такое же отношение, чтобы мы относились к нему, как к храму, и думая о нём, отбросили совершенно в сторону всякие другие соображения кроме тех, которые клонятся к созданию настоящего научного учреждения, ибо только при этом условии мы можем рассчитывать на осуществление всех тех надежд, которые возлагали на университет» [26, 324].

Лидер партии М.Э.Расулзаде в своём выступлении в парламенте подчеркнул: «Что не надо бояться, что открываемый университет будет русским. В тюркской стране он будет носить свою окраску. Университет не может преследовать ассимиляторские цели. Даже в прежней России борцы с ассимиляторским течением выходили из университетов. Да и зачаток национализации в университете кладется с его открытием: будет преподаваться тюркский язык. Кроме того, студенты будут в родной атмосфере, в своей среде… Науку можно изучать во всех странах и на всех языках; вот почему и наша фракция высказывается за немедленное открытие» [10, 66].

1 сентября 1919 года парламент принял закон об организации Бакинского Государственного Университета. В законе предусматривалось создание факультетов: историко-филологического, юридического, физико -математического и медицинского. Занятие в университете начались 15 ноября. В первый год в Университет было принято 1094 студента [27, 98].

В первый учебный год национальный состав студентов был следующим: а) на историко-филологическом факультета: мусульман – 156 (в том числе 31 вольнослушатель); евреев – 208 (30); русских – 140 (19), армян – 81 (14), грузин – 6 (1), поляков и немцев – 13, итого 604 человека; б) медицинском факультета: мусульман – 141 (24); армян –100 (22), русских – 69 (18), евреев – 158 (49), грузин – 7 (1), поляков и немцев – 14 (8) и греков – I, итого – 490 (122) человека. Таким образом, всего на обоих факультетах: мусульман – 297 (55), евреев – 366 (109), русских – 209 (56), армян – 181 (50), поляков и немцев – 27 (8), грузин – 13 (2), греков – 1; всего 1094 человека, из них 217 слушателей [28, 57].

Создание Бакинского Университета по праву можно считать важнейшим событием в истории Азербайджана. Его создание было с пониманием встречено как у нас в стране, так и за рубежом. В потверждение приведём текст письма главы британской дипломатической миссии в Закавказье О.Уордропа министру иностранных дел Азербайджанской республики Ф.Х.Хойскому с поздравлением министра иностранных дел Англии лорда Керзона с открытием Бакинского университета 2 марта 1920 г.: «Ваше Превосходительство, Лорд Керзон из Кедельстона просил меня передать Вам следующее телеграфное сообщение для Бакинского университета. Я с большой радостью исполняю это поручение через Ваше Превосходительство: «Как министр иностранных дел и как канцлер одного из старейших и крупнейших университетов на свете, шлю Вам свои искренние поздравления по случаю открытия новых универ ситетов в Закавказье, которые по дошедшим до меня сведениям, уже начали свою деятельность в Баку, Александрополе и Тифлисе, а также мои пожелания таковым успехов. Оксфордский университет предвидит такое же блестящее будущее для закавказских университетов, какое Великобритания предвидит для стран, являющихся родиной этих университетов. Пользуюсь случаем, чтобы выразить Вашему Превосходительству уверение в моем высоком уважении.» О.Уордроп [32].

Помимо Университета, правительство АДР разработало обширную программу по созданию ряда других вузов. В первую очередь предполагалось открыть в Баку сельскохозяйственный институт, Педагогический институт с четырехлетним сроком обучения для подготовки педагогов средних учебных заведений, а также государственную консерваторию [3, 362-372].

Осенью 1918 г. ряд музыкантов обратился к правлению Союза «Кооперация» с просьбой помочь им организовать школу. Предполагая создать на базе студии Народную музыкальную школу правление дало им взаймы 7000 рублей. Оно учредило стипендии и полустипендии, предназначенные для талантливых учеников из семей членов коопера-тивного общества, а также рабочих. Созданная для распространения музыкальной культуры во всех слоях общества Музыкальная студия завоевала большую популярность. Не ограничиваясь городом, она перенесла часть педагогической работы в рабочий район Балаханы. Музыкальная студия занималась не только педагогической деятельностью, но также организацией камерных вечеров и музыкальных фестивалей. 31 октября 1919 г. состоялся первый камерный вечер, а 22 ноября – первый ученический публичный вечер. Концерты проводились в течение всего учебного года. В январе 1919 г. Студия перешла в новое здание. Функционировали следующие классы: рояли, скрипки, вио лончели, пения, специальный класс теории композиций, контрапункт, фуга, инструментовка и свободное сочинение, спец. регентский класс, духовые инструменты, спец. класс восточных инструментов, класс обязательной теории гармонии и сольфеджио, класс обязательного рояля. Изучали историю музыки и эстетику. Были обязательные классы: оркестровый, хоровой, ансамбля и аккомпанемента. В оркестровый и хоровой классы учащиеся принимались бесплатно. Следует отметить, что Студия работала по программе Петроградской и Московской консерваторий. Образовательный ценз преподавателей был весьма высок. Среди них были выпускники Лейпцигской и Петроградской консерваторий, Берлинской королевской академии, бывшей Петербургской придворной певческой капеллы и др. В Музыкальной студии учились 139 учащихся [28, 54].

19 июля 1919 г. председатель Бакинской музыкальной студии Н.Гольштейн обратился с докладной запиской к министру народного просвещения Р.Б.Капланову об открытии в Баку консерватории. В ней отмечалось следующее: «Честь имею покорнейше просить Ваше Высокопревосходительство обратить свое внимание на рассмотрение устава и сметы будущей Азербайджанской государственной консерватории и представить на утверждение в Парламент. Я уверен, что мой проект об открытии в Баку консерватории, как высшего музыкального учебного заведения, заслуживает особого внимания со стороны Вашего Высокопревосходительства. Теперь в Азербайджане больше, чем когда-либо, чувствуется потребность к такому культурно-просветительному учреждению, которое бы давало возможность воспитать и культивировать молодое поколение и развивать индивидуальность народной азербайджанской музыки.

В рамках возрождения национального самосознания азербайджанского народа восстанавливались названия исторических мест, городов и других населенных пунктов. Решением правительства от 30 июня 1918 года город Елизаветполь вновь стал именоваться Гянджой, а Карягинский уезд был переименован в Джебраильский. Улицам и городам присваивались имена выдающихся личностей, в частности писателей и поэтов.

В период АДР началось планомерное научно обоснованное изучение исторического прошлого азербайджанского народа. Царское правительство всячески препятствовало созданию научных обществ по изучению истории и культуры тюрских и мусульманских народов России. В то же время оно создавало все условия для изучения истории и культуры народов христианского вероисповедания. Созданные на Кавказе исторические сообщества были нацеляны на изучение истории армянских и грузинских народов. Так в Тифлисе было создано Кавказское археологическое общество (1873), Кавказское историко - археологическое общество (1881). В Ереване были созданы Армянское этнографическое общество (1906), Армянское историко - археологическое общество (1913), Общество защитников армянской старины (1915) [12, 74].

В период АДР в изучении и пропаганде азербайджанской истории и культуры велика была роль созданного 29 декабря 1919 года при Бакинском Университете «Общества по изучению мусульманского Востока». Устав этого общества был утвержден 2 февраля 1920 года. Главными организаторам общества являлись Дж.Рафибеков, знаток азербайджанской литературы Р.Эфендиев, член Кавказского историко-археологического института И.А.Беляев и другие. Общество намечало организовать чтения на собраниях, печатать труды, издавать свой орган, снаряжать научные экспедиции для изучения местностей, производить поиски и раскопки древностей, открыть библиотеку и музей. Изучение мусульманского Востока предполагалось вести в 4-х аспектах: историческом, лингвистическом, археологическом и этнографическом. Был избран президиум Общества: проф.Зимин А.А. председатель, И.Беляев – товарищ председателя, Сейдиев – секретарь, Субханвердиханов – казначей [23].

Учредительное собрание общества состоялось 29 декабря 1919 г. под председательством профессора А.А.Зимина. На последующих заседаниях общества были заслушаны интересные доклады: И.Беляева – о придворной жизни малоазиатских сельджуков, Наби оглы – «Состояние ханского дворца в Баку», Е.И.Пахомова – «О значении нумизматики для востоковедения» [22]. 2 марта 1920 г. Обществом была организована научная экскурсия для осмотра развалин Ханского дворца. Общество постановило принять экстренные меры для охраны Ханского дворца от дальнейшего разрушения. Была создана комиссия по принятию мер для охраны дворца. В состав комиссии вошли: генерал-майор Сулькевич, И.А.Беляев и Наби оглы М.Б.Сулькевичем было сделано сообщение о работе комиссии. Комиссия вела переговоры с представителями министерства финансов и Союзом мусульманской трудовой интеллигенции. Выяснилась возможность при их содействии получить средства для приведения дворца в порядок и установления его действительной охраны [24]. Таким образом, в исследуемый период Общество проводило серьёзную научную работу по изучению исторических памятников азербайджанской культуры, ставило вопрос об их сохранении и реставрации.

Вследствие усиления национального духа в АДР чрезвычайно возрос интерес к исследованию и пропаганде национальной культуры, истории и традициям страны. Появилось множество трудов по истории, литературе, экономике, естествознанию и географии Азербайджана. Для пропаганды Азербайджана за рубежом на французском языке издавались брошюры, документы и материалы, среди которых можно выделить книгу «Азербайджан» Адильхана Зиятханова, брошюру Акберага Шейхульисламова «Кавказская Азербайджанская Республика», изданную в 1919 году в Париже, материалы, подготовленные Дж. Гаджибековым к Версальской конференции. В книге Адильхана Зиятханова приводились материалы по истории, культуре и современному положению Азербайджана [1, 174].

В статьях М.Э.Расулзаде «Иран и Азербайджан», «Столица Азербайджана», посвященных исторической тематике, содержлись ряд не потерявших свою актуальность и сегодня оригинальных мыслей о происхождении азербайджанского народа, его взаимоотношениях с соседними государствами и народами, об истории основания и развития Баку. С участием представителей партии "Мусават" устраивались торжественные концерты азербайджанской музыки под названием "Тюркские вечера". Художественной частью вечеров руководил художник Азим Азимзаде, а за литературно-вокальную часть отвечало литературное общество "Зеленое перо". В качестве ответственного распорядителя на этих концертах выступал Мамед Эмин Расулзаде [14, 196].

Известный азербайджанский общественный деятель и просвктитель Юсиф Везир Чеменземинли написал в этот период: "Слава Богу, что у нас есть история, литература, музыка, театр и другие культурные достижения! Если писать про все это, то мы познаем себя и дадим возможность познать себя иностранцам. У нас на Родине есть много исторических памятников. О каждом из них необходимо дать подробную информацию" [19].

Миссию пропаганды азербайджанской культуры взял на себя вышедший в 1919 году всего в шести номерах журнал "Овраги-нэфисе" ("Изящные страницы"). Он стал первым в истории азербайджанской печати периодическим изданием, посвященным вопросам литературы и искусства [1, 175].

Публицистические произведения Узеир бека выходили на страницах ведущего печатного органа республики - газеты "Азербайджан", главным редактором которой первоначально был его младший брат Джейхун бек Гаджибеков. Сам Узеир бек возглавил издание после того, как Джейхун бек вошел в состав делегации Азербайджана на Парижской мирной конференции. Начиная с 89-го номера газеты, вышедшего 16 января 1919 года, и вплоть до 215-го номера, увидевшего свет 30 июня того же года, редактором "Азербайджана" был сам Узеир бек. На должности редактора газеты он проработал с сентября 1919-го по 27 апреля 1920 года - день, ставший последним в истории АДР. В газете "Азербайджан" было опубликовано свыше 100 статей Узеир бека Гаджибекова, посвященных истории, политическому положению, экономике, культуре нашей страны. В этих статьях он горячо отстаивал политическую линию правительства и парламента АДР, их усилия по укреплению государственной независимости Азербайджана [9, 83].

Огромное значение в истории культуры АДР имела культурно- политическая деятельность Узеира Гаджибекова. Им был создан Гимн первой Демократической Азербайджанской Республики, написанный на слова азербайджанского поэта Ахмеда Джавада [7, 22]. Это бессмертное произведение Гаджибекова с 27 мая 1992 года является Государственным гимном Азербайджанской Республики. Узеир Гаджибеков также сочинил марш азербайджанской армии и ряд других произведений того же жанра.

Известный азербайджанский ученый - литературовед С.Шерифова в своей статье отмечает, что после падения АДР и установления советской власти новым руководством Азербайджана было запрещено исполнение созданного У.Гаджибековым музыкального произведения «Национальный марш» по той простой причине, что слова марша призывали азербайджанский народ к объединению, к борьбе за свою независимость [17, 51-71].

Написанная в 1918 году У.Гаджибековым на слова Ахмеда Джавада, песня «Бушевало Черное море» (Çırpınırdı Qara dəniz), стала знаковой в деле становления и развития братских азербайджано-турецких отношений в период АДР [7, 22]. Несмотря на то, что слова этой песни были написаны под воздействием участия Османской империи в первой Мировой войне в декабре 1914 году, они не потеряли свое значение и в 1918 году. Единству азербайджанского народа в это время угрожали не только дашнаки, но и иностранные интервенты. Творчество Узеира Гаджибекова выразило очередной этап духовного подъема, связанного с противостоянием внешней угрозе – дух патриотизм и боевой настрой пронизывали все его произведения, написанные в годы АДР.

Наверное, о роли Узеир бека в возрождении национального духа никто не сказал лучше, чем первый глава АДР Мамед Эмин Расулзаде. Живя в эмиграции, Расулзаде откликнулся на весть о кончине великого деятеля азербайджанской культуры такими проникновенными словами: «Начав свою деятельность как любитель, Гаджибейли, позже, постоянно совершенствуясь, получив музыкальное образование, впоследствии добился признания своего авторитета как композитор в европейском понимании этого слова. Жаль, что большевистский режим взял под свой диктаторский контроль этот редкий проницательный ум Азербайджана, эксплуатировал его в свою пользу в угоду политики, «присвоил» его.

И наконец, хотя он принужден был за железным занавесом сочинять искусственные марши, услышать лестные слова диктатора в Москве, несмотря на то, что над его гробом в торжественном молчании по очереди стояли комиссары, не имеющие ничего общего с нравственностью Азербайджана, никто не сможет отделить Гаджибейли Узеира от культуры Азербайджана, истории азербайджанских тюрок. Он навечно останется в числе сподвижников возрожденного Азербайджана!» [29, 22].

В период АДР большой вклад в развитие азербайджанского музыкального искусства внёс выдающийся композитор Муслим Магомаев. Написанная композитором в 1916 году опера «Шах Исмаил» с большим успехом была поставлена на сцене лишь в период АДР.

В 1918-1920 годы характерны значительными качественными изменениями в развитии азербайджанского театра, активным вмешательством государства в театральное дело, появлением в репертуарах театров новых сценических произведений, связанных с азербайджанской

историей и движением за национальную независимость, возрастанием роли театра в общественной жизни. Передовые представители азербайджанского театра, опираясь на поддержку прогрессивных кругов общества, для поднятия идейно-художественного уровня театра и укрепления его в организационном отношении, предпренимали усилия по объединению разрозненных театральных групп. Силами просветительных обществ «Ниджат» и «Сэфа» было создано «Мусульманское актерское общество», проявившее заботу о культурном и творческом развитии актеров. Предпринимаемые усилия по созданию азербайджанской театральной труппы вскоре принесли свои плоды. В октябре 1918 года в Баку дирекцией «Братьев Гаджибековых» была организована новая театральная труппа, в состав которой вошли все без исключения деятели мусульманского сценического искусства. В репертуаре театра важное место занимали такие произведения, как "Надир-шах" Наримана Нариманова, "Неудачливый юноша" Абдуррагим бека Хагвердиева, "Из огня да в полымя", "Не так, так эта", "Аршин мал алан" Узеир бека Гаджибекова, "50-летний юноша", "11-летняя невеста" Зульфугара Гаджибекова [31, 56].

В газете "Азербайджан", одним из главных редакторов которой был великий композитор, писатель и публицист Узеир бек Гаджибеков, часто помещались объявления о театральных спектаклях в пользу семей павших воинов Национальной армии. Так, со спектакля, организованного директором Государственного театра Зульфугаром Гаджибековым в пользу семей погибших воинов, Азербайджанской армии были переданы денежные средства на сумму 22 292 руб. 80 коп. [30, 10-11].

В марте 1919 года во время исполнения учащимися Газахской семинарии пьесы "Надир-шах" было собрано 4485 руб. в пользу бедствующих учащихся [13, 85]. По случаю знаменательных дат игрались "Война за Баку" Мирзы Балы Мамедзаде, "Бакинская война" Джафара Джаббарлы, "Азербайджан" Исы бека Ашурбекова и другие написанные в патриотическом духе произведения [15, 15].

8 ноября 1919 года был принят Закон о снижении налога на театральные и публичные зрелища: «Ставки государственного налога с билетов для входа в театр и публичные зрелища уменьшаются на пятьдесят (50)%» [27].

17 ноября 1919 года министр просвещения выступил с докладом об организации тюркского оперно-драматического театра. Совет Министров одобрил законопроект, предусматривавший организацию Государственного тюркского оперно-драматического театра. 17 ноября 1919 года, правительство АДР одобрило законопроект, предусматривавший организацию Государственного тюркского оперно-драматического театра [27]. Таким образом, тюркский театр был национализирован, то есть перешел под контроль государства. «Мусульманский театр, который был давно закрыт, теперь благодаря турецкой армии, начал действовать», – писала газета «Азербайджан» [21]. Более того, по поручению Министерства народного просвещения Азербайджанской Республики, все оперные, опереточные и драматические спектакли на тюркском языке перешли в ведение государства. В ходе реформы все актеры и актрисы приглашались в Государственный театр с целью ознакомления с условиями заключаемых договоров.

Повышение художественного мастерства актеров, по-прежнему, оставалось одной из важных проблем, поскольку большинство актеров не имели специального образования. Поэтому остро стоял вопрос об открытии драматических кружков с целью повышения профессиональной подготовки актеров. Поэтому, наряду с принятием законов о театре, нужно было ставить вопрос об открытии национальных сценических курсов. Еще в начале 1918 года в Баку по инициативе А.Шарифзаде была организована школа изящного искусства, в которой давались начальные знания по тем или иным видам искусства. В декабре 1919 года были открыты тюркские драматические курсы с музыкальными отделениями. В качестве преподавателей на драматическое отделение были приглашены Аббас Мирза Шарифзаде и Г.Сарабский, на комедийное – М.А.Алиев, музыкальное – Зульфигар и Узеир Гаджибековы, М.Магомаев, Гурбан Примов, на литературное – Алиаббас Музниб и Рза Зеки Эфенди. На курсы были

привлечены азербайджанские актеры – любители, а также актрисы разных национальностей [8, 7].

Свободное развитие сценического искусства, открытие курсов для актеров обеспечили успех азербайджанского театра за рубежом. Азербайджанские артисты из труппы братьев Гаджибековых продолжали гастролировать по городам Турции и Средней Азии. Эти гастроли проходили настолько успешно, что азербайджанским артистам пришлось арендовать театр «Шарг» («Восток») в Стамбуле. Поставленный в Стамбуле спектакль «Аршин мал алан» заинтересовал многих деятелей искусства не только Турции, но и Европы. Представитель французской кинокомпании «Пате» предложил снять фильм по оперетте «Аршин мал алан» во Франции. А английский главнокомандующий после спектакля «Лейли и Меджнун», оперетт «Не та, так эта» и «Аршин мал алан», поставленных в Баку, предложил У. Гаджибекову и его труппе гастроли в Лондоне и Париже [25, 67-68]. К сожалению, этому проекту не суждено было состояться в – 1920 году из-за захвата власти в Азербайджане большевиками гастроли были отменены.

В культурной жизни Азербайджанской Республики театр играл очень большую роль. О том, какое значение здесь придавалось театру, свидетельствует реакция общества и правительственных кругов на смерть Г.Араблинского. Выступивший на траурной церемонии в связи с кончиной Г.Араблинского М.Э.Расулзаде, дал высокую оценку творческой деятельности покойного актера, отметил его большие заслуги в деле развития сценического искусства в Азербайджане [1, 176]. На собрании Союза азербайджанских актеров 1 января 1920 года было принято решение о сооружении монументального памятника на могиле Гусейна Араблинского.

Рождение Республики способствовало оживлению в литературе. Этот период по праву можно назвать новым этапом в развитии многовековой азербайджанской литературы. Порожденные процессом формирования национального самосознания и национального достоинства национальный пафос и патриотизм становятся ведущей темой в литературе. Литературное общество «Зеленое перо» объединяло в себе видных писателей, поэтов и общественных деятелей. Такие деятели как Гусейн Джавид, Ахмед Джавад, Джафар Джаббарлы, Узеир Гаджибеков, Алиаббас Мюзниб, Салман Мумтаз, Ум Гюлсюм и др. являлись представителями и носителями национального духа и идеи независимости. Тема независимости приветствовалась в стихах Дж.Джаббарлы «Азербайджанскому флагу» и «Любимая». Ахмед Джавадом был написан текст государственного гимна Республики. Произведения Гусейн Джавида «Шейх Санан», Магомеда Хади «Богиня любви» являются гордостью национальной литературы [4]. Идея «азербайджанизма» стала господствующей в сознании значительного числа населения. Вследствие усиления национального духа и национальных идей в Азербайджанской Республике, чрезвычайно возрос интерес к исследованию и пропаганде национальной культуры, истории и традициям национального наследия. Изучение и пропаганда каждого из них была поставлена на высоком профессиональном уровне [18, s.69].

Особо надо отметить деятельность общества «Тюрк оджагы», созданный в Баку в октябре 1918 года. Целью общества являлось развитие культурных связей между азербайджанскими и османскими тюрками, а также тюркоязычными народами, проживавшими на территории бывшей Российской империи. В газете «Азербайджан» была опубликована программа Общества, состоявшая из 22 пунктов. По этому поводу газета «Азербайджан» писала: «Для объединения наших усилий во имя нации и отечества нам необходимо сплотиться вокруг одной цели, которой могут являться лишь такие учреждения как «Тюрк оджагы». С участием членов партии «Мусават» устраивались торжественные концерты азербайджанской музыки под названием «Тюркские вечера». Программы составлялись довольно интересно и оригинально. В них находили свое отражение разнообразные мотивы музыки тюркских народов [20]. В Баку вели активную деятельность общества «Гуртулуш», «Общества защиты исламского искусства и культуры», которые объединяли поэтов, литераторов и других деятелей культуры. В культурной жизни Азербайджана периода независимости видную роль играли

такие культурно-просветительные общества, как «Сафа», «Ниджат», «Нешр-Маариф», «Тарраги».

В 1918 году был разработан проект памятника (архитектурного комплекса) в честь павших при освобождении Баку турецких и азербайджанских воинов. На кладбище Ченберекенд (ныне Аллея Шахидов) по проекту Зивер бека Ахмедбекова началось возведение памятного комплекса для увековечения памяти турецких солдат, ставших шахидами (павшими) во время освобождения Баку от дашнаков и эсеров-меньшевиков. По инициативе Бакинского общества «Благотворительность» работы по сооружению комплекса начались 15 сентября 1919 года и должны были закончиться к 15 сентября 1920 года [2, 406].

В Гяндже намечалось создание памятника Низами Гянджеви. Министерство народного просвещения выделило 500 тысяч манатов на строительство мавзолея Низами в Гяндже. В 1919 г. была создана первая художественная студия. Член студии Бахруз Кенгерли в своих табло в основном изображал тяжелое положение женщин и детей, покинувших свои родные места во время армянской агрессии. Он создал большую художественную галерею, посвященную теме беженцев [2, 406]. Профессиональный скульптор З.Ализаде стал создателем герба и создал эскизы первых медалей АДР [6, 80-86]. При Бакинском техническом училище предусматривалось открытие класса скульптуры.

Свое развитие в этот период получило и кинематографическое искусство. В Баку действовало 16 кинематографов, среди владельцев которых (кинематографы «Муза» и «Марс») лишь двое являлись азербайджанцами. В 1918 году была экранизирована оперетта У. Гаджибекова «Не та, так эта» [5].

В конце 1918 года в Баку возобновило свою деятельность пострадавшее от политики национализации Бакинского Совета кинематографическое акционерное общество «Filma». Для продолжения работы по производству и выпуску фильмов общество пригласило из Петербурга режисёра В.Светлова и оператора Г.Лемберга. По сценарию В.Светлова и П.Муравова был снят состоящий из пяти частей фильм «Bir alçalmanın tarixi». В январе 1919 года этот фильм был продемонстрирован в кинотеатрах Баку. Это был единственный фильм, снятый в период АДР.

Азербайджанское правительство оказывало большую поддержку и развитию библиотечного дела. 16 сентября 1919 года парламентом был принят закон за № 65, согласно которому в распоряжение Министерства народного просвещения был отпущен 1 000 000 рублей на приобретение новых книг на тюркском языке для библиотек народных училищ. К апрелю 1920 года в АДР насчитывалось 11 библиотек, книжный фонд которых составлял 95 тысяч экземпляров. 18 сентября. Закон об отпуске 1 млн. руб. на приобретение для библиотек народных училищ книг на тюркском языке [27].

Правительство АДР проделало значительную работу в направлении создания музеев в нашей стране. Музей «Истиглал», как память, оставшаяся с тех времен, был одним из больших событий в истории нашей культуры. Это культурное учреждение первый государственный музей, демонстрирующий и пропагандирующий историю и культуру, национально-художественное наследие Азербайджана. Музей был открыт 7 декабря 1919 г. в здании Парламента Азербайджана по случаю годовщины начала его деятельности и функционировал при Парламенте. Все расходы по организации и деятельности музея были за счет Президиума Парламента Азербайджана. Здесь были собраны экспонаты, отражающие нашу историю и религию – бытовые предметы, оружия, рукописи [8, s.7].

Период АДР стал временем подъема и расцвета азербайджанской прессы в целом. В стране свободно издавались многочисленные газеты и журналы самой различной направленности, выражавшие взгляды практически всех политических сил и общественных групп. Большое государственное и культурное значение имело в этот период создание национального печатного органа. 3 июля 1918 года было принято решение об издании «Известий государства Азербайджанской Республики» на двух языках – азербайджанском и русском [27]. Несколько позднее, 3 сентября 1918 года, было принято постановление о создании газеты «Азербайджан». Она выходила также на двух языках. Темы и материалы русского и азербайджанского

вариантов газеты отличались [27]. Весьма популярными были органы различных политических партий: «Мусават», «Истиглал», «Ачыг сёз», «Наш путь», «Эхрар», «Эль», «Фугара сеси», «Йолдаш» и другие. В разнообразие газет отражала особенности времени, поляризацию политических и общественных настроений. Большое значение для развития демократических основ в печати имело постановление правительства АДР за № 308 от 9 ноября. об отмене цензуры [27, 359]. В целях распространения правдивой информации об Азербайджане особое внимание было уделено созданию специального печатного органа в странах Европы. Первым шагом в этом направлении явилось издание Азербайджанской делегацией на Парижской конференции «Информационного бюллетеня об Азербайджане». С сентября 1919 года по апрель 1920 года вышло 11 номеров бюллетеня/ По решению правительства 1 марта 1920 года было создано Азербайджанское телеграфное агентство (АЗЕРТАДЖ). На него возглась задача распространение правдивой информации о внутренней и внешней политике АДР, ёё достижениях в экономике и в особенности в культурном строительстве [8, 7].

Однако значительной преградой на этом пути стал факт падения АДР и установления большевиками Азербайджана с помощью Красной Армии советской власти в стране.

***Заключение***. Таким образом, за период 23-месячного существования Азербайджанской Демократической Республики была проявлена большая забота развитию культурно-просветительскому делу и в этом направлении были проделаны работы исторической важности. Азербайджанское сценическое искусство, театр музыка и литература были напрямую связаны с воспитанием у народа духа и идеи свободы и независимости. Деятели культуры были составной и активной частью общества, их гражданская позиция была примером и поддержкой для народа. Можно констатировать, что сама идея независимого Азербайджана была во многом реализована благодаря их конструктивным усилиям.

ЛИТЕРАТУРА

1. Abbasov N. Mədəniyyət siyasəti və mədəni irs (Kulturoloji təhlil). Bakı, ADMİU, 2011, 220 s.
2. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı, Elm, 2001, 696 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)/ Təhsil siyasəti (sənədlər toplusu). Bakı, Elm və təhsil, 2018, 468 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti (Ədəbiyyat, dil, mədəni quruculuq). Bakı, "Poliot Qkup" QSC nəşriyyatı, 2009, 336 s.
5. Nəriman Əbdülrəhmanlı. Cümhuriyyət dövrünün (1918-1920-ci illər) kinematoqrafı / Aydınyol.az, Elektron ədəbiyyat və sənət portalı, 15.04.2016. - https://aydinyol.aztc.gov.az/newsview/300/Cumhuriyyet-dovrunun-1918-1920-ci-iller-kinematoqrafi [30.09.2023].
6. Əliyev M. Azərbaycanda medal sənəti / M.Əliyev // Qobustan, 1989, №1 (81), s.80-86.
7. Əliyeva F. Üzeyir Hacıbəylinin Cümhuriyyət dövrü musiqi / F.Əliyeva // Mədəniyyət. AZ 2018, № 3, s.22.
8. Əhədova S. Azərbaycan Xalq Cümhuriyyəti və milli-mədəni intibah // İki sahil. 2011, 27 may, № 94, s.7-9.
9. Qarabağlı S. Azərbaycan Cümhuriyyəti və Üzeyir Bəy Hacıbəyli / S.Qarabağlı// Mədəniyyət. AZ 2018, № 2, s.80-84.
10. Muxtaroglu V. Cümhuriyyət parlamentində universitet müzakirələri / V. Muxtaroglu // Mədəniyyət.AZ, 2018, №2, s.64-67.
11. Mehdiyeva G. Y. Bakı Dövlət Universitetinin yaranmasına fərqli yanaşmalar (Daşnaksütyun, İttihad və Əhrar partiyaları) / G.Y.Mehdiyeva // Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfransın materialları, 20 fevral 2018-ci il. Bakı: Elm və Təhsil, 2018, s.63-78.
12. Nəbiyev B.E. Azərdaycan Xalq Cümhuriyyəti dövründə tarix və ədəbiyyat elminin öyrənilmə səviyyəsi // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2015, №3, s.74-80.
13. Rəhimli İ. Cümhuriyyət dövrü teatrı / İ. Rəhimli // Mədəniyyət.AZ 2018, №2, c.84-91.

14. Süleymanlı M. Azərbaycan Cümhuriyyəti dövründə mədəniyyət quruculuğunun əsas istiqamətləri / M.Süleymanlı // Azərbaycan Cümhuriyyəti: tarixi, siyasi və ədəbi-kulturoloji müstəvidə (elmi məqalələr toplusu). Bakı, Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, s.193-207.
15. Ömərov V. Azərbaycan Xalq Cümhuriyyətinin mədəni siyasəti / Səs, 2017, 1 sentyabr, № 158, s.15.
16. Rəhimli İ. Cümhuriyyət dövrü teatrı / İ. Rəhimli // Mədəniyyət. AZ 2018, № 2, c.84-91.
17. Şərifova S. Azərbaycan ədəbiyyatında marş janrının inkişaf özəllikləri / S.Şərifova // Journal of Individual & Society Haziran 2021 June 2021, Sayı 1, s.51-71.
18. Vəliyeva S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası. Bakı, Azərbaycan, 2003, 128 s.
19. "Азербайджан", 1918, 2 декабря.
20. "Азербайджан", 1918, 19 сентября.
21. "Азербайджан", 1919, 17 ноября.
23. "Азербайджан", 1919, 21 ноября.
22. "Азербайджан", 1920, 23 января.
23. "Азербайджан", 1920, 6 февраля.
24. "Азербайджан", 1920, 13 марта.
25.Азербайджанская Демократическая Республика (1918-1920). Баку, Элм, 1999, 316 с.
26.Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (Стенографические отчеты). Баку, изд-во "Азербайджан", 1998, 992 с.
27. Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты (Сборник документов). Баку, изд-во "Азербайджан", 1998, 560 с.
28. Адрес-Календарь Азербайджанской Республики на 1920 год / Под ред. А.И.Ставровского. Баку, 1920, с.54.
29. Анар. Литература, искусство, культура Азербайджана, т. II, "Letterpress", Баку, 2010, 874 с.
30. Афет Ислам. Узеир бек Гаджибейли и Азербайджанская Демократическая Республика / Каспій, 2018, 7 апреля, № 61, с.10-11.
31. Гаибова М. Узеир Гаджибеков: композитор, публицист, общественный деятель// М.Гаибова//Современная научная мысль, 2015, №4, с.53-58.
32. Государственный Архив Азербайджанской Республики (ГААР), ф. 970, оп.3, д.3, л.14. Копия. Перевод с английского яз., современный подлиннику.
33. Разумовский В.И. Основание Университета в Баку / В.И.Разумовский // Известия Бакинского Государственного Университета, № 2, 1922, с.15-25.

**ABUTALIB CƏLİLOV**
*Tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti*

**AZAD RZAYEV**
*Tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti*

**ƏLİ ƏLİYEV**
*Ü.Hacıbəyov adına BMA-nın baş elmi işçisi*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ALİ TƏHSİL VƏ MƏDƏNİYYƏT

Məqalədə arxiv materialına və digər elmi sənədlər əsasında AXC dövründə ali təhsil sisteminin yaradılması, həmçinin musiqi təhsilinin təşkil olunması geniş təhlil olunur. Tarix yer və şəhər adlarının bərpa olunması, tarix, ədəbiyyat, iqtisadiyyat, coğrafiya elminə aid olan çoxsaylı əsərlərin nəşrində AXC hökumətinin fəaliyyəti açıqlanır. AXC-nin milli mədəniyyətinin əsasını təşkil edən musiqinin, ədəbiyyatın, teatr və başqa incəsənət sahələrinin dərin təhlilinə fikir verilir.

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, ali təhsil, elm, musiqi, ədəbiyyat, teatr.

**ABUTALIB JALILOV**
*PhD in History, associate professor of Baku State University*

**AZAD RZAYEV**
*PhD in History, associate professor of Baku State University*

**ALI ALIYEV**
*Senior Researcher of Baku Academy Music named after U. Hajibeyov*

## TERTIARY EDUCATION AND CULTURE IN THE PERIOD OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

This article based on archival material and other sources, attempt to describe the process of creating a system of tertiary education during the Azerbaijan Democracy Republic also including national music. Unfolding activities of Azerbaijan Democratic Republic government in the restoration and revealing of the names of historical places in order there were published many works on the history, literature, economics, natural science and geography of Azerbaijan. Much attention paid to analysis of Azerbaijan Democracy Republic achievements in the field of such fundamental foundations of national culture alongside with music, literature, theater and other areas of art.

*Keywords*: Azerbaijan Democratic Republic, higher education, science, music, literature, theater.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 94**

**TALEH CƏFƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (Humanitar ixtisaslar üzrə)*
*kafedrasının elmlər doktoru proqramı üzrə qiyabi doktorantı*
**taleh.ceferov.83@mail.ru**

**ŞƏBNƏM CƏFƏROVA**
*Bakı Dövlət Universitetinin Türk xalqları tarixi kafedrasının müəllimi*
**shabnamhaciyeva@gmail.com**

# ERMƏNİ MİLLİ ŞURASININ ŞUŞADA KEÇİRİLƏN QURULTAYLARI VƏ ONLARIN AXC ÜÇÜN NƏTİCƏLƏRİ (1918-1920-Cİ İLLƏR)

*Şuşada Erməni Milli Şurası üzvləri tərəfindən keçirilən erməni qurultaylarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ ərazisində erməni üstünlüyünə nail olmaq, ərazisinin AXC-nin nəzarətindən çıxmasına nail olmaq idi. Buna çatmaq üçün daşnaq Ermənistanının ayırdığı hərbi və maliyə dəstəyini xüsusilə qeyd etmək lazımdır. Qurultayların keçirilməsində digər bir məsələ Qarabağ ermənilərinə AXC tərəfindən müstəsna hüquq və azadlıqların verilməsinə nail olmaq idi. 9 erməni qurultayları AXC-nin Qarabağ siyasətini axsıtmamış, əksinə əlini daha da gücləndirmişdir.*

*Açar sözlər:* Erməni Milli Şurası, erməni qurultayları, Anrdonik, Dağlıq Qarabağ.

***Giriş.*** XX əsrin əvvəllərində beynəlxalq güclərin səyi, eləcə də Cənubi Qafqazda baş vermiş irimiqyaslı geosiyasi dəyişikliklər nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi o zamandan başlayaraq XX əsr boyunca gah səngimiş, gah da alovlanaraq “isti” və “soyuq” mərhələlərə keçmişdir. Ermənistanla Azərbaycan arasında münaqişənin “qaynar” fazasının birinci mərhələsi 1918-ci ilin mayından 1920-ci ilin noyabr ayına qədər davam etmişdir. Buna səbəb yeni müstəqil dövlətlərin sərhədlərinin Rusiya imperiyasının keçmiş quberniyalarının sərhədləri ilə uyğun gəlməməsi idi və bunun nəticəsində də Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etdi. Münaqişə obyektləri, əsasən, erməni və azərbaycanlı əhalinin birlikdə yaşadığı həmsərhəd ərazilər idi. Belə ərazilərdən biri Rusiya imperiyasının süqutu ərəfəsində Yelizavetpol quberniyasının tərkibinə daxil olan və dörd qəzanı – Şuşa, Zəngəzur, Cavanşir və Qaryagin (sonralar Cəbrayıl) rayonlarını özündə birləşdirən Qarabağ idi [1, s.58].

Çarizm işğal etdiyi ərazilərdə müstəmləkəçilik siyasətini həyata keçirmək üçün müxtəlif üsullardan istifadə edirdi. Onlardan biri digər xalqların regiona köçürülərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi idi. Köçürmə siyasəti çarizmin müstəmləkə siyasətinin tərkib hissəsinə çevrildi. Bu siyasət nəticəsində müxtəlif xalqlar – rus, erməni, alman, polyak və b. Azərbaycana yerləşdirildilər. Lakin yerləşdirmədə üstünlük ermənilərə verilirdi. Bu da səbəbsiz deyildi. Dövlətləri olmadığından Şərqdə daim başqa hakimiyyət altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan, itaətkar ermənilər həmişə işə başqalarından daha çox münasib olduqlarından çarizmin müstəmləkə siyasətində ən əlverişli vasitəyə çevrildilər (1, s.59). Çarizm uzun illər boyu “parçala, hökm sür” siyasətini həyata keçirmək üçün özünə etibarlı elementləri Xəzərin şimal sahillərini işğal edərək yerləşdirməyə çalışmışdı. Bundan ötrü yaradılmış xususi komissiya on minlərlə ermənini Osmanlı və İran ərazilərindən köçürərək Cənubi Qafqazda yerləşdirdi. Əgər 1823-cü ildə Qarabağ əyalətində 10 min nəfər erməni var idisə, 1828-1829-cu illərdə onların sayı 18 min, 1843-cü ildə isə 34 min 606 nəfərə çatdı (2, c.228). N.İ.Şavrov bununla bağlı olaraq yazırdı ki, 1828-1830-cu illərdə Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi erməni əhalisinin yox dərəcəsində olduğu Yelizavetpol və İrəvan quberniyalarında ən yaxşı torpaqlarda yerləşdirildilər. Yelizavetpol quberniyasının dağlıq hissəsi (keçmiş Dağlıq Qarabağ-T.C) və Göyçə gölünün sahilləri ermənilərlə məskunlaşdırıldı. 124 mindən çox ermənininin rəsmi olaraq 120 mini və qeyri-rəsmi olaraq isə daha çox erməni həmin əraziyə yerləşdirildi. N.Şavrov yazırdi ki, Cənubi Qafqazda yaşayan 1 milyon 300 mindən artıq ermənin 1 milyondan çoxunun diyarın köklü sakinlərinə aidiyyatı yoxdur və bizim tərəfimizdən köçürülərək yerləşdirilmişlər (2, c.63-64).

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti mərhələsi XIX əsrin ikinci yarısında oldu. Osmanlı ərazisində hökumət əleyhinə baş verən qiyamlardan sonra köçən 35-60 min erməni Şimali Azərbaycana yerləşdirildi. Əgər köçürülmə nəticəsində 1873-cü ildə Yelizavetpol quberniyasında 99 min 918 nəfər erməni yaşayırdısa, 1886-ci ildə onların sayı artaraq 258 min 324 nəfərə çatdırıldı (2, c.232). Artıq köçürülənlər üstün olaraq İrəvan quberniyasına, Ermənistanın sonralar iddia etdiyi keçmiş Dağlıq Qarabağ regionuna və Naxçıvana məhz o zaman yerləşdirildilər.

Çarizmin ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsində başlıca məqsədi heç də erməni maraqları deyildi. Ermənilərin arzu və istəkləri ilə çarizmin müstəmləkə siyasətinin həyata keçirilməsi üsullari üst-üstə düşürdü. Çarizim bununla diyari iqtisadi və siyasi cəhətdən imperiyaya daha sıx bağlamaq, vahid təsərrüfat sistemi yaratmaq, təbii sərvətlərini talayıb aparmaq, Osmanlı imperatorluğu və İran ilə sərhəddə təhlükəsizliyi təmin etmək niyyətini güdürdü (1, s.60). Azərbaycanlıların münbit torpaqlarına yerləşərək çarizmin yaratdığı imtiyazlar və güzəştlər hesabına qısa müddətə varlanan ermənilər Cənubi Qafqazda etnik-milli ziddiyyətlərin, münaqişələrin və axıdılan qanların baiskarına çevrildilər.

Azərbaycan ərazilərinə ermənilərin yerləşdirilməsi XX əsrin əvvəllərində də davam etdirildi. Belə ki, 1904-1905-ci illərdə xarici ölkələrdən 45 min erməni Cənubi Qafqaza gətirilərək yerləşdirildi (4). 1915-ci ildə Təbriz və ətraf ərazilərdən Cənubi Qafqaza köçürülən ermənilərin sayı 60 min nəfər təşkil edirdi. Təkcə 1915-ci ilin iyul ayında Qafqaz canişininin sərəncamına əsasən Cavanşir və Şuşa qəzalarına 24 min nəfər erməni yerləşdirilmişdi. Avqust ayında isə 52 min ermənının gəlməsi gözlənilirdi. Onlarin 15 mini Yelizavetpola, 15 mini Şuşa, 10 mini Qazax, 8 mini Cavanşir, 4 mini isə Ərəş qəzalarina yerləşdirilməli idi (5).

"Qafqaz təqvimi"nin məlumatına görə, Qarabağ əhalisinin 1 yanvar 1916-cı il tarixinə olan ümumi sayı 242 min erməni və 322 min azərbaycanlı təşkil edirdi. Bununla yanaşı, erməni əhali daha çox Qarabağın dağətəyi rayonlarının dar, kəsişmə zolağında cəmləşmişdi. Ərazi münaqişəsi başlanandan tərəflər onun həll variantlarını təklif edirdilər. Əgər Azərbaycan hökuməti dövlətlər arasında sərhədlərin müəyyən edilməsinin əsas meyarı kimi tarixi prinsip irəli sürürdüsə, Ermənistan tərəfi "ermənilərin yaşadığı yer erməni torpağıdır" prinsipi ilə hərəkət edirdi. Məhz bu mərhəldə "Dağlıq Qarabağ" termini siyasi əhəmiyyət kəsb etdi. Dağlıq Qarabağın erməni əhalisi burada öz inzibati hakimiyyət orqanlarını yaratmaqla Ermənistana birləşməyə çalışırdı. Münaqişənin bu mərhələsində onun həllində böyük dövlətlər – Osmanlı imperiyasının simasında Dördlər İttifaqı ölkələri və İngiltərənin simasında Antanta fəal iştirak edirdilər.

1918-ci ilin oktyabrında türk qoşunlarının Dağlıq Qarabağa daxil olması erməni əhalinin Azərbaycan hökumətinin bu region üzərində yurisdiksiyasını qeyd-şərtsiz tanımasını təmin etməsə də, Azərbaycana bu ərazi üzərində nəzarətini bərqərar etməyə imkan verdi. Birinci Dünya müharibəsində Dördlər İttifaqı ölkələrinin təslim olması (kapitulyası) 1918-ci ilin oktyabr-noyabr aylarında türk qoşunlarının Cənubi Qafqazdan çıxarılmasına və bölgənin milli-dövlət strukturu üzərində nəzarətin Antanta ölkələrinin əlinə keçməsinə səbəb oldu. Beləliklə, Cənubi Qafqazda Böyük Britaniyanın dominantlıq dövrü başladı və bu iki müstəqil respublika arasında ərazi ziddiyyətlərinin aradan qaldırılmasında və ya kəskinləşməsində müəyyən rol oynadı.

Qeyd edək ki, 1918-ci ildə Qarabağda ingilis-fransız havadarlarına arxalanan Andranikin quldur dəstələri ağlasığmaz vəhşiliklər törətmişdilər. Antanta qoşunlarının Zaqafqaziyada baş komandanı olan general Tomson Zəngəzur qəzasının beşdə dörd hissəsini Azərbaycan hökumətini xəbərdar etmədən Andronikə verir. Bundan şirniklənən Andranik Ozanyanın daşnak quldur dəstələri birbaşa Ermənistan hökumətinin göstərişləri əsasında 1918-ci ilin yay-payız aylarında Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq dinc əhaliyə qarşı kütləvi soyqırımı həyata keçirdilər. Nəticədə Zəngəzurda 115, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarında 21, İrəvan quberniyasında isə 60-dan çox Azərbaycan kəndi məhv edilmiş və 100 mindən çox türk-müsəlman əhalisi öz doğma yurdundan didərgin salınmışdı (6, s.15).

Ermənistanın hiyləgər siyasi təbliğatı və güclü hərbi yardımı nəticəsində Qarabağın dağlıq hissəsində kök salmış ermənilər iyulun 22-də onun "müstəqilliyini" elan etməyə cəhd göstərdilər. Bu məqsədlə 1918-ci ilin iyul və sentyabr aylarında keçirdikləri I və II qurultaylarda bu mahalların müstəqilliyini elan etdilər. Hökumət Bakıdakı Şaumyan daşnaq-bolşevik rejiminin hərbi qüvvələrinə qar-

şı mübarizə apardığından, erməni separatçılarının törətdiyi problemi danışıqlar yolu ilə nizama salmağa çalışırdı. Bu məqsədlə Şuşaya nümayəndə heyəti göndərilmişdi. Avqustun 15-də Andronikin törətdiyi soyqırımlar ilə əlaqədar Ermənistan hökumətinə etiraz notası verilmişdir. Erməni hökuməti iki gün sonra verdiyi cavabında Andronikin guya Xüsusi erməni korpusuna "tabe olmadığını" bildirərək, bu yalanla məsuliyyətdən yaxa qurtarmağa çalışmışdı. Həmin dövrdə Ermənistan hökuməti Qarabağın Azərbaycanın tərkibində olmasını təsdiq edirdi. Bunu avqustda Şuşaya nümayəndə heyəti göndərmək üçün Ermənistanın Tiflisdəki diplomatik nümayəndəliyinin oradakı (Tiflisdəki) rəsmi Azərbaycan orqanlarına müraciəti də sübut edir.

1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andranik burada bir növ erməni dövlətini yaratmağa çalışırdı. O, Zəngəzuru, Qarabağı və Dağlıq Qarabağdan şimalda yerləşən Gəncə quberniyasının torpaqlarını "Kiçik Ermənistan" adlandıraraq bu ərazilərdə azərbaycanlı əhalisinə qarşı vəhşiliklər törədərək əraziləri azərbaycanlılardan təmizləməyi qarşısına məqsəd qoymuşdu.

AXC-i parlamentinin sədri M.Topçubaşov (1862-1934) Osmanlı dövlətinin Xarici İşlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirmişdi: Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5 ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq – Şuşa, Cavanşir, Cəbrayil və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir... Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq.

1918-ci ilin dekabrın 26-da Gorusda azərbaycanlılar və ermənilər arasında sülhü bərqərar etmək məqsədilə ingilis zabiti Hibbon keçirdiyi görüşdə general Tomsonun Zəngəzurun böyük bir hissəsinin Andranikə verilməsi haqqında əmri elan edir. Bu bir daha ingilislərin ermənilərə olan sevgisi və dəstəyindən xəbər verirdi. 1919-cu ilin yanvarında İngiltərə Qarabağda Azərbaycanın yurisdiksiyası altında xüsusi Qarabağ general-qubernatorluq adminstrasiyasının yaradılması yolu ilə münaqişə zonasının ərazi baxımından təcrid olunması modelini irəli sürdü. İngilislərin bu qərarı heç də Azərbaycana olan xüsusi rəğbətdən irəli gəlmirdi. İngilis komandanlığı sadəcə İrəvanla müqayisədə Bakı ilə daha sıx bağlı olan Dağlıq Qarabağın humanitar problemlərini daha səmərəli şəkildə həll etməyə çalışırdı.

1919-cu cu ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağ ərazilərində erməni quldur dəstələri tərəfindən hücumların miqyası genişlənir. Azərbaycan hökuməti təhdidlərin qarşısının vaxtında alınması məqsədilə bir sıra qabaqlayıcı tədbirlər həyata keçirməyə qərar verir. 1919-cu ilin yanvarın 15-də hökumət general Tomsonun razılığı ilə Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət müvəqqəti Qarabağ general-qubernatorluğunu yaradır və 29 yanvar tarixində doktor Xosrov bəy Sultanovu general-qubernator vəzifəsinə təyin edir. Qarabağın erməni milli yığıncağının Xosrov bəyin təyinatına etiraz olaraq tərtib etdikləri məktubda yazırdı ki, "Qarabağın erməni milli yığıncağı Azərbaycan hökuməti tərəfindən təyin olunan general-qubernatorla bağlı bildirir ki, onlar heç vaxt bu faktla barışmayacaqlar".

General-qubernatorun vəzifələri dəqiq və konkret idi: erməni hərəkatına qarşı mübarizə və onun tamamilə ləğv edilməsi, yuxarıda göstərilən qəzalarda qəti qayda-qanun yaradılması, yerli hakimiyyətin təşkili, qaçqınların ərzaqla təmin olunması, onlara kömək göstərilməsi və əvvəlki yaşayış yerlərinə qaytarılması. Lakin Qarabağın erməni əhalisi heç bir vəchlə Azərbaycan hökumətinə tabe olmur, üstəlik Ermənistan hökuməti bunu "Ermənistanın ərazi hüquqlarına qəsd" adlandıraraq Azərbaycan hökumətinə öz etirazını bildirirdi. Dövlət arxivində saxlanılan sənəddə qeyd edilirdi ki, əslində bəhs olunan dövrdə Dağlıq Qarabağda ikihakimiyyətlik mövcud idi. Qarabağın Erməni Milli Şurası İşxanyan başda olmaqla azərbaycanlılara qarşı erməni əhalisi içərisində nəinki qızışdırıcı təbliğat aparır, həmçinin hərbi əməliyyatlara da başçılıq edirdi. Qarabağın bütün erməni əhalisi bu Milli Şuraya tabe idi və onun tapşırıqlarını sözsüz yerinə yetirirdi.

Qarabağda olan daşnak erməni təşkilatları Qarabağ general-qubernatorluğuna etiraz olaraq 1919-cu il aprel ayında keçirdikləri beşinci qurultayında Azərbaycana qarşı münasibətlərini müzakirə edib, daşnak ünsürlərinin təzyiqi altında Azərbaycan hökumətilə əlaqəsi olan hər hansı bir dövlət idarəçiliyini qəbul etməyəcəkləri barədə qərar verdilər. Bunun ardınca 1919-cu il aprelin sonunda erməni separatçıları keçirdikləri qurultayda Qarabağ general-qubernatorunun hakimiyyətini tanımaqdan

imtina etdilər. Yenə Azərbaycan hökumətinin təkidi ilə general Tomson 1919-cu il mayın 5-də separatçı şəxslərin Qarabağdan çıxarılması haqqında sərəncam verdi və iyunun 5-də onlar ingilis nümayəndələrinin müşayiəti ilə Şuşanın ermənilər yaşayan hissəsində keçirilən mitinqdə ermənilər Azərbaycan hökumətini tanıdıqlarını bildirdilər.

1919-cu ilin yay aylarında Yuxarı Qarabağda artıq nisbi sakitlik hiss olunmağa başladı. 1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi, məqsədyönlü siyasəti, Xosrov bəy Sultanovun prinsipal mövqeyi və qətiyyətli tədbirləri nəticəsində Andranikin və başqa daşnak qüvvələrinin Qarabağda quldur basqınlarına son qoyuldu. Cümhuriyyət hökumətinin sülhsevər və humanist siyasəti nəticəsində bölgənin dinc erməni əhalisi Azərbaycan hökumətinin hakimiyyətini tanıdı (7, s.256). Bununla əlaqədar 1919-cu ilin avqustunda Azərbaycan hökuməti Respublikanın suverenliyini tanımaq haqqında Dağlıq Qarabağ erməniləri ilə müqavilə bağladı (8, s.193).

Azərbaycan Respublikasının tərkibində Qarabağ general-qubernatorluğunun yaradılması ilə "Qarabağ" termini Çar Rusiyasının 1822-ci ildə Qarabağ xanlığını ləğv etməsindən sonra itirdiyi inzibati-siyasi mənasını özünə qaytardı. İngilislərin qətiyyətli addımları Dağlıq Qarabağın erməni əhalisinin siyasi əhvali-ruhiyyəsinə müəyyən təsir göstərmişdi. 1919-cu ilin avqustr ayında Dağlıq Qarabağ erməniləri ilə Azərbaycan hökuməti arasında müvəqqəti razılıq əldə edildi və deklorasiya imzalandı. Avqustun 15-də Qarabağ ermənilərinin Şuşada baş tutan VII qurultayının 4-cü iclasında ermənilər Azərbaycan hökumətinə 26 bənddən ibarət "Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti Saziş"i təqdim etdilər. Müqaviləyə görə, "Qarabağın – ermənilərin məskunlaşdığı Şuşa, Cavanşir və Cəbrayıl (Dizaq, Vərəndə, Xaçın və Caraberd) dağlıq hissəsi bu məsələ Paris Sülh konfransında həll edilənə qədər özünü Azərbaycan Respublikasının hüdudlarına daxil hesab edirdi". Həmçinin, Yuxarı Qarabağın ərazisində bütün inzibati vəzifələrə ermənilər təyin edilməli və Qarabağ general-qubernatorluğu yanında yaradılan Şurada 3 erməni və müsəlman təmsil olunmalı idi. Ermənilər həmçinin mədəni muxtariyyət tələb edirdilər. Azərbaycan hökuməti Qarabağın erməni əhalisinə maddi-mənəvi yardım etməli, söz azadlığı verməli, milli münaqişədə iştirakına görə heç kəs cəza almamlı idi. Beləliklə, tərəflər arasında müqavilə imzalansa da, lakin ermənilər öz ərazi iddialarından əl çəkmək istəmirdilər.

Bu "Dağlıq Qarabağ" termininin siyasi mənada işlədildiyi ilk sənəd idi, bu ərazi isə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi kimi tanınırdı. Bundan başqa, sənəddə konkret olaraq, Dağlıq Qarabağın ermiənilərin məskunklaşdığı hissəsi - Dizaq, Xaçın, Vərəndə və Çiləbörd göstərilir. Lakin ermənilər bu sazişin Qarabağın azərbaycanlı general-qubernatorunun təzyiqi ilə bağlandığını hesab edərək onu qəbul etmədi.

1919-cu ilin sonlarında Ermənistan hökuməti Dağlıq Qarabağın "azad" edilməsi üçün 19 milyon manat pul ayırmışdı. Bütün bunların nəticəsində 1920-ci ilin martında erməni separatçıları daha da azğınlaşdı. Martın 22-23-də Ermənistanın iştirakı və Moskvanın sifarişi ilə Dağlıq Qarabağda Azərbaycana qarşı xəyanətkar çıxışlar baş verdi. AXC hökuməti isə məcburən ölkənin digər sərhədlərini qoruyan qoşunları, hərbi hissələri dərhal bu qiyamı yatırmaq üçün Qarabağa göndərdi. Bunun nəticəsində də şimal sərhədlərimiz müdafiəsiz qaldı və Denikinə Şimali Qafqazda qalib gələn XI Qırmızı ordu Azərbaycan sərhədlərini asanlıqla keçdi. Aprel işğalı nəticəsində AXC süquta uğradı və Qarabağ general-qubernatorluğunun da fəaliyyətinə son qoyuldu.

***Nəticə.*** 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andranik burada bir növ erməni dövləti yaratmağa çalışırdı. O, Zəngəzuru, Qarabağı və Dağlıq Qarabağdan şimalda yerləşən Gəncə quberniyasının torpaqlarını "Kiçik Ermənistan" adlandıraraq bu ərazilərdə azərbaycanlı əhaliyə qarşı vəhşiliklər törədərək əraziləri azərbaycanlılardan təmizləməyi qarşısına məqsəd qoymuşdu. Keçirilən 9 qurultayda müəyyən "nailiyyətlər" əldə etməyə cəhd göstərsələr də, AXC hökumətinin qətiyyətli addımları sayəsində erməni istəkləri puç oldu.

## ƏDƏBİYYAT

1. Qasımlı M, Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. –Bakı: Mütərcim, 2015. -648 s.

2. Вердиева Х, Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, 1999, 228 с..

3. Глинка С. Описание переселения армян Азербайджанских в пределы России, с кратким предварительным изложением исторических времен Армении. М., 1831. -234 с.
4. Помощник начальника Эриванского Губернского Жандармского Управления в Карской области –начальнику Тифлисского ГЖУ. 15.09.1908. №1088. Секретно. –Azərbaycan Respublikasının Siyasi Sənədlər Arxivi, fond 276, siyahı 8, iş, 275, vərəq 1.
5. Помощь беженцам. – Газ "Баку", Баку, 1915, 1 августа, №171.
6. Hacıyev İ, Azərbaycan Xalq Cümhuriyyətinin erməni təcavüzünə qarşı mübarizəsi // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları, BDU, 2018, 1111 s.
7. Azərbaycan tarixi (Ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Dərslik. Bakı: Elm, 2008, 696 s.
8. Əzizov T, Azərbaycan XX əsrin əvvəllərində. Baki: Zaman, 1997, 256 s.
9. Bəxtiyar Qaraca, "Qarabağ general-qubernatorluğunun yaradılması". - https: //wikivisually.com/langaz/wiki/Qarabağ%C4%9F_generalqubernatorlu%C4%9Fu [01.10.2023].

**ТАЛЕХ ДЖАФАРОВ**
*Старший преподаватель кафедры Всеобщей истории и технологии преподавания истории Азербайджанского государственного педагогического университета, доктор исторических наук, Докторант заочного отделения кафедры истории Азербайджана (гуманитарные науки) Бакинского государственного университета по программе доктора наук*

**ШАБНАМ ДЖАФАРОВА**
*Преподаватель кафедры истории тюркских народов Бакинского государственного университета*

## СЪЕЗДЫ АРМЯНСКОГО НАЦИОНАЛЬНОГО СОВЕТА В ШУШЕ И ИХ ПОСЛЕДСТВИЯ ДЛЯ АДР (1918-1920-Е ГГ.)

Основной целью армянских съездов, проведенных членами Армянского национального совета в Шуше, было добиться господства Армении на территории бывшего Нагорного Карабаха, вывести эту территорию из-под контроля АДР. Для достижения этой цели следует особо отметить военную и финансовую поддержку, оказываемую Дашнакской Арменией. Другим вопросом проведения съездов было добиться предоставления АДР исключительных прав и привилегий карабахским армянам. 9 Власти Армении не остановили карабахскую политику АДР, наоборот, еще больше укрепили свои позиции.

*Ключевые слова:* Армянский национальный совет, армянские конгрессы, Анрдонич, Нагорный Карабах.

**TALEH JAFAROV**
*Head teacher of the Department of General History and History Teaching Technology of Azerbaijan State Pedagogical University, Doctor of Philosophy in History, Part-time doctoral student of the Baku State University's Department of History of Azerbaijan (Humanities) in the Doctor of Sciences program*

**SHABNAM JAFAROVA**
*Lecturer of the Department of History of Turkic Peoples of Baku State University*

## CONGRESSES OF THE ARMENIAN NATIONAL COUNCIL HELD IN SHUSHA AND THEIR CONSEQUENCES FOR THE APR (1918-1920S)

The main goal of the Armenian congresses held by the members of the Armenian National Council in Shusha was to achieve Armenian supremacy in the territory of the former Nagorno-Karabakh, to get the territory out of the control of the APR. To achieve this, the military and financial support provided by Dashnak Armenia should be especially noted. Another issue in the

holding of congresses was to achieve the granting of exclusive rights and privileges to Karabakh Armenians by the APR. 9 Armenian congresses did not weaken the APR's Karabakh policy, on the contrary, it strengthened its hand even more.

*Keywords:* Armenian National Council, Armenian congresses, Anrdonic, Nagorno-Karabakh.

*Məqalənin redaksiyaya daxil olduğu tarix 01 oktyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24); UOT 94"19/..."

**NAZİM MƏMMƏDOV**
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin baş elmi işçisi, t.e.d., dos.*
**mamedov-n@yahoo.com**

# HEYDƏR ƏLİYEV VƏ ŞUŞA ŞƏHƏR ƏHALİSİNİN SOSİAL RİFAHININ YÜKSƏLMƏSİ (1960-cı illərin sonu və 1980-ci illərin əvvəlləri)

*Məqalədə qeyd olunur ki, Şuşanın sosial-iqtisadi inkişafı daim dövlətin və onun rəhbəri Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Bunun nəticəsidir ki, Respublika səviyyəsində digər rayonlarla müqayisədə Şuşanın sosial-iqtisadi inkişaf səviyyəsi yüksək olmuşdur.*

*Açar sözlər*: Azərbaycan, Şuşa, Ümummilli lider Heydər Əliyev, Qarabağ, şəhər, siyasi sabitlik, bölgə, sosial inkişaf.

***Giriş.*** Ümummilli lider Heydər Əliyevin diqqət və qayğısının nəticəsi olaraq Azərbaycanın Şuşa rayonunun iqtisadi yüksəlişi, əhalinin rifahının və məişətinin daha da yaxşılaşdırılmasına şərait yaratmışdır. Şuşa rayonunun kolxoz, sovxoz və şəxsi təsərrüfatlarında ümumi istehsal təqribən iki dəfə, əhalisinin hər nəfərinə düşən real gəlir 80 faiz artmışdır [5, v.649]. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1970-ci illərdə 1,5 dəfə, 1980-ci illərdə isə 1,3 dəfə çoxalmışdır. Rayonda əhalinin real gəlirinin yüksəldilməsində əsas mənbələrdən biri əmək haqqının ardıcıl olaraq yüksəldilməsidir. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP qurultaylarında, MK plenumlarında, vaxtaşırı çağırılan müşavirələrdə respublikamızın, o cümlədən onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağın və həm də Şuşa rayonunun iqtisadi, sosial və mədəni inkişafı üçün konkret vəzifələr irəli sürülmüş və əhalinin rifah və məişətinin daha da yaxşılaşdırılması üçün təşkilati tədbirlər müəyyən edilmişdir. 1970-ci illərdə xalq təsərrüfatının müxtəlif sahələrində fəhlə və qulluqçularının əmək haqqının nizama salınması və yüksəldilməsi sahəsində görülən tədbirlər nəticəsində Şuşada fəhlə və qulluqçuların orta əmək haqqı 1965-ci illə müqayisədə 1985-ci ildə 60 faizdən çox artmışdı. Əgər 1965-ci ildə Şuşa rayonunda fəhlə və qulluqçuların pul ilə ödənilən orta aylıq əmək haqqı 60 manat idisə, 1965-ci ildə bu rəqəm 90 manata, 1975-ci ildə 125 manata, 1980-ci ildə 148 manata, 1985-ci ildə 153,5 manata çatmışdır [17, v.23]. Gəlirləri daha çox olan Şuşanın sovxozlarında və sənaye müəssisələrində aylıq əmək haqqı daha yüksək olmuşdur.

***Əhalinin sosial rifahı.*** Şuşa rayonun kolxozçularının da orta aylıq əmək haqqında artım müşahidə edilmişdir. Bəhs etdiyimiz dövrdə bu artım 1,5-2 dəfəyə çatmışdır. 1965-ci ildə kolxoz və sovxoz təsərrüfatlarında işləyən hər bir fəhləyə gündə 2 manat 65 qəpik keçirilirdisə, 1985-ci ildə 6 manat 12 qəpiyə qalxmışdır [1, v.38]. Kənd təsərrüfatında çalışan işçilərin orta aylıq gəliri 1960-cı ildə təxminən 50 manat olmuşdursa, 1985-ci ildə isə 976 manata çatmışdır [7, v.29]. Bu baxımdan Vilayətdə və onun Şuşa rayonunda kənd əməkçilərinin orta illik gəliri 1960-cı ilə nisbətən, 1980-ci ildə 5,5 dəfə artmışdır. Tədqiq edilən illərdə rayonun kolxozçu kəndlilərinin təkcə orta illik əmək haqqı deyil, eyni zamanda onların gəlirləri, təqaüdləri, güzəştli və maddi kömək ictimai fondların artması hesabına çoxalmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Şuşada kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı respublika göstəricilərindən azda olsa artıq olmuşdur. Məsələn, ümumrespublika üzrə kənd təsərrüfatında işləyənlər 1965-ci ildə 51,3 manat, 1985-ci ildə 119 manat aylıq əmək haqqı almışlarsa, Şuşa rayonunda müvafiq illərdə 60 və 130 manat arasında dəyişmiş, bütövlükdə Vilayətdə bu göstərici 1965-ci ildə 78 manat, 1985-ci ildə isə 280 manata çatmışdır [29, s.92].

Şuşa rayonunda istər kolxozçuların, istərsə də fəhlə və qulluqçuların şəxsi təsərrüfatlarından gələn gəlirləri xeyli artmışdır. Maraqlı cəhət ondan ibarətdir ki, bəhs olunan illərdə Şuşa rayonunda şəxsi həyətyanı təsərrüfatlardan əldə edilən gəlir istər ümumittifaq səviyyəsində, istərsə də ümumrespublika səviyyəsində yüksəkdə dayanmışdır. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, 1970-ci ildə keçmiş SSRİ məkanında kolxozçular ümumi gəlirlərinin 31,9 faizini şəxsi təsərrüfatlarından əldə etmişdilər. 1975-ci ildə bu göstərici 26,3 faiz, 1980-ci ildə 30 faiz təşkil etmişdir. Ümumrespublika üzrə bu göstərici 1970-ci ilə 32 faiz, 1975-ci ildə 43,9 faiz, 1980-ci ildə 45 faiz təşkil etmişdirsə,

Azərbaycanın Şuşa rayonun-da bu göstərici 1970-ci ildə 35 faiz, 1975-ci ildə 45 faiz, 1980-ci ildə isə 47 faiz təşkil etmişdir [4, v.3].

Apardığımız araşdırmalardan məlum olur ki, Dağlıq Qarabağda rəhbərlik edən ermənilər və eyni zamanda Vilayət deputatları daimi Şuşa rayonuna ögey münasibət göstərmiş, ümumi nəticələrdə də müqayisədə aşağı göstəricilər əldə edilmişdir. Məsələn, 1960-cı illə müqayisədə 1975-ci ildə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, Şuşa rayonunda 150 faiz bütövlükdə Dağlıq Qarabağda 260 faiz çoxalmışdır. Həmin illərdə sənaye məhsulları istehsalı həcmi Respublikamızda 229 faiz, Şuşa rayonunda 230 faiz, Dağlıq Qarabağda 281 faiz, kapital qoyuluşunun həcmi ümumrespublika üzrə 219 faiz, Şuşada 220 faiz bütövlükdə Vilayətdə 420 faiz və ya mal dövriyyəsinin həcmi bütövlükdə Azərbaycanda 240 faiz, Şuşada 245 faiz, Yuxarı Qarabağda 280 faiz, eyni zamanda məişət xidmətinin həcmi Respublikada 540 faiz, Şuşada 545 faiz, Dağlıq Qarabağ bölgəsində 560 faiz artmışdır [32, s.76]. Bütün bu və ya digər faktlar yüzlərlədir və bölgədə XIX yüzillikdə məqsədli şəkildə məskunlaşan ermənilərin "sosial-iqtisadi gerilik" konsepsiyasının saxta olduğuna tutarlı cavabdır.

***Ödənc və güzəştlər.*** Şuşa rayonunda ictimai istehlak fondlarında əhaliyə verilən ödənc və güzəştlərin məbləği 2,5 dəfə, ümumilikdə Vilayətdə isə 3 dəfə çoxalmışdır [31, s.16]. Həmin illərdə qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım ilbəil artmışdır. Şuşa rayonunda dövlətdən ümumi təqaüd alanların sayı 1960-cı ildə 986 nəfər, 1966-cı ildə 1104 nəfər, 1970-ci ildə 1368 nəfər, 1975-ci ildə 1578 nəfər, 1985-ci ildə 2184 nəfər olmuşdur [11, v.119].

Onu da qeyd edək ki, Şuşa rayonunda çoxuşaqlı anaların sayı 1965-ci ildə 450 nəfər, 1970-ci ildə 463 nəfər, 1975-ci ildə 387 nəfər, 1980-ci ildə 31 nəfər idi. 1974-cü il 12 sentyabr tarixli qərarına əsasən 1974-cü il noyabrın 1-dən ümumi gəliri ailənin hər üzvü hesabından ayda 50 manatdan az olan 8 yaşa qədər uşaqların hər birinə 12 manat müavinət verilməsinə başlandı [9, v.29].

Bundan əlavə, dövlətin "uşaqlı ailələrə dövlət yardımını gücləndirmək haqqında" 1981-ci il 31 mart tarixli qərarı ilə ümumi iş stajı bir ildən az olmadan, habelə təhsil alan qadınlara uşaq 1 yaşına çatanadək ona xidmət etmək üçün əmək haqqının müəyyən hissəsi ödənilməklə bir il müddətində məzuniyyət verilməyə başlanmış, tək analara verilən dövlət mükafatının minimum səviyyəsi hər bir uşağa ayda 20 manata qaldırılmış və xəstə uşağa qulluq edilməsinə görə haqqı ödənilən vaxtın müddəti 14 günədək uzadılmışdır. Beləliklə, 70-80-ci illərdə dövlətimizin həyata keçirdiyi mühüm tədbirlər nəticəsində əhaliyə verilən pensiyaların həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxaldı [16, v.7]. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda kolxoz üzvlərinin pensiya məbləği müxtəlif göstəricilər üzrə xeyli artmışdır. Məsələn, təkcə Şuşa rayonunda qocalığa görə pensiya məbləği 1970-ci ildəki 400 min manatdan 1980-ci ildə 608 min manata qalxmışdır. Şuşa rayonu kolxoz üzvlərinin əlilliyə görə pensiya məbləği 1970-ci ildəki 4 mindən 1980-ci ildə 9 minə, xəstəlik və şikəstliyə görə pensiya məbləği 45 mindən 59 minə, iş qabiliyyətini itirdiyinə görə pensiya məbləği 20 mindən 40 minə qalxmışdır [12, v.7]. 1970-ci illə müqayisədə Şuşa rayon fəhlələrinin aldıqları pensiya və müavinətlərin məbləği 50 min manatdan 98 min manatadək artmışdı [9, v.30].

Əmanət kassaları və əmanətlər. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda əhalinin maddi rifah halının yaxşılaşdırılmasını rayon sakinlərinin əmanət kassalarında saxlanılan pul əmanətlərinin məbləğindən, əmanətlərin və əmanət kassalarının sayının artmasından da görmək olar.

**Cədvəl 1. Şuşa rayonunda əmanət kassaları**

| İşin məzmunu | İllər | | | |
|---|---|---|---|---|
| | 1966-1970 | 1971-1975 | 1976-1980 | 1985 |
| Əmanət kassalarının sayı | 8 | 11 | 12 | 13 |
| Əmanətçilərin sayı (min) | 6 | 8 | 11 | 14 |
| Kassalarda saxlanılan əmanətlərin məbləği (min manatla) | 9062 | 9522 | 9683 | 2546 |
| Orta hesabla hər bir əmanətçiyə düşən məbləğ (manatla) | 150 | 122 | 120 | 60 |

Qeyd edək ki, təkcə 1975-ci ildə Vilayətdə 100 əmanət kassası fəaliyyət göstərdi ki, buradakı əmanətçilərin sayı 66 min nəfərə, saxlanılan pulun məbləği 64751 min manata, hər əmanətçiyə düşən pulun məbləği isə 991 manata çatmışdı [3, v.9]. 1966-1980-ci illərdə DQMV-nin Xankəndi, Ağdərə, Hadrut və Xocavənd rayonunda əmanət kassalarında saxlanılan əmanətin miqdarı dəfələrlə artmasına baxmayaraq azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunda bu göstərici aşağı düşmüşdü. Məsələn həmin illərdə Xankəndi rayonunda əhalinin saxladığı əmanətlər 9 milyondan 14 milyona qalxmışdırsa, Şuşa rayonunda 9 milyon manatdan 2,5 milyon manata enmişdir. Eyni zamanda, ümumilikdə Dağlıq Qarabağda hər bir əmanətçiyə 991 manat düşdüyü halda, bu göstərici ayrılıqda Şuşa rayonunda 120 manata bərabər idi [30, s.184]. Bu faktın özü Dağlıq Qarabağda yaşayan azərbaycanlılara ögey münasibət göstərilməsini və onların sosial vəziyyətinin aşağı olmasını göstərir [26, s.91]. Eyni zamanda, araşdırmalardan məlum olur ki, Vilayətin Xankəndi, Hadrut, Xocavənd, Ağdərə rayonlarından azərbaycanlılar yaşayan bütün kəndlərin yalnız birində əmanət kassası var idi.

***Ticarət.*** 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda həyata keçirdiyi mühüm tədbirlərdən biri də, burada yaşayan əhalinin istehlak tələbatı ilə təklif arasında uyğunluq yaratmaq, əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödəməkdən ibarət olmuşdur. Şuşada əhalinin alıcılıq qabiliyyətinin artması istehlak malları istehsalının, ticarət və ictimai iaşə xidmətlərinin nisbətən inkişaf etməsi rayonda mal dövriyyəsinin çoxalmasına səbəb olmuşdur. 1971-1981-ci illərdə Respublika rəhbərliyinin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonu ərazisində 5 yeni ticarət müəssisəsi, 5 yeməkxana və restoran, 2 qəlyanaltı və bufet, 7 ictimai iaşə müəssisəsi, 5 xırda satış müəssisəsi, 8 çadır ticarət köşkü tikilib rayon əhalisinin istifadəsinə verildi. Bəhs edilən dövrdə Şuşa rayonunda ticarət müəssisəsinin sayı 20-dən, 25-ə, mağazaların, yeməkxanaların və restoranların sayı 18-dən 23-ə, qəlyanaltı və bufetlərin sayı 28-dən 30-a, ictimai iaşə müəssisəsi 20-dən 27-yə, ixtisaslaşmış mağazalar 2-dən 3-ə, xırda satış mağazası 65-dən 72-ə, gündəlik tələbat mağazaları 20-dən 25-ə, digər satış mağazaları 65-dən 72-yə, çadır ticarət köşkləri 32-dən 43-ə çatdı [23, v.211].

1971-1985-ci illərdə Şuşa rayonunda dövlət və kooperativ ticarətində, ictimai iaşə daxil olmaqla, pərakəndə mal dövriyyəsi 4 milyon manatdan 10 milyon manata qalxmışdır. Həmin illərdə Şuşa rayonunda ticarət və əmtəə dövriyyəsinin məbləği 2 milyon manatdan 3 milyon manata çatdı [20, v.26]. 1960-cı illərin sonları - 1980-ci illərin əvvəllərində Şuşa rayonunda əhaliyə hərtərəfli mədəni xidmət göstərən yaxşı təşkil edilmiş ticarət müəssisələri olmasına baxmayaraq, hələ də bu sahədə nöqsanlar özünü göstərirdi. Belə ki, Vilayətin ticarət təşkilatları tərəfindən malların rayonlar üzrə düzgün bölüşdürülməməsi, azərbaycanlılar yaşayan kəndlərdə ticarət mallarının çatışmaması, həmin kəndlərdə ticarət və iaşə xidmət səviyyəsinin xeyli aşağı olması faktları aşkar edilmişdir. Bölgənin azərbaycanlılar yaşayan kəndlərə Vilayətin mərkəzi ticarət orqanları tərəfindən göndərilən malların əksəriyyəti keyfiyyətsiz olduğundan əhalinin tələbatını ödəmirdi. Dağlıq Qarabağ tabeli ticarət və iaşə müəssisə və təşkilatlarının mal dövriyyəsinin nomenklaturasında ikili mövqe aşkarlanmışdır. Vilayətin azərbaycanlılar yaşayan kəndlərindəki mövcud mağazalar soyuducu və digər texnoloji avadanlıqlarla təchiz edilmirdi. Dağlıq Qarabağ ticarət idarəsi, rayon partiya və sovet təşkilatları göstərilən nöqsanları aradan qaldırmağa cəhd etməmiş və təsirli tədbir görməmişdir.

***İctimai-iaşə müəssisələri.*** Şuşa rayonunun əhalisinin mədəni-məişət şəraitinin yaxşılaşmasında ictimai-iaşə müəssisələri böyük əhəmiyyət kəsb edirdi. 1970-1980-cı illərdə Şuşa rayonunda yeni yeməkxana, restoran, mətbəx-fabrik, qəlyanaltı və bufetlər yaradılmasına xüsusi diqqət yetirilmişdir. Təkcə 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda 2 yeməkxana, 3 çayxana və bufet tikil-mişdir [33, s.52]. Bu dövrdə mövcud obyektlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. İctimai-iaşə müəssisələrinin yerləşdirilməsi prosesini nəzərdən keçirilərkən məlum olur ki, burada da, erməni rəhbərliyi qərəzli mövqe tutmuşlar. Məsələn, 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Xankəndi, Xocavənd, Hadrut, Ağdərə rayonlarında ictimai-iaşə xidməti müəssisələrinin yerləşdirilməsi və xidmət həcmi 2,5 dəfədən çox artdığı halda Şuşa rayonunda bu artım 1,9 dəfəyə çatmışdır [17, v.2].

Şuşa rayonunda əhaliyə ictimai iaşə və mədəni məişət xidməti dinamik inkişaf etmişdir. Həmin inkişafı aşağıdakı cədvəldə aydın görmək olar:

**Cədvəl 2. Şuşa rayonunda ictimai iaşə və mədəni məişət xidməti**

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 |
| Əhaliyə xidmət emalatxanaları və atelyelərin sayı | 40 | 55 | 65 | 75 |
| İctimai iaşə xidməti (min manat) | 300 | 460 | 2018 | 2596 |
| Əhaliyə məişət xidməti müəssisələrində işləyənlərin sayı | 110 | 120 | 165 | 180 |

Vilayətdə hər sakinə düşən məişət xidmətlərinin həcmi 1966-1970-ci illərdə 12 manat olmuşdursa, 1971-1975-ci illərdə bu göstərici artaraq 16 manata, 1976-1980-ci illərdə 35 manata çatmışdır. Bu göstəricilər ümumrespublika səviyyəsindən xeyli üstündür. Belə ki, hər bir sakinə düşən məişət xidmətinin həcmi 1981-1986-cı illərdə ümumrespublika üzrə 25 manat olmuşdursa, Naxçıvan MR-da 18 manat, Şuşada 24 manat, ümumilikdə Vilayətdə isə 35 manata çatmışdır. 10 min nəfərə düşən məişət xidməti emalatxanalarının miqdarına gəldikdə isə ümumrespublika üzrə bu göstərici 1981-1986-cı illərdə 17 emalatxana, Naxçıvan MR-da 21 emalatxana, Şuşa rayonunda 20 emalatxana ümumilikdə DQMV-də isə 30 emalatxana düşürdü [9, v.30].

Şuşa rayonunda ticarət, ictimai iaşə və məişət xidməti müəssisələrində işləyən ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı xeyli artmışdır. Belə ki, 1970-ci ildə onların sayı 40 nəfər idisə, 1975-ci ildə 120 nəfərə (bundan 11 nəfəri ali təhsilli idi), 1980-ci ildə 165 nəfərə, 1985-ci ildə 180 nəfərə çatmışdır [11, v.119].

Şuşa rayon ticarət müəssisələrində çalışanların təxminən 60 faizini qadınlar təşkil edirdi. İctimai iaşə və ticarət müəssisələrində işləyənlərin orta aylıq əmək haqqı 1965-ci ildəki 67 manata qarşı, 1975-ci ildə 87 manata qalxmışdır. Dağlıq Qarabağ rəhbərliyinin ayrı seçicilik siyasəti burada da özünü göstərmişdir. Aparılan araşdırmalardan aydın olmuşdur ki, bütövlükdə Vilayət üzrə ticarət müəssisələrində çalışanların demək olar ki, 90 faizini ermənilər təşkil etmişlər [15, v.98].

Respublika rəhbərliyi Şuşa əhalisinin ərzaq və qeyri ərzaq məhsullarına olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edirdi. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda qeyri ərzaq mallarının satışı daha sürətlə aparılmışdır. 1965-ci ildəki 500 min manata qarşı 1975-ci ildə 1,5 milyon manata çatmışdır. Başqa sözlə desək sənaye mallarının ümumi mal dövriyyəsində həcmi 1965-ci ildə 40 faiz təşkil edirdisə, 1975-ci ildə 60 faizə qalxmışdı [20, v.26].

1980-ci il mənbələrinə əsasən Şuşa rayonunda hər 100 ailədən 60-da radioqəbuledici, 70 televizor, 60 soyuducu, 40 paltaryuyan maşın, 25 tozsoran, 45 tikiş maşını, 7 minik avtomobili var idi [22, v.11]. Dövlətimiz Vilayət əhalisinin həyat səviyyəsini yüksəltmək üçün, onların artan tələbatını ödəmək baxımından bazarları müxtəlif məhsullarla doldururdu. Hətta, 1985-ci ildə Dağlıq Qarabağda mal dövriyyəsinin həcmi 1966-cı illə müqayisədə 5,2 dəfə artmışdır. Halbuki bu rəqəm ümumrespublika üzrə 4,6 dəfəyə, Şuşa rayonunda 4,7 dəfəyə bərabər idi. Göstərilən dövr ərzində adambaşına düşən mal dövriyyəsinin inkişaf surəti ümumrespublika üzrə 2,7 dəfə, Şuşa rayonunda 2,8 dəfə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 3,8 dəfə təşkil etmişdir. Həmin illərdə mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi Azərbaycan üzrə 1,9 dəfə, onun tərkib hissəsi olan DQMV üzrə 2,7 dəfə, Şuşa rayonunda 2 dəfə artmışdır. Həmçinin 1985-ci ildə ictimai iaşə müəssisələrində hər 10 min nəfərə düşən yerlərin sayı respublikamızda 731-ə düşdüyü halda, Şuşa rayonunda 740, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 809-a çatmışdır [13, v.28].

***Tikinti***. Azərbaycan SSR-in Şuşa rayonun qəsəbə və kəndlərində mənzil tikintisi sürətlə artmışdır. İlk növbədə, Şuşa rayonunda mənzil tikintisi kommunal təsərrüfatların inkişafı və abadlıq işləri, mənzil kommunal təsərrüfatının kompleks inkişafı üçün kapital qoyuluşunun həcmini artırıldı. Bu məqsədlə 1971-1975-ci illərdə 13 milyon manat, 1976-1980-ci illərdə 15 milyon manat, 1981-1985-ci illərdə isə 151 milyon manat vəsait ayrılmışdır. Ayrılan vəsaitin 27 milyonu tikinti quraşdırma işlərinə, 15 milyonu isə kommunal təsərrüfatı, əsaslı təmir, müxtəlif mənzil qurğuları və mexanizmlərin istismarına, yaşayış məntəqələrinin abadlaşdırılmasına və sair ayrılmışdır. Mənzil tikintisinin

sahəsi yüksələn xətlə xarakterizə olunmuşdur. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində bütün maliyyə mənbələri hesabına Şuşa rayonunda ümumi sahəsi 100 min kvadrat metr olan yeni abad mənzillər istifadəyə verilmişdir [16, v.5]. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda mənzil tikintisinin necə dinamik inkişaf etdiyini aşağıdakı cədvəldən də aydın görmək olar (min kvadrat hesabı ilə).

**Cədvəl 3. Şuşa rayonunda mənzil tikintisi**

| **İllər** | **İnşa edilmiş mənzil sayı** | **O cümlədən** | | |
|---|---|---|---|---|
| | | **Dövlət tikililəri** | **Şəxsi mənzillər** | **Kəndlərdə tikilənlər** |
| **1966-1970** | 29 | 11 | 17 | 1 |
| **1971-1975** | 30 | 14 | 15 | 1 |
| **1976-1980** | 29 | 15 | 12 | 2 |
| **1981-1985** | 32 | 15 | 16 | 1 |

Apardığımız müqayisəli təhlillər əsasında məlum olur ki, 1960-1980-ci illər ərzində Şuşa rayonundakı mənzil tikintisi Vilayətin digər rayonlardakından 2 dəfə az olmuşdur. Aparılan hesablamalar nəticəsində məlum olur ki, respublikamız üzrə üzlük daşın 15 faizi, tikinti daşının 30 faizi, mişar daşının 10 faizi, sənaye əhəmiyyətli gilin 10 faizi, Yuxarı Qarabağ iqtisad rayonun payına düşürdü [25, s.628]. Bu sahədə Xankəndi tikinti materialları kombinatı, qum-çınqıl, daş, mərmər karxanaları, kərpic zavodu böyük rol oynamışdır. Xankəndi, Əsgəran, Xocavənd, Xocalı meşə və ağac emalı kombinatları da Şuşa rayonunda tikinti abadlıq işlərinin inkişafını sürətləndirmişdir. 1960-1980-ci illərdə Şuşa rayonunun fəhlə, qulluqçu və kənd ziyalılarına 100 min kvadrat metr sahəsi olan 140-dan artıq fərdi mənzil tikilmişdir. Həmin mənzillər yeni sitildə tikilirdi və 2-3 mərtəbədən ibarət idi. Təkcə, 1976-1980-ci illərdə 10 min nəfər fəhlə və qulluqçu yeni mənzillərə köçmüş və onların sosial vəziyyəti xeyli yaxşılaşmışdır. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda yeni qəsəbələr salınmış, çox mərtəbəli yaşayış binaları tikilmiş, kənd yaşayış məntəqələri yenidən qurulub şəhər tipli qəsəbəyə çevrilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda mənzil tikinti sahəsində əldə edilən nailiyyətlər Vilayətin bütün rayonlarından aşağıda dayanmışdır. Lakin, Vilayətin mənzil tikintisi sahəsində əldə etdiyi nailiyyətlər ümumrespublika səviyyəsini üstələmişdir. Ümumiyyətlə, Vilayətdə bir sakinin mənzillə təminatı 14,6 kvadrat metrə çatdığı halda, respublikamız üzrə bu göstərici 10,0 kvadrat metr, Naxçıvan MR-da isə 9,5 kv. metr, Şuşa rayonunda isə 10,5 kv. metr olmuşdur. Bunlardan əlavə, şəxsi mülkiyyətdə olan mənzil fondunun abadlıq dərəcəsi ümumrespublika üzrə 137,8 faiz, Azərbaycanın Naxçıvan MR-da 107,4 faiz, Şuşa rayonunda 140 faiz, ümumilikdə Vilayətdə isə 167,5 faiz yerinə yetirilmişdir [33, s.44].

1961-1985-ci illərdə Şuşa rayonunun bütün mənbələr hesabına 175 min kvadrat metr mənzil sahəsi, o cümlədən, 1985-ci ildə 9 min kvadrat metr mənzil sahəsi tikilmişdir. Nəticədə 1700 nəfərdən çox adam öz mənzil şəraitini yaxşılaşdırmışdır. Apardığımız tədqiqatlardan məlum olur ki, bəhs etdiyimiz dövrdə bir sakinə düşən mənzil sahəsi keçmiş SSRİ məkanında 14,9 kvadrat metr, Ermənistan SSR-də 13,7 kvadrat metr, Azərbaycan SSR-də 10,9 kvadrat metr, Bakı şəhərində 11,7 kvadrat metr, Naxçıvan MR-da 9,5 kvadrat metr, Şuşa rayonunda 11,5 kvadrat metr olmuşdursa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu göstərici 15 kvadrat metrə çatmışdır. Fərdi mənzil tikintisi üzərində qoyulan məhdudlaşmalar aradan götürülmüş, kreditləşmə üçün əlverişli şərait yaradılmış və tikinti işi sürətlənmişdir [14, v.19].

***Qazlaşdırma***. Şuşa rayonunda əhalinin mədəni-məişət şəraitinin yaxşılaşmasını burada qazlaşdırma işinin həyata keçirilməsində görmək olar. XX əsrin 70-ci illərində Heydər Əliyevin göstərişləri əsasında Yuxarı Qarabağ bölgəsinin qazlaşdırılmasına başlandı. 1978-ci il dekabrın 30-da Yevlax-Xankəndi qaz kəmərinin açılışı keçirildi. 107 km uzunluğunda olan bu kəmərin bir hissəsi dağlarda: çətin şəraitdə çəkilmişdi. 1970-ci illərin sonlarında isə Yevlax, Xankəndi – qaz kəməri çəkilib istifadəyə verildi. Bu qaz kəmərlərinin çəkilişi Şuşa rayon əhalisi üçün böyük əhəmiyyətə malik hadisə hesab olunur. Çünki bu çəkilişdən sonra rayon ərazisinin qazlaşdırılması işi sürətləndirilmişdir. 1971-1975-ci illərdə rayon ərazisində 100 kilometr məsafəyə qaz xətti çəkilmişdirsə, 1976-1980-ci

illərdə bu göstərici 2 dəfə artmışdır [15, v.99]. 1981-ci ildə Şuşada 3 min mənzil qazla təmin edilmişdir. 80-ci il-lərdə Şuşa rayonunda qaz çəkilişi 70-ci illərlə müqayisədə 2 dəfə, artmışdı. Artıq 80-ci illərin əvvəllərində Şuşada mənzillərin qazlaşdırılması tapşırıqları yerinə yetirilmişdir. Burada qazlaşdırılmış mənzillərin sayı 1960-cı illərin sonları –1980-ci illərin əvvəllərində 4 dəfə artmışdır [16, v.16]. Artıq 1986-cı ildə Dağlıq Qarabağ ərazisi 100 faiz qazla təmin edilmişdi. Halbuki, ümumrespublikamız üzrə bu göstərici 96,2 faizə bərabər idi.

***Su təchizatı***. Şuşa rayonunda 1970-ci illərdə köhnə su xətləri təmir edilmiş, yeni kəmərlər işə qoşulmuş və su vurmaq üçün mühərriklərlə təmin edilmişdir. 1985-ci ildə Şuşada küçə su xətlərinin şəbəkəsinin uzunluğu 325 kilometrə çatmışdır [17, v.3].

80-ci illərdə Vilayət əhalisinin mənzillərinin su kəməri ilə təchizi ümumrespublika səviyyəsindən təxminən 2 dəfə yüksəkdə dayanmışdır. 1985-ci il məlumatına görə su kəmərinin abadlaşdırma faizi ümumrespublika üzrə 30,5 faiz, Naxçıvan MR-da 7,4 faiz idisə, Dağlıq Qarabağda 45,5 faizə çatmışdı [3, v.10]. Şəhərlərin kanalizasiya ilə təminatı işində də DQMV-i ümumrespublika səviyyəsini 2 dəfə üstələmişdir. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Respublika rəhbərliyi hər il ardıcıl olaraq Şuşa rayonunun abadlaşması, küçə və parkların salınması, yenidən qurulması, kommunal xidmət müəssisələrinin təmiri və yeniləşməsi üçün bütün lazımı tədbirləri həyata keçirirdi. 70-ci illərdə rayonda təkcə yaşıllaşdırma işləri, parkların salınması, işıq və istilik xətlərinin çəkilişi üçün 500 min manat vəsait sərf edilmişdir [9, v.31]. Bütün yuxarıda göstərilən mənzil tikintisi ilə bağlı müvəffəqiyyətlərlə yanaşı bəhs edilən illərdə bölgədə bəzi nöqsanlı cəhətlərdə aşkar edilmişdir. Əvvəlki illərdə olduğu kimi bəhs olunan dövrdə də Şuşa rayonun kəndlərində hələ də mənzil problemi kəskin olaraq qalırdı. Mərkəzə isə erməni rəhbərliyi məlumat vermişdir ki, mənzil problemi tam həll edilmişdir. Az-çox Şuşanın azərbaycanlılar yaşayan kəndlərində aparılan tikinti işlərinin keyfiyyəti çox aşağı səviyyədə idi. Bütövlükdə Vilayətin azərbaycanlılar yaşayan kəndlərin çoxunda heç bir məişət xidməti obyekti yox idi. Mövcud obyektlərdə isə xidmət keyfiyyəti aşağı səviyyədə fəaliyyət göstərirdi. Ermənilər yaşayan bütün kəndlər qazlaşdırıldığı halda, azərbaycanlıların yaşadığı kəndlərinin əksəriyyətində qaz hələ də yox dərəcəsində idi. Vilayət rəhbərliyinin mərkəzə verilən məlumatda isə həmin kəndlər "qazlaşdırılmışdı".

***Nəqliyyat***. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda yol təsərrüfatı, nəqliyyat, rabitə sahəsində də mühüm tədbirlər həyata keçirilmişdi. İlk növbədə təsərrüfat daxili, vilayət əhəmiyyətli, ümumdövlət və respublika əhəmiyyətli avtomobil yollarının şəbəkəsinin inkişafı, yeni yolların salınması, təmiri və saxlanılması üçün Respublika rəhbərliyi tərəfindən qoyulan vəsaitin miqdarı ilbəil artırıldı. Belə ki, 1965-ci ildəki 65 min manata qarşı, 1975-ci ildə 130 min, 1980-ci ildə 200 min, 1986-cı ildə 325 min manat vəsait ayrıldı [6, v.4]. Ayrılan vəsait hesabına Şuşa rayonuna yeni asfalt yollar çəkildi. Məsələn, 1966-cı ildə Şuşanın şəhər və kəndlərində 65 kilometr yol çəkilmişdirsə, 1970-ci ildə 85 kilometr, 1975-ci ildə 80 kilometr, 1980-ci ildə 50 kilometr, 1985-ci ildə isə 125 kilometr yol çəkildi. Eyni zamanda, şose yolları, yol hərəkətini tənzim edən texniki vasitələr, rabitə vasitələri ilə təchiz edildi [33, s.130]. Lakin təəssüflə qeyd etməliyik ki, bəhs etdiyimiz dövrdə, DQMV XDS yol tikinti təmir və istismar müəssisələri yerli əhəmiyyətli yolların təmiri və tikintisi siyahısını tərtib edərkən Vilayətin azərbaycanlılar yaşayan kəndlərinin əksəriyyətini məqsədli şəkildə "yaddan çıxarmışlar". Bu proses əvvəlki dövrlərdə olan proseslərin ənənəvi davamı idi.

Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda Avtomobil Nəqliyyatı vasitəsilə yük daşınmasının həcmi ilbəil artmışdı. Belə ki, 1965-ci ildə 50 min ton yük daşınmışdırsa, 1970-ci ildə bu rəqəm 75 min tona, 1980-ci ildə 346 min tona, 1985-ci ildə 410 min tona çatmışdır. Yük dövriyyəsinin həcmində də, 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində 3 dəfə artım müşahidə edilmişdir. Sərnişin daşıması isə 1965-ci ildəki 313 min nəfərə qarşı, 1970-ci ildə 445 min, 1975-ci ildə 500 min nəfərə, 1980-ci ildə 1 milyon, 1985-ci ildə 1,5 milyon nəfərə çatmışdır [5, v.650].

1976-1980-ci illərdə Şuşa ərazisində yeni yük avtomobilləri parkı, taksi parkları inşa edildi. Yeri gəlmişkən onu da qeyd edək ki, 1985-ci illərdə Şuşa rayonunda yük avtomobilləri parkı iki dəfə artmışdır. Ümumrespublika səviyyəsində isə bu göstərici 1,7 dəfəyə bərabər idi. Avtomobil parklarının artımı ümumrespublika üzrə 1,7 dəfə olmuşdursa, bütövlükdə Dağlıq Qarabağ bölgəsində 2,5 dəfə artmışdı [7, v.31]. Bəhs etdiyimiz illərdə Şuşa avtonəqliyyat istehsalat birliyi, onun tabeliyində olan təsərrüfatlar plandan əlavə 30 min ton yük və 380 min sərnişin daşımışdır. Xalq təsərrüfatının

ardıcıl inkişafı, boşdayanma hallarına yol verilməməsi ilə ardıcıl mədəni xidmət nəticəsində rayonda avtomobil nəqliyyatı daha da inkişaf edirdi. Vilayətdə avtomobil nəqliyyatının inkişaf etməsini onda görmək olar ki Azərbaycanın hər 1000 sakininə 17,5 avtomobil düşdüyü halda DQMV-də 26 avtomobil, Şuşa rayonunda 18 avtomobil, Naxçıvan MR-da isə 17 avtomobil düşürdü. 1975-ci ildə Şuşa rayonunda nəqliyyat işçilərinin sayı 150 nəfər, 1970-ci ildə 225 nəfər olmuşdursa, 1985-ci ildə 350 nəfərə çatmışdır. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda, Şuşa rayonunda 3,5 dəfə, ümumilikdə Vilayətdə 4,8 dəfə art-mışdır [13, v.30]. Bundan əlavə sərnişinlərin avtomobillə daşınması həcmi respublikamızda 2,2 dəfə, Şuşa rayonunda 2 dəfə Vilayətdə 2,6 dəfə, taksilərlə daşınma respublikamızda 2,4 dəfə, Şuşa rayonunda 2,2 dəfə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 4,2 dəfə artmışdır. Aparılan araşdırmalardan məlum olur ki, Vilayətdə avtobus marşrutları sıxlığı orta respublika səviyyəsində 2,6 dəfə çox olmuşdur. Ümumilikdə DQMV-də avtobus marşrutlarının uzunluğu 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində 8 faiz artdığı halda, Şuşada 4 faiz Naxçıvan MR-da bu göstərici 4,5 faiz, ümumrespublika səviyyəsində isə 4,8 faiz artmışdır [22, v.12].

***Rabitə***. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda rabitənin inkişafı üçün mühüm tədbirlər həyata keçirilirdi. 1970-1975-ci illərdə Bakıdan Şuşaya 6 ali və orta ixtisas təhsilli mütəxəssislər göndərildi. Təkcə 5 il ərzində (1970-1975) Şuşa rayonunda rabitə işçilərinin sayı artaraq 74 nəfərdən 136 nəfərə çatdı, 1985-ci ildə isə 175 nəfəri keçdi [22, v.13].

Şuşa rayonunda rabitənin inkişafı üçün 1961-1975-ci illər ərzində 75 min manat uzunmüddətli kredit ayrıldı. 1970-1982-ci illərdə Şuşaya 77 telefon aparatı ve-rildi [22, v.13]. 1970-1986-cı illərdə Şuşa rayonunun rabitə sahəsi üzrə əsas fondların və vəsait qoyuluşun inkişaf surəti respublikamız üzrə olduğundan iki dəfə çox artmışdır. 1980-ci illərin ortalarında adambaşına düşən rabitə məhsulların həcmi, ümumrespublika üzrə 21 manat, Şuşada 22 manat, bütövlükdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 29 manat təşkil etmişdir [17, v.2].

Şuşa rayonunun poçt, teleqraf müəssisələrinin sayı 9-dan 10-a çatdı. 1960-cı illərin sonları - 1980-ci illərin əvvəllərində Şuşa əhalisinə 744 telefon xətti çəkildi. Telefon aparatlarının sayı təxminən iki dəfə artaraq 1448-ə çatdı. Aparılan hesablamalara görə 1985-ci ildə Dağlıq Qarabağ bölgəsində, hər 100 nəfərinə 12 telefon düşürdü. Şuşada 9 telefon ümumrespublika səviyyəsində bu göstərici 8 telefona bə-rabər idi. Həmçinin Vilayətdə ailələrin mənzil telefonları ilə təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MR-da bu göstərici 30,1 faizə, Şuşada 32 faizə ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. Şuşa rayonunda şəhərlərarası telefon danışıqlarının sayı 32 mindən 66 minə çatmışdı. Adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublikamız üzrə təxminən 5 faiz, Şuşada 6 faiz Azərbaycanın Dağlıq Qarabağ bölgəsi üzrə 8 faiz təşkil etmişdir [1, v.40].

Şuşa rayonunda radioqəbuledici nöqtələrin sayında da ciddi irəliləmələr mövcud olmuşdur. Şuşa rayonunda radioqəbuledici nöqtələrin sayı 1970-ci ildə 1608, 1975-ci ildə 2008, 1980-ci ildə 2741, 1985-ci ildə isə artaraq 3206-a çatmışdır [17, v.25].

Bəhs olunan illərdə Şuşa rayonunda radio-tele xəttinin çəkilişi ilbəil genişləndirilmişdi. Heydər Əliyevin təşəbbüsü ilə Bakı-Şuşa və Şuşa-Naxçıvan radio-tele xəttinin çəkilişi Şuşa rayonunda radiolaşmanın inkişafına güclü təkan verdi. 1980-ci illərdə Xankəndində televiziya studiyasının istifadəyə verilməsi Şuşa rayon əhalisinin Moskva və respublika televiziya verilişlərinə baxmağa imkan yaratdı. Şuşa rayonunun 1965-ci ildə 1,5 min televizor var idisə, 1980-ci ildə onların sayı iki dəfədən çox artaraq 2,5 minə, 1985-ci ildə 4,5 minə çatdı [29, s.70].

Bəhs etdiyimiz dövrdə Şuşada azərbaycanlılar yaşayan kəndlərin çoxu müstəsna olmaqla Vilayətin şəhər, qəsəbə və kəndləri başdan-başa radiolaşmış, rabitə vasitələri getdikcə məişətə daha çox nüfuz etmişdir. 1970-ci ildə Şuşa rayon əhalisi poçt rabitəsi vasitəsilə 494 məktub göndərmişdirsə, 1975-ci ildə bu rəqəm 918-ə, 1985-ci ildə isə 993-ə çatmışdır. Bundan əlavə Şuşa rayon poçtundan 1970-ci ildə 1958 qəzet və jurnal alınmışdırsa, 1982-ci ildə qəzet və jurnalların sayı artaraq 9748-ə çatdı. Bəhs edilən illərdə Şuşa rayonuna poçt vasitəsi ilə pul köçürmələri və təqaüdlərin miqdarı 35 min manatdan 49 min manatadək artmışdır [4, v.5].

***Səhiyyə***. Rayonda səhiyyənin maddi-texniki bazasını möhkəmləndirmək, səhiyyə idarəsi şəbəkəsini inkişaf etdirmək və əhalinin cansağlığını qorumaq məqsədilə Respublika rəhbərliyi vəsait qoyuluşunu ilbəil artırırdı. 1970-1975-ci illərdə Şuşa rayonunda səhiyyə işinə büdcədən ayrılan vəsaitin

həcmi 2 milyon manat, 1976-1980-ci illərdə 2,5 milyon manat, 1981-1985-ci illərdə isə 3 milyon manata çatdı [18, v.61].

Ümumiyyətlə, 1960-1980-ci illərdə Şuşanın bütün ictimai fondlarının 28 fai-zindən çoxu səhiyyə xərcləri təşkil etmişdir. Aparılan araşdırmalardan məlum olur ki, Şuşa rayon səhiyyə işlərinə ayrılan vəsait Vilayətin digər rayonlarına ayrılan vəsaitdən 2 dəfə az olmuşdur [12, v.8]. Ayrılan vəsait hesabına müalicə-profilaktika müəssisələri xeyli genişləndi. Əhalinin sağlamlığı naminə tibbi yardım gücləndirildi, tibb müəssisələrində həkimlərin və orta tibbi işçilərinin sayı xeyli artdı. Belə ki, bəhs etdiyimiz illərdə Şuşa rayonuna 25 ali təhsilli, 80 orta ixtisas təhsilli mütəxəssis göndərdi. Əhaliyə ambulatoriya – poliklinika yardımı göstərən 3 yeni müəssisə tikilib istifadəyə verildi. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda hər cür tibb avadanlıqları ilə təchiz edilmiş, 2 yeni qadın və uşaq məsləhətxana və poliklinikaları tikildi. Respublika rəhbərliyi tərəfindən Şuşa rayonu səhiyyə idarələri dərman, tibbi məmulatları və avadanlıqlarla təmin edildi. 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşa rayonunda səhiyyənin dinamik inkişafını aşağıdakı cədvəldən də görmək olar [18, v.61, 62, 63].

**Cədvəl 4. Şuşa rayonunda səhiyyənin dinamik inkişafı**

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 |
| Xəstəxanaların sayı | 4 | 5 | 5 | 5 |
| Xəstəxanada çarpayıların sayı | 170 | 180 | 185 | 190 |
| Həkimlərin sayı | 19 | 25 | 39 | 49 |
| Orta ixtisas tibb işçilərinin sayı | 134 | 130 | 240 | 250 |
| Qadın və uşaq məsləhətxana və poliklinikaları | 1 | 2 | 3 | 4 |
| Əhaliyə amblator yardım göstərən poliklinika | 6 | 6 | 6 | 7 |
| Hər 10000 nəfərə düşən həkimlərin sayı | 15 | 21 | 31 | 39 |
| Hər 10000 nəfərə düşən çarpayıların sayı | 94 | 100 | 102 | 101 |

Bəhs edilən dövrdə Şuşa rayonunda yüksək və müasir tipli cihazlarla təchiz edilmiş rentgen kabinələri, fizioterapiya kabineti və laboratoriyaları yaradılmışdır. Şuşa rayonunda müalicə profilaktika idarələrinin sayı 1985-ci ildə 25-ə çatdırılmışdır ki, bundan 5-i stasionar idi [24]. Burada dəri-zöhrəvi xəstəlikləri dispanseri, vərəm və onkoloji dispanserləri, sanitariya maarif evi, rayon sanitariya-epidemioloji stansiyası, qanköçürmə stansiyası digər poliklinika və omblatoriyalar açılmışdı. Bütün bunların nəticəsi idi ki, Şuşa rayonuna yoluxucu-infeksion xəstəliklərin kökü kəsilmiş, dizenteriya və brüselioz xəstəlikləri xeyli azalmışdır. Apardığımız tədqiqatlardan məlum olur ki, 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Vilayət əhalinin xəstəxana çarpayıları ilə təminatı, bütün ixtisaslardan olan tibb işçiləri ilə təminat və başqa sahələrdə də istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur [32, s.46]. Məsələn, 1985-ci ildə hər 10 min nəfərə düşən çarpayıların sayı Azərbaycan Respublikası üzrə 97,8 ədəd, Naxçıvan MR-də 94,6 ədəd, Şuşa rayonunda 101 ədəd ümumilikdə Vilayətdə 104,6 ədəd olmuşdur. On min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat ümumrespublika üzrə 93,8 Naxçıvan MR-də 80,1, Şuşada 95 nəfər, ümumilikdə Dağlıq Qarabağda 126,3 nəfər düşürdü. On min nəfərə düşən ali təhsilli tibb işçiləri Naxçıvan MR-də 26,2 nəfər, Şuşa rayonunda 27 nəfər, DQMV-də 28,9 nəfər düşmüşdü [16, v.7]. Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda anaların və uşaqların mühafizəsi, qadınların əmək və məişət şəraitinin yaxşılaşdırılması, uşaqlar və yeniyetmələr arasında sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi sahəsində xeyli işlər görüldü. Aparılan tədqiqatlardan məlum olur ki, Şuşada xalq təsərrüfatının bütün sahələrindən fərqli olaraq səhiyyə işçiləri arasında qadınlar 81 faiz təşkil edirdi. 1975-ci il məlumatına görə, tibb işçilərinin orta aylıq əmək haqqı 87 manat olmuşdur [18, v.62].

Lakin Vilayətin azərbaycanlılar yaşayan kəndlərində səhiyyə işi yarıtmaz vəziyyətdə idi. Həmin kəndlərdən bəzilərində nəinki poliklinika, xəstəxana, heç ilk tibbi yardım xidməti ambulatoriyası belə yox idi. Keçmişdən qalan bir neçə tibbi yardım mərkəzləri baxımsızlıq ucbatından dağılmış, heç bir tibb avadanlığı və dərmanla təmin edilmirdi [27, s.216].

Rayon özünün sağlamlıq ocaqları, istirahət evləri, çoxmərtəbəli binaları, şəfalı yerləri ilə şöhrət qazanmışdı. Burada sanatoriya və istirahət müəssisəsi fəaliyyət göstərirdi. Şuşanın təmiz havası, saf suyu, çıxılmaz meşələri, sərinlik və təravət gətirən dağ çayları və bulaqları burada yaşayan insanların uzun ömür sürməsinə səbəb olmuşdur. 1970-ci ildə Şuşa rayonunun 100 ildən yuxarı ömür sürənlərin sayı 70, 1979-cu ildə isə 80 nəfər olmuşdur ki, bundan 70 faizindən çoxu qadınların üzərinə düşmüşdür. Ümumiyyətlə Şuşa rayonunda orta ömür 75 ildir. Bu ümumrespublika üzrə olduğundan 5 il çoxdur [33, s.81].

***Bədən tərbiyəsi və idman.*** Şuşa rayonunda bədən tərbiyəsi və idmanın maddi-texniki bazasını möhkəmləndirilməsi və inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdi. Bu məqsədlə 1970-ci ildə 2782 manat, 1975-ci ildə 3443 manat, 1980-ci ildə 10579 manat, 1985-ci ildə 15092 manat əsaslı vəsait ayrıldı [10, v.91].

1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Şuşaya 30 ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi göndərildi. Rayonda idman mütəxəssislərinin sayı 1970-ci ildə 8 nəfər idisə, 1980-ci ildə artaraq 29 nəfərə, 1985-ci ildə isə 55 nəfərə çatdı [30, s.46].

Bəhs etdiyimiz illərdə Şuşada stadion, idman meydançası, volebol-basketbol, tennis meydançaları, üzgüçülük hovuzu tikilib idmançıların ixtiyarına verildi. Bəhs edilən dövrdə respublikamızda 70 stadion var idi ki, bundan 2-si Şuşa rayonun payına düşürdü. Dövlətimizin gördüyü tədbirlər nəticəsində, Şuşa rayonunda idman kollektivinin sayı 1971-ci ildəki 30-a qarşı, 1975-ci ildə 31, 1980-ci ildə 33, 1985-ci ildə 50-yə çatdı. Rayonda idmanla məşğul olanların sayı isə 5013 nəfərə çatmışdı. Yeri gəlmişkən qeyd edək ki, 1980-ci illərin sonlarında respublikamızda 8020 bədən tərbiyəsi kollektivi vardır ki, burada 2,3 milyon nəfər idmanla ardıcıl məşğul olurdu [33, s.216].

Şuşa rayonundakı bədən tərbiyəsi və idman kollektivləri lazımi avadanlıq və ləvazimatlarla təmin edilmiş, bədən tərbiyəsi və idman məşğələləri üçün maddi-texniki bazanı möhkəmləndirilmişdir. Nəticədə, 1971-1985-ci illərdə Şuşa rayonunda dərəcə alan idmançıların sayı 3 dəfədən çox artmışdır [16, v.6]. Belə ki, 1971-ci il-də II və III dərəcəli idmançıların sayı 350 nəfər, I dərəcəli idmançıların sayı 4 nəfər olmuşdursa, 1971-ci ildə II və III dərəcəli idmançılar 1201 nəfər, I dərəcəli idmançılar 12 nəfər, 1985-ci ildə isə I dərəcəli idmançıların sayı isə 9 nəfərə, II və III dərəcəli idmançıların sayı 1401 nəfərə çatmışdır. 1980-ci illərin axırlarında Azərbaycanda 4,3 min SSRİ idman ustası vardı. Aparılan hesablamalara görə, Şuşa rayonunda bədən tərbiyəsi və idmanla məşğul olanların 80 faizi qadınlar təşkil etmişlər. Ümumilikdə isə, 1985-ci ildə əhalinin 20 faizdən çoxu bədən tərbiyəsi və idmanın müxtəlif növləri ilə məşğul olurdular. Bədən tərbiyə və idmanla məşğul olanların orta aylıq əmək haqqı 82 manat idi [10, v.93].

Uşaqların yay istirahətlərini səmərəli keçirmək üçün rayon ərazisində pioner düşərgələri yaradıldı və onun maddi-texniki bazası möhkəmləndirilmişdi. Həmin düşərgələrdə uşaqlar yaxşı istirahət etməklə yanaşı idmanla məşğul olur və əməyə hazırlanırdı. Təkcə 1979-1980-ci tədris ilinin yay tətili günlərində Şuşa rayonundan Şuşa istirahət və əmək düşərgəsində 2885 nəfər IX və X sinif şagirdləri istirahət etmişlər. Bəhs olunan dövrdə Dağlıq Qarabağın digər rayonlarından Şuşa rayonunun "Yuri Qaqarin" pioner düşərgəsində ildə 200 uşaq istirahət etmişdir [21, v.31].

***Əhali***. Apardığımız təhlillərdən məlum olur ki, 1979-cu ildə Şuşa rayonunda 16019 nəfər əhali yaşayırdı ki, bunun 13.000 nəfərini (82 faiz) azərbaycanlılar, 2,800 nəfərini (17 faiz) ermənilər qalanlarının isə digər millətlər təşkil etmişdir. Halbuki, əsrin əvvəllərində ermənilər Şuşa ərazisində yaşayan əhlinin çox cüzi bir hissəsini təşkil etmişdir [28, s.90]. Ermənilərin faiz etibarilə Şuşada artması, bir tərəfdən azərbaycanlılar yaşayan kəndlərə erməni rəhbərliyinin ögey münasibətindən irəli gəlirsə, digər tərəfdən erməni ailələrinin Azərbaycanın bu əsrarəngiz, dünyada tayı-bərabəri olmayan ərazisinə məqsədli olaraq köçürüb gətirilməsi ilə bağlı idi. Qeyd edək ki, Şuşa rayonunda bir kvadrat kilometrdə 42 nəfər, Hadrut rayonunda 23 nəfər, Xocavənd rayonunda 34 nəfər, Ağdərə rayonunda 26 nəfər düşmüşdü. Əhalinin seyrək yerləşməsi yaxşı yaşayış üçün əsasdır. Onu da qeyd edək ki, Şuşa ərazisinin xeyli hissəsi zaman-zaman, hissə-hissə qoparılıb Xankəndi ərazisinə birləşdirilmişdi.

***Nəticə***. Beləliklə, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Şuşa əhalisinin sosial-iqtisadi, milli strukturunda, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizi yaxşılaşmışdı. Bütün bunlarla yanaşı Dağlıq Qarabağın

erməni rəhbərliyinin siyasəti nəticəsində Şuşada əhalinin istehlak tələbləri lazımınca ödənilmirdi, xidmətlərin səviyyəsi xüsusən kənd yerlərində hələ aşağı idi. Ekoloji mühit çirklənirdi. Əhalinin nominal sayı artsa da, illik artım sürəti azalırdı.

ƏDƏBİYYAT


1. ARDA: f.1, s.1, i.10.
2. ARDA: f.1, s.1, i.10.
3. ARDA: f.1637, s.4, i.314.
4. ARDA: f.2511, i.915.
5. ARDA: f.349, s.44, i.68.
6. ARDA: f.411, s.15, i.16.
7. ARDA: f.411, s.30, i.6.
8. ARDA: f.89, s.1, i.95.
9. ARƏSTNA: Kollegiyanın 1989-cu il materialları.
10. ARGİTNA: 1990-cı il statistik materialları və hesabatları (idman təşkilatlarının).
11. ARHİKA: Azərbaycan Həmkarlar İttifaqı Şurasının 1989-cu il hesabatları, IV hissə.
12. ARPİİİSSA: f.1, s.200, i.74.
13. ARPİİİSSA: f.1, s.232, i.19.
14. ARPİİİSSA: f.1, s.232, i.3.
15. ARPİİİSSA: f.1, s.283, i.21.
16. ARPİİİSSA: f.1, s.412, i.43.
17. ARPİİİSSA: f.89, s.1, i.95.
18. ARSNA: 1990-cı il üçün tibbi statistika və hesabatlar.
19. ARSPİHDA, f.1, s.412, i.43.
20. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (MEA Tİ EA): f.1, s.17, i.8576.
21. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Arxivi (ARMNA): İllik hesabatlar, 1991-ci il.
22. Azərbaycan Respublikası Rabitə Nazirliyinin Arxivi (ARRNA): Kollegiyanın 1990-cı il materialları, III qovluq.
23. Azərbaycan Respublikası Ticarət Nazirliyinin Arxivi (ARTNA): 1991-ci il statistik hesabatları və təhlillər.
24. Maqsudov F. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, Elm, 1998, 260 s.
25. Məmmədov N.R. Azərbaycan Respublikası Şuşa şəhərinin tarixi. Bakı, “Avropa”, 2016, 958 s.
26. Məmmədov N.R. Azərbaycan SSR DQMV-də sosial yüksəliş (1970-1985-ci illər). Bakı, “Təhsil NPM”, 2008, 568 s.
27. Məmmədov N.R. Azərbaycan SSR DQMV-nin tarixi mənbələrdə. Bakı, “Təhsil”, 2013, 845 s.
28. Народное образование и культура Азербайджанской республике. Стат. Сборник. Баку, 1992.
29. Народное образование и культура в СССР. Стат.сб. Москва: Финансы и статистика, 1989. 432 с.
30. Народное хозяйство Азербайджанской ССР в 1985 году. Стат. Ежегодник. Баку, ЦСУ Азербайджанской ССР, 1986.
31. Народное хозяйство Азербайджанской ССР в 1988 году. Стат. ежегодник. Баку, Азербайджанское государственное издательство, 1990.
32. Народное хозяйство Азербайджанской ССР за 60-летию образования СССР. Юбилейный стат. Сб. Баку, 1982.
33. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого октября. Баку, «Азернешр», 1987. 313, [3] с.
34. Народное хозяйство СССР за 70 лет. Юбилейный стат. ежегодник. Москва, Финансы и статистика, 1987, 765 с.

**НАЗИМ МАМЕДОВ**
*Гл.н.с. отдела «Алиеведения» Института Истории им. А.А.Бакиханова НАНА, д.и.н., доцент*

## ГЕЙДАР АЛИЕВ И УЛУЧШЕНИЕ СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ НАСЕЛЕНИЯ ГОРОД ШУША (КОНЕЦ 1960 - НАЧАЛО 1980 ГОДОВ)

В статье отмечается, что социально-экономическое развития Шуша постоянно находилось в центре внимание государства и его руководителе Гейдара Алиева. В результате этого уровень социально-экономическое развития Шуша по сравнению с другими регионами был высоким.

*Ключевые слова:* Азербайджан, Шуша, общенациональный лидер Гейдар Алиев, Гарабаг, город, политическая стабильность, социальная развития.

**NAZIM MAMMADOV**
*Chief scientific officer of the "Aliyev studies" department of the History Institute named after A.A. Bakikhanov, ANAS, Doctor of History, Associate Professor*

## HEYDAR ALIYEV AND THE IMPROVEMENT OF THE SOCIAL WELFARE THE POPULATION OF SHUSHA CITY (LATE 1960's EARLY 1980's)

In this article indicated that as a result of deep caring of leader of our state Heydar Aliyev happened a significance changes in the sosio-economic life, welfare, prosperity of people of Shusha Azerbaijan SSR and according to cultural development provisions Shusha stood in the first place in republic level.

*Keywords:* Azerbaijan, Shusha, national leader Heydar Aliyev, Garabagh, city, political stability, sosio development.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Şahin Fərzəliyev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24); UOT 94"19/..."**

**ELLADA KƏRİMOVA**
*tarix üzrə fəlsəfə doktoru, Milli Aviasiya Akademiyasının dosenti*
**ellada64.karimova@gmail.com**

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN İLK DÖVRÜ III RESPUBLİKAYA GEDƏN YOLUN MÜHÜM MƏRHƏLƏSİDİR

*Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. O dövrün respublikasının inkişaf dinamikasını xarakterizə edən rəqəmlər həqiqətən heyrətamizdir. Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.*

*Açar sözlər*: Heydər Əliyev, Azərbaycan, rəhbərlik, milli, müstəqillik, dövlətçilik.

***Giriş.*** 2023-cü il Azərbaycan tarixinin ən parlaq şəxsiyyəti, mili dövlətçiliyimizin baş memarı və qurucusu, qoruyucusu Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyidir. Bu tarixi hadisəni layiqincə qeyd etmək üçün müxtəlif tədbirlər görülür və görüləcəkdir. Yubiley haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi imzaladığı 2022-ci il 29 sentyabr tarixli sərəncam çox mühüm tarixi əhəmiyyətli sənəddir [1, s.1].

Bu tarixi sənəddə əksini tapmış müddəalar, eyni zamanda, hər bir bir Azərbaycan vətəndaşına bu əlamətdar hadisəyə öz töhfəsini vermək üçün həm də bir fürsətdir. Bu məqalədə Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə görülmüş işlərin, qazanılmış uğurların Üçüncü Respublikaya aparan yolun başlanması və gəlişi üçün əhəmiyyəti haqqında indiyədək elmi dövriyədə, demək olar ki, toxunulmayan bəzi fərqli yanaşmalar göstərmiş və qənaətlər söylənilmişdir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

***Azərbaycana rəhbərliyin əvvəli.*** Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev respublikanın yeni rəhbəri oldu [4, s.11]. Azərbaycan rəhbərliyinə enerjili, məqsədyönlü, mahir siyasətçi üçün xas olan ütün keyfiyyətləri birləşdirən rgənc bir insan gəldi. Onun iradəli xarakterində və iş üslubunda köhnəlmiş hər şeyə qarşı dözümsüzlük, köhnəlmiş strukturların yenilənməsində hesablama dəqiqliyi ahəngdar şəkildə vəhdət təşkil edirdi.

Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, hələ Azərbaycan Respublikası SSRİ tərkibində olduğu vaxt o, respublikamızın müstəqil yaşaması və inkişaf etməsinə qabil olması haqqında [4, s.10-11] da düşünür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirirdi. Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində həyata keçirilən sosial-iqtisadi və mədəni quruculuq proqramının nəticələri onun uzaqgörən siyasətinin düzgünlüyünü və həyatiliyini sübut etdi.

1969-1982-ci illərdə Azərbaycan SSR-də qazanılan nailiyyətlər müstəqil Azərbaycan Respublikası üçün mühüm təməl oldu [4, s.11-12]. O vaxt H.Əliyevin qarşısında miqyasına görə misli görünməmiş bir vəzifə durmuşdu. Onun sələflərindən heç biri belə bir şey həll etməmişdi: respublikanın iqtisadiyyatını əsaslı şəkildə inkişaf etdirmək, onu fövqəldövlətin xammal əlavəsindən müasir texnika və texnologiya ilə təchiz edilmiş qabaqcıl sənaye bazasına çevirmək, monokultural xarakteri

ilə seçilən kənd təsərrüfatını daha da yüksəltmək, Bakıya dünyanın ən gözəl və rahat şəhərlərindən birinin şöhrətini qaytarmaq, Azərbaycan kəndini dirçəltmək, Azərbaycan əhalisinin sosial, mədəni və təhsil səviyyəsini yüksəltmək, Azərbaycanla əlaqələri gücləndirmək xaricdə yaşayan həmvətənlər.

Bütün bunlar və Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən bir çox digər vəzifələr parlaq şəkildə yerinə yetirildi. Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində Azərbaycanın sənaye profili köklü şəkildə dəyişmiş, bütün infrastruktur islahatları keçirilmiş, kənd təsərrüfatı müasirləşdirilmiş, respublikanın qədim paytaxtı intibah dövrünü yaşamışdır [5, s.91].

***Tariximizin öyrənilməsinə çağırış.*** Heydər Əliyev cəmiyyətdə bütün sahələrə diqqət yetirmişdir. Ulu öndəri maraqlandıran sahələrdən biri də tariximizin öyrənilməsinin vacibliyi idi. O demişdi ki, əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq. Bu sahədə də tarixçilərimizin qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür. Mən o vaxtlar – Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək. Odur ki, bu baxımdan bir məsələyə də toxunmaq istəyirik: tarixi təhrif etmək olmaz. Bu 70 illik sovet dövründə tarix, ümumiyyətlə dünya tarixi, o cümlədən Azərbaycan tarixi, habelə keçmiş Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib [2, s.155].

***İqtisadi müstəqillik yolunda.*** Bütün bu məhdudiyyətlərə baxmayaraq, Heydər Əliyev o zaman müəyyən edilmiş "oyun qaydaları"ndan kənara çıxa bildi və kifayət qədər riskli təşəbbüs göstərərək, daxili resursların səfərbər edilməsi üçün balanslaşdırılmış strategiya və taktikanın təmin edilməsi mexanizminin yaradılmasına üstünlük verdi. Heydər Əliyev təşkilati işin təkmilləşdirilməsini, rəhbər kadrlarda məsuliyyət hissinin artırılmasını, işə peşəkar mütəxəssislərin cəlb edilməsini, müttəfiq qurumlarla əməkdaşlığın gücləndirilməsini önə çəkirdi. Hökumətdən, Dövlət Plan Komitəsindən və Maliyyə Nazirliyindən milli gəlirin artımına diqqəti artırmaq tələb olunurdu.

Bütün zəhmətkeş Azərbaycan xalqı yaranmış sıçrayışın aradan qaldırılması, yığılıb qalmış problemlərin həlli uğrunda mübarizəyə qoşuldu. Demək lazımdır ki, xeyli maddi sərmayələr tələb edən bu qətiyyətli tədbirlər, cəmiyyətdə mənəvi-psixoloji ab-havanın saflaşdırılması istiqamətində gedən mübarizə ilk addımlardan ürəkaçan nəticələr verməyə başladı. Əgər 1960-1965-ci illərdə adambaşına milli gəlirin orta illik artım tempi cəmi 1,2 faiz idisə, 1970-1980-ci illərdə bu rəqəm artıq 5,9 faiz olmuşdur. Sənayedə, tikintidə və digər sahələrdə müsbət meyillər güclənir, respublika ümumittifaq miqyasında öz mövqelərini möhkəmləndirirdi [3, s.19].

Qeyd edək ki, 80-ci illərin sonlarında respublikamızın iqtisadi müstəqilliyi konsepsiyası hazırlanarkən bu fundamental iqtisadi baza əsas götürülmüşdü. Belə ki, əgər 70-80-ci illərdə yaradılmış elmi-texniki potensial olmasaydı, bu gün suveren Azərbaycan çoxlu çətinliklər və problemlərlə üzləşə bilərdi.

***Azərbaycanın yeni inkişaf strategiyası.*** Heydər Əliyev tərəfindən hazırlanmış Azərbaycanın inkişaf strategiyasında sənayenin, onun strukturunun təkmilləşdirilməsi, səmərəliliyinin artırılması problemləri xüsusi yer tuturdu. Çünki onların uğurlu həlli olmadan respublikanın dinamik inkişafına nail olmaq mümkün deyildi. İnkişafın birtərəfliliyi, kapital qoyuluşunun məhdudluğu, yeni texnika və texnologiyalardan zəif istifadə, əsas fondların fiziki və mənəvi köhnəlməsi sənayenin hər hansı dinamik və səmərəli inkişafından danışmağa imkan vermirdi.

1960-1970-ci illərdə respublika sənayedə əmək məhsuldarlığına görə ittifaqda 14-cü yeri tuturdu. 1980-ci ilin sonunda Azərbaycan ən mühüm göstərici üzrə birinci yerdə idi. Bu, xalqımızın həqiqətən də tarixi qələbəsi idi. Axı hər bir ölkənin inkişafını ilk növbədə əmək məhsuldarlığının səviyyəsi müəyyən edir [10].

70-ci illərdə Azərbaycanın sənaye istehsalında istehsalın həcminin orta illik göstəriciləri bir çox digər ittifaq respublikaları və bütövlükdə ölkə üzrə olduğundan xeyli yüksək idi. İttifaqda bu rəqəmlərə şübhə ilə yanaşan, belə fərqi ümumi məhsul buraxılışının göstəricisindəki çatışmazlıqlarla əlaqələndirən çoxlu şübhəkarlar var idi. Hətta 1990-cı illərin əvvəllərində respublikada və bütövlükdə ittifaqda iqtisadi həyatın 1970-ci illərlə müqayisədə xeyli zəiflədiyi vaxtda beynəlxalq

ekspertlərin fikrincə, yalnız Azərbaycanda bir işçiyə düşən sənaye məhsulunun səviyyəsi əvvəlki illərlə müqayisədə yüksək idi. Azərbaycan 1970-ci illərdə əmək məhsuldarlığının dinamik və sabit artımı respublika iqtisadiyyatının yüksəlişində sözün tam mənasında çox ciddi amilə çevrildi.

Heydər Əliyev böyük iftixar hissi ilə qeyd edirdi ki, yüksək əmək səmərəliliyi uğrunda mübarizə zəhmətkeş xalqımızın tarixində qızıl səhifələrdən biridir. Heydər Əliyevin ölkəsi və xalqı qarşısında daha bir tarixi xidməti ondan ibarətdir ki, o, Azərbaycana investisiya axını strategiyasını işləyib hazırlayıb və onun uğurla həyata keçirilməsinə nail olub. Məlumdur ki, istər 20-ci əsrin əvvəllərində, istərsə də sovet dövründə Azərbaycanda kapital qoyuluşlarının əsas həcmi neft sənayesinə yönəldilmişdi. Bu digər sənaye sahələrinin və iqtisadiyyatın inkişafını ləngidirdi.

Heydər Əliyev ittifaq hökuməti qarşısında Azərbaycana investisiyaların artırılması ilə bağlı strateji xarakterli təklifləri qətiyyətlə verdi və müvafiq qərarın qəbuluna nail oldu. Təkliflər arasında hazırda müstəqil Azərbaycanın neft strategiyasının həyata keçirilməsində uğurla iştirak edən dərinözüllü qurğular zavodunun tikintisi də vardı. 1971-1975-ci illərdə respublika iqtisadiyyatına əvvəlki beş illə müqayisədə 30 faiz çox investisiya qoyulmuşdur [10].

***İqtisadi yüksəlişin nəticələri.*** Azərbaycan neft maşınqayırması, məişət kondisionerləri, elektrik mühərrikləri, elektrotermik avadanlıqları, soyuducular, sintetik kauçuk, elektrik kabelləri, prokat boruları və digər məhsulların istehsalı üzrə keçmiş SSRİ-də lider mövqe tutmuşdur. Respublikada sənaye tərəqqisini şərtləndirən tamamilə yeni sənaye sahələri yarandı. Azərbaycan üzüm, tərəvəz, çay və tütün istehsalı üzrə ən böyük istehsalçıya çevrildi [7, s.221]. Xəzər dənizinin unikal balıq sərvəti nəzərəçarpacaq dərəcədə artdı.

1970-1982-ci illərdə qısa tarixi dövrdə respublikanın hər yerində yüzlərlə zavod, fabrik, istehsalat birliyi tikildi. İki yüzdən çox iri sənaye müəssisəsi istifadəyə verildi. Azərbaycan sənayenin bir çox sahələrində Sovet İttifaqında lider mövqe tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə göndərilirdi. Bu illərdə istehsal olunmuş sənaye məhsulları həcmcə əvvəlki 50 ilin istehsalına bərabər olmuşdu. O illərin Azərbaycanı nəhəng tikinti meydançasını xatırladırdı. Respublikanın rayonlarının siması tamamilə dəyişmişdi [4, s.54].

Heydər Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 avqust 1979-cu il tarixli fərmanı ilə respublikanın zəhmətkeşlərinin inkişafı ilə bağlı dövlət qərarlarının uğurla həyata keçirilməsinə səfərbər edilməsi istiqamətində böyük təşkilatçılıq və siyasi iş görülməsinə, xalq təsərrüfatının inkişafı, ictimai istehsalın səmərəliliyinin artırılması, bütün kənd təsərrüfatı məhsullarının dövlətə satışı üzrə planların və sosialist öhdəliklərinin illik yerinə yetirilməsini və artıqlaması ilə yerinə yetirilməsini təmin etdiyinə görə Lenin ordeninə və Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü [8, c.385].

Heydər Əliyevin rəhbərliyinin ilk dönəmi Azərbaycan üçün həqiqətən də çiçəklənmə, intibah dövrü idi. Azərbaycanda, Rusiyada, Moldovada, Ukraynada, Ruminiyada Heydər Əliyevin abidələri ucaldılmışdır [9, c.6-8].

***İttifaqa rəhbərlik.*** Növbəti uğurlar daha böyük idi. Heydər Əliyev 1982-ci il noyabrın 24-də Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və SSRİ-nin liderlərindən biri oldu. Heydər Əliyev iyirmi il SSRİ Ali Sovetinin deputatı, beş il SSRİ Ali Soveti sədrinin müavini vəzifələrində çalışdı [8, c.385].

Heydər Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin 7 may 1983-cü il tarixli fərmanı ilə Kommunist Partiyası və Sovet dövləti qarşısında böyük xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar Lenin ordeni ilə təltif edilmiş və ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü [8, c.385].

Lakin ətrafındakı bəzi insanların və xüsusi ilə də erməni əlaltısı, sonuncu sovet lideri M.Qorbaçovun ədalətsizliyi nəticəsində Heydər Əliyev 1987-ci ilin oktyabrında başsonuncunun apardığı siyasətə etiraz olaraq tutduğu vəzifələrdən istefa verdi [6, s.35].

Heydər Əliyev 1990-cı il 20 Yanvar faciəli hadisələri ilə əlaqədar sovet qoşunlarının Bakıya daxil olması ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində çıxış edərək sovet qoşunlarının daxil olmasının təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etdi [5, s.105-106].

***Böyük siyasətə qayıdış.*** 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. 1991-

1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini vəzifələrində çalışmışdı. Yeni Azərbaycan Partiyasının 1992-ci ildə Naxçıvan şəhərində keçirilən təsis qurultayında Heydər Əliyev partiyanın sədri seçilmişdi. 1993-cü ilin may-iyun aylarında ölkədə hakimiyyət böhranının həddindən artıq kəskinləşməsi, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda Azərbaycanın o vaxtkı rəhbərləri Heydər Əliyevi Bakıya dəvət etdilər [8, c.385].

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 15 iyun rəsmi olaraq Milli Qurtuluş Günü elan edilib və 1998-ci ildən dövlət bayramı kimi qeyd olunur [4].

***Nəticə.*** Sonda Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə görülmüş işləri, əldə edilmiş yüksək nəticələri ümumiləşdirərək, onların 1991-ci ildə dövlət müstəqilliyinə aparan yolun başlanğıcı olmasını, bu yolla irəliləyişi xeyli asanlaşdırdığını qeyd etməliyik.

Yuxarıda deyilənləri ümumiləşdirərək vurğulamaq lazımdır ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin sovet dövrünün əsas nəticələri aşağıdakılardır:

- 1969-1982-ci illər tariximizə dinamik keyfiyyət inkişafı dövrü kimi daxil olmuşdur;
- Əldə edilmiş nəticələr 1991-ci ildə dövlətin müstəqilliyinin bərpasında, Üçüncü Resbuplika dövrünün başlanmasında həlledici rol oynamışdı;
- Bu illərdə gələcək müstəqil Azərbaycanın iqtisadi bazasının formalaşması və inkişafı üçün möhkəm və ciddi zəmin yaratmışdı;
- Azərbaycan xalqı təkcə dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi üçün yox, eyni zamanda bu gün respublikamızın regionun həm lider, həm də Avropanın inkişaf etmiş güclü dövlətlərindən birinə çevrilməsində, ən nəhayət 2020-ci il Zəfər Müharibəsində tarixi qələbəmizə və ərazi bütövlüyümüzün bərpasına görə, nəhayət indiki güclü, nüfuzlu Azərbaycan üçün də 1969-1982-ci illərdə yaradılmış möhkəm maddi-texniki bazaya, qabaqcıl sosial münasibətlərə, məişət şəraitinə borcluyuq.

Bu deyilənlər Ulu öndərin dövlətçilik fəaliyyətinin ilk dövründə görülmüş işlərin dəyərləndirilməsində bəzi qənaətlərimizdir. Hesab edirik ki, 1969-cu ildən keçən hər il, o illərə yenidən qayıdaraq bu böyük şəxsiyyətin xaqlımız, tariximiz üçün etdiklərinin yeni çalarlarını və əhəmiyyətini müəyyən etməyə imkan verəcək.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 sentyabr 2022 // Respublika. 30 sentyabr 2022. s.1.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr, 1997. - 612 s.
3. Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: XXI əsr Yeni Nəşrlər Evi, 2001. - 56 s.
4. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004. - 472 s.
5. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Təhsil, Bakı: 2005. - 140 s.
6. Qasımlı Musa. Heydər Əliyev - istiqlala gedən yol: 1969-1987-ci illər. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006. - 608 s.
7. Qulrzadə Musa. Azərbaycanın dövlətçılık tarıxı. Bakı: Mütərcim, 2016. - 264 s.
8. Андриянов В.И. Жизнь замечательных людей. Гейдар Алиев. Москва: Молодая гвардия, 2005. - 396 с.
9. Зенькович Н.А. Самые закрытые люди. Энциклопедия биографий. Москва: Олма-Пресс, 2002. - 768 с.
10. Самедзаде Зияд. Гейдар Алиев – великий стратег современности, создавший государство, у которого прекрасное будуще https://www.trend.az/azerbaijan/3421711.html [09.09.2023].

**ЭЛЛАДА КЕРИМОВА**
*доктор философии по историческим наукам,*
*доцент Национальной авиационной академии*

## ПЕРВЫЙ ПЕРИОД РУКОВОДСТВА ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНЕ – ВАЖНЫЙ ЭТАП НА ПУТИ К III РЕСПУБЛИКЕ

В первый период своего руководства в Азербайджане Гейдар Алиев за очень короткое время, благодаря своим незаурядным управленческим способностям, стальной воле и высоким патриотизм, с его дальновидными и целеустремленными решениями. Цифры, характеризующие динамику развития республики того времени, поистине поражают. Гейдар Алиев – могущественная личность, успешно выведшая свой народ из сложных исторических и политических испытаний времени и последовательной борьбой приведшая его к независимости. Азербайджанский народ вступил в новый век и новое тысячелетие именно в свете ума Гейдара Алиева. Современный Азербайджан является торжеством дела всей жизни Гейдара Алиева.

*Ключевые слова:* Гейдар Алиев, Азербайджан, лидерство, национальность, независимость, государственность.

**ELLADA KARIMOVA**
*PhD, associate professor of the National Aviation Academy*

## THE FIRST PERIOD OF HEYDAR ALIEV'S LEADING IN AZERBAIJAN IS AN IMPORTANT STAGE ON THE WAY TO THE III REPUBLIC

During the first period of his leadership in Azerbaijan, Heydar Aliyev in a very short time, thanks to his outstanding managerial abilities, steel will and high patriotism, with his far-sighted and purposeful decisions. The figures characterizing the dynamics of the development of the republic of that time are truly amazing. Heydar Aliyev is a powerful personality who successfully led his people out of the difficult historical and political trials of the time and led them to independence through a consistent struggle. The people of Azerbaijan entered the new century and the new millennium precisely in the light of the mind of Heydar Aliyev. Modern Azerbaijan, confidently moving along the path of continuous progress, is the triumph of Heydar Aliyev's life's work.

*Keywords:* Heydar Aliyev, Azerbaijan, leadership, nationality, independence, statehood.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**AYTƏN MƏHƏRRƏMOVA**
*Azərbaycan Dillər Universiteti*
*"Qafqazşünaslıq və Azərbaycan tarixi" kafedrasının müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*
**ayten.meherremova.84@mail.ru**

# XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ AZƏRBAYCAN TEATRINDA REJİSSOR İŞİ (AKADEMİK DÖVLƏT DRAM TEATRININ NÜMUNƏSİNDƏ)

*Tədqiqat üçün seçilmiş XX əsrin 50-60-cı illəri bütövlükdə sovet cəmiyyətində və onun tərkib hissəsi olan Azərbaycanda bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də kefiyyətcə yeni bir mərhələ idi. Sovet cəmiyyətinin mənəvi atası hesab edilən Stalinin vəfatı ilə sistemin ideoligiyasının başlıca tərənnümçüsü olan teatr və onun da bədii qurucusu olan rejisor işi mütləq şəkildə dövrün siyasi kataklizmlərinin fonunda fəaliyyət göstərirdi. Məqalədə Adil İsgəndərov kimi teatr "nəhəngi" ilə yanaşı Mehdi Məmmədov və Tofiq Kazımovun rejisor fəaliyyəti təhlil edilmişdir.*

*Açar sözlər:* teatr, rejisor, dramaturgiya, mədəniyyət, Akademik Dram Teatrı.

***Giriş.*** Şəxsiyyətə pərəstişə əsaslanan stalinizm II Dünya müharibəsindən qələbə ilə çıxdıqdan sonra nəhəng bolşevik imperiyasının hər yerində və hər sahəsində məhz Stalin idarə sisteminin (şəxsiyyətin nüfuzunan əsaslanan idarəçilik) kiçik modelləri formalaşırdı. Bu təbii ki, ideoloji xəttin mühüm bir həlqəsini təşkil edən teatrdan da yan keçə bilməzdi. Biz bununla Azərbaycanın teatr və kino tarixində silinməz izlər qoymuş Adil İsgəndərov fenomenini əsla kiçiltmək fikrində deyilik, əksinə onun dərin istedadının dövrün məhdudiyyətləri çərçivəsində tam açıla bilmədiyini qeyd etmək istəyirik. Teatrdakı rəhbər vəzifəsindən uzaqlaşdırıldan sonra kinoda yaratdığı obrazlar, çəkdiyi filmlər yuxarıda söylədiyimiz fikri təsdiqləmiş olur. Əslində A.İsgəndərovun şəxsiyyəti ətrafında qurulan teatra da məhz bu çərçivədən baxılması fikrimizcə daha düzgün yanaşma olardı.

50-ci illərin əvvəllərində teatrın işinə mənfi təsir edən səbəblər içərisində Adil İsgəndərova olan münasibətin dəyişməsi və onun günahsız yerə sıxışdırılması az rol oynamırdı. 1951-ci ildə Dövlət Teatrımızın adında da dəyişiklik olmasında da A.İsgəndərovun mühüm xidmətləri olmuşdur. Belə ki, bu vaxta qədər teatr Məşədi Əzizbəyovun adını daşıyırdısa, 1951-ci ildə Azərbaycan Dövlət Akademik Dram Teatrı adlanmağa başladı. 1953-cü ildə İ.Stalinin ölümü ilə sovet cəmiyyətində şəxsiyyətə pərəstiş kəskin tənqid olunmağa başlandı, və illərlə formalaşdırılmış Stalin "kultu" dağıldı. Təbii ki, bu proseslər yenə teatrdan yan keçmədi.

***Azərbaycan teatrının Adil İsgəndərov dövrünün tarixi-siyasi aspektdə təhlili.*** Adil İsgəndərovun teatra gəlişi Cəfər Cabbarlı kimi nəhəng dramaturqun ölümündən (1934) sonraya təsadüf edir və onu qarşıda kifayət qədər çətin işlər gözləyirdi. Bu teatr rəhbərinin qarşısında Azərbaycan teatrını ittifaqın öncül teatrları sırasına çıxarmaq, milli aktyor, rejisor nəslinin yetişdirilməsinə nail olmaq kimi məqsədlər dururdu. Teatra rəhbərliyə gətirilənə qədər o, hələ 1936-cı ildə Aleksandr Korneyçukun "Polad qartal" və 1937-ci ildə isə Mirzə İbrahimovun "Həyat" əsərlərinə quruluş vermiş və özünü yenilikçə bir rejisor kimi göstərə bilmişdir. 1950-ci illərə Azərbaycan teatrı hələ 1938-ci ildə Akademik Dram teatra bədii rəhbər təyin olunmuş A.İsgəndərovun rəhbərliyi altında qədəm qoydu. "Teatr məbəddir" konsepti 50-ci illərdə getdikcə mahiyyətini itirməkdə idi. "Teatr məktəbdir" və "teatr məbəddir" konsepti teatrımızın şərəfli tarixinə əsla xələl gətirmir, sadəcə dövrün ictimai-siyasi mühütinin teatra olan təsirinin təcəssümü kimi qiymətləndirilir.

50-ci illərin ortalarına qədər teatra rəhbərlik edən A.İsgəndərovun sənətinə və şəxsiyyətinə əsla xələl gətirmədən, sadəcə dövrün gerçəklikləri prizmasında etiraf olunmalıdır ki, o həm də kommunist partiyasının bu kiçik məkanda əsas ideoloqu idi. A.İsgəndərovun rəhbərlik etdiyi teatrın 1938-ci ildən 1950-ci ilinə qədərki dövründə oynanılan iki əsər yaddaşlarda daha çox qalmışdır. Bunlardan biri 1938-ci ildə səhnəyə qoyulmuş "Vaqif", digəri isə 1949-cu ildə oynanılmış "Otello" idi [14, s.60]. Düzdür, tədqiqat üçün seçdiyimiz teatrımızın 50-60-cı illər tarixi inkişafı tək A.İsgəndərovun fəaliyyəti ilə bağlı deyildi. Amma, bununla belə 22 il Dövlət Dram Teatrının bədii rəhbəri olmuş

A.İsgəndərovun fəaliyyətinə toxunmadan 50-ci illər teatrımızın tarixini obyektiv qiymətləndirməyimiz mümkün görünmür.

Stalinin vəfatından sonra da teatra bir müddət (daha doğrusu-1960-cı ilə qədər) A.İsgəndərov rəhbərlik etsə də, əvvəlki əzəmət hər ötən gün azalırdı. Söylədiklərimizin məntiqi davamı olaraq həmin dövr teatrının aparıcı aktyoru Ələsgər Ələkbərovla A. İsgəndərov arasında yaşanan narazılıq, gərginlik iki böyük teatr xadimi arasında sənətlə bağlı konflikt kimi qiymətləndirilməməli, əksinə dövrün gerçəklikləri prizmasında şəxsiyyətə pərəstişin deqradasiyası konteksində başa düşülməlidir. Artıq 50-ci illərin ortalarında Stalin şəxsiyyəti kəskin tənqid olunaraq "millət atası" kultunu itirmişdirsə, teatrda da onun inikası olan "teatrın atası" A.İsgəndərov əvəzsiz rəhbərlik düşüncəsi dağılmaqda idi. Fikrimizcə Adil İsgəndərovla Ələsgər Ələkbərov arasındakı münaqişə də bu aspektdə izah olunsa daha real görünmüş olar. V.İ.Leninin inqilab haqqında məşhur deyimi "yuxarılar köhnə qaydada idarə edə bilmir, aşağılar (fəhlə-kəndli) isə həmin qaydalar ilə yaşamaq istəmir" tezisi teatrın həmin dövr həyatını əks etdirirdi. Artıq stalinizm və onun formalaşdırdığı şəxsiyyətə pərəstiş deqradasiya etdiyindən Azərbaycan teatrı üçün həqiqətən böyük işlər görməsinə baxmayraq A.İsgəndərov erası da bitməli idi və bu tamamilə məntiqli idi. Etiraf etmək lazımdır ki, A.İsgəndərovun Azərbaycan teatrı üçün böyük xidmətləri olmuşdur. Bunların içərisində peşəkar rejisor məktəbi, aktyorlarda özünə güvəncin yaradılması, teatra milli ruhun gətirilməsi, mühüm uğuların qazanılması üçün olduqca vacib olan ciddi nizam-intizamın formalaşdırılması, güclü müəlliflər (Səməd Vurğun, Sabit Rəhman, İlyas Əfəndiyev və s.) korpusunu toplamaq, gənc yerli rejisorların yetişdirilməsi və digərlərini göstərmək olar. Bununla yanaşı mütləq şəkildə qeyd edilməlidir ki, teatrımızın aktyor-rejisor heyətinin Stalin repressiyasından qorunmasında, növbəti dəfə ona akademik dram teatrı adı verilməsində, yeni bina ilə təmin olunmasında bu şəxsiyyətin əvəzsiz xidmətləri olmuşdur. Amma bütün bunlar teatrşünas alim Ədalət Vəliyevin dediyi kmi onu xilas edə bilmədi [15, s.74]. Sadə dillə desək, A.İsgəndərov zamana uduzmuşdur.

Maraq doğuran məsələlərdən biri də A.İsgəndərovun Stalin və ardınca M.C.Bağırovun hakimiyyətindən sonra daha 7 il Akademik Dram Teatra rəhbərlik etməsi idi. Xatırlasaq ki, A.İsgəndərovun M.C.Bağırovla yaxın əlaqələri var idi və bu "yuxarı eşalon"a tam məlum idi, onda onun rəhbər postda saxlanılması müəamması daha böyük maraq doğurur. Bunun bir səbəbi yuxarıda söylədiyimiz kimi "teatr məbəddi" konsepti bu vaxt tam olaraq formalaşmış və A.İsgəndərov da "məbəd kahini" kimi qəbul edilirdi. Digər tərəfdən isə A. İsgəndərovun xalq içərisində olan böyük hörməti və nüfuzu idi ki, yeni rəhbərlik onu dərhal uzaqlaşdırmaqla böyük təpki ilə qarşılaşa bilərdi.

***Azərbaycan teatrında fəlsəfi romantik üslub ilə Mehdi Məmmədov mərhələsi.*** romantizmə və Tofiq Kazımov 1960-cı ildə A.İsgəndərov Akademik Dram Teatrın bədii rəhbəri vəzifəsindən azad edilir və onun yerinə Mehdi Məmmədov gətirilir. Gözlənilən idi ki, A.İsgəndərovun illər ərzində Azərbaycan teatrında formalaşdırdığı monumetalist ənənələrə, köhnə sterotiplərə son qoyulacaq və teatra yeni nəfəs gətiriləcəkdir. Amma A.İsgəndərovun "şinelindən" çıxan M.Məmmədov teatrda gözlənilən kordinal dəyişikliklər etmək iqtidarında deyildir. Stanslavski məktəbinin nümayəndəsi kimi onun teatr düşüncəsi, rejisor fikri mühüm əhəmiyyət kəsb edir. M. Məmmədov rəhbərlik etdiyi dövrdə Akademik Dram Teatrının səhnəsində verdiyi Sabit Rəhmanın "Əliqulu evlənir", M.Hüseynin "Alov", Mirzə İbrahimovun "Kəndçi qız" əsərlərini uğurlu hesab etmək olar [3]. Bununla belə, dövr artıq teatrda daha radikal dəyişiklikləri tələb edirdi. Bütün bunların fonunda sözügedən şəxs özünü yenilikçi rejisor və bədii rəhbər kimi təsdiqləyə bilmədi. "Kəndçi qız" səhnə əsərində insan taleyi, sevgi, xəyallar, qarşıya çıxan çətinliklər və s kimi bu qəbildən olan məsələlər M. Məmmədovun səhnə yozumu ilə real həyatla səsləşməklə yanaşı, həm də bayağı formada olmayıb, əksinə fəlsəfi məzmunda təqdim edilirdi. Bütün bu müsbət amillərlə yanaşı tamaşa teatr tariximizdə mühüm hadisəyə çevrilə bilmədi. M.Məmmədovun qurluş verdiyi digər əsər "Alov" pyesi də tamaşaçılar tərəfindən müsbət qarşılansa da tamaşanın qəhrəmanı bütün çalarları ilə parlaq şəkildə verilməmişdir [13, s.66]. Tamaşa qəhrəmanlarının müsbət kefiyyətlərinin qabarıq şəkildə verilməməsi, bir növ arxa plana atılması tək M. Məmmədov yaradıcılığına xas olmayıb, ümumilikdə 60-cı illər teatrmız üçün xarakterik xüsusiyyətlərdən idi. Burada tək rejisoru deyil, dramaturqun da müəyyən "payı" var idi. Təsadüfü deyildir ki, məşhur Azərbaycan dramaturqu Cəfər Cabbarlının qeyd etdiyi "dramaturq həm də rejisor olmalıdır" tezisi 60-cı illər teatrımız üçün aktual olaraq qalırdı.

Xruşşov "mülayimləşməsi"nin verdiyi imkanlardan yararlanaraq ictimai-siyasi həyatda baş verən proseslərin konteksində fərqli, yenilənmiş düşəncə ilə yaşayan insanların qəlbinə 30-50-ci iilərdəki kimi daşlaşmış üslub və məzmun ilə yol tapmaq mümkünsüz idi. Yeni düşüncə tərzinə malik olan tamaşaçı real həyatla səsləşən, sünilikdən, pafosdan uzaq təbii qəhrəmanlar intizarında idi. Başqa sözlə ifadə etsək 60-cı illərin seyricisinin zövqünü qəhrəmanlıq dastanlarını xatırladan pafoslu mətnlər, hay-küylü, çal-çağırlı, bayram ruhlu səhnələr oxşamırdı. 1954-cü ildə istifadəyə verilən televiziya da, elm-teknika sahəsində baş vermiş yeniliklərlə yanaşı insanların dünya görüşünə, zövq tələbatına mühüm təsir götəirirdi.

Cəmiyyətin digər sahələrində baş verən yeniliklərə uyğun teatr tamaşaları qurmaq üçün gənc rejisor nəslinə ehtiyac yaranmışdır. Teatrın dövrün tələbləri ilə uzlaşa bilməməsi tək novatorçu rejisor qıtlığı ilə bağlı olmayıb, həmçinin baş verən ictimai-siyasi proseslərin fəlsəfi məsmununu özündə əks etdirən dram əsərlərinin də az olması ilə bağlı idi. Bununla belə, sözügedən dövrdə dramaturgiyamıza zamanla səsləşməni, yeni düşüncə tərzini İ.Əfəndiyev gətirmişdir [10, s.358-362]. Müəllifin 1964-cü ildə qələmə aldığı "Sən həmişə mənimləsən" əsəri oxucuda mənəvi düşkünü azaltmaqla yanaşı, onda gələcəyə olan inam hissini artırmış olurdu. Pyesin əsas məzmununu təklik mövzusu tutur və demək olar ki, o bütün personajların həyatında özünü göstərir. Səhnə əsərinin başlıca konflikti Həsənzadə personajında özünü təcəssüm etdirir. Həsənzadə obrazının içində iki konflikt qarşılaşır. I mərhələdə Həsanzadənin daxilində gənc qız Nargiləyə qarşı saf, təmiz bir sevgi baş qaldırdığı halda, II mərhələdə isə adıçəkilən personaj özünü onun sevgisinə layiq bilmir. Əsər boyu tamaşaçı Həsənzadə və Nargilə arsında səmimi dialoqdan yorulmur. Xatırladaq ki, Nargilə obrazını Teatr institunun III kurs tələbəsi Amaliya Pənahova məharətlə ifa edə bilmişdir. [13, s.73]. İ.Əfəndiyevin 60-cı illərdə səhnəyə qoyulan digər əsəri "Mənim günahım" pyesi də uğurlu alınmışdır. İ.Əfəndiyevin qələmə aldığı mövzuların gerçək həyatla geniş çapda uyğunluğu hesab edirik ki, bir yazar, dramaturq kimi onun yaradıcılığının ən mühüm cəhətlərini təşkil edir.. Müəllif böyük peşakarlıqla cəmiyyətdəki həmin çatışmazlıqların, nöqsanların əsl mahiyyətini, alt qatlarını qəhrəmanlarının dili ilə açaraq oxucusuna. tamaşaçısına çatdırmağı bacarırdı.

Əgər A.İsgəndərovun rejisorluq işində monumentalizm realizmə əsaslanırdısa M. Məmmədovun rejisorluq fəaliyyətində isə fəlsəfi romantik üslub romantizmə, 1964-cü ildən Akademik Dram Teatrına rəhbərlik edən Tofiq Kazımovun üslubu (lirik psixoloji üslub) isə poetika və gülüş mədəniyyətinə əsaslanırdı. [9, s.62]. Stalinin ölümündən (1953-cü il) sonra Akademik Dram Teatrına daha 7 il rəhbərliyi A.İsgəndərov həyata keçirsə də, yuxarıda qeyd etdiyimiz kimi cəmiyyətdəki dəyişikliklər teatrdan və onun rəhbərliyinə olan münasibətdən də yan keçmədi. Teatra rəhbər postuna M.Məmmədov gətirildi. Cümhuriyyətimiz ilə həmyaşıd olan ünlü sənət ustadı 1918-ci il 22 mayda Şuşada doğulmuşdur. 1935-ci ildə Azərbaycan Teatr Texnikomunu bitirdikdən sonra təhsilini davam etdirmək üçün həmin vaxt əsas teatr məktəbi hesab edilən Moskva Dövlət Teatr Sənəti İnstitutunun rejisorluq şöbəsinə daxil olur. Həmin ali təhsil ocağını-məşhur rejisor N.M.Qorçakovun sinifini 1940-cı ildə bitirdikdən sonra vətənə qayıdır. Burada kiçik bir qeydi etməyimizi vacib hesab edirik ki, Mehdi Məmmədovun müəllimi N.M.Qorçakov rus realist teatrının banisi hesab edilən K.S.Stanislavskinin tələbəisi olmuşdur [9, s.63]. M.Məmmədov rejisorluq sənətinin dərin sirlərindən xəbərdar olan bir sənətçi kimi heç vaxt müəllifin fikirlərinə qarşı çıxmır, əsəri ilk növbədə özü dərindən mənimsədikdən sonra ona müdaxilə etmədən, necə deyərlər "rejisor özbaşnalığından" daim uzaq olaraq çətin şifrələrlə də olsa mətnin kodunu açmağa çalışırdı. M.Məmmədov hələ 1971-ci ildə qələmə aldığı "Rejisor sənəti" kitabında qeyd edirdi ki, "Rejisor ilk növbədə çalışdığı teatr kollektivini bütövlükdə və bundan əlavə isə hər bir aktyoru isə fərd olaraq yaxından tanımalı, onun bilik və bacarıqlarını tam bilməlidir" [9, s.63]. Bunsuz mükəmməl səhnə əsəri hazırlamağın mümkünsüz olduğunu bildirirdi. Aydın Talıbzadə 2009-cu ildə qələmə aldığı "Mehdi müəmması və ya sənətdə konseptual Hamletizm" monoqrafiyasında M. Məmmədovla bağlı bir çox qaranlıq məqamların oxucuya düzgün çatdırılması ilə yanaşı, sözügedən şəxsin doğum tarixinin də 1918-ci il deyil 1915-ci ilə təsadüf etdiyini inandırıcı mülahizələrlə irəli sürür [12, s.25-26]. Müəllifin özünün də qeyd etdiyi kimi, sözügedən rejisorun doğum tarixinin 3 il geri çəkilməsi və 1915-ci il kimi təsdiqlənməsi konseptual olaraq onun yaradıcılığına təsir göstərmir. Bununla belə, onun teatr sahəsinə gəlişi və bu peşəyə həvəsinin yaranması baxımdan dəyərli hesab edilə bilər.

Şuşada dünyaya gələn M. Məmmədov ailədəki 3 uşaqdan (digərləri Xəlil və Teymur ) böyüyü idi. 1923-cü ildə ildə Əsədulla kişi ailəsi ilə birlikdə Bakıya-həmin vaxt Suraxanıskaya küçəsi (indiki Çingiz Mustafayev küçəsi) 17 nömrəli dalan və 5 nömrəli evə köçür [12, s.20]. Tədqiqatçı Yaşar Qarayev M.Məmmədovun teatra olan həvəsinin yaranması və peşəyə gəlişini həmin vaxt Bakıda qadın rollarının məşhur ifaçısı olan Cəlil Bağdadbəyov ilə tanışlığının mühüm rol oynadığını qeyd edir. Xatırladaq ki, Cəlil Bağdadbəyov da Şuşadan idi və ola bilsin ki, Mehdinin atası ilə yaxın əlaqələri olmuşdur. Həmin vaxt teatr ilə bağlı yazılarının üzünün köçürülməsində Cəlil bəy M.Məmmədovun xidmətlərindən yararlanırdı. Mehdi Məmmədovun teatr ilə vizual tanışlığı buradan başlayır [7, s.13]. Həqiqətən bəzən elə faktlarla qarşılaşırsan ki, "Allahın yazısına pozu olmadığı" düstürunun qarşısında acizanə şəkildə dayanmaqdan başqa "çarə" tapa bilmirsən. Suraxanıskaya küçəsinin uzun və köhnə 17 nömrəli dalanında Azərbaycan teatrının gələcək iki nəhəng siması M.Məmmədov və T.Kazımov İsrafil İsrafilovun təbirincə söyləsək "teatr-teatr" oynayırlarmış [4, s.8].



*Yeniyetmələrin həyatdə hazırladıqları həvəskar tamaşa.*
*1932-ci il Soldan birinci: Tofiq Kazımov. Sağdan birinci: Mehdi Məmmədov Mənbə: [4, s.8].*

Dini görüşlərin hakim kəsildiyi Əsədulla kişi oğlunun teatr peşəsinə getməsinə razılıq verməmişdir. Teatr tariximizin tədqiqatçıları arasında qeyd edəcəyimiz məsələ ilə bağlı müəyyən fərqli yanaşmalar olsa da, ümumilikdə 1945-ci ildə Azərbaycan Dövlər Teatr Texnikomuna sənəd verən M.Məmmədov həmin vaxt bu təhsil müəssisəsinə rəhbərlik edən Hacıağa Abbasov tərəfindən yaşının az olması ilə əlaqədar onun sənədlərini qəbul etmir. Ürəyi sənət eşqi ilə döyünən gələcəyin böyük teatr xadiminin teatra "yolu" müvəqqəti olaraq bir trəfdən "bağlanırsa" digər tərəfdən isə yeni bir qapı açılmış olur. Mistikaya qapılmadan əgər Allah bu yazını yazıbsa bəndə bunun qarşısında acizdir. "Yox" cavabından məyus olan Mehdi teatra olan sonsuz istəyini Əziz adlı bir şəxsə danışır. Həmin vaxt Əziz Sevil tamaşasnda Gündüz rolunu oynayırdı. Əzizin köməyi ilə gənc Mehdi Türk Bədaye Teatrosunun (indiki Milli Dram Teatrı) yardımçı heyyətinə işə düzələ bilir [1, s.20]. Həmin vaxt indiki Azərbaycan Dövlət Dram Teatrına ilk milli rejisorlarımızdan olan Yusif Yulduz rəhbərlik edirdi. Məhz onun Türk Bədaye Teatrında səhnələşdirdiyi "Lyubov Yarovaya" əsərində M. Məmmədov ilk dəfə epizodik rolla peşəkar səhnəyə qədəm qoyub [12, s.28-29]. Az sonra "1905-ci ildə" əsərində A.M.Şərifzadə, Ü.Rəcəb, İ.Hidayətzadə, R.Təhmasib kimi ustad sənətkarlarla səhnə

bölüşür. Bundan sonra Azərbaycan Dövlər Teatr Texnikomuna qəbul olunmasına elə bir maneə yaranmır və Mehdi sözügedən təhsil ocağında oxuyarkən müəllimi Həbib İsmayılovun məsləhəti ilə diqqətini daha çox təhsilinə ayırdığından müvəqqəti olaraq səhnədən uzaqlaşır. Amma qeyd etdiyimiz kimi bu müvəqqəti idi. Belə ki, Həbib İsmayılov Seyid Hüseynin “Kölgə” pyesi əsasında hazırladığı eyniadlı tamaşada komsomolçu Bəxtiyar roluna çəkilməli olan İsmayıl Əfəndiyev xəstələndiyindən Həbib İsmayılov onun yerinə tələbəsi M.Məmmədovu çəkir [1, s.7]. M.Məmmədov teatrda daha peşəkarcasına fəaliyyət göstərməsi üçün təhsilinin davam etdirilməsinin vacibliyini anlayırdı. Amma bu yolda onun üçün əsas maneələrdən biri rus dilini akademik səviyyədə bilməməsi idi. O, 1935-ci ildə A.V.Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitunun rejisorluq fakültəsinə qəbul olunur. Amma, burada onun işləri heç də rəvan getmir. Həmin vaxt Bakı SSRİ imperiyasının bir əyaləti hesab edilirdi və əyalət gənclərinin əksəriyyəti üçün xarakterik olan rus dili bariyeri nə qədər istedadlı olsa da M.Məmmədov üçün də maneyə idi. Rejisorluq sənətinin sirlərinə Moskvada rus dilini dərindən bilmədən yiyələnməyin mümkünsüzlüyünü anlayan gənc Mehdi bir illik möhlət götürüb Bakıya qayıdır. Bakıda isə onu daha çətin günlər gözləyirdi. Əvvəla rus dilinin mükəmməl öyrənməsi ilə bağlı çox çalışması, atası Əsədulla kişini ölümü və nəhayət uğursuz sevgi həyatı Mehdininin psixikasına ciddi təsir göstərir, hətta o bir müddət ruhi xəstəxanada müalicə almalı olur. M.Məmmədov Moskvada təhsilini başa vurduqdan sonra 1940-cı ildə Gəncə Dram Teatrına rejisor kimi işə düzəlir və 1945-ci ilə qədər Gəncədə işləməli olur. Bu məsələnin üzərində bir qədər dayanmağımızda fayda olduğuna inanıram. Təhsilini başa vurduqdan sonra Moskvada, ya da Voronejdə qalmasını planlayan M.Məmmədovun Gəncəyə gəlişində şübhəsiz ki, Rza Təhmasibin mühüm xidmətləri olmuşdur. M.Məmmədovun diplom işi olan “Bahar” pyesinin müəllifi Rza Təhmasibin qardaşı, tanınmış folklorşünas Məhəmmədhüseyn Təhmasib idi. M.Məmmədova qədər sözügedən əsər Ə.Şərifovun qurluşunda səhnəyə qoyulsa da ciddi tənqidə məruz qalmışdı. RzaTəhmasibin M.Məmmədov ilə olan yaxın münasibəti və onun istedadına olan inamı “Bahar”ı yenidən həyata qaytara bilərdi və bu belə də oldu. M.Məmmədovun uğurlu fəaliyyətinin nəticəsi idi ki, artıq 1942-ci ildə onu Gəncə Dövlət Dram Teatrına bədii rəhbər təyin edirlər [5, s.35]. M. Məmmədov 1942-ci ildə Gəncə Dövlət Dram Teatrında “İntiqam”, “Vasvası xəstə”, “O olmasın, bu olsun”, “Od gəlini”, “Vaqif” əsərlərinə quruluş vermiş, 1943-1944 cü illərdə isə bədii rəhbər kimi “Nə yardan doyur, nə əldən qoyur”, “Nizami”, “Toy”, “Partizan Kostya”, “Oqtay el oğlu” əsərlərini səhnəyə qoyur [12, s.68]. Bu əsərlər içərisində daha çox yaddaşlarda qalanı “Nizami”əsəri idi. Amma, bununla belə məşhur ispan yazarı Lope de Veqanın “Nə yardan doyur, nə əldən qoyur” əsəri Gəncə teatrında M.Məmmədovun rejissorluğunda səhnələşdirilmişdir. Dünya klassiklərindən sayılan sözügedən müəllifin əsərinin Azərbaycanın paytaxtında deyil, əyalətdə gənc bir rejisor tərəfindən ritmik, oynaq və şux bir formada təqdim olunması sözün həqiqi mənasında tamaşıçıları və teatr xadimlərini heyrətləndirmişdir. Tamaşanın uğurlu alınması ilə yanaşı M.Məmmədovun Barat Şəkinskaya ilə olan münasibətləri baxımından da bu əlamətdar hadisə idi [11, s.40]. 1943-cü ildə Gəncə Dövlət Dram Teatrında səhnəyə qoyulan sözügedən əsərə tamaşa etmək üçün gələnlər arasında Şəmsi Bədəlbəyli də var idi. İlk baxışdan burada qeyri-adi heç nə yox idi. Amma xatırlasaq ki, tamaşada rol alan B.Şəkiniskayanın birinci həyat yoldaşı Ş.Bədəlbəyli olmuşdur və onun Gəncəyə gəlişi, daha sonra isə Ədəbiyyat qəzetində tamaşa ilə bağlı mənfi ruhda bir məqalə dərc etdirməsi zamanında və sonralar xeyli söz-söhbətə səbəb olmuşdur. 1944-cü ildə S.Vurğun və M.Hüseynin iştirakı ilə M.Məmmədov Barat xanıma elçilik edir və həmin ildə evlənirlər. Mehdi ilə Barat xanım yeni ailə qurmalarına baxmayaraq, siyasi proseslər onların da həyatından yan keçmir. AKP-na rəhbərlik edən M.C.Bağırov Dövlət Dram Teatrında tamaşalardan birini seyr edərkən Barat xanım gözümə dəymir deyə soruşur. Barat xanım Gəncə Dövlət Dram teatrında çalışdığı xəbərini eşitdikdə onun dərhal Bakıya gətirlməsini istəyir. Artıq 1944-cü ilin sonunda M.C.Bağırovun sevimli aktrisası B.Şəkiniskaya Azərbaycan Dövlət Dram Teatrına geri dönmüşdür. Bu vaxt təhsilini aspirantura səviyyəsində davam etdirmək üçün Moskvaya getməyi planlaşdıran M.Məmmədov Dövlət Dram Teatrından təklif alır və Bakıya qayıdır. Ehtimal etmək olar ki, onun Məşədi Əzizbəyov adına Dövlət Dram Teatrına dəvət olunmasında Barat xanımın mühüm rolu olmuşdur. M.Məmmədovun 1946-cı ildə səhnələşdirdiyi “On ikinci gecə” əsəri sanki Gəncə teatrında yaratdığı “Nə yardan doyur, nə əldən qoyur” tamaşasının davamı idi. Üslub baxımından sanki “On ikinci gecə” əsəri rejisor

tərəfindən hörülmüşdür. 28 yaşında olarkən səhnələşdirdiyi “On ikinci gecə” əsəri ilə M.Məmmədov sübut elədi ki, fitri bir istedada, fərqli düşüncə tərzinə, əxlaq kodeksinə, iş üslubuna malikdir və necə deyərlər sənətini hər şeydən çox sevən birisidir.

***Azərbaycan teatrında Tofiq Kazımov mərhələsi (poetika və gülüş üslubu).*** Ötən əsrin 50-ci illərində Azərbaycan teatrında çalışan rejisorlarımızdan biri də Tofiq Kazımov idi. Yaradıcılığının ilk illərində komediya janrına üstünlük verən bu səhnə ustadının sonrakı illərdəki fəaliyyətində fəlsəfi təhlilin ön plana çıxdığını görürük. T.Kazımovun hazıladığı tamaşalarda dramatik konflikt bir çərçivədə qalmaqdan uzaq olub, geniş məzmun kəsb edirdi. 1966-cı ildə yenicə Akademik Milli Teatra rəhbər təyin olunmuş T.Kazımov tərəfindən səhnəyə total şəkildə gətirilən lirik-psixoloji üslub özündən əvvəl mövcud olan realist və romantik tərzlərdən xarakterik xüsusiyyətləri ilə seçilirdi. T.Kazımovun Azərbaycan teatrına gətirdiyi lirik psixoloji üslubla hazırlanan tamaşalarda əsas diqqət aktyorlara yönəldilir və səhnə mümkün qədər boş saxlanılırdı ki, obrazlar arasında yaşanan psixoloji əlaqələrə üstünlük verilməklə, oynanılan rollarda personajların mənəvi aləmlərinin qabardılması, önə çəkilməsi, daha dərin və alt qatlarında məna yükü böyük olan ifadələrdən istifadə etməklə real həyat hadisələrini poetik formada səhnəyə gətirilməsi sözsüz ki, teatrızın uğuru hesab edilə bilər. Yeri gəlmişkən qeyd edək ki, təməli T.Kazımov tərəfindən qoyulan lirik-psixoloji üslub Azərbaycan teatrında bir məktəb kimi formalaşmış və günümüzdə rejisor və aktyorlamız bundan yararlanmaqdadır. T.Kazımov teatr səhnəsində bir neçə on il ərzində formalaşmış və artıq bütləşmiş ənənələri qıraraq, əsas diqqəti aktyor oyununa yönəltməklə, əslində səhnə ustasına da “azadlıq” verməklə öz istedadını tam şəkildə açmağa imkan yaratmış olurdu. Maksimum şəkildə boşaldılmış səhnəni aktyorun yüksək istedadına söykənən oyun tərzi doldurmalı idi [16]. T.Kazımovun səhnəni mümkün qədər boşaltmaqla əsas diqqəti aktyora yönəltməsi əslində K.S.Stanislavskinin məşhur 5 prinsipindən biri olan başqalaşma, özgələşməni özündə ehtiva edirdi [13, s.72]. Maraqlıdır ki, T.Kazımovun lirik-psixoloji üslubu tarixi pyeslərə də tətbiq edilmiş və yaxşı səhnə əsəri kimi qəbul edilmişdir. Fikrimizcə adıçəkilən rejissor Azərbaycan teatrı mühitində lirik-psixoloji üslubun milli versiysasını yaratmağa nail olmuşdur. İstedadlı və eyni zamanda novatorçı rejisor 1980-ci il avqustun 2-də avtomabil qəzasında həlak oldu. Ölümünə qədər 14 il müddətinə Azərbaycan Milli Dram Teatrına rəhbərlik etmişdir.

60-cı illərin tamaşaçısı arzu etdiyi, görmək istədiyi qəhrəmanları nagıllardan deyil real həyatdan, yaşadığı ictimai-siyası mühitin gerçəkliklərindən tələb edirdi. Hesab edirik ki, T.Kazımov əslində dövrün tamaşaçısının nəyi və necə istədiyini tam başa düşürdü və elə “bu səbəbdən” onun qurluş verdiyi tamaşalar geniş tamaşaçı kütləsinin zövqünü oxşayırdı. T.Kazımovun qurluşunda yeni pyeslərlə yanaşı, klassik əsərlər də-“Ölülər”, “Pəri cadu” yeni nəfəs almış oldu. Zaman etibarı ilə xeyli əvvəl səhnəyə qoyulmuş bu əsərlər 60-cı illərin tamaşaçısı tərəfindən necə qarşılanardı? Daha savadlı, dünya görüşlü, ctimai-siyasi proseslərə nisbətən adekvat yanaşma sərgiləyən bu dövrün tamaşaçısı nə qədər klassik sayılsa da həmin səhnə əsərlərini keçmiş tərzində qəbul etmək istəmirdi. 1966-cı ildə T.Kazımovun hazırladığı “Ölülər” əsərinin uğurunun əsas səbəblərindən ən mühümü ondan ibarət idi ki, dövrün ictamai mühiti ilə əlaqələndirilmiş və ona adekvat yanaşmanın təzahüri idi ki, kefli İsgəndər üzünü zala-tamaşaçılara tutaraq “ölülər” deyə müraciət edirdi [14, s.91]. 1969-cu ildə T.Kazımovun quruluşunda yenidən səhnələşdirilən “Pəri Cadu” əsəri tamaşaçı sevgisini qazanmaqla yanaşı, zərərli müasirlikdən uzaq olub və əsərin bədii məzmununa xələl gətirilməmişdir. T. Kazımov yaradıcılığından danışarkən heç şübhəsiz Azərbaycan teatrında şərtiliklə təbiiliyin bir sintez halında mükəmməl təqdimatını görmüş oluruq. Əslində teatr tariximizə nəzər saldıqda T.Kazımova qədər hər iki cərəyan mövcud olmuşdur. Sözügedən müəllifin ustadlığı onda idi ki, hər iki cərəyanı üzvi şəkildə bir-birinə bağlı şəkildə verməyi bacarmışdır. Ümumiləşdirmə apararaq bu qənaətə gəlirik ki, ötən əsrin 60-cı illərinin teatr qurluşu, hazırlığı daha çox T.Kazımov yaradıcılığı ilə bağlı olmuşdur. Sözün həqiqi mənasında T.Kazımovun yaradıcılığı zamanında və sonrakı dövr üçün bir məktəb olmuşdur. Sözügedən ustad sənətkar Azərbaycan teatrında uzun zaman kök salmış A.İsgəndərov sterotipinin aradan qaldırılması istiqamətində mühüm addımlar atsa da, bu sənət camiyəsində formalaşmış sərt nizam-intizam qaydaları aktyor sərbəstliyi konteksində getdikcə əriyib sıradan çıxırdı. Sözsüz ki, belə vəziyyət teatrın inkişafına mənfi təsir göstərirdi. Teatra T.Kazımov tərəfindən gətirilən aktyor sərbəstliyi təəssüf ki, bir müddət sonra məsuliyyətin azalması ilə əvəz olunmağa başladı və T.Kazımov yeniliyinə qarşı narazılıqlar artmaqda idi. Teatrda yaranmış bu

vəziyyətin səbəbini tamamilə onun daxilində baş verənlərlə bağlamaq fikrimizcə reallıqdan çox uzaq olardı. 60-cı illərin ikinci yarısında cəmiyyət həyatının sosial-iqtisadi və digər sahələrində yaranmış durğunluq sözsüz ki, teatrdan da yan keçə bilməzdi. Daha dəqiq ifadə etsək cəmiyyətin sosial-iqtisadi inkişafı ilə teatrın fəaliyyəti düz mütənasibdir və mütləq şəkildə birncinin inkişafı ikincinin də işinə müsbət təsir göstərir, yaxud əksinə. T.Kazımovun yetişdirdiyi və çalışdığı aktyor nəsli isə artıq yetişməkdə olan yeni nəslin nümayəndələri olmamaqla yanaşı, onların teatrdan gözləntilərini də reallaşdırmaqdan uzaq idi. 50-60-cı illərdə sənətə möhürlərini basmış A.İsgəndərov, M.Məmmədov, T.Kazımzadə ilə yanaşı Akademik Dram Teatrda Əliheydər Ələkbərov, Səftər Turabov, Ələsgər Şərifov və Əşrəf Quliyev kimi peşəkərlıq baxımından üstün mövqeyə malik milli kadrlar fəaliyyət göstərirdi [8, s.27]. Amma adını çəkdiyimiz bu rejisorlar dövrün ictimai-siyasi və ideoloji tələblərinin cızdığı ştrixlərdən kənara çıxa bilmirdilər.

***Nəticə.*** Aparılan tədqiqat belə nəticəyə gəlməyə əsas verir ki, artıq XX əsrin 50-60-cı illərində Azərbaycan cəmiyyətində baş verən siyasi-iqtisadi ictimai, intelektual və digər dəyişikliklər tamaşaçının zövqünü oxşayacaq, onu teatr salonlarına daşıyacaq yeni məzmun və üslubda əsərlərin səhnələşdirilməsini tələb edirdi. Cəmiyyətdə baş verən dəyişikliklərin fəal iştirakçısı və "istehsalçısı" olan insanlar həmin dəyişiklikləri teatr məkanında, onun üslub və konsepsiyasında görmək istəyirdi. Azərbaycan teatrı üçün böyük xidmətləri olmuş A.İsgəndərov artıq həmin dəyişikilərlə "ayaqlaşa" bilmirdi. A.İsgəndərov "şinelindən" çıxmış Mehdi Məmmədov müəyyən yenilikçi addımlar atsa da bu sistemli xarakter almadı və seyricinin gözlədiyi məzmun və üslub dəyişikliyi tam olaraq səhnədə təcəssümünü tapa bilmədi. T.Kazımovun bədii rəhbərliyi dövründə isə gecikmiş də olsa fərqli məzmun və üslub, bütövlükdə teatr ab-havasının dəyişməsi, aktyor sərbəstliyi görünməyə başladı. Amma bütün bunlar hakim siyasi partiyanın, mövcud siyasi sistemin konsepsiyasından kənara çıxa bilmirdi.

XX əsrin 50-60-cı illərində sovet siyasi sistemin hakim ideologiyasına tabe olan və həmin ideologiyanın başlıca təbliğatçısına çevrilmiş Azərbaycan teatrı bütün məhrumiyyətlərə baxmayaraq, dünya, xüsusən də Qərb ölkələrinin teatrlarında yeni yaranıb formalaşan cərəyanlardan kənarda qalmasına ramən inkişafda idi.

ƏDƏBİYYAT

1. Джафаров. Дж. Искусство режиссёра: о творческом пути Мехти Мамедова. - Б: Азернешр, 1969, 245 с.
2. Əlizadə. M. Teatr: Seyr və sehr. Milli teatr prosesi problemləri. Bakı, "Elm "nəşriyyatı", 1998, 251 s.
3. Hacı Tofiq. Sənətdə özünü təsdiqləyən sənətkar / Azad Azərbaycan, 2013, 26 may, s.7. - http://www.anl.az/down/meqale/az_azerbaycan/2013/may/311565.htm [25.09.2023].
4. İsrafilov İ. Tofiq Kazımovun rejissor dərsləri. Bakı, "Aspoliqraf", 2013, 232 s.
5. Kərimov İ.S. C.Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrı. Bakı, Azərnəşr, 1974, 358 s
6. Kərimov İ. Azərbaycan teatr tarixi. II cild, Bakı, "Qoliaf Qrup" QSC, 2010, 696 s
7. Qarayev Y. Sənət eşqi // Ədəbiyyat və incəsənət, 17 avqust 1974-cü il.
8. Məmmədova M.A. Azərbaycan Dövlət Dram Teatrında janr, forma və üslub axtarışları (1950-1965-ci illər). Sənətşünaslıq namizədi alim dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2005, 154 s.
9. Mehdiyev E.C. Azərbaycanda peşəkar rejisorluq sənətinin inkişaf mərhələləri. Sənətşünaslıq üzrə fəlsəfə doktoru almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2011, 267 s.
10. Rəhimli İ. Azərbaycan teatr tarixi. Bakı, Çaşıoğlu, 2005, 864 s. - http://azteatr.musigi-dunya.az/pdf/ri_att.pdf [25.09.2023].
11. Rəhimli İ.Ə. Barat Şəkinskaya. Bakı, Tutu, 2005, 243 s.
12. Talıbzadə A. Mehdi müəmması və ya sənətdə konseptual Hamletizm. Bakı, 2009, 372 s.
13. Tağıyeva N.M. Azərbaycanda teatr qavrayışının strukturu. Sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2021, 142 s.

14. Vəliyev Ə.M. Əqidə, ruh və teatr (XX əsrin II yarısında Azərbaycan mədəniyyətində milli teatr konsepsiyasının sosial-fəlsəfi və siyasi-ideoloji paradiqması). Bakı, "Printed in Stil Matbaacılık 2009, 240 s.
15. Vəliyev Ə.M. Azərbaycan milli teatrının çağdaş təşkilatlanma problemləri. Bakı, "Elm nəşriyyatı", 2003, 200 s.
16. http:www.google.com/amp/s/fotosintez.wordpress. com/2013/06/13/teatrda-qrotovskif%25C9%2599rqi-2/amp/ [25.09.2023].

**АЙТЕН МАГЕРРАМОВА**
*Преподаватель кафедры «Кавказоведение и история Азербайджана» Азербайджанского университета языков, доктор философии по истории*

## РАБОТА РЕЖИССЕРА В АЗЕРБАЙДЖАНСКОМ ТЕАТРЕ В 50-60-Е ГОДЫ 20 ВЕКА (НА ПРИМЕРЕ АКАДЕМИЧЕСКОГО ГОСУДАРСТВЕННОГО ДРАМАТИЧЕСКОГО ТЕАТРА)

Выбранные для исследования 50-е и 60-е годы XX века были относительно новым этапом в сфере культуры, как и во всех сферах как в советском обществе в целом, так и в Азербайджане, входящем в его состав. Со смертью Сталина, считающегося духовником советского общества, театр, являющийся главным выразителем идеологии системы, и работа режиссера, являющегося также ее художественным основателем, поневоле отошли на второй план. политических катаклизмов того времени. В статье анализируется режиссерская деятельность Мехди Мамедова и Тофика Кязымова, наряду с таким театральным «гигантом», как Адиль Искандаров.

*Ключевые слова:* театр, режиссер, драматургия, культура, Академический драматический театр.

**AYTEN MAHARRAMOVA**
*Lecturer of the department of "Caucasus Studies and History of Azerbaijan" of the Azerbaijan University of Languages, doctor of philosophy in history*

## THE WORK OF A DIRECTOR IN THE AZERBAIJANI THEATER IN THE 50S AND 60S OF THE 20 TH CENTURY (AS AN EXAMPLE OF THE ACADEMIC STATE DRAMA THEATER)

The 50s and 60s of the 20th century, chosen for the study, were a relatively new stage in the field of culture, as well as in all fields in the Soviet society as a whole and in Azerbaijan, which is part of it. With the death of Stalin, who is considered the spiritual father of Soviet society, the theater, which is the main exponent of the ideology of the system, and the work of the director, who is also its artistic founder, necessarily operated in the background of the political cataclysms of the time. The article analyzes the directorial activity of Mehdi Mammadov and Tofig Kazimov, along with such a theater "giant" as Adil Iskandarov.

*Keywords:* theater, director, dramaturgy, culture, Academic Drama Theater.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Emil Qasımov, t.e.d. Qabil Əliyev.*

**UOT 94; UOT 32:93/94**

**MƏMMƏDAĞA BAXIŞOV**
*Bakı Dövlət Universiteti*
*Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti*
**mammadaqabaxıshov@bsu.edu.az**

# AVROPA İTTİFAQI XXI ƏSRİN İKİNCİ ONİLLİYİNDƏ: İNTEQRASİYANIN PROBLEMLƏRİ

*Məqalə XXI əsrin birinci rübündə, xüsusilə onun ikinci onilliyində dünyanın aparıcı beynəlxalq təşkilatlarından biri olan Avropa İttifaqının fəaliyyətinə və onun başçılıq etdiyi Avropa inteqrasiyasının inkişafına həsr edilmişdir. Məqalədə diqqət yetirilən əsas məsələlərdən biri öyrənilən dövrdə Avropa inteqrasiyasına təsir göstərən mühüm problemlərdir. Ona görə müəllif məqalədə həm də qeyd edilən problemləri həll edib Avropa inteqrasiyasını onların təsirindən xilas etməyə çalışan Avropa İttifaqının fəaliyyətindən bəhs edir.*

*Açar sözlər:* beynəlxalq təşkilat, inteqrasiya, Avropa İttifaqı, borc böhranı, mühacir axını, büdcə kəsiri.

***Giriş.*** XX əsrin 90-cı illərində və XXI əsrin əvvəllərində Avropa İttifaqı post-soyuq müharibə dövrünün beynəlxalq münasibətlərində qüvvə mərkəzlərindən biri idi. İqtisadiyyatı "dünya üçlüyünə" daxil olan Avropa İttifaqı inteqrasiyadan üzv ölkələrin yüksək inkişaf səviyyəsini qorumaq üçün istifadə edirdi. İqtisadi qüdrətinə arxalanan Avropa İttifaqının beynəlxalq ticarət və maliyyə qaydalarının formalaşmasına töhfəsi böyük idi. İqtisadi siyasət və təhlükəsizlik sahəsində ABŞ-la sıx əməkdaşlıq Avropa İttifaqının dünyada mövqelərinin möhkəmlənməsinə, dünya siyasətinin mühüm məsələləri ilə bağlı danışıqlar prosesində iştirakına şərait yaradırdı [8, s.307].

Şərqə doğru genişlənmə Avropa İttifaqı üçün həm də çətinliklər yaradırdı. Təşkilatın güclü dövlətləri müxtəlif formada onun genişlənməsinə etirazını bəyan edirdilər. XXI əsrin əvvəllərində Avropa İttifaqı yeni böhranlarla üzləşdi. 2008-ci ilin maliyyə-iqtisadi böhranı Avropa inteqrasiyasına ağır təsir göstərdi. 2008-2012-ci illərdə Avropa İttifaqı dünya iqtisadi-maliyyə böhranının nəticələrini aradan qaldırmaqla məşğul olmuşdu.

***Əsas hissə***. ABŞ-da başlanan iqtisadi böhran qısa müddətdə Avropa ölkələrinə yayıldı. Hadisənin səbəblərindən biri Avropa banklarının ABŞ-dan kredit almaq imkanının məhdud olması idi. Maliyyə böhranı borc böhranına çevrildi. 2009-cu ildə Avropa İttifaqı üzrə məhsul istehsalı 4% azaldı [6, s.544]. Dövlət borcu və büdcə kəsiri artdı.

Borc böhranı Portuqaliya, İtaliya, İrlandiya, Yunanıstan, İspaniya və Kiprdə daha dərin idi. İqtisadi vəziyyəti ağır olan ölkələrə yardım göstərmək üçün 2012-ci ildə Avropa Sabitləşmə Mexanizmi yaradıldı. Sabitləşmə İdarəsinə avrozonaya daxil olan ölkələrə maliyyə çətinliklərini aradan qaldırmaq üçün vermək məqsədilə 500 milyard avro vəsait ayrıldı. Bu idarə Beynəlxalq Valyuta Fondu ilə sıx əlaqə saxlayır və yalnız təsdiq edilmiş islahat proqramı olan ölkələrə yardım göstərirdi. Aİ-nin üzvü olan ölkələr ASM-nə pul verməli idi: AFR – 27%, Fransa – 20% və s.

Yunanıstanda iqtisadi vəziyyət daha ağır idi. Orada büdcə kəsiri böyük, sosial xərclər çox idi. Yunanıstan xarici ölkələrdən və maliyyə təşkilatlarından çoxlu borc almışdı. Yunanıstanın aldığı borcun çox hissəsi AFR-in və Fransanın payına düşürdü. 2009-cu ildə Yunanıstanın dövlət borcu 300 milyard avro idi və defolt təhlükəsi yaranmışdı. 2010-cu ildə məhsul istehsalı 5,4% azalmışdı. 2010-cu ildə Aİ Yunanıstana birinci maliyyə yardım proqramını qəbul etdi. Proqrama görə Aİ və BYF 2010-2012-ci illərdə Yunanıstana 110 milyard avro pul verməli idi. Yunanıstan büdcə xərclərini əsaslı şəkildə azaltmalı idi. Ölkədə əmək qabiliyyətli əhalinin 15%-i işsiz idi.

Ölkədən xaricə kapital axını artmışdı. 2011-ci ildə Yunanıstanın dövlət borcu 350 milyard avro idi. Ona görə Aİ Yunanıstana 2012-2016-cı illərdə 150 milyard avro məbləğində yardım göstərmək haqqında ikinci proqram qəbul etdi [3, s.267]. Yardımın əsas şərtləri sərt qənaət, sosial və hərbi xərclərin azaldılması, təqaüd yaşının artırılması idi. Dövlət qulluqçularının bir qismi ixtisar olundu və işsizlərin sayı 28%-ə çatdı. Vergi islahatı keçirildi və ölkədə özəlləşmə genişləndi.

2015-ci ildə Yunanıstanda keçirilən parlament seçkilərində A.Sipras başda olmaqla Radikal Sol Qüvvələrin Koalisiyası qalib gəldi. 2014-cü ildə Yunanıstanda məhsul istehsalı 1% artdı. A.Sipras hökuməti sərt qənaətdən və yeni kreditlərdən imtinanı öhdəyə götürmüşdü. Yunanıstan BVF-yə faiz ödəməyi təxirə saldı. Ölkədə avrozonadan çıxmaq məsələsi geniş müzakirə edilirdi. 2015-ci ildə Aİ, AMB və BVF Yunanıstana yeni yardım proqramını təklif etdilər. Bu məsələ referenduma çıxarıldı və 2015-ci ilin iyulun 5-də keçirilən referendumda ölkə əhalisinin 61%-i yeni kömək proqramının əleyhinə çıxdı [2, s.246]. Referendum ərəfəsində Yunanıstan hökuməti ölkənin maliyyə iflasına uğradığını rəsmi bəyan etmişdi.

2015-ci ilin iyul-avqustunda Yunanıstanda təcili islahat proqramı hazırlandı. Yunanıstana üçüncü maliyyə yardımı proqramı qəbul edildi. Proqram 2018-ci ilin yayınadək icra olunmalı, Yunanıstana 86 milyard avro yardım göstərilməli idi. Əvvəlki proqramlar tam yerinə yetirilməmişdi. 2020-ci ildə Yunanıstan Aİ-nin proqramdan sonrakı xüsusi müşahidəsi altında idi.

2014-2015-ci illərdə Avropa İttifaqı ölkələrinə Yaxın və Orta Şərqdən və Afrikadan çoxlu mühacir gəldi. Əksəriyyəti qeyri-qanuni idi və belə mühacirətə nəzarət etmək çətin idi. Kütləvi mühacir axınının səbəbi 2011-ci ildə Yaxın Şərqdə və Afrikada vəziyyətin pisləşməsi, dövlət çevrilişləri, vətəndaş müharibələri və 2014-cü ildə NATO qoşunlarının Əfqanıstandan əsasən çıxarılması idi. Təbii ki, bu işdə mühacirləri gizli şəkildə Avropaya aparan cinayətkar qrupların rolu böyük idi. Mühacirlərin çoxu Suriya, Əfqanıstan, İraq, Liviya, Pakistan, Nigeriya, Somali, Sudan və Kosovodan gələnlər idi. 2015-ci ildə Avropa İttifaqı ölkələrinə gələn mühacirlərin sayı 1,5 milyon nəfər idi ki, onun 900 min nəfəri AFR-dən sığınacaq istəmişdi. 2016-cı ildə Avropa İttifaqı ölkələrində qeyri-leqal mühacirlərin sayı 2,3 milyon nəfər idi.

Mühacir böhranı dövründə qeyri-leqal mühacirlər Avropa ölkələrinə dörd əsas yolla gətirilirdi: 1. Yaxın və Orta Şərqdən Türkiyə, Yunanıstan – "Balkan koridoru" vasitəsilə - Şərqi Aralıq dənizi yolu; 2. Afrika ölkələrindən Liviya vasitəsilə İtaliyaya aparan Mərkəzi Aralıq dənizi yolu; 3. Əlcəzair və Mərakeşdən İspaniyaya aparan – Qərbi Aralıq dənizi yolu; 4. Suriya, İraq və Əfqanıstandan post-sovet respublikalarının ərazisindən Şərqi və Şimali Avropaya aparan Avropa İttifaqının şərq sərhədi. AFR, İsveç, Danimarka və Avstriyada həm inkişaf etmiş sosial təminat sistemi mövcud idi, həm də iri müsəlman icmaları yaşayırdı. Ona görə mühacirlər son nöqtə kimi həmin ölkələri seçirdi. 2014-2018-ci illərdə 15 min nəfər mühacir Aralıq dənizində batmışdı.

Avropa İttifaqı yaranmış şəraitdə bir neçə problemi həll etməli idi. Əvvəla, mühacirət ciddi nəzarətə alınmalı idi. Çünki, Şengen zonasına daxil olma qaydalarına əməl edilmirdi. Avropa İttifaqında mövcud olan reqlamentə görə qeyri-leqal mühacirlərin sığınacaq almaq üçün müraciətinə Şengen zonasının birinci ölkəsində baxılmalı idi [4, s.326]. Mühacirlərin çoxluğu həmin işi çətinləşdirirdi. 2015-ci ildə Macarıstan adı çəkilən qaydadan imtina etdi. 2015-ci ilin payızında Avstriya, AFR, Danimarka, Fransa, İsveç Avropa İttifaqında daxili sərhədlərə müvəqqəti nəzarət tətbiq etdilər. Belə tədbir Şengen sazişində nəzərdə tutulmuşdu, lakin altı ayı ötə bilməzdi. Avropa İttifaqının beş ölkəsində sərhədlərə müvəqqəti nəzarət rejimi 2017-ci ilin payızında ləğv edildi.

Avropa İttifaqı ölkələrində mühacirlərin müvəqqəti yerləşməsi üçün şərait yaradılmalı, onların qeydə alınması və yerdəyişməsi proseduru tətbiq edilməli idi. Mühacirlərin Avropa ölkələrində qeyri-bərabər bölgüsü yerli əhalinin narazılığına səbəb olurdu. İttifaq ölkələrində mühacirlərlə bağlı büdcə xərcləri artmışdı. Mühacirlərin müvəqqəti saxlanma mərkəzlərini yaratmaq çoxlu xərc tələb edirdi, həmin mərkəzlər sosial gərginlik və cinayət mənbəyi idi. Mühacirlərin yenidən bölüşdürülməsi təşkilata üzv olan ölkələr arasında yeni ziddiyyətə səbəb oldu, çünki onların bir qismi öz ərazisində mühacir yerləşdirmək istəmirdi.

Polşa, Çexiya, Macarıstan və Slovakiya daha sərt mövqedə dayanmışdı. Onlar Yaxın və Orta Şərqdən, Afrikadan gələn mühacirlərə milli mentalitet və təhlükəsizlik üçün qorxu mənbəyi kimi baxır və iddia edirdilər ki, Avropa İttifaqı mühacirlərin yenidən bölgüsü sistemi vasitəsilə Avropanın kiçik xalqlarının mənafelərini inkar edir. Avropa İttifaqı eyni zamanda mühacirlərin beynəlxalq hüquqla təsbit olunmuş hüquqlarını da nəzərə almalı idi.

Avropa İttifaqında təhlükəsizliklə bağlı vəziyyət pisləşdi. Kütləvi mühacir axını ilə bağlı Avropa İttifaqı ölkələrində cinayətlərin sayı artdı. Avropa İttifaqı ölkələrində həm də dini zəmində ixtilaflar artdı. XX əsrin 60-70-ci illərində Avropa ölkələrinə köçmüş mühacirlərin övladlarının bir qismi

2013-2014-cü illərdə İŞİD-in tərəfində döyüşmək üçün İraqa və Suriyaya gəlmişdi [9, s.175]. İŞİD-in məğlub edilməsindən sonra sağ qalanlar yenə Avropaya qayıdırdı. 2015-2018-ci illərdə mühacirlər tərəfindən Avropa ölkələrində terror aktları törədilmişdi. Belçikada, Fransada, AFR-də, İngiltərədə, İsveçdə və İspaniyada partlayışlar, yük maşınlarının piyadaların üstünə sürülməsi, girov götürülməsi kimi hallar artmışdı.

Mühacir böhranından çıxmaq üçün Avropa ölkələrində mühacirət qaydaları sərtləşdirilmişdi. Mühacirlərin qaçqın statusu almaq üçün yerləşdiyi ölkədə qalma müddəti qısaldılmış, vəsaitin məbləği azaldılmış, qeyri-leqal mühacirlərin zorla Şengen zonasından çıxarılması halları artmışdı. 2015-ci ilin yazında Avropa Komissiyası Avropa İttifaqının 28 ölkəsi üçün mühacir norması müəyyənləşdirməyi təklif etdi. 2015-ci ilin yayında Avropa İttifaqı könüllü şəkildə 40 min nəfər qaçqın yerləşdirmək haqqında qərar qəbul etdi. 2015-ci ilin payızında Avropa İttifaqı iki il ərzində İtaliya və Yunanıstandakı düşərgələrdən 120 min təşkilat ölkələrinə mühacir göndərməyi qərara aldı. Lakin təşkilat üzvlərinin bir qismi həmin sxemə etiraz etdi. Ona görə 2015-2018-ci illərdə Avropa İttifaqı ölkələrində norma üzrə 1,6 milyon mühacirdən cəmi 35 min nəfər yerləşdirilmişdi.

2016-cı ilə qədər Avropa İttifaqı ilə çoxsaylı ziddiyyətləri olan Türkiyə ərazisində külli miqdarda mühacir cəmləşmişdi. Türkiyə onların Avropaya getməsinin qarşısını öz imkanları hesabına alırdı. 2016-cı ilin martında Avropa İttifaqı ilə Türkiyə arasında imzalanmış sazişə görə Avropa İttifaqı Türkiyəyə iki dəfədə üç milyard avro pul verməli idi. Avropa İttifaqı ilə Türkiyə arasında dialoq intensivləşməli və Türkiyə vətəndaşları üçün viza rejimi ləğv edilməli idi. Bu sazişdən sonra birinci marşrutla Avropa İttifaqı ölkələrinə gələn mühacirlərin sayı azaldı. Avropa İttifaqıdan alınmış vəsait Türkiyədə cəmlənmiş dörd milyon mühacirə xərclənməli idi [3, s.390]. 2018-ci ildə Avropa İttifaqı Türkiyəyə pul verilməsi məsələsini siyasiləşdirdi. Avropa İttifaqı Türkiyəni ondan aldığı pulu başqa məqsədə xərcləməkdə ittiham edirdi. Avropa İttifaqı pulun qalan hissəsini Türkiyəyə vermədi. Ona görə də Türkiyə Avropa İttifaqı ilə imzalanmış sazişdən çıxacağını bildirdi. Türkiyə vətəndaşları üçün viza rejimi ləğv edilmədi, Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqlar dayandırıldı.

Mühacir böhranı və digər çoxsaylı böhranlar Avropa İttifaqı ölkələrində vətəndaşlar arasında vahid Avropa əleyhinə olanların sayının artmasına səbəb oldu. Bir sıra ittifaq ölkəsində mühacirlərə münasibət müsbət idi və həmin ölkələrin rəhbərliyi işçi qüvvəsinə olan ehtiyacdan bəhs edirdilər. Avropa İttifaqı ölkələrində 2016-2019-cu illərdə keçirilən seçkilər sağ və sağ radikal partiyaların nüfuzunun artmasını nümayiş etdirdi. Bu partiyalar mühacirlərin əleyhinə idi və Avropa İttifaqına tənqidi yanaşırdı. Onlar Avropa İttifaqının rəhbər institutlarını böhranlar zamanı təşkilatın üzvü olan dövlətləri dərhal və sərbəst, milli mənafelərə uyğun qərar qəbul etməyə mane olmaqda ittiham edirdilər. Sağ qüvvələr Avstriya, AFR, Polşa, Macarıstan, Hollandiya, İsveç və Finlandiya parlamentlərinə seçkidə əhəmiyyətli üstünlük qazanmışdı [2, s.251].

Avropa inteqrasiyasına şübhə ilə yanaşma – ittifaq ölkələrində təşkilatın rəhbər orqanlarının fəaliyyətini tənqid edən siyasi fikir cərəyanıdır. Onlar üzv ölkələri Avropa İttifaqına çoxlu səlahiyyətlər verməkdə, Avropa İttifaqının rəhbər orqanlarını demokratik olmamaqda ittiham edir və deyirdilər ki, təşkilatın rəhbər orqanlarında işləyən məmurlar üzv ölkələrin əhalisi tərəfindən seçilmir. Bu cərəyan 1970-ci illərdə İngiltərədə meydana çıxmışdı. Sonra şübhə ilə yanaşma digər Avropa İttifaqı ölkələrinə yayılmışdı və təşkilatda böhranlar zamanı sıraları artırdı. Şübhə ilə yanaşanlar Avropa İttifaqında büdcə vəsaitinə sərt qənaət edilməsini və mühacir məsələsində təşkilatın daha sərt mövqe tutmasını tələb edirdilər. 2005-ci ildə Fransada və Hollandiyada Avropa İttifaqının konstitu-siyasının referendumdan keçməməsində şübhə ilə yanaşanların böyük rolu olmuşdu [7, s.186]. Yunanıstan, İtaliya, Çexiya və Macarıstanda şübhə əhval-ruhiyyəsi daha güclü idi.

2016-cı ilin iyununda İngiltərədə Avropa İttifaqında iştirakla bağlı referendum keçirildi. Referendumun keçirilməsi haqqında qərar hakimiyyətdə olan Mühafizəkarlar Partiyası tərəfindən qəbul edilmişdi. Mühafizəkarlar "Brexit" əleyhinə idi, lakin referendum keçirməyi vəd etməklə 2015-ci ilin martında keçirilmiş parlament seçkilərində qələbəni təmin etdilər [1, s.112]. Seçkilər İngiltərədə mühacir və borc böhranı ilə bağlı Avropa İttifaqından narazılığın artması şəraitində keçirilmişdi. Seçkidən sonra D.Kemeron baş nazir vəzifəsini qoruyub saxladı. 2016-cı ilin yayında İngiltərədə brexitlə bağlı referendum keçirdi. D.Kemeron elə bilirdi ki, əhali referendumda Avropa İttifaqıdan çıxmağın əleyhinə səs verəcək. O referendumdan Avropa İttifaqına təzyiq vasitəsi kimi istifadə etmək niyyə-

tində idi. Mühafizəkarlar daha əlverişli şərtlərlə İngiltərənin Avropa İttifaqında qalmasına tərəfdar idi. Referendumda əhalinin əksəriyyətinin "Brexit"ə səs verməsi mühafizəkarlar üçün gözlənilməz oldu. D. Kemeron 2016-cı ilin iyulunda istefaya çıxdı. Daxili işlər naziri T. Mey İngiltərənin yeni baş naziri təyin edildi [3, s.270]. İngiltərənin yeni hökuməti sərt "Brexit" tərəfdarı idi. 2017-ci ilin martında T.Mey Brusselə məktub göndərib bildirdi ki, İngiltərə Avropa İttifaqını tərk edəcək.

2019-cu ilin martınadək İngiltərə Avropa İttifaqı ilə münasibətlərinin gələcəyini müəyyənləşdirməli idi. "Brexit üzrə saziş" aşağıdakı məsələləri həll etməli idi: 1. Avropa İttifaqı ilə azad ticarət zonasının razılaşdırılması; 2. İngiltərənin Avropa İttifaqı qarşısında maliyyə öhdəliklərini yerinə yetirməsi; 3. İngiltərədə yaşayan və işləyən Avropa İttifaqı vətəndaşlarının, Avropa İttifaqı ölkələrində yaşayan və işləyən İngiltərə vətəndaşlarının statusunun müəyyən edilməsi. Bu saziş imzalanana qədər İngiltərə Avropa İttifaqıda qalır və təşkilatın üzvü kimi öz vəzifələrini yerinə yetirməli idi.

Avropa İttifaqının İngiltərə ilə danışıqlar aparan nümayəndəsi Fransalı M.Barnye idi. Danışıqlar ləng aparılırdı. Mürəkkəb məsələlərdən biri İngiltərənin tərkibində olan Şimali İrlandiya ilə İrlandiya Respublikasının sərhədi idi. Bu, İngiltərə ilə Avropa İttifaqı arasında yeganə quru sərhədi idi. 2018-ci ilin yayında T.Meyin təklif etdiyi "Cekers planı" Avropa İttifaqı ilə sıx inteqrasiyanın qalmasını nəzərdə tuturdu. Plan İngiltərədə və Avropa İttifaqında bəyənilmədi. Etiraz əlaməti olaraq İngiltərə hökumətinin iki naziri istefaya çıxdı. 2018-ci ilin yayında T. Meyin təklif etdiyi layihə Avropa İttifaqı ilə razılaşdırıldı. Lakin 2019-cu ilin yanvar-martında İngiltərə parlamenti dörd dəfə həmin layihəni qəbul etmədi. 2019-cu ilin yayında T.Mey istefaya çıxdı.

İngiltərə əhalisinin əksəriyyəti ölkənin Avropa İttifaqından çıxmasında maraqlı idi. Mühafizəkar B.Conson ölkənin yeni baş naziri təyin edildi. 2020-ci ilin əvvəlində İngiltərənin Avropa İttifaqından çıxması haqqında sazişin layihəsi həm İngiltərədə, həm də Avropa İttifaqında bəyənildi. 2020-ci ilin yanvarın 31-də İngiltərənin Avropa İttifaqıdan çıxması prosesi başa çatdı. 30 dekabr 2020-ci ildə İngiltərə Avropa İttifaqı ilə ticarət və əməkdaşlıq haqqında saziş imzaladı. Sazişdə Avropa İttifaqı ilə İngiltərə arasında ticarət və iqtisadi qarşılıqlı fəaliyyətin qaydaları öz əksini tapdı və sərhəddən keçmə, gömrük vergisi məsələləri tənzimləndi. 2021-ci ilin mayın 1-də saziş qüvvəyə mindi. İngiltərənin nümayəndələri Avropa İttifaqının bütün idarələrini tərk etdi. İngiltərədə Avropa İttifaqının cəmi 47 nümayəndəsi qaldı.

İngiltərə daha Avropa İttifaqının büdcəsinə pul ödəməli deyildi və nəzarət edilməyən mühacirətin qarşısını almaq imkanı qazandı. Digər tərəfdən, ölkədə iqtisadi inkişaf zəiflətdi, Şərqi Avropadan İngiltərəyə gələn ucuz işçi qüvvəsi ixtisar edildi, ölkəyə idxal edilən məhsulların qiyməti artdı. Dünyanın maliyyə mərkəzlərindən biri kimi Londonun rolu zəiflədi. Şimali İrlandiya daha vahid gömrük məkanına daxil deyildi. Şimali İrlandiya və Şotlandiya əhalisinin əksəriyyəti Avropa İttifaqında qalmağa səs verdi.

İngiltərənin çıxmasından sonra Avropa İttifaqında AFR-in rolu artdı. Avropa İttifaqı mütləq büdcə xərclərini azaltmalı idi. İngiltərə Avropa İttifaqının büdcəsinə ən çox pul köçürən dörd böyük ölkədən biri idi. Avropa İttifaqının İngiltərədə yerləşən idarələri başqa ölkələrə köçürüldü. İngiltərənin çıxması ilə Avropa İttifaqı həmişə özü üçün imtiyazlar tələb edən və ABŞ-ın ən yaxın müttəfiqi olan bir bir ölkədən xilas oldu.

Şərqə doğru genişlənmə nəticəsində, o cümlədən 2007-ci ildə Rumıniya və Bolqarıstanın, 2013-cü ildə Xorvatiyanın qoşulmasından sonra Avropa İttifaqını bütcə xərcləri artmışdı. Yeni daxil olan ölkələr sosial-iqtisadi cəhətdən təşkilatın inkişaf etmiş ölkələrindən geri idi. Avropa İttifaqı yeni ölkələrin daxil olmasına razı idi və həmin ölkələrdə islahatları maliyyələşdirdi [5, s.211]. İspaniya, Portuqaliya, Yunanıstan kimi ölkələrə (əvvəl geridə qalmış sayılırdı) Avropa İttifaqından ayrılan vəsait azaldı. 10 ölkə Avropa İttifaqının büdcəsinə daha çox vəsait ödəyirdi. Qalan ölkələr Avropa İttifaqının büdcəsinə verdiyindən daha çox pul alırdı. Bu amil Avropa İttifaqının uzunmüddətli büdcəsinin müzakirə zamanı ciddi fikir ayrılıqlarına səbəb olurdu. 2021-2027-ci illər üçün Avropa İttifaqının büdcəsinin formalaşmasına brexit böyük təsir göstərdi. Digər ölkələr təşkilatın xahişinə baxmayaraq üzvlük haqqını artırmaq istəmirdilər. Bəzi ölkələr təşkilatdan xərcləri azaltmağı tələb edirdilər. Yeni daxil olan ölkələr regional və kənd təsərrüfatı siyasəti sayəsində vəsaitin əvvəlki həcmdə qalmasını istəyirdilər.

2019-cu ildə başlanan COVİD-19 pandemiyası Avropa İttifaqı üçün ciddi çətinliklər yaratdı. İtaliya və İspaniya Avropa İttifaqından daha çox yardım tələb edirdi. 2020-ci ilin mayında AFR və Fransa pandemiyadan daha çox əziyyət çəkən regionlar və sahələr üçün 500 milyard avro vəsaiti olan yardım fondu yaratmagı təklif etmişdi. Bu vəsaiti alan ölkələrin geri qaytarması məcburi deyildi.

2014-cü ildə Ukrayna böhranı kəskinləşdi və Avropa İttifaqı Rusiyaya qarşı çoxsaylı iqtisadi sanksiyalar tətbiq etdi. Rusiya ilə Avropa İttifaqı arasında münasibətlər pisləşdi [3, s.424]. D.Trampın prezident seçilməsindən sonra ABŞ həm də Avropa İttifaqı ölkələrinə qarşı himayədarlıq siyasətini gücləndirdi [9, s.183]. ABŞ bir tərəfdən beynəlxalq ticarət qaydalarına əməl etmir və Avropa İttifaqı ölkələrindən idxal edilən məhsullar üçün gömrüyü artırır, digər tərəfdən Aİ ölkələrindən müdafiə xərclərini artırmağı tələb edirdi. Çünki Avropa İttifaqı ölkələri ilə ticarəti genişlənmişdi.

***Nəticə***. Deyilənlər göstərir ki, XXI əsrin ikinci onilliyində beynəlxalq şərait Avropa İttifaqı üçün əlverişli deyildi. Eyni zamanda Avropa İttifaqı inteqrasiyaya təsir göstərən amilləri zəiflətmək, dünya siyasətində yerini və rolunu qoruyub saxlamaq üçün islahat siyasətini davam etdirir və dövrün çağırışlarına cavab vermək üçün səylərini əsirgəmirdi.

## ƏDƏBİYYAT

1. Baxışov M.Ə. Avropa və Amerika ölkələrinin müasir tarixi (Dünya müharibəsindən sonrakı dövr) Bakı, 2018, 334 s.
2. Современные международные отношения, 1991-2020 г. (под. редак. Б.Б.Мартынова). М., Издательство АСТ, 2021, 768 с.
3. Фененко А.В. Современная история международных отношений (1991-2018). М., Аспект Пресс, 2019, 456 с.
4. Европейская интеграция (под. ред. О.В.Буториной). М., Издательский Дом «Деловая литература», 2011, 720 с.
5. Достанко Е.А. Политика расширения Европейского Союза на Восток. Минск, Академия управления при Президенте Республики Беларусь, 2007, 238 с.
6. Европейский Союз в XXI веке: время испытаний (под. ред. О.Ю.Потемлиной). М., Весь мир, 2012, 652 с.
7. Чечурина М.Н. Международная интеграция и международные организации. Мурманск, Изд-во МГТУ, 2012, 269 с.
8. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, Az.TU, 2012, 408 s.
9. Baxışov M.Ə. Amerika ölkələrinin xarici siyasəti. Bakı, "Fuyuzat", 2023, 224 s.

**МАММЕДАГА БАХЫШОВ**
*Доцент Бакинского Государственного Университета*

## ЕВРОПЕЙСКИЙ СОЮЗ ВО ВТОРОМ ДЕСЯТИЛЕТИИ XXI ВЕКА: ПРОБЛЕМЫ ИНТЕГРАЦИИ

Статья посвящена работе Европейского Союза, одной из ведущих международных организаций мира в первой половине XXI века, особенно во втором десятилетии его существования, и развитию возглавляемой им Европейской интеграции. Одним из главных вопросов, освещенных в статье, являются основные проблемы, влияющие на Европейскую интеграцию в исследуемый период. Поэтому автор описывает работу Евросоюза, которая стремится решить упомянутые в статье проблемы и избавить европейскую интеграцию от их влияния.

*Ключевые слова*: международная организация, интеграция, Европейский Союз, долговой кризис, миграционный поток, сокращение бюджета.

**MAMEDAGA BAKHISHOV**
*Associate professor of Baku State University*

## THE EUROPEAN UNION IN THE 2ND DECADE OF THE XXI CENTURY: PROBLEMS OF INTEGRATION

The article is devoted to the work of the European Union, one of the leading international organizations in the world in the first half of the 21st century, especially in the second decade of its existence, and the development of European integration led by it during the study period. Therefore, the author describes the work of the European Union, which seeks to solve the problems mentioned in the article and rid European integration of their influence.

*Keywords:* international organization, integration, European Union, debt crisis, migration flow, budget reduction.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94(479.24)**

**MƏHARƏT OSMANLI**
*tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**meharetosmanlı77@gmail.com**

# AZƏRBAYCAN XALQININ XİLASKARI

*Tarixdə hər zaman görkəmli elm xadimləri, müdrik və təcrübəli elm xadimləri, müdrik və təcrübəli liderlər, bacarıqlı və qətiyyətli dövlət rəhbərləri, bəşəriyyət öz xalqının maraqlarını hər şeydən uca tutan, öz həyatını bütünlüklə xalqının rifahına bağlayan dahi şəxsiyyətlər yetişdirmişdir. Bu şəxsiyyətlər xalqın, millətin rifahı, firavanlığı üçün mayak rolunu oynamışlar. Ömrünü xalqının işıqlı gələcəyinə həsr edən ulu öndərimiz Heydər Əliyev məhz belə liderlərdəndir: Azərbaycan xalqının xilaskarı, Azərbaycanın ərazi bütövlüyünün və parlaq gələcəyinin təminatçısı.*

*Açar sözlər:* Azərbaycan, Dağlıq Qarabağ, Ulu öndər Heydər Əliyev, İlham Əliyev, xalq.

***Giriş.*** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş, böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Heydər Əliyevin zəngin idarəçilik irsi Azərbaycan xalqının milli sərvətidir. Azərbaycanın çoxəsirlik tarixinə nəzər saldıqda bir daha şahid oluruq ki, ölkəmizin və xalqımızın tarixində hələ Heydər Əliyev kimi xidmətləri olan ikinci bir şəxsiyyət olmayıb.

***

1969-1982-ci illərdə Azərbaycanın inkişafı naminə gördüyü işlərdən yazsaq Ulu Öndər Heydər Əliyevin fəaliyyəti cild-cild kitablara sığan deyil.

Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişi ilə keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat tamamilə dəyişdi.

Ölkəmizdə tikinti-quruculuq, abadlıq işləri görünməmiş vüsət aldı. Yeni sənaye obyektlərinin, zavod və fabriklərin tikintisinə başlandı.

Ana dilimizin qorunub saxlanılmasında, konsititusiyada dövlət dili kimi təsbit olunmasında, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, mədəni-maarif, səhiyyə sahələrinin əsaslı şəkildə qurulmasında respublikanın demoqrafik inkişafında, milli hərbçi kadrların hazırlanması və hərbi vətənpərvərlik tərbiyəsinin inkişafı Heydər Əliyevin xalq, Vətən qarşısında ən böyük tarixi xidmətlərindəndir. O illərdə Azərbaycanda cəmiyyət həyatının elə bir sahəsi yox idi ki, sürətli irəliləyiş qeydə alınmasın. 1970-1980-cı illərdə Azərbaycanın ali məktəblərində 100-dən artıq yeni kafedra, 40-dan çox yeni fakültələr açılmış, 100-ə qədər yeni ixtisas üzrə ali təhsilli mütəxəsislərin hazırlanmasına başlanılmışdır. Həmin illərdə respublikamızda 6 yeni ali məktəb açılmışdı. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyat İnstitutu, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, Stepanakert (indiki Xankəndi) Dövlət Pedaqoji İnstitutu, 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Azərbaycan Texnologiya İnstitutu, 1982-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutu kimi ali məktəblər Ulu Öndərin ölkəmizə birinci dəfə rəhbərlik etdiyi dövrdə xalqın təhsilinə və elminə göstərdiyi xidmətin təzahürü idi [4, 28]. Heydər Əliyev kəndli balalarının, qızların ali məktəblərdə təhsil almasına xüsusi önəm verirdi. O, ali təhsilin hamı üçün əlçatan olması üçün mümkün olan bütün imkanlardan istifadə edirdi.

Sonralar dahi şəxsiyyətin SSRİ kimi nəhəng dövlətdə məsul vəzifə tutması qürurverici hadisə idi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrildi. Lakin M.S.Qorbaçovun siyasi hakimiyyətə gəlişi, onun Heydər Əliyevə qarşı həsəd paxıllıq, qısqanclıq hissləri Ulu Öndərin hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi.

1988-ci ildən başlayaraq azərbaycanlıların öz dədə-baba yurdlarından qovulması, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları irəli sürmələri Heydər Əliyevin böyük nifrətinə səbəb olurdu. Dağlıq Qarabağın Ermənistana verilməsinə mane olduğu üçün ermənilər Heydər Əliyevə qarşı mübarizə aparırdılar. Bütün bunlara baxmayaraq, dahi rəhbər ermənilərin Azəbaycana qarşı məkrli siyasətinin həyata keçirilməsinə imkan vermədi [7, 96-97].

Heydər Əliyev Moskvada olarkən Azərbaycanın tarixində ağrılı-acılı çox hadisələr baş verdi.

Azərbaycan xalqının Qarabağ uğrunda mübarizəsi geniş vüsət alırdı. Xalqın səbr kasası daşırdı. Vətən və azadlıq uğrunda mübarizə bütün xalqın birləşdirmişdi. Sovet imperiyasının başçıları SSRİ-nin dağılmasının qarşısını almaq azadlığı tələb edən xalqımızı qorxutmaq istəyidi. Ona görə bütün ölkədə azadlıq hərəkatının ən güclü mərkəzi olan Bakını 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakını qan gölünə çevirdilər. Hadisədən bir gün sonra Ulu Öndərin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək sovet imperiyasının törətdiyi qanlı faciəni ifşa etməsi, o vaxtkı çətin dövrdə xalqının yanında olmasının,imperiyanın siyasətinə qarşı çıxmasının əyani sübutu idi. Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtdı [2, 74].

Həmin dövrdə xalq anlayırdı ki, ölkəni xaosdan ağır sosial-iqtisadi vəziyyətdən, hərc-mərclik-dən, separatizmdən yalnız Heydər Əliyev qurtara bilər. Təbii ki, ölkənin düşdüyü xaotik vəziyyətdən çıxarılmasında ulu öndər Əliyevin şəxsi keyfiyyətləri idarəçilik bacarığı ilə yanaşı, yenicə yaradılmış Yeni Azərbaycan Partiyası da əhəmiyyətli rol oynadı. Əlavə olaraq bildirim ki, 1992-ci il oktyabr ayının 16-da 91 nəfər ziyalı Heydər Əliyevə YAP-ın yaradılması ilə bağlı müraciət etdi.

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfrasında Yeni Azərbaycan Partiyası təsis edildi və ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. Heydər Əliyev Azərbaycanın ən ağır günündə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtdı. Həmin dövrdə xalq anlayırdı ki, ölkəni xaosdan, ağır sosial-iqtisadi vəziyyətdən hərc-mərclikdən separatizmdən yalnız Heydər Əliyev qurtara bilər.

1993-cü ilin iyun ayında Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bu dövrdən başlayaraq, həyata keçirilən xarici siyasətimiz məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən prezident Heydər Əliyevin xarici siyasət xəttində ilk növbədə bir sıra mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya məqsəd qoyuldu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yazmaqdan ibarət idi [4, 112].

Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibənin dayandırılması və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından "Atəşkəs" rejiminə nail olundu.

Ulu Öndərin qayıdışı ilə siyasi hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoyuldu. Azərbaycanda yeni tarixi mərhələ - Dövlət müstəqilliyinin möhkəmləndirilməsi dövrü başladı. Ulu Öndər yazırdı:

"Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsinin imzalanması ilə Heydər Əliyev Azərbaycan iqtisadiyyatında yeni bir səhifə açmaqla bərabər, ölkəmizin təbii ehtiyatlarından istifadə edilməsi uğrunda iri dövlətlərin rəqabətinin ölkəmizin təhlükəsizliyinə vura biləcəyi zərbələri dəf etdi. Bundan başqa Heydər Əliyevin şah əsərlərindən biri olan bu müqavilə bu gün, sabah hər zaman Azərbaycan diplomatiyasının daha keçərli olmasına xidmət edir və edəcəkdir. İqtisadi inkişaf Heydər Əliyev strategiyasının ən mühüm prinsiplərindən biri idi. Çünki iqtisadi güc Azərbaycanı regionda şəriksiz lider dövlətə çevirməklə yanaşı həm də güclü ordu demək idi. Bəli, illər öncə Heydər Əliyevin bu uğurlu siyasəti bu gün öz bəhrəsini verməkdədir.

Heydər Əliyev öz uzaqgörən siyasəti addım – addım Avropaya pəncərə açdı.

Azərbaycanın haqq sözünü deyənlərin sayı artdı. Lissabon samiti (1996) məhz bu haqq və ədalətin təntənəsi idi. Burada 52 dövlət Azərbaycanı müdafiə etdi [3, 68].

Heydər Əliyev bilavasitə rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin noyabrında ümum xalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişafı istiqamətlərini müəyyənləşdirməklə bərabər ,insan hüquq və azadlıqlarını təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Bütün varlığı ilə Vətənə və xalqa qəlbən bağlı olan müdrik şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini

Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir.

Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda elə bir sahə qalmadı ki, Ulu Öndər həmin sahəyə diqqət yetirməsin."Gənclər siyasəti", Təhsil Qanunu", yüzlərcə belə layihələr Heydər Əliyevin misilsiz xidmətlərindəndir [6, 128].

Haqlı olaraq Heydər Əliyev müstəqil Azərbaycanın memarı, müstəqil Azərbaycanı isə Ulu Öndərin"şah əsəri" adlandırırlar [2, 39].

Bu gün Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev rəhbərlik edir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Həyat göstərdi ki, İlham Əliyev ümummilli lider Heydər Əliyevdən aldığı təlimi gerçəkləşdirməkdə də hamıdan fərqlənir. Böyük sürətlə yenilənən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr – Bakı-Tiflis-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars-Naxçıvan dəmiryolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

Azərbaycanın öz torpaqlarının işğaldan azad etmək üçün apardığı 44 günlük Vətən müharibəsi və bu müqəddəs savaşda qazandığı möhtəşəm qələbə ölkəmizin tarixinə qızıl hərflərlə yazıldı.

Bu möhtəşəm zəfər 44 gün boyunca "Dəmir yumruq" kimi birləşmiş bütün Azərbaycanın zəfəridir. Lakin burada başqa bir inkaredilməz və mübahisəsiz faktor da var. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev faktoru. Müharibə dövrünün ən böyük, ən ağır yükü ordumuzla bərabər prezidentin çiyinlərində idi.

"Dəmir yumruq" sahibi olan dövlət başçımız "dəmir məntiqi" ilə döyüşürdü. O, böyük intellektin sarsılmaz iradənin, güclü qətiyyətin tələb olunduğu hər yerdə idi: diplomatiya cəbhəsində döyüşürdü; siyasət meydanında döyüşürdü; informasiya müharibəsində ən ön cərgədə idi.

Nəhayət, "Dəmir yumruq" əməliyyatı Azərbaycanın qələbəsi ilə başa çatdı.

Hazırda işğaldan azad olunmuş Qarabağımızda yenidənqurma işləri gedir. Tezliklə "köçkün" soydaşlarımız öz yurd-yuvalarına qayıdacaqlar.

***Nəticə.*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 sentyabr 2022-ci il tarixli sərancamı ilə 2023-cü il "Heydər Əliyev ili" [1] elan olunmuşdur.

İllər keçəcək, nəsillər dəyişəcək, gələcək nəsillər Azərbaycan xalqının qeyrətli oğlu Heydər Əliyevi daim hörmətlə xatırlayacaqlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://www.google.com/url? [25.05.2023].
2. Abdullayev V.İ. Heydər Əliyev - milli-siyasi elitamızın zirvəsi. Bakı: Təhsil, 2019, 408 s.
3. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı, Elm və təhsil, 2019, 456 s.
4. Heydər Əliyev. Biblioqrafik məlumat. Bakı: Bakı Universiteti nəşr., 2003, 434 s.
5. Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq: II kitab. Bakı: Elm və Təhsil, 448 s.
6. Sərdarov M.Ə. Mahir siyasətçi, müdrik rəhbər: məqalələr və xatirələr. Bakı, Afpoliqraf, 2020, 222 s.
7. Paşayev Q. Xilaskarlar. Bakı, Təhsil, 2021, 136 s.

**МЕХАРЕТ ОСМАНЛЫ**
*Доктор философии по истории, доцент*
*Бакинский Государственный Университет*

## СПАСИТЕЛЬ НАРОДА АЗЕРБАЙДЖАНА

На протяжении всей истории человечество всегда рождало выдающихся ученых, мудрых и опытных ученых, мудрых и опытных руководителей, способных и решительных глав государств, гениев, превыше всего ставящих интересы своего народа и полностью связывающих свою жизнь с благополучием народа. их люди. Эти личности играли роль маяка благополучия

и процветания народа и нации. Наш великий лидер Гейдар Алиев, посвятивший свою жизнь светлому будущему своего народа, является одним из таких лидеров: спасителем азербайджанского народа, гарантом территориальной целостности и светлого будущего Азербайджана.

*Ключевые слова*: Азербайджан, общенациональный лидер Гейдар Алиев, Ильхам Алиев, народ.

**MEHARET OSMANLI**
*Phd. On history, asossiated professor*
*Baku State Universtity*

## SAVIOR OF THE PEOPLE OF AZERBAIJAN

Throughout history, humanity has always given birth to outstanding scientists, wise and experienced scientists, wise and experienced leaders, capable and decisive heads of state, geniuses who put the interests of their people above all else and fully connect their lives with the well-being of the people. their people. These personalities played the role of a beacon of well-being and prosperity of the people and nation. Our great leader Heydar Aliyev, who dedicated his life to the bright future of his people, is one of such leaders: the savior of the Azerbaijani people, the guarantor of the territorial integrity and bright future of Azerbaijan.

*Keywords*: Azerbaijan, national leader Heydar Aliyev, Ilham Aliyev, people.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 may 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 32:93/94**

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrasının dosent əvəzi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
**Ekonika22@yahoo.com**

# XX ƏSRİN 90-CI İLLƏRİNDƏ ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNİN ZƏİFLƏMƏSİ NƏTİCƏSİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

*Məqalədə soyuq müharibə bitdikdən sonra XX əsrin sonlarına yaxın ABŞ-ÇXR ikitərəfli münasibətlərinin kəskinləşməsi və zəifləməsi fonunda baş verən dəyişikliklər haqqında məlumat verilir. Buna səbəblər kimi SSRİ-nin süqut etməsi, qlobal təhdidlərin artması, avropa siyasətində baş verən dəyişikliklər və müasir dünya siyasətində çoxqütblü sistem uğrunda mübarizə göstərilmişdir ki, bütün bunlar hərtərəfli şəkildə tədqiq olunmuşdur.*

*Açar sözlər*: ABŞ, ÇXR, XX əsr, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı (APEC), Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, soyuq müharibə, ikitərəfli münasibətlər, qloballaşma, çoxqütblü sistem.

***Giriş.*** XX əsrin sonlarına yaxın soyuq müharibənin bitməsi ilə ABŞ-ÇXR münasibətlərində ciddi dəyişikliklər meydana gəlmişdi. Əlaqələrin müasir dövrünü təhlil edərkən onu iki mərhələyə bölmək olar: Tiananmen hadisələrindən 11 sentyabr terror hücumlarına qədər olan əlaqələrin zəifləmə dövrü (1989-2001); 2001-ci ildən sonrakı yaxınlaşma və əlaqələrin bərpası dövrü. Tiananmen hadisələri dünya gündəminə düşdükdən sonra insan haqlarının ciddi pozulması Çinin dünyadakı nüfuzuna xələl gətirdi. Xüsusilə ABŞ-la əlaqələr əvvəlki tempini itirməyə başladı, lakin tamamilə qırılmadı. Bunun əsas səbəbi iki ölkə arasında iqtisadi və ticarət münasibətlərinin qarşılıqlı xarakter daşıması idi.

1989-cu ildə 21 ölkənin iştirakı ilə Asiya-Sakit azad ticarət zonasının yaradılması məqsədilə Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı (APEC) təsis edildi. Təşkilata üzv dövlətlərin iqtisadiyyatları dünya iqtisadiyyatının yarıdan çoxunu təşkil edirdi. Təşkilatın ilk görüşü Avstraliyada baş tutdu, ancaq Çin məlum hadisələrə görə dəvət olunmadı. 1991-ci ildə Cənubi Koreyada keçirilən ikinci görüşdə isə Çin dəvət edilmişdi. Həmçinin Honq Konq və Tayvan da iqtisadi birlik statusu verilərək burada iştirak edirdi. Çinin 1991-ci ildə APEC-ə üzv olması və eyni ildə "Nüvə silahlarının yayılmaması haqqında müqavilə"ni (NSYHM) imzalaması ABŞ və Çinin nisbətən yaxınlaşmasında rol oynadı [1, s.129]. 1993-cü ildə APEC-in növbəti görüşü ABŞ-da keçirildi və heyətlər arasında yaxın təmas müşahidə olundu. Çin prezidenti Tsyan Tsemin və ABŞ prezidenti Bil Klinton bir araya gəldi. Buna baxmayaraq, münasibətlər əvvəlki intensivliyinə qayıtmamışdı. Münasibətlərdə zəifləmənin digər səbəblərindən biri də SSRİ-nin süqut etməsi ilə qlobal təhdidin aradan qalxması, başqa sözlə desək, Çinlə strateji əməkdaşlığın əhəmiyyətinin azalması idi. 1990-cı illərin əvvəlində münasibətlərin normallaşmağa doğru getdiyi güman olunsa da, 1995-ci ildə Tayvan lideri Li Tenq Huinin ABŞ-a səfər etməsi ilə münasibətlər yenidən kəskinləşdi [1, s.130]. Çin bu addıma sərt cavab verərək Vaşinqtondakı səfirini geri çağırdı, ABŞ və Tayvan rəsmiləri ilə baş tutacaq yüksək səviyyəli görüşləri təxirə saldı, Tayvanın şimal sahillərində donanmasını gücləndirdi. Gərginlik davam etdiyi müddətdə APEC görüşləri yenidən uzlaşmaq üçün əlverişli vasitə kimi görünürdü və belə bir görüş prezident T.Tseminin ABŞ-a səfər etməsi ilə baş tutmuşdur. Təxirə salınan bir çox məsələlər yenidən gündəmə qazandırılmış və müzakirələrə yenidən start verilmişdi. 1997-ci ilin oktyabrında hər iki dövlət başçısı birgə çıxış edərək "Çin-ABŞ birgə bəyannaməsi"ni elan etmişdilər [2, s.3]. Bəyannamə qurucu strateji əməkdaşlığın vacibliyini əks etdirirdi. 1998-ci ildə B.Klinton Çinə səfər etdi və eyni zamanda Tayvan məsələsi ilə bağlı ABŞ hökumətinin bəzi güzəştlərə gedəcəyini bildirdi. Tarixdə "üç yox siyasəti" (three no's policy) kimi yadda qalan razılaşmaya əsasən ABŞ heç vaxt bu üç variantı dəstəkləməməli idi: Tayvanın müstəqilliyini tanımaq; "iki Çin" və ya "bir Çin-bir Tayvan" siyasətini qəbul etmək; Tayvanın beynəlxalq təşkilatlara üzvlüyünü dəstəkləmək [1, s.131]. 1999-cu ildə əlaqələr

yaxınlaşma fazasında ikən ABŞ-ın Kosovaya müdaxiləsi və nüvə qalmaqalları yaxınlaşma prosesinə yenidən kölgə saldı. Xüsusilə, ABŞ-ın Yuqoslaviyadakı Çin konsulluğunu bombalaması anti-amerikan əhval-ruhiyyəni daha da artırdı. NATO qüvvələrinin BMT-nin razılığı olmadan və Rusiya ilə Çinin görüşlərinə məhəl qoymadan öz məkanına məxsus olmayan Kosovaya müdaxiləsi təhdid kimi qiymətləndirildi. Çünki Rusiya və Çin də Yuqoslaviyada olduğu kimi etnik cəhətdən qarışıq və çoxmillətli idi. Belə bir üsyan hərəkatının domino effekti yaratma qorxusu müdaxiləni Çin və Rusiya üçün təhdid mənbəyinə çevirirdi. Konsulluğun bombalanması isə Çində etirazlara və sərt reaksiyalara səbəb oldu. Bombanlama zamanı üç nəfər öldü, iyirmidən çox adam yaralandı. Prezident Klinton baş verənlərin böyük xəta olduğunu və belə bir hadisənin gerçəkləşdiyi üçün məyus olduğunu diqqətə çatdırdı. Həmin vaxtda Çindəki ABŞ səfirliyinin qarşısında etiraz aksiyaları keçirilirdi. Çin hökuməti hadisələri qınamış və sərt reaksiya göstərmiş olsa da, iqtisadi əlaqələri ön plana qoyaraq əməkdaşlığa zərər vuracaq addımlar atmaqdan imtina etdi. Hadisələrin yaşandığı tarix Tiananmen hadisələrinin onuncu ildönümünə müvafiq gəlirdi və Çin ildönümün xatırlanmaması üçün bu vəziyyətdən istifadə etməyə çalışırdı [3, s.36].

İqtisadi sahədə aparılan islahatlar Çinin həyat tərzinə də öz təsirini göstərir, insanlar modernləşmə dövrünə uyğunlaşmağa çalışırdılar. Onların bir qismi ölkədə demokratiyanın olmamasından şikayətlənir, bir qismi isə dünyaya açılmaqdan narahatlıq duyurdu. 1989-cu il hadisələrindən əvvəl də kiçik miqyaslı küçə etirazları və nümayişlər olmuşdu. Xalqın narazılığı və digər problemlər birləşərək Tiananmen hadisələrini ortaya çıxardı. Onun əsas səbəbləri kimi bunları göstərmək olar: insan haqlarının bərpası və demokratiya tələbləri; 1978-ci ildən tətbiq olunan sosial-iqtisadi islahatlar və yeni dövrə uyğunlaşma problemləri; kommunizmin süqutunun sürətləndiyi dövrdə sistemə qarşı ayaqlanmanı şərtləndirən təbii amillər. ABŞ Tiananmen hadisələri ilə əlaqədar Çinə silah embarqosu tətbiq etdi. Bu embarqoya bir neçə dövlət də qoşuldu. Onun Çin üçün mənfi təsirləri olduğu kimi, müsbət tərəfləri də var idi. Belə ki, o, müdafiə sənayesini öz imkanları hesabına, daxili istehsalını artırmaqla inkişaf etdirdi. Soyuq müharibənin bitməsi qərb dünyası ilə əlaqələrdə problemlərə yol açsa da, Sovet Rusiyasının parçalanması ilə Çinin sərhəd münaqişələri öz həllini tapmağa başladı. O, keçmiş Sovet respublikaları ilə Şanxay Əməkdaşlığı ətrafında birləşərək həm sərhəd məsələlərini həll etməyə çalışır, həm də regionda yeni qüvvələr balansı yaradaraq təhdidləri aradan qaldırırdı. ABŞ-la əlaqələrin pisləşdiyi dövrdə ənənəvi münaqişələrdə yenə onunla üz-üzə gəlir, Tayvan, demokratiya, öz müqəddəratını təyinetmə hüququ, daxili məsələlərə müdaxilə ilə bağlı problemlər yaşayırdı. 1990-cı illərin sonunda Honq Konq və Makaonun statusu ilə bağlı məsələ öz həllini tapmışdır. Müvafiq olaraq İngiltərənin və Portuqaliyanın müstəmləkəsi olan bu bölgələrin icarə müddətləri bitdikdən sonra Çinə geri verilmiş, ancaq muxtar özünüidarəetmə statusları saxlanılmışdır. Qərb ilə əlaqələr durğunluq mərhələsində ikən Çin region dövlətləri ilə yaxınlaşmağa önəm verməyə başladı. Qeyd oldunduğu kimi, o, Sovet Rusiyasının dağılmasından sonra sərhəd münaqişələrini həll etmək üçün müstəqil respublikalarla danışıqlara başladı. 1992-ci ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan regional təhlükəsizlik və sərhəd münaqişələri kimi məsələləri müzakirə etmək üçün bir araya gəldilər. 1996-cı ildə həmin dövlətlərin imzaladığı Şanxay paktı enerji və təhlükəsizlik sahələrində əməkdaşlığın əsasını qoydu. 1990-cı illərdən Çinin enerji tələbatı artmağa başlamışdı, nəticədə o, enerji nəqlini həyata keçirmək üçün təhlükəsiz yollar axtarırdı. Bu, enerji təhlükəsizliyinin təmin edilməsində atılan ilk addımlardan biri idi. ABŞ-la əlaqələr Tayvan böhranına (1995) görə daha da pisləşdi, eyni zamanda Çin qonşu ölkələrlə yaxınlaşaraq əməkdaşlıq qurmağa çalışırdı. Şanxay müqaviləsinin imzalanması ilə onu imzalayan tərəflər sərhəd zonalarından ordularını geri çəkir və qarşılıqlı təhdid aradan qalxırdı. Bundan əlavə, Şanxay Əməkdaşlığı regionda terrorizm, separatçılıq, qeyri-qanuni işlərin qarşısının alınmasında əsas rol oynamağa başladı [1, s.131].

Çinin iqtisadi təşəbbüsləri onu Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə əməkdaşlığın miqyasını artırmağa yönəltmiş, Tariflər və Ticarət üzrə Baş Sazişə (GATT) qoşulmaq üçün səylərini artırmışdır. Soyuq müharibə dövründə başlayan ABŞ-Çin ticarət əlaqələri daima artan istiqamətdə inkişaf etmişdir. Hətta bunu əlaqələrin durğunluq yaşadığı 1990-cı illər üçün də demək olar. Çinin beynəlxalq ticarətdə fəal rol oynaması ABŞ-ın Çin bazarından asılılığını sürətləndirmişdi. 1985-ci ildə ölkələrin ixracat-idxalat nisbətləri yaxın olsa da, 1990-cı illərdə ticarət əlaqələrinin genişlənməsi daha çox Çinin leyhinə çevrilmişdi. Bu nisbətdə geriyə getmək ABŞ üçün çətin görünürdü və o, getdikcə

Çindən asılı vəziyyətə düşürdü. Artan xarici ticarət kəsirləri də bir tərəfdən ABŞ iqtisadiyyatına mənfi təsir göstərirdi. 1980-90-cı illərdə bu kəsir fərqi 95 mlrd. dollar artaraq dörd dəfə çoxalmış, 1999-cu ildə isə 310 mlrd. dollara çatmışdı. Həmin dövr üçün Çində bu rəqəmlər daha kiçik olmuşdur. Belə ki, 1980-1990-cı illərdə kəsirin miqdarı 2 mlrd. dollardan 9 mlrd. dollara qalxmışdır. 1999-cu ilə görə bu rəqəm təqribən 20 mlrd. dollara bərabərdir. Bu onu göstərir ki, Çin ABŞ-ın ən önəmli ticarət ortaqlarından biridir, hətta, birincisidir və onun Çindən iqtisadi asılılığı durmadan artır [4, s.55-61].

1980-ci illərdən etibarən Çinin daxili həyatında ciddi dəyişikliklər baş verdi. Sosial-iqtisadi islahatlar nəticəsində kənd təsərrüfatı və sənayenin inkişafında inqilabi yeniliklər meydana gəldi. 1985-90-cı illər iqtisadi inkişafın getdikcə özünü büruzə verdiyi dövr idi. Soyuq müharibə erası başa çatdığı dövrdə Çin iqtisadiyyatı çiçəklənmə mərhələsini yaşayırdı. İqtisadiyyatın inkişafına ABŞ-Çin əlaqələrinin təsiri inkaredilməz idi. 1980-ci illərin sonuna yaxın Sovet Rusiyasının tamamilə zəifləməsi isə ABŞ-ın nöqteyi-nəzərindən Çinin əhəmiyyətini azaldırdı. Tiananmen hadisələrinin də baş verməsi ilə əlaqələr qopma nöqtəsinə gəldi. ABŞ-Çin əlaqələrində 1990-2000-ci illər incələndikdə əlaqələrdəki əvvəlki intensivlik müşahidə edilmir, ara-sıra kiçik yaxınlaşmaların baş verməsi, lakin bu yaxınlığın çox da irəli getmədiyi nəzərə çarpırdı. Xüsusilə, çoxtərəfli əməkdaşlıq yolları ilə münasibətləri düzəltməyə çalışan Çin ABŞ-ın diqqətindən kənarda qalırdı. Siyasi müstəvidə əlaqələr minimuma ensə də, iqtisadi əlaqələrdə geriləmə müşahidə olunmamışdır. Bunun arxasında qarşılıqlı iqtisadi maraqlar, xüsusilə, ticarət əlaqələrini əngəlləyəcək maneələrin olmaması üçün göstərilən səylər dururdu. 1995-2000-ci illər arası Çinin illik iqtisadi artımında düşmə müşahidə olundu. Əsrin sonunda iqtisadi artım 8%-ə doğru geriləndi. Bunun səbəbləri, əsasən, Çinin daxili iqtisadi problemləri, sənaye və texnologiya sahəsində çatışmazlıqların olması ilə əlaqədar idi. On ildən çox davam edən durğunluq dövrü yeni əsrdə əlaqələrin yaxınlaşması və bərpa olması ilə sona çatdı. Çin iqtisadi inkişafda yüksəlişə keçərkən ABŞ-da terror hücumlarının baş verməsi ilə beynəlxalq münasibətlər yeni mərhələyə girdi. Beynəlxalq terrorizmlə mübarizə və ortaq strateji maraqların olması ABŞ-Çin yaxınlaşmasında təkanverici rol oynadı.

XX əsrin 80-90-cı illərində siyasi proseslərlə bağlı Sovet İttifaqının süquta uğraması və "soyuq müharibə"nin sona çatması ilə əlaqədar formalaşan dünya geosiyasi vəziyyətində dəyişikliklər beynəlxalq arenada qüvvələrin yerləşdirilməsində radikal dəyişikliklərə səbəb olmuşdur. Formalaşan yeni dünya nizamında əsas rol ABŞ-a məxsusdur [5, s.541].

1980-90-cı illər ərzində beynəlxalq arenada qüvvələr nisbətinin qəfil dəyişməsi Çinin xarici siyasətində bir sıra düzəlişlər olunmasına səbəb oldu. 80-ci illərin sonunda praktiki olaraq sovet-amerikan və sovet-çin münasibətlərində əsas ziddiyyətlərin güclənməsi və eyni zamanda Çin-Amerika münasibətlərinin qeyri-konfliktliliyi "böyük üçbucaq" geosiyasi strukturu yoxa çıxmışdır. Tyanmendə olan hadisələr Çinin ABŞ və digər Avropa dövlətləri ilə münasibətlərinin pisləşməsinə, eyni zamanda, SSRİ-də koordinal dəyişikliklərə gətirib çıxarması Çin rəhbərlərini ABŞ-ın beynəlxalq aləmdə həddindən artıq hegemonluğuna qarşı vasitə kimi "üçtərəfli münasibətlər"in yaradılması məsələsinə baxmağa vadar etdi. Dünyanın ikiqütblü sistemdən ABŞ-ın müəyyənedici rol oynadığı birqütblü dünya nizamına çevrilməsi, Rusiyanın dünya siyasətinin bütün istiqamətlərində ABŞ ilə qarşıdurması Koreyanı ABŞ üçün ideoloji cəhətdən qəbuledilməz olan milli inkişaf modelini irəli sürməyə vadar etmişdir [5, s.542].

Beynəlxalq şəraitin sərt reallığı ilə üzləşən Çin öz siyasətini vaxtında korrektə etmiş və iri dövlətlərlə münasibətlərə xüsusi diqqət yetirərək, qonşu dövlətlərlə xoş qonşuluq və dostluq münasibətlərini möhkəmləndirib müstəqil və sərbəst xarici siyasət yürütməyə başladı. Bu siyasət 5 əsas prinsipə əsaslanırdı: suverenlik və ərazi bötövlüyünə qarşılıqlı hörmət, qarşılıqlı hücum etməmək, bir-birinin daxili işlərinə qarışmamaq, bərabərlik və qarşılıqlı mənfəət, sülh şəraitində yaşamaq [5, s.543].

Xarici siyasət doktrinasının yeni və köhnə yanaşmaları arasında uyğunluq öz əksini ÇXR-in XVI qurultayında tapmışdır. Pekin bir tərəfdən, xarici vəziyyəti Çin islahatlarının həyata keçirilməsi üçün əlverişli kimi xarakterizə edərək beynəlxalq münasibətlərə daxil olmaq və bunun əsasında dünyanın güc mərkəzləri ilə əməkdaşlığa hazır olduğunu qeyd etmişdir. Digər tərəfdən, kökü Çinin beynəlxalq hegemonluğa qarşı mübarizədə inkişaf etməkdə olan dövlətlərin lideri rolunda çıxış etməyə cəhd göstərdiyi yaxın keçmişə söykənən tezislər səslənmişdir. Qurultay müasir beynəlxalq siyasi və iqtisadi nizamı "ədalətsiz" və "kökündən dəyişməmiş" kimi xarakterizə etdi.

Çinin xarici siyasətinin möhkəmləndirilməsində 2001-ci il 11 sentyabr hadisələri mühüm rol oynadı. ABŞ əleyhinə ilk Çin reaksiyası gözlənilən idi: Çin öz ərazisində terrorizmlə mübarizə aparacaq. Amma sonra Pekin anladı ki, ABŞ-ı müdafiə etməklə çox şey uda bilər. Nəticədə ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatlarına siyasi dəstək göstərmiş, bunun əvəzində Çinin şimal-qərb rayonlarının stabilliyinə hədə törədən Şərqi Türküstanın azad edilməsi cəbhəsi təşkilatının terrorist qruplar siyahısınaa daxil edilməsinə nail olmağa çalışmışdır.

Çinə müasir dünya arxitekturasının formalaşdırılmasında əsas rol oynamağa iddialı olan dövlət kimi yanaşaraq, "Çinin öz sərhədlərindən kənara çıxmaq" strategiyasının dörd əsas vektorunu ayırmaq olar.

Birincisi, bu, nüvə hərbi potensialının artırılması, silahların yeni formalarının yaradılması, kosmosun mənimsənilməsi proqramının sərbəst inkişafı, müasir dünyəvi elmi-texniki parametrlərə çıxış vasitəsilə ABŞ-ın "strateji qüvvə"si və "aqressivlik potensialı"nın qarşısının alınmasıdır;

İkincisi, Çinin artıq üzvü olmadığı təşkilatlarda (BMT) beynəlxalq institutlarda fəaliyyətinin aktivləşdirilməsi və mühüm dünya strukturları olan "Böyük yeddilər-səkkizlər", NATO, həmçinin, Avropa İttifaqı ilə dialoqların genişləndirilməsi;

Üçüncüsü, regional istiqamətlərdə: Şimal-Şərqi Asiya, Mərkəzi Asiya, Cənub-Şərqi Asiya, Afrika və Latın Amerikası istiqamətlərində aktivliyin artırılması;

Dördüncüsü, qonşularla sülh və mehriban qonşu münasibətlərinin formalaşması, problemlərin əvvəlki üsullarla həlli, problemin həllinin nəzərdə tutulmadığı hallarda onun sonraya saxlanılmasını nəzərdə tutan əvvəlki rəhbərlik siyasətinin davam etdirilməsi.

***Nəticə.*** Son bir neçə il ərzində ABŞ və ÇXR arasında bir sıra məsələlərdə gərginliyin şahidi olmaqdayıq. İkitərəfli münasibətlər xüsusilə, yarım əsr ərzində ziqzaqvari inkişaf etsə də, son 20 ilin nəticələrinə baxsaq, Çinin iqtisadi yüksəlişi ilə əlaqədar olaraq daha da kəskinləşmişdir. Ancaq iqtisadi problemlərlə yanaşı, demokratiya, insan haqları, Tayvan məsələsi, Cənubi Çin dənizində yerləşən mübahisəli adalar akvatoriyası və s. məsələlər münasibətlərə xələl gətirən əsas amillərdəndir. Qeyd edək ki, ABŞ Prezidenti Co Bayden və Çinin dövlət başçısı Si Cinpin arasında mütamadi olaraq bu və ya digər məsələlər ilə əlaqədar gərginliyi aradan qaldırmaq məqsədilə telefon söhbətləri aparılır ki, bu da həm ikitərəfli münasibətlərinin inkişafına, həm də dünya düzəninin təhlükəsiz və sabit qalmasına şərait yaradır.

## ƏDƏBİYYAT

1. Pekcan C.R. Çinin uluslararası sisteme bakışı ve ABD'ye yönelik dış politikası. İstanbul: Çanakkale, 2015, 236 s.
2. Wanli Y.G. Breaking the Cycle: Sino-US Relations under George W. Bush Administration. Washington: Phoenix, 2009, 81 p.
3. Fewsmith J.R. The Impact of the Kosovo Conflict on China's Political Leaders and Prospects for WTO Accession // Wall Street J. New York: Hudson, 2001, 42-45 p.
4. Rüzgar S.A. Askeri, ekonomik ve siyasal boyutlarıyla Çin-ABD ilişkilerinin dönüşümü. Kayseri: Altınlar, 2017, 107 s.
5. Abbasbəyli A.N. Dünya siyasəti. Bakı, Nurlar nəşriyyatı, 2011, 584 s.

**ХАЙЯМ ИСМАИЛЗАДЕ**
*Бакинский Государственный Университет,*
*Кафедра международных отношений,*
*Доктор философских наук, и.о. доцента*

## ИЗМЕНЕНИЯ, ПРОИЗОШЕДШИЕ В РЕЗУЛЬТАТЕ ОСЛАБЛЕНИЯ АМЕРИКАНО-КИТАЙСКИХ ОТНОШЕНИЙ В 1990-Е Г.

В статье предоставлена информация об изменениях, произошедших после окончания «холодной войны» в конце XX века на фоне обострения и ослабления двусторонних отношений США и КНР. В качестве причины этого указываются нарастание глобальной угрозы в

связи с распадом СССР, изменения, произошедшие в европейской политике и борьба в современной мировой политике за многополярность, что было всесторонне изучено.

*Ключевые слова:* США, КНР, XX век, Азиатско-Тихоокеанское Экономическое Сотрудничество (АТЭС), Международный Валютный Фонд, Всемирный Банк, холодная война, двусторонние отношения, глобализация, многополярная система.

**KHAYYAM ISMAYILZADEH**
*Baku State University,*
*Department of International Relations,*
*Doctor of Philosophy in Political Science, Acting Associate Professor*

## CHANGES THAT OCCURRED AS A RESULT OF THE WEAKENING OF US-PRC RELATIONS IN THE 1990S

The article provides information about the changes that took place against the background of escalation and weakening of USA-PRC bilateral relations after the end of the Cold War at the end of 20th century. The increase of global threat due to the collapse of the USSR, changes in European politics and the fight for a multipolar system in modern world politics, which were indicated as reasons for this, were comprehensively researched.

*Keywords*: USA, PRC, 20th century, Asia-Pacific Economic Cooperation (APEC), International Monetary Fund, World Bank, cold war, bilateral relations, globalization, multipolar system.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: s.e.f.d. Fərhad Hüseynov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94(479.24)**

**MEHİN İBRAHİMLİ**
*Sumqayıt Dövlət Universiteti, doktorant*
**TarixVeOnunProblemleri@gmail.com**

# SUMQAYIT ŞƏHƏRİNDƏ ƏHALİNİN SOSİAL RİFAH HALININ YÜKSƏLDİLMƏSİ (2006-2008-ci illər)

*Məqalədə Sumqayıt şəhərinini əhalisi, şəhərdə fəaliyyət göstərən dövlət müəssisəsiləri, işləyənlər, sahibkarlıq subyektində çalışanlar, mənzil fondunun qorunması istiqamətində həyata keçirilən tədbirlər, yaşayış evlərinin zirzəmilərinin çirkab sularının qurudulması, dam örtüklərinin təmir edilməsi, lift təsərrüfatının vəziyyəti, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramına əsasən Sumqayıtda yeni iş yerlərinin, istehsalat sahələrinin yaradılması, minimum əmək haqqı, təqaüd və müavinətlər, büdcədən maliyələşən təşkilatlarda əmək haqlarının artırılması araşdırılmış, Sumqayıtda bir sıra problemlər-təhsil, səhiyyə, mədəniyyət ocaqlarının üzləşdikləri çətinliklərin aradan qaldırılması, elektrik enerjisi, su və qaz təchizatının vəziyyəti tədqiqata cəlb edilmişdir.*

*Açar sözlər: Sumqayıt şəhəri, sosial rifah, əhali, yeni iş yerləri, əmək haqqı, mənzil təminatı.*

***Giriş.*** Tarixən sosial problem bu və ya digər formada mövcud olmuş və olmaqdadır. Ancaq onun həlli istiqamətində həyata keçirilən tədbirlər daima diqqət mərkəzində olmalıdır. Bu baxımdan Sumqayıt şəhərində həyata keçirilən sosial yönümlü tədbirlər xüsusi əhəmiyyət kəsb etmişdir. 2006-cı ilin birinci yarısında Sumqayıt Şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı Şəhər icra hakimiyəti başçısı Vaqif Əliyevin Hesabat məruzəsində qeyd edilmişdir ki, ötən dövr ərzində şəhər təsərrüfatı, idarə və müəssiləri tərəfindən məhəllə və mikrorayonlarda mənzil fondunun qorunub saxlanılması, quruculuq işlərinin aparılması istiqamətində 2003-cü ildən aparılan işlər uğurla davam etdirilmişdir. Şəhər sakinlərini narahat edən bir çox problemlər aradan qaldırılmışdır. Təkcə 2006-cı ildə 183 yaşayış binasının 128 min kvadrat metr dam örtüyü əsaslı təmir olunmuşdur. Qeyd etmək lazımdır ki, dam örtüklərinin əsaslı təmiri ilə bağlı son 3 ildə (2003-2006-cı illər) xeyli işlər görülmüş və bu məsələnin cari ildə bütövlükdə həll edilməsi bir məsələ kimi qarşıda durur [5, s.3].

Təsadüfi deyil ki, bu məsələnin vacibliyi nəzərə alınaraq hələ ilin əvvəlində şəhər icra hakimiyyətinin başçısının yanında geniş tərkibdə müşavirə keçirilmiş, vəzifələr müəyyənləşdirilmişdir. Şəhər ərazisində mövcud olan 587 liftdən 522-si işlək vəziyyətdədir. İlin əvvəlindən 12 ədəd uzun müddət işləməyən lift bərpa olunaraq istismara buraxılmış, quraşdırılması tamamlanmayan 16 ədəd lift sazlanıb istifdəyə verilmişdir. Lakin, bütün şəraitin yaradılmasına baxmayaraq “Lift-Servis” birliyi tərəfindən işləməyən liftlərin təmir və bərpasında ayrı-ayrı ləngimələrə yol verilir ki, bu barədə birliyin rəhbərliyi təsirli tədbir görməlidir [5, s.3].

2006-cı ildə mənzil və əlavə yaşayış sahəsi ilə təmin olunma ilə bağlı Sumqayıt Şəhər icra hakimiyyətinə 445 müraciət olunmuşdur. Bu qəbildən müraciətlərin artması ilk növbədə şəhər ərazisində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və digər imtiyazlı olan şəhər sakinləri üçün son 3 ildə 4 yaşayış binasının tikilib istifadəyə verilməsi ilə izah olunur. Həmin dövr ərzində 289 imtiyazı olan ailə yeni mənzillərə köçmüş, 43 ailə isə boşalmış mənzillərdə yerləşdirilməklə yaşayış şəraitini yaxşılaşdırmışdır. Şəhərdə mənzil tikintisinin aparılması bir çox şəhər sakinlərinin mənzillə təmin edilmələri barədə şəhər icra hakimiyyəti başçısı və yuxarı instansiya orqanlarına müraciət etməsinə səbəb olmuşdur... Mənzillə təmin olunma barədə ərizə müəlliflərindən 125 nəfəri İcra Hakimiyyətinə, həmçinin Prezident Aparatına, Milli məclisə və digər təşkilatlara müraciətlər etmişlər [1, s.3].

Bu il (2006-cı il) Sumqayıtda keçirilən tədbirlər nəticəsində 5412 yeni iş yerləri açılmışdır. Ümumilikdə 2003-cü ilin oktyabrından indiyədək 22800 yeni iş yeri açılmışdır. Bunun 9490-ı daimi iş yeridir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramında nəzərdə tutulan digər vəzifələrdə uğurla yerinə yetirilir. 20 çarpayılıq əlillərin bərpa mərkəzi, 5 mərtəbəli 30 və 4 mərtəbəli 36 mənzilli yaşayış binaları tikilib istifadəyə verilmişdir. 18-ci mikrorayon ərazisində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün yeni 50 mənzilli yaşayış binasının tikintisi başa çatmaq üzrədir [10, s.1-2].

2007-ci ilin birinci yarısında Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş fəallar yığıncağında icra başçısı hörmətli Vaqif Əliyev hesabat məruzəsində bu işlərin ən vacibini – şəhərimizin cənub hissəsini fasiləsiz içməli su ilə təmin etmək məqsədilə Ceyranbatan su anbarında diametri 500 mm. olan 3,5 km uzunluğunda yeni su kəmərinin çəkilib istifadəyə verilməsini xüsusi vurğulamışdır. Ölkə rəhbərinin dəstəyi ilə reallaşan bu layihə şəhərin 16, 17, 18, 20, 21 -ci mikrorayolarının, 47, 48 və 51-ci məhəllələrinin, həmçinin Corat qəsəbəsində su qıtlığına son qoyulmuşdur [12, s.3].

Bu zaman sənayedə çalışan işçilərin orta aylıq əmək haqqı 180 manat olmuşdur. Buda ötən ilin eyni dövrü ilə müqayisədə 22,2% olmuşdur. Orta aylıq əmək haqqının ən yüksək səviyyəsi metallurgiya müəssisələrində, ən aşağı səviyyəsi qida məhsulları və ağac məmulatları istehsalı müəssisələrində olmuşdur [7, s.2].

Yeni müəssisələrin açılması və müvafiq olaraq yeni iş yerlərini yaradılması "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Sumqayıt şəhəri qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə imkan vermişdir. Kiçik və orta sahibkarlar tərəfindən 126 ticarət, 3 istehsal sahəsi, 6 iaşə və 33 xidmət obyekti tikilib istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlərin nəticəsində ilin əvvəlindən şəhərdə 6100-ə yaxın iş yerləri yaradılmış, bunun 4100-dən çoxu daimi iş yeridir. Ümumilikdə son 4 ildə 30 mindən çox yeni iş yerləri açılmış və onların yarıdan çoxu daimi iş yerləridir [7, s.2].

2007-ci ilin ilk 9 ayı ərzində Sumqayıt şəhərində fiziki şəxsləri nəzərə almaqla fəaliyyət göstərən müəssisələrin təqdim etdikləri hesabat görə iş həcmləri 7180,8 min manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrünə nisbətə 13,7% artmışdır. O cümlədən nəqliyyat xidmətləri 4580,1 min manat təşkil etmişdir ki, buda keçən ilin hesabat dövrünə nisbətə 17 % artmışdır. Rabitə xidməti 2600,7 min mnaat təşkil etmişdir ki, bu ötən ilin müvagiq dövrünə nisbətə 8,2% artıqdır. Telekomunikasiya xidmətlərinə 2357,5 min manat ödəniş olmuşdur. Ötən ilin müvafiq dövrünə nicbətən 7,2% artmışdır [11, s.3].

Mühüm xidmət sahələrindən biri olan poçt xidmətləri 243,2 min manat təşkil etmişdir ki, ötən ilə nisbətən 18,5 min manat çoxdur. Nəqliyyat və rabitə müəssisələrində çalışan işçilərin sayı 1767 nəfər olmuşdur ki, bu ötən ilin müvafiq dövrünə nicbətə 10,5% çoxdur. Orta aylıq əmək haqqı 128,5 min manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrünə nisbətə 7% artmışdır. Sumqayıt şəhər üzrə pərakəndə əmtəə dövrüiyəsi 158625 min manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə fiziki həcm indeksi ilə 13,7% artmışdır.

Əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 33776,8 min manat olmuşdur ki, ötən ilin müvafiq dövrünə nisbətən 24,7% artmışdır. İctimai iaişə sahəsində əmtəə dövriyyəsində 2745 min manat təşkil etmişdir. Ötən ilə nisbətə 15% artmışdır. Göstərilən məşiət xidmətləri 4387 min manat təşkil etmişdir ki, ötən ilə nisbətən 9,3% çoxdur. Ticarət və xidmət müəssiələrində çalışan işçilərin sığorta siyahı sayı 1547 nəfər təşkil etmişdir. Hər bir işçiyə hesablanmış orta aylıq əmək haqqı isə 125 manat olmuşdur [11, s.3].

Sumqayıtda böyük telekomunikasiya sahələri fəaliyyət göstəriir. Elektron tipli ateslərin sayı durmadan artır. Hazırda (2007-ci il) şəhər əhalisinə 8 ats xidmət edir ki, onlarıdan tutumu 24.924 nömrə olan 4-ü elektron atesdir. 30 min nömrə tutumu olan elektron atsin 5 min nömrəsi əhalinin istifadəsinə verilmişdir.

Büdcədən ayrılmış vəsait hesabına şəhid ailələri və Qarabağ müharibəsi ailələri üçün 5 mərtəbəli yaşayış evləri tikilib istifadəyə verilmişdir [14, s.7].

Ümumilikdə şəhərdə 30 mindən artıq yeni iş yeri açılmışdır ki, bununda 15 mindən çoxu daimi iş yeridir [16, s.3].

Aztəminatlı ailələrin aşkar edilməsi və onlara ünvanlı dövlət sosial yardımın verilməsi, uşaqlıqdan əlil olmuş və işləməyən vətəndaşlara sosial müavinətlərin təyini, şəhid ailələrinə Azərbaycan Respublikası prezdentinin təqaüdünün verilməsi istiqamətində müəyyən işlər görülmüşdür. 2007-ci ilin hesabat dövründə 195 nəfər Çerbonil qəzasında iştirak və əlil olanların ailəsinə, 367 Qarabağ müharibəsi əlillərinin, 147 şəhid və əsgər ailələrinin uşaqlarına sosial müavinət təyin edilmişdir. Eləcə də 129 nəfərə ümumi əlilliyə, 160 nəfər isə uşaqlıqdan əlilliyə, 72 nəfərə ailə başçısını itirdiyinə

görə müavinət, 660 nəfər şəhid ailəsinə isə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin olunmuşdur [13, s.2].

Şəhərimiz üçün əsas problemlərdən biri istiliklə təchizatın yaxşılaşdırılmasıdır... Şəhərimizdə yüksək mərtəbəli binalar gündən-günə çoxalır. Uzun illər binaların bir çoxunda liftlərin işləməsi problemə çevrilmişdi. Bu problemin həlli istiqamətində "Lift Servis" birliyi xeyli iş görmüş, yaşayış binalarında 553, səhiyyə ocaqlarında 14 liftə texniki qulluq göstərilmişdir. 47-ci məhəllədə 20, 12 mikrorayonda 12 yeni lift quraşdırılmış, 35-ci məhəllədəki 14 mərtəbəli evdə istismar müddəti keçmiş və qəza vəziyyətində işləyən 3 lift yenisi ilə əvəzlənmişdir.

Son illər şəhər əhalisinin sağlamlığının qorunması və buna təsir edən ətraf mühit amillərinin mənfi nəticələrinin aradan qaldırılması istiqamətində şəhər Gigyena və Epidemologiya mərkəzi tərəfindən bir sıra əhəmiyyətli tədbirlər görülmüşdür [15, s.2-3].

Şəhərdə sahibkarlığı inkişaf etdirmək məqsədilə bir çox hüquqi və fiziki şəxslərə yeni istehsal və xidmət sahələrinin yaradılması, mövcud olanların genişləndirilməsi, sahibkarlığın indiyədək ənənəvi olmayan sahələrinin inkişafı məqsədilə imkan daxilində torpaq sahələri ayrılmışdır. Məhz belə yanaşmanın nəticəsidir ki, Sumqayıtda çoxlu sayda istehsal sahələri yaradılmışdı. Şəhər iqtisadiyyatında özəl sektorun çəkisi artmış, yeni iş yerləri yaradılmış son nəticədə sakinlərin rifah halı yaxşılaşmışdır [6, s.4].

2003-2007-ci illər ərzində Sumqayıt şəhərində irimiqyaslı abadlıq işləri görülmüşdür. 800-dən çox yaşayış binasında 700 kv. metrdən çox dam örtüyü əsaslı təmir olunmuş, 100-ə yaxın yaşayış binasının fasadı təmir olunaraq (350 min kv. metr sahə) müasir üslübda xüsusi boyalarla rənglənmişdir... 2003-2007-ci illər ərzində şəhər və onun qəsəbələrinin əsas yolları əsaslı təmir olunaraq 2 milyon 500 min kvadrat metrdən artıq sahəyə asfalt örtüyü salınmış, küçə və prospektlərdə müasir tipli işıqlandırma sistemləri quraşdırılmışdır [4, s.3].

Sumqayıt şəhərində 4367 ailəyə invanlı sosial yardım təyin olunmuşdur. Təyinat aparılmış ailələrdən 250 və ya 5,7 %-i Sumqayıt şəhərində məskunlaşmış məcburi köçkün ailəsi, 54 ailə başçısını itirmiş, 528 və ya 7,5 %-i tək anaların ailəsi, 842 ailə və ya 19,3%-i şəhid, müharibə əlili, Çernobil qəzasının ləğvində iştirak etmiş və əlil olmuş ailələr olmuşdur. Bunlardan 135-nin ailə üzvlərindən 2 və daha çoxu əlil olan ailələrdəndir. Təyinat aparılmış 4367 ailədən 998-i və ya 22,9%-i yataqxanalarda yaşayanlardır. 417 ailə isə ailə üzvləri 6 nəfərdən çox olanlardır [17, s.4].

2008-ci ilin 9 ayında şəhərin sənaye sahələrində çalışan işçilərin sayı 5,9% artmış, işçilərin orta aylıq əmək haqqı 34% artaraq 250 manat təşkil etmişdir. Təəsüflə qeyd edilməlidir ki, şəhərin iri sənaye müəssiələrində işçilərin əmək haqqı artdığı halda kimya müəssiələrində demək olar ki, bu artım müşahidə edilməmişdir. Cari ilin əvvəlindən şəhərdə həyata keçirilən tədbir nəticəsində 3346 yeni iş yer yaradılmışdır ki, bunun 1810-u daimi iş yerləridir. Ümumilikdə isə 2003-cü ilin oktyabrdan etibarən Sumqayıtda 35 mindən çox yeni iş yeri yaradılmış bunun da 18500-dən çoxu daimi iş yerləridir.

Son beş ildə 260 yaşayış binası əsaslı təmir edilmiş, 220-dən çox yaşayış binasının fasad divarları rənglənmiş, qəza vəziyyətdə olan 28 yaşayış binası əsaslı təmir edilmiş, 800 yaşayış binasında 800 min kv. metrdən çox dam örtüyü təmir edilmiş, məhəllə və mikrorayon ərazisində 2000-dən çox oturacaqlar qoyulmuşdur. Şəhər ərazisində 200-ə yaxın binanın aşağı şəbəkə üzrə içməli su və kanalizasiya xətti təmir edilmiş, 650-dən çox yaşayış binasının zirzəmisinin suyu qurudulmuşdur [9, s.5].

Ölkəmizdə bütün sahələrdə aparılan irimiqyaslı islahatlar, qazanılan uğurlar gənclik şəhəri Sumqayıtında hərtərəfli və dinamik inkişafına şərait yaratmışdır. Şəhər sakinlərinin bütün təbəqələrinin rifah halının yaxşılaşdırlmasına, sosial problemlərin həllinə, infrasturukturun təkmilləşdirilməsinə yönəldilmiş bütün layihələr ölkə prezidentinin Sumqayıta olan xüsusi diqqət və qayğısı nəticəsində öz həllini tapmış və bu istiqamətdə bir çox işlər uğurla davam etdirilməkdədir... 2008-ci ildə şəhər üzrə sənaye sahələrində çalışan işçilərin sayı 6% artmış, onların orta aylıq əmək haqqı 35% artaraq 250 manat olmuşdur. Ümumilikdə son 5 ildə şəhər əhalinin həyat səviyyəsini səciyyələndirən nominal aylıq əmək haqqı 4 dəfədən çox artmışdır... Şəhərdə həyata keçiriləən tədbirlər nəticəsində hesabat ilində 4600-dən çox yeni iş yeri yaradılmışdır. Bunları 2100-dən çoxu daimi iş yerləridir. Ümumilikdə 2003-cü ilin oktaybrdından etirbarən şəhərdə 36500-ə qədər yeni iş yerləri yaradılmış, bunlarında 18900-ə yaxını daimi iş yerləridir [8, s.2-3].

Şəhərdə fəaliyyət göstərən Gigiyenya və epidamologiya Mərkəzinin nəzarətində olan bütün obyektlərdə işləyənlərin vaxtlı-vaxtında dövrü tibbi müniyələrdən keçirilməsinə ciddi nəzarət edilmişdir. 2008-ci il ərzində cəmi 18766 nəfər işçi dövrü tibbi müayinələrə cəlb olunbmuşdur ki, bunların 4032 nəfəri imtiyazsız (pullu), 14694 nəfəri isə imtiyazlı (pulsuz) olaraq müayinədən keçirilmişdir. Aparılan dövlət sanitariya nəzarəti zamanı aşkar olunan sanitar gigyenik pozuntu hallarına görə 2007-ci il ərzində 176 nəfər, 2008-ci ilin müvafiq dövründə isə 171 nəfər maddi məsul şəxs barəsində inzibatı xətalar məcəlləsinin müvafiq bəndlərinə uyğun olaraq inzibati tədbirlər görülmüş, cərimə qərarları yazılmışdır. Çox kobud sanitar-gigiyenik pozuntu halları aşkar edilən 48 obyektin fəaliyyəti müvəqqəti olaraq (pozuntu halları aradan qaldırılana kimi) dayandırılmışdır [18, s.6].

Sumqayıt ölkənin ən yaşıl sahələrindən biridir. Sumqayıtın inzibatı ərazisində ümumilikdə 950 hektara yaxın yaşıllıq sahəsi mövcuddur. Şəhərdə adambaşına düşən yaşıllıq sahəsi 26 kvadrat metr təşkil edir və bu çox yaxşı göstəricidir... 2003-cu ildən başlayaraq şəhərdə irimiqyaslı yaşıllaşdırma işləri həyata keçirilmiş, 13 park, 10 xiyaban salınmış, 11 küçədə yaşıllıq zolaqları yaradılmış, ümumilikdə yaşıllığın sahəsi 2 dəfədən çox artmışdır... hesabat müddətində Səməd Vurğun adına Mərkəzi kitabxanada əsaslı təmir işləri başa çatıdırlmışdır. Kitabxana lazimi yeni avadanlıqla təchiz edilmişdir. Sumqayıtın Tarixi Muzeyində müasir dizaynla, zövq oxşayan şəkildə əsaslı təmir və yenidənqurma işləri davam etdirilmişdir [2, s.2].

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrası prosesində, Sumqayıt iqtisadi regionunda sahibkarlığın inkişafını sürətləndirmək, əmək ehtiyatlarından və iqtisadi potensialdan daha səmərəli istifadə etmək, əhalinin məşğulluğunu artırmaq və yeni iş yerlərinin, bazar iqtisadiyyatına uyğun biznes mühitinin formalaşmasına şərait yaratmaq üçün səmərəli tədbirlərin görülməsi nəzərdə tutulmuşdur [3, s.102].

***Nəticə***. Tədqiqatın nəticəsi olaraq belə bir qənaətə gəlinmişdir ki, 2006-2008-ci illər ərzində Sumqayıt şəhərində şəhər təsərrüfatı, idarə və müəssiələri tərəfindən məhəllə və mikrorayonlarda mənzil fondu qorunub saxlanılmış, şəhər ərazisində yaşayan şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və digər imtiyazı olan şəhər sakinlərin xeyli qismi yaşayış sahəsi ilə təmin olunmuş, yeni iş yeri açılmış, orta aylıq əmək haqqının miqdarı qaldırılımış, aztəminatlı ailələrin aşkar edilməsi və onlara ünvanlı dövlət sosial yardımın verilməsi təmin edilmiş, şəhər əhalisinin sağlamlığının qorunması və buna təsir edən ətraf mühit amillərinin mənfi nəticələrinin aradan qaldırılması təmin edilmiş və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrasından irəli gələn məsələlər əsasən öz həllini tapmışdır.

## ƏDƏBİYYAT


1. Cəlilov N. Vətəndaşların ərizə və şikayətlərinə vaxtında baxılmalı, qaldırılan hər bir məsələ operativ qaydada öz həllini tapmalıdır / Sumqayıt qəzeti, 2 avqust- 9 sentyabr 2006-cı il s.3.
2. Dinamik sosial-iqtisadi inkişaf davam edir / Sumqayıt qəzeti, 2 may 2009-cu il, s.2.
3. Əliyev Ş. Milli iqtisadiyyatımızda Sumqayıt şəhərinin iqtisadi potensialının rolu // "İqtisadiyyat və həyat" jurnalı, №5-6, Bakı, 2004, s.98-108.
4. Əliyev V. "Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı: Mövcud problemlər və perspektivlər" mövzusunda keçirilən konfransda Sumqayıt Şəhər İcra Hakimiyyəi başçısının çıxışı / Sumqayıt qəzeti, 3 may 2008-ci il, s.3.
5. Əliyev V. 2006-cı ilin birinci yarısında Sumqayıt Şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı Şəhər İcra Hakimiyəti başçısının hesabat məruzəsi / Sumqayıt qəzeti, 2 avqust 2006-cı il, s.3.
6. Əliyev V. 2007-ci ildə Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının yekunları və 2008-ci ildə qarşıda duran vəzifələr haqqında Şəhər İcra Hakimiyyəti başçısının hesabatı / Sumqayıt qəzeti, 23 fevral 2008-ci il, s.4.
7. Əliyev V. 2007-ci ilin 9 ayı ərzində Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında Şəhər İcra Hakimiyyəti başçısının hesabatı. 3 noyabr, 2007-ci il, s.2.

8. Əliyev V. 2008-ci ildə Sumqayıtın sosial-iqtisadi inkişafının yekunları və 2009-cu ildə qarşıda duran vəzifələr haqqında Şəhər İcra Hakimiyyəti başçısının hesabatı / Sumqayıt qəzeti, 14 fevral 2009-cu il, s.2-3.
9. Əliyev V. 2008-ci ilin 9 ayında Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının hesabatı, 25 oktyabr 2008-ci il, s.5.
10. Geniş miqyaslı quruculuq və yenidənqurma işləri öz bəhrəsini verir / Sumqayıt qəzeti, 16 dekabr 2006-cı il, s.1-2.
11. İlin 9 ayında Sumqayıt şəhərinin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri. Sumqayıt Şəhər Statistika İdarəsi / Sumqayıt qəzeti, 7 noyabr 2007-ci il, s.3.
12. Qafaroğlu S. Sumqayıtlılar su sarıdan korluq çəkməyəcəklər / Sumqayıt qəzeti, 18 avqust 2007-ci il, s.3.
13. Quliyev S. Vətəndaşların sosial müdafiəsi dövlət siyasətinin əsas priorotetidir / Sumqayıt qəzeti, 23 yanvar 2008-ci il, s.2.
14. Məlikov Q. Sumqayıtın inkişafında Heydər Əliyev dövrü və İlham Əliyev mərhələsi / Sumqayıt qəzeti, 19 dekabr 2007-cü il, s.7.
15. Məmməd T. Çox iş görülsə də / Sumqayıt qəzeti, 9 fevral 2008-ci il, s.2-3.
16. Məmməd T. Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı şəhərimizdə necə yerinə yetirilir / Sumqayıt qəzeti, 26 ekabr 2007-ci il, s.3.
17. Rəşidov M. Sosial problemlərin həlli diqqət mərkəzindədir / Sumqayıt qəzeti, 16 avqust 2008-ci il, s.4.
18. Soltanova C. Məqsədimiz insanların sağlamlığını qorumaqdır / Sumqayıt qəzeti, 14 mart 2009-cu il, s.6.

**МЕХИН ИБРАГИМЛИ**
*Докторант Сумгаитского государственного университета*

## ПОВЫШЕНИЕ СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ НАСЕЛЕНИЯ ГОРОДА СУМГАИТ (2006-2008 ГГ.)

В статье рассмотрено население города Сумгаит, государственные предприятия, действующие в городе, работники, предприниматели, меры, принимаемые по охране жилого фонда, сливу нечистот из подвалов жилых домов, ремонту крыш, состояние лифтового хозяйства, социально-экономическое развитие регионов Азербайджанской Республики. Согласно программе исследованы создание новых рабочих мест и производственных площадей в Сумгаите, минимальная заработная плата, пенсии и пособия, а также повышение заработной платы в организациях, финансируемых из бюджета. В исследование был включен ряд проблем Сумгаита - образование, здравоохранение, устранение трудностей, с которыми сталкиваются культурные центры, состояние электро-, водо- и газоснабжения.

*Ключевые слова*: город Сумгаит, социальное обеспечение, население, новые рабочие места, зарплата, жилье.

**MEHIN IBRAHIMLI**
*Doctoral student of Sumgayit State University*

## IMPROVING THE SOCIAL WELFARE OF THE POPULATION IN THE CITY OF SUMGAYIT (2006-2008)

In the article, the population of the city of Sumgait, state enterprises operating in the city, employees, employees in the entrepreneurial subject, measures implemented in the direction of protecting the housing stock, drying of sewage from the basements of residential houses, repairing roof cove-

rings, the state of the elevator industry, socio-economic development of the regions of the Republic of Azerbaijan to the State program mainly the creation of new workplaces and production areas in Sumgait, the minimum wage, pensions and allowances, and the increase of wages in budget-financed organizations were investigated. A number of problems in Sumgait - education, healthcare, elimination of the difficulties faced by cultural centers, the state of electricity, water and gas supply were included in the study.

*Keywords*: Sumgait city, social welfare, population, new jobs, salary, housing.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Şirxan Səlimov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**AYAZ HACIYEV**
*Azərbaycan Respublikası Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*
**ayazhaciev@yahoo.com**

# AZƏRBAYCAN RESPUBLİKASININ DAVAMLI İNKİŞAFI (KONSEPTUAL VƏ PRAKTİKİ İNKİŞAF KONTEKSTİNDƏ)

*Ölkəmizin ötən dövr ərzində keçmiş olduğu sosial-iqtisadi inkişaf yolu və dinamikası onun yeni çağırışlar mərhələsində də uğurla davam edəcəyini deməyə əsas verir. Məlum olduğu kimi, hazırda qlobal miqyasda ciddi proseslər getməkdədir. Belə ki, enerji resursları bazarlarında qiymətlərin dəyişkənliyi, ekoloji problemlərin aktuallaşması, dördüncü sənaye inqilabının təsirinin artması, və s. məqamlar günün reallığıdır. Bununla yanaşı, regional və ölkə səviyyəsində yaranmış yeni reallıqlar da sosial-iqtisadi inkişafın xarakterinə öz təsirini göstərir. Məlum olduğu kimi, 30 ilədək bir dövr ərzində işğal altında olan torpaqlar azad edilmiş, həmin ərazilərə həyatın qaytarılması, quruculuq prosesi ölkənin təsərrüfat-iqtisadi həyatına mühüm yeniliklər gətirəcəkdir. Bundan başqa, ölkədə qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafının təmin edilməsi, "yaşıl iqtisadiyyat"a keçidin aktuallaşması, bütün bunlarla yanaşı, insanların layiqli həyat səviyyəsinin təmin edilməsi zərurəti qarşıda vacib çağırışlar olaraq durmaqdadır. Məhz bu çağırışlar iqtisadiyyatın yeni tələblər əsasında inkişafı zərurətini ortaya qoyur. Yeni tələblər isə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də yer almışdır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də əksini tapmış beş Milli Prioritet 2030-cu ilədək reallaşdırılmalıdır.*

*Acar sözlər*: proqnoz, şirkət, sahibkar, konseptual, hesabat, lider.

***Giriş.*** Müasir dövrdə davamlı inkişafla bağlı praktiki fəaliyyətlərin daha çox önə çəkilməsinin şahidi olmaq mümkündür. Artıq 20 ildən çoxdur ki, Davamlı inkişaf üzrə Ümumdünya Biznes Şurası fəaliyyət göstərir. Şura 1992-ci ildə Rio de Janeyro sammiti ərəfəsində yaradılıb, məqsəd forumda sahibkarların təmsil olunmasının təmin olunmasıdır. Hal hazırda şuranın tərkibinə bütün dünyadan 190 nüfuzlu şirkət daxildir (Ford, Mitsubişi, Canon, Hitachi, İKEA və s.). Bu şuranın, ən iri dünya şirkətlərinin həyata keçirdikləri tədqiqatlara əsaslanan proqnozlarına görə davamlı inkişaf bazar liderləri üçün yaxın on ildə 6,2 trilyon dollar həcmində qiymətləndirilən biznes imkanları açır. Bu əsasən, konseptual və praktiki olaraq davamlı inkişafla məşğul olan şirkətlərə aiddir [1].

Son on illiklərin mühüm dünya meyllərindən biri də şirkətlər və korporasiyalar tərəfindən davamlı inkişaf haqda kompleks hesabatların hazırlanmasıdır. Bu hesabatlar artıq şirkətlər tərəfindən təqdim olunan ümumi hesabatların mühüm hissəsini təşkil edir. Beynəlxalq təşkilatlarla birlikdə hazırlanan bir çox hesabat mövcuddur. Aşağıdakı cədvəldə 2017-2021-ci illər arasındakı bəzi hesabatlar verilmişdir:

***Cədvəl 1.1.1***

**Davamlı inkişaf haqqında beynəlxalq korporativ hesabatlar**

| İl | Hesabatın adı | Hesabatın məzmunu |
|---|---|---|
| 2017 | Birləşmiş Millətlər Təşkilatının Dünya Xoşbəxtlik Hesabatı | Gəlir, sosial dəstək və gözlənilən ömür kimi müxtəlif amillər əsasında qlobal xoşbəxtlik və rifahı ölçür. |
| 2018 | 1,5°C Qlobal İstiləşmə üzrə IPCC Xüsusi Hesabatı | Sənayedən əvvəlki səviyyədən 1,5°C yuxarı olan qlobal istiləşmənin təsirləri və onu məhdudlaşdırmaq üçün lazımi tədbirlər haqqında kritik məlumatlar təqdim edir. |
| 2018 | Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı | Ölkələrin rəqabət qabiliyyətini infrastruktur, innovasiya və makroiqtisadi sabitlik kimi amillər əsasında qiymətləndirir. |
| 2019 | Birləşmiş Millətlər | Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilmiş |

| | | |
|---|---|---|
| | Təşkilatının Davamlı İnkişaf Məqsədləri Hesabatı | Davamlı İnkişaf Məqsədlərinə (SDGs) nail olmaq istiqamətində qlobal tərəqqinin icmalını təqdim edir. |
| 2019 | Qlobal İnsan İnkişafı Hesabatı | Rifahı və həyat keyfiyyətini ölçmək üçün təhsil, gəlir və gözlənilən ömür uzunluğu daxil olmaqla insan inkişafı indekslərinə diqqət yetirir. |
| 2020 | "Lancet" Sağlamlıq və İqlim Dəyişikliyi üzrə Hesabatı | İqlim dəyişikliyinin sağlamlığa təsirlərini araşdırır və bütün dünyada bu təsirlərin azaldılması istiqamətində irəliləyişləri izləyir. |
| 2020 | Qlobal Davamlı Rəqabətlilik İndeksi | Təbii kapital, idarəetmə və innovasiya kimi amilləri nəzərə alaraq, ölkələri davamlı rəqabət qabiliyyətinə görə sıralayır. |
| 2021 | Birləşmiş Millətlər Təşkilatının Dünya Su İnkişafı Hesabatı | Su qıtlığı və çirklənmə də daxil olmaqla, su ilə bağlı problemlərə və onların davamlı inkişaf üçün təsirlərinə toxunur. |
| 2021 | Qlobal Sülh İndeksi | Ölkələrin və regionların sülhsevərliyini münaqişə, zorakılıq və ictimai təhlükəsizlik kimi amillər əsasında ölçür. |

***Mənbə:*** Cədvəl yuxarıdakı hesabatlar ümumiləşdirilərək müəllif tərəfindən hazırlanmışdır.

**Diaqram 1.2.1. İllər üzrə qlobal risklər**

***Mənbə:*** Elena Escrig-Olmedo, María Ángeles Fernández-Izquierdo, Idoya Ferrero-Ferrero, Juana María Rivera-Lirio & María Jesús Muñoz-Torres (2023) A framework for assessing corporate sustainability risks along global supply chains: an application in the mobile phone industry, Journal of Environmental Planning and Management, DOI: 10.1080/09640568.2023.2219828




Ştrix diaqramı 2017-ci ildən 2021-ci ilə kimi beş illik dövr ərzində qlobal riskləri onların baş vermə ehtimalına əsasən vizuallaşdırır. Hər bir ştrix xüsusi qlobal riski təmsil edir və müxtəlif rənglər müvafiq ili göstərir. Vizualdan belə nəticə çıxara bilərik ki, 2017-ci ildə iqlim dəyişikliyi nəzərdən keçirilən risklər arasında ən yüksək ehtimala malik olub [4]. İllər keçdikcə qlobal risk kimi qəbul edilən iqlim dəyişikliyi ehtimalında nəzərəçarpacaq dərəcədə Kovid-19 epidemiyasının ciddi risklər yaratdığı başqa bir sahə də qlobal tədarük zənciridir. Sərhəd qapılarının bağlanması, uçuşların dayandırılması və məcmu tələbi aşağı salacağı proqnozlaşdırılan digər məhdudiyyətlərlə yanaşı, qlobal tədarük zəncirlərində də fasilələr gözlənilir. Beynəlxalq konsaltinq şirkəti KPMG, Kovid-19-un tədarük zəncirlərinə təsirlərini aşağıdakı kimi sıralayır:

- Konqres, iclas və s. təşkili ilə məşğul olan təşkilatların ləğvi;

- Səyahət məhdudiyyətlərinin tətbiqi;
- Karantin tətbiqetmələrinin leqallaşdırılması;
- Komendant saatı tətbiq etmək, mağazaların bağlanması;
- restoranların bağlanması;
- Xammal gecikmələri və ləğvləri ilə qarşılaşmaq;
- İstehsalın dayandırılması;
- Lojistik fəaliyyətlərdə məhdudiyyətlər;
- Daşınmaların təxirə salınması;
- Lojistik xərclərdə artım;
- Əlavə ticarət tariflərinin daxil edilməsi;
- Ödənişlərin çətinləşməsi;
- İdxal və ixrac problemlərini yaşamaq;
- Ümumi iqtisadi problemlərin ortaya çıxması;
- Bazarda tələbin azalması;
- Müştəri tələblərinin dəyişilməsi.

Ölkəmizin ötən dövr ərzində keçmiş olduğu sosial-iqtisadi inkişaf yolu və dinamikası onun yeni çağırışlar mərhələsində də uğurla davam edəcəyini deməyə əsas verir. Məlum olduğu kimi, hazırda qlobal miqyasda ciddi proseslər getməkdədir. Belə ki, enerji resursları bazarlarında qiymətlərin dəyişkənliyi, ekoloji problemlərin aktuallaşması, dördüncü sənaye inqilabının təsirinin artması, və s. məqamlar günün reallığıdır. Bununla yanaşı, regional və ölkə səviyyəsində yaranmış yeni reallıqlar da sosial-iqtisadi inkişafın xarakterinə öz təsirini göstərir. Məlum olduğu kimi, 30 ilədək bir dövr ərzində işğal altında olan torpaqlar azad edilmiş, həmin ərazilərə həyatın qaytarılması, quruculuq prosesi ölkənin təsərrüfat-iqtisadi həyatına mühüm yeniliklər gətirəcəkdir. Bundan başqa, ölkədə qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafının təmin edilməsi, "yaşıl iqtisadiyyat"a keçidin aktuallaşması, bütün bunlarla yanaşı, insanların layiqli həyat səviyyəsinin təmin edilməsi zərurəti qarşıda vacib çağırışlar olaraq durmaqdadır [6]. Məhz bu çağırışlar iqtisadiyyatın yeni tələblər əsasında inkişafı zərurətini ortaya qoyur. Yeni tələblər isə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də yer almışdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də əksini tapmış beş Milli Prioritet 2030-cu ilədək reallaşdırılmalıdır. Həmin Milli prioritetlər aşağıdakılardır:

1. Davamlı inkişaf edən rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, əhatəli və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabət qabiliyyətli insan kapitalı və müasir innovasiyalar üçün məkan;
4. İşğaldan azad edilmiş ərazilərə külli miqdarda qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkəsi.

- meşə və qeyri-meşə fondu torpaqlarında salınmış meyvə bağlarının məhsullarından istifadə;
- mineral və termal su ehtiyatlarının potensialından istifadə olunması;
- şirin su və dəniz əmtəə akvakulturasının inkişafı.

Bu baxımdan, deyə bilərik ki, 2030-cu ilə doğru müəyyən trendlər özünü göstərəcək. Davamlı inkişaf gedərək milliləşdirilir. Davamlı inkişafı qlobal çağırışlara cavab kimi görmək əvəzinə, hökumətlər öz milli təhlükə və təhdid konsepsiyalarına əsaslanaraq davamlı inkişaf üzərində dayanmaqla kifayətlənirlər [10]. Bu kontekstdə davamlı inkişaf qlobal sistemli problemlərə dünya miqyasında həll yolları axtarmağa yox, milli prioritetlərə çevrilir. Bu, yaşıl keçiddə çoxtərəfli institutların əhəmiyyətini daha da itirmək riski daşıyır.

İkinci olaraq qeyd edə bilərik ki, davamlı inkişaf ətrafında bir çox məsələlər milli təhlükəsizlik siyasətlərinə daxil edilə bilər. İqlim təhlükələri, rəqəmsal təhdidlər və səhiyyə tərəfdən gələn təhdidlər ilə mübarizə milli təhlükəsizlik prioritetləri arasında yer alacaq.

***Mənbə:*** Obydenkova, A. Strategies and challenges of sustainable development in Eurasia, Post-Communist Economies, 2022, 34:7, 835-846.

***Cədvəl 2.3.1.***

**Yenilənmiş Davamlı İnkişaf İndikatorları**

| Tema | Sub-tema | Əsas indicator | Digər indicator |
|---|---|---|---|
| Yoxsulluq | Gəlir yoxsulluğu | Milli yoxsulluq həddində yaşayan əhalinin nisbəti | Gəliri gündə 1 dollardan aşağı olan əhalinin nisbəti |
| | Gəlir bərabərsizliyi | Milli gəlirdəki payın ən yüksək kvintildən ən aşağıya nisbəti | |
| | Sanitariya | Təkmilləşdirilmiş sanitariya qurğusundan istifadə edən əhalinin nisbəti | |
| | İçməli su | Təkmilləşdirilmiş su mənbəyindən istifadə edən əhalinin nisbəti | |
| | Enerjiyə çıxış | Elektrik enerjisi və ya digər müasir enerji xidmətləri olmayan ev təsərrüfatlarının payı | Yemək bişirmək üçün bərk yanacaqdan istifadə edən əhalinin faizi |
| | Məişət şəraiti | Gecəqondularda yaşayan şəhər əhalisinin nisbəti | |
| İdarəetmə | Korrupsiya | Rüşvət verən əhalinin faizi | |
| | Cinayət | 100.000 nəfərə düşən qəsdən adam öldürmələrin sayı | |
| Sağlamlıq | Ölüm | Beş yaşdan aşağı ölüm nisbəti | |
| | | Doğuş zamanı gözlənilən ömür | Doğuş zamanı gözlənilən sağlam ömür |
| | Səhiyyənin çatdırılması | İlkin səhiyyə müəssisələrinə çıxışı olan əhalinin faizi | Kontraseptivlərin yayılma dərəcəsi |
| | | Uşaqlıqda yoluxucu xəstəliklərə qarşı immunizasiya | |
| | Qidalanma vəziyyəti | Uşaqların qidalanma vəziyyəti | |
| | Sağlamlıq vəziyyəti və risklər | QİÇS, malyariya, vərəm kimi əsas xəstəliklər | Tütündən istifadənin yayılması |
| | | | İntihar nisbəti |
| Təhsil | Təhsil səviyyəsi | İbtidai təhsilin son sinfinə ümumi qəbul nisbəti | Həyat boyu öyrənmə |
| | | İbtidai təhsildə xalis qeydiyyat səviyyəsi | |
| | | Yetkinlərin orta (ali) təhsil səviyyəsi | |
| | Savadlılıq | | |
| Demoqrafik | Əhali | Əhalinin artım tempi | Ümumi məhsuldarlıq dərəcəsi |

| | | | |
|---|---|---|---|
| | | Asılılıq nisbəti | |
| | Turizm | | Əsas turizm bölgələrində və destinasiyalarda yerli sakinlərin turistlərə nisbəti |
| Təbii təhlükələr | Təbii təhlükələrə qarşı həssaslıq | | Təbii fəlakətlər nəticəsində insan və iqtisadi itkilər |
| | Fəlakətə hazırlıq və cavab tədbirləri | | |
| Atmosfer | İqlim dəyişikliyi | Karbon dioksid emissiyaları | İstixana qazlarının emissiyaları |
| | Ozon qatının deşilməsi | Ozonu məhv edən maddələrin istehlakı | |
| | Havanın keyfiyyəti | Şəhər ərazilərində hava çirkləndiricilərinin ətraf mühitdə konsentrasiyası | |
| Torpaq | Torpaqdan istifadə | | Torpaqdan istifadənin dəyişdirilməsi |
| | | | Torpağın deqradasiyası |
| | Səhralaşma | | Səhralaşmadan təsirlənən torpaqlar |
| | Kənd təsərrüfatı | Əkin və daimi əkin sahəsi | Gübrələrdən istifadənin səmərəliliyi |
| | | | Kənd təsərrüfatı pestisidlərinin istifadəsi |
| | | | Ekoloji əkinçilik üçün ərazi |
| | Meşələr | Meşələrlə örtülü torpaq sahəsinin nisbəti | Defoliasiya nəticəsində zədələnmiş meşə ağaclarının faizi |
| | | | Davamlı meşə idarəetməsi altında olan meşə sahəsi |
| Okeanlar, dənizlər və sahillər | Sahil zonası | Sahil zonalarında yaşayan ümumi əhalinin faizi | Hamam suyunun keyfiyyəti |
| | Balıqçılıq | Balıq ehtiyatlarının təhlükəsiz bioloji həddə nisbəti | |
| | Dəniz mühiti | Mühafizə olunan dəniz ərazisinin nisbəti | Dəniz trofik indeksi |
| | | | Mərcan rifi ekosistemlərinin sahəsi və canlı örtünün faizi |
| Şirin su | Su miqdarı | İstifadə olunan ümumi su ehtiyatlarının nisbəti | |
| | | İqtisadi fəaliyyətlə sudan istifadə intensivliyi | |
| | Su keyfiyyəti | Şirin suda nəcis koliformalarının olması | Su hövzələrində biokimyəvi oksigen tələbatı |

| | | | |
|---|---|---|---|
| | | | Çirkab suların təmizlənməsi |
| Biomüxtəliflik | Ekosistem | Mühafizə olunan torpaq sahəsinin ümumi və ekoloji rayon üzrə nisbəti | Mühafizə olunan ərazilərin idarə olunmasının effektivliyi |
| | | | Seçilmiş əsas ekosistemlərin sahəsi |
| | | | Yaşayış yerlərinin parçalanması |
| | Növlər | Növlərin təhlükə statusunun dəyişməsi | Seçilmiş əsas növlərin bolluğu |
| | | | İnvaziv yad (gəlmə) növlərin bolluğu |
| İqtisadi inkişaf | Makroiqtisadi göstəricilər | Adambaşına düşən ümumi daxili məhsul (ÜDM) | Ümumi qənaət |
| | | ÜDM-də investisiya payı | ÜMM faizi kimi düzəldilmiş xalis əmanətlər |
| | | | İnflyasiya nisbəti |
| | Davamlı dövlət maliyyəsi | Borcun ÜMM-ə nisbəti | |
| | Məşğulluq | Əhalinin məşğulluq nisbəti | Müdafiəsiz məşğulluq |
| | | Əmək məhsuldarlığı və vahid əmək məsrəfləri | |
| | | Qeyri-kənd təsərrüfatı sektorunda muzdlu məşğulluqda qadınların xüsusi çəkisi | |
| | İnformasiya və kommunikasiya texnologiyaları | Əhalinin 100 nəfərinə internet istifadəçiləri | 100 nəfərə stasionar telefon xətləri |
| | | | Əhalinin hər 100 nəfərinə mobil telefon abonenti |
| | Tədqiqat və inkişaf | | ÜDM-in faizi olaraq elmi tədqiqatlara ümumi daxili xərclər |
| | Turizm | Turizmin ÜDM-ə töhfəsi | |
| Qlobal iqtisadi tərəfdaşlıq | Ticarət | ÜDM-ə nisbətdə cari hesabın kəsiri | İnkişaf etməkdə olan ölkələrdən və inkişaf etməkdə olan ölkələrdən idxalın payı |
| | | | İnkişaf etməkdə olan ölkələrdən və az inkişaf etmiş ölkələrdən ixraca qoyulan orta tarif maneələri |
| | Xarici maliyyələşdirmə | ÜDM-in faizi olaraq verilən və ya alınan Xalis Rəsmi İnkişaf Yardımı (ODA) | Birbaşa Xarici İnvestisiyaların (BXİ) xalis daxilolmaları və xalis çıxışları ÜDM-in faizi kimi |

| | | | |
|---|---|---|---|
| | | | ÜDM-in faizi kimi pul köçürmələri |
| İstehlak və istehsal modelləri | Material istehlakı | İqtisadiyyatın maddi intensivliyi | Daxili material istehlakı |
| | Enerji istifadəsi | Ümumi və əsas istifadəçi kateqoriyasına görə illik enerji istehlakı | Bərpa olunan enerji mənbələrinin ümumi enerji istifadəsində payı |
| | | Enerji istifadəsinin ümumi və iqtisadi fəaliyyət üzrə intensivliyi | |
| | Tullantıların idarə olunması | Təhlükəli tullantıların yaranması | Tullantıların yaranması |
| | | Tullantıların emalı və utilizasiyası | Radioaktiv tullantıların idarə edilməsi |
| | Nəqliyyat | Sərnişin daşımalarının modal bölünməsi | Yük daşımalarının modal bölünməsi |
| | | | Nəqliyyatın enerji intensivliyi |

***Nəticə.*** Yuxarıdakı cədvəldən də göründüyü kimi, davamlı inkişafın indikatorları olduqca genişdir və cəmiyyət həyatının və ictimai idarəçiliyin demək olar ki, bütün sahələrini əhatə edir. Ancaq bu indikatorlar bütün ölkələr üçün eyni dərəcədə aktual deyil. Bəzi ölkələrdə bu indikatorların bəziləri daha çox önəmli, bəziləri isə daha az önəmlidir. Digər ölkələrdə isə əksinə, ikincilər daha çox önəmli, birincilər isə daha az önəmlidir.

***Cədvəl 3.2.1.***

| Fayda | Səviyyə | Şərh |
|---|---|---|
| Müasir Texnologiyaların Tətbiqinin genişləndirilməsi | 5 ballıq şkalada 4.5 | Elektron hökumətin tətbiqi dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini xeyli genişləndirmiş, bu aspektdə yüksək uğuru əks etdirmişdir |
| Dövlət Təşkilatlarının Səmərəliliyinin Artırılması | 5 ballıq şkalada 4.2 | Elektron hökumət təşəbbüsləri dövlət institutlarının səmərəliliyinin nəzərəçarpacaq dərəcədə yaxşılaşmasına səbəb olub, baxmayaraq ki, daha da təkmilləşdirmək üçün imkanlar var |
| Elektron xidmətlərin optimallaşdırılması | 5 ballıq şkalada 4.3 | Hökumət tərəfindən təqdim edilən elektron xidmətlərin optimallaşdırılması uğurla həyata keçirilib, xidmətlər istifadəçilər üçün daha rahat və səmərəli olub |
| İnformasiyanın həqiqiliyini və etibarlılığını təmin etmək | 5 ballıq şkalada 4.7 | Elektron hökumət istifadəçilərə elektron xidmətlər vasitəsilə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının və etibarlılığının təmin edilməsində yüksək effektivlik göstərmiş, çox yüksək nailiyyəti əks etdirmişdir |
| Məlumat əldə etmək üçün vaxtın azaldılması | 5 ballıq şkalada 4.6 | Elektron hökumət istifadəçilərin sorğuları əsasında məlumatı axtarmaq və əldə etmək üçün tələb olunan vaxtı əhəmiyyətli dərəcədə azaldıb, informasiyaya çıxışın sadələşdirilməsində yüksək səviyyədə uğur nümayiş etdirib |

***Mənbə:*** Müəllif tərəfindən hazırlanmışdır.

## ƏDƏBİYYAT

1. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli / müəl. Ç.İsmayılov və b.; red. U.Ələkbərov. – Bakı: Elmin İnkişafı Fondu, – 2018. – 249 s.

2. 2019-2022-ci illər üçün ekoloji siyasətin əsas istiqamətləri və hər bir istiqamət üzrə həyata keçiriləcək tədbirlər / eco.gov.az, – URL: https://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174624_94868000.pdf [01.10.2023].
3. Ələkbərov, U. Davamlı inkişaf və ekoloji sivilizasiyasının idarə edilməsinin əsasları / U.Ələkbərov. – Bakı: Təhsil, – 2017. – 175 s.
4. Ələkbərov, U. Davamlı insan inkişafı / U.Ələkbərov – Bakı: Təhsil, – 2006. – 88 s.
5. Ələkbərov, U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları / U.Ələkbərov. – Bakı: Təhsil, – 2013. – 222 s.
6. Ələkbərov, U. İnklüziv inkişafın idarə edilməsinin əsasları / U.Ələkbərov – Bakı: Təhsil, – 2018. – 215 s.
7. ABAD. ABAD Haqqında / abad.gov.az, – URL: https://abad.gov.az/about [01.10.2023].
8. "ASAN xidmət" BMT-nin mükafatı ilə təltif edildi, 27 iyun 2015 / URL: http://www.asan.gov.az/az/content/view/249/2644#.Vg6CVPntlBd [01.10.2023].
9. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2012 / URL: https://e-qanun.az/framework/25029 [01.10.2023].
10. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər / president.az, – URL: https://president.az/az/articles/view/50474 [01.10.2023].

**АЯЗ ГАДЖИЕВ**
*Диссертант Академии Государственного управления при Президенте Азербайджанской Республики*

## УСТОЙЧИВОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (В КОНТЕКСТЕ КОНЦЕПТУАЛЬНОГО И ПРАКТИЧЕСКОГО РАЗВИТИЯ)

Путь социально-экономического развития и динамика нашей страны за прошедший период позволяют предположить, что она успешно продолжит свое развитие на новом этапе вызовов. Как известно, сейчас идут серьезные процессы в глобальном масштабе. Так, колебания цен на рынках энергоресурсов, актуализация экологических проблем, усиление влияния четвертой промышленной революции и т.д. баллы – это реальность дня. В то же время новые реалии, возникшие на региональном и страновом уровне, также оказывают влияние на характер социально-экономического развития. Как известно, земли, которые были окупированы на срок до 30 лет, освобождены, восстановление жизни на этих территориях, процесс строительства внесут важные новшества в экономическую жизнь страны. Кроме того, важными задачами впереди являются обеспечение развития ненефтяного сектора и сельского хозяйства в стране, реализация перехода к «зеленой экономике», наряду со всем этим, необходимость обеспечения достойного уровня жизни людей. Именно эти вызовы обнажают необходимость развития экономики с учетом новых требований. Новые требования были включены в программу «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития». Пять национальных приоритетов, отраженных в документе «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития», должны быть реализованы к 2030 году.

*Ключевые слова*: прогноз, компания, предприниматель, концептуальный, отчет, лидер.

**AYAZ HAJIYEV**
*Dissertation of the State Administration Academy under the President of Azerbaijan Republic*

## SUSTAINABLE DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN (IN THE CONTEXT OF CONCEPTUAL AND PRACTICAL DEVELOPMENT)

The path of socio-economic development and the dynamics of our country over the past period suggest that it will successfully continue its development at a new stage of challenges. As you know, serious processes on a global scale are currently underway. Thus, price fluctuations in energy mar-

kets, the actualization of environmental problems, the increasing influence of the fourth industrial revolution, etc. points are the reality of the day. At the same time, new realities that have emerged at the regional and country levels also affect the nature of socio-economic development. As you know, lands that were occupied for up to 30 years have been liberated, the restoration of life in these territories, the construction process will introduce important innovations into the economic life of the country. In addition, important tasks ahead include ensuring the development of the non-oil sector and agriculture in the country, implementing the transition to a "green economy", along with all this, the need to ensure a decent standard of living for people. These challenges reveal the need to develop the economy in accordance with new requirements. New requirements were included in the "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" program. The five national priorities reflected in the document "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" must be implemented by 2030.

*Keywords*: forecast, company, entrepreneur, conceptual, report, leader.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçi: s.e.ü.f.d. Davud Haşımov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 32:303.8**

**RUQİYYƏ NAĞIYEVA**
*Bakı Dövlət Univeristetinin doktorantı*
**naghiyeva95@gmail.com**

# SİYASİ ŞÜUR VƏ SOSİAL TƏRƏQQİ VAHİD TAMIN İKİ MÜHÜM KOMPONENTİ KİMİ: QARŞILIQLI ƏLAQƏLƏRİN TƏHLİLİ

*Siyasi şüur və sosial tərəqqi bir-biri ilə sıx bağlı olmaqla həm də vaid tamın iki mühüm komponenti kimi biri digərini gücləndirir. Siyasi şüur siyasi institutların struktur tərkibini və siyasi proseslərin dərk edilməsi və tənqidi təhlilini təşviq etməklə sosial tərəqqiyə yol açır. Bu isə fərdlərə sosial dəyişiklikləri müdafiə etmək və bərabərsizlikləri həll etmək imkanı verir. Öz növbəsində, sosial tərəqqi təhsil və məlumat əldə etmək kimi inkişaf imkanlarını təmin etməklə siyasi şüuru inkişaf etdirir və təkmilləşdirir. Demokratik proseslərdə fəal iştirakçılıq, seçkili orqanlara seçilmiş nümayəndələrin məsuliyyət daşıması həm siyasi şüuru, həm də sosial tərəqqini gücləndirir. Bununla belə, siyasi şüur və sosial rifah arasındakı əlaqə həm də mürəkkəb xarakterlidir .Çünki ikili arasındakı əlaqələri həm də tarix, mədəniyyət və sosial-iqtisadi şərait və mühit kimi amillər şərtləndirir. Bu baxımdan təhsilə əlçatanlığın qarşısında olan maneələrin aradan qaldırılması , inklüzivliyin təşviq edilməsi ədalətli sosial tərəqqi üçün vacibdir. Təqdim edilən məqalədə də siyasi şüur və sosial tərəqqi arasındakı qarşılıqlı əlaqə təhlil edilir. Sosial tərəqqi anlayışından bəhs edilir və vətəndaşların ictimai-siyasi proseslərdə fəal iştirakının sosial tərəqqiyə təsirlərinə toxunulur. Həmçinin ümumi siyasi şüur sosial tərəqqinin təmin edilməsində əhəmiyyətli faktor kimi təhlil olunur.*

*Açar sözlər:* Siyasi şüur, sosial tərəqqi, ictimai-siyasi iştirak, vətəndaş cəmiyyəti, siyasi proseslər.

***Giriş***. Siyasi şüur fərdlərə və bütövlükdə cəmiyyətlərə dərin təsir etmə imkanları ilə müasir dünyada mühüm əhəmiyyət və aktuallıq kəsb edir. Bu, fərdlərin siyasi proseslər, institutlar, strukturlar və ideologiyalarla məlumatlılığını, onları dərk etməsini və fəal iştirakını müəyyən edir [1, p.29-30]. Siyasi şüur cəmiyyətlərin formalaşmasında, siyasi qərarların qəbulunda, sosial ədalətin və demokratik iştirakın təşviqində mühüm rol oynayır. Siyasi şüurla fərdlər siyasi hadisələri tənqidi təhlil edə, əsas motivləri ayırd edə və əsaslandırılmış mühakimə yürüdə bilərlər. Bu maarifləndirmə isə vətəndaşlara demokratik proseslərdə fəal iştirak etməyə, qərarların qəbuluna töhfə verməyə, öz hüquq və maraqlarını qorumağa imkan verir [2, p.8]. Bundan əlavə, siyasi şüur sosial ədalətin təşviqi və bərabərsizliklərlə qarşı sistemli mübarizə üçün çox vacibdir. Bu, fərdlərə təzyiq sistemlərini, ayrı-seçkiliyi və marjinallaşmanı tanımağa və onlara qarşı çıxmağa imkan verir. Sosial məsələlərin və siyasi strukturların qarşılıqlı əlaqəsini dərk edərək, siyasi şüurlu fərdlər sosial ədalətsizlikləri aradan qaldıra və ədalətli siyasətin tərəfdarı ola bilərlər. Siyasi şüur sosial dəyişikliklər üçün katalizator rolunu oynayır, kollektiv fəaliyyəti səfərbər edir və təcrid olunmuş icmalara səs imkanı verir [7, p.47-48]. Siyasi şüur həm də demokratik iştirak və idarəçilikdə mühüm rol oynayır. Demokratik cəmiyyətlərdə siyasi sistemin düzgün işləməsi üçün məlumatlı vətəndaşların olması vacibdir. Siyasi şüur fərdləri səsvermə hüquqlarından istifadə etməyə və seçilmiş nümayəndələri də məsuliyyətli olmağa vadar edir [4, p.65].

Sürətli informasiya axını və inkişaf edən modern cəmiyyətlər kontekstində siyasi şüur məsələsi getdikcə daha da aktuallaşır. O, fərdləri dezinformasiya və propaqandaya qurban getməmək üçün lazım olan tənqidi düşünmə bacarıqları ilə təmin edir. Siyasi şüur media savadlılığını və analitik düşüncəni təşviq etməklə, fərdlərə etibarlı məlumat və manipulyasiya arasında fərq görməyə kömək edir, onlara əsaslandırılmış doğru qərarlar qəbul etməyə və siyasi müzakirələrdə məntiqli və məzmunllu formada iştirak etməyə imkan yaradır. Bununla yanaşı, siyasi şüur vətəndaş məsuliyyəti və bağlılıq hissini gücləndirir. O, fərdləri öz cəmiyyətlərinə fəal şəkildə töhfə verməyə, könüllü işlərdə və vətəndaş cəmiyyəti təşkilatlarında iştirak etməyə təşviq edir [3, p.12].

Yuxarıda irəli sürülmüş müddəalardan aydın olur ki, siyasi şüur sosial tərəqiyyə böyük təsir göstərir. Bu məqalədə həmin təsir geniş təhlil edilir.

***Sosial tərəqqi anlayışı***. Sosial tərəqqi fərdlər və cəmiyyətlər üçün rifahı və həyat keyfiyyətini yüksəltmək məqsədi daşıyır, cəmiyyətlərin müxtəlif aspetklərdə irəliləyişini və təkmilləşməsini əhatə edir. Bu, sosial, iqtisadi, mədəni və siyasi aspektlərdə müsbət dəyişiklikləri, bərabərlik, ədalət və cəmiyyətin çiçəklənməsi üçün səyləri əhatə edir. Sosial tərəqqinin müxtəlif aspektlərini başa düşmək, daha inklüziv və dayanıqlı cəmiyyət qurmaq, onu qiymətləndirmək və işləmək üçün çox vacibdir. Sosial tərəqqinin iqtisadi aspekti diqqəti maddi rifahın yaxşılaşdırılmasına və yoxsulluğun azaldılmasına yönəldir. Buraya iqtisadi artım, gəlir bölgüsü, məşğulluq imkanları, əsas ehtiyaclara əlçatanlıq və iqtisadi sabitlik kimi amillər daxildir. Bu aspektdə irəliləyiş yoxsulluq səviyyəsinin azaldılmasını, təhsil və səhiyyə xidmətlərinə çıxışın artırılmasını və cəmiyyətin bütün üzvlərinə fayda verən inklüziv iqtisadi sistemlərin yaradılmasını nəzərdə tutur [1, p.32].

Sosial tərəqqinin sosial aspekti sosial birlik, inklüzivlik və insan hüquqları ətrafında mərkəzləşir. O, təhsil, səhiyyə, mənzil və sosial xidmətlərə çıxış, həmçinin gender bərabərliyi, irqi və etnik inklüzivlik və əhalinin həssashissəsinin müdafiəsi kimi sahələri əhatə edir. Sosial ölçüdə irəliləyişlər hamının bərabər imkanlara və qanun qarşısında müdafiəsinə malik olduğu bir cəmiyyət yaratmaq məqsədi daşıyır.

Sosial tərəqqinin ekoloji aspekti davamlılığa, ətraf mühitə nəzarətə və təbii ehtiyatların qorunmasına diqqət yetirir. Bu, iqlim dəyişikliyinin aradan qaldırılması, bərpa olunan enerjinin təşviqi, biomüxtəlifliyin qorunması, çirklənmənin azaldılması və ekosistemlərin davamlılığının təmin edilməsini əhatə edir. Bu aspektdə irəliləyiş planetin qorunması və indiki və gələcək nəsillər üçün yaşana bilən mühitin yaradılması üçün vacibdir.

Sosial tərəqqinin siyasi aspekti demokratik institutların, insan hüquqlarının və yaxşı idarəçiliyin inkişafı və gücləndirilməsini əhatə edir. O, siyasi iştirak, söz azadlığı, qanunun aliliyi, şəffaflıq və hesabatlılıq kimi elementləri əhatə edir. Siyasi müstəvidə irəliləyiş fərdlərin qərar qəbuletmə proseslərində iştirak etmək və hökumətlərinin öz hərəkətlərinə görə cəmiyyət qarşısında cavabdehlik daşımaq məsuliyyətinin olduğu bir cəmiyyət yaratmaq məqsədi daşıyır.

Sosial tərəqqinin mədəni aspekti mədəni müxtəlifliyin, mədəniyyətlərarası dialoqun və mədəni irsin qorunmasının vacibliyini qəbul edir. O, inklüzivliyi, mədəni kimliklərə hörməti və mədəni mübadilə və anlaşmanı təşviq etməyi əhatə edir. Mədəni sahədə irəliləyiş sosial harmoniya, qarşılıqlı hörmət və müxtəlif mədəni ifadələrin qeyd olunmasına kömək edir.

Sosial tərəqqinin texnoloji aspekti insanın rifahını artırmaq üçün texnologiyadan etik və məsuliyyətli istifadəyə diqqət yetirir. O, informasiya və kommunikasiya texnologiyalarına çıxış, rəqəmsal savadlılıq və yeni yaranan texnologiyaların etik təsirləri kimi sahələri əhatə edir. Bu sahədə irəliləyiş texnologiyanın bərabərsizlikləri davam etdirməməsini və fərdi hüquqlara xələl gətirməməsini təmin etməklə cəmiyyətin xeyrinə istifadə etməyi əhatə edir [7, p.50].

Yuxarıda qeyd edilmiş aspektlər baxımından sosial tərəqqini anlamaq və buna can atmaq ədalətli, davamlı və inklüziv cəmiyyət yaratmaq üçün vacibdir. Yalnız İqtisadi bərabərsizlikləri aradan qaldırmaq, sosial birliyi təşviq etmək, ətraf mühiti qorumaq, demokratik institutları gücləndirmək, mədəni müxtəlifliyi qiymətləndirmək və texnologiyadan məsuliyyətli istifadəni mənimsəməklə, cəmiyyətdə hər kəsin inkişafını təmin etmək və kollektiv rifaha töhfə vermək mümkün ola bilər.

***Vətəndaşların ictimai-siyasi iştirakının sosial tərəqqiyə təsirləri***. Vətəndaşların ictimai-siyasi iştirakı sosial tərəqqiyə təkan verir və ictimai münasibətlərdə mühüm rol oynayır. Fərdlər öz cəmiyyətlərində fəal şəkildə iştirak etdikdə və siyasi proseslərdə iştirak etdikdə bu, sosial tərəqqiyə bir sıra müsbət təsirlərə səbəb ola bilər. Sosial və siyasi iştirakın sosial tərəqqiyə bəzi əsas təsirləri aşağıdakılardır:

*Hesabatlılıq və şəffaflıq*. Vətəndaşların iştirakı hökumətləri, başqa sözlə ölkənin idarəsi ilə bağlı qərar qəbul edən qüvvələri öz hərəkətlərinə görə məsuliyyət daşımağa sövq edir. Bəzən hətta ictimai nəzarət korrupsioner hökumətləri cinayət məsuliyyətinə belə cəlb edir. Bu, korrupsiyanın, vəzifə səlahiyyətlərindən sui-istifadənin qarşısını alır və hökumətin atdığı addımların, eləcə də izlədiyi siyasi strategiyanın cəmiyyətin, xalqın maraqlarına uyğun olmasını təmin edir [6, s.62].

*Cavabdehlik*. Vətəndaşların iştirakı hökumətin atdığı addımların, eləcə də izlədiyi siyasi strategiyanın həmçinin fərdlərin də ehtiyac və istəklərinə uyğun olmasını təmin edir. Vətəndaşlar ictimai

müzakirələrdə fəal iştirak etdikdə, rəy bildirdikdə və öz fikirlərində müxtəlif perspektivlər təqdim etdikdə, bu, hamının marağına uyğun sosial siyasətin formalaşdırılması prosesini zənginləşdirir. Bu inklüziv yanaşma sosial problemləri müəyyən etməyə və həll etməyə kömək edir [8, s.111].

*İnklüzivlik*. Sosial-siyasi iştirak inklüziv qərar qəbuletmə proseslərini təşviq etməklə sosial birliyi gücləndirir. Müxtəlif mənşəli və fərqli sosial təbəqədən olan vətəndaşlar sosial münasibətlərdə fəal iştirak etdikdə, bu, müxtəlif səslərin eşidilməsini təmin edir, mənsubiyyət və təmsilçilik hissini gücləndirir. Bu isə inklüzivlik cəmiyyətdəki ayrı-seçkiliyi aradan qaldırmağa, bərabərsizlikləri azaltmağa və daha birləşmiş və harmonik cəmiyyət yaratmağa kömək edir [5, s.155].

*Maarifləndirmə*. İctimai-siyasi iştirak fərdlərə öz həyatları və yaşadıqları cəmiyyət arasında bağlılıq hissi yaratmaqla onların siyasi şüurunu gücləndirir. QHT təşkilatçılığı, könüllülük və ya ictimai vəkillik kampaniyalarına qoşulma kimi vətəndaş fəaliyyətlərində iştirak vasitəsilə fərdlər sosial məsələlərdən daha çox xəbərdar olur və öz hüquq və vəzifələrini daha dərindən dərk edirlər. Bu, sosial tərəqqiyə töhfə vermək baxımından inamın və motivasiyanın artmasına səbəb olur [6, s.63].

*Sosial transformasiya*. Vətəndaşların iştirakı tez-tez sosial dəyişikliyə səbəb olur. Fərdlər bir araya gəldikdə, səfərbər olduqda və sosial ədaləti kollektiv şəkildə müdafiə etdikdə, bu, əhəmiyyətli irəliləyişlə nəticələnir. Vətəndaş hüquqları, gender bərabərliyi, ətraf mühitin mühafizəsi və iqtisadi ədalət kimi məsələləri həll edən hərəkatlar tez-tez vətəndaşların rəhbərlik etdiyi təşəbbüslərdən yaranır. Bu kollektiv səylər ictimai məlumatlılığı artırır, ənənəvi sosial normalara meydan oxuyur və transformativ təcrübələrə təkan verir [5, s.154].

*Gücləndirilmiş demokratiya*. İctimai-siyasi iştirak demokratiyanın fundamental faktorudur. Vətəndaşlar səsvermədə iştirak etmək və vətəndaş cəmiyyəti təşkilatlarına qoşulmaq kimi demokratik proseslərdə fəal iştirak etdikdə, bu, demokratik təsisatları və dəyərləri gücləndirir. Belə fəallıq hökumət tərəfindən alınan qərarların məhz xalqın iradəsini əks etdirməsini təmin edir. Bu da öz növbəsində idarəetmə sistemlərinin legitimliyini gücləndirir və demokratik cəmiyyətlərin ümumi fəaliyyətinə kömək edir [8, s.112].

***Ümumi siyasi şüur sosial tərəqqinin təmin edilməsində əhəmiyyətli faktor kimi*.** Yuxarıda qeyd olunduğu kimi, sosial tərəqqi insan hüquqları, bərabərlik, ədalət, təhsil, səhiyyə və ümumi rifah kimi sahələrdə inkişafı əhatə edir, eləcə də cəmiyyətin müsbət transformasiyasını şərtləndirir. Bu kontekstdə siyasi şüur ictimai tərəqqiyə təkan verməkdə və formalaşmasında həlledici rol oynayır. Siyasi şüur fərdi və ya kollektiv şüur, anlayış və siyasi proseslər, strukturlar və ideologiyalarla əlaqəni ifadə edir. Özlüyündə siyasi şüurhəm də cəmiyyət daxilində güc dinamikasını, sosial bərabərsizlikləri və ədalətsizlikləri tənqidi şəkildə təhlil etməkdən ibarətdir. Siyasi şüur fərdi şüurdan kənara çıxır; siyasi sistemlərin mürəkkəbliklərini, siyasi proseslərin nəticələrini və ictimai quruluşun formalaşmasında fəal iştirakçılar kimi fərdlərin rolunu daha dərindən dərk etməyi nəzərdə tutur.

Siyasi şüur cəmiyyətin inkişafında həlledici rol oynayır, sosial dəyişikliklərə və cəmiyyətlərin ümumi rifahına təsir göstərir. Siyasi şüur fərdlərə siyasi sferada fəal iştirak etmək səlahiyyətini verir və onların həyatlarına təsir edən qərar qəbuletmə proseslərində söz sahibi olmağa imkan verir. Fərdləri öz cəmiyyətinin istiqamətini formalaşdıran və onun inkişafına töhfə verə biləcək məlumatlı vətəndaşlar olmağa sövq edir.

Siyasi şüur sosial ədalətsizliklərin və ictimai bərabərsizliklərin həllində həyati əhəmiyyət kəsb edir. Bu, fərdlərə tiran sistemləri və mənfi ayrı-seçkiliyi müəyyən etməyə və onlara etiraz etməyə imkan verir. Sistemli məsələlər barədə məlumatlılığı təşviq etməklə, siyasi şüur həm də daha ədalətli cəmiyyət yaratmaq məqsədi daşıyan kollektiv fəaliyyəti, ictimai vəkillik və siyasət islahatları səfərbər edə bilər [7, p.52].

Demokratik cəmiyyətlərdə siyasi şüur siyasi sistemin işləməsi üçün əsasdır. O, fəal vətəndaşlığı, məlumatlı qərar qəbul etməyi təşviq edir və ümumi mənafe kontekstində məsuliyyət hissini aşılayır. Siyasi şüur səsvermə, ictimai müzakirələrdə iştirak və seçilmiş nümayəndələrin məsuliyyətə cəlb edilməsi kimi demokratik proseslərlə məşğul olmağa təkan verir.

Siyasi şüur çox vaxt sosial dəyişiklik və ictimai transformasiya üçün katalizatordur. O, status-kvoya meydan oxuyan və ictimai problemləri həll etməyə çalışan ictimai hərəkatları, ictimai fəallığı

və lokal təşəbbüsləri gücləndirir. Siyasi şüur maarifləndirmək, fərdləri səfərbər etmək və ictimai diskursu formalaşdırmaqla mütərəqqi sosial, iqtisadi və mədəni dəyişiklikləri formalaşdırır.

Siyasi şüur hökumətə nəzarət mexanizmi kimi də çıxış edir. Bu da öz növbəsində şəffaflığı və hesabatlılığı gücləndirir. Fərdlər siyasi şüurlu olduqda, siyasi liderlər şəffaf, etik və məsuliyyətli qərarlar qəbul etmək məcburiyyətində qalırlar. Çünkü vətəndaşlar siyasi liderlərin və qurumların hərəkətlərini diqqətlə izləyirlər. Bu, korrupsiyanın, vəzifə səlahiyyətlərindən sui-istifadənin qarşısını alır və dövlət məmurlarının öz əməllərinə görə məsuliyyət daşımasını təmin edir [3, p.14].

Siyasi şüur cəmiyyətin dəyərlərini və məqsədlərini formalaşdırmağa kömək edir. O, fərdləri ictimai normaları, dəyərləri və mədəni təcrübələri tənqidi şəkildə araşdırmağa sövq edir. Empatiya, anlaşma və həmrəyliyi təşviq etməklə, siyasi şüur ədalətə, inklüzivliyə və insan hüquqlarına hörmətə əsaslanan sosial tərəqqiyə yol açır. Bununla belə, etiraf etmək lazımdır ki, siyasi şüuru inkişaf etdirmək olduqca çətindir və bəzi hallarda ictimai müqavimətlə üzləşə bilər. Təhsilə, mötəbər informasiyaya və ya iştirak platformalarına məhdud çıxış kimi maneələr, həmçinin sosial parçalanmalar və ideoloji münaqişələr siyasi şüurun inkişafına mane olan əsas faktorlardır.

***Nəticə.*** Siyasi şüur və sosial tərəqqi arasında qarşılıqlı əlaqəni təhlil edərkən bu iki anlayışın bir-biri ilə dərindən bağlı və bir-birini gücləndirdiyi aydın olur. Siyasi şüur sosial tərəqqinin katalizatoru kimi çıxış edir, ictimai tərəqqi isə öz növbəsində siyasi şüuru yetişdirir və genişləndirir. Bu qarşılıqlı asılılıq siyasi şüurun, tənqidi təfəkkürün və sosial inkişafın formalaşmasında fəal iştirakın transformativ gücündən irəli gəlir. İlk növbədə, siyasi şüur siyasi proseslərin və strukturların maariflənməsini, dərk edilməsini və tənqidi təhlilini təşviq etməklə sosial tərəqqinin hərəkətverici qüvvəsi rolunu oynayır. O, fərdləri mürəkkəb güc dinamikasını idarə etmək, sistemli ədalətsizlikləri müəyyən etmək və tiran sistemlərə meydan oxumaq üçün lazım olan bilik və bacarıqlarla təmin edir. Siyasi şüur vasitəsilə fərdlər öz hüquqlarından xəbərdar olur, məlumatlı qərarların qəbulu ilə məşğul olur və sosial dəyişikliklərin tərəfdarı olurlar. Beləliklə, o, fərdlərə sosial bərabərsizlikləri həll etmək, inklüzivliyi təşviq etmək və ədalət uğrunda mübarizə aparmaq səlahiyyətini verir.

Bundan əlavə, vətəndaş məsuliyyəti hissini aşılayır, fərdləri demokratik prosesdə fəal iştirak etməyə və cəmiyyətin inkişafına töhfə verməyə sövq edir. Fərdlər siyasi məsələlər və onların nəticələri haqqında yüksək məlumatlı olduqda, səsvermə hüquqlarından istifadə etmək və seçilmiş nümayəndələri məsuliyyətli olmağa sövq etmək ehtimalı daha yüksəkdir. Bu fəal iştirak yalnız demokratik təsisatları gücləndirmir, həm də idarəetmə qərarlarının insanların ehtiyaclarını əks etdirməsini təmin edir.

Əks-əlaqə baxımından, sosial tərəqqi də siyasi şüurun inkişafı üçün əlverişli mühit yaratmaqla onu inkişaf etdirir və genişləndirir. Təhsil, mötəbər məlumatlara çıxış və vətəndaş fəallığı kimi sahələrdə irəliləyişlər fərdlərə siyasi şüurunu dərinləşdirmək üçün imkanlar təqdim edir. Cəmiyyət iqtisadi, sosial və texnoloji cəhətdən inkişaf etdikcə, siyasi şüurun çiçəklənmə potensialı artır. Sosial tərəqqi həm də siyasi şüurun əhəmiyyətini artırır. Çünki ortaya çıxan problemlərə və çağırışlara işıq salır, fərdlərdən dəyişən siyasi mənzərəyə uyğunlaşmağı və bu dəyişiklikdə iştirak etməyi tələb edir.

Qeyd etmək vacibdir ki, siyasi şüur və sosial tərəqqi arasında qarşılıqlı əlaqə bütün cəmiyyətlərdə xətti və ya vahid deyil. Tarixi kontekst, mədəni normalar, sosial-iqtisadi şərait və siyasi sistemlər kimi amillər bu qarşılıqlı əlaqənin sürətinə və istiqamətinə təsir edə bilər. Bundan əlavə, təhsilə, mötəbər informasiyaya və ya iştirak platformalarına məhdud çıxış kimi maneələr siyasi şüurun inkişafına mane ola bilər. Bu maneələrin aradan qaldırılması və siyasi maarifləndirmə üçün inklüziv imkanların təşviq edilməsi ədalətli sosial tərəqqinin təmin edilməsi üçün çox vacibdir.

## ƏDƏBİYYAT

1. Berman, Larry, and Bruce Allen Murphy. The Process of Politics: A Comparative Approach. Boston: Cengage Learning, 2018, 432 p.
2. Easton, David. The Political Process: A Functional Analysis. New York: Knopf, 1965, 330 p.
3. Fukuyama, Francis. Political Order and Political Decay: From the Industrial Revolution to the Globalization of Democracy. New York: Farrar, Straus and Giroux, 2014, 450 p.

4. Heilbroner, Robert L., and William Milberg. The Structure of Political Economy: The Business Firm and the State. New York: W.W.Norton & Company, 1995, 541 p.
5. Kaymal, Cansu. Başkanlık Sistemi ve Siyasi İstikrar Arasındaki İlişki. Strategic Public Management Journal. 2017, 3(6), p.150-167.
6. Özgül, Bülent. Siyasi Partilerde Yandaşların Liderlik Beklentilerini Etkileyen Sosyal Faktörler // Türkiye Mesleki ve Sosyal Bilimler Dergisi, 2019, Sayı 1, s.60-88.
7. Sabatier, Paul A., and Christopher M. Weible, eds. Theories of the Policy Process. 4th ed. Boulder, CO: Westview Press, 2014, 650 p.
8. Yeşilorman, Mehtap. Aile Siyasi Etkisini Kaybetmekte midir? Siyasi Parti Tercihinde Nesiller Arası Değişim // Bilig, 2005, Sayı 32, s.109-124.

**РУГИЯ НАГИЕВА**
*Докторант Бакинского Государственного Университета*

## ПОЛИТИЧЕСКОЕ СОЗНАНИЕ И ОБЩЕСТВЕННЫЙ ПРОГРЕСС КАК ДВЕ ВАЖНЫЕ СОСТАВЛЯЮЩИЕ ЕДИНОГО ЦЕЛОГО: АНАЛИЗ ВЗАИМООТНОШЕНИЙ

Политическое сознание и социальный прогресс тесно связаны и усиливают друг друга. Политическое сознание способствует социальному прогрессу, способствуя пониманию и критическому анализу политических структур и процессов. Это дает людям возможность бросить вызов тираническим системам, выступать за социальные изменения и бороться с неравенством. В свою очередь, социальный прогресс развивает и расширяет политическое сознание, предоставляя такие возможности для развития, как образование и доступ к информации. Активное участие в демократических процессах, подотчетность избранных представителей укрепляют как политическое сознание, так и социальный прогресс. Однако отношения между ними сложны и зависят от таких факторов, как история, культура и социально-экономические условия. Устранение барьеров на пути политического образования и поощрение инклюзивности необходимы для справедливого социального прогресса. В связи с этим в данной статье анализируется взаимодействие политического сознания и общественного прогресса. Обсуждается концепция социального прогресса и затрагиваются последствия социального и политического участия граждан в социальном прогрессе. Также анализируется общее политическое сознание как важный фактор обеспечения общественного прогресса.

*Ключевые слова:* политическое сознание, общественный прогресс, общественно-политическое участие, гражданское общество, политические процессы.

**RU□İA NA□İYEVA**
*Baku State University, PhD student*

## POLITICAL CONSCIOUSNESS AND SOCIAL PRO□RESS AS TWO IMPORTANT COMPONENTS OF A SIN□LE WHOLE: AN ANALYSIS OF MUTUAL RELATIONS

Political consciousness and social progress are closely related and mutually reinforcing. Political awareness promotes social progress by promoting understanding and critical analysis of political structures and processes. It empowers individuals to challenge tyrannical systems, advocate for social change, and address inequalities. In turn, social progress develops and expands political consciousness by providing opportunities for development such as education and access to information. Active participation in democratic processes and accountability of elected representatives strengthens both political awareness and social progress. However, the relationship

between the two is complex and influenced by factors such as history, culture, and socio-economic conditions. Removing barriers to political education and promoting inclusion are essential to equitable social progress. In this regard, this article analyzes the interaction between political consciousness and social progress. The concept of social progress is discussed and the effects of social and political participation of citizens on social progress are touched upon. Also, general political consciousness is analyzed as an important factor in ensuring social progress.

*Keywords:* Political consciousness, social progress, socio-political participation, civil society, political processes.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: s.e.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94(479.24)**

**TƏRANƏ ƏLİVƏRDİYEVA**
*Bakı Dövlət Universiteti*
*"Azərbaycanın yeni və ən yeni tarixi*
*humanitar fənlər üzrə)" kafedrasının doktorantı*
**taranaaliverdiyeva@mail.ru**

# AZƏRBAYCANDA SEPARATİST MEYİLLƏRİN VƏTƏNDAŞ MÜHARİBƏSİNƏ ÇEVRİLMƏSİNİN QARŞISININ ALINMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Məqalə 1993-cü ilin yayında baş vermiş hadisələri öyrənməyi və bu böhranın həllində Heydər Əliyevin rolunu araşdırmağı qarşısına məqsəd qoyur. Daxili və xarici qüvvələrin birgə destruktiv fəaliyyəti nəticəsində Azərbaycan dövlətçiliyi real süqut təhlükəsi ilə üz-üzə qalmış, etnik separatizm və vətəndaş müharibəsi təhlükəsi baş qaldırmışdı. Müstəqillik əldə etdikdən sonra respublikada dərin böhran, korrupsiya, qanunsuz silahlı birləşmələrin varlığı təhlükəli vəziyyətin yaranmasına gətirib çıxarmışdı. İnsan alveri və digər cinayətlər yayılmışdı. Azərbaycanın bir dövlət kimi yox olmasını istəyən, onu daxildən parçalamağa çalışan qüvvələrin qarşısını almaq üçün təcrübəli siyasi xadimə ehtiyac vardı. Ölkə idarəolunmaz hala gəlmiş, dövlət strukturları öz fəaliyyətini icra edə bilmirdi. Siyasi qüvvələr öz ətraflarına silahlı dəstələr toplayıb yenidən hakimiyyət uğrunda mübarizəyə başlamışdılar. AXC-Müsavat iqtidarı öz qüdrətini qorumaq üçün Milli Ordunu cəbhə bölgəsindən geri çağırsa da, Surət Hüseynovun qiyamının və Ələkrəm Hümbətovun separatçı fəaliyyətlərinin qarşısında aciz qalmışdı. Xalqın istəyi ilə hakimiyyət sükanlarını öz əlinə alan Ümummilli Lider Heydər Əliyev siyasi və digər hüquqi tədbirlərin həyata keçirilməsi ilə separatizmin güclənməsinin qarşısını aldı və dövlət müstəqilliyinin qorunmasının əsaslarını formalaşdırdı.*

*Açar sözlər*: Heydər Əliyev, iğtişaş, vətəndaş müharibəsi, milli qurtuluş günü.

***Giriş***. Separatizm müasir tarixin ən fəsadlı problemlərindən biridir. Bir sıra hallarda separatizmin tarixi kökləri olsa da, onun yenidən baş qaldırmasında xarici təsirlər də xüsusi rol oynayır. Bir çox hallarda xarici təsirlər yeni separatçı ocaqların yaranmasına gətirib çıxardır. Azərbaycan Respublikası müstəqillik əldə etdiyi zaman həm Ermənistanın silahlı təcavüzünə məruz qalmış, həm də Qarabağda ermənilərin separatçılığı ilə üzləşmişdi. Ermənilərin Azərbaycan ərazilərində separatçılıq etməsi 1918-20-ci illərdə də özünü göstərmişdi. Ona görə də, əslində 1988-ci ildə başlayan və 1991-ci ildə dövlətlərarası müharibəyə keçən bu proses tarixi həlqənin davamı hesab edilə bilərdi. Ancaq Azərbaycanda yaşayan digər azsaylı xalqlar tərəfindən heç bir zaman Azərbaycandan ayrılmaq meyilləri təzahür etməmişdi. Azərbaycanda yaşayan Azərbaycan türkləri, talışlar, ləzgilər, avarlar, digər millətlər hər zaman mehriban yaşamış və birgəyaşayış nümunələri göstərmişlər. 1991-ci ildən etibarən bu xalqlar arasında da separatçı ideyaların inkişaf etdirilməsi üçün xarici simmetrik və assimetrik qüvvələr hərəkətə keçdi. Onlar ilk növbədə ölkədəki siyasi vəziyyətin qeyri-müəyyənliyindən yararlanmağa çalışdılar. Lakin Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlətin böhrandan çıxış prosesi başladı. 1993-1995-ci illər arasında Heydər Əliyev qiyamçı və separatçı meyillərin qarşısını aldı. Lakin bu proseslərin mahiyyətini idrak etmək üçün məqalədə ilk öncə qiyamçı meyillər, daha sonra isə separatçılıq fəaliyyətləri öyrənilmiş, yekunda elmi nəticələr əldə edilmişdir.

***Qiyamçı fəaliyyətlər və onların aradan qalıdırılması***. Hər bir millətin dövlət müstəqilliyi əldə etməsi və beynəlxalq münasibətlər sistemində özünə layiqli bir yer tutması üçün əlverişli siyasi mühitin mövcudluğu, milli iradənin qətiyyəti və güclü siyasi lider siyasi prosesləri nəzarəti altına alaraq dövlət orqanlarının işləkliyini təmin etməsi zəruridir. Bu baxımından tarixi prosesləri, xüsusi ilə 1990-cı illərdə Azərbaycanda cərəyan edən hadisələri dəyərləndirərkən Ümummilli Lider Heydər Əliyevin Azərbaycan tarixində güclü siyasi lider xüsusiyyətləri qabarıq olaraq özünü göstərir. Heydər Əliyev özünün siyasi təcrübəsi və strateji yanaşmaları, eləcə də dühası ilə milli dövlətçiliyimizin, onun atributlarının memarı və regional proseslərdə lider halına gələn Azərbaycan Respublikasının qurucusudur. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında tarixi

xidmətləri həm də onunla bağlıdır ki, o, dövlətin daxili və xarici siyasətini xaotiklikdən çıxardaraq ptraqmatik və elmi relslər üzərinə otuzduzdurdu. Onun fəaliyyətinin tarixi əhəmiyyəti bundan ibarət idi ki, artıq Azərbaycanın xarici siyasət addımları bəsirətsizlik və əsassızlıq üzərində atılmır, hər addımında Ümummilli Lider Heydər Əliyevin dövlət insanı şəxsiyyətinin töhfələri hiss edilirdi.

Azərbaycan xalqı hələ 1991-ci ildə müstəqilliyini elan etsə də, siyasi hakimiyyətlərinin şəristəsizliyi, elmi əsaslarla məsələlərə baxa bilməməsi, lazımi və adekvat reaksiyalar göstərməməsi dövləti bir sıra daxili və xarici təhlükələr qarşısında qoymuş, ölkənin siyasi sərhədləri daxilində mövcudluğu sual altına düşmüşdü.

Digər tərəfdən Ermənistanın Azərbaycana qarşı apardığı işğal siyasəti və ölkə daxilində baş verən hakimiyyət uğrunda mübarizə xalqda bir inamsızlığın yaranmasına gətirib çıxarmışdı. Xalq siyasi hakimiyyətin qərarsızlığından dövlət orqanlarının işləkliliyinə artıq şübhə ilə yanaşmağa başlamışdı. Problemlər nəinki regionlarda idi, bir zaman sülh, stabillik və birgəyaşayış nümunəsi olan Bakı şəhərində dövlət hakimiyyəti demək olar ki, iflic olmuş, əhalinin rifah səviyyəsi düşmüş, vətəndaşların şəxsi təhlükəsizliyinin təmin edilməsi sual altına düşmüşdü. Daxili və xarici qüvvələrinin birgə fəaliyyət nəticəsində Azərbaycan real parçalanma təhlükəsi ilə üz-üzə qalmış, bir tərəfdən də yeni təhlükə formaları olaraq etnik separatizmin və vətəndaş müharibəsinin baş qaldırması dövlətin lazımi əllərdə olması ehtiyacını gücləndirmişdi. Müstəqillik əldə etdikdən sonra respublika dərin böhran içinə düşmüş, quldurluq halları çoxalmış, korrupsiya dövlət strukturlarını öz əhatəsinə almış, banditizm halları istər mərkəzdə, istərsə də regionlarda kəskin bir şəkildə artmışdı. Yollarda təhlükəsizlik təmin edilmir, ölkə daxilində yerli və eləcə də tranzit olaraq hərəkət edən minik vasitələri, avtobuslar, şəxsi maşınlar qarət edilir, insanların həyati təhlükəsi yaranır, əmlak və şəxsi əşyaların qorunması funksiyasını reallaşdırmalı olan hüquq mühafizə orqanları özbaşnalıqlarla bacarmırdı.

Azərbaycan dövlətçiliyini yox etməyə çalışan, daxildən parçalamağa cəhd edən qüvvələrin qarşısını almağa qadir olan siyasi şəxsiyyət ölkəni idarə etmirdi, Ümummilli lider Heydər Əliyevin qayıdışı artıq bir ümummilli zərurət halını alırdı. [4,s.27] Ölkə idarəolunmaz hala gəlmiş, siyasi qruplaşmalar qanunla nəzərdə tutulmuş formaları bir kənara buraxaraq öz ətraflarına silahlı qruplar toplayıb, yenidən iqtidar mübarizəsini başlatmış, bununla da dar siyasi maraqlarını ümummilli maraqların üzərinə gətirmişdilər. Bir tərəfdən "Xalq Cəbhəsi" – "Müsavat" hökuməti öz hakimiyyətini saxlamaq, digər tərəfdən isə Surət Hüseynov və Ələkrəm Hümbətov hakimiyyəti ələ keçirmək məqsədi ilə cəbhə xəttindən Milli Ordunu geri çağırmışdı. Bu isə onu göstərirdi ki, Orduda vahid komandanlıq təmin edilməmiş, ordu ayrı-ayrı şəxslərin idarə etdiyi xaotik silahlı birləşmələr halına gətirilmişdi. Bunun özü ermənilərin təcavüznün qarşısının alınmasına mənfi təsir etmiş, Ermənistan işğalı bir qədər də dərinləşmişdi.

Həlledici bir anda S.Hüseynovun əmri ilə Ağdərədə müdafiədə dayanan qüvvələr mövqelərindən çıxarılması nəticəsində Ağdərə-Kəlbəcər yolu ermənilər tərəfindən tutulmuş və Kəlbəcər yarımmühasirəyə alınmışdı. Cəbhə xəttinin boş qoyulması, ermənilərə aqressiyanı genişləndirməyə şərait yaratmış, qaçqınların sayının artması yeni-yeni humanitar problemlərin yaranmasına gətirib çıxarmışdı.

Azərbaycanın tədqiq edilən dövrdə siyasi bir təsisat və milli dövlət olaraq mövcudluğunun davam etməsi sual altına düşmüş, bu isə öz növbəsində ölkədə sosial, siyasi, hərbi və iqtisadi problemləri artırmışdı. 1993-cü il fevralın 22-də Prezident Əbülfəz Elçibəyin əmri ilə Surət Hüseynov korpus komandirliyindən uzaqlaşdırılır. Bunun səbəbi kimi Elçibəyin Surət Hüseynovun qiyam etməsindən qorxmasını göstərmək olar. Tarixi proseslərin sonrakı gedişi onu deməyə əsas verir ki, ehtimal ki, Elçibəyin Surət Hüseynovun qiyam edəcəyinə dair hansı isə bir kəşfiyyat məlumatları var idi. Bununla belə, yenə reaksiya adekvat bir şəkildə verilmədi və siyasi, hərbi və iqtisadi böhran dərinləşdi.

Həmçinin prezidentin Qarabağ məsələləri üzrə fövqəladə səlahiyyətli nümayəndəsi və baş nazirin müavini vəzifələrindən də çıxarılır. Bir neçə gün sonra Əbülfəz Elçibəy Gəncədəki 709 saylı hərbi hissənin ləğvi haqqında sərəncam imzalayır. Lakin bu sərəncamı həmin hissəyə faktiki rəhbərlik edən Surət Hüseynov icra etməkdən imtina edir.[5,s.161] Bu da mərkəzi hakimiyyətlə yerli idarə orqanları, eləcə də hərbi hissələr arasında subordinasiya münasibətlərinin düzgün

qurulmadığını deməyə əsas verir. Gözlənilmədən Gəncə kazarmalarında qiyam qalxması vəziyyəti daha da pisləşdirir. Qiyamı qaldıran 709 № -li hərbi hissə idi. Ona polkovnik Surət Hüseynov komandanlıq edirdi [2, s.448]. İyunun 4-ü, səhər saat 06:00-da rəsmi olaraq adlandırıldığı kimi, "polkovnik Sürət Hüseynovun komandanlıq etdiyi 709 saylı hərbi hissənin zərərsizləşdirilməsi" əməliyyatı başladı [3, s.127]. Həmin gün bir neçə saat ərzində Gəncədə polis postlarını ləğv edən silahlı qruplaşma Gəncə Şəhər İcra Hakimiyyətinin binasını ələ keçirir və daha sonra tank, "Qrad" qurğusu, qumbaraatan, pulemyot va avtomatla silahlanmış 200 nəfərlik dəstə MTN-in Gəncə şöbəsinə hücum edir. Bina güllənbaran edilir və binadakıların silahları təhvil verməsi, burada olan Baş prokuror İxtiyar Şirinov və Milli Təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbərovun onlarla hərbi hissəyə getməsi tələb olunur. Fəlakətin qarşısını almaq üçün dövlət məmurları qiyamçıların qanunsuz tələbi ilə razılaşırlar. MTN-in Operativ Tədbirlər Dəstəsinin hərbçilərinin Gəncəni tərk eləməsi də razılaşmaya daxil edilir. Həmin vaxt Sülhəddin Əkbərov hərbi hissəyə, İxtiyar Şirinov isə qiyamçıların nəzarətinə keçən polis idarəsinə aparılır. Həmin gün Bakıya qayıtmaq istəyən prezident qvardiyasının komandiri və 18 əsgər avtobusda güllənbaran edilir, 68 hərbçi və mülki şəxs həlak oldu. Döyüşən 12 əsgər tankların tırtırları altında əzilmiş, hökumət bölmələri tamamilə məğlub olmuşdu. Qiyamçılar tərəfindən1200 nəfər həbs edilmişdi ki, onlardan 180-i zabitlər idi. Qiyamçılar artıq saat 16-17 radələrində şəhərin bütün hakimiyyət və hüquq-mühafizə orqanlarını ələ keçirib, ora öz adamlarını rəhbər təyin edirlər [3, s.127].

Qiyamın genişlənərək Azərbaycanda vətəndaş muharibəsinin dərinləşməsinin qarşısı xalqın istəyi ilə proseslərə qoşulan Ümummilli Lider Heydər Əliyevin fəaliyyətləri ilə alındı.

Siyasi olaraq Heydər Əliyev şəxsiyyətinin hakimiyyətə qayıtmasından ehtiyat edən Əbülfəz Elçibəy bilirdi ki, bu xaosun sülh yolu ilə dayandırılması, dövlətin nüfuzunun bərpası üçün Heydər Əliyev şəxsiyyətinin qarşısında dayanmamaq lazımdır ki, o, bütün bilik və bacarıqlarını ölkəsi üçün reallaşdırsın. Qiyamçı korpusun komandirinin siyasi iddiaları yalnız onun fəaliyyəti ilə cilovlana bilərdi. Lakin Ümummilli Lider Heydər Əliyev həmin dövrdə 1987-ci ildən sonra mərkəzdən gördüyü haqqsızlıqlar səbəbi ilə paytaxta gəlmək istəmirdi**.** AXC-Musavat cütlüyünün hakimiyyəti illərində də Heydər Əliyev siyasi təzyiqlərə məruz qalmış, Naxçıvanda onun siyasi fəaliyyətinə son qoyulmasına cəh edilmiş, lakin xalqın məsələyə qarışması və öz liderinə sahib çıxması ilə bu cəhd uğursuzluqla nəticələnmişdi. Buna görə də, Əbülfəz Elçibəy bir neçə dəfə Naxçıvana zəng vursa da, Heydər Əliyev onunla danışmaqdan imtina etmiş, iyunun 7-də Bakıdan Heydər Əliyevi gətirmək üçün göndərilən təyyarə boş qayıtmış, səhərisi gün yenidən cəhd edilmiş, ancaq Heydər Əliyev yenə Bakıya uçmaqdan imtina etmişdi. Yalnız iyunun 9-da Surət Hüseynovun bölmələri artıq Bakıdan 100 km aralıqda olanda, Heydər Əliyev Azərbaycan dövlətinin mövcudluğunun qorunmasının təmin edilməsi üçün Bakıya gəldi. Heydər Əliyevin gəlməsi üçün Əbülfəz Elçibəy israrlı bir şəkildə müraciət edirdi. Çünki artıq tam olaraq məlum idi ki, AXC-Musavat cütlüyünün dövlətin varlığını qoruması mümkün deyildir.

“Etiraf edirəm ki, o fəlakətə uçmaqdan qorxurdum, amma uçmalı olduğumu başa düşürdüm, çünki xalqımın taleyi həll olunurdu. Bakiya gələndən sonra Elçibəylə bir neçə saat söhbət etdik və mənə hələ də onun silahdaşı Pənah Hüseynovun tutduğu baş nazir vəzifəsini təklif etdi. Mən imtina etdim, hamısı Elçibəyin yanına toplaşıb məni dinləyirdilər. Onların cinayət idarəçiliyi haqqında düşündüyüm hər şeyi söylədim. İsa Qəmbərov dözə bilmədi və dedi: "Biz düşündük ki, bizə məsləhət verəcəksiz, siz isə bizi ittiham edirsiz!" [3, s.127].

Bu, onların ilk görüşü deyildi, fevral ayında səkkiz saat danışıqlar apardılar. "Belə siyasət məhkumdur", - deyə Heydər Əliyev Elçibəyə açıq şəkildə bildirmişdi. Bunun cavabını isə Heydər Əliyev belə açıqlayır: “Və cavab olaraq nə eşitdim? Biz idarə etməyi öyrənirik, təcrübəsizlər təcrübə qazansınlar və əgər qazana bilməsələr, biz onları başqaları ilə əvəz edəcəyik". "Məgər xalqın üstündə təcrübə aparmaq olar?"-Heydər Əliyev etiraz edərək həmsöhbətinə bildirmişdi [3, s.128].

H.Əliyev çıxışı zamani demişdi: “Mən bura partiya sədri kimi gəlməmişəm. Heç bir istəksiz, tələsmədən, təzyiq altında olmadan gəldim, mövcud vəziyyətə görə, xalqımın taleyi həll olunduğu üçün gəldim.” İyunun 13-də Gəncədəki hərbi qiyamı yatırtmaq üçün həyata keçirilən uğursuz əməliyyata görə parlamentin sədri İsa Qəmbər istefa verir [1, s.272]. Bu vəzifəyə Heydər Əliyevin seçilməsi təklif edilir. Lakin Əliyev bu təklifi də qəbul etmir, nə qədər razı salmaq istəsələrdə, Surət

Hüseynovla görüşüb danışmaq istədiyini bildirir. Bununla bağlı Ali Sovetin sessiyalarına bir neçə gün fasilə verildi. Heydər Əliyev öz fəaliyyəti ilə bir daha göstərdi ki, onun vəzifə heç bir önəmə sahib deyildir, əsas Azərbaycan xalqının taleyi və dövlətin müqəddəratıdır.

Tədqiq edilən dövrdə vəziyyətin tam aydınlaşması üçün Ali Sovetin 1993-cü il iyunun 9-11-də keçirilmiş iclasından bir hissənin stenoqramına baxmaq kifayət edər: "Əvvəlcə Gəncə hadisələri ilə əlaqədar oraya ezam olunmuş komissiyanın sədri, akademik İmam Mustafayevə söz verildi: "Şəhərin içərisində bu cür hərbi əməliyyat aparmaq göstərişini kim vermişdir? Kim ixtiyar vermişdir ki, belə bir hərəkətə əl atılsın, bu nə deməkdir? Bu ancaq və ancaq ermənilərə kömək etmək üçün edilən bir hərəkətdir. Buna başqa ad vermək olmaz. Bu addımı atanlar istəmişlər ki, respublikanın daxilində çaxnaşma salsınlar. Buna yol vermək olmaz. Bütün xalqımız çalışmalıdır ki, Azərbaycan torpaqları düşməndən tamamilə təmizlənsin. Axı, bu nə deməkdir? Bu gün Gəncədə, sabah Lənkəranda, o biri gün Qubada belə iğtişaşlar baş verərsə, demək bunu edənlər ölkəmizi dağıtmaq, parçalamaq, birliyimizi əlimizdən almaq istəyirlər" [1, s.272]. Çıxış edən Heydər Əliyev ölkədə yaranmış şəraiti təhlil edərək aşağıdakıları vurğuladı:"...ümumən bütün Azərbaycan Respublikasında böyük gərginlik yaranmış, mürəkkəb vəziyyət mövcuddur. Bu hadisələrlə əlaqədar mən vicdanımın tələbi ilə, Azərbaycan Respublikası əhalisinin cürbəcür təbəqələrindən olan adamların xahişi ilə, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin xahişi ilə Bakıya gəlmişəm və bu mürəkkəb vəziyyətdən, ağır vəziyyətdən çıxış yollarının axtarılması, milli barışıq, milli həmrəylik təmin olunması prosesinə qatılmışam... Qan tökülüb, cinayət yapılıb, böyük faciə baş verib, ancaq bunun dərinləşməsinə heç vəchlə yol vermək olmaz və Azərbaycanın bütün vətənpərvər insanlarının hamısı birləşib bu ağır vəziyyətdən uğurla çıxmaq üçün çalışmalıdır və çıxış yolu da ancaq danışıqlar vasitəsilə, qarşılıqlı anlaşma vasitəsilə, sülh və barışıq vasitəsi ilə ola bilər.. Güc işlənilməməlidir, bir daha silah işə salınmamalıdır. Mənim bu günlərdə Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə görüşümüz olubdur, söhbətlərimiz olubdur, ancaq bu barədə fəaliyyətimin şəxsən nə qədər səmərəli ola biləcəyini müəyyən etmək üçün Gəncə şəhərinə getmək qərarına gəlmişəm. Ona görə də məni bu gün bura, Milli Məclisə dəvət edərkən mən Əbülfəz Elçibəydən xahiş etdim ki, mən Gəncə şəhərinə gedib vəziyyətlə tanış olandan sonra gəlib təkliflərimi verə bilərəm. Bundan artıq bir şey deyə bilmərəm... Bir saatdan sonra mən Gəncəyə yola düşürəm və xahiş edirəm ki, burada iştirak edən müxbirlər, yaxud da ki, başqa müxbirlər, televiziya, qəzet işçiləri mənimlə getmək arzusu olsalar, bir saatdan sonra Ali Sovetin binasının ətrafına toplaşsınlar, mən buradan yola düşəcəyəm" [1, s.277]. Belə bir təklif irəli sürülmüşdü: Milli Məclisin deputatı R.Qaziyev və Milli Məclisin deputatı olmayan bir sıra fəallar, xüsusilə A.Əlizadə, Heydər Əliyevi Gəncəyə səfərdə müşayiət etmək istədiklərini bildirdilər. "Mən bir halda ki, dediyim kimi, bura dəvət olunmuşam və bu prosesdə iştirak edirəm, mən özüm tək gedib bu işlərlə məşğul olmaq istəyirəm. Deputat qrupu göndərmək istəyirdiniz, avvəl göndərəydiniz, ya bundan sonra göndərin, xahiş edirəm, bu işlərə qarışmayın. Və mənim ora getməyim heç də Ali Sovetin Sədri seçilməyimlə əlaqədar deyil. Xahiş edirəm, məsələləri təhrif etməyin" [5, s.157].

Sonrakı dövrdə Heydər Əliyev müsahibələrinin birində Gəncə hadisələri ilə bağlı olaraq aşağıdakıları söyləməkdə idi: "Mən onu (Surəti - *müəllifdən*) əvvəllər tanımırdım və Gəncəyə uçmuşdum. Bütün gecəni onunla danışıqlar apardıq. Səhər o, məni şəhərin ətrafında gəzdirdi və mən döyüşlərin izlərini, dağılmış binaları, yandırılmış yaşayış evlərini gördüm. Mənim gördüklərim cinayət izləri idi. Bakıya qayıtdım, Ali Sovetin təklifini qəbul etdim. Mən bunu yalnız bir məqsədlə etdim - vətəndaş müharibəsinin qarşısını almaq məqsədi ilə". Bu hadisə, 1993-cü il iyunun 15-ə təsadüf etdi və həmin gün ölkənin ən yeni tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu [3, s.129]. "İyunun 16-da Surət Hüseynovun qoşunları və Xalq Cəbhəsinin hərbi birləşmələri ilə toqquşma baş verdi. Döyüş nəticəsində ölü və yaralılar oldu. İllər ərzində xalqın qanı çay yerinə axdı və mən qardaş qırğınına icazə verə bilməzdim. Mən Surətlə razılığa gəldim ki, onun qoşunları Bakıya girməyəcək, paytaxtda döyüş olmayacaq. Sonra nə oldu, siz bilirsiniz: nəticədə Gəncədə baş verən hadisələrin araşdırılması üzrə Komissiya yaradıldı, Komissiyanın nəticəsi isə belə oldu: Xalq Cəbhəsi və onun liderləri cinayət törədilməsində ittiham olundu, Məclisin sessiyası çağırıldı, əsas günahkarlar deputat toxunulmazlığından məhrum olundu və onlar həbs olundu. Mən Bakıya belə qayıtdım" [3, s.129].

Öz siyasi dühası və uzaqgörənliyi sayəsində Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin parçalanmasının qarşısını alan səbəblərin avanqardında çıxış elədi. Daha sonra siyasi hadisələr gedişi nəticəsində Surət Hüseynov yenə də mərkəzi hakimiyyətə qarşı çıxmağa cəhd etsə də, burada müvəffəqiyyət əldə edə bilmədi. Çünki artıq Azərbaycan dövlətinin idarə sükanları Ümummilli Lider Heydər Əliyevin əlində idi.

***Separatçı fəaliyyətlərin güclənməsi və onların aradan qaldırılmasında Heydər Əliyevin siyasi fəaliyyəti**.*. Eyni zamanda ölkənin şimalında "Sadval" separatçı-terrorçu təşkilatı fəallığını artırmışdı. Ona da bəzi xarici ölkələr dəstək verirdi. Həmin günlərdə ölkədəki siyasi xaos və anarxiya burulğanında yaranmış şəraitdən istifadə edən "Sadval" hərəkatı və həmin dövrdə mövcud olmuş digər etnik-hərbi qruplaşmalar dövlətçilik əleyhinə təxribatçı fəaliyyətlərini genişləndirirdilər.

Həmçinin, respublika üçün heç də az təhlükəli olmayan hadisələr 1993-cü ilin yayında Azərbaycanın cənub rayonlarında yerləşən Ələkrəm Hümbətovun rəhbərlik etdiyi separatçı Talış-Muğan Respublikası elan edilməsi idi. Cənubda qondarma "Talış Muğan Respublikasının yaradılmasına dair məsələ qaldırması da məhz ölkədəki hakimiyyətsizliyin, xaos və anarxiyanın, qanunsuzluğun bariz təcəssümü idi. Bu zaman AXC İdarə Heyətinin keçmiş üzvü, 1992-1993-cü illərdə müdafiə nazirinin müavini vəzifəsində işləmiş Əlikram Hümbətov Lənkəranda ölkənin cənub rayonlarında - Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarından ibarət heç bir təməli olmayan, qondarma "Talış-Muğan Respublikası"nın qurulduğunu elan etdi.

Bütün qüvvələrin Qarabağın düşməndən müdafiəsinə yönəldilməli olduğu bir vaxtda xeyli sayda hərbi qüvvənin lazımsız fəaliyyətə cəlb edilməsi vətənə xəyanət idi. Bütün bunlar azmış kimi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri və parlamentdə olan nümayəndələri Heydər Əliyevə yardım etmək əvəzinə onun işlərinə mane olmağa çalışırdılar [1, s.290]. Heydər Əliyev cənubda gedən prosesləri yaxından izləyirdi. Amma iyun və iyul aylarında prioritet Gəncə fəlakətin qarşısını almaq idi. İndi Lənkəran ilə məşğul olmaq vaxtı gəlib çatmışdı. İlk növbədə Heydər Əliyev şəxsən orada nə baş verdiyini öyrənmək üçün Əliəkram Hümbətovla telefonla əlaqə saxladı. Hümbətov Bakıya gəlib hər şeydən özü məlumat verəcəyini Heydər Əliyevə bildirdi. O, həqiqətən də Bakıya gəldi, amma o vaxt baş nazir vəzifəsində işləmiş Surət Hüseynovla görüşdü və Heydər Əliyevi görmədən Bakını tərk etdi. Heydər Əliyev yenidən Lənkərana zəng etdi. İkinci dəfə Bakiya dəvət alan Hümbətov bir müddət gözlədikdən sonra Bakıya gəldi. Heydər Əliyev onu qəbul etdi və dörd saata yaxın müzakirələr aparıldı [5, s.162].

Heydər Əliyev bu görüşdə nə qədər təmkinli davransada, bir o qədər Ələkrəm Hümbətov get-dikcə qəbuledilməz tələbləri irəli sürürdü: Ali Sovetin çağırılmasında, Nazirlər Kabinetinin, baş nazi-rin səlahiyyətlərinin genişləndirilməsində israr edirdi, referendumun ləğvini və ya yalnız prezident formasının zəruriliyi barədə sual qaldırılmasını tələb edirdi, əks halda onun keçirilməsinə mane olacağını bildirdi.

Siyasi təcrübəsi əsasında, səbrlə ifadə edilən qanunsuz fikirləri dinləyən Heydər Əliyev soruşanda ki, sizin səlahiyyətləriniz nədən ibarətdir? Siz heçbir səlahiyyəti olmayan bir insansız. Bəs siz hansı əsaslarla qanunu pozursunuz?. Separatçı qurumun rəhbəri olmaq iddiasınında olan Hümbətov bildirmişdi ki, onun səlahiyyəti avtomatdır. Bu cür siyasi bəsirətsizliklə, Hümbətov Heydər Əliyev şəxsiyyətinin qarşısında dayandığını unutmuş və özünün siyasi sonunu gətirmişdi. Cavabında Ümummilli Lider Heydər Əliyev təmkinlə və siyasi uzaqgörənliklə aşağıdakıları söyləmişdi: “Mən bunu məni təhdid edən hər kəsə deyirəm, məni heçbir təhdidlərlə qorxuda bilməzsiz... Məni yalnız kobudluqunuz narahat edir [5, s.162].

Avqustun 2-də Heydər Əliyev bir qrup xarici işlər nazirlərini və digər məsul şəxsləri vəziyyətlə yerindəcə tanış olmaq və bölgədə asayişi təmin etmək məqsədi ilə Lənkərana göndərdi. Avqustun 2-də nazirlər, 3-də isə baş nazir Lənkəranda görüşlər keçirdilər. Lakin bu, heç bir nəticə vermədi. Cavab olaraq Ələkrəm Humbətov avqustun 5-də Cəlilabad rayonun prokuratura işçilərini qanunsuz həbs etmiş, Lənkərana gətirmişdi. O, avqustun 6-da heç bir qanuni əsas olmadan Lənkəranda Talış-Muğan Respublikasını yaratdı və özünü prezident elan etdi. Hümbətov Talış-Muğan Respublikasının ərazisini İrana birləşdirməyi qarşısına məqsəd qoymuşdu. Avqustun 16-17-də respublika ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə, Ali Şuranın geniş tərkibdə iclası keçirildi və Ələkrəm Hümbətovun fəaliyyətinə siyasi-hüquqi qiymət verildi. Onun hərəkətləri Azərbaycanın parçalanması

cəhdləri kimi qiymətləndirildi. Bu görüşdə çıxış edən Heydər Əliyev bu aksiyanın təşkilatçılarının, qüvvələrin cinayətkar məqsəd və niyyətlərini üzə çıxardı və bu cür hərəkətlərin Azərbaycanın müstəqilliyin, ərazi bütövlüyünə zərbə kimi qiymətləndirdi. Beləliklə, Ələkrəm Hümbətovun separatçılıq fəaliyyətinin qarşısı alındı və o tutuldu. Məhkəmə Hümbətovu ömürlük həbs cəzasına məhkum etmişdi. 2004-cü ildə yeni Prezident İlham Əliyev Hümbətova qarşı insani jest edərək onu əfv etmiş, lakin daha sonralar ölkəni tərk edən Hümbətov xaricdən separatçılıq çıxışları edərək bu jesti adekvat qiymətləndirə bilməmişdi [3, s.129]. Hümbətovun zərərsizləşdirilməsi ilə Heydər Əliyev bir daha dünyaya, bölgədəki qüvvələrə nümayiş etdirdi ki, artıq ölkənin siyasi iradəsi öz qətiyyətini ortaya qoymuş və dövlət-xalq birliyi yaranmış, dövlət strukturları öz işləkliyini təmin etmişdir. Buna görə də, separatizmin aradan qaldırılması və vətəndaş müharibəsi halına keçməməsi üçün Heydər Əliyev siyasi uzaqgörənlik və təmkin, yerində və adekvat addım atma bacarığını nümayiş etdirmişdi.

***Nəticə***. Tədqiq edilən dövrdə Heydər Əliyev separatçılıq fəaliyyətinin qarşısının alınması zamanı öz siyasi təcrübəsi və qətiyyəti ilə xalqın həmrəyliyini bir araya gətirmiş, separatçıları dəstəkləyən simmetrik və assimetrik qüvvələri neytrallaşdırmış, dövlət strukturlarının, xüsusi ilə xüsusi xidmət orqanları, güc strukturları və hüquq mühafizə orqanlarının fəaliyyətinin keyfiyyətlənməsinə çalışmışdır. Yekunda istər ölkənin şimalında, istərsə də cənubunda separatçı fəaliyyətlərin qarşısı alınmış, ölkənin multikultural inkişafı təmin edilmiş, xalqların birliyi ortaya qoyulmuşdur. Bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilmiş, Azərbaycan Respublikasının çoxmillətli xalqı və dövlətin birliyi nəticəsində Heydər Əliyevin əsas hədəfi olan Qarabağın işğaldan azad edilməsi reallaşdırılmışdır.

## ƏDƏBİYYAT

1. Mərdanov M. Heydər Əliyev: Xalqa həsr olunmuş ömür. Bakı. “Təhsil”, 2023, 397 s.
2. Zenkoviç N. Heydər Əliyev. Tale yolları. Bakı. “Azərbaycan nəşriyyatı”, 2007, 606 s.
3.Андриянов В., Мираламов Г. Гейдар Алиев. - М.: Молодая гвардия, 2005. – 394 с.
4. Гейдар Алиев. Библиографический справочник. Баку, Издательство Бакинского Государственного Университета. 2003, 446 с.
5. Гусейнова И. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру. Баку, «Тахсил», 2005, 504 с.

**ТАРАНА АЛИВЕРДИЕВА**
*Бакинский Государственный Университет*
*Докторант кафедры «Новая и новейшая история Азербайджана*
*(по гуманитарным дисциплинам)»*

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ПРЕДОТВРАЩЕНИИ ПЕРЕРАСТАНИЯ СЕПАРАТИСТСКИХ ТЕНДЕНЦИЙ В ГРАЖДАНСКУЮ ВОЙНУ В АЗЕРБАЙДЖАНЕ

Целью статьи является изучение событий, произошедших летом 1993 года, и исследование роли Гейдара Алиева в разрешении этого кризиса. В результате совместной деструктивной деятельности внутренних и внешних сил государственность Азербайджана оказалась перед реальной опасностью распада, возникла угроза этнического сепаратизма и гражданской войны. После обретения независимости глубокий кризис, коррупция и существование незаконных вооруженных формирований привели к созданию опасной ситуации в республике. Торговля людьми и другие преступления процветали. Нужен был опытный политик, чтобы помешать силам, которые хотели уничтожить Азербайджан как государство и пытались разделить его изнутри. Страна стала неуправляемой, государственные структуры не могли осуществлять свою деятельность. Политические силы собрали вокруг себя вооруженные группировки и вновь начали борьбу за власть. Хотя правительство Народного Фронта и Мусавата отозвало Национальную армию с линии фронта, чтобы

защитить свою власть, оно оказалось бессильным перед лицом восстания Сурата Гусейнова и сепаратистской деятельности Алиакрама Гумбатова. Общенациональный лидер Гейдар Алиев, взявший бразды правления в свои руки по воле народа, путем осуществления политических и других правовых мер предотвратил усиление сепаратизма и сформировал основы защиты государственной независимости.

*Ключевые слова*: Гейдар Алиев, массовые беспорядки, гражданская война, день национального спасения.

**TARANA ALIVERDIEVA**
*Baku State University*
*PHD of the department "New and modern history of Azerbaijan*
*(on humanitarian disciplines)"*

## HEYDAR ALİYEV'S ROLE İN PREVENTİNG THE SEPARATİST TENDENCİES FROM TURNİNG İNTO A CİVİL WAR İN AZERBAİJAN

The article aims to study the events that happened in the summer of 1993 and investigate Heydar Aliyev's role in solving this crisis. As a result of the joint destructive activity of internal and external forces, Azerbaijan's statehood faced a real danger of collapse, and the threat of ethnic separatism and civil war arose. After gaining independence, a deep crisis, corruption, and the existence of illegal armed groups led to the creation of a dangerous situation in the republic. Human trafficking and other crimes were rampant. An experienced politician was needed to prevent the forces that wanted to destroy Azerbaijan as a state and tried to divide it from the inside. The country became ungovernable, state structures could not perform their activities. The political forces gathered armed groups around them and began to fight for power again. Although the People's Front-Musavat government called the National Army back from the frontline to protect its power, it was powerless in the face of Surat Huseynov's uprising and Aliakram Humbatov's separatist activities. The National Leader Heydar Aliyev, who took the reins of power at the will of the people, prevented the strengthening of separatism by implementing political and other legal measures and formed the foundations for the protection of state independence.

*Keywords*: Heydar Aliyev, riot, civil war, national liberation day.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24)**

**ODƏR HÜSEYNLİ**
*Bakı Dövlət Universiteti*
**oder_huseynli@mail.ru**

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XARİCİ SİYASƏTİNDƏ ƏVƏZEDİLMƏZ ROLU

*Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın xarici siyasət kursunun yaradılmasına və formalaşmasına başladı. Qısa zaman ərzində qonşu ölkələr, Avropa və digər ölkələrlə siyasi əlaqələr qurdu. Azərbaycanın beynəlxalq və regional təşkilatlarla üzv olması ilə ölkənin inkişafına böyük təsir etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gerçəkliyini dünya ictimaiyyətinə çatdırdı.*

*Açar sözlər*: Azərbaycan, Heydər Əliyev, siyasi əlaqələr.

***Giriş:*** Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən qısa müddət sonra BMT-yə üzv oldu. Bundan sonra qarşıda duran ən mühüm məsələ dünya dövlətləri ilə siyasi münasibətlərin qurulması və formalaşması idi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra başlıca məqsəd Azərbaycanın dünyanın siyasi arenasında bir aktor kimi çıxış etməsi və öz milli maraqlarının qorunmasına əsaslanan xarici siyasətin yürüdülməsi idi. Bu səbəbdən ötrü dünya ölkələri ilə qarşılıqlı siyasi əlaqələrin qurulması və inkişafına böyük diqqət edildi. Ümummilli lider təkcə dünya dövlətləri ilə deyil, bir sıra regional və beynəlxalq təşkilatlarla münasibətlərin qurulmasına diqqət edərək, ölkəmizin həm region, həm də dünya miqyasında söz sahibi olmasına çalışdı. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün dünya ölkələrinin dövlət başçıları, təşkilatların nümayəndə heyətləri ilə keçirilən görüşlər böyük əhəmiyyət kəsb etdi. Məhz ümumilli lider Heydər Əliyevin təməlini qoyduğu Azərbaycanın xarici siyasət kursunun sayəsində hal-hazırda ölkəmiz, təkcə siyasi arenada deyil, həmçinin, digər bütün sahələrdə aktiv bir fiqur olaraq çıxış etməkdədir.

***Azərbaycan xarici siyasət kursunun formalaşması və həyata keçirilməsi.*** 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Dövlətimizin yenidən müstəqilliyinə qovuşmasından sonra qarşıda duran ən vacib vəzifələrdən biri milli maraqlara əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni, içində olduğu çətin durumdan xilas etmək üçün praqmatik xarici siyasət kursunun müəyyən edilməsi başlıca hədəf idi.

1993-cü ildə xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev, ilk andan etibarən Azərbaycanın xarici siyasətinin yenilənməsi, formalaşması və dövlətimizin milli maraqlarının qorunmasını qarşıya məqsəd qoyan işləri həyata keçirməyə başladı. Ümummilli lider, ilk olaraq dövlətin strateji maraqlarını qonşu və region dövlətlərinin maraqları ilə uzlaşdırmağa istiqamətlənmiş siyasət kursunu yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: “Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır”.

Sözünə davam edərək Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: “Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır”.

Ümummilli lider Heydər Əliyev xarici siyasət kursunda mövcud olan gerçəklikləri nəzərə alaraq, dövlətin maraqlarını qorumaq istiqamətində vacib həm də labüd yenilik və dəyişikliklər etdi.

Heç şübhəsiz ki, bunun məntiqi nəticəsi olaraq, qısa zaman ərzində ölkəmizin dünya siyasi arenasında tanınmasına nail olundu. Yenicə müstəqilliyinə qovuşan Azərbaycan Respublikası Ümummilli lider sayəsində artıq beynəlxalq münasibətlər sistemində öz yerini alaraq, təkcə qonşu və region dövlətləri ilə deyil, Avropa ölkələri, ABŞ, dünyanın digər nüfuzlu dövlətləri ilə dövlət prioritetlərimizi əsas tutan xarici siyasət kursunu həyata keçirməyə başladı.

Təbii olaraq, ilk növbədə, yerləşdiyimiz coğrafi regionda bizə qonşu olan dövlətlərlə milli maraqların qorunması nəzərə alınaraq siyasi əlaqələrin qurulması və inkişafına başlanıldı. Xüsusilə Türkiyə Cumhuriyyəti və Rusiya Federasiyası ilə olan münasibətlərin davamlı şəkildə aparılması, formalaşması qarşıya qoyulan ən mühüm məqsədlərdən biri idi. Bununla yanaşı keçmiş sovet ittifaqına üzv olan dövlətlərlə mövcud olan tarixi-mədəni bağlılıq nəticəsində ölkələrarası münasibətləri nizama salmaq, əlaqələri yenidən bərpa etmək, inkişaf etdirmək vacib idi. Buna görə də, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması bu istiqamətdə atılan əsas addımlardan biri idi. Bu təşkilata daxil olan keçmiş sovet ittifaqı ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması, əməkdaşlığın möhkəmləndirilməsi yönündə bir sıra vacib işlər görüldü. Həmin ölkələrlə siyasi əlaqələrdən savayı, iqtisadiyyat, mədəniyyət, turizm, texnologiya, təhsil və elm sahələrində münasibətlərin inkişafına yönələn birgə əməkdaşlıq məsələlərinə xüsusi diqqət ayrıldı.

Təbii ki, bu təşkilata daxil olmayan Baltikyanı dövlətlər ilə münasibətlərin qurulması göz ardı edilə bilməzdi. Latviya, Litva və Estoniya ilə ölkələrarası münasibətlərin inkişafı, formalaşması və birgə əməkdaşlıq üçün labüd addımlar atıldı. Qarşılıqlı şəkildə birgə fəaliyyət göstərərək ölkəmizin Avropaya inteqrasiyası prosesinin sürətlənməsi istiqamətində qarşıya qoyulan hədəflərə çatmaq üçün mühüm işlər görüldü. Ümummilli liderin hakimiyyətdə olduğu müddət ərzində Baltikyanı ölkələr ilə münasibətlərin inkişafına böyük önəm verməsi təsadüfi deyildi. Həmin dövlətlər ilə həm keçmiş sovet ittifaqında olduğumuz üçün, həm də həmin dövlətlərin hal-hazırda müstəqil olaraq Avropanın mərkəzində yerləşməsi ölkəmizin xarici siyasət kursunda qarşısına qoyduğu məqsədlərə nail olması üçün Baltikyanı ölkələr ilə əlaqələrin tənzimlənməsi və əməkdaşlığın formalaşması üçün mühüm əhəmiyyət kəsb edirdi. Avropa regionundakı digər dövlətlərlə əlaqələrin mövcudluğu Avropaya inteqrasiya prosesində önəmli olduğu kimi, Baltikyanı dövlətlərlə də münasibətlərin inkişaf etdirilməsi və əməkdaşlığın sıxlaşdırılması bizim üçün o qədər önəmli idi.

Belə ki, ümummilli lider hakimiyyətdə olan zaman Baltikyanı dövlətlərin dövlət başçıları, xarici işlər nazirlikləri, parlament üzvləri ilə ölkə daxilində və həmçinin, beynəlxalq təşkilatlarda iştirakı zamanı ölkələrarası münasibətlərin tənzimlənməsi istiqamətində bir sıra görüşlər həyata keçirilmişdir. Keçirilən görüşlərdə ölkələrarası əlaqələrin yalnız siyasi sahədə deyil, digər sahələrdə də birgə fəaliyyət göstərərək formalaşmasının vacibliyi vurğulanmışdır.

Bizim üçün ən önəmli mövzu olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gerçək üzünün Avropa və dünya siyasi arenasında tanınması, Ermənistan terror dövlətinin etdiyi əməllərə görə ədalət qarşısında cavab verməsi və Azərbaycan xalqının Ermənistan tərəfindən işğal olunmuş ata yurduna ən tez zamanda geri dönməsi haqqında gerçək, haqlı fikirlər, təkcə Baltikyanı dövlətlərin dövlət başçıları, nümayəndə heyətləri ilə görüşlər zamanı deyil, həmçinin, qonşu, regional, dünyanın nüfuzlu dövlət başçıları və nümayəndələri, habelə, beynəlxalq təşkilatlarda iştirak zamanı ümummilli lider Heydər Əliyevin dilindən düşməmiş, tarixi gerçəkliyi usanmadan, yüksək səslə söyləyərək dövlətimizin xarici siyasət kursunun ən vacib hədəfi olan bu məsələni hər zaman dilə gətirmişdir.

Ermənistan terror dövlətinin təcavüzünün qarşısının alınması və müharibənin bitirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Ən mühüm məsələ isə, erməni təcavüzünü, qəsbkarlığını, erməni vəhşiliklərini dünyaya çatdırmaq, dövlətimizin ətrafındakı informasiya blokadasını yarmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq idi.

Erməni təbliğatı sayəsində ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktı"na 907-ci düzəliş" haqsız sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan, yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. Qeyd etmək lazımdır ki,

erməni lobbisinin ABŞ Konqresinə təsir dairəsini nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. ATƏT-in və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. Ümummilli liderin hakimiyyətdə olduğu müddətdə bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı.

Dünyanın siyasi arenasının ən güclü dövləti olan ABŞ-la münasibətlərin qurulması, inkişafı və formalaşması hər zaman ümummilli liderin maraq dairəsində olmuşdur. Soyuq müharibənin bitməsindən sonra yeni siyasi müstəvidə ABŞ kimi hegemon bir dövlətlə əlaqələrin qurulması ölkəmizin təkcə regional çərçivədə deyil, həmçinin, beynəlxalq siyasi arenada nüfuzunun artmasına səbəb olmuşdur.

Ümummilli lider Heydər Əliyevin strateji zəkası, diplomatik bacarığı ölkəmizin Qərb dövlətləri ilə, xüsusilə, ABŞ-la olan münasibətlərin yeni mərhələyə qədəm qoymasına səbəb oldu. Belə ki, ölkə tarixinə qızıl hərflərlə yazılmış olan "Əsrin müqaviləsi" buna ən böyük örnəkdir.

1994-cü il sentyabrın 20-də Gülüstan sarayında dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti ilə imzalanan "Əsrin müqaviləsi" ilə siyasi dönəmimizdəki ən böyük hadisə yaşandı. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi, sivri zəkası sayəsində yenicə müstəqil olmuş Azərbaycan Respublikası dünyanın nəhəng dövlətləri ilə birlikdə bir masaya oturaraq Azərbaycan neftinin dünyaya nəql olunmasına nail oldu. Bu hadisə ölkə iqtisadiyyatının inkişafına təsiri ilə qalmamış, eyni zamanda Qərb dövlətləri, xüsusilə, ABŞ-la olan münasibətlərin xəritəsində özünə yeni bir cığır açmışdır. Həmin cığır vasitəsi ilə ölkəmiz, təkcə ümummilli liderin hakimiyyətdə olduğu müddətdə deyil, onun mirasının layiqli davamçısı Cənab prezident İlham Əliyevin dövründə də Qərb ilə olan münasibətlərimizin inkişafına təsir göstərmişdir. Ümummilli liderin uzaqgörənliyi bu hadisə ilə kifayətlənməmiş, atdığı hər bir addım dövlətimizin, millətimizin gələcəyinin yaxşılaşdırılması, həyat rifahının artırılması istiqamətində olmuşdur.

"Əsrin müqaviləsi"nin imzalanması ilə ümummilli lider Heydər Əliyev xarici siyasət kursunda qarşısına qoyduğu məqsədə, Azərbaycan Respublikası ilə Qərb arasındakı münasibətlərin dönüş nöqtəsinə nail oldu. Bununla artıq Qərb dövlətlərinin dövlətimizə qarşı olan fikirləri, təkcə iqtisadi əməkdaşlıqla kifayətlənməyib digər sahələrdə də əlaqələrin qurulması istiqamətində formalaşdı. Artıq Azərbaycan Respublikasının mövcud durumuna, problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraqla həm ABŞ-ın, həm də Qərbin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmələrinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tərəfdar olduqlarını bəyan etmələrinə nail olduq.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının yeni xarici siyasət kursunda qeyd olunan Avropa dövlətləri ilə münasibətlərin formalaşması məqsədi ilə qitənin ən nüfuzlu dövlətləri: Böyük Britaniya, Almaniya, Fransa, İtaliya ilə sıx əlaqələrin qurulması qarşısına qoyduğu başlıca vəzifələrindən biri idi. Bu vəsilə ilə münasibətlərin inkişaf etdirilməsi nəticəsində nüfuzlu müttəfiqlərin qazanılması mühüm uğur idi.

Təbii ki, təkcə bu dövlətlərlə kifayətlənməyərək, ümummilli lider Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açdı, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etdi.

Azərbaycan respublikasının Mərkəzi və Şərqi Avropa ilə birgə əməkdaşlığı ümummilli liderin daima diqqət mərkəzində olmuşdur. Belə ki, soyuq müharibənin bitməsi və yeni dünya nizamının mövcud gerçəkliyi səbəbi ilə qitədə olan bütün dövlətlərlə əlaqələrin sıxlaşdırılması mühüm əhəmiyyət kəsb edirdi. Xüsusilə, Mərkəzi və Şərqi Avropa regionu dövlətimizin Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışının təmini baxımından əlverişli geosiyasi məkandır.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun əhəmiyyət kəsb edən istiqamətlərindən biri də İslam dünyası ilə münasibətlər təşkil edirdi. Buna görə də, ümummilli liderin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və ölkələrarası əlaqələrin inkişafı istiqamətində apardığı danışıqlar mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə İran ilə olan münasibətlərin yenidən qurulmasına böyük diqqət ayrıldı. Gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi başlıca öncəlik oldu. Qonşu olan dövlətlərlə hər zaman sağlam münasibətlərin mövcudluğu, ikitərəfli əlaqələrin genişləndirilməsi xarici siyasət kursunun önəmli bir hissəsi olmuşdur.

Qardaş Türkiyə Cümhuriyyəti ilə olan münasibətlərimiz daima ölkəmizin diqqətində olmuşdur. Bildiyimiz kimi, tarixi-mədəni yaxınlıq, iki dövlət arasında uzun müddət bitməyəcək əlaqələrin təməl daşıdır. Türkiyə Cümhuriyyəti Azərbaycanın müstəqilliyinə qovuşmasından sonra onu tanıyan ilk dövlət olmaqla yanaşı, dövlətimizin həm regionda, həm də dünya siyasi arenasında ən mühüm tərəfdaşıdır. İki ölkə arasındakı əlaqələr tarixi yaxınlıqdan ötürü təkcə siyasi sfera ilə yetinməyib, mədəni, iqtisadi, sosial və digər sahələrdə mövcuddur. Azərbaycan və Türkiyə arasındakı münasibətləri bir cümlə ilə ifadə etmək lazım gələrsə, məhz yenə ümummilli lider Heydər Əliyevə qulaq verməmiz lazım gələcəkdir: “Bir millət, iki dövlət”

Türkiyə Cümhuriyyəti ilə yanaşı türkdilli ölkələr ilə olan münasibətlər heç də ümummilli liderin nəzərindən qaçmayıb. Belə ki, həm dil bağlılığı, həm də keçmiş sovet ittifaqı tərkibində olduğumuz səbəbindən bu dövlətlər ilə münasibətlərin qurulmasına böyük önəm verilmişdir. Bizə qonşu olan Qazaxıstan, Türkmənistan dövlətləri ilə karbohidrogen ehtiyatları zəmnində əlaqələrin formalaşması və Avropa neft-qaz dəhlizində birgə əməkdaşlığın qurulması əhəmiyyətlidir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasətində fəal istiqamətlərdən biri Mərkəzi və Şərqi Asiya regionudur. Ölkəmizin yerləşdiyi coğrafi mövqeyin əhəmiyyəti danılmaz bir faktdır. Belə ki, Şərq ilə Qərb arasında körpü rolu oynamağımız dövlətimizin potensial inkişafının yüksəldilməsində əvəzsiz rola malikdir. Bu səbəblə Qərb ilə olduğu kimi Şərq dövlətləri ilə də əlaqələrin qurulması və əməkdaşlığın artırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür. Görülən tədbirlərin məntiqi nəticəsi kimi ölkəmiz tarixi İpək yolunun mərkəzi halına gələrək, iki qütb arasında, xüsusilə, iqtisadiyyat sahəsində əlaqələrin inkişaf etdirilməsinə böyük töhfə vermişdir.

Ümummilli lider Heydər Əliyev iki qütb arasında əlaqələrin genişləndirilməsi istiqamətində Azərbaycanın danılmaz rolunu qeyd edərək, dövlətimizin inkişafına istiqamətlənən daha bir böyük önəm kəsb edən tarixi hadisənin gerçəkləşməsinə nail olmuşdur.

“Əsrin müqaviləsi”nin bağlanmasından cəmi 4 il sonra 1998-ci ilin sentyabrında Bakıda “Böyük İpək Yolu”nun bərpasına dair Bakı konfransı keçirildi. Konfransda Azərbaycan, Avstriya, Ermənistan, Belçika, Bolqarıstan, Macarıstan, Böyük Britaniya, Almaniya, Yunanıstan, Gürcüstan, İran, İspaniya, İtaliya, Qazaxıstan, Çin, Qırğızıstan, Moldova, Monqolustan, Hollandiya, Norveç, Polşa, Rusiya, ABŞ, Tacikistan, Türkiyə, Rumıniya, Ukrayna, Özbəkistan, Finlandiya, Fransa, İsveç, Yaponiya, Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi Komissiyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Avtomobil Nəqliyyatçıları İttifaqı, Avropa Nəqliyyat Nazirləri Konfransı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Dəmir Yollarının Əməkdaşlığı Təşkilatının nümayəndə heyətləri iştirak etmişdilər. Ümumilikdə dünyanın aparıcı 32 dövləti ilə yanaşı, 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişdir. Bakıda keçirilən beynəlxalq konfransın sonunda Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və onun texniki əlaqələri; “Bakı Bəyannaməsi”, “Tarixi İpək Yolu”nun bərpası üzrə beynəlxalq konfransın yekun məlumatı” kimi beynəlxalq əhəmiyyət daşıyan üç sənəd imzalandı. Birinci sənəd 14 dövlət tərəfindən imzalandı. “Bakı Bəyannaməsi” ni bir çox dövlətlər imzaladı. Üçüncü sənəd yekun rəsmi məlumatdır ki, bu sənəd 29 dövlətin və Avropa Birliyinin nümayəndə heyətləri tərəfindən imzalandı.

Bu tarixi hadisə ilə Azərbaycan Qərb ilə Şərq arasındakı TRASEKA layihəsinin mərkəzinə çevrilərək iki qütb arasında körpü rolunu oynamağa başladı. Ümummilli liderin siyasi zəkası vasitəsi ilə müstəqilliyinə yeni qovuşmuş dövlətimiz qısa zaman ərzində, region ölkələri ilə əlaqələrin qurulması və inkişafına nail olmaqla yanaşı, artıq dünyanın siyasi və iqtisadi arenasında dəyərli, güclü bir aktor kimi çıxış etməyə başlamışdı.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətinin mərkəzində ölkəmizin nüfuzlu beynəlxalq və regional təşkilatlarla əlaqələrinin qurulması və inkişaf etdirilməsi durur. Beynəlxalq təşkilatlara üzv olmaq, birgə fəaliyyət göstərmək, ölkəmizin problemlərini, həqiqətlərini dünyaya çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir.

Ümummilli lider Heydər Əliyev Avropa Şurası kimi nüfuzlu bir təşkilata önəm vermişdir. 2001-ci il yanvarın 25-də Azərbaycan AŞ-nın tam hüquqlu üzvü seçilmişdir.

Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sənədin imzalanmasından sonra Azərbaycan-NATO əlaqələrində dinamik inkişaf başladı, ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla daimi məsləhətləşmələr aparıldı, Azərbaycan ordusunda islahatların gerçəkləşdirilməsi və ordunun NATO standartlarına uyğunlaşdırılması həyata keçirildi. Bununla yanaşı, Azərbaycan ordusunun hissələri NATO-nun müxtəlif sülhyaratma əməliyyatlarında iştirak etməyə başladı. Hazırda NATO-Azərbaycan əlaqələri yüksələn xətt üzrə inkişaf edir.

***Nəticə***. Ümummilli liderin hakimiyyətə gəldikdən sonra yeritdiyi uğurlu siyasətin bəhrəsini ondan sonrakı dövrlərdə onun mirasını layiqli şəkildə qoruyub saxlayaraq həyata keçirən Cənab prezident İlham Əliyevin dövründə görməmək mümkün deyil. Hal-hazırda Cənab prezident Ali baş komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməsi və işğal altında olan torpaqlarımızı azad etməsi buna ən gözəl nümunədir. Qloballaşan dünya nizamında dövlətimizin tutduğu doğru mövqe, atılan səlis siyasi addımlar, əldə edilən uğurlu nəticələr, siyasi arenadakı önəmli rolu məhz ümummilli liderin qısa dönəmdə hakimiyyətdə olduğu zaman Azərbaycanın milli maraqlarının qorunaraq yürütdüyü dahiyanə siyasətin meyvəsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri. (1991-2016) Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017, 900s.
2. Baltikdən Xəzərə. Bakı: "AzAtaM" Nəşriyyat, 2018, 266 s.
3. Elçin Əhmədov. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress" nəşriyyat evi, 2013, 452s.
4. Əmrahov M. Böyük İpək Yolu. Dərs vəsaiti. Bakı, Mütərcim, 2011, 84 s.
5. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 631 s.
6. Heydər Əliyev: Müstəqilliyimiz əbədidir/ikinci kitab/may,1994-dekabr,1994/çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Bakı: "AZƏRNƏŞR", 1997, 604s.
7. Musa Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: I hissə. Bakı, Mütərcim, 2015, 648s.
8. Musa Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: II hissə. Bakı, Mütərcim, 2015, 664s.
9. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə. Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilir məqalələr toplusu. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşri, 2016, 648s.
10. Amerika Birləşmiş Ştatları / Azərbaycan Respublikası Xarici işlər nazirliyinin saytı. - https://web.archive.org/web/20210208080702/https://mfa.gov.az/az/content/167/abs [10.05.2023].

**ОДЕР ГУСЕЙНЛИ**
*Бакинский Государственный Университет*

## НЕЗАМЕНИМАЯ РОЛЬ ГЕЙДАРА АЛИЕВА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНА

Придя к власти, общенациональный лидер Гейдар Алиев приступил к созданию и формированию внешнеполитического курса Азербайджана. За короткий промежуток времени он установил политические отношения с соседними странами, европейскими и другими странами. Членство Азербайджана в международных и региональных организациях оказало большое влияние на развитие страны. Реальность армяно-азербайджанского, нагорно-карабахского конфликта была доведена до внимания мирового сообщества.

*Ключевые слова:* Азербайджан, Гейдар Алиев, политические отношения.

**ODER HUSEYNLI**
*Baku State University*

## HEYDAR ALIYEV INDISPENSABLE ROLE IN AZERBAIJAN'S FOREIGN POLICY

After coming to power, national leader Heydar Aliyev began creating and shaping Azerbaijan's foreign policy course. In a short amount of time, he established political relations with neighboring countries, European and other countries. Azerbaijan's membership in international and regional organizations had a great impact on the country's development. The reality of the Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict was brought to the attention of the global community.

*Keywords*: Azerbaijan, Heydar Aliyev, political relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 may 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94**

**ƏSMƏR ŞÜKÜRLÜ**
*Bakı Dövlət Universitetinin Türk xalqları tarixi kafedrasının doktorantı*
**asmar.shukurlu@gmail.com**

# QAZAXISTANLA SİYASİ ƏLAQƏLƏRİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

*XX əsrin sonları türk dövlətləri müstəqillik əldə etdikdən sonra, Azərbaycan Qazaxıstan əlaqələri beynəlxalq münasibətlər sistemində mühüm yer tutmuşdur. Azərbaycanın rəsmi münasibətlər qurduğu ilk dövlətlərdən biri Qazaxıstandır. Azərbaycan və qazax xalqları türkdilli xalqlar olmaqla etnik, dini və mədəni dəyərlər baxımından bir-birinə çox yaxındır. Hələ sovet dövründə Heydər Əliyevin SSRİ rəhbərliyində mühüm vəzifə tutması, onun Qazaxıstana səfərləri, bölgə xalqını yaxşı tanıması və regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri müstəqillik dövründə Azərbaycan və Qazaxıstan münasibətlərinin inkişafında müstəsna rol oynamışdır. Ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan və Qazaxıstan arasında əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Məqalədə XX əsrin sonu XXI əsrin əvvəllərində Qazaxıstanla Azərbaycan arasında ikitərəfli siyasi əməkdaşlığın inkişaf etdirilməsində Heydər Əliyevin rolundan bəhs ediləcək.*

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycan, Qazaxıstan, siyasi əlaqələr, rəsmi səfərlər, "Heydər Əliyev ili".

***Giriş.*** Heydər Əliyev uzaqgörənliyi, qətiyyəti və cəsarəti, dünyagörüşü ilə bir dövlət başçısı, bacarıqlı siyasətçi və diplomat kimi bütün dünyada özünü tanıtmış, dünya miqyaslı siyasətçilər siyahısında ön cərgədə yer tutmuşdur.

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da yaradılmışdır.

1994-cü il oktyabrın 19-da iki ölkə prezidentinin görüşü baş tutmuşdur. Türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilən II Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Qazaxıstan Prezidenti ilə ölkələr arasında münasibətlərin inkişaf perspektivlərini müzakirə etmişdir. Görüş zamanı türk dövlətlərinin münasibətləri çərçivəsində əlaqələrin qurulmasına diqqət yetirilmişdir (1, s.281).

İki ölkə başçısının növbəti görüşü 1995-ci il fevralın 9-da Almatıda keçirilən MDB ölkələri dövlət başçılarının Zirvə görüşündə baş tutmuşdur. Bu görüşlər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və dövlət başçılarının qarşılıqlı səfəri üçün zəmin yaratmışdır (4).

H.Əliyev 1995-ci il dekabrın 9-da Almatıda böyük qazax şairi Abay Kunanbayevin anadan olmasının 150 illik yubileyində iştirak etmişdir. Hələ 1970-ci ildə Abay Kunanbayevin 125 illik yubileyində iştirak etmiş H.Əliyev demişdir: "...25 il bundan əvvəl ilk dəfə Qazaxıstanda olmuş və Azərbaycan xalqı adından Qazaxıstan xalqını təbrik etmişdim. Əsrin dörddə biri qədər vaxt keçmişdir. Qazaxıstan xalqı tərəqqi etmiş, qol-qanad açmış, özünün bütün ərazisinin, bütün çöllərinin, bütün torpaqlarının sahibi olmuşdur. İndi Qazaxıstan müstəqil dövlətdir. Qazax xalqı öz taleyinin sahibidir və öz məsələlərini istədiyi kimi həll edir" (2, s.24).

İki ölkə arasında münasibətlərin inkişafında növbəti addım olan dövlət başçıları səviyyəsində görüş 1996-cı il mayın 14-də EKO-nun dövlət başçılarının zirvə toplantısında keçirilmişdir. Ümummilli lider Heydər Əliyev Qazaxıstan Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etmişdir. Qazaxıstan Prezidenti 1996-cı il sentyabrın 16-da ölkəmizə rəsmi səfər etmişdir. Görüş zamanı H.Əliyev çıxışında demişdir: "İndi Qazaxıstan və Azərbaycan müstəqil, suveren dövlətlər olduğu bir vaxtda münasibətlərimiz keyfiyyətcə yeni xarakter kəsb etmişdir və bu münasibətləri dərinləşdirmək, inkişaf etdirmək üçün böyük imkanlarımız və ehtiyaclarımız vardır. Azərbaycan buna maraq göstərir, ona görə də mən Qazaxıstanın dövlət başçısının səfərini olduqca məmnuniyyətlə qarşıladım və münasibətimizin perspektivləri baxımından bu səfərə böyük ümidlər bəsləyirəm" (6). Səfər çərçivəsində Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında müqavilə, neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, Xəzər dənizi məsələləri üzrə Birgə Bəyannamə, investisiyaların təşviqi və onun qorunması haqqında saziş və digər sənədlər imzalandı (7).

1997-ci il iyunun 10-11-də Azərbaycan Prezidenti Heydər Əliyevin Qazaxıstana ilk rəsmi səfəri baş tutdu. Qazaxıstan Prezidenti bu səfərin Qazaxıstan-Azərbaycan münasibətlərində mühim hadisə olduğunu vurğuladı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında qazax xalqının Azərbaycan Respublikasının ərazi bütövlüyünü və bölünməzliyini müdafiyə etdiyini bildirdi. Səfər zamanı qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə olunmuş, bir sıra xüsusi əhəmiyyət kəsb edən dövlətlərarası və hökumətlərarası sənədlər imzalandı. Vətəndaşların vizasız gediş-gəlişi haqqında saziş, azad ticarət haqqında saziş, mülki işlər üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında saziş, neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında saziş və digər sənədlər imzalandı. Sənədlərin imzalanması mərasimindən sonra H.Əliyevə Əl-Fərabi adına Qazax Milli Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edildi (5).

Azərbaycan prezidenti H.Əliyev 1998-ci il iyunun 9-10-da türkdilli dövlət başçılarının V Zirvə toplantısında və Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin açılış mərasimində iştirak etmişdir. Qazaxıstan ilə dostluq münasibətlərinin inkişafında göstərdiyi xidmətə görə H.Əliyevə "Astana" dövlət medalı təqdim edildi (6). Astana şəhərində keçirilən türkdilli ölkələrin dövlət başçılarının V Zirvə görüşündə gündəliyin əsas məsələlərinə, iqtisadi və mədəni əməkdaşlığa dair nitq söyləyən H.Əliyev demişdir: "Yeni minilliyin astanasında ölkələrimizi nəinki tarixi köklər, adət və ənənələr, həm də dövlətimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsi, vətəndaşlarımızın həyatının, rifahının yaxşılaşdırılması kimi ümummilli mənafelər birləşdirir". Heydər Əliyev növbəti görüşü Bakı şəhərində keçirməyi və onu türk xalqlarının böyük mədəniyyət abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi mərasimləri ilə bir vaxta salmağı təklif etdi və bu təklif yekdilliklə qəbul olundu (2, s.64).

1999-cu il aprelin 2-də Moskvada MDB-nin iştirakçı dövlətlərinin Dövlət başçıları Şurasının iclası zamanı Azərbaycan və Qazaxıstan prezidentləri arasında görüş keçirilmişdir. 1999-cu il noyabrın 18-19-da İstanbul şəhərində keçirilmiş ATƏT-in Zirvə görüşü zamanı Bakı-Ceyhan əsas ixrac boru xətti üzrə saziş imzalanmışdır (3, s.71).

H.Əliyevin təşəbbüsü ilə Qazaxıstan Prezidenti 2000-ci il aprelin-7də Azərbaycanda rəsmi səfərdə olmuş və Bakıda keçirilən "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyində iştirak etmişdir. Səfər zamanı prezidentlər arasında təkbətək görüş olmuş, sonra isə geniş tərkibdə keçirilmiş danışıqlar zamanı Azərbaycan-Qazaxıstan arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsi məsələləri müzakirə olunmuş, regional, beynəlxalq problemlərə aid məsələlər barəsində fikir mübadiləsi aparılmış, iki ölkə prezidentləri birgə bəyanat qəbul etmiş və 8 sənəd imzalamışdırlar (3, s.72). Dövlətlərin ərazi bütövlüyünü təhlükə altına alan, əsas insan və hüquq azadlıqlarını, demokratik prinsipləri və ümumbəşəri dəyərləri dağıdan təcavüz aktlarını, separatizm və terrorizmin bütün forma və təzahürlərini pisləyərək, onların qarşısının alınmasında geniş qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi barədə arzular təsdiq edildi. Prezidentlər beynəlxalq təşkilatların səmərəli fəaliyyətinin gücləndirilməsinə tərəfdar çıxdılar.

İstanbulda 2001-ci il aprelin 26-27-də keçirilmiş Türkdilli Dövlət Başçılarının VII Zirvə görüşündə Azərbaycan Respublikasının prezidenti H.Əliyev Qazaxıstan Respublikasının Prezidenti ilə görüşmüşdür (8).

2001-ci il avqustun 1-2-də Soçi şəhərində MDB-nin iştirakçı ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşü çərçivəsində iki ölkə başçıları arasında təkbətək görüş keçirildi. Görüşdə Xəzərin hüquqi statusuna dair məsələlər müzakirə olunmuş, ikitərəfli əlaqələrin inkişaf perspektivləri, bir sıra regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılmışdır (3, s.73).

Moskvada 2001-ci il noyabrın 29-da MDB iştirakçı dövlətlərinin dövlət başçılarının görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti H.Əliyev qazaxıstanlı həmkarı ilə görüş keçirmiş və prezidentlər Xəzərin dibinin bölüşdürülməsinə dair Saziş imzalamışdırlar. Bu saziş Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından çox ciddi əhəmiyyətə malikdir.

Azərbaycan Prezidenti H.Əliyev 2002-ci il aprelin 23-də Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə qazaxıstanlı həmkarı ilə görüşərək fikir mübadiləsi apardı (6).

Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət Qazaxıstan-Azərbaycan əlaqələrinə böyük töhfə vermişdir. Hal-hazırda Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Qazaxıstanda bir sıra tədbirlər həyata keçirilir. 2023-cü il martın 15-də Qazaxıstanın Türküstan vilayətində "Heydər Əli-

yev ili" çərçivəsində möhtəşəm tədbir keçirildi. Tədbir iştirakçılarına H.Əliyevin rəhbərliyi ilə diaspor quruculuğu sahəsində əldə olunan nailiyyətlər, Qazaxıstan – Azərbaycan münasibətləri barədə məlumat verildi (9).

H.Əliyev deyirdi ki, xalqların dərin tarixə gedib çıxan kökləri qazax və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin əsasıdır. Həm qazaxlar, həm də azərbaycanlılar üçün tarix mürəkkəb olub. Lakin bütün çətinliklərə baxmayaraq, xalqımız həmişə bir-birini dəstəkləyib, həmişə hiss edib və başa düşüblər ki, onlar eyni köklərə mənsubdur. Ölkələrimiz arasında münasibətlər bu sözləri təsdiq edir. Bu münasibətlər strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edir.

Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında 2023-cü il mayın 5-də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq konfrans keçirilmişdir. Konfrans Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi fondunun birgə təşkilatçılığı ilə baş tutmuşdur. Konfransda çıxış edən Qazaxıstanın İnformasiya və Sosial İnkişaf naziri Darhan Kıdırali bildirdi ki, Qazaxıstanla Azərbaycan arasındakı tarixi və mədəni əlaqələrin inkişafının təməlini H.Əliyev qoymuşdur (10).

***Nəticə.*** Ümumilli lider Heydər Əliyev çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi Qazaxıstanla əlaqələrin yüksələn xətlə inkişaf etdirilməsi vəzifəsinin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi – Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991 – 2016). Bakı: "Poliart" MMC, 2017. – 904 s.
2. Vəliyev İsmayıl, Muxtarov Kamil. Heydər Əliyev və türk dünyası. Bakı:AzAtaM, 2003 – 87 s.
3. H.Əliyev və Şərq VI cild: Türk dünyası, Bakı: Çaşıoğlu, 2006. – 450 s.
4.Azərbaycan-Qazaxıstan münasibətləri Türk dövlətləri arasında əlaqələrin möhkəmləndirilməsi kontekstində. - https://azertag.az/xeber/Azerbaycan_Qazaxistan_munasibetleri_Turk_dovletleri_arasinda_elaqelerin_mohkemlendirilmesi_kontekstinde-2330696 [Müraciət tarixi 12.05.2023].
5.Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri (10-11 iyun 1997-ci il). - https://lib.aliyevheritage.org/az/59079407.html [Müraciət tarixi: 15.05.2023].
6.Azərbaycan Qazaxıstan münasibətləri. - https://lib.aliyevheritage.org/az/549420.html [Müraciət tarixi: 15.05.2023].
7. Azərbaycan - Qazaxıstan əlaqələri uğurla inkişaf edir. http://www.anl.az/down/meqale/yeni_az/2014/iyun/376358.htm [Müraciət tarixi: 18.05.2023].
8.Heydər Əliyev və türk dünyası. https://www.medeniyyet.az/page/news/67298/Heyder-Eliyev-ve-Turk-dunyasi.html [Müraciət tarixi: 18.05.2023].
9. Qazaxıstanın Türkistan vilayətində Heydər Əliyevin 100 illiyinə həsr edilmiş tədbir keçirilib. - http://diaspor.gov.az/az/news-detail/qazaxistanin-turkistan-vilayetinde-heyder-eliyevin-100-illiyine-hesr-edilmis-tedbir-kecirilib-2601 [Müraciət tarixi: 18.05.2023].
10. Qazaxıstanda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib. - https://azertag.az/xeber/Qazaxistanda_Ulu_Onder_Heyder_Aliyevin_100_illiyine_hesr_olunmus_tedbir_kechirilib-260276 [Müraciət tarixi: 21.05.2023].

**АСМАР ШУКУРЛУ**

*Докторант кафедры истории тюркских народов*
*Бакинского государственного университета*

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ С КАЗАХСТАНОМ

В конце XX века, после обретения независимости турецкими государствами, азербайджано-казахстанские отношения заняли важное место в системе международных отношений. Одним из первых государств, с которым Азербайджан установил официальные отношения, является Казахстан. Азербайджанский и казахский народы, будучи тюркоязычными народа-

ми, очень близки друг другу в плане этнических, религиозных и культурных ценностей. Еще в советское время важное положение Гейдара Алиева в руководстве СССР, его визиты в Казахстан, его знакомство с жителями региона, его отношения с государственными деятелями и общественно-политическими деятелями региона сыграли исключительную роль в развитие отношений между Азербайджаном и Казахстаном в период независимости. В годы президентства Гейдара Алиева развитие отношений между двумя странами вступило в новый этап. В статье будет рассмотрена роль Гейдара Алиева в развитии двустороннего политического сотрудничества между Казахстаном и Азербайджаном в конце 20 века и начале 21 века.

*Ключевые слова:* Гейдар Алиев, Азербайджан, Казахстан, политические отношения, официальные визиты, «Год Гейдара Алиева».

**ASMAR SHUKURLU**
*PhD student of the department*
*of History of Turkic Peoples of Baku State University*

## THE ROLE OF H.ALIYEV IN THE DEVELOPMENT OF POLITICAL RELATIONS WITH KAZAKHSTAN

At the end of the 20th century, after the independence of the Turkish states, Azerbaijan – Kazakhstan relations played an important role in the system of international relations. One of the first states with which Azerbaijan established official relations is Kazakhstan. Azerbaijani and Kazakh peoples, being Turkic-speaking peoples, are very close to each other in terms of ethnic, religious and cultural values. Back in the Soviet era, Haydar Aliyev's important position in the leadership of the USSR, his visits to Kazakhstan, his familiarity with the people of the region, and his relations with the statesmen and political-social leaders of the region played an exceptional role in the development of relations between Azerbaijan and Kazakhstan during the period of independence. During the presidency of Haydar Aliyev, the development of relations between the two countries entered a new stage. The article will discuss the role of Haydar Aliyev in the development of bilateral political cooperation between Kazakhstan and Azerbaijan at the end of the 20th century and the beginning of the 21st century.

*Keywords:* Haydar Aliyev, Azerbaijan, Kazakhstan, political relations, official visits, "Year of Haydar Aliyev".

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Nisbət Mehdiyeva, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 327: 140.8**

**АЙГЮН ИСМАИЛОВА**
*Докторант кафедры «Международные отношения»*
*Бакинского Государственного Университета*
**aygun.ismailova.1999@bk.ru**

# РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В ИНТЕГРАЦИИ ТЮРКОЯЗЫЧНЫХ ГОСУДАРСТВ

*В статье автор анализирует вклад Гейдара Алиева в создание концепции азербайджанства, а также в формировании и развитии отношений Азербайджанской Республики с тюркоязычными государствами. Цель исследования - определить основные аспекты, этапы и тенденции интеграции тюркоязычных стран. Используя фактические материалы и успешно сопоставляя факты, автор делает выводы о роли Общенационального лидера Гейдара Алиева в интеграции тюркоязычных государств.*

*Ключевые слова:* Гейдар Алиев, Азербайджанская Республика, интеграция, тюркоязычные государства, сотрудничество, взаимные отношения.

***Введение.*** Азербайджанский народ, восстановивший в 1991 году свою государственную независимость, использовал богатые традиции краткосрочной деятельности Азербайджанской Демократической Республики и на этом историческом наследстве создал независимое азербайджанское государство [7]. С приходом к власти в 1993 г. Общенационального лидера Гейдара Алиева, политика Азербайджанской Республики поступательно изменяясь в лучшую сторону, стратегически была направлена на создание и развитие отношений между тюркоязычными странами, исторически сложившиеся на протяжении развития этих государств и основывающиеся на нормах международного права. Были нормализованы и систематизированы отношения Азербайджана с тюркоязычными государствами - Турцией, Кыргызстаном, Узбекистаном, Казахстаном и Туркменистаном. Гейдара Алиева, несомненно, можно назвать основателем и архитектором возрождения политических и дипломатических взаимоотношений нашего государства с тюркским миром.

В конце прошлого века, в результате геополитических изменений, на политической карте мира появились новые независимые тюркские государства и столкновение их с вызовами глобализованного мира привели к необходимости интеграции этих государств. В развитии многосторонних отношений, в деле защиты и популяризации общего духовного и культурного наследия, начиная с 90-х годов XX века важное значение имели встречи на высшем уровне глав тюркоязычных стран. Их проведение, а также учреждение такой организации, как Международная организация тюркской культуры (ТЮРКСОЙ), сыграло важную роль в укреплении связей братских народов. Деятельность организации, осуществляемая под патронажем лидеров стран-членов ТЮРКСОЙ, получила высокую оценку в мире. ТЮРКСОЙ – сердце культурной жизни тюркского мира. Он осуществляет свою деятельность в координации с Тюркским Советом, Тюркской Академией, Фондом тюркской культуры и наследия, в сотрудничестве с ЮНЕСКО и ИСЕСКО, цели и принципы которых близки ТЮРКСОЙ. Многие проекты реализуются во взаимодействии с муниципалитетами, университетами и общественными организациями.

Ежегодно ТЮРКСОЙ организует встречи художников, оперные фестивали, литературные конгрессы и другие форумы, которые стали традиционной площадкой обмена опытом деятелей культуры и науки тюркского мира. К примеру, с общим наследием тюркского мира – Новрузом – благодаря деятельности ТЮРКСОЙ узнали во многих уголках планеты. Празднования Новруза, которые прошли с участием сотен артистов из тюркских стран, были организованы ТЮРКСОЙ в штаб-квартире ЮНЕСКО, зале Генеральной Ассамблеи ООН, а также во многих странах мира.

Многие культурные программы ТЮРКСОЙ имеют научную и просветительскую направленность: языки, культура и искусство тюркских народов многогранно представлены в книгах, сборниках и периодике ТЮРКСОЙ, издаваемых на разных языках; круглые столы и симпозиумы освещают художественное и литературное наследие тюркских народов. ТЮРКСОЙ отмечает особый вклад в сокровищницу культуры, объявляя каждый год в память о том или ином выдающемся деятеле тюркской культуры. В частности, 2012-й год был объявлен Годом Мирзы Фатали Ахунд-заде в связи с 200-летием со дня рождения великого азербайджанского драматурга, а 2017-й – Молла Панаха Вагифа, в связи с 300-летием великого азербайджанского поэта и государственного деятеля. Одной из значимых инициатив Международной организации ТЮРКСОЙ является присуждение в разные годы почетного титула культурной столицы различных городов тюркского мира. В частности, в 2016 г. культурной столицей был объявлен Шеки.

Азербайджан, как один из основателей ТЮРКСОЙ, играет активную роль в его деятельности. ТЮРКСОЙ, ежегодно проводящий множество мероприятий для выдающихся деятелей культуры, искусства и литературы Азербайджана, в соответствии с Распоряжением Президента Ильхама Алиева об объявлении 2021 года «Годом Низами Гянджеви», организовал различные мероприятия, посвященные 880-летию великого поэта. В частности, открытие выставок книги и живописи на тему «Великий азербайджанский поэт Низами Гянджеви», посвященных 880-летию великого поэта. Также в 2021 г. организована выставка работ выдающегося азербайджанского художника Микаила Абдуллаева, которому в этом году исполняется 100 лет.

Во время своего визита в 2021 г. в Азербайджан президент Турции Реджеп Тайип Эрдоган полностью поддержал инициативу ТЮРКСОЙ - предложение об объявлении освобожденного азербайджанского города Шуша Культурной столицей тюркского мира 2022 года.

Таким образом, главами тюркоязычных государств была создана основа для укрепления вечных уз братства, заложена основа планомерной деятельности, служащей укреплению отношений в политической, экономической, культурной и других областях.

Кроме того, тюркоязычные государства предпринимают активные дипломатические инициативы для продвижения своих интересов и утверждения своего влияния на мировой арене. Казахстан, например, сыграл важную роль в развитии регионального сотрудничества своими посредническими усилиями в Астанинском процессе. Переговоры в Астане, начатые в 2017 году, были направлены на содействие политическому решению сирийского конфликта путем объединения ключевых заинтересованных сторон и содействия диалогу (Международная кризисная группа, 2021). Участие Казахстана в подобных дипломатических начинаниях подчеркивает его приверженность формированию Нового мирового порядка путем активного участия в разрешении конфликтов и усилиях по региональной стабильности.

Более того, тюркоязычные государства создали военные союзы для укрепления своей позиции в области безопасности и внесения вклада в глобальную безопасность. Азербайджан, например, развивает партнерские отношения с такими странами, как Турция и Израиль, повышая свой оборонный потенциал и усиливая свое региональное влияние. Стратегический союз между Азербайджаном и Турцией имеет особое значение, поскольку обе страны имеют исторические, культурные и языковые связи [8]. Их сотрудничество вышло за рамки оборонного сотрудничества и охватило совместные военные учения, обмен разведданными и технологическим обменом. Эти альянсы отражают активную роль тюркоязычных государств в формировании аспектов безопасности Нового мирового порядка.

Проекты экономической интеграции и развития также сыграли ключевую роль в вовлечении тюркоязычных государств в глобальный порядок. Инициатива «Пояс и путь» (BRI), возглавляемая Китаем, предоставила этим государствам возможность расширить свое экономическое сотрудничество и взаимосвязь. Казахстан, расположенный в самом сердце

Евразийского континента, активно участвовал в инициативе «Пояс и путь», используя свое географическое преимущество, чтобы стать ключевым транзитным узлом и облегчить торговые и инвестиционные потоки между Азией и Европой [10]. Благодаря своему участию в подобных региональных инициативах тюркоязычные государства внесли свой вклад в экономическую динамику и изменение Нового мирового порядка.

Используя свое историческое наследие, геополитическое положение и региональное сотрудничество, эти государства стремились утвердить свое влияние и внести свой вклад в формирующийся мировой порядок. Будь то членство Турции в НАТО, посреднические усилия Казахстана, военные союзы Азербайджана или их коллективное участие в таких проектах, как инициатива «Пояс и путь», тюркоязычные государства продемонстрировали свою приверженность активному формированию развивающейся динамики Нового мирового порядка.

«Переоценка великой истории наших народов, доведение до всех народов духовных ценностей и памятников культуры, созданных каждым народом на протяжении истории, являются центральными задачами этих встреч. Наши корни очень глубоки, потому что мы связаны с одним языком, одной духовностью и одной религией, и наши нравственные ценности не останавливались и развивались, сколько бы трудностей мы ни встречали на всех этапах истории. Сейчас, благодаря тому что у тюркоязычных народов есть независимые государства и у нас есть большие возможности, мы можем еще больше усилить и организовать эти процессы. Это наш долг» - говорил Гейдар Алиев [1].

Президент независимой Азербайджанской Республики Гейдар Алиев стал инициатором разработки на новом этапе теоретических основ идеологии, призванной объединить все общество - идеологии азербайджанства. Так в жизнь вошел термин, теоретически новый и включающий в себя множество политических, идеологических и культурных измерений. В докладе на I сьезде азербайджанцев мира Г.Алиев сказал: «Мы - азербайджанцы. Родина всех нас - Азербайджан. Эта земля взрастила нас, как народ, как нацию, как личность. Поэтому в существе каждого из нас живет дух азербайджанства. И дух азербайджанства, идея азербайджанства должны стать тем, что связывает нас друг с другом и побуждает к еще более тесному сплочению. У каждого государства существует национальная идеология. И национальная идеология независимой Азербайджанской Республики - идеология азербайджанства» [12, с.157].

Обычно говорят, что история создает личность, возвышает его образ и подвиги, при том, что великие личности своими действиями пишут историю, оставляя свой след на ней. К числу таких великих архитекторов истории можно отнести и Гейдара Алиева, который сыграл огромную роль в развитии Азербайджана во всех сферах и направлениях, занятию важных позиций на международной арене, в том числе в тюркском мире, что повлияло и на обеспечение общетюркской солидарности. Неслучайно в современном мире имя нашего Общенационального лидера упоминается с большим уважением в тюркском мире, отмечается его роль в интеграции тюркских государств. На этом фоне примечательно, что руководитель Центра исследования исламской истории, культуры и искусства Организации Исламской конференции Халид Эрен характеризовал Гейдара Алиева как «достойного евразийского государственного человека», имея в виду международное значение деятельности Президента Азербайджана [5].

Возвращение Гейдара Алиева к руководству страной в 1993 г. имело важное значение не только для государственности Азербайджана, но и для развития других новых независимых тюркских государств. Защитив независимость и государственность Азербайджана, Гейдар Алиев оказал историческую услугу равенству и будущему партнерству других тюркских государств. Азербайджан является ключом на пути к интеграции тюркоязычных стран. Еще в 1990-е годы Гейдар Алиев четко определил ключевые аспекты дипломатии нашей страны, обозначив место Азербайджана в системе международных отношений. Главным образом политика Азербайджана была направлена на создание и развитие отношений и с Западом, и с Востоком, стать узлом между субрегионами и при этом обеспечивать стабильную безопасность в регионе. Эту

политику в современном мире успешно продолжает Президент Ильхам Алиев. Наше государство является важным звеном в системе Север-Юг и Восток-Запад. Успешная политика, проводимая ею, позволяет партнерам пользоваться новыми возможностями и поддержкой в реализации проектов, позволяющих выводить наши энергетические ресурсы на европейские рынки, обеспечивая энергобезопасность Старого Света.

Гейдар Алиев при определении успешной политики для нового независимого государства отмечал важность сотрудничества Азербайджана с тюркоязычными странами, подчеркивая необходимость движения от общего прошлого к общему будущему, что дало важный импульс для всестороннего взаимодействия тюркоязычных стран региона, возможность борьбы с угрозами региональной безопасности, способствовало укреплению торговых и инвестиционных возможностей.

С начала XX века выдающиеся турецкие идеологи, выступая с идеями «Единство в языке, мысли и действии», хотели сблизить турецкий народ и превратить его в единую политическую, экономическую и культурную власть. Мы добились этой возможности лишь в конце XX века, развитие и осуществление которой продолжается в современных отношениях между тюркоязычными государствами.

При рассмотрении сотрудничества Азербайджана с тюркоязычными государствами, можно отметить, что особое значение имело установление азербайджано-турецких взаимоотношений на качественно новом уровне. В ходе этого процесса Гейдар Алиев провозгласил свою историческую фразу, ставшей основой партнерства двух стран, которая вошла в хронику международных отношений и используется вплоть до наших дней и не только политическими деятелями, но и гражданами стран Турции и Азербайджана: «Азербайджан и Турция – одна нация, два государства». В годы президентства Гейдара Алиева роль Азербайджана, как незаменимого моста между Турцией и тюркскими странами Центральной Азии формировался и укреплялся как уровень реального партнерства.

Казахстан, крупнейшее и наиболее процветающее из государств Центральной Азии, стал важным региональным лидером благодаря своему уникальному геополитическому положению и дальновидной политике. Будучи богатой энергоресурсами страной, Казахстан обладает значительными запасами нефти, газа и полезных ископаемых, что делает его важным игроком на мировом энергетическом рынке. Начиная с президентства Нурсултана Назарбаева Казахстан проводит многовекторную внешнюю политику, активно взаимодействуя с региональными и международными партнерами. Инициативы страны, такие как Совещание по взаимодействию и мерам доверия в Азии (СВМДА) и Астанинский процесс по разрешению сирийского конфликта, укрепили ее статус надежного посредника и сторонника мира [11].

Казахстан уделяет приоритетное внимание диверсификации экономики и развитию своей инфраструктуры, позиционируя себя как центр торговли и инвестиций в Центральной Азии. Приверженность страны улучшению связности очевидна благодаря ее участию в Евразийском экономическом союзе (ЕАЭС) и инициативе «Пояс и путь» (BRI). Географическое положение Казахстана на древнем маршруте Шелкового пути сделало его центром внимания проектов BRI, способствуя большей региональной интеграции и экономическому сотрудничеству [9].

***Заключение.*** В конце правления республиканской администрации доктрина «войны с террором» трактовалась в духе большего прагматизма. Набранный за годы войн в Афганистане опыт послужил основой для выработки более изощренного подхода к ведению антипартизанских действий. В июле 2008 г. главной задачей США на «поддающееся предвидению будущее» была провозглашена «долгая война» против экстремистских движений. Принесение ми-

ра в Афганистан было сделано императивом внешней политики США, заслонившим соперничество за глобальное лидерство с Китаем и Россией [7, с.263].

В Афганистане в 2001-2008 годах американские войска преследовали две противоречащие друг другу (по крайней мере в том виде, в каком они официально заявлены) цели. Первая из них - необходимо предотвратить использование этой отсталой территории «Аль-Каидой» в качестве оперативной базы. Вторая цель - создание стабильного демократического правительства в Афганистане. И это особенно важный фактор в условиях, когда попытки разгромить «Аль-Каиду» и впоследствии «Талибан» требовали дестабилизации страны, управление зарождающейся афганской армией и состоящей из афганцев полицией, а также постоянного вмешательства в афганскую политику. Если в какой-либо стране приходится выполнять подобную силовую роль, способа успешной стабилизации положения в такой стране нет [1, с.155].

ЛИТЕРАТУРА

1. Дж. Ф. Фридман Следующие 10 лет. М., 2011 – 320 с.
2. Журнал Per Concordian./ журнал по проблемам безопасности и обороны Европы №11 - 68 с.
3. Коргун В. Г. Афганистан в начале XXI века. М., 2004 – 191 с.
4. Международный журнал Красного креста № 880–881, декабрь 2010 г. – март 2011 – 304 с.
5. Сет Дж. Джонс На кладбище империй. Война США в Афганистане. М., 2013 – 470 с.
6. Справочник НАТО. 2006 – 440 с.
7. Сушенцов А.А. Очерки политики США в региональных конфликтах 2000-х годов. М., 2013 – 263 с.
8. Тренин Д., Малашенко А. Афганистан: взгляд с севера. М., 2010 – 35 с.

**XƏQANİ CƏFƏRLİ**
*Bakı Dövlət Universiteti*

## ABŞ-IN ƏFQANİSTANA TERRORLA MÜBARİZƏSİNDƏ DƏSTƏYİ (2001-2008)

ABŞ-ın Əfqanistana terrorla mübarizəsində dəstəyi (2001-2008) adlı məqaləsi Bonn konfransının nəticələrinin təhlilindən başlayır. Konfrans ABŞ-ın Əfqanistana müdaxiləsindən sonra 5 dekabr 2001-ci ildə təşkil olunmuşdur, məqsədi beynəlxalq birlik tərəfindən ölkənin dirçəlişinə kömək etmək və Əfqanistanın terrorla mübarizəsində təhlükəsizlik sahəsində ona dəstək olmaq idi, həmdə bu prosesdə ABŞ-ın rolu vurğulanır. Sonra prezident Buş kabineti tərəfindən Əfqanistana terrorla mübarizəsində edilən yardımın həcmi, səbəbləri və bu tədbirlərin həyata keçirilməsi araşdırılır. Məqalədə taliblərin devirilməsindən sonra əfqan polisinin və ordusunun yenidən qurulmasına cavabdeh olan şəxslərin və strukturların adları və rütbələri qeyd olunur. Məqalədə müəllifin məqsədi, XXI əsrin əvvəlində ABŞ-ın Əfqanistan kimi çətin və sabit olmayan yerdə hərbi-siyasi mövcudluğunu təsdiq etmək və o cümlədən terrorla mübarizəsində baxışlarını və yanaşmasını göstərməkdir.

*Açar sözlər:* ABŞ, Əfqanistan, terrorizm, Taliban, yardım, əməliyyat.

**KHAGANI JAFARLI**
*Baku State University*

## USA ASSISTANCE TO AFGHANISTAN IN THE FIGHT AGAINST TERRORISM (from 2001 to 2008)

The article dedicate to the topic of U.S.A. assistance to Afghanistan in the fight against terrorism (from 2001 to 2008). It commences by recounting the outcomes of the Bonn Conference, which was convened on December 5, 2001, with the aim of aiding the country`s reconstruction and bols-

tering Afghanistan`s security efforts in combating terrorism. The role of the United States in this process is a central focus. Subsequently? The article outlines the scope of the aid provided to Afghanistan, elucidating the underlying reasons and the measures executed by the administration of President George W.Bush. It indentifies the names and positions of individuals and entities accounttable for the revitalization of the Afghan army and police following the overthrow of the Taliban regime. The author`s objective in this article is to elucidate the perspectives and methodologies employed by the United States in the XXI century concerning the battle against terrorism and the establishment of a military and political presence in a complex and tumultuous state such as Afghanistan.

*Keywords:* USA, Afghanistan, terrorism, Taliban, help, operation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. Sevinc Yusifzadə.*

UOT 94(479.24)

**ELLADA BALAYEVA**
*Bakı Dövlət Universiteti*
*Redaksiya-nəşriyyat kafedrasının dissertantı*
**baku_2007@mail.ru**

# "ELM" NƏŞRİYYAT-POLİQRAFİYA İDARƏSİNDƏN "ELM" NƏŞRİYYAT EVİNƏ İNKİŞAFI TARİXİNDƏN

*Məqalənin əsas məqsədi "Elm" Nəşriyyat-Poliqrafiya İdarəsindən "Elm" Nəşriyyat Evinə ucalma tarixini araşdırmaqdır. Məqalədə Nəşriyyat evinin müxtəlif tədbirlərdə, eləcə də beynəlxalq səviyyəli tədbirlərdə iştirakı və inkişaf dinamikası öyrənilmişdir. Tədqiqat aparılarkən elmi təhlil və müqayisə metodlarından istifadə edilmişdir. Məqalənin tətbiqi əhəmiyyəti: Ali təhsil müəssilərində mühazirə və seminarlarda istifadə oluna bilər, müvafiq dərslik və metodik vəsaitlərin yazılmasında faydalı ola bilər, tarix, kitabxana işi, kitabxanşünaslıq ilə maraqlananlar üçün dəyərli materialdır.*

*Açar sözlər*: Elm nəşriyyatı, Nəşriyyat-Poliqrafiya İdarəsi, AMEA, sərgilər, kitablar.

***Giriş***. AMEA Rəyasət Heyətinin 5 noyabr 2014-cü il tarixli qərarı ilə AMEA Rəyasət Heyəti aparatının nəzdində yaradılmış "Elm" Nəşriyyat-Poliqrafiya İdarəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 noyabr 2015-ci il tarixli qərarında "Elm" Nəşriyyatı kimi qeyd olunmuşdur. Sözügedən idarənin adının Nazirlər Kabinetinin 17 noyabr 2015-ci il tarixli Qərarı ilə təsdiq edilmiş AMEA-nın yeni strukturunun 2.46-cı yarımbəndinə uyğunlaşdırmaq məqsədi ilə AMEA Rəyasət Heyətinin bugünkü iclasında bir sıra qərarlar qəbul edilib. Belə ki, AMEA Rəyasət Heyəti aparatının nəzdində yaradılmış "Elm" Nəşriyyat-Poliqrafiya İdarəsi "Elm" Nəşriyyatı adlandırılıb. Nəşriyyatın direktoru vəzifəsinə Hafiz Abıyev təyin edilib. Digər bir qərarla AMEA Rəyasət Heyətinin "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi "Elm" Nəşriyyatının tabeliyinə verilib. Bu və ya digər qərarların icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilib.

Qeyd etmək lazımdır ki, Azərbaycan Milli Elmlər Akademiyasının Nəşriyyatı 1945-ci ildə yaradılmışdır. 1997-ci ildən AMEA-nın redaksiya-nəşriyyat işləri "Elm" Redaksiya, Nəşriyyat və Poliqrafiya Mərkəzində cəmləşdirilmişdir. Hazırda bu işləri AMEA Rəyasət Heyəti aparatının nəzdində "Elm" nəşriyyatı davam etdirir. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti aparatının nəzdində fəaliyyət göstərən nəşriyyat əsasən elmin müxtəlif sahələrinə dair monoqrafiyalar, elmi məcmuələr, lüğətlər (terminoloji, ikidilli və çoxdilli), klassiklərin çoxcildlik əsərlərini, elmi-kütləvi kitabçalar, elmi jurnallar, biblioqrafik ədəbiyyat buraxan ixtisaslaşmış nəşriyyatdır [1].

"Elm" nəşriyyatının ilk direktorlarından biri akademik Ziya Bünyadov olmuşdur. Müxtəlif illərdə bu müəssisəyə Əjdər Xanbabayev, Faiq Məlikov., F.S.Əhmədov, Ə.N.Novruzova, professor Şirindil Alışanov, Hafiz Abıyev başçılıq edib. 2019-cu ildən "Elm" nəşriyyatının direktoru Səbuhi Qəhrəmanovdur [2]. 2019-cu ildən etibarən "Elm" nəşriyyatının işinin günün tələbləri səviyyəsində qurulması, fəaliyyət istiqamətlərinin genişləndirilməsi üçün zəruri tədbirlər görülür. Bu məqsədlə AMEA Rəyasət Heyəti "AMEA-nın "Elm" nəşriyyatının fəaliyyətinin təkmilləşdirilməsi üzrə 2019–2020-ci illər üçün Tədbirlər planı"nı təsdiq edib. Tədbirlər planına əsasən, "Elm" nəşriyyatının yeni korporativ imicinin formalaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, müasir tələblər səviyyəsində rəsmi veb-saytının hazırlanması və s. nəzərdə tutulur. 2019-cu ildə "Elm" nəşriyyatı rebrendinq edib, özünün yeni loqosunu və şüarını müəyyənləşdirib. "Elm" nəşriyyatının yeni loqosu elm və kitabın simvolik vəhdətindən ibarətdir. Loqo cəmiyyətin intellektual tərəqqisini təmin edən elmin dəyərli kitabların mütaliəsindən doğması fikrini özündə ehtiva edir. Nəşriyyatın şüarı isə "Elm – tərəqqiyə aparan yol"dur. "Elm" nəşriyyatı çap etdiyi AMEA-nın elmi jurnallarının beynəlxalq elmi mərkəzlərlə əlaqələrinin gücləndirilməsi istiqamətində işlər görür. Bu məqsədlə nəşriyyat ABŞ-nin "EBSCO" məlumat bazası ilə əməkdaşlığa başlayıb. Qurumlar arasında imzalanmış razılaşmaya əsasən, AMEA Rəyasət Heyətinin təsisçisi olduğu beynəlxalq "Türkologiya" jurnalı elmi tədqiqatlar və nəşrlər bazası olan "EBSCO"ya daxil edilib.

Araşdırma zamanı məlum oldu ki, Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatının yeni loqosu və şüarı müəyyənləşdirilmişdir. "Elm" nəşriyyatının direktoru Səbuhi Qəhrəmanov bu barədə açıqlamalar da vermişdir. O, bildirib ki, müəssisənin korporativ imicinin yenilənməsi istiqamətində işlər "AMEA"-nın "Elm" nəşriyyatının fəaliyyətinin təkmilləşdirilməsi üzrə 2019-2020-ci illər üçün Tədbirlər planı"na uyğun olaraq həyata keçirilir: "Elm" nəşriyyatının yeni loqosu elm və kitabın simvolik vəhdətindən ibarətdir. Loqo cəmiyyətin intellektual tərəqqisini təmin edən elmin dəyərli kitabların mütaliəsindən doğması fikrini özündə ehtiva edir. Nəşriyyatın şüarı isə "Elm – tərəqqiyə aparan yol"dur. "Elm" nəşriyyatı bu yola işıq tutacaq fundamental, tətbiqi və eksperimental tədqiqatların nəticəsi olan sanballı akademik nəşrlərlə yanaşı, elmi geniş ictimaiyyətə çatdıracaq elmi-populyar ədəbiyyatların da nəşrini qarşısına məqsəd qoyub". Səbuhi Qəhrəmanov onu da qeyd edib ki, sözügedən Tədbirlər planına əsasən, müəssisənin işini müasir tələblər səviyyəsində qurmaq üçün kompleks tədbirlər həyata keçiriləcək. Şuranın fəaliyyətinin əsas məqsədi AMEA üzrə fəaliyyət göstərən gənclərin elmi potensialının artırılması, müxtəlif təşəbbüslərinin stimullaşdırılması, elmə axının təmin olunması, asudə vaxtlarının səmərəli keçirilməsinin təşkili,əldə etdikləri elmi yeniliklərin müxtəlif kütləvi informasiya vasitələrində işıqlandırılması, onlara metodiki, informasiya yardımının göstərilməsi və s. həyata keçirlməsindən ibarətdir. Şuranın fəaliyyətinə həmçinin, elmin respublika üzrə təbliğ edilməsi və Azərbaycan elminin dünya elminə inteqrasiyasının sürətləndirilməsi məsələləri daxildir [3].

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) "Elm" nəşriyyatı müxtəlif illərdə beynəlxalq tədbirlərdə iştirak edibdir. 30 sentyabr 2019-cu il tarixində VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında uğurla təmsil olunub. AMEA-dan sərgidə cari ildə nəşr olunan xeyli sayda elmin müxtəlif sahələrinə dair monoqrafiyalar, elmi məcmuələr, lüğətlər, seçilmiş əsərlər, elmi-kütləvi kitablar, elmi jurnallar, biblioqrafik göstəricilər nümayiş etdirib. Tədbir iştirakçıları "Elm" nəşriyyatının təşkil etdiyi guşəyə xüsusi diqqət yetirib, müəssisənin nəşrlərini yüksək qiymətləndiriblər [4].

10 sentyabr 2022-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) "Elm" nəşriyyatı Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş VIII Bakı Beynəlxalq Kitab Sərgisində uğurla təmsil olunub. AMEA-dan AZƏRTAC-a bildirilib ki, "Elm" nəşriyyatının stendində cari ildə müəssisədə işıq üzü görmüş Azərbaycan, rus və ingilis dillərində monoqrafiyalar, biblioqrafik göstəricilər, elmi jurnallar, seçilmiş əsərlər, tərcümə nəşrləri və s. sərgilənib. Nəşriyyatın stendini ziyarət edən yerli və xarici qonaqlara nəşrlər barədə ətraflı məlumat verilib, kitablar hədiyyə edilib. Sərgidə uğurla təmsil olunan "Elm" nəşriyyatı Mədəniyyət Nazirliyinin sertifikatına layiq görülüb [5].

2023-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatı Bakıda təşkil olunan II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında iştirak etmişdir. İyunun 5-dən 11-dək davam edəcək festival Beynəlxalq Türk Müəllifləri Birliyinin təşkilatçılığı, Azərbaycan Yazıçılar Birliyi (AYB), Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TÜRKPA, Yunus Əmrə İnstitutu, İLESAM və digər qurumların dəstəyi ilə keçirilir. Festival Hüseyn Cavid prospektində, AMEA-nın Əsas binasının önündəki parkda təşkil olunub. Tədbir çərçivəsində təşkil olunan kitab yarmarkasında "Elm" nəşriyyatının kitabları ilə yanaşı, AMEA-nın institutları tərəfindən nəşr edilmiş kitablar da nümayiş olunur.

***Nəticə***. Beləliklə, mövzunun araşdırılmasından belə bir nəticəyə gəlirik ki, "Elm" nəşriyyat evi mövcud olduğu gündən bəri Azərbaycan elminə, Azərbaycan xalqına xidmət etmişdir, Azərbaycanı müxtəlif səviyyəli tədbirlərdə təmsil etmişdir, bu nəşriyyat evinin fəaliyyət tarixi və bugün də aktuallıq kəsb edir və dərin araşdırma tələb edir. "Elm" nəşriyyat evinin retrospektivləri olduğu kimi perspektivləri də var.

## ƏDƏBİYYAT


1. Azərbaycan musiqi tarixi. Üçüncü cild. Bakı, "Elm", 2018, 752 s.
2. Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab. Bakı, "Elm", 2018, 738 s.
3."Elm" nəşriyyatının yeni loqosu və şüarı açıqlanıb / Xəbərlər-AMEA Gənc Alim və Mütəxəssislər Şurası, Avg 06, 2019. - https://gencalimler.az/az/news/2227/ [05.06.2023].

4. AMEA-nın “Elm” nəşriyyatı VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında uğurla iştirak edib / Azərbaycan Milli Elmlər Akademiyası, 30.09.2019. - https://science.gov.az/az/news/open/11167 [05.06.2023].
5. Sərgidə təmsil olunan AMEA-nın “Elm” nəşriyyatı kitablarını xarici qonaqlara hədiyyə edib / AzərTAC, 10.10.2022. - https://azertag.az/xeber/sergide_temsil_olunan_amea_nin_elm_nesriyyati_kitablarini_xarici_qonaqlara_hediyye_edib-2327414 [05.06.2023].

**ЭЛЛАДА БАЛАЕВА**
*Бакинский государственный университет*
*диссертант кафедры Библиотечного дела*

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ ИЗ ИЗДАТЕЛЬСКО-ПОЛИГРАФИЧЕСКОГО ОТДЕЛА "ЭЛМ" В ИЗДАТЕЛЬСТВО "ЭЛМ"

Цель статьи - рассмотреть историю восхождения от Издательско-полиграфического отдела «Элм» («Наука») до издательства «Элм». В статье изучено участие издательства в различных мероприятиях, а также мероприятиях международного уровня, динамика развития. В ходе исследования использовались методы научного анализа и сравнения. Важность применения статьи: может быть использована на лекциях и семинарах в высших учебных заведениях, может быть полезна при написании соответствующих учебников и методических материалов, является ценным материалом для интересующихся историей, библиотечным делом, библиотечным делом.

*Ключевые слова*: Научное издание, Издательско-полиграфический отдел, НАНА, выставки, книги.

**ELLADA BALAYEVA**
*Baku State University*
*PhD student of the Department of Librarianship*

## FROM THE HİSTORY OF DEVELOPMENT FROM "ELM" (“SCIENCE”) PUBLISHING-POLIGRAPHY DEPARTMENT INTO "ELM" (“SCIENCE”) PUBLISHING HOUSE

The purpose of the article is to explore the history of the rise from the "Elm" (“Science”) Publishing-Polygraphy Department to the "Elm" (“Science”) Publishing House. In the article, the publishing house's participation in various events, as well as international level events, and the development dynamics were studied. During the research, scientific analysis and comparison methods were used. Importance of application of the article: It can be used in lectures and seminars in higher education institutions, it can be useful in writing relevant textbooks and methodical materials, it is a valuable material for those interested in history, library work, librarianship.

*Keywords*: Science publishing house, Publishing-Polygraphy Office, ANAS, exhibitions, books.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 iyun 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. S.Məmmədova, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 02**

**KƏMALƏ MƏMMƏDOVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya fakültəsinin Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının müəllimi,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı*
**kamalamammad@gmail.com**

# ELMİ KİTABXANALARIN MARKETİNQ FƏALİYYƏTİNDƏ FANDRAYZİNQİN ROLU

*Məqalədə elmi kitabxanalarınmarketinq fəaliyyətində fandrayzinqin rolu və öyrənilmə səviyyəsi araşdırılmış, kitabxanaya büdcədənkənar vəsait cəlb etməyin əsas formaları göstərilmişdir. Müəllif tərəfindən elmi kitabxanalarda fandrayzinq tədbirlərinin həyata keçirilməsi ilə bağlı konkret təklif və tövsiyələr vermişdir.*

*Açar sözlər:* elmi kitabxana, kitabxana marketinqi,kitabxana fandrayzinqi, donor təşkilat, qrant, xeyriyyəçilik, ianə.

***Giriş.*** Bazar iqtisadiyyatı şəraitində hər bir kitabxanaöz fəaliyyətində ayrı-ayrı iş istiqamətlərini, yenimetod və texnologiyaları inkişaf etdirmək üçün daima büdcədənkənar mənbələrdən əlavə vəsait axtarmalı olur. Bu problem kitabxanaların marketinq fəaliyyətinin aparıcı istiqamətlərindən birini təşkil edir və fandrayzinq adlanır.

Fandrayzinq kitabxana üçün əlavə büdcədənkənar maliyyələşmə mənbələrinin axtarışı və cəlb olunması deməkdir. Bəs elmi kitabxana üçün əlavə büdcədənkənar gəlir dedikdə nə nəzərdə tutulur?

Elmi kitabxanaların büdcədənkənar maliyyələşməsi dedikdə kitabxananın inkişafının normadan artıq resurs təminatı məqsədilə müxtəlif legitim mənbələrdən əlavə pul vəsaiti cəlb etməsi başa düşülür.

Büdcədənkənar gəlir mənbələrini iki növə bölmək olar: realizə olunan və relizə olunmayan. Kitabxana üçün stabil realizə olunan gəlir-geri qaytarıla bilən əlavə kitabxana-informasiya və servis xidmətləri, təsərrüfat-müqavilə fəaliyyətidir; Əlavə resurs daxilolmalarının büdcədəkənar realizə olunmayan mənbələri isə fəaliyyətin nəticələrinin satışını tələb eməyən normadan artıq vəsaitlərin cəlb olunması kanallarıdır [8, s.229].

Elmi kitabxanalara büdcədənkənar vəsait cəlb etməyin əsas formaları bunlardır:

- ayrı-ayrı şəxslərdən və təşkilatlardan daxil olmuş hədiyyə və ya ianələr;
- qrantlar;
- sponsorların maliyyə dəstəyi.

***Problemin aktuallığı və öyrənilmə səviyyəsi.*** Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində hər bir elmi kitabxana dövlət büdcəsindən ona ayrılmış vəsaitihəm düşünülmüş şəkildə istifadə etməli, həm də özü üçün bazar mühitindən kənar əsas maliyyə resursları formalaşdırmalıdır. Bu "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda da öz əksini tapır. Qanunda (Maddə 29) göstərilir: "Kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə dövlət və qeyri-dövlət inkişaf fondları təsis edilə bilər. Bu fondlar təsisçilərin payları, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları, qanunvericilikdə müəyyən olunmuş qaydada keçirilən lotereya və digər məqsədli kommersiya tədbirlərindən daxil olan vəsaitlər hesabına yaradılır" [2].

Elmi kitabxananın fandrayzinq fəaliyyətibugünədək milli kitabxanaşünaslıq elmində müstəqil tədqiqat obyeki olmasa da, xarici təcrübədə elmi və akademik kitabxanaların fandrayzinq fəaliyyətinin nəzəri aspektləri, təşəkkül və inkişaf tarixi, fandrayzinq vəsaitlərinin cəlb olunma mənbələrinin xüsusiyyətləri vəs. bağlı çoxlu sayda nəzəri araşdırmalar, praktiki vəsaitlər və elmi təhlillər mövcuddur. Onların içərisindənV.Stil vəS. Elder [3], S.Martin[11, 12], V.Klyuyev [5, 6], İ.M.Suslova [10], E.Y.Kozlenko [7], Y.A.Pereverzeva [9], K.E.İqoşina [4], İ.D.Litvinenko [8] və b. adlarını çəkmək olar.

***Problemin həlli və elmi yeniliyi.*** Xarici ölkə kitabxanalarının iş təcrübəsinə əsaslanaraq elmi kitabxanaların marketinq fəaliyyəti çərçivəsində həyata keçirəcəyifandrayzinq tədbirinin gedişatını aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Elmi kitabxananın əlavə büdcədənkənar maliyyələşməyə ehtiyac duyulan iş istiqamətlərinin, problemlərin aşkara çıxarılması və təhlili;
2. Təqdim ediləcək layihənin məqsəd və vəzifələrinin, prioritetlərinin müəyyənləşdirilməsi;
3. Layihənin həyata keçirilməsi üçün məqsədli istifadəçi auditoriyasının, mexanizm və alətlərin müəyyən edilməsi;
4. Layihənin smetanın tərtib edilməsi, kitabxanada mövcud olan və zəruri hesab edilən resursların təhlili;
5. Elmi kitabxana üçün potensial donor axtarışı və seçimi;
6. Elmi kitabxanada planlaşdırılmış fandreyzinq tədbirlərinin və aksiyalarının keçirilməsi;
7. Əldə olunmuş nəticələrin təhlili: üstünlüklər və çatışmazlıqlar;
8. Elmi kitabxananın rəhbərliyi və kollektivi tərəfindən donor təşkilatlara minnətdarlıq.

Kitabxananın öhdəsinə düşən növbəti məsuliyyət bu gedişatı fandrayzinq tədbirinin inkişaf dövriyyəsinə uyğun şəkildəvə sistemli formada qurmaqdır.Nəzəri ədəbiyyatda bununla bağlı bir neçə yanaşma mövcud olsa da,zənnimizcə ən optimalvariant V.Stil və S.Elderin təklif etdiyi variantdır. Onlar bu işin 6 mərhələ üzrə aparılmasını təklif edir:

- potensial hədiyyə verənin (namizədin) aşkara çıxarılması;
- kitabxananın işinə namizədin cəlb olunması (məsələn, hər hansı bir tədbirdə, iclasda və s. işirak etmək üçün);
- namizədin "işlənilməsi" və s.
- potensial hədiyyə verənin kitabxananın maraq sferasına nizamlı şəkildə cəlb olunması;
- "qayğı", yəni donorun daha da həvəsləndirilməsi və işə cəlb edilməsi;
- təkrar müraciət [3].

Aşağıda adları sadalananistənilən hüquqi və ya fiziki şəxs kitabxana üçün donor təşkilat qismində çıxış edə bilər:

1. Dövlət fondları;
2. Yarıözəl fondlar;
3. Özəl fondlar;
4. Holdinqlər, şirkətlər, korporasiyalar;
5. Kitabxananın "dostları";
6. Ayrı-ayrı fiziki şəxslər və s.

Bu sıralama qrantverənlərin ümumi və təxmini təsnifatıdır. Qrantlar özləri də bir neçə növə ayrılır:

- prezident qrantı;
- bir neçə resbublika prezidentlərinin qrantı;
- federal dairə ( bölgə, zona) qrantı;
- qubernatorların (icra hakimiyyətlərinin) qrantı;
- mədəniyyət şöbələrinin ( mədəniyyət idarələrinin) qrantı;
- dövlət təşkilatlarının (fondlarının qrantı)[1, s.103]

Son dövrlərdə kitabxana fəaliyyətinə vəsait cəlb etməyin ən populyar fandrayzinq mənbələrindən biri olan kraudfandinq də dünyada geniş yayılmaqdadır. Kraudfandinq -"crowdfunding"- ingilis sözü olub hərfi tərcüməsi "kütlə tərəfindən maliyyələşmə" deməkdir. Bu, İnternet şəbəkə resurslarının vasitəçiliyi ilə ayrı-ayrı şəxslərin kitabxanalara etdiyi ianədir. Onu çox vaxt "xalq maliyyələşməsi" də adlandırırlar. Kraudfandinqin unikallığı çoxlu sayda insandan həm kiçik, həm də əhəmiyyətli dərəcədə böyük sərmayələr toplamağa kömək edən müxtəlif internet-platformalardan istifadədədir [4, s.123].

Artıq dünya kitabxanalarının iş təcrübəsində İnternet şəbəkəsində sosial-mədəni və elmi-texniki xarakterli kitabxana layihələrinə vəsait toplayan bir neçə belə xüsusi xarici platformalar yaradılmış və geniş fəaliyyət göstərməkdədir.

Kitabxana kraudfandinq layihələrinin köməkliyi ilə həm öz fəaliyyətinə, həm ayrı-ayrı kitabxana-informasiya xidmət və məhsullarına, həm də kitabxananın təşkil etdiyi tədbirlərə yeni baxış formalaşdıra bilər. Belə layihələrin həyata keçirilməsi əhali arasında milli-tarixi ənənələrə və mədəniy-

yətimizə olan marağı da artıra bilər. Kitabxana üçün kraudfandinq nəinki təkcə cəlb etmə, həm də kitabxana ideyalarını verifikasiya və testləşdirmə alətidir [7, s.261].

Bu gün kitabxanalara xeyriyyə yardımının mahiyyəti ianə ənənələrinin dirçəlməsində, kitabxanaların maddi-texniki bazasının, informasiya resurslarının, kitabxanaçıların və istifadəçilərin şəxsi və peşəkar keyfiyyətlərinin planlı və sistemli inkişafı məqsədilə fəaliyyətin təşkilinə innovasiya yanaşmasında möhkəm sosial-mədəni və şəxsiyyətlərarası əlaqələrin yaranmasındadır [9, s.173].

***Nəticə***. Apardığımız tədqiqatlar göstərir ki, elmi kitabxanalarda fandreyzinq fəaliyyətinin hazırlıq prosesi, planlaşdırılması və həyata keçirilməsi kifayət qədər mürəkkəb bir prosesdir və onun alqoritmini işləmək kitabxana rəhbərliyi və kollektivindən gərgin əmək, zaman və hövsələ tələb edir. Buna görə də bu işi yüksək ixtisaslı, peşəkar kitabxanaçı kadrlar-kitabxana marketoloqları və ya menecerləri həyata keçirilməlidir.

Fandrayzinq elmi kitabxananın sosial xarakterli layihə və tədbirlərinin, kitabxana proqramlarının həyata keçirilməsi üçün olduqca əlverişli alternativ maliyyələşmə kanalı hesab edilir. Kitabxana əlavə büdcədənkənar gəlir vasitəsilə həm cəmiyyətdə formalaşmış status və imicini qoruyub saxlaya, həm kitabxana-informasiya resurslarına yüksək tələbat formalaşdıra, həm də kitabxananın sənəd-informasiya fondlarını təkmilləşdirə bilər. Bundan başqa, fandrayzinq öz vəsaitlərini bu kitabxanalara yönəldən donorlar, sponsorlar və xeyriyyəçilərin cəmiyyətdə populyarlıq qazanmasına da şərait yaradır.

Bu gün respublikamızda elmi-tədqiqat işlərini, təhsil və mədəniyyət proqramlarını maliyyələşdirməkdə maraqlı olan xarici və yerli fondların, xeyriyyə təşkilatlarının böyük bir şəbəkəsi fəaliyyət göstərir. Zənnimizcə, bu amil elmi kitabxanaların fandrayzinq fəaliyyətinin inkişafına böyük təkan verə bilər.

## ƏDƏBİYYAT


1. Məmmədova, (Ənvərqızı) K.Ə. Kitabxanalarda marketinq və fandrayzinq fəaliyyəti. – Bakı: Nafta-Press, 2009. – 140 s.
2. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu. - https://e-qanun.az/framework/5041 [18.09.2023].
3. Бакленд, М. Модернизация библиотечного дела: манифест. Стил В., Элдер С.Д. Как привлечь внебюджетные средства, стать фандрайзером /М.Бакленд. Как привлечь внебюджетные средства, стать фандрайзером : Принципы и практика развития б-ки: Пер. с англ / В.Стил, Ст. Д.Элдер. – Москва: О.Г.И., 2000. – 268 с.
4. Игошина, К.Е. Краудфандинг как инновационный инструмент финансирования проектов // Глобальные рынки и финансовый инжиниринг.– 2017. – Том 4. – № 2 (апрель-июнь). – С.123-131.
5. Клюев, В.К. Управленческая экономика российской библиотеки. – Москва: ФАИР,2007. – С.157-165.
6. Клюев В.К. Фандрейзинг в условиях библиотеки // Библиогр. – 2000. – № 2. – С.51-55.
7. Козленко Е.Ю. Библиотека на платформах краудфандинга // Культура, наука, творчество. – Минск, 2020. – С.257-261. - https://elibrary.ru/item.asp?id=43935899 [18.09.2023].
8. Литвиненко, И.Д. Фандрайзинг: теоретическое осмысление и опыт интеграции в библиотечную практику // Вестник МГУКИ. – 2011. – №4(42). – июль-август. –С.227-230.
9. Переверзева, Ю.А. Социальная деятельность библиотек и благотворительность // Библиотека. Культура. Общество. – Орел, 2019. – С. 172-176. - https://elibrary.ru/item.asp?id=42551404 [18.09.2023].
10. Суслова, И.М., Злотникова З.И. Проектная деятельность библиотек: Науч.-практ. пособие. – Москва: ФАИР-ПРЕСС, 2005. – 176 с.
11. Martin S. The changing role of the library director: fund-raising and theacademic library // The journal of academic librarianship. – 1998. – Vol.24, N1. – P.3-10.
12. MartinS. Academic library fund-raising: organization, process andpolitics // Library trends.– 2000. – Vol. 48, N3. – P.560-578.

**КАМАЛА МАММАДОВА**
*преподаватель Азербайджанского Государственного Университета Культуры и Искусств*
*Диссертант Института Рукописей имени Мухаммада Физули НАНА*

## РОЛЬ ФАНДРАЙЗИНГА В МАРКЕТИНГОВОЙ ДЕЯТЕЛЬНОСТИ НАУЧНЫХ БИБЛИОТЕК

В статье рассматривается роль фандрайзинга в маркетинговой деятельности научных библиотек и уровень его изученности, а также показаны основные формы привлечения внебюджетных средств в библиотеку. Автором сделаны конкретные предложения и рекомендации по реализации фандрайзинговых мероприятийв научных библиотеках.

*Ключевые слова:* научная библиотека, библиотечный маркетинг, библиотечный фандрайзинг, донорская организация, грант, благотворительность, пожертвование.

**KAMALA MAMMADOVA**
*Lecturer of Azerbaijan State University of Culture and Art,*
*PhD student of the Institute of Manuscripts*
*named after Muhammad Fuzuli of ANAS*

## THE ROLE OF FUNDRAISING IN THE MARKETING ACTIVITIES OF SCIENTIFIC LIBRARIES

The article discusses the role of fundraising in the marketing activities of scientific libraries and the level of its study, as well as shows the main forms of attracting extrabudgetary funds to the library. The author made specific proposals and recommendations for the implementation of fundraising activities in scientific libraries.

*Keywords:* scientific library, library marketing, library fundraising, donor organization, grant, charity, donation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Aybəniz Əliyeva-Kəngərli, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 32**

**GÜLNAR RƏHİMOVA**
*Gəncə Dövlət Universiteti, "Sosial fənlər" kafedrasının dissertantı*
**gulnar.rahimova1989@gmail.com**

# SİYASİ KİMLİYİN FORMALAŞMASINDA SOSİALLAŞMANIN ROLU

*Hər bir şəxsin özünəməxsus statusları içində onun siyasi kimliyi də mühüm əhəmiyyət kəsb edir. Siyasi kimlik fərdin siyasi mövqeyinin, siyasi maraqlarının, siyasi fəaliyyətinin və siyasi mədəniyyətinin əsas komponentlərini özündə cəmləşdirən əsas siyasi kateqoriyalardan biridir. Siyasi kimliyin formalaşması müntəzəmlik kəsb edən proses kimi sosiallaşmanın əsas nəticələrindən birini təşkil edir. Sosiallaşma və onun siyasi istiqaməti, fərdin hansı dövrdə, hansı siyasi rejimdə yaşamasından asılı olmayaraq, onun siyasi kimliyinin formalaşmasında rol oynayan prosesdir. Təsadüfi deyil ki, sosializm, faşizm kimi rejimlərin belə, insanları siyasi cəhətdən simasızlaşdırma cəhdləri heç bir nəticə verməmiş, bu rejimlər bir müddət sonra tarix səhnəsindən silinmişdir.*

*Hər bir dövrdə siyasi sosiallaşma prosesi, həmin dövrün özünəməxsus təsir vasitələri ilə baş verir. Bu təsir vasitələrinin müxtəlif kombinasiyası şəxsiyyətin siyasi kimliyinin özünəməxsusluğunu təmin edir. Sosiallaşmada rol oynayan müxtəlif sosial-siyasi institutların təsir imkanları, müxtəlif ideologiyalar şəxsiyyətin siyasi kimliyini formalaşdırır və bir növ əsasını təşkil edir. Bu tədqiqat işində şəxsiyyətin siyasi kimliyinin formalaşmasında rol oynayan situasiv amillər, şəxsi maraqlar, siyasi mühit və siyasi siyasi proseslər, kütləvi informasiya vasitələri və s. faktorları özündə birləşdirən sosiallaşma prosesinin siyasi kimliyin formalaşmasına təsirləri müəyyən edilmişdir.*

*Bu məqsədlə əvvəlcə sosiallaşma və siyasi sosiallaşma, daha sonra siyasi kimlik quruculuğu prosesi və onun şəxsiyyətin siyasi mövqeyi və faəllığına təsirləri təhlil edilmişdir. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, hər bir dövrdə siyasi kimliyin formalaşmasına təsir edən vasitələr, həm də şəxsiyyətin siyasi fəallığının səviyyəsini müəyyənləşdirir. Fəal siyasi şəxsiyyətlərin çoxluqda olduğu cəmiyyətdə demokratik cəmiyyət quruculuğu daha sürətlə baş verir.*

*Açar sözlər:* siyasi sosiallaşma, siyasi fəaliyyət, siyasi iştirak.

***Giriş.*** Fərdin sosial həyatla bağlı sosial normaları, dəyərləri, inancları, vərdişləri, meylləri və davranış nümunələrini mənimsəməsi sosiallaşma prosesi çərçivəsində, cəmiyyətin müxtəlif sosial institutları - siyasət, mədəni, iqtisadi, təhsil, ailə-nigah və s. vasitəsilə həyata keçirilir.

Siyasətə maraq və siyasətdə iştirak etmək səviyyəsi siyasi kimliklə bilavasitə bağlı olan məsələlərdir. Çünki insanın mənəvi tərəfini təşkil edən amillərdən biri də onun siyasi varlıq olması təşkil edir. Siyasi varlık kimi insanın formalaşması isə "sosiallaşma"nın nəticəsidir.

Getdikcə siyasiləşən dünyada "məni siyasət maraqlandırmır" deyən bir fərd nə qədər siyasətlə maraqlanmasa da, siyasətin təsirindən kənarda qala bilməyəcəyi üçün, siyasətlə bağlı az və ya çox səviyyədə məlumatlı olmaq və özünün siyasi mövqeyinin olması vacibdir.

***Siyasi sosiallaşma müntəzəmlik kəsb edən proses kimi*.** "Siyasi sosiallaşma" anlayışı tədqiqat mövzusu kimi ilk dəfə Xaymen tərəfindən 1959-cu ildə çap olunan eyni adlı əsərində təklif edilmişdir [5]. Bir çox anlayış və amilləri özündə birləşdirən "siyasi sosiallaşma" prosesi müxtəlif yollarla müəyyən edilmişdir. "Siyasi sosiallaşma" fərdlərin ailə və məktəb kimi siyasi sosiallaşma faktorları ilə qarşılıqlı əlaqəsi nəticəsində siyasi bilik, münasibət və davranışları öyrənməsi kimi ifadə edilmişdir. Gənclərin siyasi sistemi anlamağa və siyasi həyatda iştirak etməyə başladığını vurğulayan təriflər də təklif edilmişdir. Siyasi sosiallaşmanın müxtəlif tərifləri birlikdə qiymətləndirildikdə demək olar ki, "siyasi sosiallaşma" prosesi yeni nəsillərin siyasi sistem haqqında biliklərə yiyələnməsini, siyasi dəyərləri və münasibətləri öyrənərək siyasi mədəniyyətdə iştirakını əhatə edir.

Siyasi sosiallaşma prosesi, onun mahiyyəti, məzmunu, aspektləri, vasitələri və nəticələri haqqında siyasi elmdə müxtəlif tədqiqatlar aparılıb. David İstonun rəhbərliyi ilə bir qrup amerikan aliminin işləyib hazırladığı nəzəriyyədə siyasi sosiallaşma insanın siyasət sahəsində yerinə yetirməli olduğu rollara öyrədilməsi kimi təklif edilir. Bu proses nəticəsində, hər bir fərd aşağıdakı üç əsas keyfiyyətə malik olur [13, s.302]:

- siyasi proseslər, siyasi liderlərin fəaliyyəti haqqında zəruri biliklər;
- siyasi sistemin inkişaf istiqamətlərini göstərən və ən ümumi siyasi məqsəd kimi qələmə verilən siyasi dəyərlər;
- fərdin siyasi obyektlərə münasibətdə seçdiyi həyat mövqeyi (məsələn, siyasi obyektlərə inam və rəğbət, inamsızlıq və ya antipatiya və s).

Siyasi sosiallaşmaya dair aparılan tədqiqatlara nəzər yetirəndə görürük ki, bu tədqiqatlarda müxtəlif faktorlar və yaş dövrləri tədqiq edilmiş, siyasi sosiallaşma prosesinin müxtəlif aspektlərdən qiymətləndirilməsi aparılmışdır. Mövzuya dair 1950-1960-cı illərdə aparılan ilk araşdırmalarda valideynlərin ən mühüm siyasi sosiallaşma amili olduğu hipotezinden hərəkətlə, fərdlərin sosial normalara riayət etməsində və siyasi sistemin davamlılığının təmin edilməsində rol oynayan ailədaxili faktorlara və uşaqlıq dövrünə xüsusi diqqət yetirilmişdir. Tədqiqatçılar valideynlərin uşaqlara siyasi inamı və vətəndaş məsuliyyətini, özlərinin siyasi meyillərini gənclərə necə ötürdüklərini araşdırmışlar [3, s.158]. Bu araşdırmalarda ailənin siyasi iştirakı təşviq etdiyini və sosial institutların uşaqların məsuliyyətli vətəndaş olmasında mühüm rol oynadığını göstərilməyə çalışılmışdır.

1970-ci illərdə tədqiqatçıların yetkinlik yaşına çatanlara daha çox əhəmiyyət verdikləri, həyat boyu siyasi münasibət və davranışlardakı dəyişiklikləri təhlil etdikləri və ailəxarici siyasi sosiallaşma faktorlarının təsirlərinə əhəmiyyət verməyə başladıqları müşahidə edilməkdə. 1980-ci illərdən başlayaraq, tədqiqatçıların siyasi sosiallaşmaya marağının və buna paralel olaraq aparılan araşdırmaların xeyli azaldığı müşahidə olunmuşdur.

1990-cı illərdə uşaqların öz inkişaflarını idarə etdikləri aspektindən hətəkətlə, siyasi sosiallaşma sahəsində aparılan yeni tədqiqatların sayında artım yaşanmışdır [9, s.10]. Məsələn, J.Youniss, 1998-ci ildə apardığı tədqiqatda gəncləri siyasi və sosial məlumatları şərh edən fərdlər kimi müəyyən edərək, sosial iş proqramlarında iştirakın gənclərin sosial kontekstə həssaslığına və onların həyatlarındakı çətinlikləri və imkanları şərh etmələrinə təsir etdiyini müəyyən etmişdir [16, s.127].

2010-cu illərə qədər siyasi sosiallaşma ilə bağlı az araşdırma aparılsa da, bu tarixdən etibarən mövzuya marağın artdığını qeyd etmək olar.

Sosiallaşma prosesi, bir fərdin təhsil, təlim, müşahidə və təcrübə yoluyla, bir ailəyə və bir mədəniyyətə uğurla inteqrasiya olmaq üçün lazım olan bacarıqları, instiktləri, düşüncə və davranışları mənimsəmə şəklini və bunların dəyişməsini ifadə edir. Siyasi sosialaşma, fərdlərin üzvü olduqları cəmiyyətə dair siyasi mövqe və davranışları əldə etdiyi proses olaraq qəbul edilir [6, s.293]. Siyasi sosiallaşmaya dair aparılan tədqiqatlar, fərdlərin nə vaxt, necə və nəyin təsiri ilə hansı siyasi görüş, bilik, bacarıq, mövce, inam və davranış normalarını mənimsədiklərini tədqiq edir.

Siyasi sosiallaşma anlayışı, ilk dəfə 1959-cu ildə Herbert Hymanın eyni adlı əsərində istifadə edilmişdir. Həmin dövrdən bu günə kimi keçən müddət ərzində siyasi sosiallaşma sahəsində aparılan tədqiqatlar, pedaqogika və psixologiya kimi elm sahələri ilə birgə multidissiplinar şəkildə həyata keçirilmiş və siyasi elmin mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Siyasi sosiallaşma sahəsində tədqiqatları ilə tanınan Niemi və Hepburn [9, s.8-15], düşüncə və davranışların vaxt keçdikcə dəyişdiyini, keçmişdə öyrənilənlərin gələcəkdə təcrübədə bağlayıcı olmadığını qeyd etmişlər. Bu səbəblə, siyasi sosiallaşma və siyasi iştirak sahəsində tədqiqat apararkən, 14-25 yaş aralığındakı fərdlərə üstünlük verməyin düzgün olduğunu qeyd etmişlər. Gənclər, həqiqətən də gələcəyimizdirsə, onda onların siyasətə dair dünyagörüşlərini necə əldə etdiklərini öyrənmək mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, yeniyetməlik dövrü, sosial rollar ilə bağlı şəxsiyyətin formalaşmasına əlavə olaraq, siyasi kimliyin formalaşması baxımıdandan da əsas dövrlərdən biridir. Lakin bir sıra elm adamları, gənclər arasında siyasətə olan marağın azaldığını qeyd etməkdə və bunun başlıca səbəbi kimi siyasi qurumlara və demokratik proseslərə dair aşağı bilik sahibi olduqları, həmçinin siyasətə olan zəif inama sahip olduqları qeyd edilməkdədir.

***Siyasi kimliyin formalaşmasına təsir edən faktorlar***. Quintelierə görə, siyasi sosiallaşma prosesinin dörd əsas aspekti mövcuddur. Bunlardan birincisi, öyrənmə prosesi, ikincisi, fərdilik, üçüncüsü nəsildaxili siyasi görüş, dördüncüsü isə siyasi davranışların öyrənilməsidir [6, s.296]. Siyasi sosiallaşma prosesində yer alan mühüm aktorlar mövcuddr. Siyasi ədəbiyyatda bu aktorlar beş əsas qrupda cəmləşdirilir:

- ailə institutu;

- dost mühiti;
- təhsil institutu;
- kütləvi informasiya vasitələri;
- siyasi institutlar.

Yuxarıda qeyd olunan bu institut və qruplar, siyasət haqqında bilik və təsəvvürlərin formalaşmasına, vətəşdaşların siyasətçilər və siyasi təşkilatlar haqqında görüşlərinin möhkəmlənməsinə və ya dəyişməsinə təsir edirlər.

Ailə, əsas etibarilə siyasi görüş və davranışlarla bağlı tədqiqatlarda yer alan mühüm sosial institutdur. Valideynlər və ailənin digər üzvləri, uşaqların siyasi görüş və davranışlarının (xüsusilə, partiya üzvlüyü və səsvermə) formalaşdırmaqda ilk siyasi sosiallaşdırma institutu kimi fəaliyyət göstərir [11, s.557]. Valideynlərin uşaqların siyasi cəhətdən sosiallaşması prosesi birbaşa və dolayı yolla reallaşır. Valideynlərin siyasətlə fəal surətdə maraqlandığını görən uşaqlar, yaşları artdıqca, siyasətə daha çox maraq göstərirlər. Digər tərəfdən ailə daxilində siyasi məsələlərin müzakirə edildiyini görən uşaqlar siyasətlə daha yaxından maraqlanırlar. Valideynlərin daşıyıcısı olduğu siyasi görüş və ideologiya çox vaxt onların övladlarının da siyasi görüş və siyasi fəallığının əsas müəyyənedici amilinə çevrilir [7, s.284]. Xüsusilə təhsil səviyyəsi yüksək valideynlərin siyasətə daha çox maraq göstərməsi, siyasi diskussiyaya əlverişli bir məişət mühitinin formalaşmasına zəmin yaradır. Fəal siyasi davranış və görüş sərgiləyən valideynlərin uşaqlarının təkcə evdə deyil, eyni zamanda məktəbdə və yaşıdları ilə də siyasi diskussiyalara daxil olmaları baş verir və belə uşaqlar sonrakı illərdə böyük ehtimalla fəal siyasi iştirakçıya çevrilirlər.

Tədqiqatlar, siyasi sosiallaşmanın məktəbəqədərki dövrdə başladığını qeyd edirlər. Lakin konkret siyasi məsələlərlə bağlı fikirlərin formalaşması, uşağın şəxsiyyətinin sürətlə formalaşdığı məktəb illərində baş verir. Təhsil müəssisələri, ailə, dini məkanlar və ya müxtəlif klublardan daha çox siyasi müxtəlifliyə malik olduğu üçün, uşaqların siyasi sosillaşmasında daha çox rol oynayır [3, s.258-259]. Təhsil müəssisələri, uşaqların və gənclərin həyatlarının inkişaf fazasaını keçirdikləri mühüm sosiallaşma institutlarıdır. Burada müəllimlər, şagirdlərinin vətəndaşlıq şüurunu, görüşlərini və davranışlarını formalaşdıran özünəməxsus mövqeyə malikdir. Məktəb sayəsində şagirdlər müxtəlif fikirlərə malik insanlara qarşılaşır və bir-birlərinin siyasi fikirlərinə təsir göstərirlər.

Schwarzer [12] isə, yaşıdlardan ibarət qurpların siyasi məsələlərdə göstərdiyi təsirin, məktəb və uşaqlıq dövrlərindən daha çox effektli olduğunu qeyd edir. J.Youniss və digər tədqiqatçılar, siyasi sosialllaşmaya dair tədqiqatlarında, bu prosesdə yaşlı nəslin gənclərə göstərdiyi təsirdən çox, gənclərin özlərini yetişdirmək üçün hansı vasitələrdən istifadə etdiyinə başmağın vacib olduğunu qeyd edirlər [16, s.139]. Valideyn və yaşıdlar arasında yaşanan mübahisələrin siyasi iştiraka təsirinin müqayisə edildiyi tədqiqatlarda isə, 9-11-ci sinif şagirdlərinin yaşıdları ilə söhbətlərinin, valideynlərilə bu mövzudakı apardıqları söhbətlərlə müqayisədə, siyasi qərar qəbul etmək və seçkilərdə səs vermək istəyinə güclü təsir göstərdiyi müşahidə edilmişdir. Yaşıdlar arasında baş tutan belə mübahisələr və söhbətlər nəticəsində, onlar həmsöhbətlərinin fikirlərinə təsir göstərməkdə, səs vermək məsələsində dəstək verilməkdə, siyasətə dair bilikləri genişlənməkdədir. Başqa bir ifadəylə, gənclər yaşıdları ilə apardıqları diskussiyalar nəticəsində siyasi mövqelərini müəyyənləşdirirlər.

Kütləvi informasiya vasitələri, xalqın həm sosial, həm də siyasi fəaliyyət səviyyəsinə təsir göstərməkdə və onu formalaşdırmaqdadır. İnsanlar, mətbuatdan (televizor, radiyo, qəzet, jurnal və s.) aldıqları məlumatlar sayəsində siyasətə dair baxışlarını formalaşdırır, sosial siyasətə dair məlumat sahibi olur, siyasi qərar və mövqelərini şüurlu şəkildə müəyyən edirlər [8, s.51]. Xüsusilə, televiziya, siyasətçilərin imici baxımından siyasi qiymət verilməsi üçün əsas kütləvi informasiya vasitəsidir. Məsələn, bir liderin şəxsi keyfiyyətlərinə daha çox maraq göstərilməsi, seçicilərin şüurunda bu keyfiyyətləri daha əlçatan edir və namizədə sipmatiya bəsləməsinə səbəb olur [12]. Başqa bir ifadə ilə, mətbuat, siyasi iştirakı təşviq etməsi və ya belə hərəkətlərdən uzaqlaşdırmaq gücünə malik olması səbəbilə, son dərəcə əhəmiyyətlidir. Texnologiyanın inkişaf etməsinə paralel olaraq artan medya vasitələri, öz siyasi fikirlərini yaymaq istəyən fərdlərin təbliğat imkanlarını artırmaqda və digər şəxslərin siyasi davranışlarına təsir göstərmələri baxımından geniş imkanlar yaratmaqdadır.

Bu gün mətbuatın və kommunikasiya vasitələrinin geniş şəkildə istifadə edilməsi güc və nüfuz mənasına gəldiyi üçün çox əhəmiyyətlidir. Gənclərin informasiya əldə edərkən, ənənəvi xəbəralma

vasitələrinin yerinə yeni vasitələrin (sosial şəbəkə) arasından daha çox “geyri-rəsmi” və “ironiyalı” olanlarını tərcih edirlər [15, s.43-44]. Xüsusilə, gənclərin geniş şəkildə istifadə etdikləri internet, siyasi mövqe və fikirlərə əhəmiyyətli dərəcədə təsir edən bir vasitə halına gəlmişdir. U.L.Bennett, “dijital yerli” olaraq böyümüş yeni nəsil fərdlərin, yaşlı nəsillərdən (valideynlər, nənə, baba kimi) daha fərqli öyrənmə metodları sərgiləmələrinin təəccüb doğurmadığını qeyd edir [1, s.2].

Siyasi sosiallaşma prosesində rol oynayan başqa bir faktor isə könüllülük əsasında üzv olunan klublardır. Putnam, müsbət demokratik nəticələr doğurması baxımından ən önəmli mexanizmlərdən birinin belə klublara üzv olmaqdan keçdiyini iddia edir. Belə klublar sayəsində gənclər, siyasi iştirakla bağlı bacarıqlarını inkişaf etdirmək imkanı əldə edirlər. Belə klublara üzvlük, qrup ruhu yaratması, müştərək kimlik formalaşdırması və müəyyən səviyyədə təmsil haqqı verməsi baxımından əhəmiyyətlidir [7, s.284]. Hanks və Eckland, apardıqları şaquli araşdırma ilə könüllülüyə əsaslanan klublara üzv olan gənclərin daha sonrakı siyasi davranışlarını təhlil edərkən, seçkilərdə səs vermə meylinin artdığını və siyasi yadlaşmanın azaldığını müəyyən etmişlər [2, s.287]. Məsələn, Türkiyədə, bu ölkənin Daxili İşlər Nazirliyinin məlumatlarına görə, 2020-ci ildə 121.601 fəal dərnək mövcuddur [14]. İnkişaf etmiş ölkələrdəki rəqəmlərlə müqayisə edildikdə Türkiyədə istər klubların sayı, istərsə də belə klublara üzv olan vətəndaşların sayı çox aşağıdır. Azərbaycan kimi post-sovet ölkələrində isə bu sahədəki göstəricilər Türkiyə ilə müqayisədə daha da aşağı səviyyədədir.

Siyasi sosiallaşma prosesi hər bir fərdin özünəməxsus siyasi şəxsiyyətə çevrilməsi ilə nəticələnir və onun özünəməxsus siyasi kimliyi formalaşır. Aşağıda siyasi sosiallaşma nəticəsində formalaşan şəxsiyyət tipləri qeyd edilmişdiir. Siyasi literaturda siyasi cəhətdən sosiallaşan şəxsiyyətin dörd əsas tipi mövcuddur [13, s.303-304]:

- siyasi sosiallaşmanın harmonik tipi. Fərdin və siyasi hakimiyyət institutlarının normal əlaqələrini, vətəndaşların qayda-qanuna riayətini, dövlətə rasional və səmimi baxışını, eyni zamanda şəxsi məsuliyyət hissini dərk edən harmonik tip;
- siyasi sosiallaşmanın plüralist tipi. Fərdlərin digər fərdlərlə hüquq bərabərliyini, haqlarına və azadlığına hörməti, siyasi mənafe və istəklərini dəyişmək və yeni siyasi dəyərlər qəbul etmək bacarığını əks etdirən plüralist tip;
- hegemon tipli siyasi kimliyə malik olan fərd, mənafeyinə cavab verməyən və zidd olan bütün siyasi institutlara qarşı neqativ mövqeyi ilə xarakterizə olunur;
- siyasi kimliyi münaqişəli karakterə malik olan şəxsiyyətlər, qruplararası mübarizə və bir-biri ilə bağlı mənafelərin qarşı-qarşıya qoyulması kimi xüsusiyyətləri ilə səciyyələnir.

Bir mühüm məqamı qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilən siyasi cəhətdən sosiallaşan şəxsiyyət tipləri xalis tiplərdir.

***Nəticə***. Aparılan tədqiqat zamanı təhlil edilən elmi mənbələr onu göstərir ki, siyasi kimliyin formalaşması siyasi sosiallaşmanın bilavasitə nəticəsi olmaqla, şəxsiyyətin siyasi maraq, mövqe və fəallığının əsas daşıyıcısıdır. Hər bir cəmiyyətdə və tarixin müxtəlif dövrlərində siyasi kimlik müxtəlif faktorların təsiri ilə formalaşır. Belə ki, elə cəmiyyətlər və elə dövr ola bilər ki, burada siyasi kimliyin formalaşması prosesi, ailə institutunun və ya təhsil institutunun, yaxud digər sosial-siyasi institutların, kütləvi informasiya vasitələrinin təsiri ilə baş vermişdir.

Ölkədə və dünyada baş verən siyasi, iqtisadi, hərbi proseslər şəxsiyyətin siyasi kimliyinin formalaşmasına və onun siyasi fəallığına situativ təsir göstərən başlıca proseslərdir. Siyasi rejimlərin təbiəti siyasi kimliyin formalaşmasına doğrudan təsir göstərən digər faktordır. Son illərdə siyasi kimliyin formalaşmasına sosial şəbəkələrin təsiri ön plana çıxmışdır. Məsələn, dini qurumlar, iş mühiti, qonşu dövlətlərlə münasibətlər, siyasi təşkilatlar və s. fərdlərin siyasi kimlik quruculuğunda mütləq rol oynayır. Bütün bu faktorların təsiri ölkədən-ölkəyə fərqlilik göstərir.

ƏDƏBİYYAT

1. Bennett, W.L. Civic learning online: Responding to the generational shift in citizen identity // - Around the Circle, - 2008. 5, - p.1-2.
2. Hanks, M., Eckland, B.K. Adult voluntary associations and adolescent socialization // - The Sociological Quarterly, - 1978. 19/3, - p.481-490.

3. Hess, D.E. Controversies about controversial issues in democratic education // - PS: Political science and politics, - 2004. 37/2, - p.257-261.
4. Hüseynov, C. N. Politologiya məntiqi sxemlərdə. Dərs vəsaiti / C.N.Hüseynov. – Gəncə: ADAU, – 2010. – 400 s.
5. Hyman, H. Political Socialization: A Study in the Psychology of Political Behaviour. – New York: Free Press, – 1959. – 253 p.
6. Quintelier, E. Political socialization among young people // - Evidence From a Two-Year Panel Study, Politics, culture and socialization. - 2011. 2/2, p. 193-206.
7. Quintelier, E. Intergenerational transmission of political participation intention // - Acta Politica, - 2015. 50/3, - p. 279-296.
8. Mushtaq, S., Baig, F. The relationship of tv news channels consumption with political participation, political knowledge and civic engagement // - Asian Social Science, - 2015. 11/12, - p.46-54.
9. Niemi, R.G., Hepburn, M.A. The rebirth of political socialization // - Perspectives on Political Science, - 1995. 24/1, - p.7-16.
10. Owen, D. (2008). Political socialization in the twenty-first century: Recommendations for researchers: [Electronic resource] / In Future of Civic Education in the 21st Century Conference, James Madison Montpelier. URL: https://www.civiced.org/pdfs/GermanAmericanConf2009/DianaOwen_2009.pdf [18.09.2023].
11. Özkılıçcı, G., Mamatoğlu, M. Siyasal toplumsallaşma ölçeği: geçerlik ve güvenirlik çalışması // - Nesne, - 2021. 9 /21, s.556-571.
12. Schwarzer, S. Political socialization as the driving factor for political engagement and political participation: [Electronic resource] / ELECDEM Workshop in Advanced Techniques for Political Communication Research: Content Analysis, Amsterdam. - 2011. URL: https://www.exeter.ac.uk/media/universityofexeter/elecdem/pdfs/amsterdamwksp/Steve_Schwarzer_Political_socialization.pdf [18.09.2023].
13. Şirəliyev, H., Politologiya. Dərslik / H.Şirəliyev, Ə.Əhmədov – Bakı: "Apostroff", - 2014. – 392 s.
14. T.C. İçişleri Bakanlığı: [Electronic resource] / - 2020. URL: https://www.siviltoplum.gov.tr/dernek-sayilari [18.09.2023].
15. Wardetzki, B. Siyasette ve toplumda narsizm ayartma ve iktidar. – İstanbul: İletişim, - 2021. - 139 s.
***Giriş.*** Heydər Əliyev Fondu yarandığı ilk günlərdən başlayaraq Azərbaycanın hər sahəsinin inkişafı üçün çalışmışdır. Heydər Əliyev Fondu istər Azərbaycanda, istərsə də dünyanın bir çox ölkələrində ilklərə imza atmışdır. Ümummili lider Heydər Əliyevin adını daşıyan Fond Azərbaycanı dünyada layiqincə təmsil etməyə, yüksək mərtəbəyə nail olmağa, xalqımıza və ölkəmizə xidmət etməyə, humanizm ideallarını təbliğ etməyə çalışır. Fond yarandığı zamanlardan, yəni 2004-cü ildən etibarən ölkəmizin ictimai və mədəni həyatının deyə bilərik ki, bütün sahələrində fəal iştirak edib. Öz mədəni və ictimai fəaliyyəti, konkret layihələri olan Heydər Əliyev Fondu, həmişə xalqımızın və Vətənimizin maraqlarını müdafiə etmiş, yardıma ehtiyacı olanlara da kömək etmişdir. Məhz bu mədəni-humanitar fəaliyyəti ilə Fond həm Azərbaycanda, həm də ölkəmizdən kənarda dərin hörmət və etimad qazandı.

***Heydər Əliyev muzeyi.*** Heydər Əliyev Fondunun tərkibində fəaliyyət göstərən Heydər Əliyev Muzeyi Fondun maddi-mənəvi xəzinəsidir. Muzey Heydər Əliyev Fondunun yaranması ilə birlikdə yaranmışdır. Yəni Heydər Əliyev muzeyi Fondun təşəbbüsü ilə 2004-cü ildə təsis olunmuşdur. Müasir müstəqil dövlətin memarı, Azərbaycanın dahi oğlu Heydər Əliyevin fəxri və şərəfli həyatından bəhs edən fotoşəkilləri və digər eksponatları olan Heydər Əliyev muzeyi, bu hadisənin şəxsiyyətinin adını daşıyan Fondun hər bir ziyarətçisi üçün ən maraqlı yerdir [1].

Muzeydə olan ilk eksponat - Ümummilli Lider Heydər Əliyevin iş kabinetindən götürülən Naxçıvanda çəkilmiş məşhur «İlandağ»ın fotoşəklidir. Bu şəkil Heydər Əliyevin vətənə olan sevgisini, Azərbaycan torpağına olan sədaqətini təsdiqləyir [8].

Muzeydə həmçinin, Ümummilli liderin anası İzzət xanım Əliyeva ilə çəkildiyi foto, atası Əlirza bəy Əliyevin fotosu, həmçinin Heydər Əliyevin uşaqlıq fotoşəkilləri, məktəbi yalnız «əla» nişanlarla bitirməsi ilə bağlı sənədlər, həm də Naxçıvan Pedaqoji Məktəbini və Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin fəxri diplomla bitirməsinə dair sənədlər nümayiş olunur. Muzeydə bu şəkillərin və sənədlərin eksponat kimi təqdimatını belə təhlil etmək olar ki, Heydər Əliyevin ailəsinə duyduğu qayğı millətinə duyduğu qayğıdır, öz təhsilinə bu qədər önəm verməsi isə, onu fenomen kimi sevib özünə nümunə götürən sonrakı nəsillərə, xüsusən də gənclərə doğru istiqamət verməkdir.

Ümummilli liderin canlı obrazı, onun Respublika Dövlət Təhlükəsizlik Komitəsi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərindən, onun ölkənin müxtəlif bölgələrində işçilərlə görüşlərindən bəhs edən rəsmlərdən aydın görünür. Azərbaycanın, o cümlədən, keçmiş SSRİ-nin və dünyanın görkəmli mədəniyyət və incəsənət xadimləri ilə görüşlərdə çəkilən fotolar, dahi şəxsiyyətin çoxtərəfli fəaliyyətini nümayiş etdirir. Bu fotoşəkillərdə Mirzə İbrahimov, Rəsul Rza, Qara Qarayev, Rəşid Behbudov, Niyazi, Lütfiyar İmanov, İmran Qasımov, Mstislav Rostropoviç, İhsan Doqramacı, Xulio İqlesias, Müslüm Maqomayev, Tamara Sinyavskaya və s. kimi şəxsiyyətləri görürük [1].

Sovet İKP MK Siyasi Bürosunun üzvü və Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu zamanlarda Heydər Əliyev böyük sovet dövlətinin bir sıra həyati əhəmiyyətli sahələrinə rəhbərlik etmiş, nə inki SSRİ-də, həm də dünyada nüfuzlu dövlət xadimi kimi tanınıb. Heydər Əliyev məşhur Baykal-Amur magistral yolunun tikintisinə şəxsən rəhbərlik etmişdir. Eksponatlardan da göründüyü kimi, BAMda ilk sərnişin qatarının ilk fəxri sərnişini Heydər Əliyev olub [2].

Muzeydə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı zaman Ulu Öndərin fəaliyyətini nümayiş etdirən fotoşəkillər də mövcuddur. Bu şəkillərdə isə mühasirədə olan ölkənin problemlərinin həlli və düşmənlə üz-üzə gəlməsi istiqamətində aparılan gərgin mübarizə əyani şəkildə görünür.

Heydər Əliyev Fondunun tərkibində fəaliyyət göstərən Heydər Əliyev muzeyində nümayiş olunan digər fotoların bir hissəsi Heydər Əliyevin Azərbaycanın Bakıdakı siyasi hakimiyyətinə qayıtmasını əks etdirir. Fotoşəkillərin tarixə keçməsi nəticəsində əminliklə demək olar ki, Ulu Öndərin Bakıdakı siyasi fəaliyyətinə qayıtması tamamilə Azərbaycan xalqının təkidi ilə baş vermişdir.

Dünyanın ən böyük dövlətlərinin başçıları ilə rəsmi görüşlərdə çəkilən fotolar isə Azərbaycanın beynəlxalq ictimaiyyətdə yerini təmin etmək və ölkənin həqiqətlərini bütün dünyaya çatdırmaq üçün Ümummilli liderin həyata keçirdiyi müntəzəm və məqsədyönlü siyasətin müxtəlif məqamlarını göstərir.

Həmçinin muzeydə öz evində Heydər Əliyevin ofisindən gətirilmiş alətlər və əşyalar da var. Onlar, Azərbaycan və Dünya xəritəsi, masa, stolüstü lampa, təqvim, pero-futlyar, güldan, oftalmologiya sahəsində görkəmli alim, akademik Zərifə Əliyeva ilə, nəvəsi Heydərlə çəkilmiş fotolardır. Burada, dövlət başçıları, Fondun tanınmış ziyarətçiləri tərəfindən imzalanmış "Xatirə Kitabı", Heydər Əliyevə verilən hədiyyələr, neft strategiyasının həyata keçirilməsi çərçivəsində tikilmiş «Lider» və «Qurtuluş» qurğuların modelləri böyük maraq doğurur. Bu qurğuların modellərinin muzeydə olması təsadüfi deyildi. Çünki həmin adları çəkilən qurğular Azərbaycandakı neft sənayesində yeni eranın başlanğıcı olmuşdur. Bu hadisənin muzeydə eksponat kimi nümayişi Heydər Əliyevin Azərbaycan xalqına, millətinə, nəhayətində dövlətinə verdiyi töhfələrin əyani sübutudur [7].

Heydər Əliyevin Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, xalqın tərəqqisi ilə bağlı görülməmiş işləri barədə bir çox kitablar yazılmış, oxuculara təqdim edilmişdir. Bu istiqamətdə artıq müəyyən işlər görülərək, bəzi kitablar müxtəlif dillərə tərcümə edilərək, originalı ilə birlikdə muzeydə sərgilənir.

Bir sözlə, muzeyin fotoşəkilləri və eksponatları dünyanın məşhur siyasi xadimi Heydər Əliyevin indiki və gələcək nəsillər üçün nümunə olan liderin həyatının yalnız bəzi detallarını əks etdirsə də, onlar Böyük Azərbaycan şəxsiyyətinin miqyası haqqında hərtərəfli fikir verir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Fondda baş tutan tədbir və ziyarətlər zamanı dəvət olunan fəxri qonaqlar ilk öncə Heydər Əliyev muzeyini ziyarət edir. Muzeyə gələn hər bir qonaq Heydər Əliyev fenomenini eksponatlar sayəsində daha da dərindən tanıyır. Xatirə dəftərinə isə öz dəyərli fikirlərini yaza bilir.

***Nəticə.*** Beləliklə, Heydər Əliyev Fondunun Heydər Əliyev irsinə, o cümlədən, xatirəsinə verdiyini önəm onun tərkibindəki Heydər Əliyev muzeyinin tərtibatından aydın görünür. Fondun yarandığı ilk zamanlardan etibarən muzeyin fəaliyyət istiqaməti bizə Heydər Əliyevin həyatı və yaradıcılığından, müstəqil Azərbaycanın tarixindən məlumat verir. Bu da Azərbaycan tarixinin Ulu Öndərlə bağlı olan dövrünün öyrənilməsi baxımından önəm kəsb edir.

ƏDƏBİYYAT

1. Heydər Əliyev Fondunun rəsmi səhifəsi. - https://heydar-aliyev-foundation.org/az [30.09.2023].
2. https://heydar-aliyev-foundation.org/az/content/index/116/Muzey [30.09.2023].
3. Prezident kitabxanası, Mehriban Əliyeva, Heydər Əliyev Fondu. - https://mehribanaliyeva.preslib.az/ [30.09.2023].
4. Vəliyeva M., İbrahimova M., Heydər Əliyev Fondu 5 il Biblioqrafik göstərici, M.F.Axundov ad.Azərbaycan Milli Kitabxanası.- Bakı, 2009. – 230 s.
5. Süleymanlı S. Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi. - Bakı: Azərbaycan, - 2018, - 296 s.
6. Əliyeva, Y. Heydər Əliyev – Milli-mədəni irsimizin hamisi. - http://anl.az/down/meqale/ses/ses_may2009/78631.htm [30.09.2023].
7. Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə. II cild. Bakı, 2014, 388 s.
8. Heydər Əliyev Fondu. Bakı, 2009, 227 s.

**ГАНИРА МИРЗАХАНЛЫ**
*Докторант кафедры «Источникововедение, историография и методология» Бакинского государственного университета*

## МАТЕРИАЛЬНОЕ И ДУХОВНОЕ БОГАТСТВО ФОНДА ГЕЙДАРА АЛИЕВА. МУЗЕЙ ГЕЙДАРА АЛИЕВА

Вступительная часть статьи начинается с информации о создании Фонда Гейдара Алиева. Потом, здесь упоминается музей Гейдара Алиева, основанный в рамках Фонда и функционирующий до сегодняшнего дня. Экспонаты музея Гейдара Алиева свидетельствуют о культурной жизни и политической деятельности национального лидера Гейдара Алиева. Основной акцент в статье сделан на создании музея и его вкладе в историю Азербайджана. Так, личные вещи Гейдара Алиева, присутствующие здесь, семейный фотоальбом, фотографии, в том числе связанные с его работой, экспонаты, связанные с политической деятельностью, гости, посетившие это место, от основателя современного независимого Азербайджанского государства, из периода истории Отечества, связанного с Великим лидером, говорит нам о том, что он основал в нашей истории, а еще что он оставил для наследников, точнее для следующего поколения. В статье также рассказывается о деятельности музея Гейдара Алиева с момента его создания до сегодняшнего дня. Одним из важных вопросов здесь является знакомство посетителей Фонда с музеем, материальным и духовным достоянием Фонда Гейдара Алиева. В результате была подчеркнута важность изучения части нашей истории, созданной по инициативе Фонда Музея Гейдара Алиева на очевидных основаниях, связанной с нашей Великой легендой.

*Ключевые слова:* Фонд Гейдара Алиева, музей, наследие Гейдара Алиева, независимый Азербайджан, книга воспоминаний

**GHANIRA MIRZAKHANLI**
*Doctoral student of the Department of "Source studies, historiography and methodology" of Baku State University*

## THE MATERİAL AND MORAL TREASURE OF THE HEYDAR ALİYEV FOUNDATİON. HEYDAR ALİYEV MUSEUM

The introduction part of the article begins with information on the establishment of the Heydar Aliyev Foundation. Later, the Heydar Aliyev Museum, founded as part of the Foundation and

functioning to this day, is mentioned here. The exhibits in the Heydar Aliyev Museum testify to the cultural life and political activity of the national leader Heydar Aliyev. The main emphasis in the article is placed on the creation of the museum and its contribution to the history of Azerbaijan. So, the personal belongings of Heydar Aliyev present here, a family photo album, photographs, including those related to his work, exhibits related to political activities, guests who visited this place, from the founder of the modern independent Azerbaijan state, from the period of the history of the Fatherland associated with the Great Tradition, the following that he established in our history, further about the heritage of descendants. The article also talks about the activities of the Heydar Aliyev Museum from the moment of its creation to this day. One of the important issues here is the acquaintance of the visitors of the Foundation with the museum, the material and spiritual treasure of the Heydar Aliyev Foundation. As a result, the importance of studying the part of our history related to the Great Legend created at the initiative of the Heydar Aliyev Museum Foundation on obvious grounds was emphasized.

*Keywords:* Heydar Aliyev Foundation, museum, Heydar Aliyev heritage, independent Azerbaijan, book of memoirs.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94; UOT 39**

**ƏLVİDA RƏHİMOV**
*Bakı Dövlət Universitetinin doktorantı*
**elvidarehimov1234@gmail.com**

# AHISQA (MESXETİ) TÜRKLƏRİNİN MƏDƏNİ HƏYATI

*Ahısqa Türkiyənin şimal-şərq sərhəddində, Gürcüstana bağlı bir bölgənin tarixi mərkəzidir. Ahısqa və ətrafı da çox qədim türk bölgəsidir. Tarixi mənbələr eramızdan əvvəlki dövrdə burada türklərin yaşadığını göstərir. Bu bölgə 1578-ci ildə Osmanlı İmperatorluğuna qatılıb və 1828-ci il müharibələrində rusların əlinə keçib. O gündən bu günə qədər bölgənin taleyi gülməyib, əsirlikdən əsarətə sürüklənib. 1940-cı illər Sovet İttifaqının müharibə illəri idi. Stalin idarəsi Ahısqa türklərini cəbhəyə apardı. O, kənd və şəhərlərdə yaşayan insanları da qış günü qeyri-insani şəraitdə, qeyri-insani üsullarla Orta Asiya ölkələrinə aparırdı. İllərcə düşərgələrdə yaşayan Ahıska türkləri düşərgə həyatından sonra sürgündən qaça bilməyib, uzun mübarizəyə baxmayaraq vətənlərinə dönə bilməyiblər.*

*Açar sözlər*: Ahısqa türkləri, mədəniyyət, ailə, adət-ənənə, geyim, yemək, din.

***Giriş***. Ahısqa türkləri 1944-cü ilə qədər Anadolunun Qafqaza açılan qapısında yaşamış türk birliyidir. Onlar yaşadıqları bölgədə bir çox mədəniyyətlərlə qarşılaşmışlar: Gürcüstanda olarkən gürcü, kürd, acar və digər xalqlarla, 1944-cü il sürgünündən sonra qazaxlar, qırğızlar, özbək türkləri, ruslar və başqaları, 1956-cı ildən sonra SSRİ-dən qərbə doğru köç edərək digər slavyan icmalarının mədəniyyətləri ilə tanış olmuşlar [1, s.467-470]. Bu köçlərin mədəni izləri bu gün Ahısqa türklərinin mədəniyyətində görünsə də, ümumilikdə Ahısqa türklərinin mədəni quruluşu Anadolu, daha doğrusu, Atabəy Yurdu mədəniyyəti ilə bir bütövlük təşkil edir.

Ahısqa türklərinin ailə quruluşu patriarxal quruluşa malikdir. Ailənin başçısı kişidir. Qadına da danışmaq hüququ verilir, amma yenə də son qərarı kişi verir. Ailə böyükdürsə, qocalar da varsa, ağsaqqal sözü dinlənir. Evin ağsaqqalları vəfat edəndə böyük qardaş böyük ailədə qərar qəbul edir və evin başçılığını öz üzərinə götürür. Əgər ailə nüvəli ailədirsə və ata-ana rəhmətə gedibsə, qohumların dəstəyinə baxmayaraq, evin böyük oğlu kiçik yaşda olsa belə, ailənin adından qərar verməkdə təsirli olur. Ailədə yaşa və cinsə görə iş bölgüsü var. Bəzi işlər birgə həyata keçirilir [9, s.1147].

Ahısqa türklərində nəsildən-nəslə ötürülən adət və ənənələr ictimai quruluşun və mədəniyyətin mühüm güclü tərəflərindən biri olmuşdur. Hörmət, dözümlülük, anlayış, əxlaq, həyat tərzi kimi bir çox mənəvi duyğuları ehtiva edən bu adətlər Ahısqa türklərində bu günümüzə qədər gəlib çatmışdır. Doğum və ölümlə bağlı inanclar, nikahla bağlı qız istəmə, nişan, cehiz, toy adət-ənənələri ilə bağlı qaydalar bu günümüzə qədər böyük ölçüdə yaşadılmışdır [8, s.325-346]. Lakin sənaye cəmiyyətinin gətirdiyi həyat tərzi və müasirləşmə səyləri onun bəzi adət və ənənələrə qarşı müqavimətini artırdı. Məsələn, qızların elçilik vasitəsilə istənilməsi ənənəsi bu gün nisbətən dəyişmişdir; Qızlar üçün nikah yaşı 17-20 idisə, bu gün xeyli artıb və s. [3, s.2014, 23].

Toylar, qız istəmə adətləri və tətbiq olunan bütün ənənələr keçmişdə olduğu kimi bu gün də şadılmağa çalışılır. Ənənələrə daha çox bağlı olanlar gəlinlərin ənənəvi paltar geyinməsini arzulayaraq köhnə adət-ənənələrini yaşatmağa davam edirlər. Evliliklə bağlı adət-ənənələr, məsələn, ağsaqqalların və bəyin hörmət mənasında gəlinə salam vermə üsulu olan arzu qəbulu, qayınata və qayınana icazə vermədikcə gəlinin ucadan danışmaması, bu gün də tətbiq olunur [6, s.14-15].

Ahısqa türklərinin geyim mədəniyyəti sürgünə qədər türk-qafqaz geyim ənənəsi tərəfindən tipoloji olaraq mənimsənilmişdir. Sürgündən sonra köçdükləri coğrafiyanın mədəniyyətinə uyğunlaşaraq müasir geyim tərzinə keçmişlər. Xüsusilə şəhərdə yaşayan Ahısqa türkləri ənənəvi geyim tərzindən uzaqlaşıblar [12, s.73]. Ahısqa ləhcəsinin lüğət tərkibində geyimlə bağlı sözlər bu gün də işlənir. Məsələn: kaftan "qadın paltarı", papaẖ "kişi papağı", ķatẖa "qızılla bəzədilmiş gəlin baş örtüyü", ləçək "gəlinin saçını və boynunu örtmək üçün istifadə olunan nazik parça", bellik "önlük", uçtum "hicab" [10, s.499-510]. Ənənəvi geyim mədəniyyətində sosial və sinfi fərqləri də görmək mümkündür. Müsəlman icması olduqları üçün açıq geyim onların geyim mədəniyyətinə daxil deyil [14, s.537-544].

Anadolu musiqi mədəniyyətinin bir parçası olan nağara, zurna, saz kimi alətlərdən Ahısqa türklərinin toy və əyləncə məclislərində indi də istifadə olunur. Əslində bu gün müasir musiqidən daha çox nağara və zurnaya üstünlük verildiyi, sazın təsirinin gündən-günə azaldığı müşahidə olunur [17].

Ahısqa türkləri yemək mədəniyyətində də zənginlik nümayiş etdirirlər. Xəngəl, kətə, xaçapuri kimi yeməklər daha çox mərasim və xüsusi gün yeməkləri kimi tanınır [12, s.74]. Bu xörəklər digər türk soylu cəmiyyətlərin kulinariya mədəniyyətlərində görünsə də, Ahısqa türkləri bu xörəkləri özünəməxsus şəkildə hazırlayırlar. Onlar sürgündən sonra yaşadıqları bölgələrdə milli xörəkləri ilə yanaşı, digər etnik qrupların mətbəx mədəniyyətinə aid xörəkləri də mənimsəmişlər. Məsələn: sucuq, jal, jaya, suryet və karta kimi yeməklər qazax mətbəxindəndir, makım, talkan, köce şorbası, kömöç kimi yeməklər qırğız mətbəxindəndir, özbək mətbəxindən dimlama, ravioli, samsa kimi xörəklər götürülürdü [11, s.511-518]. Eləcə də borş yeməyini rus mədəniyyətindən götürmüşdülər.

Ahısqa türkləri dinə böyük əhəmiyyət verirlər. Çünki Ahısqa türklərində əxlaq normalarını yaşatmaqda din ictimai dəyərlər arasında öz yerini tutur. Din təkcə inanc və ibadət prinsiplərini müəyyən edən milli-mənəvi quruluş deyil. Bu, cəmiyyətin dəyərlərini, normalarını və əxlaqi standartlarını əhatə edən sosial quruluşdur. Ona görə də Ahısqa türklərinin kimliyinin qorunub saxlanmasında din fenomeni mühüm yer tutur [9, s.1144].

Ahısqa türkləri müsəlmandır. İslamı 16-cı əsrdə qəbul etdilər. Bu keçid Osmanlı İmperiyasının 1578-ci ildə Çıldır döyüşündə Ahısqa bölgəsini Səfəvilərdən almasından sonra sürətləndi. Bu zaman Atabəyli Mustafa xristianlığı tərk edərək İslamı qəbul etdi. Beləliklə, 310 illik (1268-1578) pravoslav xristian Atabəylər hökuməti sona çatdı və bölgənin qıpçaq türkləri İslamı qəbul etdilər [15, s.73]. Anadolunun bir parçası olan Ahısqa bölgəsindəki müsəlman icması 1944-cü il sürgününə qədər Osmanlılarla Ruslar arasında bir neçə dəfə din dəyişdirsə də, yerli xalq İslamdan geri çəkilmədi [2, s.224-225].

Ahısqa türklərinin əksəriyyəti dini inanc baxımından müsəlmandır və İslamın Hənəfi məzhəbi ilə yaşayırlar. Sovet dövründəki ateist ayinlərdən asılı olmayaraq, öz dini ayinlərini və dinlə bağlı digər işləri gizli də olsa, icra edən Ahısqa türkləri indi öz dini ənənələrini sərbəst şəkildə qoruyub saxlayırlar.

Ahısqa türkləri Ramazan və Qurban bayramlarına böyük əhəmiyyət verirlər. Bayram namazı qılındıqdan sonra əvvəlcə qəbiristanlıqlara gedir, qəbirləri ziyarət edirlər. Bu ziyarətlər zamanı qəbir başında Qurandan surələr və ayələr oxunur, dualar edilir. Qəbiristanlıqdan qayıtdıqdan sonra bayram prosesi başlayır. Qohumlar, qonşular, yaxınlar, xüsusilə yaşlılar ziyarət edilir, hal-xətirləri soruşulur [9, s.1144].

Türk Dünyasında mühüm yeri olan və Miladi təqvimlə yeni il kimi tanınan Novruzu Ahısqa türkləri qeyd etməyirdilər. Lakin onlar sürgündən sonra yaşadıqları ölkələrin mədəniyyətləri ilə içiçə olub ölkənin bu milli şənliklərində iştirak edirlər. Xüsusilə, Özbəkistan və Azərbaycanda yerli xalqla birgə şənliklərdə həvəslə iştirak edirlər [13, s.76]. Onlar müxtəlif bölgələrdə yaşasalar da, bayram zamanı tətbiq olunan bəzi adət-ənənələri bu gün də qoruyub saxlamaqda davam edirlər. Məsələn, Özbəkistandan Türkiyəyə köçən Ahısqa türkləri Novruz günündə sümələk adlandırdıqları yeməyi bişirib qonşularına paylayırlar.

Ahısqa türkləri hər zaman milli kimlikləri ilə yanaşı dini kimliklərini də nəzərə almış, adətənənələrin gələcək üçün yaşadılmasına böyük əhəmiyyət vermişlər. Onlar mənəvi dəyərlər arasında böyük əhəmiyyət kəsb edən dini ənənələri də nəzərdən qaçırmamağa çalışırlar. Ahısqa türk müdriklərinin fikrincə, dini qaydalardan asılı olan borclar vaxtında ödənilməzsə, bu, onların bir toplum olaraq milli kimliklərini itirməsinə səbəb ola bilər [9, s.1145].

Ahısqa türkləri harada yaşayırlarsa yaşasınlar, öz dini adət-ənənələrinə laqeyd olmamağa çalışırlar. Onlar yaşadıqları ölkədə yerli və ya digər xalqların dini adət-ənənələrinə hörmət çərçivəsində öz inanc qaydalarını yerinə yetirməyə çalışırlar. Müsahibələr nəticəsində, 2005-ci ildən sonra ABŞ-a köç edən Ahısqa türklərinin müsəlman dövlətlərində olduğu kimi dini ayinlərini icra etdiklərini söyləmək olar. Məsələn, Amerikada Ahısqa türklərinin qurduğu dərnəklərdə insanlar bir araya gələrək Quran oxuyurlar. Gənclər üçün Quran kursları da təşkil edirlər. Bu birliklərdə bir araya gələn şəxslər həm də mədəni məlumatlar əldə edirlər. Bu fəaliyyətlər Ahısqa türklərinin Amerika cəmiyyətində əriməməsi və assimilyasiyaya davamlı olması üçün həyata keçirilir. Amma Amerikadakı Ahısqa

türklərini ən çox düşündürən, buradakı QHT-lərə baş çəkməyən, adət-ənənələrdən təcrid olunan cəmiyyətin fərdləridir. Qısa müddətdə bu insanların assimilyasiya olunacağına inam var [4, s.20-27].

Ahısqa türkləri də dəfn mərasimlərinə böyük əhəmiyyət verirlər. Qonşular, qohumlar ilk gün öz evlərində bişirdikləri acı çörək adlanan yeməyi dəfn evinə gətirirlər. Acı çörək gətirmək üç gün çəkir və bu üç gündə dəfn evində yemək bişirilmir. Üçüncü gün mərhumun əşyaları və paltarları yuyulur. Yeddinci gün qəbir qazanlara və bu yeddi gündə dəfn evinə gələn qonaqlara Quran oxunur, çörək, xəmir, halva bişirilərək moizə oxuyan imama paylanır. Ahısqa türkləri bu ənənəni qazma və qoxu çıxarma adlandırırdılar. Bu cür dini ənənələri hələ də Ahısqa türkləri qoruyub saxlayırlar [7, s.113].

Xristianların əksəriyyətini təşkil edən ölkələrdə yaşayan Ahısqa türkləri bildirirlər ki, digər müsəlman icmaları arasında dini ənənələrdə fərqlər var. Məsələn, müsəlman icmaları Rusiyanın Krasnodar və Rostov kimi əyalətlərində, eləcə də Kabardin-Balkar Muxtar Respublikasında yaşayırlar. Lakin Ahısqa türkləri bu bölgələrdəki bu toplumların adət-ənənələrinin öz adət-ənənələri ilə uyğun gəlmədiyini iddia edərək öz mədəniyyətlərini qoruyub saxlayırlar. Krasnodar bölgəsinin yerli əhalisi Ahısqa türklərindən danışarkən müsəlman türkləri və ya fərqli bir müsəlman toplumunu vurğulayırlar [18, s.42].

Bir sözlə, İslam dini həm dini, həm də milli mənsubiyyət baxımından Ahısqa türkləri tərəfindən qəbul edilir. Məlumdur ki, onların 1944-cü ildə Ahısqadan sürgün edilməsində türk olması ilə yanaşı müsəlman olmasının da təsiri olmuşdur. Ahısqa türkləri başqa dinlərə mənsub olan insanlara həmişə hörmətlə yanaşırlar [5, s.12-13].

***Nəticə.*** Nəticə etibarı ilə demək olar ki, Atabəy Yurdunun bir halqasını təşkil edən Ahısqa türklərinin dünya miqyasında varlığı sürgündə keçdikləri mübarizə ilə əldə olunub. Dini, dil və mədəni dəyərləri yaşatmağı, onları gənc nəsillərə ötürməyi bilən bu cəmiyyət dünyanın bir çox ölkələrində səpələnmiş şəkildə yaşamasına baxmayaraq, hələ də bütövlükdə varlığını davam etdirir. Son dövrlərdə virtual aləmin geniş istifadəsi ilə bir-birindən uzaqlaşan Ahısa türkləri bir-birləri ilə çox rahat ünsiyyət qura bilirlər. Bu ünsiyyət sayəsində əcdadlarından miras qalmış mədəni dəyərləri, dini bilikləri, etnik kimlikləri bir-birinə ötürə və gənclərə çatdıra, etnik kimliklərini daha da möhkəmləndirə bilirlər. Sovet İttifaqının dağılmasından sonra özlərini təkmilləşdirdilər və qələm sahibi olmaqda uğur qazandılar və bunu davam etdirirlər.

ƏDƏBİYYAT


1. HACILI, A, "Ahıskalı Türklərin Mədəniyyəti". Uluslararası Ahıskalı Türklerin Hukuki ve Sosyal Sorunları Sempozyumu, Giresun (2014): 467-470.
2. ABDRAKHOV, Y. ve MENDUALİYEV, A, "Kazakistan'daki Ahıska Türklerinin Dini Hayatı Üzerine Bir İnceleme." Uluslararası Ahıska Türkleri Sempozyumu. sy.1 (2017): 224-225.
3. ALİYEVA, M, "Ahıska Türklerinde Kültür ve Dil Değişimi", Ahıska Vizyonu 2013, İstanbul: Anadolu Ofset, 2014.
4. ALPTEKİN, Y, "ABD-Colorado'da Yaşayan Ahıskalı Türk Topluluğunda Ekonomik Sosyal ve Kültürel Hayat". Sosyoloji Konferansları, sy.47 (2013): 20-27.
5. AVCİ, O, "Understanding the Culture of Ahiska Turks in Wheaton, Illinois: A Case Study, The Qualitative Report", Northern İllinois University Journal, 17 (2012): 12-13.
6. AZİZOVA, N., "Etnik Kültür", Ahıska Dergisi, sy. 1 (2001): 14-15.
7. DEVRİSHEVA, F, "Kazakistan'da Ahıska Türklerinin Sosyal-Kültürel Yapılarındaki Değişmeler". Yüksek Lisans Tezi, Ankara Üniversitesi, 2010.
8. EŞMELİ, İ, "Ahıska Türklerinin Günlük Hayatıyla İlgili Bazı Halk İnanışları (Denizli Örneği)", Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi 17, sy. 34 (2018): 325-346.
9. Faigov Orhan, Ahıska Türklerinde Din, Kültür, Kimlik ve İletişim, Kocaeli Üniversitesi, Akademik Tarih ve Düşünce Dergisi, 2020, s.1147.
10. KESİK, O. A ve DUMAN, T, "Ukrayna'dan Getirilerek Erzincan'a Yerleştirilen Ahıska Türklerinin Kültürel Yapısının İncelenmesi: Türk Kültürünün İzleri". Uluslararası Ahıska Türkleri Sempozyumu, 1, (2017): 499-510.
11. KOCAALAN, L.M., "Ahıska Türklerine Ait Yemek Kültürünün Füzyon Mutfağa Etkilerinin Araştırılması", Uluslararası Ahıska Türkleri Sempozyumu, c.1, (2017): 511- 518.

12. KÖKSAL, A, "Bişkek'te Yaşayan Ahıska Türklerinin Folklorik Değerleri ve Oyun Müzikleri", Yüksek Lisans Tezi, Kırgızistan-Türkiye Manas Üniversitesi, 2007.
13. YÜZBEY, İ, "Ahıskalı Türkler ve Kültürleri". Uluslararası Türk Dilleri ve Edebiyatı Çalışmaları Edebiyat ve Tarih Dergisi 3, sy. 7(2008): 679-680.
14. SİLAHŞÖR, Ö, "Ahıska Türklerinin Giyim Kültürü". Uluslararası Ahıska Türkleri Sempozyumu, 1, (2017): 537-544.
15. ZEYREK, Y, Ahıska Araştırmaları, Ankara: Kozan Ofset Matbaacılık, 2006.
16. AVCİ, O, "Understanding the Culture of Ahiska Turks in Wheaton, Illinois: A Case Study, The Qualitative Report", Northern İllinois University Journal, 17 (2012): 12-13.
17. "Culture Profile: Meskhetian Turks", Wisconsin Department of Health and Family Services, 2005.
18. KORİOUCHKİNA, L, "Meskhetian Turks and The Regime of Citıizenship in Russia." The University of Pittsburgh Ethnology Journal, 1, 48 (2009): 42.

**АЛЬВИДА РАГИМОВ**
*Докторант Бакинского Государственного Университета*

## КУЛЬТУРНАЯ ЖИЗНЬ ТУРОК-АХЫСГИН (МЕСХЕТИНЦЕВ)

Ахисга - исторический центр региона на северо-восточной границе Турции, связанной с Грузией. Ахисга и его окрестности также являются очень древней турецкой областью. Исторические источники свидетельствуют о том, что в период до нашей эры здесь жили тюрки. Этот регион присоединился к Османской империи в 1578 году и был захвачен русскими в войнах 1828 года. С того дня и по сей день судьба области не смеялась, ее таскали из плена в плен. 1940-е годы были военными годами Советского Союза. Администрация Сталина увела турок-ахисга на фронт. Он также вывозил людей, живущих в селах и городах, в страны Средней Азии в зимний день в нечеловеческих условиях и бесчеловечными методами. Турки-ахысги, годами прожившие в лагерях, так и не смогли избавиться от ссылки после лагерной жизни и, несмотря на многолетнюю борьбу, не смогли вернуться на родину.

*Ключевые слова:* Ахыска турки, культура, семья, традиция, одежда, пища, религия.

**ALVİDA RAHİMOV**
*Doktoral student of Baku State University*

## CULTURAL LIFE OF AHISGA (MESKHETI) TURKS

Ahisga is the historical center of a region on the north-eastern border of Turkey, connected to Georgia. Ahisga and its surroundings are also a very ancient Turkish region. Historical sources indicate that Turks lived here in the period before our era. This region joined the Ottoman Empire in 1578 and was captured by the Russians in the wars of 1828. From that day to this day, the fate of the region did not laugh, it was dragged from captivity to captivity. The 1940s were the war years of the Soviet Union. Stalin's administration took Ahisga Turks to the front. He also drove people living in villages and cities to Central Asian countries on a winter day under inhumane conditions and inhumane methods. Ahisga Turks, who lived in camps for years, could not escape exile after the camp life, and despite a long struggle, they could not return to their homeland.

*Keywords*: Ahisqa Turks, culture, family, tradition, clothing, food, religion.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 371.32**

**MƏCİD İSMİXANOV**
*Bakı Dövlət Universitetinin professoru*
**m.ismixanov@mail.ru**

**VƏFA ÇIRAQOVA**
*Pedaqogika üzrə fəlsəfə doktoru*
**chiraqova@gmail.com**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ AZƏRBAYCAN TARİXİ VƏ ONUN TƏDRİSİ MƏSƏLƏLƏRİ

*Məqalədə Ümummilli Lider Heydər Əliyevin nəzəri irsində Azərbaycan tarixi və onun tədrisi məsələləri öz əksini tapmışdır. Gənc nəslin milli dövlətçilik, vətənpərvərlik ruhunda tərbiyəsində Azərbaycan tarixinin rolu, əhəmiyyəti, öyrənilməsi və tədrisi ilə bağlı Heydər Əliyevin konseptual baxışları, qiymətli fikirləri nəzərdən keçirilmişdir. Bu zəngin irsi öyrənmək və gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi işində ondan istifadə etmək çağdaş pedaqogika elminin vacib vəzifəsini təşkil edir.*

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycan xalqının Ümummilli Lideri, Azərbaycan tarixi və onun tədrisi, milli-mənəvi və vətənpərvərlik tərbiyəsi.

***Giriş***. 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin təhsil və tərbiyə ilə bağlı çox zəngin nəzəri fikirləri vardır. O, müstəqil Azərbaycanın milli-mənəvi tərbiyə konsepsiyasının əsasını qoymuş, onun başlıca müddəalarını və təməl prinsiplərini müəyyənləşdirmişdir. Ulu Öndərin milli-mənəvi tərbiyə konsepsiyasının məzmunu gənclərin dövlətçilik, müstəqillik, azadlıq və onların qorunması uğrunda mübarizlik ruhunda tərbiyə olunmasından ibarətdir. Konsepsiyanın başlıca komponentlərinə dövlətçilik, müstəqillik və onun qorunması, müasir təhsil sisteminin yaradılması, gənclərin yüksək mənəviyyat ruhunda tərbiyələndirilməsi daxildir. Bu məqsədə nail olmaq üçün gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlərə yiyələnməsi, tariximizi, dilimizi, mədəniyyətimizi yaxşı bilməsi vacib şərtdir. Məktəblərimizdə tariximiz və onun tədrisi ilə bağlı Ulu Öndərin qiymətli fikirlərinin, konseptual baxışlarının öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Müstəqil Azərbaycan dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin zəngin nəzəri irsində milli tərbiyə, milli vətənpərvərlik tərbiyəsi məsələləri mühüm yer tutur. Milli tərbiyə ideyası Ulu Öndərin milli ideologiya konsepsiyası ilə sıx bağlı olub, onun vacib tərkib hissəsini təşkil edir. Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki nitqində (31 avqust 1994-cü il) Heydər Əliyev Azərbaycanın təhsil sistemindən danışarkən demişdir: "Respublikamız müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki, təhsil sahəsini də milli məqsədlər, mənafelər əsasında qurmalıdır" [1, s.284]. Ulu Öndər fikrini davam etdirərək bu konsepsiyanı tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalı olduğunu və əməli surətdə həyata keçirməyin zəruruliyini qeyd edir.

Milli ideologiya konsepsiyası tərbiyə işini milli dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlər, azərbaycançılıq ideyaları əsasında qurmağı nəzərdə tutur. Bunun isə kiçik yaşlardan, məktəb illərindən başlanmalı olduğunu qeyd edən Ulu Öndər deyirdi: "Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənası, məzmunu geniş tədris olunmalıdır. Bu, çox əhəmiyyətlidir, çünki vətənpərvərlik hissləri insanlara uşaq vaxtından aşılanmalıdır. Xalqımızın təbii xüsusiyyətləri ondan ibarətdir ki, xalqımız vətənpərvərdir. O, ananın bətnində vətənpərvərlik hisslərini özündə toplayır" [1, s.385].

Heydər Əliyev gənclərin milli-mənəvi tərbiyəsinə də böyük diqqət yetirməyi vacib sayırdı. Gənclik yaşını insan həyatının ən gözəl bir dövrü adlandıran Ulu Öndər göstərirdi ki, bu dövrdə gəncin formalaşması, lazımi milli-mənəvi dəyərləri dərk etməsi, müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir. Bu təməl gənclik dövründə qoyulmasa, gənclər gələcəkdə böyük çətinliklərlə rastlaşar, lazımi səviyyəyə qalxa bilməzlər. Ona görə də Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan gənclərinin I Forumunda (2 fevral 1996-cı il) demişdir: «Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tarixi-

mizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz… Hər bir gənc vətənpərvər olmalıdır. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik. Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, torpağı sevməlidir, ölkəni sevməlidir, xalqını sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir» [3, s.20].

Ulu Öndər gənc nəsildə milli-mənəvi dəyərlərin formalaşmasında xalqın, millətin inkişaf tarixinin öyrənilməsinə böyük əhəmiyyət verirdi. O qeyd edirdi ki, keçmiş zamanlarda Azərbaycan tarixinin, Azərbaycan dili və ədəbiyyatının öyrənilməsinə o qədər də fikir vermirdilər. Sovet hökumətinin təhsillə bağlı əmr və göstərişləri bütün respublikalarda eyni idi. Hər millətin milli ənənələri, dəyərləri, xüsusiyyətləri nəzərə alınmırdı, buna görə də humanitar fənlərə məktəbdə o qədər də diqqət yetirilmirdi. Ulu Öndər deyirdi: "Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, millətimizi qiymətləndirə bilməz, mənsubyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz» [1, s.514].

Ümummilli Liderimiz dövlətçilik tariximizin də yaxşı öyrənilməsini vacib sayırdı. O qeyd edirdi ki, «Bizim xalqımızın böyük, möhtəşəm tarixi, dövlətçilik tarixi vardır. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. XX əsrin əvvəllərində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Nəhayət, 1991-ci ilin sonunda Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir.

Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik» [1, s.358].

Ulu Öndər Heydər Əliyevin milli ideologiya konsepsiyasında vətənpərvərlik və azərbaycançılıq ideyaları sıx birləşir; azərbaycançılıq hissi Azərbaycan sevgisində, Ana Vətənə məhəbbətdə təzahür edir. "Azərbaycanı sevmək azərbaycanlılıq hissiyyatını özündə cəm etmək deməkdir. Azərbaycanlılıq hissiyyatını gənclərdə yaratmaq lazımdır" deyən Ulu Öndər bunu onunla əsaslandırırdı ki, "dünyanın çox ölkəsində azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlılardır, onlarda da azərbaycanlılıq hissləri yaşamalıdır, onlar da özlərini azərbaycanlı kimi hiss etməlidirlər, onlar da Azərbaycanla bağlı olmalıdırlar" [1, s.359-360]. Ulu Öndər əlavə edib deyirdi ki, Azərbaycan dövləti yaşadıqca, inkişaf etdikcə, böyüdükcə bütün dünyada yaşayan azərbaycanlılar bizim müstəqil Azərbaycanla əlaqəni daha da artıracaq, inkişaf etdirəcək, hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq özünü azərbaycanlı kimi dərk edəcəkdir.

Azərbaycanlıların birliyi, həmrəyliyi işində tariximizin öyrənilməsi ilə yanaşı Azərbaycan dili və ədəbiyyatının da öyrənilməsini vacib hesab edən Ulu Öndər deyirdi: «Hər bir Azərbaycan gənci birinci növbədə gərək öz dilini, ana dilini bilsin. Çünki bu anasının dilidir. Bu, ölkənin dövlət dilidir. Məhz bu dildə Azərbaycan xalqının zəngin tarixini, zəngin mədəniyyətini, əsrlər boyu yaranmış böyük irsini öyrənə bilsin. Hər bir azərbaycanlı öz Azərbaycan dilini, dövlət dilini yaxşı bilərək, onu işlək dil hesab edərək eyni zamanda başqa dilləri – ingilis dilini də, rus dilini də, fransız dilini də, digər dilləri də bilsin» [1, s.560-562].

Gənclərin milli vətənpərvərlik, azərbaycançılıq tərbiyəsində, tariximizin öyrənilməsində ana dili – Azərbaycan dili ilə yanaşı Ulu Öndər Azərbaycan ədəbiyyatının da rolunu yüksək qiymətləndirmişdir. O göstərirdi ki, bizim zəngin ədəbiyyatımız var. Azərbaycan ədəbiyyatı qədim dövrlərdən indiyədək öz zənginliyi ilə bütün dünya xalqları içərisində öncül yerlərdə olubdur. Deməк, bu həm bizim tariximizdir, həm mənəviyyatımız, həm də milli mənliyimizdir. Azərbaycan Respublikası gənclərinin Birinci forumundakı proqram xarakterli nitqində (2 fevral 1996-cı il) Heydər Əliyev bu münasibətlə demişdir ki, "Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Sabiri, Cəlil Məmmədquluzadəni və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, onları oxuya bilməsə bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır" [3, s.22]. Ulu Öndər "Müstəqil Azər-

baycanın gələcəyi gənclərdir" mövzusunda söylədiyi nitqində fikrinə yekun vuraraq göstərir ki, ümidvaram, bizim gənclərimiz tariximizi daha da yaxından öyrənəcək, doğma Azərbaycan dilimizi mükəmməl mənimsəyəcək və bunlar hamısı bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır.

Ümummilli Liderimiz Heydər Əliyevin milli dövlətçilik, milli vətənpərvərlik ideologiyasının mühüm komponentlərindən biri də dövlət rəmzləri ilə bağlıdır. Azərbaycanın dövlət rəmzlərinə – bayraq, gerb və himninə hörmət və ehtiram hisslərinin aşılanması milli tərbiyə baxımından böyük əhəmiyyət kəsb edir. Respublikanın təhsil işçiləri ilə görüşündə (31 avqust 1999-cu il) Ulu Öndər söylədiyi nitqində dövlət rəmzlərinin tərbiyə funksiyalarından bəhs edərək demişdir: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir" [1, s.449]. Heydər Əliyev dövlətçilik rəmzlərinin tətbiqi ilə bağlı öz dəyərli mülahizələrini də bildirmişdir. Dövlət himni ilə bağlı deyirdi ki, "himnimizi sadəcə dinləmək yox, oxumaq lazımdır. Himn çalınan vaxt insanlar bu himnin sözlərini oxumalıdırlar; bunun əhəmiyyəti var. Bir var ki, onu dinləyəsən, bir də var ki, o mahnının, musiqinin sədaları altında o sözləri oxuyasan. Bunlar da insanlarda vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə kömək edir. Eyni zamanda bu, ona görə vacibdir ki, himnimizə xüsusi hörmətin təzahürüdür [1, s.388].

Tarixi təcrübədən də məlum olduğu kimi, hərbi rəhbərlər, sərkərdələr əsgərlərin döyüş ruhunu, qələbə əzmini, iradəsini, vətənpərvərlik hissini gücləndirmək üçün dövlət himnindən, hərbi marşlardan, hərbi mahnılardan istifadə etmişlər. Ulu Öndər bütün məktəblərin – ali və orta məktəblərin şagird, tələbə və müəllimlərinin Azərbaycanın himnini oxumalarını, həm də xorla, ayaq üstə oxumalarını təşkil etməyi bir vəzifə kimi qoymuşdur.

Bayrağımıza münasibətdə Ulu Öndər deyirdi ki, "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətimizin, müstəqilliyimizin rəmzidir. Hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun" [1, s.386]. Ulu Öndər tövsiyə edirdi ki, gərək Azərbaycan dövlətinin bayrağı tək rəsmi yerlərdə, məktəblərdə yox, hər bir evdə olsun, hər bir ailənin əziz bir hissəsi olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin.

Dövlət rəmzləri ilə bağlı Ulu Öndər Heydər Əliyevin proqram xarakterli görüşləri vətəndaşlarımızda, xüsusən gənclərdə milli vətənpərvərlik və Azərbaycançılıq hisslərinin, Vətənə, millətə, xalqa, dövlətimizə sevgi və sədaqət ruhunun tərbiyə olunmasında böyük əhəmiyyət kəsb edir, təhsil-tərbiyə işinin müstəqil dövlətçilik rəmzlərinin prinsiplərinə uyğun qurulmasına xidmət göstərir. Bu baxımdan Ulu Öndərin milli dövlətçilik rəmzlərinin mahiyyəti və tətbiqi ilə bağlı irəli sürüb əsaslandırdığı konseptual fikir və baxışların təhsil müəssisələrində sistemli öyrənilməsi və tətbiqi gənclərin dövlətçilik, milli vətənpərvərlik ruhunda tərbiyəsində əvəzsiz rol oynayır.

Azərbaycanda dövlət atributlarının təbliği və tədrisi işini gücləndirmək, sistemli şəkildə qurmaq məqsədilə Heydər Əliyev 1998-ci il martın 13-də «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» xüsusi sərəncam imzaladı. Bu sərəncam Ulu Öndərimizin milli müstəqillik və dövlətçiliyimizin rəmzlərinin ölkə vətəndaşları, xüsusən Azərbaycan gəncliyi tərəfindən dərindən öyrənilməsinə nə dərəcədə yüksək qiymət və əhəmiyyət verdiyinin əyani sübutudur.

Gənc nəslin milli ruhda, vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyəsi istiqamətində Ümummilli Liderin konseptual görüşlərinin, qiymətli fikirlərinin həyata keçirilməsində məktəbin, müəllimin böyük rolu vardır. Onların üzərinə mühüm vəzifələr düşür. Heydər Əliyev ilk növbədə, tarixin tədrisinin keyfiyyətini yüksəltməyi, onun tərbiyəvi rolunu gücləndirməyi vacib sayır və qeyd edirdi ki, bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini gənc nəslə öyrətmək, onları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs işidir. Ulu Öndər müəllimlərə müraciətlə deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan və-

təndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır" [1, s.458].

Ümummilli Liderimiz təhsilimizin gələcək istiqamətindən danışaraq qeyd edirdi ki, "Gənclər bizim gələcəyimizdir. Müstəqil Azərbaycanın gələcəyi onların əlindədir, gənclərə veriləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır. Ona görə də müəllimlərdən tələb olunur ki, bütün imkanlardan istifadə edib orta təhsili yüksək səviyyəyə qaldırsınlar, gənclərin yaxşı təhsil almasını təmin etsinlər. Çünki məktəb, müəllimlər Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıyır" [1, s.285].

Sovet dövründə tarixin tədrisindən danışarkən Ulu Öndər keçmişdə orta məktəblərdə Azərbaycan tarixinə o qədər də çox fikir verilmədiyini qeyd edirdi. Hesab edirdilər ki, qoy uşaq riyaziyyatı bilsin, fizikanı bilsin, tarixi bilməsə də olar. Yəni tarix dərsi məktəblərdə o qədər də hörmətli dərs deyildi. Ulu Öndər o dövrdə ali məktəblərdə tarix fakültəsinə müsabiqənin də o qədər böyük olmadığını, hüquq fakültəsinə isə yüksək olduğunu qeyd edir və bu halın düzgün olmadığını göstərirdi: «Azərbaycanın tarixini mütləq bilmək lazımdır. Ona görə yox ki, onlar tarixçi olacaqlar. Əgər riyaziyyatçı millətinin, xalqının, ölkəsinin tarixini bilmirsə bu, ona üstünlük vermir. Eləcə də başqa mütəxəssislər. Mən, əlbəttə, o fikirdə deyiləm ki, hər bir adam, mütəxəssis tarixçi olmalıdır. Amma hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir. Deməli, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır» [1, s.459].

Ümummilli Lider təhsildə müəllim-şagird, tələbə münasibətlərini düzgün qurmağı, tələbkarlıq və humanizmi əlaqələndirməyi vacib sayırdı. O qeyd edirdi ki, "Hər bir valideyn üçün onun uşağı, övladı hər şeydən əzizdir. Ancaq uşağı, övladı nə qədər çox istəyirsənsə, onun tərbiyəsi ilə, təhsili ilə də bir o qədər məşğul olmalısan. Əgər çox istəmək, sevmək nəticəsində uşaq, gənc uşaqlıq, gənclik çərçivəsindən çıxarsa, o, yaxşı təhsil ala bilməz. Ona görə də gərək valideynlər də uşaqlarına tələbkar olsunlar. Müəllimlər də tələbkar olsunlar. Məhz belə halda biz yaxşı gələcək nəsil yetişdirəcəyik" [1, s.562].

Ümummilli Liderimiz Heydər Əliyev təhsil-tərbiyə prosesində uşaq və gənclərlə işdə humanist, mənəvi saflıq, ədalət mühitinin yaradılmasına da böyük əhəmiyyət verirdi. O deyirdi ki, ədalət hər yerdə lazımdır, amma məktəbdə, ali məktəbdə ədalət hamısından çox lazımdır. Ulu Öndər bunu onunla izah edirdi ki, uşağın, gəncin şəxsiyyətinin bir formalaşma prosesi var. O proses də uşaqlıq dövründə, orta və ali məktəbdə keçir. Əgər orada gənc, uşaq ədalətsizliklə qarşılaşırsa, onda belə təsəvvür yaranır ki, elə bu dünya ədalətsiz dünyadır. Buna yol vermək olmaz. Ən əsası ona görə ki, biz müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bunların hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır» [1, s.463-464].

***Nəticə.*** Bu il 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Liderimiz Heydər Əliyevin tarix və onun tədrisi ilə bağlı zəngin nəzəri irsi gənc nəslin təhsili və tərbiyəsi, habelə müəllimlərimizin elmi-pedaqoji inkişafı baxımından qiymətli mənbədir. Bu zəngin mənbəni dərindən öyrənmək, gənc nəslin milli-mənəvi və tarixi dəyərlər, vətənpərvərlik, azərbaycançılıq ruhunda tərbiyəsində ondan geniş istifadə etmək lazımdır. Bu zaman təhsil işçiləri, müəllimlər Ulu Öndərin konseptual baxışlarını, tövsiyələrini dolğun həyata keçirməyə çalışmalı, gəncləri cəmiyyətin layiqli üzvlərinə, əsl vətəndaş kimi yetişdirmək çağırışına sadiq qalmalıdırlar.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil", 2002, 423 s.
2. Heydər Əliyev. Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Bakı, Azərnəşr, 1979, 58 s.

3. Heydər Əliyev. Azərbaycan Respublikası gənclərinin I forumunda nitqi. Bakı, "Azərbaycan" nəşriyyatı, 1996.
4. Heydər Əliyev. Təhsilin inkişafına dövlət qayğısı (Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə nitqi: 31 avqust 1994) / "Azərbaycan" qəzeti, 1 sentyabr,1994-cü il.
5. Azərbaycan təhsili müstəqillik illərində (Heydər Əliyevin anadan olmasının 80 illiyinə həsr olunur). Bakı, Çaşıoğlu, 2003.

**МАДЖИД ИСМИХАНОВ**
*Профессор Бакинского государственного университета*

**ВАФА ЧИРАГОВА**
*Доктор философии по педагогике*

## ВОПРОСЫ ИСТОРИИ АЗЕРБАЙДЖАНА И ЕЕ ПРЕПОДАВАНИЯ В ТЕОРЕТИЧЕСКОМ НАСЛЕДИИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

В статье отражены задачи Истории Азербайджана и ее преподавания в аспекте теоретического наследия общенационального лидера Гейдара Алиева. Были рассмотрены концептуальные взгляды и ценностные идеи Г.Алиева относительно роли, значения и преподавания истории Азербайджана с точки зрения национально-нравственных ценностей и воспитания патриотизма у подрастающего поколения.

*Ключевые слова:* Гейдар Алиев, Общенациональный Лидер Азербайджанского народа, история Азербайджана и ее преподавания, национально-духовное и патриотическое воспитание.

**MAJİD ISMIKHANOV**
*Professor of Baku State University*

**VAFA CHIRAQOVA**
*Doctor of Philosophy in Pedagogy*

## ISSUES OF AZERBAIJAN HISTORY AND ITS TEACHING IN THE THEORETICAL HERITAGE OF NATIONAL LEADER HEYDAR ALIYEV

In the article, the concerns surrounding Azerbaijani history and its instruction are discussed in light of the theoretical legacy of the national leader Heydar Aliyev. The article examines Heydar Aliyev's conceptual perspectives and invaluable insights pertaining to the significance, relevance, and pedagogy of Azerbaijani history, particularly in relation to the formation of national-moral values and the instillation of patriotism among the younger generation.

*Keywords:* Heydar Aliyev, National Leader of Azerbaijan, history of Azerbaijan and its instruction, national-moral and patriotism education.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: prof. H.Bayramov, t.e.d. Anar İsgəndərov.*

UOT 94(479.24); UOT 930

**SƏBİNƏ MƏMMƏDLİ**
*tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan universitetinin müəllimi,*
*Bakı Dövlət Universiteti Azərbaycan tarixi kafedrasının*
*(humanitar fakültələr üzrə) saathesabı müəllimi*
**sebine1990tarix@mail.ru**

# 1918-Cİ İL ŞAMAXI SOYQIRIMININ DƏHŞƏTLİ ÜZÜ

*1918-ci ilin yazında Şamaxıda fəaliyyət göstərən erməni daşnakları, eyni ssenari ilə XX əsrin sonlarında Yuxarı Qarabağda da təcavüzkar niyyətlərini həyata keçirdilər. Azərbaycan ərazilərinə qarşı daima düşmən və təcavüzkar niyyətlərlə yanaşan erməni xislətinin əsl mahiyyətini düzgün dərk etmək üçün 1918-ci ildə baş verən hadisələr daima öyrənilməli, təbliğ edilməlidir.*

*Açar sözlər*: Şamaxı, zərərçəkən,qırğın və talanlar, ermənilər, bolşevik-daşnak birləşmələri.

***Giriş***. Bakıda 1918-ci ilin martında baş verən qanlı faciə siyasi hakimiyyəti ələ keçirməkdən ötrü Bakı Xalq Komissarlar Sovetinin planlı şəkildə həyata keçirdiyi soyqırım hadisəsi idi. Bakıda hakimiyyəti alan Bakı Xalq Komissarlar Sovetini bu heç cür qane etmirdi.

Təbii ki, Bakı Xalq Komissarlar Soveti uğurla sınaqdan keçirdiyi bu təcrübəni indi Azərbaycanın digər qəzalarında da, o cümlədən Şamaxı qəzasında da həyata keçirməyə can atırdı. Bakıdan sonra məhz Şamaxı bolşevik-daşnak silahlı qüvvələrinin təcavüzünə məruz qaldı [1].

Şamaxı qəzasında törədilən cinayətlərə dair tərtib etdiyi hesabatlardan birində Fövqəladə Təhqiqat Komissiyasının üzvü olan Andrey Novatski yazır: “Müsəlman əhalisinə qarşı dini və milli ədavətdən irəli gələn bu qırğınlar zamanı əvvəlcədən öz aralarında razılığa gələn quldurlar bir neçə yüz nəfərlik dəstələr düzəldərək, müsəlman əhalisinin kökünü kəsməyi öz qarşılarına məqsəd qoymuşdular” [2].

Şamaxının Qaraqaşlı kənd sakini Səmədağa Fövqəladə Təhqiqat Komissiyasına verdiyi şahid ifadəsində bildirir:”Bizim kəndimizə hücum iki tərəfdən oldu, dağlardan erməni kəndliləri, Cəyiri stansiyasından isə silahlı erməni dəstələri. Hücum bizim üçün tamamilə gözlənilməz və qəfil olduğu üçün bir çox sakinlər qaça bilmədilər, hamısı ermənilər tərəfindən qətlə yetirildilər” [3].

Şamaxı qəzasının Qıçatan kəndinin kəndxudası Qütbəddin Mola İsaq oğlu Fövqəladə Təhqiqat Komissiyasına verdiyi şahid ifadəsində söyləyir ki, silahlı erməni dəstələri üstümüzə hücum edəndə onlara müqavimət göstərə bilməyəcəyimizi başa düşüb ağ bayraq qaldırdıq, belə olduqda bizimlə qonşu kənddə yaşadıqlarına görə yaxşı tanıdığımız ermənilər dedi ki, təslim olduğumuza görə sizə dəyməyəcəyik. Lakin mənim kimi ermənilərin bu vədlərinə inanmayan daha bir neçə nəfər kolların arasında gizlənərək, baş verənlərin hamısına görə göz qoymağa başladıq. Kəndə daxil olduqdan sonra kişiləri qadınlardan ayıran ermənilər onları başqa evlərdə yerləşdirdilər, sonra da güllələdilər” [4].

Paşa Abış oğlu Şıx Məzid kəndinin cəmi 25 evdən, kənddən başını götürüb qaçarkən təkcə yolda öldürülənlərin isə 20 nəfər olduğunu da diqqətə çatdırır. Göstərilən rəqəmlər faciənin miqyasını aşkar təsvir etməkdədir. Digər tərəfdən ermənilər evlərini yandırıb, kəndlərini viran qoyduqları kəndlilərin, daha doğrusu qətlə yetirə bilmədikləri azərbaycanlıların aclıqdan məhv olmalarına da nail olmaq üçün təkcə mal-qaranı sürüb aparmaları ilə kifayətlənməmiş, əkin sahələrini də viran qoymuşlar.

Paşa Abış oğlunun ifadəsindən:”Bizim kəndi tərk etməyimizdən istifadə edən ermənilər bütün taxıl və saman ehtiyatımızı qənimət kimi apardılar, bütün meyvə ağaclarını və üzümlüklərimizi doğradılar, ermənilərin qorxusundan vaxtında çöl-əkin işləri ilə məşğul ola bilmədiyimizdən tarlalarımız əkilməmiş qaldı, odur ki, əziyyət çəkirik” [5].

Tədqiq olunan problemlə bağlı A.Xəlilov: “Erməni millətçilərinin törətdikləri cinayətlər içərisində Şamaxı hadisələri xüsusi yer tutur. Bakıda “Vətəndaş müharibəsi”ndə “qələbə” çalan ermənilər, özlərinin ölümsaçan planlarını Azərbaycan qəzalarında, xüsusən də Şamaxı qəzasında daha qətiyyətli və həyasız bir şəkildə həyata keçirməyə başladılar.”-deyə, yazanda tamamilə haqlıdır [6, s.99].

Şamaxı qəzasının Cəyirli kənd sakini Məşədi Abdulla bəy Hacıbəyov Fövqəladə Təhqiqat Komissiyasının üzvləri Ç.Klassovski və İ.B.Şahmalıyev tərəfindən zərərçəkən qismində dindirilərkən şahid ifadəsində bunları söyləmişdir: "Qonşuluğumuzdakı kəndlərdə yaşayan ermənilərin və molokanların bizə qarşı düşmənçilik hərəkətləri hələ 1918-ci ilin fevral ayının əvvəllərində başlamışdı. Molokan kəndləri olan Qozlu və Mərəzənin sakinləri 1918-ci ilin fevralında özlərinin bolşevik olduqlarını, bu səbəbdən də bizim onlara tabe olmağımızı əsas gətirərək Cəyirli kəndini mühasirəyə aldılar" [7].

Zərərçəkən Zər-Qulu Hacı Sultan oğlunun ifadəsindən: "Erməni və molokan silahlı dəstələri Qozu-çaydan hücuma gedərkən yolboyu bütün müsəlman kəndlərini yandırmağa, əhalisini isə qətlə yetirməyə, qarət etməyə başladılar. Biz təklələlilər bunu görüncə dağlara qaçmağa üz tutduq. Kənddə bir neçə qoca, xəstə, qadın və uşaq qaldı. Ermənilər və molokanlar onların hamısını, o cümlədən kənddən qaçanların bir-neçəsini yolda qətlə yetirdilər. Ümumilikdə, on dörd qadın, o cümlədən otuz altı kişi, qoca və uşaq qətlə yetirilmişdir" [8].

Andrey Novatskinin Fövqəladə Təhqiqat Komissiyasının sədrinə etdiyi bu məruzə təkcə Əngəxaran kəndi üçün deyil, əslində bolşevik-daşnak birləşmələrinin qətliam və talanlarla müşaiət olunan təcavüzü ərəfəsində Şamaxı qəzasının bütün kəndləri üçün xarakterik olan xüsusiyyətləri aydın şəkildə əks etdirir.

Çünki məhz qəfil hücum taktikası erməni daşnaklarına soyqırım və talanların miqyasını genişləndirməyə əlverişli imkan yaradırdı. Çaşqınlıq, xof və qorxu içərisində olan insanlar evlərinə qəfil soxulan erməni əsgərlərinin onların doğmalarını öldürməməsi üçün hər şeylərini verməyə hazır idilər.

Gözlərini qan tutmuş düşmən məhz bu cür psixoloji məqamlardan yetərincə faydalanır, daşına bilən əmlakı qarət edir, daşınmaz əmlakı - yaşayış evləri, anbar, tövlə, dəyirman, mağaza və dükanları isə od vurub yandırırdılar.

Andrey Novatskinin Fövqəladə Təhqiqat Komissiyasının sədrinə etdiyi məruzəsi məhz bu məqamları tam təfərrüatı ilə əks etdirir: "...Küçələr başlarını itirmiş, çaşqın insanlarla dolu idi, onlar elə oradaca güllələrə tuş gələrək həlak olurdular. Küçələr kişi, qadın və uşaq meyitləri ilə dolu idi. Tezliklə molokanlar kəndlərə soxularaq, qadın, uşaq və qocalara belə rəhm etmədən insanları amansızcasına qırmağa başladılar" [9].

Soyqırım zamanı molokanların qəddarlığını Fövqəladə Təhqiqat Komissiyasının üzvü Novatskiyə zərərçəkən qismində dindirilən Əngəxaran sakini Şirin-Bəyim Nəsir qızı şahid ifadəsində belə təsvir etmişdir: "Bizim evimizə tüfəng, qılınc və xəncərlə silahlanmış dörd nəfər molokan təcavüz etdi. Onlar heç bir səbəb olmadan sıyrılmış qılıncla evdəkiləri doğramağa başladılar. Bu minvalla onlar mənim ərimi, oğlum Bəybalanı, qızım Ağa-zadəni, həmçinin bizdə olan Mərdanı və Qəribi qətlə yetirdilər "[10].

Saday Adıgözəl oğlu ifadəsində söyləyir: "Molokanlar kəndə soxularaq kişi, qadın və uşaqları öldürməyə başladılar və çoxlu sayda adamı qətlə yetirdilər. Sağ qalanları mühasirəyə aldılar və kənddən çıxardılar. Bundan sonra mal-qaramızı, əmlakımızı talan etməyə, evlərimizi yandırmağa başladılar" [11].

Şamaxı qəzasında bolşevik-daşnak qüvvələri tərəfindən həyata keçirilən qətl və qarətlərin xof və çaşqınlıq şəraitində baş verməsi, təbii ki, Bakı Xalq Komissarlar Sovetinin rəhbəri Stepan Şaumyanın uzaq hədəflərinə hesablanmışdı. Ən əsası türk-müsəlman əhalisinin fiziki məhvi üçün yaranmış fürsətdən maksimum bəhrələnmək idi. Soyqırımın talan və qarətlərlə müşayiət olunması isə antiazərbaycan siyasətinin əsas elementlərindən birini təşkil edirdi. Çünki əmlakı əlindən alınmış, evləri yandırılmış, əkin sahələri məhv edilmiş, sərgərdan həyat tərzi sürməyə məhkum edilmiş insanların, hətta sağ qalsa belə, yaşamaq imkanları minimuma endirilirdi.

Qeyd etmək yerinə düşərdi ki, bolşevik-erməni təcavüzünə tuş gələrək möcüzə nəticəsində sağ qalanların ev-eşiklərinin dağıdıldığına, əmlakları talandığına görə sərgərdan həyat tərzi keçirməyə məcbur olmaları təbii ki, sonralar belə insanların sağlamlıqlarını itirmələrinə, çox vaxt isə həyatdan köçmələrinə səbəb olurdu. Çünki müalicənin özü də pul, vəsait tələb edirdi. Əmlakı qarət və talan olan Şamaxı qəzasının əksər kəndliləri isə belə imkanlardan məhrum idilər.

Fövqəladə Təhqiqat Komissiyasının üzvü Andrey Novatskinin yuxarıda nümunə olaraq göstərilən məruzəsində isə bolşeviklərin hakimiyyətinə hətta tabe olduqdan sonra əhalinin əmlakının quldurluq yolu ilə qəsb edilməsinin və təbii ki, belə bir halla barışmaq istəməyən əhaliyə divan tutulmasının, qətlə yetirilməsinin şahidi oluruq. Əhali qətlə yetirildikdən sonra isə yeni talan və qəsbkarlıq dalğasının yüksəlişi isə qaçılmaz idi.

Andrey Novatski məruzəsində: "Əhalini qırıb qurtarandan sonra ermənilər onların əmlakını talamağa başladılar: bütün ev əşyalarını, mağaza və dükanlardakı əmtəələri qarət etdilər, 2200 baş iribuynuzlu və 6500 baş xırdabuynuzlu mal-qaranı sürüb apardılar, zəmilərdəki taxılı məhv etdilər."- deyə, söyləməklə bolşevik-daşnak qüvvələrinin burada da total qarət və talanları total soyqırım siyasəti ilə uzlaşdırdıqlarını bir daha sübuta yetirir".

Təbii ki, Şamaxı qəzasının kəndlərində bolşevik-daşnak qüvvələri daşına bilən bütün əmlakı özləri ilə aparır, təcavüz etdikləri yerləri uzun müddət virana qoymaq üçün isə strateji əhəmiyyətli bütün infrastrukturu məhv edirdilər.

Andrey Novatski məruzəsində: "Bolşevik-daşnak qüvvələrinin məscidi, kənd məktəbini, kənd idarəsini, çoxlu sayda mağaza və dükanları, o cümlədən 1500 evi bünövrəsinədək dağıtdıqlarını" xüsusi olaraq qeyd edir.

Fikrinə davam edən Andrey Fomiç Novatski: "Beləliklə, bolşevik-daşnak qüvvələrinin Nəvahi kəndinə 59.650.000 manat dəyərində maddi ziyan vurduğunu" qeyd edir [12].

Fövqəladə Təhqiqat Komissiyasının zərərçəkən qismində dindirdiyi Məhyəddin Əfəndi oğlu ifadəsində baş verənlərin şahidi kimi söylədiyi hadisələr 1918-ci ilin yazında daşnak-bolşevik qüvvələrinin Erməni Milli Şurasının Şamaxının hörmətli adamları kimi azad olunmasını tələb etdiyi cinayətkarların rəhbərliyi altında həyata keçirdikləri soyqırım siyasətini çox aydın və obyektiv şəkildə əks etdirir. Zərərçəkən məhz Gülbəndiyanın, Arzamanovun və S.Lalayevlə birgə şamaxılılara divan tutan xeyli sayda şamaxılı "tanınmış" erməninin adını sadalayır [13].

Vətən tarixçiləri müstəqilliyin ilk illərində sözügedən hadisələrin sinfi deyil, məhz milli zəmində baş verdiyini və soyqırım xarakteri daşıması konsepsiyanı irəli sürürdülər: "Ermənilərin bu dövrdə xalqımıza qarşı törətdikləri qırğınların və soyqırımın mahiyyəti ondadır ki, bu qırğınları onun "bolşevik" Stepan Şaumyan, satqın və xain Andronik və ya Ermənistan Ararat Respublikasının qatı millətçi və şovinist "Daşnaksütyun" rəhbərləri tərəfindən törədilməsindən asılı olmayaraq bu qırğın bir məqsədə xidmət etmişdir - əzəli Azərbaycan torpaqlarının etnik cəhətdən azərbaycanlılardan təmizlənməsi və erməniləşdirilməsinə, ermənilərin Azərbaycanda iqtisadi və siyasi ağalığının təmin edilməsinə, azərbaycanlılara qarşı əsl soyqırımı siyasətinin həyata keçirilməsinə xidmət etmişdir" [14, s.90].

***Nəticə***. 1918-ci ilin yazında daşnak-bolşevik qüvvələrinin Şamaxı əhalisinə qarşı həyata keçirdikləri soyqırım siyasətini Fövqəladə Təhqiqat Komissiyasının tərtib etdiyi sənəd və materiallar ən xırda təfərrüatlarına qədər, son dərəcə ətraflı, obyektiv şəkildə əks etdirir. Məhz Fövqəladə Təhqiqat Komissiyasının topladığı şahid ifadələri, zərərçəkənlərin istintaqa təqdim etdikləri şikayət ərizələri, izahat, ifadə və protokolları hadisələrin elmi-obyektiv mənzərəsini yaratmaq imkanı verir. Belə ki, hadisələrin əsas təşkilatçısı olan Şaumyan daşnaklarla sıx əməkdaşlıq şəraitində törətdiyi soyqırımın məsuliyyətini çiyinlərindən atmaq, hətta əməllərinə bəraət qazandırmaq üçün:"Gərək nə qədər həyasız olasan ki, axıdılan qanların məsuliyyətini Sovet hakmiyyətinin üzərinə yıxasan. Bəli, Sovet hökuməti müsavatın əksinqilabı vəhşi diviziyasına qarşı vaxtında silahlı müqavimət göstərdi. Ancaq, əgər biz bu müqaviməti göstərməsəydik, onda axıdılan qanlar bundan on dəfələrlə çox olardı" [15, s.135].

Lakin milli tərkibinin 70%-dən çoxu ermənilərdən ibarət olan "Qızıl Ordu"nun Bakıda, o cümlədən Azərbaycan qəzalarında Sovet hakimiyyətini qurmaq adı altında həyata keçirdiyi tədbirlərin Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiqi əslində xalqımıza qarşı əsl soyqırımı aksiyasının baş verdiyini təkzibolunmaz faktlarla aydın şəkildə sübuta yetirir.

## ƏDƏBİYYAT

1. ARDA, f. 1061, siy.1, iş 99, vər. 6.
2. ARDA, f. 1061, siy.1, iş 110, vər. 75-77.

3. ARDA, f. 1061, siy.1, iş 87, vər. 3-18.
4. ARDA, f. 1061, siy.1, iş 102, vər. 32-34.
5. ARDA, f. 1061, siy.1, iş 85, vər. 42-44.
6. Халилов А.А. Геноцид против мусульманского населения Закавказья в исторических источниках. Баку: Азербайджан, 2000, 166 с.
7. ARDA, f. 1061, siy.1, iş 1, vər. 7-9.
8. ARDA, f.700, siy.2, iş 12, vər. 22.
9. ARDA, f.1061, siy.1, iş 110, vər. 5-6.
10. ARDA, f. 1061, siy.1, iş 110, vər. 26-27.
11. ARDA, f. 1061, siy.1, iş 110, vər. 16-19.
12. ARDA, f. 1061, siy.1, iş 101, vər. 12.
13. ARDA, f. 1061, siy.1, iş 105, vər. 49-51.
14. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 535 s.
15. Шаумян С.Г. Статьи и речи. Баку: Бакинский Рабочий, 1924, 231 с.

**САБИНА МАММАДЛИ**
*кандидат исторических наук,*
*преподаватель Азербайджанского Университета,*
*преподаватель кафедры истории Азербайджана*
*(для гуманитарных факультетов) Бакинского государственного университета*

## УЖАСНОЕ ЛИЦО ШЕМАХИНСКОГО ГЕНОЦИДА 1918 ГОДА

Армянские дашнаки, действовавшие в Шемахе весной 1918 года, по такому же сценарию осуществляли свои агрессивные намерения в Верхнем Карабахе в конце XX века. События 1918 года следует изучать и пропагандировать, чтобы правильно понять истинную природу армянского характера, который всегда враждебен и агрессивен по отношению к территориям Азербайджана.

*Ключевые слова*: Шемахы, жертва, резни и погромов, армяне, большевистско дашнакские соединения.

**SABİNA MAMMADLI**
*PhD in History,*
*Lecturer of Azerbaijan University,*
*Lecturer of the Department of History of Azerbaijan*
*(for humanitarian faculties) of Baku State University*

## THE TERRIBLE FACE OF THE 1918 SHAMAKHI GENOCIDE

The Armenian Dashnaks operating in Shamakhi in the spring of 1918 carried out their aggressive intentions in Upper Karabakh at the end of the 20th century with the same scenario. The events of 1918 should be studied and propagated in order to properly understand the true nature of the Armenian character, which is always hostile and aggressive towards the territories of Azerbaijan.

*Keywords*: Shamakhi,victim,the massacre and pogroms, armenian, bolshevik-Dashnak compounds.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Boran Əziz, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24); UOT 930**

**RƏNA ƏSƏDOVA**
*tarix üzrə fəlsəfə doktoru, dosent AMEA Tarix İnstitutu, Azərbaycan Universiteti*
**rena-beyler@gmail.com**
ORCID : 0000-0002-0310-6201

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN ŞİMALİ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ PROBLEMİNİN TARİXŞÜNASLIĞI

*Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərdən bu və ya digər dərəcədə tədqiq edildiyi xeyli sayda tarixi ədəbiyyat mövcuddur. Onların içərisində Azərbaycan tarixində özünəməxsus yeri olan fundamental tədqiqatlar, sanballı monoqrafiyalar da vardır ki, təqdim edilən məqalədə bu əsərlərdən bəhs olunmuşdur. Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev, Q.Ə.Əliyev və digər tədqiqatçıların əsərlərində XIX əsrdə və XX əsrin başlanğıcında Şimali Azərbaycanda sənayenin, kənd təsərrüfatının və nəqliyyatın inkişafı araşdırılarkən, Birinci dünya müharibəsi dövründə iqtisadiyyatda baş verən dəyişikliklər haqqında da bir sıra qiymətli fikirlər irəli sürülmüşdür.*

*Açar sözlər:* Birinci dünya müharibəsi, Şimali Azərbaycan iqtisadiyyatı, müharibənin təsiri, tarixi tədqiqatlar.

***Giriş.*** Birinci dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatında təsiri problemi uzun müddət ayrıca tədqiqat obyekti olmamışdır. Bu müharibənin Şimali Azərbaycan iqtisadiyyatının önəmli sahələrində yaratdığı dəyişikliklər haqqında Vətən tarixşünaslığında ümumi xarakterli əsərlərdə: akademik nəşrlərdə [1, 2, 40], dərsliklərdə [3, 10, 39, 61] və iqtisadiyyatın ayrı-ayrı sahələrinə həsr edilmiş ümumi xarakterli əsərlərdə [22, 49] müəyyən məlumatlar verilmişdir. Həmin nəşrlərdə müharibının iqtisadi həyata təsiri, əhalinin dolanışıq şəraitinin ağırlaşması yığcam şəkildə əks olunmuşdur. Bununla belə, qeyd etmək lazımdır ki, müharibə dövründə Şimali Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərdən bu və ya digər dərəcədə bəhs edildiyi xeyli tarixi ədəbiyyat mövcuddur. Onların içərisində Azərbaycan tarixində özünəməxsus yeri olan fundamental tədqiqatlar, sanballı monoqrafiyalar da vardır ki, tarixşünaslıq icmalında məhz bu əsərlərdən bəhs etmək nəzərdə tutulmuşdur.

Akademik Ə.S.Sumbatzadənin [54, 55], Azərbaycan EA-nın müxbir üzvü M.Ə.İsmayılovun [11, 12, 13, 36, 37, 38], prof. T.T.Vəliyevin [23, 24, 25, 26] sanballı tədqiqat əsərlərində XIX əsrdə və XX əsrin başlanğıcında Şimali Azərbaycanda sənayenin və kənd təsərrüfatının inkişafından əsaslı surətdə bəhs edilmiş, Birinci dünya müharibəsində iqtisadiyyatda baş verən dəyişikliklər haqqında da bir sıra qiymətli fikirlər irəli sürülmüşdür. Xüsusən də, prof. T.T.Vəliyev ipək sənayesinə həsr etdiyi monoqrafiyasında [23] 1900-cü ildən başlayaraq 1917-ci ilədək davam edən xronoloji çərçivədə baş verən inkişaf və yenilikləri, o cümlədən də müharibənin ipəkçilik təsərrüfatına və emal sənayesinə təsirini geniş faktik material əsasında ardıcıl tədqiq etmişdir.

Müharibə dövründə Şimali Azərbaycanda iqtisadi vəziyyətin öyrənilməsi sahəsində S.S.Əliyarovun [27] və M.C.İbrahimovun [13, 35] əsərləri mühüm əhəmiyyətə malikdir. Bu əsərlərdə müharibənin neft inhisarlarına, neft çıxarılması və neft emalına təsirinin müxtəlif aspektləri araşdırılmışdır. Bu tədqiqatlar müharibə dövründə neft sənayesindəki dəyişikliklərin, ilk növbədə istehsalın ildən-ilə ixtisar edilməsinin digər sənaye sahələrinə, qəzalarda təsərrüfat həyatına təsirinin aydınlaşdırılması üçün mühüm əhəmiyyətə malikdirlər.

Birinci dünya müharibəsi illərində dünyanın aparıcı dövlətlərinin Şimali və Cənubi Azərbaycanla bağlı siyasətinə M.C.Qasımov 3 hissədən ibarət böyük araşdırma [14] həsr etmişdir. Bu monoqrafiyanın birinci hissəsində Şimali Azərbaycanın müharibə ərəfəsində və dövründə iqtisadi potensialını xarakterizə edən maraqlı faktlar qeyd edilmişdir.

Q.Ə.Əliyevin XIX əsrdə və XX əsrin ilk onilliklərində nəqliyyatın inkişafına, nəqliyyat əlaqələrinin iqtisadiyyatın müxtəlif sahələrinə təsiri məsələlərinə həsr etdiyi monoqrafiyalarında [4, 5]

Birinci dünya müharibəsi illərində nəqliyyatda, xüsusən də dəmir yolları ilə yükdaşımalarında baş verən dəyişikliklərdən də bəhs olunmuşdur. Müəllif dəmir yolu nəqliyyatı ilə müxtəlif sənaye və kənd təsərrüfatı məhsulları daşınması haqqında statistik məlumatları tədqiqata cəlb etməklə Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişiklikər haqqında təsəvvür yaratmağa nail olmuşdur. Müəllifin 1916-1917-ci illərə dair faktik materialları elmi dövriyyəyə gətirməsi də diqqətəlayiqdir.

H.N.Həsənovun [7], L.L.Həsənovanın [8], C.X.Hüseynovun [9, 32], Z.Şahverdiyevin [19], İ.A.Talıbzadənin [20,21] S.Y.Süleymanovun [18, 53], Ə.A.Umayevin [56] Şimali Azərbaycan kəndinin XIX əsrin sonu – XX əsrin başlanğıcında təsərrüfat həyatına, aqrar münasibətlərə həsr edilmiş əsərlərində kənd təsərrüfatının əsas sahələrində kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar baş vermiş dəyişikliklər geniş faktik material əsasında şərh edilmişdir. Bu əsərlərdə Birinci dünya müharibəsi dövründə kənd təsərrüfatının ayrı-ayrı sahələrində istehsalın azalması, ümumi vəziyyətin ağırlaşması səbəbləri araşdırılmışdır. C.X.Hüseynovun monoqrafiyasında [32] həmçinin kəndlilərin həyat şəraitinin pisləşməsi və bu zəmində geniş miqyas alan sinfi mübarizəsinə geniş yer verilmişdir.

T.Nağıyevin XX əsrin əvvəllərində Azərbaycanda tütünçülüyün və tütün sənayesinin inkişafına [17], A.N.Mustafayevin Azərbaycanda sənətkarlıq haqqında tarixi-etnoqrafik tədqiqatında [16], M.Ə.Musayevin XX əsrin əvvəlində Bakı şəhərinin ticarətinə həsr etdikləri tədqiqat əsərlərində [55], N.A.Şaxramanovanın Birinci dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatına təsirinə dair məqaləsində [59] müharibə dövründə iqtisadi vəziyyətin ağırlaşması, əhalinin ərzaqla və digər gündəlik tələbat məhsulları ilə təchizində yaranmış çətinliklər və s. bu kimi məsələlər haqqında maraqlı faktlar qeyd olunmuşdur.

Bütün bu faktlardan göründüyü kimi, Şimali Azərbaycanda təsərrüfat həyatına, iqtisadiyyatın ayrı-ayrı sahələrinə Birinci dünya müharibəsinin təsiri problemi Vətən tarixşünaslığında ayrıca araşdırılmamışdır. Çünki yuxarıda adları çəkilən müəlliflərin tədqiqatlarının məqsədi bütövlükdə XIX əsrdə və XX əsrin ilk onilliklərində iqtisadiyyatın inkişafı tarixini araşdırmaq olduğundan, müharibə dövrünün iqtisadi həyata, o cümlədən də sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrinə təsirinin yalnız bəzi önəmli cəhətlərinə toxunmaqla kifayətlənmişlər.

Yalnız bu sətirlərin müəllifi "Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı" adlı əsərində [6] müharibənin ölkəmizin sosial-iqtisadi həyatına təsirini ardıcıl şəkildə araşdırmışdır. Əsərdə iqtisadiyyatın bütün sahələrində müharibə dövrünün yaratdığı dəyişikliklər çoxlu sayda statistik göstəricilərlə, cədvəllər tərtib edilməklə şərh olunmuş, müharibənin əhalinin güzəranına ağır təsiri, bahalıq və qıtlıqla bağlı faktlar tədqiq edilmişdir.

Müəllif bu mövzu üzrə tədqiqat işi apararkən çoxlu sayda arxiv materiallarından istifadə etmişdir. Onların içərisində Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin fondlarında saxlanılan sənədlər xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu arxivin Qafqaz canişini dəftərxanası (fond 1), Bakı quberniya idarəsi (fond 44), Bakı qubernatorunun dəftərxanası (fond 45), Bakı Müvəqqəti general-qubernatorunun dəftərxanası (fond 485), Bakı şəhəri Ərzaq Müşavirəsi dəftərxanası (fond 512), Yelizavetpol (Gəncə) quberniya idarəsi (fond 61), Yelizavetpol (Gəncə) qubernatoru dəftərxanası (fond 62), Bakı-Dağıstan Üzümçülük və Şərabçılıq Komitəsi (fond 287) və digər fondlarında mühafizə edilən sənədlər və materiallar müharibə dövründə Şimali Azərbaycanın iqtisadi vəziyyətini öyrənmək üçün mühüm faktlarla zəngindir. Həmin fondlardan əldə edilmiş müharibə dövründə sənaye istehsalının necə sürətlə azalmasını, kənd təsərrüfatı sahələrində dəyişiklikləri əks etdirən faktlar və rəqəmlər mövzunu dolğun əks etdirməyə imkan vermişdir.

Müəllif mövzunun tədqiqi zamanı dövri mətbuat materiallarından da geniş istifadə etmişdir. "Kaspiy" (1900-1917), "Bakinskie qubernskie vedomosti" (1914-1917), "Yelisavetpolskie qubernskie vedomosti" (1914-1917) qəzetlərində, "Kavkazskoye xozyaystvo" (1900-1917), "Neftyanoye delo" (1900-1917) və digər jurnallarda getmiş materiallar müharibə dövründə iqtisadi vəziyyət, ərzaq təchizatı, dəmir yolları ilə yükdaşımalardakı problemləri və s. bu kimi məsələləri araşdırmaq üçün çox gərəkli faktlarla zəngindir.

Qeyd etmək lazımdır ki, arxiv fondlarında əsasən müharibənin ilk iki ilinə aid statistik göstəricilər saxlanmışdır. Bunun da səbəbi quberniyalar üzrə hesabatların və şərhlərin arxivlərdə illər üzrə tam şəkildə olmamasıdır. Arxiv fondlarında mühafizə edilən qubernatorların imzaladıqları son rəsmi hesabatlar 1915-ci ilə aiddir. Sonrakı illər üzrə hesabatlar müharibənin son dövründə baş vermiş inqi-

labi dəyişikliklər, mövcud dövlət idarə strukturlarının ləğv edilməsi, anarxiya və dağıntılarla əlaqədar itirilmiş və ya heç hazırlanmamışdır. Qafqaz təqvimlərinin buraxılması isə 1916-cı ildən dayandırılmışdır. Sonuncu, 1917-ci il üzrə Qafqaz təqvimindəki statistik göstəricilər isə 1915-ci ilin sonuna aiddir. Sovet hakimiyyətinin ilk illərində tərtib olunmuş toplulardakı statistik məlumatlar isə tam deyildir, həm də 1916-1917-ci illərə aid statistik göstəricilər azdır və ziddiyyətlidir. Belə obyektiv çətinliklərə baxmayaraq, müxtəlif xarakterli mənbələrin: arxiv fondlarındakı sənədləri, tarixi ədəbiyyatdan götürülmüş faktları, dövri mətbuat materialları kompleks şəkildə tədqiqata cəlb edərək Şimali Azərbaycanda Birinci dünya müharibəsi dövründə iqtisadiyyatda baş verən prosesləri aydınlaşdırmağa çalışmışıq.

Birinci dünya müharibəsinin Şimali Azərbaycanda təsərrüfat həyatına, iqtisadiyyatın ayrı-ayrı sahələrinə təsiri mövzusuna aid ayrı-ayrı faktlar keçmiş ittifaq miqyasında nəşr olunmuş ümumi xarakterli əsərlərdə və monoqrafik tədqiqatlarda da bu və ya digər dərəcədə öz əksini tapmışdır. Bunların içərisində, heç şübhəsiz ilk növbədə görkəmli rus-sovet tarixçisi A.L.Sidorovun fundamental monoqrafiyaları və məqalələri [50, 51, 52] xüsusi qeyd edilməlidir. Bu müəllifin tədqiqatlarında Birinci dünya müharibəsi dövründə Rusiya imperiyasının iqtisadi vəziyyəti haqqında çox qiymətli faktlar qeyd olunmuşdur. A.L.Sidorov zəngin arxiv materialları, rəsmi hakimiyyət qurumlarının sənədləri əsasında imperiya miqyasında müharibənin təsiri ilə iqtisadiyyatın müxtəlif sahələrində, maliyyə sistemində, dəmir yolu nəqliyyatında baş vermiş dəyişiklikləri əsaslı surətdə araşdırmışdır.

R.B.Klaus [41], A.A.Lozinski [44], P.İ.Lyaşşenko [45], İ.V.Mayevski [46], A.P.Poqrebinski [48], P.A.Xromov [58] və digər müəlliflərin əsərlərində, eləcə də ümumi xarakterli tarixi ədəbiyyatda [49,57] müharibə illərində, xüsusən də son mərhələdə Rusiyanın iqtisadi və maliyyə vəziyyətinin kəskin surətdə pisləşməsi səbəbləri araşdırılmışdır ki, bunların Şimali Azərbaycan miqyasında baş verən dəyişikliklərin tədqiq edilməsi üçün də mühüm əhəmiyyəti vardır. Bu, S.M.Dubrovskinin [33] müharibə dövründə Rusiya imperiyasında kənd təsərrüfatının vəziyyətinə həsr etdiyi, V.S.Dyakinin [34] alman kapitalının Rusiya sənayesində yerinin dəyişməsindən bəhs edən əsərlərinə də eyni dərəcədə aiddir.

Bu müəlliflərin müraciət etdikləri mənbələrin əhəmiyyətli bir hissəsi müharibə dövründə və sonrakı illərdə sənəd topluları şəklində nəşr olunmuşdur. Onların içərisində Rusiya dövlətinin müharibə dövrü tələblərinə uyğun olaraq sənaye müəssisələrinin, dəmir yolu nəqliyyatının işini yenidən qurmaq, cəbhənin ehtiyaclarını ödəmək üçün əsas qərarların qəbul edildiyi "Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirənin jurnalları" adlı materiallar toplusu xüsusilə böyük əhəmiyyətə malikdir. Bu topludakı materiallar ümumimperiya miqyasında müharibənin doğurduğu problemləri həll etmək üçün ali hakimiyyət nümayəndələrinin iştirakı ilə görülən tədbirlər, xüsusən döyüşən ordunun silah, döyüş sursatı, paltar və s. zəruri məhsullarla təchizi, iri şəhərlərin və sənaye rayonlarının yanacaqla təmin olunması, dəmir yolu ilə yükdaşımaların qaydaya salınması üçün atılan addımlar haqqında çox mühüm məlumatları əks etdirir.

Bu tipli digər çox mühüm sənədlər toplusu Rusiya hökumətinin müharibə dövründə qəbul etdiyi qərar və sərəncamların ardıcıl çap olunduğu külliyyatlardır. Hökumətin hərbi səfərbərlik, cəbhəarxası işlərə müsəlman xalqların cəlb edilməsi, vergi və rüsumların artırılması haqqında rəsmi qərar və sərəncamları, digər normativ sənədləri bu külliyyatlarda cəmlənmişdir.

İmperiya miqyasında toxuculuq sənayesinin inkişafı tarixinə V.Y.Laveriçevin [43] və K.A.Pajitnovun [47] həsr etdikləri monoqrafiyalarında regionlarda, o cümlədən Cənubi Qafqazda pambıq-parça istehsalı, Mərkəzi Sənaye rayonunun mahlıcla təmin olunmasında Şimali Azərbaycanın və Mərkəzi Asiyanın rolu məsələləri təhlil edilmişdir. Bu tədqiqat əsərlərində müxtəlif zamanlarda nəşr olunmuş sənəd topluları, arxiv fondlarında saxlanan sənədlər, dövri mətbuat materiallar əsas mənbə bazasını təşkil etmişdir. Müəlliflər bir-birindən fərqli mənbələrdən götürdükləri və müxtəlif xarakterli materialları kompleks şəkildə tədqiqata cəlb etməklə mövzunun bütövlükdə və tam şəkildə araşdırılmasına nail olmuşlar.

XIX əsrdə və XX əsrin əvvəllərində Gürcüstanın və qismən də Cənubi Qafqazın digər regionlarının iqtisadi vəziyyətinə dair bir çox sanballı əsərin müəllifi olan görkəmli gürcü tədqiqatçısı P.V.Ququşvili öz araşdırmalarında [30,31] müharibə dövründə Cənubi Qafqazın müxtəlif bölgələ-

rində, o cümlədən Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişikliklərə də toxunmuşdur. Bu müəllifin əsərləri daha çox Borçalı qəzası üzrə faktlarla tanış olmaq baxımından qiymətlidir.

Digər gürcü müəllifi Ş.İ.Basilayanın monoqrafiyası [28] müəyyən qədər istisnalıq təşkil edir. Bu əsər bütövlükdə Cənubi Qafqazın Birinci dünya müharibəsi dövründəki vəziyyətinə həsr edilmişdir. Bununla belə, əsərdə müharibə dövründə Tiflis və Kutais quberniyalarında, Suxumi dairəsində iqtisadiyyatın müxtəlif sahələrində baş verən dəyişikliklərdən geniş bəhs edilmiş və daha çox Gürcüstanla bağlı faktlara diqqət yetirilmişdir. Monoqrafiyada Azərbaycana aid bəzi önəmli faktlara da yer verilmişdir. Digər mühüm kəsir, müəllifin əsasən müharibənin ilk iki ilinə aid statistik göstəricilərə istinad etməsidir ki, bu da bütövlükdə müharibənin nəticələrini tam aydınlaşdırmağa imkan verməmişdir.

***Nəticə***. Həm Azərbaycanda, həm də Qafqazda və Rusiya imperiyası miqyasında XX əsrin ilk onilliklərində, o cümlədən Birinci dünya müharibəsi ərəfəsində və dövründə sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət, maliyyə və digər sahələrin vəziyyətinə həsr olunmuş əsərlərdə müharibənin təsiri ilə baş verən dəyişikliklər haqqında qiymətli məlumatlar əks olunmuşdur. Bu araşdırmalar müharibənin gedişində Şimali Azərbaycanın iqtisadi həyatının necə dəyişməsi dinamikasını izləməyə, əhalinin güzaranına, dolanışıq şəraitinin ağırlaşmasına təsirini aydınlaşdırmağa imkan verir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 3 clddə, II c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1964, XI, 998 s.
2. Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2000, 508 s.; V c., Bakı: Elm, 2001, 672 s.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2014, 380 s.
4. Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri). Bakı: Elm, 2001, 244 s.
5. Əliyev Q.Ə. Qafqazda nəqliyyatın inkişafı. (XIII əsrin sonu – XX əsrin başlanğıcı). Bakı: "Turxan" MMC, 2019, 400 s.
6. Əsədova R.B. Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı. Bakı: "Turxan" MMC, 2015, 200 s.
7. Həsənov H.N. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan dövlət kəndlilərinin üzümçülük təsərrüfatı (Şamaxı və Göyçay qəzalarının materialları üzrə) / Birinci rus inqilabı ərəfəsi və dövrünün Azərbaycan tarixi məsələləri. Məqalələr məcmuəsi, Bakı, Elm, 1985, s.181-187.
8. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı: ADU nəşriyyatı, 1985, 68 s.
9. Hüseynov C.X. Birinci dünya müharibəsi illərində Azərbaycanda aqrar münasibətləri / Azərbaycanda inqilabi hərəkatın sosial-iqtisadi zəmini. (XIX əsr-XX əsrin əvvəli). Elmi əsərlərin tematik məcmuəsi. Bakı: ADU nəşri, 1983, s. 67-77.
10. XX əsr Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik, c.II / prof. Y.B.Yusifov və prof. T.T.Vəliyevin ümumi redaktəsi ilə, c.II, Bakı: Çaşıoğlu, 2004, 558 s.
11. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1960, 240 s.
12. İsmayılov M.Ə. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın üzümçülük və şərabçılıq təsərrüfatında kapitalist münasibətlərinin inkişafı məsələsinə dair. // Azərbaycan SSR EA xəbərləri, 1956, № 3, s. 91-107.
13. İsmayılov M.Ə., İbrahimov M.C. Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi. Bakı: Elm, 1991, 283 s.
14. Qasımov M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. I hissə (1914-cü il avqust – 1917-ci il oktyabr). Bakı: Qanun, 2000, 300 s.
15. Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-ci illər). Bakı: Elm, 1975, 194 s.
16. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq (tarixi-etnoqrafik tədqiqat). Bakı: Altay, 1999, 440 s.

17. Nağıyev T. XX əsrin əvvəllərində Azərbaycanda tütün sənayesinin inkişafı (1900-1917) / Вопросы развития экономики Азербайджанской ССР. Баку: изд-во АН Азерб.ССР, 1966, с.241-247
18. Süleymanov S.Y. 1914-1920-ci illərdə Azərbaycan ipəkçilik təsərrüfatının vəziyyətinə dair / Вопросы развития экономики Азербайджанской ССР. Баку: изд-во АН Азерб.ССР, 1966, с.256-268.
19. Şahverdiyev Z. XX əsrin əvvəllərində Naxçıvan qəzasında taxılçılığın vəziyyəti // AMEA Naxçıvan bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2008, № 1, s. 35-41.
20. Talıbzadə İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatı. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965, 111 s.
21. Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı: Elm, 1980, 150 s.
22. Vəliyev (Baharlı) M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan nəşriyyatı, 1993, 192 s.
23. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı: Elm, 1977, 148 s.
24. Vəliyev T.T. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda dəmir yolu çəkilişi tarixindən // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1984, № 2, s.46-52.
25. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda pambıqçılıq, mahlıc istehsalı və səhmdarlıq təsisçiliyi / Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Баку: Элм, 1983, с. 30-70.
26. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 256 s.
27. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку: издание АГУ, 1974, 231 с.
28. Басилая Ш.И. Закавказье в годы Первой мировой войны. Сухуми: изд-во Алашара, 1968, 264 с.
29. Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007, 224 с.
30. Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., т.1, Тбилиси: изд-во Акад. Наук Груз. ССР, 1957, 343 с.
31. Гугушвили П.В. Развитие сельского хозяйства в Грузии и Закавказье в XIX-XX вв., т.1, Тбилиси: Мецниереба, 1968, 474 с.
32. Гусейнов Дж.Х. Из истории национально-освободительного движения Северного Азербайджана в начале XX в. (1900 – 1907 гг.). Баку: тип. «El-ALiance», 2001, 248 с.
33. Дубровский С.М. Сельское хозяйство и крестьянство России в период империализма. М.: Наука, 1975, 398 с.
34. Дякин В.С. Германские капиталы в России (электроиндустрия и электрический транспорт). Л.: Наука, 1971, 288 с.
35. Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку: Элм, 1984, 240 с.
36. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX в. Баку: Изд-во Акад. наук Азерб. ССР, 1964, 306 с.
37. Исмаилов М.А. Об уровне социально-экономического развития Азербайджана в начале XX в. / Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Баку: Элм, 1983, с.8-29.
38. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Элм, 1982, 116 с.
39. История Азербайджана с древнейших времен до начала XX в. Под ред. И.Г.Алиева. Баку: Элм, 1995, 432 с.
40. История СССР. С древнейших времен до наших дней, т. VI, России в период империализма. 1900-1917 гг. / Ред. коллегия: А.Л.Сидоров (отв. ред.) и др. М., Наука, 1968, 854 с.
41. Клаус Р.В. Война и народное хозяйство России (1914-1917 гг.). М.-Л., 1926, 238 с.
42. Корсун Н.Г. Первая мировая война на Кавказском фронте. М., Воениздат, 1946, 98 с.

43. Лаверычев В.Я. Монополистический капитал в текстильной промышленности России (1900-1917 гг.). М., изд-во Моск. ун-та, 1958, 425 с.
44. Лозинский А.А. Экономическая политика Временного правительства. Л., 1929, 246 с.
45. Лященко П.И. История народного хозяйства СССР. Т.2, М.: Госполитиздат, 1950, 756 с.
46. Маевский И.В. Экономика русской промышленности в условиях Первой мировой войны. М.: Госполитиздат, 1957, 391 с.
47. Пажитнов К.А. Очерки истории текстильной промышленности дореволюционной России. М., изд-во АН СССР, 1958, 425 с.
48. Погребинский А.П. Государственные финансы царской России в эпоху империализма. М.: Финансы, 1959, 168 с.
49. Россия в мировой войне 1914-1918 гг. (в цифрах). М.,1925, 264 с.
50. Сидоров А.Л. Железнодорожный транспорт России в Первой мировой войне и обострение экономического кризиса в стране. // Исторические записки, 1948, т.26, с.32-78
51. Сидоров А.Л. Финансовое положение России в годы Первой мировой войны. М.: изд-во АН СССР, 1960, 579 с.
52. Сидоров А.Л. Экономическое положение России в годы Первой мировой войны. М.: Наука, 1973, 656 с.
53. Сулейманов С.Ю. Сельское хозяйство Азербайджана в 1914-1920 гг. Автореферат дисс. … канд. экон. наук. Баку,1967, 24 с.
54. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: изд-во АН Азерб. ССР, 1964, 501 с.
55. Сумбатзаде А.С. Социально-экономические предпосылки победы советской власти в Азербайджане. М.: Наука, 1972, 254 с.
56. Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX века. Баку: Элм, 2002, 530 с.
57. Фабрично-заводская промышленность в период 1913-1918 гг. М., 1926.
58. Хромов П.А. Экономическая история СССР. Период промышленного и монополистического капитализма в России. М.: Высш. школа, 1982, 240 с.
59. Шахраманова Н.А. Влияние Первой мировой войны на экономику Азербайджана. // Уч. Зап. АГУ им. С.М.Кирова. Серия истории и философии, 1964, № 7, с.37-46.
60. Шепелев Л.Е. Акционерные банки в годы Первой мировой войны. // Исторические записки, т.73, 1963, с.156-193.
61. Шестаков В.А. Новейшая история России. М.: АСТ, 2008, 479 с.

**РЕНА АСАДОВА**

*доктор философии по истории, доцент Института истории НАНА,*
*Азербайджанский Университет*

# ИСТОРИОГРАФИЯ ПРОБЛЕМЫ ВЛИЯНИЯ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ НА ЭКОНОМИКУ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА

Существует большое количество исторической литературы, в которой в той или иной степени изучены изменения в социально-экономической жизни Северного Азербайджана в годы Первой мировой войны. Среди них фундаментальные исследования, весомые монографии, занимающие уникальное место в истории Азербайджана, о которых говорится в представленной статье. В работах А.С.Сумбатзаде, М.А.Исмайлова, Т.Т.Велиева, Г.А.Алиева и других исследователей при рассмотрении развития промышленности, сельского хозяйства и транспорта Северного Азербайджана в XIX и начале XX века был выдвинут ряд ценных идей об изменениях в экономики в годы Первой мировой войны.

*Ключевые слова:* Первая мировая война, экономика Северного Азербайджана, последствия войны, исторические исследования.

**RENA ASADOVA**
*doctor of philosophy in history, associate professor ANAS Institute of History, Azerbaijan University*

## HISTORIOGRAPHY OF THE PROBLEM OF THE INFLUENCE OF THE FIRST WORLD WAR ON THE ECONOMY OF NORTH AZERBAIJAN

There is a large amount of historical literature in which, to one degree or another, changes in the socio-economic life of Northern Azerbaijan during the First World War have been studied. Among them are fundamental research, significant monographs that occupy a unique place in the history of Azerbaijan, which are discussed in the presented article. In the works of A.S.Sumbatzade, M.A.Ismailov, T.T.Veliyev, G.A.Aliyev and other researchers, when considering the development of industry, agriculture and transport of Northern Azerbaijan in the 19th and early 20th centuries, a number of valuable ideas were put forward about changes in the economy during the First World War. Northern Azerbaijan in the 19th and early 20th centuries, a number of valuable ideas were put forward about changes in the economy during the First World War.

*Keywords:* First World War, economy of Northern Azerbaijan, consequences of the war, historical research.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. H.Həsənov, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94(479.24); UOT 930

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*
**balamirzamammadli@gmail.com**

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ ABŞ ARASINDA İLK SİYASİ-DİPLOMATİK MÜNASİBƏTLƏRİN QURULMASI VƏTƏN TARİXŞÜNASLIĞINDA

*Sovet İttifaqının süqutundan sonra dünyanın yeganə supergücünə çevrilmiş ABŞ ilə öz dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikası arasında siyasi-diplomatik münasibətlər Azərbaycanın müstəqil xarici siyasət kursunun elə ilk vaxtlarından etibarən olduqca böyük əhəmiyyət kəsb etmişdir və etməkdədir. ABŞ da öz növbəsində nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada ən mühüm geostrateji möqveyə malik dövlətlərdən biri olan, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanla ilk anlardan diplomatik münasibətlər qurmaq marağında olmuş və bunun nəticəsidir ki, 1991-ci ilin sonlarında Birləşmiş Ştatlar hökuməti müstəqil Azərbaycan Respublikasını rəsmi olaraq tanımışdır. Bunun ardınca, Azərbaycan ilə ABŞ arasında ilkin siyasi-diplomatik münasibətlərin qurulması sahəsində ilk əməli addımlar atılmışdır. Bütün bu məsələlər Vətən tarixşünaslığında bir çox tədqiqatçıların (M.Qasımlı, Ə.Həsənov, E.Nəsirov, F.İsmayılov, İ.Musa və d.) araşdırmalarında geniş şəkildə öz əksini tapmışdır. Məqalədə həmin tədqiqat əsərlərinin, tarixşünaslıq materiallarının müqayisəli təhlili aparılmış və bunun əsasında Azərbaycan və ABŞ arasında ilk siyasi-diplomatik münasibətlərin qurulması tədqiq olunmuşdur.*

*Açar sözlər:* Azərbaycan Respublikası, ABŞ, müstəqilliyin bərpası, xarici siyasət, ilkin diplomatik münasibətlər, tarixşünaslıq.

***Giriş.*** Azərbaycanın planetimizin ən mühüm fövqəldövləti olan ABŞ ilə münasibətlərinin tarixi kökləri XIX əsrin ikinci yarısına gedib çıxır. Belə ki, hələ XIX yüzilliyin 70-80-ci illərdə ölkəmizdə təşəkkül və inkişaf edən neft sənayesi digər aparıcı Qərb dövlətləri kimi ABŞ-ın da nəhəng neft şirkətlərinin, xüsusilə “bəşər tarixində ilk milyarder” sayılan görkəmli iş adamı C.Rokfellerin yenicə yaratdığı “Standart Oyl” neft korporasiyasının diqqətini özünə cəlb etmişdir. Lakin, həmin illərdə ABŞ şirkətləri Avropa dövlətlərinin iri şirkətlərinin (xüsusilə, Nobel qardaşları) təzyiqi ilə üzləşmişdi. İsveç müəllifi B.Osbrinkin yazdığı kimi: “1870-ci illərin əvvəlində Rokfeller öz tərəfdaşı Henri Flagler ilə birlikdə Standard Oyl şirkəti yaratmışdı ki, qısa zamanda Amerikadakı bütün neft hasilatının onda biri bu şirkətin əlində cəmləşmişdi. ...Lakin, Standart Oyl tezliklə Bakının neft pionerləri ilə rəqabət aparmalı olacaqdı” [1]. Beləliklə, əvvəlcə bu səbəbdən, sonrakı illərdə isə amerikan-ingilis ziddiyyətləri və digər amillərə görə ABŞ-ın Azərbaycan siyasəti sözügedən dövrdə daha az fəallığa malik olmuş, normal iqtisadi münasibətlərin yaradılması demək olar ki, mümkün olmamışdır.

1918-ci ildə Azərbaycan Şərqdə ilk demokratik respublika kimi öz müstəqilliyini elan etdikdən sonra iki ölkə arasında münasibətlər yenidən aktuallaşdı. Azərbaycan Xalq Cümhuriyyəti ilə ABŞ arasında diplomatik əlaqələrin qurulması yolunda ilk addım Paris sülh konfransı zamanı atılmışdır. 1919-cu ilin mayın 28-də Ə.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətini ABŞ nümayəndə heyətinin üzvü, amerikalı diplomat H.Morqentau qəbul etmiş, görüşdə bir sıra iqtisadi və siyasi əhəmiyyətli məsələlər müzakirə olunmuşdu [6, s.4]. Həmin günün ikinci yarısında isə, Azərbaycan nümayəndə heyəti ilə ABŞ-ın 28-ci prezidenti Vudro Vilson arasında görüş baş tutmuş və bu görüşdə Azərbaycan ilə ABŞ arasında diplomatik münasibətlərin yaradılması, ölkəmizin Millətlər Cəmiyyətinə qəbul edilməsi kimi məsələləri özündə ehtiva edən rəsmi memorandum V.Vilsona təqdim olunmuşdur. Məlum olduğu kimi, 1920-ci ilin 11 yanvarında Versal sülh konfransının Ali Şurasında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi de-fakto səviyyədə tanınmışdır. Lakin, həmin vaxt Avropa dövlətləri, xüsusilə Böyük Britaniya ilə ziddiyyətlərə görə ABŞ Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etmişdir. Bununla belə, ABŞ Azərbaycanla iqtisadi və siyasi əlaqələr qurmaq sahəsində heç də Avropa ölkələrindən geri qalmamış, Bakıda Birləşmiş Ştatların konsulluğu

açılmış, bir sıra iqtisadi müqavilələr bağlanmışdır. Azərbaycanın Sovet İttifaqının tərkibinə daxil olduğu 70 illik dönəmdə isə, iki ölkə arasında hər hansı rəsmi münasibətlər mövcud olmamışdır.

***Azərbaycanın öz müstəqilliyini bərpa etməsi və ABŞ-ın buna münasibəti Vətən tarixşünaslığında.*** 1991-ci ildə Sovet İttifaqının süqutu gedişində, oktyabrın 18-də öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət yürütməyə başladı. Müstəqilliyin ilk illərində digər postsovet ölkələri kimi Azərbaycanın da xarici siyasət istiqamətinin əsasını dünya dövlətləri ilə ilk diplomatik münasibətlərin qurulması, müstəqillimizin rəsmi tanınması təşkil edirdi. Bu zaman ölkəmizin xarici siyasət fəaliyyətinin ən mühüm istiqamətlərindən birini SSRİ-nin dağılması ilə dünyanın yeganə supergücünə çevrilmiş ABŞ ilə münasibətlər təşkil etməyə başlayır. Müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin ABŞ ilə ilk diplomatik münasibətləri həm Vətən tarixşünaslığında, həm də xarici tarixşünaslığa dair bir çox tədqiqat əsərlərində öz əksini geniş şəkildə tapmışdır. Azərbaycan tarixşünaslığında sözügedən problemin tədqiqatçıları sırasında ilk növbədə M.Qasımlı, Ə.Həsənov, E.Nəsirov, F.Hüseynov, İ.Musa, E.Əhmədov, A.Bəşirova, Ə.Nəsibova və digər müəlliflərin adlarını qeyd etmək lazımdır.

M.Qasımlının 1996-cı ildə nəşr olunmuş “Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər” adlı kitabında Azərbaycan Respublikasının müstəqilliyinin ilk 4 ili sənədlər əsasında tədqiq olumuşdur. Müəllif SSRİ-nin dağılmasından sonra yaranmış beynəlxalq münasibətlər sistemində Azərbaycanın tutduğu yer, ölkəmizin xarici siyasət kursunun əsas istiqamətləri və prinsiplərini, beynəlxalq təşkilatlarda iştirakı, dünya ölkələri, o cümlədən ABŞ ilə siyasi əlaqələrini araşdırmışdır [15]. Müəllifin 2015-ci ildə nəşr edilmiş 2 hissədən ibarət olan “Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)” adlı irihəcmli monoqrafiyasında isə, XX əsrin sonları – XXI əsrin əvvəllərində ölkəmizin xarici siyasəti, o cümlədən ABŞ ilə əlaqələri daha geniş və ətraflı tədqiq olunmuşdur [16].

Ə.Həsənovun 1997-ci ildə nəşr olunmuş “Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991-avqust 1997)” və 1998-ci ildə nəşr edilmiş “Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)” adlı tədqiqat əsərləri müasir dövrdə Azərbaycan-ABŞ müasibətləri probleminin tarixşünaslığında mühüm yer tutur. Adından da göründüyü kimi, xronoloji çərçivəsi müstəqilliyimizin ilk illərini – 1991-1997-cı illəri əhatə edən bu əsərlər Azərbaycan Respublikası ilə ABŞ arasında ilk diplomatik münasibətlərin qurulması tarixinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə, struktur baxımdan ön söz, 4 fəsil və nəticədən ibarət olan “Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)” monoqrafiyasının “Azərbaycanın xarici siyasəti və Amerika Birləşmiş Ştatları” adlanan III fəsli sırf sözügedən problemin tədqiqinə həsr olunmuşdur [9].

E.Nəsirovun 1998-ci ildə nəşr olunmuş “Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)” adlı monoqrafiyasında Azərbaycan Respublikasının 1991-ci ildə öz müstəqilliyini bərpa etməsindən 1997-ci ilə qədər olan 6 illik zaman kəsiyində ABŞ ilə qurduğu ilk diplomatik və siyasi münasibətləri geniş təhlil olunmuşdur. Bu baxımdan, həmin tədqiqat əsəri müasir dövrdə Azərbaycan-ABŞ münasibətləri probleminin tarixşünaslığına ən böyük töhfələrdən biridir [14].

F.İsmayılovun 2001-ci ildə işıq üzü görən “Qarabağ konflikti ABŞ-ın qlobal siyaseti kontekstində” adlı kitabında Azərbaycan Respublikası və ABŞ arasında ilk diplomatik münasibətlərin qurulmasından başlayaraq XXI əsrin əvvəlinə qədər olan 10 illik periodda Azərbaycanın ABŞ ilə münasibətləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində araşdırılmış, münaqişənin həllində ABŞ-ın mövqeyi geniş təhlil olunmuşdur [10].

İ.Musanın 2011-ci ildə nəşr olunmuş “Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” adlı kitabının “Azərbaycan Respublikasının Qərb dövlətləri ilə münasibətləri” adlanan 7-ci fəslində Azərbaycan və ABŞ arasında ilk diplomatik münasibətlərin qurulması qısa şərh olunur. Həmin fəslin “ABŞ-la münasibətlərin xarakteri və perspektivləri” adlı sonuncu başlığında sözügedən problemlə bağlı bir sıra məlumatlara rast gəlmək olar [12].

E.Əhmədovun 2013-cü ildə nəşr edilmiş “Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər” adlı monoqrafiyasında Azərbaycan Respublikasının xarici siyasəti, o cümlədən ABŞ ilə əlaqələri beynəlxalq təhlükəsizlik və BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı kimi əməkdaşlıq institutları kontekstində tədqiq edilmişdir [5].

A.Bəşirovanın "Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında" adlı namizədlik dissertasiyasında 1991-ci ildən 2001-ci ilə qədər olan dövrdə Azərbaycan-ABŞ münasibətləri bilavasitə Amerika mətbuat orqanlarının səhifələrində dərc olunmuş məlumatlar, xüsusən də hələ 1851-ci ildən buraxılan və ABŞ-ın ən böyük tirajlı qəzetlərindən biri olan "Nyu York Tayms" qəzetinin materialları əsasında tədqiq olunmuşdur [2].

Ə.Nəsibovanın "Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər)" adlı namizədlik dissertasiyasında müasir dövrdə Azərbaycan-ABŞ münasibətləri ölkəmizin neft strategiyası və ABŞ-ın xarici siyasətində Cənubi Qafqazın yeri və rolu nöqteyi-nəzərindən araşdırılmışdır [13].

ABŞ ölkəmizin müstəqilliyini rəsmi şəkildə tanıyan ilk dünya dövlətlərindən biridir. Belə ki, ABŞ prezidenti Corc Buş 1991-ci ilin dekabrın 25-də, yəni "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsindən cəmi 2 ay sonra müstəqil Azərbaycan dövlətini rəsmi tanıdığını bəyan etmişdir. N.Ceyms "Keçmiş sovet respublikalarında diplomatiya" adlı əsərində bununla bağlı yazır: "1991-ci ilin dekabrın 25-də Sovet İttifaqı öz mövcudluğunu dayandırdı və Birləşmiş Ştatlar Azərbaycan da daxil olmaqla, 12 keçmiş sovet respublikasını rəsmən müstəqil dövlətlər kimi tanıdı" [11, s.150]. Ə.Həsənov isə, bu mühüm hadisəni belə təsvir edir: "Dekabrın 25-də Vaşinqton öz müstəqilliyini elan etmiş müstəqil Azərbaycan dövlətini rəsmi tanıdığını bəyan etdi və tezliklə iki dövlət arasında diplomatik münasibətlər yaratmaq üçün müəyyən addımlar atdı" [9, s.145].

Lakin, N.Cəfərsoyun "Elçibəy dövründə Azərbaycanın xarici siyasəti" adlı monoqrafiyasında da göstərdiyi kimi, dekabrın 25-də Azərbaycanın dövlət müstəqilliyini tanıdığını rəsmi olaraq bildirən ABŞ prezidenti C.Buş Azərbaycanın ilk prezidenti A.Mütəllibova məktub yazaraq iki ölkə arasında münasibətlərin qurulması üzrə 5 prinsip irəli sürdü [4, s.136]. Burada ABŞ açıq şəkildə bildirirdi ki, o, keçmiş SSRİ (postsovet) məkanında çoxsaylı nüvə dövlətinin mövcudluğunda maraqlı deyil və buna görə də, Azərbaycan BMT Baş Assembleyasının 1968-ci ildə qəbul etdiyi (1969-cu ildə SSRİ də ratifikasiya etmişdir. – B.M.) "Nüvə silahlarının yayılmaması haqqında" müqaviləni imzalamalı, "nüvə silahı olmayan ölkə" statusuna malik olmalıdır. ABŞ prezidentinin məktubunda göstərilən digər prinsiplərə siyasi islahatlar zamanı qanunlara riayət olunması və demokratik üsullardan istifadə olunması; insan haqları və etnik azlıqların hüquqlarının qorunması; milli siyasətin beynəlxalq normalara uyğunluğu; Azərbaycan Sovet dövründən qalma köhnə iqtisadi sistemdən imtina edərək azad bazar iqtisadiyyatına keçməsi daxil idi. A.Mütəllibov ABŞ prezidentinə cavab məktubu göndərərək bəyan etdi ki, ABŞ ilə müstəqil münasibətlər qurmaq niyyətində olan Azərbaycan bütün prinsiplərə riayət etdiyini, o cümlədən 5-ci prinsiplə bağlı səylər göstərəcəyini bildirir. Beləliklə, M.Qasımlının yazdığı kimi: "həmin məktublarla iki ölkə arasında münasibətlərdə ilk addımlar atıldı" [16, s.153].

***Azərbaycan-ABŞ arasında siyasi-diplomatik münasibətlərin qurulması sahəsində ilk əməli addımların atılması Vətən tarixşünaslığında.*** Azərbaycanın ABŞ ilə ilk diplomatik münasibətlərin qurulması sahəsində ilkin əməli addımların atılması 1992-ci ilin əvvəllərinə təsadüf edir. Belə ki, 1992-ci ilin fevralın 12-də ABŞ dövlət katibi Ceyms Addison Beyker Bakıya işgüzar səfər etdi [8, s.30]. M.Qasımlı həmin səfərin məqsədi ilə bağlı yazır: "ABŞ hökuməti regionda baş verən proseslər, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsindən, SSRİ-nin dağılmasından sonra İranın Cənubi Qafqaz regionunda fəallaşmasından narahatlıq hissi keçirirdi. ...Həmin məsələlərin müzakirəsinə ehtiyac duyulurdu" [16, s.153]. Məhz buna görə idi ki, C.Beyker səfər zamanı yenicə müstəqillik əldə etmiş Azərbaycanın daxili və xarici siyasəti, iqtisadi islahatlar, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı rəsmi Bakıdan geniş məlumat aldı, ABŞ-ın ölkəmiz ilə gələcək əlaqələrinin mühüm aspektləri müzakirə edildi. Səfərdən geri qayıdan C.Beyker ABŞ hökumətinə Azərbaycan ilə diplomatik əlaqələrin qurulmasını tövsiyə etdi. Məhz buna görə idi ki, Beykerin səfərindən cəmi 5 gün sonra – fevralın 17-də ABŞ dövlət katibinin şəxsi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir Nikolas Sanqoya Bakıya səfər etdi. E.Nəsirov yazır ki, N.Sanqoya Azərbaycanın dövlət katibi Midhəd Abbasovla görüşdü və onlar iki ölkə arasında diplomatik əlaqələrin qurulması, habelə Bakıda ABŞ səfirliyinin açılması məsələlərini müzakirə etdilər [14, s.22].

1992-ci ilin martında hər iki ölkədə səfirliklər açıldı: əvvəlcə Vaşinqton şəhərində Azərbaycan səfirliyi və ardınca Bakıda ABŞ səfirliyi [3, s.2]. H.Paşayev və R.Mayls ilk səfirlər təyin edildilər

[12, s.507]. Azərbaycanın paytaxtında Birləşmiş Ştatlar səfirliyinin açılışı zamanı ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Robert Finn çıxış edərək səfirliyin iki ölkə arasında əlaqələrin inkişafına xidmət edəcəyini vurğuladı [16, s.154]. Bu hadisə artıq Azərbaycan ilə ABŞ arasında nəhayət ki, diplomatik münasibətlərin bərqərar olması demək idi.

Azərbaycan ilə ABŞ arasında ilk diplomatik münasibətlərin qurulduğu dövr ölkəmizin ağır dönəmlərinə – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müharibə mərhələsinə keçid etməsi ilə səciyyələnir. Qarabağdakı münaqişə üzrə Azərbaycan-ABŞ danışıqlarının ilk vaxtından Birləşmiş Ştatlar münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə (ATƏM; 1 yanvar 1995-ci ildən ATƏT) çərçivəsində həllinə tərəfdar çıxdığını bildirdi. Artıq 1992-ci ilin martında münaqişənin həlli üzrə ABŞ-ın da həmsədr olduğu ATƏM-in Minsk qrupu yaradıldı. 1992-ci ilin aprelində ABŞ hökuməti Senatın ATƏM üzrə komissiyasının sədri senator Dennis Dekonsininin rəhbərliyi ilə ABŞ Konqresinin nümayəndə heyətini Bakıya göndərdi. İ.Musa ABŞ rəsmilərinin Azərbaycanı öyrənmək səciyyəli bu səfərini “kəşfiyyat missiyaları” kimi xarakterizə edir [12, s.507]. Ə.Həsənov isə bu səfərlə bağlı yazır: “Sözsüz ki, bütün bu nümayəndə heyətləri Azərbaycanı hərtərəfli öyrənir, bu dövlətə münasibətdə ABŞ-ın gələcək xarici siyasətinin konturlarını müəyyənləşdirir” [9, s.145-146]. Həmin səfərdən qısa müddət sonra – 1992-ci ilin mayında Şuşa və Laçın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu, açıq-aşkar beynəlxalq hüququn əleyhinə, xüsusilə ATƏM-in Helsinki yekun aktına (1975) zidd idi. Buna görə də, mayın 19-da ABŞ Dövlət Departamenti Azərbaycan ərazisinin zor gücü ilə işğalını tanımayacağını bildirən bəyanat verdi. Bu zaman demokratiya və ədalət prinsiplərini əsas tutan ABŞ rəhbərliyi İ.Musanın da qeyd etdiyi kimi, Azərbaycan üçün çox dəyərli olan belə bir məqamı vurğuladı: “ABŞ hər hansı bir ərazinin statusunun zorakılıq əsasında birtərəfli qaydada dəyişdirilməsi ilə razılaşmayacaqdır” [12, s.507]. Vətən və dünya tarixşünaslığında bu fakt birmənalı olaraq ABŞ-ın obyektiv və ədalətli mövqeyi kimi qiymətləndirilir.

1992-ci ilin may-iyununda Azərbaycanda hakimiyyət dəyişikliyi və Ə.Əliyevin (Elçibəy) yeni prezident seçilməsindən sonra ABŞ rəsmi dairələri bir daha böyük geostrateji əhəmiyyətə malik Azərbaycan Respublikası ilə əlaqələri genişləndirməyə, regiondakı ictimai-siyasi və hərbi problemlərə fəal müdaxilə etməyə cəhdlər göstərdilər. Elə bu məqsədlə 1992-ci ilin iyulunda – ATƏM-in Helsinki sammiti ərəfəsində ABŞ prezidenti C.Buş Azərbaycan Prezidentinə məktubla müraciət edərək öz ölkəsinin Azərbaycan ilə bütün sferalarda əlaqələr yaratmağa, münasibətləri inkişaf etdirməyə hazır olduğunu bildirdi. Bu zaman Ağ Evin başçısı Azərbaycan Respublikasının prezidenti Ə.Elçibəyə göndərdiyi təbrik məktubunda yazırdı: “Azərbaycanda demokratiya və azad bazar münasibətləri yaratmaq işinə sədaqətinizi alqışlayıram” [12, s.508]. Lakin, çox təəssüf ki, respublikanın o vaxtkı rəhbərliyi öz əvvəlki sələflərindən irəli gedə bilməyərək ABŞ-ın bu mühüm təşəbbüsünü lazımınca qiymətləndirməyi bacarmadı. Bu hadisəni Ə.Həsənov belə təhlil edir: “Ölkənin siyasi dairələri o zaman belə hesab edirdilər ki, guya Azərbaycanın müstəqil dövlətçilik maraqları və Rusiyanın bu bölgədəki təsirini zəifləmək istəyi ABŞ üçün elə bir həyati əhəmiyyət kəsb edir ki, Azərbaycanın bütün problemlərini ABŞ və Avropa dövlətləri (xüsusilə Türkiyə) özləri həll edəcək. Onlar düşünürdülər ki, Azərbaycan Rusiya ilə hesablaşmamaq və ona qarşı “mübarizə” elan etməklə öz işini bitmiş saymalıdır. Guya qalan bütün məsələlər, o cümlədən Ermənistanın təcavüzü və Dağlıq Qarabağ probleminin həlli ABŞ-ın, Avropa dövlətlərinin və beynəlxalq təşkilatların öz problemi imiş” [9, s.147]. Beləliklə, o zamankı ölkə rəhbərliyinin yürütdüyü qeyri-adekvat xarici siyasət kursu nəticəsində Ermənistanın işğalçı siyasəti özünün ən yüksək səviyyəsinə çatdığı bir dönəmdə keçirilən ATƏM-in Helsinki sammitində ölkəmiz ABŞ kimi fövqəldövlətin dəstəyindən lazımınca yararlana bilmədi. Bu zaman Azərbaycan Helsinki sammitində iştirak etdi, lakin Ə.Həsənovun “Azərbaycan və ATƏT” adlı əsərində yazdığı kimi, işğalçı Ermənistan rəhbərliyinin torpaqlarımıza təcavüzü məsələsini sammitin gündəliyinə salmağa nail ola bilmədi [7, s.12].

***Nəticə.*** Beləliklə, SSRİ-nin dağılmasından sonra müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının dünyanın ən mühüm fövqəldövləti olan Amerika Birləşmiş Ştatları ilə siyasi-diplomatik münasibətləri ölkəmizin müstəqil xarici siyasət kursunun ilk vaxtlarından böyük əhəmiyyət kəsb etmişdir. Eləcə də, dünyada ən mühüm geostrateji möqveyə və zəngin sərvətlərə malik ölkəmiz də müstəqilliyin bərpasının ilk anlarından ABŞ-ın diqqətini cəlb etmiş və bunun nəticəsində 1991-ci ilin sonlarında Birləşmiş Ştatlar rəsmi olaraq müstəqil Azərbaycan Respublikasını tanımışdır. Növbə-

ti ildə Azərbaycan ilə ABŞ arasında ilk diplomatik münasibətlərin qurulması yolunda ilk uğurlu addımlar atılmışdır. Bütün bunlar Vətən tarixşünaslığında müxtəlif tədqiqatçıların əsərlərində elmi-obyektiv prizmada geniş şəkildə öz əksini tapmışdır. Çoxsaylı tədqiqat əsərlərinin müqayisəli təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, müstəqilliyin bərpasının ilk illərində ABŞ ilə siyasi-diplomatik münasibətlərin qurulması ölkəmizin xarici siyasət kursunda kifayət qədər uğurlu hadisə olmasına baxmayaraq, 1993-cü ilin ortalarına qədər Azərbaycan-ABŞ əlaqələri daha çox "anlaşılmaz" xarakter daşımışdır ki, bunu da əksər tarixçilərimiz Azərbaycanda o zamankı ölkə rəhbərliyinin həyata keçirdiyi qeyri-adekvat xarici siyasət xətti ilə əlaqələndirirlər.

ƏDƏBİYYAT

1. Åsbrink B. Rockefeller's Standard Oil gets competition from Nobel - https://www.branobelhistory.com/the-branobel-company/rockefellers-standard-oil-gets-competition-from-nobel/ [02.10.2023].
2. Bəşirova A. Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında ("Nyu York Tayms" qəzetinin materialları əsasında: 1991-2001-ci illər): siyasi e. n. dər. al. üçün təq. ol. dis. Bakı, 2007, 190 s.
3. Blair B. Azerbaijan International: Regional Stability and US Interests. Azerbaijan International, Vol 1-2, 1993.
4. Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, "Avrasya Stratejik Araştırmalar Merkezi", 2001, 164 s.
5. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013, 412 s.
6. Həmidov H. Xalq Cümhuriyyəti dövründə Azərbaycan-ABŞ münasibətləri. Xalq qəzeti, №115, 26 may 2019.
7. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, "İşıq", 1997, 80 s.
8. Həsənov Ə. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991-avqust 1997). Bakı, "Azərbaycan Universiteti", 1997, 101 s.
9. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998, 315 s.
10. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyaseti kontekstində. Bakı, "Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı", 2001, 152 s.
11. James P. Nichol. Diplomacy in the Former Soviet Republics. Westport, "Praeger", 1995, 256 p.
12. Musa İ. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Bakı Universiteti", 2011, 776 s.
13. Nəsibova Ə. Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər): tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2014, 158 s.
14. Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, "Qanun", 1998, 136 s.
15. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər. Bakı, "Gənclik", 1996, 135 s.
16. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, "Mütərcim", 2015, 640 s.

**БАЛАМИРЗА МАМЕДЛИ**
*Докторант Бакинского Государственного Университета*

## УСТАНОВЛЕНИЕ ПЕРВЫХ ПОЛИТИКО-ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И США В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

Политико-дипломатические отношения между Соединенными Штатами Америки, ставшими единственной в мире сверхдержавой после распада СССР и Азербайджанской Республикой, только что восстановившей свою государственную независимость, имели и продолжают иметь большое значение с самого начала независимого внешнеполитического курса

Азербайджана. США в свою очередь, были заинтересованы в установлении дипломатических отношений с Азербайджаном, который занимает важнейшее геостратегическое положение не только на Южном Кавказе, но и во всем мире и, следовательно, правительство США официально признало независимую Азербайджанскую Республику в конце 1991 года. Вслед за этим были предприняты первые практические шаги в области установления первоначальных политико-дипломатических отношений между Азербайджаном и США. Все эти вопросы нашли широкое отражение в исследованиях многих ученых (М.Гасымлы, А.Гасанов, Э.Насиров, Ф.Исмаилов, И.Муса и др.) отечественной историографии. В статье был проведен сравнительный анализ этих исследовательских работ и историографических материалов, и на основе этого изучено установление первых политико-дипломатических отношений между Азербайджаном и США.

*Ключевые слова:* Азербайджанская Республика, США, восстановление независимости, внешняя политика, первоначальные дипломатические отношения, историография.

**BALAMIRZA MAMMADLI**
*PhD student at Baku State University*

## ESTABLISHMENT OF THE FIRST POLITICAL-DIPLOMATIC RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE UNITED STATES IN DOMESTIC HISTORIOGRAPHY

Political-diplomatic relations between the United States, which has become the world's only superpower after the fall of the Soviet Union, and the Republic of Azerbaijan, which has just regained its state independence, have been and continue to be of great importance since the very beginning of Azerbaijan's independent foreign policy course. The United States, in turn, was interested in establishing diplomatic relations with Azerbaijan, which has the most important geostrategic position not only in the South Caucasus, but also in the whole world and consequently, the United States government officially recognized the independent Republic of Azerbaijan at the end of 1991. Following this, the first practical steps were taken in the field of establishing initial political-diplomatic relations between Azerbaijan and the United States. All these issues have been widely reflected in the research works of many scientists (M.Gasimli, A.Hasanov, E.Nasirov, F.Ismayilov, I. Musa, etc.) in domestic historiography. In the article, a comparative analysis of those research works and historiographical materials was conducted, and on the basis of this, the establishment of the first political-diplomatic relations between Azerbaijan and the United States was studied.

*Keywords:* Republic of Azerbaijan, USA, restoration of independence, foreign policy, initial diplomatic relations, historiography.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 oktyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24)

**SEVİNC ABBASOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**sevinc_1899@icloud.com**

# 1918-1920-Cİ İLLƏR HADİSƏLƏRİNİN QUBA BÖLGƏSİNİN ƏRAZİ VƏ ƏHALİ COĞRAFİYASINA TƏSİRİ

*Məqalədə 1918-1920-ci illərdə Quba bölgəsində siyasi vəziyyət təhlil olunur. AXC-nin qurulması ərəfəsində baş verən siyasi hadisələrin Quba bölgəsinə təsiri haqqında da məlumat verilmişdir. 1918-ci ildə erməni-bolşevik qüvvələrinin Quba ərazisində törətdiyi soyqırımı da burada öz əksini tapmışdır. AXC dövründə bu bölgədə siyasi vəziyyətə diqqət yetirilmişdir. Denikinə qarşı mübarizə, Dağlılar Respublikası ilə ərazi mübahisələri, həmçinin, milli idarəçiliyin burada təsis edilməsi qeyd edilmişdir. AXC-nin bolşevik işğalından sonra süqutu, bolşevik hökumətinin qurulması və ona qarşı Quba bölgəsində olan mübarizədən də bəhs edilmişdir.*

*Açar sözlər*: Quba, Azərbaycan Xalq Cümhuriyyəti, bolşeviklər, ermənilər, soyqırım, siyasi vəziyyət.

***Giriş.*** Azərbaycanın şimal-şərq bölgəsi tarixi-coğrafi mövqeyinə görə mühüm əhəmiyyət malikdir. Hazırda bu ərazi Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən rayonlarını əhatə edir. Burada XVIII-XIX əsrlərdə Quba xanlığı mövcud olmuş, çarizmin işğalından sonra digər xanlıqlar kimi Quba xanlığı da ləğv edilərək qəzaya çevrilmişdir. 1840-cı ildəki inzibatı məhkəmə islahatına görə Quba qəzası Dağıstan dairəsinə daxil edilmişdir. 1846-cı il 14 dekabr tarixli fərmanındakı yeni inzibati-ərazi bölgüsündə Quba qəzası Dərbənd əmirliyinin tərkibinə daxil edilmişdi, lakin 1860-ci ildə Dərbənd quberniyasının ləğvindən sonra Quba qəzası da Bakı quberniyasına daxil edilmiş oldu [7, s.159].

***Cümhuriyyətin yaranması ərəfəsində siyasi vəziyyət.*** 1917-ci ildə baş verən Fevral inqilabı və Oktyabr çevrilişindən sonra yaranmış siyasi vəziyyət sözügedən regiona da təsirsiz ötüşmədi. Belə ki, bolşeviklərin təbliğatının aparıldığı bir məqamda burada Müsəlman Milli Komitəsi də təşkil edilmişdi. Bu komitə yerli əhalinin mühafizəsinin təşkili istiqamətində işlər görmüşdür. 1918-ci ilin martında bolşevik-erməni birləşmələri Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirdikləri soyqırımı Qubada da tətbiq etmişlər. Bakıda hakimiyyəti ələ keçirən S. Şaumyanın rəhbərlik etdiyi bolşeviklər bütün Azərbaycanı nəzarətə götürmək istəyirdilər. Bunun üçün digər ərazilər kimi Qubaya da ermənilərdən ibarət xüsusi dəstələr göndərmişdilər. Bu da səbəbsiz deyildi. Bu zaman Qubada Müsəlman Milli Şurasında təmsil edilənlər üstünlük təşkil edirdi, onlar bolşevik hakimiyyətini qəbul etmirdilər. Buna görə də, S.Şaumyan buraya iki min erməanidən ibarət dəstə göndərmişdi.

Qeyd etmək lazımdır ki, Quba qəzasında baş verən qırğınlar əvvəlcədən planlaşdırılmışdır. Bu məqsədlə ermənilər dünyanın bir çox yerlərinə Qubada ermənilərin müsəlman əhali tərəfindən sıxışdırıldığını, onların milli zəmində erməni və rusları öz yerlərindən qovmasını, evlərini yandırması kimi yalanlarını məqsədli şəkildə yayırdılar. Qubada soyqırımın məqsədli şəkildə törədilməsini göstərən tarixi faktlar bununla bitmir. Belə ki, 1918-ci ilin martın əvəllərində Qubada yaşayan bir sıra varlı ermənilər öz əmlaklarını sataraq bu ərazidən tələsik çıxıb gedirdilər. Bunun səbəbini onlardan soruşan yerli əhaliyə isə "sizinlə bizim aramızda nə isə gözlənilir, ona görə də komitə bizi geri çağırır" deyə cavab vermişdilər [4, s.118].

Qubaya ilk olaraq David Gelovaninin rəhbərliyi ilə dəstələr göndərilmişdi. Erməni təbliğatı nəticəsində yerli ermənilərdən ibarət dəstələr də onlara qoşularaq qırğınlarda aktiv iştirak etmişdilər. Lakin milli qüvvələrin müqaviməti nəticəsində Dağıstandan da könüllü dəstələr köməyə gəlmiş, bununla da erməni-bolşevik dəstələri geri çəkilmək məcburiyyətində qalmışdılar. Buna cavab olaraq Bakı Xalq Komissarları Soveti tərəfindən türk-müsəlman əhaliyə qatı nifrəti ilə seçilən Hamazaspın rəhbərliyi ilə əksər hissəsi ermənilərdən ibarət dəstə göndərilmişdi. Qubada bolşevik hakimiyyətinə boyun əyməyən türk-müsəlman əhalinin müqavimətinə qarşı göndərilmiş Hamazaspın dəstəsi amansızlığına görə "Cəza dəstəsi" adlandırılırdı [8, s.122]. Hamazaspın əmrlərinə müvafiq olaraq, ermənilər qarşısına çıxan bütün evləri və digər mülkləri yandırır, qadın, uşaq, yaşlı olmasına baxmayaraq

əhaliyə amansız divan tuturdu. Arxiv materialları, şahid ifadələrindən məlum olur ki, ermənilər yeniyetmə uşaqların başlarını kəsərək qadınlara uşaqların qanını içirtməyə məcbur etmişdi. Bundan başqa, müsəlmanların inancını təhqir etmək üçün 26 məscidi yandırmışdılar [4, s.122].

Bolşeviklərin himayəsindən istifadə edən ermənilər Qubada soyqırım törətmiş, bununla kifayətlənməyərək əhali arasında milli-etnik zəmində təxribat törətməyə çalışmışdılar. Ermənilər burada yaşayan ləzgi və digər xalqlar arasında nifaq salmağa, sünni-şiə məzhəb ayrılığını qabardaraq əhali arasında qarışqlıq yaratmağa, onları bir-birinə qırdırmağa çalışmışdır. Lakin ermənilərin kütləvi törətdiyi qətllər, əhali içərisində amansız, sözlə ifadə edilə bilməyəcək dərəcədə qəddarlığının şahidi olan insanlar belə təxribatlara uymamış, beləliklə də, ermənilər buna nail ola bilməmişdilər.

Qubada soyqırım törədən ermənilərin çirkin, cinayətkar əməlləri arxiv materiallarında öz əksini tapmışdır. Bu materiallardan bir daha aydın olur ki, erməni-bolşevik birləşmələri əhaliyə qarşı amansız divan tutmuşlar. Qeyd edək ki, Qubada türk-müsəlman əhali ilə yanaşı, yəhudilər də bu soyqırımın qurbanları olmuşdur. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ermənilərin törətdiyi soyqırım nəticəsində üç minə qədər yəhudi həyatını itirmişdir. Son tədqiqatlar nəticəsində soyqırıma məruz qalan 104 nəfər yəhudinin şəxsiyyəti müəyyənləşdirilmişdir. Hamazaspın başçılıq etdiyi dəstə tərəfindən qətlə yetirilən yəhudilər Şimi dərəsinə atılmışdır. Quba bölgəsində həyata keçirilmiş soyqırım nəticəsində 167 kənd dağıdılmışdır [4, s.124].

Təəssüf ki, sovethakimiyyəti illərində rejimin tələblərinə uyğun olaraq, yazılan dərslik və digər tədqiqat əsərlərində bu hadisələr "vətəndaş müharibəsi", "Müsavat üsyanı", "mart qiyamı" kimi qələmə verilmişdir. 1991-ci il müstəqilliyimizin bərpasından sonra aparılan tədqiqatlarda bu soyqırım tarixi qiymətini alaraq obyektiv şəkildə araşdırılmağa başlanmışdır [5, s.16].

Erməni-bolşevik birləşmələrinin 1918-ci ildə xalqımıza qarşı törətdiyi bu soyqırımı 2007-ci ilin aprelində Qubada Qudyalçay ətrafında aşkarlanmış kütləvi məzarlıq bir daha sübut edir. Burada 50 nəfərdən çoxunun uşaq, 100 nəfərdən çoxunun qadın olduğu 400-dən çox insan cəsədi aşkar edilmişdir. Hazırda Qubada bu məzarlığı əhatə edən Quba soyqırım memorial-kompleksi fəaliyyət göstərir [1, s.25].

AXC qurulduqdan sonra 1918-ci ildə baş verən soyqırımı araşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Fövqaladə Təhqiqat Komissiyası soyqırımda iştirak edən insanlara qarşı cinayət işi başlatmış, cinayətkarlar, şahid ifadələrini özündə əks etdirən mühüm faktlardan ibarətdir. Quba soyqırımı ilə bağlı faktlar da digər bölgələrimizdə baş vermiş soyqırımlar kimi Fövqaladə Təhqiqat Komissiyasının 3 cildlik, 451 səhifəlik toplusunda cəmləşmiş materiallarda öz əksini tapmışdır. Fövqəladə Təhqiqat Komissiyasının sənədləri ermənilərin Cənubi Qafqazda, o cümlədən Quba qəzasında törətdiyi vəhşilikləri ifşa edir [1, s.4].

***AXC dövründə siyasi vəziyyət.*** Erməni-bolşevik birləşmələri "Müsavat"ın sosial bazasını zəifləmək üçün soyqırım törətsə də, qırğınlara, təxribatlara əl atsa da, məqsədinə nail ola bilmədi. 1918-ci il mayın 28-də Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Bundan sonra suverenliyin bütün Azərbaycanda bərpası istiqamətində işlər görülməyə başlandı. Belə bir zamanda milli qüvvələr öz güclərini bərpa edərək bolşevik-daşnak birləşmələrinə qarşı mübarizə göstərirdilər. Bu işdə Qafqaz İslam Ordusu köməyə gəldi. Belə ki, Qafqaz İslam Ordusunun Bakını azad etmək üçün mühasirəyə alması Bakı ilə Qubanın əlaqəsinin kəsilməsinə səbəb oldu. Bunun nəticəsində də Qubada olan bolşevik-erməni birləşmələri Bakı XKS-dən lazımi hərbi dəstəyi ala bilmədi. Qubanın düşmən qüvvələrdən təmizlənməsində Qafqaz İslam Ordusunun Dağıstanda apardığı əməliyyatlar da müsbət təsir göstərmişdir. Beləliklə, 1918-ci il avqustun əvvəllərində Quba bölgəsi tamamilə düşmən qüvvələrdən azad edildi. Bundan sonra bu bölgədə milli strukturların qurulmasına başlandı. Bu zaman türk ordusunun zabitlərinin bir hissəsi asayişi təmin etmək, hər hansı hücumun qarşsını almaq üçün Quba qəzasında yerləşdirilmişdi [7, s.162].

Quba işğalçılardan qurtulandan sonra burada vəziyyət stabilləşdi, yerli özünüidarə orqanları yaradıldı. Şəhər özünüidarəsinin rəhbəri Əliabbas Əlibəyov, şəhər komissarı isə İsmayıl Rzayev seçildi. Bundan əlavə Quba bölgəsindən 3 nümayəndə AXC parlamentinin üzvü olmuşdur, onlardan biri Quba şəhərindən, ikisi isə qəzadan idi: Ə. Zizikski, M.B. Axundzadə və Q.Ə. Məhəmmədbəyov. Fətəli Xan Xoyskinin qardaşı oğlu Əmiraslan Xan Xoyski Quba qəzasının rəisi təyin olunmuşdu [6, s.113].

AXC dövründə Quba qəzası ilə bağlı Dağlılar Respublikası ilə müəyən mübahisələr yaranmışdır. Belə ki, Dağlı Respublikasının hərbi qüvvələri Yalama dəmiryolu stansiyasına hücum etmiş, Azərbaycan ordusu tərəfindən bu təxribatın qarşısı alınmışdır. Yaranmış ərazi mübahisələri Dağlılar Respublikasının Xarici İşlər naziri Heydər Bammatovun rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda keçirdiyi görüş zamanı həll edildi. Belə ki, razılaşmaya əsasən, ərazi mübahisələrinin həllində bölgənin əhalisinin azad iradəsi əsasında müəyyənləşdirilməsi qərara alındı. Nəticədə Quba Müsəlman Şurası bu bölgənin Azərbaycanın tərkib hissəsi olduğunu bildirdi [6, s.113].

1919-cu ildə Şimali Qafqazda hərbi-siyasi vəziyyət gərginləşdi. Denikin qüvvələrinin Dağıstana hücumları Quba bölgəsi üçün də təhlükə yaratmış oldu. Hökumət tərəfindən Denikin təhlükəsinə qarşı müəyyən tədbirlər görüldü. 1919-cu il iyunun 19-da şimal sərhədlərinin möhkəmləndirilməsi məqsədilə Xaçmaz dəstəsi yaradıldı. Bakı qarnizonunun rəisi general Usubov Xaçmaz dəstəsinin rəisi təyin edilmişdi. Bundan başqa, Quba və Bakı qəzalarında könüllü dəstələri yaradılmağa başlandı. 1919-cu ilin aprelində AXC parlamenti tərəfindən könüllü dəstələrin yaradılması ilə bağlı komissiya təşkil edilmiş və əhaliyə müraciət edilmişdi. Yerli əhali bu çağırışa müsbət cavab vermiş və beləliklə, könüllü dəstələri formalaşdırılmışdı [7, s.161].

***AXC-nin süqutundan sonra Qubada bolşeviklərə qarşı üsyan.*** 1920-ci il aprelin 27-də bolşeviklərin XI Qırmızı Ordusu Azərbaycanı işğal etdi və 23 ay mövcud olan AXC-nin varlığına son qoydu. Quba qəzasında yerləşən milli ordu qüvvələri də XI Qırmızı Ordunun 20-ci diviziyasına tabe etdirildi. Bolşevik işğalından sonra Qubada yeni bir ictimai-siyasi vəziyyət formalaşdı. Bölgənin sürətlə sovetləşdirilməsinə başlandı. Cümhuriyyət dövründə yaradılmış bütün hakimiyyət strukturlarının ləğv edilərək inqilab komitə təşkil edildi. Azərbaycan Kommunist (bolşevik) Partiyasının Quba qəzası komitəsi yaradıldı, onun sədri F. Abbasov idi [3, s.79].

Cümhuriyyətin süqutundan sonra işğalçılara qarşı Azərbaycanın bir çox yerlərində çıxışlar olmuşdur. Belə ki, əhali sovet rejiminə qarşı müxtəlif forma və vasitələrlə müqavimət göstərirdi: vergiləri verməkdən yayınır, XI Qırmızı Ordu hissələrini ərzaq və başqa məhsullarla təchiz etməkdən imtina olunur, yerli seçki orqanlarına öz adamlarını keçirməyə çalışır, itaətsizlik göstərilirdi və s. Bəzi ərazilərdə müqavimət hərəkatı açıq şəkildə silahlı çıxışlarla nəticələnirdi.

Bolşevik əleyhinə ən böyük çıxışlardan biri də Quba ərazisində baş vermişdir. Quba qəzasının müxtəlif kəndlərində ayrı-ayrı çıxışlar olmuşdur. Onlar içərisində Qusarın Kuzun və ona yaxın kəndləri, Rustov və Dəvəçi nahiyələri aktivliyinə görə fərqlənmişdir. Kuzun kənd sakini Möhübəli əfəndinin rəhbərlik etdiyi çıxışlar sovet tarixşünaslığında Kuzun hadisələri kimi öz əksini tapmışdır. Kuzundakı müqavimətlə bağlı bolşevik hökumət dairələrinə göndərilmiş rəsmi hesabatda Kuzundakı hərəkatın rəhbərləri arasında türk zabitləri və Şıxlarskinin də iştirak etdiyi qeyd edilmişdir. Həmçinin, rəsmi məlumatlardan aydın olur ki, bu hadisələrlə paralel olaraq digər qonşu kənd və nahiyələrdə çoxlu sayda qaçaq dəstələri də bolşevik rejimi əleyhinə aktiv fəaliyyət göstərmişlər. Lakin Kuzundakı üsyan yatırılmışdır [2, s.62-63].

Bu üsyan Azərbaycanın digər ərazilərində üsyanların şiddətlənməsinə və müqavimətin aktiv fazaya keçməsinə müsbət təsir göstərmişdir. Kuzundan sonra Dəvəçi və Rustovda bolşeviklərə qarşı silahlı müqavimətlər genişlənmişdir. Buna əsas səbəblərdən biri də AXC dövründə bölgədən millət vəkili olmuş Həmdulla Əfəndininin inqilab komitəsi tərəfindən həbs edilməsinə cəhd olmuşdur. Rəsmi hesabatlardan aydın olur ki, Həmdulla Əfəndi yerli əhali arasında böyük nüfuza sahib olmuşdur və o, yerli əhali tərəfindən gizlədilmişdir [2, s.63].

1920-ci ilin sentyabrında Həmdulla Əfəndi və tərəfdarları ilə bolşeviklər arasında silahlı toqquşmalar olmuşdur. Onu 1928-ci ildə həbs etməyə nail olmuşdular, 1929-cu ildə SSRİ MİK-in Rəyasət Heyətinin qərarı ilə güllələnmişdir [3, s.127].

Quba qəzasında bolşevik rejimi qurulandan sonra baş vermiş çıxışlarda keçmiş qəza rəisi Əlibəy Zizikski, nüfuzlu şəxslərdən Mayıl Zayirov da aktiv iştirak etmişdir. Mayılın təşkilatçılığı ilə Çiçi, eləcə də Söhüb kəndlərində böyük çıxışlar baş vermişdir. Bütün Azərbaycanda olduğu kimi, Quba qəzasında da sovet hökumətinə qarşı üsyanarəhbərlik edənləri ələ keçirmək üçün onların yaxınları müxtəlif təqib və təzyiqlərə məruz qalırdılar. Mayıl Zayirovun oğlu İbrahim də bu məqsədlə Quba həbsxanasına salınmışdır [2, s.64].

Qeyd edək ki, Quba bölgəsində baş verən üsyanlar bolşevik rejimini ciddi narahat etmişdir. Təsadüfi deyil ki, qəzadakı çıxışları yatırmaq üçün yerli əhaliyə müraciətlər edilmişdir. Belə müraciətlərdən biri də 1920-ci il sentyabrın 5-də Quba inqilab komitəsi üzvlərinin Dəvəçidə ictimaiyyətin iştirakı ilə iclas keçirilməsini misal göstərmək olar. Bu iclas və müraciətlərdə mübarizəyə qalxmış sakinlərə tabe olmaqları tövsiyə edilirdi. Bununla yanaşı, sovet hökuməti əhalinin müqavimətini qırmaq, silahlı çıxışların qarşısını almaq üçün bütün vasitələrdən istifadə etmişdir. Görülən tədbirlərdən biri də Quba qəzasına əlavə hərbi qüvvələrin gətirilməsi olmuşdur. Belə ki, AK(b)P MK-nın plenumunda Quba qəzasında baş verən üsyanların tamamilə dayandırılması ilə bağlı qərar qəbul edilmişdir. Ə.H.Qarayev, L.D.Qoqoberidze, H.Ə.Həmidov, H.Ağaverdiyev və digər hökumət nümayəndələri Qubaya gələrək vəziyyətlə tanış olmuş, nəticədə Qubaya 5 mindən çox sovet ordusun üzvü cəlb edilmişdir. Rəsmi sənədlərdən məlum olur ki, Qubada üsyançı dəstələrə qarşı 10 minədək əsgər iştirak etmişdir. Bu bir daha Quba qəzasında aprel işğalından sonra üsyanların daha geniş olduğunu, heç də sovet ədəbiyyatlarında göstərildiyi kimi, əhalinin bolşevikləri gül-çiçəklə qarşılamadıqlarını bir daha sübut etmiş olur [2, s.67].

AXC bolşeviklər tərəfindən işğal ediləndən sonra Azərbaycanın bir çox bölgələrində də üsyanlar baş qaldırmışdı. Quba qəzasının keçmiş rəhbəri Əmiraslan Xan Xoyski Gəncədə sovet-bolşevik işğalçılarına qarşı qaldırılmış üsyanın əsas təşkilatçılarından biri olaraq fəaliyyət göstərmişdir [9]. Bolşevik rejiminə qarşı həm Qubada, həm də Azərbaycanın digər ərazilərində baş verən üsyanlar sovet rəhbərliyi tərəfindən qəddarlıqla yatırılmış, üsyançılar ciddi və sərt şəkildə cəzalandırılmışdır. Bu üsyanlar məğlub olsalar da, xalqımızın mübarizəsinin bariz nümunəsi kimi mühüm əhəmiyyət kəsb edir.

***Nəticə.*** Quba ərazisi Azərbaycanın şimal-şərq hissəsində özünəməxsus yer tutaraq, həm çar Rusiyası zamanı, həm AXC dövründə, həm də bolşevik rejimi zamanı özünəməxsus yer tutmuşdur. Azərbaycanın "şimal qapısı" kimi mühüm tarixi-coğrafi mövqeyi ilə seçilmişdir. Cümhuriyyət dövründə bu ərazinin inkişafına xüsusi diqqət yetirilmişdir. Quba qəzası və ətraf ərazilər ictimai-siyasi baxımdan aktiv olması ilə seçilmişdir. Cümhuriyyətin işğalından sonra baş verən hadisələr də bunu aydın şəkildə göstərir.

## ƏDƏBİYYAT


1. Abışov V. Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı, "Elm", 2017, 96 s.
2. Bayramova R. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Quba bölgəsində sovet rejimi əleyhinə çıxışlar // AMEA Tarix İnstitutu elmi əsərlər, 2010, cild 34-35, s.59-73
3. Bayramova Rəxşəndə. Azərbaycanın Quba bölgəsi tarixin dönüş mərhələsində (1917-1920-ci illər) Bakı, "Turxan", 2018, 236 s.
4. İsgəndərli A. C. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı, "Elm və təhsil", 2012, 228 s.
5. İsgəndərli A. C. 1918-ci il mart soyqırımının tarixşünaslığı. Bakı, "Mütərcim", 1997, 184 s.
6. İsmayılova K. Cümhuriyyət dövründə Azərbaycanın şimal-şərq bölgəsində siyasi vəziyyət (1918-1920-ci illər). AMEA Naxçıvan bölməsinin xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2016, №3 s.111-118
7. Həsənli N. Q. Quba rayonunun tarixi-coğrafi mövqeyi // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. 2020 - № 56, s.159-162.
8. Рустамова-Тогиди С. А. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Bakı, 2009, 863 s.
9. Ömərov V. Azərbaycan SSR-də bolşevik rejiminə qarşı silahlı üsyanlar (1920-1930-cu illər) "Səs" 2012, 28 noyabr, s.11. - http://www.anl.az/down/meqale/ses/2012/noyabr/279933.htm [29.09.2023].

**СЕВИНДЖ АББАСОВА**
*Докторант Бакинского Государственного Университета*

## ВЛИЯНИЕ СОБЫТИЙ 1918-1920 ГОДОВ НА ГЕОГРАФИЮ ТЕРРИТОРИИ И НАСЕЛЕНИЯ ГУБИНСКОГО КРАЕ

В статье анализируется политическая ситуация в Губинском крае в 1918-1920 годах. Также была представлена информация о влиянии политических событий, произошедших накануне создания АДР, на Губинский регион. Здесь же отразился геноцид, совершенный армяно-большевистскими силами в 1918 году на территории губи. Во времена АДР основное внимание уделялось политической ситуации в этом регионе. Отмечались борьба с Деникиным, территориальные споры с Горской республикой, а также учреждение здесь Национального управления. Также упоминалось о падении АДР после большевистской оккупации, установлении большевистского правительства и борьбе против него в Губинском районе.

*Ключевые слова:* Губа, Азербайджанская Демократическая Республика, большевики, армяне, геноцид, политическая ситуация.

**SEVİNJ ABBASOVA**
*Doctoral student of Baku State University*

## THE IMPACT OF THE EVENTS OF 1918-1920 ON THE GEOGRAPHY OF THE TERRITORY AND POPULATION OF THE GUBA REGION

The article analyzes the political situation in the Guba region in 1918-1920. It was also informed about the impact of political events on the Guba region on the eve of the establishment of the ADR. The genocide committed by Armenian-Bolshevik forces in Guba in 1918 was also reflected here. During the period of the ADR, attention was paid to the political situation in this region. The fight against Denikin, territorial disputes with the mountainous republic, as well as the establishment of national governance were noted here. The collapse of the ADR after the Bolshevik occupation, the establishment of the Bolshevik government and the struggle against it in the Guba region were also mentioned.

*Keywords:* Guba, Azerbaijan Democratic Republic, bolsheviks, armenians, genocide, political situation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Qasımova, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24); UOT 930:314**

**ŞƏFAYƏT FƏRƏCOV**
*t.ü.f.d., Bakı Dövlət Universiteti Tarix fakültəsinin*
*Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində*
*"Dünya Azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-nin aparıcı elmi işçisi*
**shefayetnuvedi@list.ru**

# XIX ƏSRDƏ ŞİMALİ AZƏRBAYCAN ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ (SİYAHIYAALMALAR ƏSASINDA)

*Məqalədə XIX əsrdə Şimai Azərbaycan ərazisində keçirilən siyahıyaalmalar əsasında əhalinin demoqrafik vəziyyəti, ölkəmiz ərazisində aparılan siyahıyaalmalarda rus işğalı nəticəsində ərazilərimizdə baş verən miqrasiya prosesləri, Rusiya hökmranlığı dövründə Azərbaycana köçürülüb gətirilən ermənilərin və digər əcnəbilərin sayı, bu köçmələrin sayəsində etnosiyasi və etnodemoqrafik vəziyyətin əsaslı dəyişməsi, bu dəyişmələrin nəticəsində etnik ərazilərin, əhalinin etnik tərkibinin dəyişdirilməsi problemi elmi araşdırılır.*

*Açar sözlər*:əhali, inzibati-ərazi bölgüsü, milli, qəza, dairə, bələdiyyə, qəsəbə, kənd, şəhər, inzibati mərkəz, əhalinin siyahıyaalınması.

***Giriş.*** 1813-cü il oktyabr ayının 12-də İranla Rusiya arasında bağlanan Gülüstan sülh müqaviləsinə əsasən tarixdə ilk dəfə Şimali Azərbaycanda yerləşən 8 xanlığın ərazisi Rusiya İmperiyası ərazisinə rəsmən daxil edildi. Əslində bu xanlıqların əraziləri 1804-1813-cü illər ərzində Rusiya tərəfindən işğal olunmuşdur. 1804-1813-cü illər ərzində bağlanan müqavilələrə əsasən Rusiya İmperiyası əyalətləri statusunu alan xanlıqların ərazilərində dərhal Azərbaycanda ilk dəfə əhalinin siyahıyaalınması başladı. I Pyotrun dövründən Azərbaycanı ilhaq edib onun təbii sərvətlərinə sahib durmaq siyasətini həyata keçirən Rusiya çarizmi əyalətlərdə əhali və mülki sərvətlərin kameral qeydiyyatına dərhal başladı. İlk qeydiyyat nəticəsində 8 xanlıq ərazisində yaşayan əhali və mülki sərvətlər haqda məlumatlar meydana gəldi. Siyahıyaalmanın dərhal aparılmsının əsas məqsədi o idi ki, Rusiya xəzinəsinə veriləcək verginin dəqiq miqdarı və vergi ödəyən əhalinin sayı öyrənilsin. Aparılan bu əməliyyatlar onunla nəticələndi ki, siyahıyaalmalar zamanı yerli xanlar, bəylər, ağalar sıxışdırılaraq aradan çıxarıldı. İmtiyazları əlindən alınmış, sıxışdırılmış yerli bəylər, xanlar və varlılar məcbur olub digər ərazilərə, İrana və Tükiyəyə köçdülər.

***Gəncə şəhəri və onun mahallarının 2 mart 1804-cü ilə aid qısa kameral təsviri***. 1804-cü il yanvarın 3 də Çar Rusiyasının qoşunları Gəncə xanlığını işğal etdikdən sonra Gəncə şəhəri çar I Aleksandrın arvadı Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırıldı. Xanlıq üsul-idarəsi ləğv edilərək Yelizavetpol dairəsi yaradıldı. 1840-cı il 10 aprel islahatı nəticəsində dairə qəzaya çevrildi. Yelizavetpol qəzası Gürcü-İmereti quberniyasının tərkibinə verildi. Qəza Yelizavetapol, Qazax, Şəmşədil və Ayrım məntəqələrinə bölünərək ərazidə qəza idarə sistemi təşkil olundu.

**Cədvəl 1.**

**Gəncə şəhəri və onun mahallarının 2 mart 1804-cü ilə aid qısa kameral təsviri**

| Kəndlərin adı | Evlərin sayı | Canlıların sayı | | | | | əmlak | |
|---|---|---|---|---|---|---|---|---|
| | | kişi | qadın | at | Buynuzlu mal-qara | qoyun | Bağlar | əkin sahələri |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Gəncə şəhəri.kəndlər | 213 | | | | | | | |
| 1.Kəlis kənd | 792 | 257 | 590 | 44 | 89 | 27 | 186 | ---- |
| 2.Çelambirt | 15 | 215 | 156 | 15 | 45 | --- | 5 | ---- |
| 3. İyirmi dörd | 28 | 130 | 100 | 18 | 3 | 34 | 9 | ---- |
| 4.Noraşen Mahalında: | 74 | 125 | 121 | 9 | 6 | ---- | 68 | ---- |
| 1.Boyan | 51 | 100 | 80 | 10 | 45 | 100 | 15 | 20 |
| 2. Quşçu | 8 | 30 | 23 | 7 | 40 | ---- | ---- | 25 |
| 3. Seyid kənd | 8 | 26 | 21 | 3 | 14 | ---- | ---- | 12 |
| 4. Təstiexça | 8 | 26 | 22 | 3 | 11 | 10 | ---- | 9 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 5. Covdar | 9 | 25 | 21 | 4 | 20 | 50 | ---- | 15 |
| 6.Zəqlik | 40 | 100 | 57 | 30 | 120 | 150 | ---- | 20 |
| 7.Barsum | 29 | 65 | 66 | 4 | 65 | 50 | 15 | 15 |
| 8. Barsum | 9 | 19 | 17 | 2 | 13 | ---- | 3 | 8 |
| 9. İmirzin | 13 | 28 | 17 | ---- | 18 | ---- | ---- | 15 |
| 10. Sonqrabad | 12 | 23 | 16 | 1 | 16 | ---- | 1 | 10 |
| 11. Qurut | 5 | 8 | 7 | ---- | 2 | ---- | ---- | 1 |
| 12. Qapanlu | 16 | 29 | 26 | | | | | |
| 13. Çamait | 60 | 100 | 70 | 7 | 60 | 70 | ---- | 20 |
| 14. Əbləh | 16 | 32 | 26 | 3 | 20 | ---- | ---- | 20 |
| 15. Qara keşiş | 7 | 15 | 10 | ---- | 10 | 50 | ---- | 10 |
| 16. Dulus | 12 | 25 | 20 | ---- | 2 | ---- | ---- | 4 |
| 17.Suluk. | 14 | 26 | 14 | ---- | 5 | ---- | ---- | 10 |
| 18 Qaçikənd. | 10 | 20 | 20 | ---- | 1 | ---- | ---- | 2 |
| 19.Qədis | 6 | 12 | 10 | ---- | 4 | ---- | ---- | 8 |
| 20. Köşk | 7 | 10 | 7 | ---- | 4 | ---- | ---- | 8 |
| Forştatda (bayır şəhərdə); şəhər alınandan oradan 2000 tatar (azərbaycanlı, E.B) ailəsi müxtəlif yerlərə getdi | 615 | 1189 | 1168 | 2 | 4 | ---- | 92 | ---- |

**Mənbə:** 1, s.151-152.

Çar Rusiyası ərazisində 1846-cı il 14 dekabr tarixli inzibati-ərazi bülgüsündən sonra Yelizavetpol qəzası yeni yaradılmış Tiflis quberniyasının tərkibinə daxil edildi. İmperiya ərazisində aparılan yeni inzibati-ərazi bölgüsündə Çar II Aleksandrın 1867-ci il 9 dekabr tarixli fərmanı ilə Yelizavetpol (Gəncə) quberniyası yaradıldı. Yelizavetpol şəhəri eyniadlı quberniyanın mərkəzi oldu. Quberniyanın ərazisi keçmiş Gəncə, Qarabağ, Şəki xanlıqlarının və Samux və Şəmşədil mahallarının ərazilərini əhatə edirdi. Quberniyanın tərkibinə Yelizavetpol, Şuşa və Nuxa qəzaları və ləğv edilmiş Ordubad qəzasının bir hissəsi daxil edildi. Yeni Qazax və Zəngəzur qəzaları yaradıldı. 1873-cü ildı Yelizavetpol quberniyasının tərkibində Ərəş, Cəbrayıl və Cavanşir qəzaları təşkil olundu.

1893-cü ilin məlumatına əsasən quberniya ərazisində yeni icmalar yaradıldı. Yeni icmaların yaradılmasının əsas səbəbi vergi yığmaq işinin asanlaşdırmaq və əhalinin sayının dəqiqləşdirilməsi üçün dağınıq halda yerləşən azsaylı əhalisi olan kənd və obaların vahid bir icmada birləşdirilməsi idi. Birləşdirilmiş icmalar: Vandam icması 917 ev, Vartaşen icmsı 891 ev, Nic icması 816 ev, Xılxına icması 811 ev, Baş Göynük icması 725 ev, Xınzirək icması 613 ev, Goran icması 584 ev, Qutqaşen icması 584 ev və Tağlar icması 525 ev (6).

10 fevral 1828 ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra Rusiya İmperiyası ərazisinə tam ilhaq olan Azərbaycanın digər əraziləri olan İrəvan və Naxçıvan xanlıqlarındada eyni hal baş verdi. Siyahıyaalmaları həyata keçirən rus məmurları erməni köməkçilərinin fəal köməyi nəticəsində rəqəmləri istədikləri kimi qeydə alır, alınan nəticəəri qəsdən azaldır, köçəri-maldar azərbaycanlıları qeydə almır, dağlıq yerlərdə yaşayan əhalini yollar çətin olduğuna görə qeydə almırdılar. Ruslar əsasən Bakı, İrəvan, Yelisavetpol Dərbənd və digər iri yaşayış məskənlərində siyahıyaalmalar həyata keçirirdilər. Siyahıyaalmaların nəticələrinə görə ölkə əhalisinin tam əksəriyyəti azərbaycanlılardı. İstər 1897-ci ildə keçirilən siyahıyaalma, istərsədə ondan əvvəlki siyahıyaalmalar haqda azərbaycanlılar tərəfindən verilən şikyətlər məhkəmələr tərəfindən barmaqarası baxılırdı və onların əlehinə qərarlar verilirdi. Onuda qeyd etmək lazımdr ki, bu siyahıyalmalarda bir dənə də olsun aərbaycanlı şəxs kiçik vəzifədə belə iştirak etmirdi.

***1823-cü ildə Azərbaycanda keçirilən siyahıyaalma.*** 1823-ci ildə Azərbaycanda əhalinin demoqrafik vəziyyətini bildirən tarixi sənəd Semyon Bronevskinin rəhbərliyi altında Cənubi Qafqazda ilk dəfə olarq nisbətən geniş əhalinin siyahıyaalması olmuşdur. Siyahıyaalmanın nəticələri Semyon Bronevskinin 1823-cu ildə Moskvada çapdan çıxan 352 səhifəlik, iki hissədən ibarət, «Семён Броневкий. Новейшия Географическия и историческия известия о Кавкзе. (Москва, 1823)» adlı əsərində çap olunmuşdur. Müəllif 57-ci səhifəsində yazır ki, Qafqazın heç yerində bu günə qədər

əhali və həyət (tüstü) haqda dəqiq məlumat verilməmişdi. Biz çalışırdıq ki, əhali və həyətlər barədə məlumatları müxtəlif mənbələrdən, istər şifahi, istərsədə yazılı surətdə, mötəbər mənbələrdən alaq. Bu mənbələr əsasında əhalinin və həyətlərin sayı barədə cədvəllər tərtib edək.

Göstərilən mənbədə Azrbaycan vilayətlərində əhalinin, həyətlərin və ailələrin sayı verilən statistik məlumatda Azərbaycanın bütün əyalətləri təsvir olunmasa da Şirvan və Araz və Kürarası əyalətlərimiz haqda məlumat verilmişdir. Şirvan vilayətində yaşayan əhalinin ümumi sayı 279 820 nəfər, həyətlərin sayı isə 55964-dür. Araz-Kürarası vilayətlrində yaşayan əhalinin ümumi sayı 210 000 nəfər, həyətlərin sayı 42 000-dir. Müəllif qeyd edir ki, hər ailənin tərkibini Qafqaz xalqlarının mentalitetinə uyğun olaraq 5 nəfərdən hesablamışıq. Avropa standartına uyğun isə hər ailənin tərkibini 4 nəfərdən hesablanır**.**

**Cədvəl 2.**

**Yelizavetpol Quberniyası üzrə əhalinin yerləşməsi və etnik tərkibi**

| Elizavetpol quberniyasının qəzaları | Əhalinin üumi sayı | Azrbaycanlılar (nəfər, %) | Ermənilər (nəfər, %) | Azərbaycanlı imtiyazlı əhali | Erməni imtiyazlı əhali |
|---|---|---|---|---|---|
| Elizavetpol qzası və Elizavetpol şəhəri | 162.788 | 103.970 (63,7%) | 43.040 (26,4%) | 2831 | 518 |
| Araş qəzası və Ağdam | 67.277 | 47.133(70,3%) | 13.822(20.6%) | --- | ---- |
| Cəbrayıl qəzası və Cəbrayıl | 66.360 | 49.189(74.5%) | 15.746(23.8%) | ---- | ---- |
| Cavanşir qəzası və Tərtər | 72.719 | 52.041(71.3%) | 19.551(26.7%) | ---- | ----- |
| Zəngəzur qəzası və Gorus | 137.871 | 71.216(52.3%) | 63.622(46.4%) | 4911 | 904 |
| Qazax qəzası və Qazax | 112.074 | 64.101(57.2%) | 43.555(38.8%) | ---- | ---- |
| Nuxa qəzası və Nuxa | 170.555 | 83.578(69.1%) | 18.899(15.6%) | ------ | ------ |
| Şuşa qəzası və Şuşa | 138.771 | 62.868(45.3%) | 73.953(53.1%) | 5033 | 1987 |
| Bütünlüklə | 878.415 | 534.086(60.8%) | 229.188(26.1%) | ------ | |

**Mənbə**: 3, s.67.

**Cədvəl 3.**

**İrəvan Quberniyası üzrə əhalinin yerləşməsi və etnik tərkibi**

| İrəvan quberniyasının qəzaları | Əhalinin üumi sayı | Azrbaycanlılar (nəfər, %) | Ermənilər (nəfər, %) | Azərbaycanlı imtiyazlı əhali | Erməni imtiyazlı əhali |
|---|---|---|---|---|---|
| İrəvan qzası və İrəvan şəhəri | 150.879 | 77.516 (51.37%) | 58.148 (38.54%) | 1501 | 306 |
| Aleksandropol qəzası və Aleksandropol şəhəri | 165.503 | 8.104(4.77%) | 141.522(85.5%) | 114 | 99 |
| Naxçıvan qəzası Naxçıvan və Ordubad şəhəri | 100.771 | 64.151(63.7%) | 34.672(34.4%) | 1267 | 67 |
| Novobəyazit qəzası və Novobəyazit şəhəri | 122.573 | 34.726(28.3%) | 81.285(66.3%) | 155 | 32 |
| Sürməli qəzası və İqdır şəhəri | 89.055 | 41.424(46.5%) | 27.075(30.4%) | 558 | 16 |
| Şərur-Dərələyəz qəzası və Baş Noraşen kəndi | 76.538 | 51.564(67.4%) | 20.726(27.8%) | 1262 | 29 |
| Eçmiadzin qəzası və Vaqarşabat kəndi | 124.237 | 36.008(29%) | 77.572(62.4%) | 1.011 | 49 |
| Quberniya üzrə cəmi | 829.556 | 313.493(37.8%) | 441.000(53.1%) | 5.868 | 618 |

**Mənbə:** 3, s.73.

Kameral təsvirlərin əhali haqqındakı məlumatları çar hökumət orqanlarını qane etmədiyi üçün 1873-cü ildən sonra Qafqazda kameral təsvirlərin keçirilməsi dayandırıldı. Dövlət Şurasının 24 fev-

ral 1886-cı il tarixli qərarı ilə kameral təsvirlər ailə siyahıları ilə əvəz edildi. Yeni qaydalara əsasən, əhali şəhərli, kəndli və gəlmə kateqoriyalarına bölünməklə onların hər birinin sayı vergi ödəmə qabiliyyəti, etnik, dini və sosial tərkibi haqqında ətraflı məlumatların verilməsi nəzərdə tutulurdu. Dövlət Şurasının həmin qərarına əsasən, 1886-cı ildə Dərbənd şəhərində də əhalinin ailə siyahıları üzrə sayımı keçirilmişdir. Bu sayım materialları iki dəfə – 1890 və 1893-cü illərdə Tiflisdə nəşr edilmişdir.

1886-cı ildə Dərbənddə 1.561 rus, 29 polyak, 13 alman, 56 gürcünün yaşaması faktı çarizmin xristianlaşdırma, ruslaşdırma siyasətindən xəbər verirdi. 1897-ci ildə Ümumrusiya siyahıyaalınmasının materialları Dərbənd şəhəri əhalisinin tərkibində yeni dəyişikliklərin üzə çıxdığını nümayiş etdirir. Maraqlıdır ki, 1886-cı illə müqayisədə 1897-ci ildə Dərbənddə azərbaycanlıların sayı 773 nəfər artdığı halda, ermənilərin sayı 254, yəhudilərin sayı 387, rusların sayı isə 469 nəfər azalmışdır. Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, 1886-cı ildə Dərbənddə qeydə alınmış 1.169 nəfər tatar və avar əhalisi 1897-ci il sayım materiallarında qeyd edilmir. Bununla bağlı tarixi ədəbiyyatlarda da heç bir məlumat verilməmişdir.

***1849-cu il siyahıyaalınması.*** 1849-cu ildə yaradılan İrəvan quberniyasının əhalisinə dair məlumatlarda da azərbaycanlı əhalinin sayının ermənilərdən çox olduğunun şahidi oluruq. İrəvan şəhərində 1873-cü ildə 5.805 nəfər azərbaycanlı, 5.959 nəfər erməni, 1886-cı ildə 7.228 nəfər azərbaycanlı, 7.142 nəfər erməni, 1897-ci ildə 12.516 nəfər azərbaycanlı, 12.529 nəfər erməni, 1917-ci ildə 12.557 nəfər azərbaycanlı, 37.204 nəfər erməni yaşayırdı. 1886-cı ilə aid materiallarda Yelizavetpol quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 149-u azərbaycanlı (45,7%), 91-i kürd (27,9%), 81 erməni (24,8%) kəndi kimi göstərilmişdir (8).

N.Şavrov «Zaqafqaziyada rus işinə təhlükə» kitabında 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 mindən, Türkiyədən 84 mindən çox erməni köçürüldüyünü, onların ermənilərin az olduğu Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirildiyini göstərir. O, Qafqazda yaşayan 1.300.000 ermənidən bir milyonun gəlmə olduğunu göstərir. N.Şavrov Cənubi Qafqazda 1896-cı ildə 900.000, 1908-ci ildə 1.300.000 nəfər erməni yaşadığını, köçürmə nəticəsində onların sayının 400.000 nəfər çoxaldığını bildirərək etiraf edir ki, "...Buradan da aydın olur ki, biz 13 ildə 300.000 mindən çox erməni köçürmüşük». Sonra müəllif qeyd edir ki, "İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyonu diyarın yerli əhalisi deyil, gəlmələrdir" (7, s.59-61).

Lakin I Ümumrusiya siyahıyaalma materiallarından Qafqazda ümumilikdə 1.161.909 nəfər erməninin yaşadığını görürük. Bu faktlar Rusiya imperiyasının Qafqazı xristianlaşdırma siyasətini, ermənilərin Qafqaza gəlmə olduqlarını təsdiq edir.

H.Y.Verdiyeva 1831-1833-cü illər kameral siyahıyaalmasına əsaslanaraq quberniyadakı ermənilərin sayının 81.610 nəfər, 1873-cü ildə isə 221.191 nəfər olduğunu göstərir. Tədqiqatçı, erməni əhalisinin sayının 3 dəfə artmasını mexaniki hərəkətlə, daha dəqiq isə Krım (1853-1856) və Rusiya-Osmanlı müharibələri (1877-1878) ilə, XX əsrin əvvəlinə aid artımı isə I dünya müharibəsi ilə əlaqələndirir (2, s.137).

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda ermənilərin sayı kəskin şəkildə artdı. 1853-1856-cı illər Krım müharibəsi, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi bu prosesə ciddi surətdə təsir etdi. Belə ki, 1873-cü il göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 nəfər erməni qeydə alınmışdır. Halbuki, 40 il ərzində, yəni 1828-cildən sonra, həmin ərazidə onların sayı cəmi 81.610 nəfər təşkil etmişdir. Belə çıxır ki, ermənilərin sayı 3 dəfədən artıq çoxalmışdır. Ermənilərin sayca artmasına onların regiona köçürülməsinin davam etdirilməsi də ciddi şəkildə təsir göstərmişdir. Artıq 1886-cı ildə İrəvan quberniyasında ermənilərin sayı 375.700 nəfərə çatmışdır. H.Verdiyeva haqlı olaraq hesab edir ki, regionda erməni əhalisinin sayca çoxalması təbii artımla deyil, miqrasiya ilə bağlı olmuşdur. Tədqiqatçı İrəvan quberniyasında ermənilərin artım dinamikasını arxiv sənədləri əsasında araşdıraraq 1897-ci ildə buradakı ermənilərin sayının 439.926 nəfərə, 1916-cı ildə isə, bu rəqəmin 669.871 nəfərə çatdığını göstərmişdir. Şimali Azərbaycan ərazisinə ermənilərlə bərabər rus və almanlar da köçürülmüşdür. Burada ilk rus məskənləri XIX əsrin 30-cu illərinin əvvəllərində yaradıldı. 30-40-cı illərdə Cənubi Qafqazda salınmış 34 rus kəndindən 30-a qədəri Şimali Azərbaycan ərazisində yerləşirdi. Köçürülən 8600 nəfər təriqətçi və bidətçinin də 7000 nəfəri Şimali Azərbaycanda məskunlaşdırılmışdı. Almanların isə, Rusiya imperiyası, o cümlədən Şimali Azərbaycan

ərazisinə köçüb gəlmələri Napoleon Bonapartın Avropada apardığı müharibələrin Almaniyanın iqtisadi həyatına vurduğu ağır zərbə ilə bağlı idi. Təsərrüfatı pozulmuş alman kəndliləri öz yerlərini tərk edərək başqa ərazilərə üz tutmağa başlamışdılar. Şimali Azərbaycan torpaqlarının işğalına başlamış Rusiya imperiyası 1804-cü ilin əvvəlində Gəncə xanlığını ləğv etmiş və yeni inzibati qurum – Yelizavetpol dairəsi yaratmışdı. 1817-ci ildə general Yermolov almanların ilk dəstələrinin Qafqaza gətirilməsinə icazə verdi. 1819-cu ilin yazında Yelizavetpol dairəsində iki alman koloniyası yaradılmışdı: Yelenendorf və Annenfeld. Arxivdə Gəncə dairəsində alman koloniyalarının yaradılması və inkişafı haqqında müxtəlif sənədlər saxlanılır. XIX əsrin ikinci yarısında Azərbaycanda alman koloniyalarının inkişafının ikinci mərhələsi başlayır: iqtisadi inkişaf və çiçəklənmə. Alman kolonistləri əsasən kənd təsərrufatı ilə məşğul olub. Koloniyalarda gedən iqtisadi inkişaf kolonistlərin say dinamikasını yüksələn xəttə aparır və yeni koloniyalar meydana gəlir (2, s.128).

***1897-ci il ümumi siyahıyaalma.*** 1897-ci ildə Rusiya imperiyası əhalisinin ilk ümumi siyahıyaalınması həyata keçirildi. Həmin siyahıyaalınmanın nəticələrinə görə, Dərbənd şəhəri əhalisinin sayı 14.649 nəfər olmuşdur. Dağıstan vilayətinin icmal materiallarına əsasən, 1899-cu ildə şəhərdə əhalinin sayı 17.836 nəfərə çatmışdır. Dağıstan vilayətinin 1901-ci ilə aid yaddaş kitabçası və ünvan təqvimində verilmiş materiallar göstərir ki, həmin ildə Dərbənddə rus ordusunda xidmət edən 590 kişi və 120 qadın əsgər də daxil olmaqla 18.546 nəfər yaşayırdı.

1897-ci il Ümumrusiya siyahıyaalma materillarına görə, əhali Dərbənd şəhərində və şəhər ətrafında olan Aşağı əsgər məhəlləsi, Araboqaqarı bağı, forştat və Sabnova kəndində yaşayırdılar. Onu da qeyd etmək lazımdır ki, Dərbənddə əhalinin məskunlaşmasında etnik və dini prinsipə də riayət olunurdu. Belə ki, şəhərin müsəlman əhalisi 9 mahalda, forştat və Sabnova kəndində, rus, erməni və yəhudi icmaları isə ayrıca mahallarda məskunlaşmışdı. Rusiya imperiyasında əhalinin ümumi siyahıyaalınması haqqında 5 iyun 1895-ci ildə verilmiş «Əsasnamə» ilə 1897-ci il yanvarın 28-də Dərbənddə keçirilmiş sayım materiallarında bütövlükdə olmasa da, Dərbəndin ayrı-ayrı hissələrində yerləşmiş əhalinin sayı haqqında bəzi məlumatlar öz əksini tapmışdır. Belə ki, siyahıyaalma materiallarına görə, Dərbənd şəhərində hər iki cinsdən olan 13.349 nəfər, Aşağı əsgər məhəlləsində 247, Araboqaqarı adlanan hissədə 323, forştatda 452, Sabnova kəndində 278, cəmi 14.649 nəfər əhali qeydə alınmışdı.

1897-ci il materiallarında Zəngəzur qəzasında yaşayan 142 min nəfər əhalisinin 71,2 min nəfərinin azərbaycanlılar, 63,6 min nəfərinin isə ermənilər olduğu göstərilmişdir. Dini tərkib barədə materillarda isə quberniyada 350.099 nəfər müsəlman, 439.926 nəfər erməni-qriqorian və erməni-katolik, 1.032 nəfər iudey, 16.398 nəfər pravoslav və digər konfessiyaların (lüteran, baptist v.s.) nümayəndələrinin yaşadığı göstərilir (5, s.189).

***Nəticə.*** XIX əsrdə keçirilən bütün siyahıyaalmaları və 1897-ci il Ümumrusiya siyahıyaalma materillarını təhlil edərkən belə bir nəticəyə gəlirik ki, Azərbaycan ərazisində erməni və digər xristian əhalinin məskunlaşması kütləvi hal almışdır. Xristian əhalinin sayının artırılması, azərbaycanlıların sayının azaldılması üçün Rusiya imperiyası müxtəlif üsullardan istifadə edirdi. Azərbaycanda yaşayan əhalinin milli mənsubiyyətini yalnız onların özləri üçün qəbul etdiyi ana dilinə görə müəyyən edirik. Bu da öz növbəsində əhali haqda tam dəqiq məlumatlar vermir. Çünki hər bir insan milliyyətindən asılı olmayaraq hər hansı dili özü üçün ana dili qəbul edə bilər. Bununla belə qeyd etmək lazımdır ki, ana dili mülliyyətin müəyyənləşdirilməsinin əsas atributlarından biridir. XIX əsrdə Azərbaycan ərazisində aparılan siyahıyaalmalarda ərazidə yaşayan əhali ana dilinə görə - velikorus, malorus, belorus, alman, polyak, tatar(azərbaycanlı), gürcü, ləzgi, talış, kürd, türk və s. kimi qeydə alınmışlar.

XIX əsrdə aparılan siyahıyaalmalardan məlum olur ki, XIX əsrin ikinci yarısından sonrakı dövrlərdə Cənubi Qafqazda erməni və alman köçkünlərinin sayı daha da artmağa başlayır. Nəticədə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ermənilərin və alman koloniyalarının artması müşahidə olunur.

ƏDƏBİYYAT

1. Elgün Babazadə. Gəncə Xanlığının tarixindən. Bakı, Nurlan, 2012, 230 s.

2. Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, Алтай, 1999, 330 с.

3. Семён Броневкий. Новейшия Географическия и историческия известия о Кавкзе. Москва

1823, 289 с.
4. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Изд. по распоряжению главноначаль- ствующего гражд. частью на Кавказе Завкавк. Стат. ком. Тифлис, 1893 г., s.2.
5. Первая Всеобщая перепись населения Российской империи 1897 года. Т.Т.1-89. СПб: 1903-1905.
6. Gəncənin tarixi. - htps://web/arxchive.orq.http://www.ethno-kavkaz.narod.ru/zakatalyI1897.htmI [28.09.2023].
7. Шавров Н. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцам; Записка генерального консула России и Эрзеруме Маевского. Баку, Элм, 1990, 156 с.
8. Шопен И.Исторический памятник состояния Армянской области, ARDTA,f.24,siy.1, iş.355.

**ШАФАЯТ ФАРАДЖОВ**
*доктор философии по истории,*
*ведущий научный сотрудник НИЛ «Азербайджанцы мира: история-демография»*
*кафедры истории Азербайджана (естественные факультеты)*
*Исторического факультета Бакинского государственного университета*

## ДЕМОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЯ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В XIX ВЕКЕ (ПО ДАННЫМ ПЕРЕПИСИ НАСЕЛЕНИЯ)

Статья посвящена обзору эволюции этно-территориальной структуры Кавказа в связи с миграционными процессами в период русского завоевания. Кавказ является убежищем этносов, ареал расселения которых сформировался в Раннем Средневековье. Расположенный между Передней Азией и Великой степью Кавказ с древних времен испытывал влияние государств соседних регионов. За последние двести лет русского владычества кардинальные этнополитические и этно-демографические изменения значительно повлияли на этно-территориальную динамику и этнический состав населения Кавказа.

*Ключевые слова:* населения, административно-территориальное деление, национальный состав, уезд, округ, муниципалитет, поселка, село, сельский совет, город, городской совет, административный центр, перепись населения.

**SHAFAYAT FARAJOV**
*PhD, Leading researcher of the Scientific Research Laboratory*
*"World Azerbaijanis: history-demography" under the Department of History of Azerbaijan*
*(natural faculties) of the Faculty of History of Baku State University*

## DEMOGRAPHİC SİTUATİON OF THE POPULATİON OF NORTHERN AZERBAİJAN İN THE 19TH CENTURY (BASED ON CENSUSES)

The article is dedicated to the structural changes in the ethnic areas of northern Azerbaijan in the XIX centuries. During this period, the migration processes in our territories as a result of the Russian occupation, the fundamental changes in the ethno-political and ethno-demographic situation due to foreigners resettled in Azerbaijan during the Russian rule, the process of changing ethnic areas, the ethnic composition of the population.

*Keywords:* administrative-territorial division, national, municipality, township, village, village council, the city, the city council, the administrative center.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 sentyabr 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

DÜZƏLİŞ BÖLMƏSİ

**UOT 94(479.24)**

**İLQAR ABDULLAYEV**
*Bakı Dövlət Universiteti*
**TarixVeOnunProblemlery@gmail.com**

# AZƏRBAYCANDA SƏNAYE VƏ NƏQLİYYATIN İNKİŞAFI (1969-1982-ci illər)*

*Məqalədə 1969-1982-ci illərdə Azərbaycanda sənaye və nəqliyyatın ən müxtəlif sahələrində inkişafdan danışılır. Burada göstərilən müddətə qədər respublika iqtisadiyyatında olmuş durğunluq və onu doğuran səbəblərlə yanaşı, 1969-1982-ci illər ərzində ölkəmizdə baş vermiş inkişaf, onun üçün görülmüş tədbirlər, onların rolu və əhəmiyyəti haqqında da ətraflı məlumat verilir.*

*Açar sözlər*: sənaye, nəqliyyat, neft, qaz, istehsal.

***Giriş***. Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçirilən plenumu böyük tarixi hadisə kimi tarixə düşmüşdür. Belə ki, həmin gün Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. Bununla da Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyulmuşdur. Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək respublika iqtisadiyyatını dərin və hərtərəfli təhlil etmiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu müəyyənləşdirmiş və onları aradan qaldırmaq yollarını göstərdi. [1, 174].

Göstərilməlidir ki, aşkar edilən nöqsanlara qarşı dərhal başlanılan qəti və güzəştsiz mübarizə tezliklə öz nəticəsini verməyə başladı. Belə ki, artıq 1976-cı il yanvarın 28-də keçirilmiş Azərbaycan KP-nın XXIX qurultayında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev özünün məruzəsində bildirirdi ki, "yaxın keçmişə qədər Azərbaycan sənayesi uzun müddət bütün texniki-iqtisadi göstəricilərdə İttifaqa aid orta səviyyədən geri qalırdı. Bunun başlıca səbəbləri iqtisadiyyata rəhbərlik səviyyəsinin aşağı olması, respublikada məhsuldar qüvvələrin planlaşdırılmasında və onlardan istifadə edilməsində səhvlərə, qüsurlara və nöqsanlara yol verilməsində idi" [2].

"Azərbaycan SSR xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il 25 iyul tarixli qərarında göstərilmişdi ki, son illər respublikanın iqtisadiyyatı "qeyri-qənaətbəxş bir sürətlə inkişaf etmişdir, bu isə neft və qaz hasilatının azalmasından, maşınqayırma sənayesinin, yüngül sənayenin və yeyinti məhsulları sənayesinin, habelə kənd təsərrüfatının ləng inkişaf etməsindən, kimya sənayesində və əlvan metallurgiyada yeni qurğuların işlədilməsinin yarıtmaz vəziyyətdə olmasından irəli gəlmişdir" [2]. Eyni zamanda bu mühüm sənəddə respublikanın iqtisadiyyatını sürətlə yüksəltmək, nöqsanları aradan qaldırmaq üçün geniş proqram verilmiş, Azərbaycan sənayesinə böyük maddi – texniki yardım göstərmək üçün əməli tədbirlər kompleksi nəzərdə tutlmuşdu".

Göstərilməlidir ki, Azərbaycan Respublikasının rəhbərliyi o vaxtlar mövcud imkanlardan maksimal səvviyyədə bəhrələnərək respublikada sənayenin inkişafında irəliyə doğru doğurdan da çox böyük, inamlı addımlar atdı. Belə ki, elə XXIX qurultayın materiallarında göstərildiyi kimi sənaye istehsalı beş il ərzində (1971-1976) Sov.İKP-nin XXIV qurultayının Direktivlərində nəzərdə tutlan 43-46 faiz əvəzinə, 50 faiz artdı. Burada qeyd etmək yerinə düşərdi ki, ümumiyyətlə götürdükdə Azərbaycan SSR-də sənaye istehsalı o vaxtkı SSRİ respublikaları arasında artım sürətinə görə artıq fərqlənirdi. Belə ki, respublikamızda sənaye istehsalı 1913-cü ilə nisbətən 1940-cı ildə 5,9 dəfə, 1965-ci ildə 24 dəfə, 1970-ci ildə 33 dəfə artmışdırsa, 1975-ci ildə 49, 1976-cı ildə isə 53 dəfə artmışdır [5, 98]. Orta illik artım sürəti 1966-1971-ci illərdəkinə nisbətən 29 faiz artmış və əvvəlki 20 il

* "Tarix və onun problemləri" jurnalının 2023-cü il tarixli 1-ci sayında nəşr edilmiş (s.143-147) eyni adlı məqalənin düzəliş edilmiş təkrar nəşri. *Həmin sayda müəllifin familyası səhvən Heydərov yazılmışdı. – Əsas: Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasının (protokol №10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər" haqda qərarı, 31-ci bənd.*

ərzindəkindən çox olmuşdur. Qeyd etmək yerinə düşərdi ki, respublika iqtisadiyyatına sərmayə qoyuluşunun həcmi 1971-1985-ci illərdə 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi [4, 81]. Neftayırma və Kimya Sənayesi Nazirliyi, Yüngül Sənaye Nazirliyi, Ət və Süd Sənayesi Nazirliyi, Yerli Sənaye Nazirliyi, Əlvan Metallurgiya Birliyi və İttifaq Neft Maşınqayırma Müəssisələri Birliyi, Elektrotexnika Sənayesi Nazirliyinin müəssisələri, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi və başqaları istehsalın həcminin artım sürətinə dair tapşırıqları vaxtından əvvəl yerinə yetirmişlər. Məhsul istehsalı Naxçıvan MSSR-də təqribən iki dəfə, Mingəçevirdə 76%, Gəncədə (Kirovabadda) 68%, Sumqayıtda 56% artmışdır [2].

Əmək məhsuldarlığı 1971-1976-cı illər ərzində 31,1% əvəzinə 34% artmışdır. Sənaye məhsulu buraxılışı artımının təqribən 76%-i təkcə bunun hesabına əldə edilmişdir. 1971-1976-cı illər ərzində əmək məhsuldarlığının orta illik artım sürəti 1965-1970-ci illər ərzində artdığı 4,8% əvəzinə 6,1% artmışdır. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, bütün sənaye istehsalı 1970-ci ildə 1940-cı ilə nisbətən 552%, 1971-ci ildə isə 585% artmışdır [4, 50].

Xalq təsərrüfatı planında nəzərdə tutulduğu kimi, maşınqayırma və metal emalı daha sürətlə inkişaf etmişdir. Burada məhsul istehsalı 1970-ci ildəkinə nisbətən 73%, kimya və neft kimyası sənayesində 72%, yeyinti məhsulları sənayesində 71% artmışdır. Respublika xalq istehlakı malları istehsal edən sahələrin üstün sürətlə artırılmasını təmin etmək kimi mühüm vəzifənin öhdəsindən gəlmişdir. “B” qrupunda istehsal həcmi 1971-1976-cı illər ərzində 51% artmışdır ki, bu da plan tapşırıqlarında nəzərdə tutulduğundan çoxdur. Lakin eyni zamanda, məhsulu respublikada bütün sənaye istehsalının 73,7 %-ni təşkil edən ağır sənayenin üstün mövqeyi saxlanmışdır. Həmçinin qeyd edilməlidir ki, orta hesabla il ərzində “A” qrupunun artım sürəti 1965-1970-ci illər ərzindəkindən 41% çox olmuşdur. Sənaye istehsalının ümumi həcmində maşınqayırmanın ümumi həcmində maşınqayırmanın və metal emalının xüsusi çəkisi 1970-ci ildəki 12,7% əvəzinə təqribən 15%-ə çatdırılmış, həm də müasir sənayenin elektrotexnika kimi perspektivli sahəsində daha böyük irəliləyiş olmuşdur; bu sahədə məhsul buraxılışı 1,7 dəfə artmışdır. Bakı məişət kondisioneri zavodunun işə salınması ilə əlaqədar olaraq elektrotexnika sənayesi istehsalının həcmi təqribən 1,5 dəfə artacaqdır. Respublikada maşınqayırmanın yeni, mütərəqqi sahələri – elektron, radio, sənayesi sahələri, yüngül sənaye və yeyinti məhsulları sənayesi üçün maşınqayırma sahəsi və s. sahələr yaranmışdır.

Kimya və neft kimyası sənayeində irəliyə doğru yeni addım atılmış və bu sənayenin xüsusi çəkisi 1970-ci ildəki 7,5%-dən 1975-ci ildə 8,4%-ə çatmışdır. Ən mühüm məhsul növlərinin – mineral gübrələrin, plastik kütlələrin, sintetik qatranların, sintetik kauçukun, sulfanolun istehsalı həmin müddətdə 55-90%, sulfat turşusu istehsalı 3 dəfə, məişət kimyası malları istehsalı 2 dəfə artmışdır. Sənayenin strukturunda yeyinti məhsulları sənayesinin payı nəzərə çarpacaq dərəcədə artmış – 1970-ci ildəki 23,2 faizdən 1975-ci ildə 26,4%-ə çatmışdır [2]. Buna iki amil – yeni müəssisələrin işə salınması və Azərbaycanın kolxoz və sovxozlarından kənd təsərrüfatı xammalı alınmasının xeyli artması kimi amillər kömək etmişdir.

Sumqayıt sintetik kauçuk zavodunda, Gəncə (Kirovabad) alümünium zavodunda, Kirov adına Neft və Qazçıxarma İdarəsində, Bakı şin zavodunda və uzun illər planların öhdəsindən gəlməyən digər iri müəssisələrdə də irəliyə doğru inamlı addımlar atılmış, yüksək nəticələr əldə edilmişdir.

Məlumdur ki, neft kimyası və neftayırma sənayesi bilavasitə neft sənayesinin vəziyyətindən asılıdır. 1971-1975-ci illərdə Azərbaycan neftçiləri yeni müvəffəqiyyətlər qazanmışlar. Azərneft birliyi və Xəzər Dəniz Neft Birliyi məhsul satışına dair 1971-1975-ci illər üçün tapşırıqları vaxtından əvvəl ödəmiş, qaz çıxarılması planlarını artıqlaması ilə yerinə yetirmişlər. Qaz çıxarılması 1966-1970-ci illərdəkinə nisbətən təqribən bir dəfə yarım artmışdır. Neft hesabı ilə üst-üstə neft və qaz çıxarılması 1975-ci ildə 27,1 milyon ton olmuşdur ki, bu da respublikada 1941-ci ildəki ən yüksək hasilatdan bir milyon ton çoxdur. Azərneft birliyi üzrə hasilatın azalması sürəti 1966-1970-ci illərdəki 7,2%-ə nisbətən 4,3%-ə enmişdir. Neft sənayesində geoloji-kəşfiyyat işlərinin səmərəsi xeyli artırılmış, 8 yataq, 22 neft və qaz mədəni kəşf edilmişdir. Neftin sənaye ehtiyatlarının artımı 1966-1970-ci illərdəkinə nisbətən üç dəfə, qazın sənaye ehtiyatlarının artımı isə iki dəfə çoxalmışdır. Azərbaycanda milyardıncı ton neft hasil edilmişdir [2].

DÜZƏLİŞ BÖLMƏSİ

Göstərilməlidir ki, 1976-cı ilin yanvarında keçirilmiş XXIX qurultayda 1976-1980-cı illər ərzində neftçilər qarşısında daha mürəkkəb vəzifələrin dayandığı göstərilmişdir. 1980-cı ildə respublikada kondensatla birlikdə 22.150 min ton neft və 11 milyard kubmetr qaz çıxarmaq nəzərdə tutulmuşdu [2].

1971-1975-ci illər ərzində nəqliyyat və rabitənin işinin təkmilləşdirilməsinə və yaxşılaşdırılmasına xüsusilə ciddi fikir verilmişdir. Dəmir yol nəqliyyatının əsas fondları 1966-1970-ci illərdəkinə nisbətən ikiqat artmışdır. Yük dövriyyəsinin ümumi həcmi 28% coxalmışdır. Vaqonların və lokomotivlərin dövriyyəsi xeyli artmışdır. Beş il ərzində Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il 25 iyul tarixli qərarında nəzərdə tutulan 15 obyektin tikintisi və yenidən qurulması başa çatdırılmışdır.

Xəzər Dəniz Gəmiçiliyi İdarəsi 1966-1970-ci illər üçün nəzərdə tutlmuş planı artıqlaması ilə həyata keçirmişdir.

1966-1970-ci illər ərzində xalq təsərrüfatında aviasiyanın tətbiqi 1,8 dəfə artmışdır. Aviatorlar xüsusən kənd təsərrüfatına fəal kömək göstərirlər. İndi hava nəqliyyatı Azərbaycanın şəhər və rayonlarının əksəriyyətini bir-biri ilə, respublikanın paytaxtını isə ölknin ölkənin 50 şəhəri ilə birləşdirir. Lakin həll edilməmiş məsələlər də az deyildir. Lakin 1971-1976-cı illər ərzində aviadaşımalar da xeyli çoxalmışdır. Belə ki, 1960-cı ildə 2073 sərnişin və 47,5 ton yük daşınmışdırsa, 1970-ci ildə 35404 sərnişin, 12 ton poçt və 146 ton yük daşınmışdır. 10 il sonra isə sərnişin daşımalarının sayı 63843 nəfərə, poçt daşınmaları 16,7 tona, yük daşımaları isə 387,3 tona çatdırılmışdır [6, 48].

1971-1975-cı illər ərzində avtomobil nəqliyyatında yük dövriyyəsi və sərnişin daşınması xeyli artmiş, daşımaların maya dəyəri xeyli aşağı salınmışdır. Lakin bu dövr haqqında danışılarkən qeyd edilmişdir ki, bu sahədə ehtiyat imkanları hələ də çoxdur. Belə ki, yük maşınlarının təqribən 40%-i daşımalarda iştirak etmir, boş maşınların yola çıxması halları çoxdur. Azərbaycanda 4700-ə yaxın nəqliyyat təşkilatı vardır. Lakin onların üçdə ikisində avtomobillərin sayı 10-dan azdır. Avtomobil Nəqliyyatı Nazirliyində yük maşınları parkının yalnız 15%-nin cəmləşdirildiyi iriləşdirilmiş müəssisələr respublikada bütün yük dövriyyəsinin üçdə bir hissəsini yerinə yetirir [2]. İxtisaslaşdırılmış iri birliklər, istehsalat avtomobil kombinatları yaratmaq üçün qəti xətt yeritmək zərurətindən dəfələrlə danışılmışdır. Lakin bunun üçün görülən əməli tədbirlər azdır.

Göstərilməlidir ki, növbəti beş il – 1976-1980-cı illər ərzində də sənaye və nəqliyyat sahəsində kifayət qədər böyük nailiyyət qazanılmışdır. Belə ki, 1980-cı il martın 15-də Azərbaycan SSR sənaye istehsalına dair beşillik planın vaxtından əvvəl yerinə yetirilməsi haqqında raport vermişdir. 1976-1980-cı illər ərzində sənaye istehsalının həcmi planda nəzərdə tutulan 39% əvəzinə 47% artmışdır. Bu, o vaxtkı müttəfiq respublikalar arasında ən yüksək artım sürəti olmuşdur [3]. Bütövlükdə 1976-1980-cı illər ərzində sənaye istehsalının ümumi həcmi 40 milyard manata çatmışdır ki, bu da 1971-1976-cı illərdəki göstəricilərdən bir dəfə yarım artıqdır və ya üst-üstə təqribən altıncı, yeddinci və səkkizinci beşilliklərdə olduğu qədərdir [3]. İstehsal həcmlərinin mütləq artımı 3 milyard manat olmuşdur. Bu, bütün 1984-cü il ərzində buraxılmış məhsuldan çoxdur. Respublikanın məcmu ictimai məhsulunda sənayenin xüsusi çəkisi 63,8 faizdən artıb 65,1 faizə çatmışdır. Sənaye sahəsində strateji vəzifənin həyata keçirilməsi – onun strukturunun təkmilləşdirilməsi, sahələrarası və sahədaxili proporsiyaların yaxşılaşması, sənaye istehsalının ümumi həcmində mütərəqqi sahələrin xüsusi çəkisinin artması ardıcıllıqda davam etdirilmişdir. İndi ümumi məhsulun 28%-i mütərəqqi sahələrin payına düşür. 1975-ci ildə isə 24,7%-i və 1970-ci ildə 22,5 %-i düşürdü. Bu sahələrdə istehsalın ümumi həcmi 1976-1980-cı illərdə 11 milyardı ötüb keçmiş, 1971-1976-cı illərdəkinə nisbətən təqribən ikiqat artmışdır [3].

“1976-1980-cı illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsinin nəticələri haqqında” Sov.İKP MK-nın 1976-cı il 27 iyul tarixli qərarının həyata keçirilməsi bu çox mühüm iqtisadi və sosial vəzifənin yerinə yetirilməsində olduqca mühüm rol oynamışdır. Bu qərar elmi-texniki tərəqqi əsasında respublika sənayesinin, bütün iqtisadiyyatının hərtərəfli inkişafının prinsipcə yeni mərhələsinin başlanğıcını qoymuşdur. Orta və kiçik şəhərlərdə və rayonlarda istehsal edilən sənaye məhsulunun xüsusi çəkisi 1976-1980-cı illər ərzində 1,6 dəfə artmış və 1980-cı ildə 33,2% olmuşdur [3].

1976-1980-cı illər ərzində respublikada xalq istehlakı malları istehsal edən sahələrinin üstün inkişafı nəticəsində “B” qrupu üzrə artım sürəti 58,6% təşkil edərək plan tapşırıqlarını ötüb keçmiş-

dır. Mütləq artım bir milyard manata çatmışdır ki, bu da üst-üstə yeddinci və səkkizinci beşilliklərdəkindən təqribən 1,7 dəfə çoxdur. Kütləvi tələbat olan məmulatın istehsalı on il ərzində 2,4 dəfə artmışdır. İstehlak mallarının 10 mindən çox yeni növ və modellərinin buraxılışı təşkil edilmişdir.

Bütün yetmişinci illər ərzində sənaye istehsalı yüksək sürətlə inkişaf etmişdir. 1970-ci ildə 1940-cı illə müqayisədə bütün sənaye istehsalı 106%, o cümlədən istehsal məhsulları istehsalı ("A" qrupu) 106%, istehlak məhsulları istehsalı ("B" qrupu) da öz növbəsində 106% artmışdır [4]. Bütövlükdə 1971-1976-cı və 1976-1980-cı illər ərzində ərzində sənaye istehsalı 2,2 dəfə artmışdır. 1980-cı ildə sənaye məhsulunun ümumi istehsalı 9,4 milyard manatlıq olmuşdur. 1970-ci ildən əvvəlki 50 il ərzində isə 4 milyard manat səviyyəsində idi. 1971-1980-cı illər ərzində 1945-ci ildən 1970-ci ilədək olan bütün dövrdəkindən 1,3 dəfə çox məhsul buraxılmışdır. Sənaye məhsulunun orta illik artım sürəti 8,2% olmuşdur ki, bu da əvvəlki on illiyə (1961-1970) nisbətən 19% çoxdur. İndi sənayenin əsas istehsal fondları 8,3 milyard manat təşkil edir ki, bu da 1969-cu ildəkindən təqribən ikiqat artıqdır [3]. On il ərzində respublika müəssisələrində 3500 növ, o çümlədən SSRİ-də ilk dəfə olaraq təqribən 400 növ yeni maşın avadanlıq, cihaz, material və başqa məmulat yaradılmış və istehsal edilməyə başlanmışdır. Texniki tərəqqinin bütün istiqamətləri üzrə 52 min tədbir tətbiq edilmişdir ki, bunların da illik iqtisadi səmərəsi 500 milyon manatdan artıqdır.

Məlumdur ki, sənayenin inkişafının ən mühüm göstəricilərindən biri əmək məhsuldarlığının yüksəldilməsidir. Ümumiyyətlə, 1971-1980-cı illər ərzində əmək məhsuldarlığı 1,7 dəfə artmış və məhsul artımının 75%-i, 1980-cı ildə isə ilk dəfə olaraq 81%-i bu amil hesabına əldə edilmişdir. İndi bir milyon manatlıq məhsul istehsal etmək üçün 1975-ci ildəki 55 nəfər və 1970-ci ildəki 75 nəfər əvəzinə 43 nəfər işçi tələb olunur. Başqa sözlərlə deyilərsə, on il ərzində 300 min adamın əməyinə qənaət edilmşdir ki, bu da respublikanın 1965-ci ildəki bütün sənaye-istehsal işçilərinin sayına bərabərdir. Respublikanın bütün müəssisələrinin təqribən üçdə bir hissəsi əmək məhsuldarlığının yüksəldilməsinə dair 1976-1980-cı illərə dair tapşırıqların öhdəsindən gəlmişdir.

1976-1980-cı illər ərzində maşınqayırmada istehsalın həcmi tapşırıqda nəzərdə tutulan 1,8% əvəzinə 2 dəfə artmışdır. Respublikada sənaye istehsalının ümumi həcmində sahənin xüsusi çəkisi 1970- ci ildəki 11% əvəzinə 16,1% -ə çatmışdır. 1100-dən çox yeni növ maşın, aqreqat, avadanlıq, aparat, cihaz və məmulat buraxılışı qaydaya salınmışdır [3].

1976-1980-cı illərdə nəqliyyatın da inkişafında bir sıra nailiyyətlər əldə edilmişdir. Xalq təsərrüfatının bütün yük dövriyyəsinin 60%-dən çoxu dəmir yolu nəqliyyatının payına düşür və nəqliyyatın bu növü yük dövriyyəsini 5% artırmışdır. Elektrikləşdirilmiş xətlərin uzunluğu 1,1 dəfə artmışdır və indi onların xüsusi çəkisi 60%-ə yaxınlaşır. Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin donanmasının üçdə biri təzələnmişdir. Avtomobillərin sayı 25% artdığı halda, onlarla yük daşınması 54% artmışdır. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması 1,3 dəfə artmışdır [3]. Azərbaycanı ölkənin başqa şəhərləri ilə 60-dan artıq aviasiya xətti birləşdirir ki, bu da on il bundan əvvəl olduğundan iki dəfə çoxdur [3].

***Nəticə***. Göründüyü kimi 1969-1982-cı illərdə Azərbaycan SSR-də istər sənaye, istərsə də nəqliyyat sahəsində kifayət qədər böyük irəliləyiş olmuş, ölkəmiz ümumiyyətlə götürdükdə nəzərə çarpacaq müvəffəqiyyətlər əldə etmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 s.
2. Azərbaycan KP-nın XXIX qurultayına Azərbaycan KP MK-nın hesabat məruzəsi. H.Əliyevin məruzəsi / "Kommunist" qəzeti, 29 Yanvar 1976-cı il.
3. Azərbaycan KP-nin XXX qurultayının materialları. H.Əliyevin məruzəsi / "Kommunist" qəzeti, 29 Yanvar 1981-ci il.
4. Народное хозяйство Азербайджанской ССР к 50-летию СССР. Юбилейный статистический ежегодник. Баку, 1972, 179 с.
5. СССР в цифрах в 1976 году. М., «Статистика», 1977, 128 с.
6. В небе Азербайджана. Баку, Азербайджанское Государственное Издательство, 1983, 81 с.

DÜZƏLİŞ BÖLMƏSİ

**ИЛЬГАР АБДУЛЛАЕВ**
*Бакинский Государственный Университет*

## РАЗВИТИЕ ПРОМЫШЛЕННОСТИ И ТРАНСПОРТА В АЗЕРБАЙДЖАНЕ (в 1969-1982 гг.)

Данная статья посвящена проблеме развития разных областей промышленности и транспорта в период с 1969 по 1982 гг. Статья, наряду с подробным анализом застоя в экономике республики, наблюдавшегося до указанного периода, причин, вызвавших его, содержит также и подробную информацию о развитии, которое наблюдалось в 1969-1982 гг. принятых для этого мерах, их роли и значении.

*Ключевые слова*: промышленность, транспорт, нефть, газ, производство.

**ILGAR ABDULLAYEV**
*Baku State University*

## THE DEVELOPMENT OF İNDUSTRY AND TRANSPORT İN AZERBAİJAN (1969-1982 YEARS)

In this article about the development in defferent fields of industry and transport during 1969-1982 years is spoken. Besides the stagnation including its causes existed in the economy of the republic up to the period of time stated above, and also the development that took place during 1969-1982 years, the measurements taken for it, their role and importance have thoroughly been mentioned in this article.

*Keywords*: industry, transport, oil, gas, production.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr  Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"  barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала "История и ее проблемы":***
**TarixVeOnunProblemleri@gmail.com**

**Requirements for scientific publications**

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the “Used literature” section 10.2-10.4.6 of the current instruction on the “Rules for writing dissertations” of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

| | |
|---|---|
| *Çapa hazırlayanlar:* | *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov* |
| *Tərcüməçi radaktorlar:* | *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova* |
| *Web-redaktor:* | *Bağırov Elşad Altay oğlu* |

**Yığılmağa verilmişdir: 02.10.2023. Çapa imzalanmışdır: 05.10.2023.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**